# القرآن الكريم

# QUR'ANİ-KƏRİM
# VƏ
# MƏALI

بسم الله الرحمن الرحيم

**DİYANƏT İŞLƏRİ BAŞQANLIĞI NƏŞRLƏRİ /**
**DİYANET İŞLERİ BAŞKANLIĞI YAYINLARI : 1194**
**MƏNBƏ ƏSƏRLƏR / KAYNAK ESERLER : 120**

**BAŞ MƏSLƏHƏTÇİ / GENEL KOORDİNATÖR**
PROF. DR. HURİYE MARTI

**NƏŞRİYYAT DİREKTORU / YAYIN YÖNETMENİ**
DOÇ. DR. FATİH KURT

**MƏSLƏHƏTÇİ / KOORDİNASYON**
YUNUS YÜKSEL

**MƏALI HAZIRLAYAN / MEALİ HAZIRLAYAN**
DOS. HALİL ALTUNTAŞ
DR. MUZAFFER ŞAHİN

**AZƏRBAYCAN TÜRKCƏSİNƏ TƏRCÜMƏ EDƏN**
DR. KÖVSƏR TAĞIYEV

**ELMİ REDAKTOR / İLMİ KOORDİNASYON**
PROF. DR. KAMİL GÜNEŞ

**NƏŞRİN REDAKTORU / REDAKTOR**
DOS. MÜBARİZ CAMALOV

ISBN 978-975-19-6475-5
2020-06-Y-0003-1194
SERTİFİKAT N / SERTİFİKA NO: 12930

ƏSƏR TƏDQİQAT KOMİSSİYASININ QƏRARI / ESER İNCELEME KOMİSYON KARARI:

2-Cİ NƏŞR / 2. BASKI

**DİZAYN / TASARIM**
MEHMET ALİ KIRCA
UĞUR ALTUNTOP

**NƏŞRİYYAT / BASKI**
TDV
YAYIN MATBAACILIK TİC. İŞLETMESİ
(+90 312) 354 91 31

© DİYANƏT İŞLƏRİ BAŞQANLIĞI / DİYANET İŞLERİ BAŞKANLIĞI

**ƏLAQƏ / İLETİŞİM**
DİNİ NƏŞRLƏR BAŞ İDARƏSİ / DİNİ YAYINLAR GENEL MÜDÜRLÜĞÜ
YABANCI DİL VE LEHÇELERDE YAYINLAR DAİRE BAŞKANLIĞI
TELEFON: (+90 312) 295 72 81 • FAKS: (+90 312) 284 72 88
E-POÇT: YABANCIDILLER@DIYANET.GOV.TR

KUR'AN-I KERİM AZERBAYCAN DİLİNDE MEALİ

القرآن الكريم

# QURANİ-KƏRİM VƏ MƏALI

DİYANƏT İŞLƏRİ BAŞQANLIĞI

# 1. FATİHƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. Yeddi ayədən ibarətdir. Qur`ani-Kərimin ilk surəsi olduğu üçün "başlanğıc" mənasına gələn Fatihə adlandırılmışdır. Surənin bundan başqa Ümmül-Kitab (Kitabın özü), əs-Səb`ul-Məsani (Təkrarlanan yeddi ayə)[1], əl-Əsas, əl-Vafiyə, əl-Kafiyə, əl-Kənz, əş-Şifa, əş-Şükr və əs-Səlat[2] kimi başqa adları da var.

Qur`anın ehtiva etdiyi əsaslar xülasə olaraq Fatihədə var. Belə ki, tərif və ucaldılmağa layiq bir tək Allahın varlığı, Onun hakimiyyəti, tək məbud olması, qulluğun yalnız Ona edilib yalnız Ondan yardım istəniləcəyi bu surədə xülasə şəklində ifadə edilir.

Fatihə surəsi eyni zamanda başdan sona bənzərsiz gözəllikdə bir dua, bir yalvarışdır.

1. Bismilləhir-Rahmənir-Rahim.[3]

2, 3, 4. Həmd[4] Aləmlərin Rəbbi[5], Rəhman[6], Rəhim[7], haqq-hesab və cəza gününün (axirət gününün) maliki Allaha məxsusdur.

5. (Allahım!) Yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım diləyirik.

6, 7. Bizi doğru yola; nemət verdiklərinin yoluna yönəlt, qəzəbə uğrayanların və azanların yoluna yox.

---

1 "Təkrarlanan yeddi ayə" ilə əlaqəli olaraq baxın: Hicr, 15/ 87.

2 Səlat namaz deməkdir. Həzrət Peyğəmbər namazda oxunması baxımından Fatihə surəsinin əhəmiyyətini vurğulamaq üçün "Heç bir namaz Fatihəsiz tam olmaz" buyurmuşdur. Namaz ilə sanki eyniləşən Fatihə surəsinə bu baxımdan "səlat" (namaz) adı verilmişdir.

3 Bəsmələ Nəml surəsində müstəqil bir ayə olaraq yer almaqla birlikdə (27/30) Tövbə surəsindən başqa Qur`anın hər surəsinin əvvəlində də gəlir. Fatihə surəsinin əvvəlindəki bəsmələ bir görüşə görə surənin birinci ayəsi sayılmayıb, son ayə iki ayə olaraq qəbul edilir. "Rəhman və Rəhim olan Allahın adı ilə" şəklində tərcümə edə biləcəyimiz bəsmələni əsl ifadəsi ilə oxuyub o şəkildə qorumaq münasib olar. Çünki bəsmələ eynilə azan və salam kimi bütün müsəlmanlar arasında ortaq bir mesaj xüsusiyyəti daşıyır.

4 Həmd bütün varlıqlara nemət verən sonsuz qüdrət sahibi Allahı ucaltma ifadəsidir. Həmd edən insan Allahın məhz ona nemət verməsi baxımından deyil, bütün insanlara nemət verməsi baxımından Ona həmd edər. Bu baxımdan müəyyən bir nemət bir insana çatsa da, çatmasa da, o insan Allaha həmd edər. Allahdan başqa mütləq mənada nemət verən heç bir varlıq olmadığı üçün həmdə layiq yeganə varlıq da Allahdır.

5 Rəbb "Varlıqları yaradan, bütün ehtiyaclarını rəf edərək onları mərhələ-mərhələ inkişaf etdirib kamilliyə çatdıran Allah" deməkdir.

6 Rəhman "rəhməti çox", "çox mərhəmətli", "sonsuz mərhəmətli" mənalarına gələn, yalnız Allah üçün istifadə olunan ismi-sifətdir. Rəhman kəlməsinin ifadə etdiyi rəhmət mömin-kafir, yaxşı-pis hər kəsi əhatə edir. Bütün məxluqat bu rəhmət və mərhəmətin nişanəsi olaraq yaradılmış və varlıqlarını da yenə bu sayədə davam etdirirlər.

7 Rəhim kəlməsi də Rəhman kimi Allah-Təalanın sifətlərindən biridir. Eyni şəkildə "rəhməti çox", "çox mərhəmətli", "sonsuz mərhəmətli" mənalarını daşıyır. Ancaq Rəhman adı Allah-Təalaya məxsus bir ismi-sifət olduğu halda, Rəhim adı insanlar üçün də istifadə edilə bilər. Necə ki, Tövbə surəsinin 128-ci ayəsində bu sifət həzrət Peyğəmbər üçün də istifadə olunmuşdur.

# 2. BƏQƏRƏ SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. Qur`ani-Kərimin ən uzun surəsi olub 286 ayədən ibarətdir. Surənin adı 67-73-cü ayələrdə keçən "bəqərə (inək)" kəlməsindən götürülmüşdür. Bu surə İslam hüququnun əsas mövzuları ilə əlaqəli çox sayda hökm ehtiva edir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Əlif Ləm Mim.[1]
2. Bu, özü haqqında şübhə olmayan kitabdır. Allaha qarşı gəlməkdən çəkinənlər üçün yol göstəricidir.
3. Onlar qeybə[2] inanır, namazı doğru-düzgün qılır, ruzi olaraq onlara verdiyimizdən də Allah yolunda xərcləyirlər.
4. Onlar sənə endirilənə də, səndən əvvəl endirilənlərə də inanırlar. Axirətə də tam yəqinliklə inanırlar.
5. Məhz onlar Rəblərindən (gələn) doğru bir yoldadırlar və qurtuluşa nail olanlar da məhz onlardır.
6. Küfrə batıb qalanlara gəlincə, onları xəbərdar etsən də, etməsən də, onlar üçün birdir, inanmazlar.[3]
7. Allah onların qəlblərini və qulaqlarını möhürləmişdir. Gözləri üzərində də bir pərdə var. Onlar üçün böyük bir əzab var.
8. İnsanlardan inanmadıqları halda "Allaha və axirət gününə inandıq" deyənlər də var.
9. Bunlar Allahı və möminləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadırlar və fərqində deyillər.
10. Qəlblərində münafiqlikdən qaynaqlanan bir xəstəlik var. Allah da onların xəstəliklərini artırmışdır. Söylədikləri yalana görə də onlara ağrılı-acılı bir əzab var.
11. Bunlara: "Yer üzündə fəsad törətməyin", – deyildikdə, "Biz ancaq islah edənlərik", – deyərlər.
12. Yaxşı bilin ki, onlar məhz fəsadçılardır. Lakin fərqində deyillər.

---

1 Qur`ani-Kərimdə iyirmi doqquz surənin əvvəlində gələn bu kimi hərflərə "Hürufi-müqəttəə" və ya "Müqəttəat" (Ərəb əlifbasındakı adları ilə tək-tək oxunan hərflər) deyilir. Mənalarını dəqiq bilmədiyimiz bu hərflər haqqında təfsir alimləri müxtəlif görüşlər bildirmişlər. Bunlar arasında bu hərfləri hansı surənin əvvəlində gəlirsə, o surənin adı olduğu ya da Allah-Təala ilə həzrət Peyğəmbər arasında bir şifrə olduğu yönündəki görüşlər üstünlük təşkil etmişdir.

2 Qeyb lüğətdə görmə hissi ilə idrak edilə bilməyən şey deməkdir. Qeyb kəlməsi "hissiyyatın əhatə dairəsinə girməyən gizli hər şey" mənasında istifadə olunur. Bir şeyin "qeyb" olması Allaha görə deyil, insanlara görədir. Çünki Allahın elminin xaricində qalan heç bir şey yoxdur. Allaha, mələklərə, axirət gününə, cənnətə və cəhənnəmə, qədərə inanmaq "qeybə iman" mövzularındandır.

3 Burada nəzərdə tutulan kəslər dünyada kafir olaraq yaşayıb sonda axirətə də kafir olaraq köçəcəyi Allah tərəfindən bilinən inkarçılardır.

13. Onlara: “İnsanların inandıqları kimi siz də inanın”, – deyildikdə isə: “Biz də ağılsızlar kimi imanmı edək?” – deyərlər.[1] Yaxşı bilin ki, əsl ağılsızlar məhz özləridir, lakin bilməzlər.

14. İman edənlərlə qarşılaşdıqları zaman “İnandıq”, – deyərlər. Lakin şeytanları ilə (münafiq dostları ilə) təkbətək qaldıqları zaman “Şübhəsiz ki, biz sizinləyik. Biz ancaq onlara istehza edirik”, – deyərlər.

15. Əslində Allah onlara istehza edər (istehza etdikləri üçün onları cəzalandırar); azğınlıqları içində çırpınıb durarkən onlara möhlət verər.

16. Onlar hidayətin müqabilində sapqınlığı satın almış kəslərdir. Buna görə də alış-verişləri onlara qazanc gətirməmiş və (nəticədə) doğru yolu tapa bilməmişlər.

17. Onların halı (gecə vaxtı) ocaq qalayan kəsin halına bənzəyir: od ətrafını işıqlandırdığı əsnada Allah işıqlarını yox edər və onları görə bilməyəcəkləri bir halda qaranlıqlar içərisində tərk edər.

18. Onlar kardırlar (həqiqətləri eşitməzlər), laldırlar (həqiqətləri danışmazlar), kordurlar (həqiqətləri görməzlər). Daha (haqqa) dönməzlər.

19. Yaxud da onların halı qaranlıqlar içində göy gurultusu və şimşəklə birlikdə göydən yağan leysan yağışına tutulmuş kəslərin halı kimidir. İldırım səslərindən ölüm qorxusu ilə barmaqlarını qulaqlarına tıxayarlar. Halbuki Allah kafirləri hər tərəfdən əhatə etmişdir.

20. Şimşək az qalır ki, onların gözlərinin işığını alsın. Hər dəfə onların önlərini işıqlandıranda işığında yeriyirlər. Elə ki, qaranlıq çökür, dayanıb qalırlar. Allah istəsəydi, onların eşitmə və görmə duyğularını əllərindən alardı. Şübhəsiz ki, Allah hər şeyə haqqı ilə gücü yetəndir.

21. Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaradan Rəbbinizə ibadət edin ki, Allaha qarşı gəlməkdən çəkinəsiniz.

22. O, yeri sizin üçün döşək, göyü də tavan edən, göydən su endirib onunla sizə ruzi olaraq müxtəlif məhsullar çıxarandır. Elə isə siz də bilə-bilə Allaha şəriklər qoşmayın.

23. Əgər qulumuza (Muhammədə) endirdiyimiz (Qur`an) barəsində şübhədəsinizsə, buyurun, onun bənzəri bir surə gətirin və əgər doğru söyləyənlərsinizsə, Allahdan başqa şahidlərinizi çağırın (və bunu isbat edin).

24. Əgər edə bilməsəniz, (ki, heç vaxt edə bilməyəcəksiniz) o halda yanacağı insanlarla daşlar olan oddan özünüzü qoruyun. O od kafirlər üçün hazırlanmışdır.[2]

---

1 Ayənin bu hissəsi: “Onlara: “İnsanların inandıqları kimi siz də inanın”, – deyildikdə isə: “Biz, ağılsızların iman etdiyi kimimi iman edək?” – deyərlər” şəklində də tərcümə edilə bilər.

2 Müşriklər Qur`anın Allah kəlamı olduğunu inkar edir, onu həzrət Muhammədə bir adamın yazdırdığını, onun şeir olduğunu deyirdilər. Allah da onları bu iddialarını isbat etməyə çağıraraq: “Madam ki, Qur`an Allah kəlamı deyil, bəşər sözüdür, o zaman siz də onun kimi bir kitab (İsra, 17/18), surələri kimi on surə (Hud, 11/13), bir surə (Yunus, 10/38), heç olmasa onun kimi bir söz (Tur, 52/34) gətirin” - deyirdi. Bu təkliflərin yer aldığı ayələrə təfsir elmində təhəddi/meydan oxuma ayələri deyilir.

Bu ayədə və 25-ci ayədə müşriklərə bunu əsla bacara bilməyəcəkləri açıq şəkildə bildirilir və inkar etməyə davam etsələr, cəzalarının cəhənnəm olacağı barəsində xəbərdarlıq edilir.

25. İman edib saleh işlər görənləri müjdələ ki, onlar üçün içindən çaylar axan cənnətlər var. Cənnətlərin meyvələrindən hər dəfə onlara ruzi veriləndə: "Bu, (eynilə) daha öncə (dünyada ikən) bizə verilən ruzidir!" – deyəcəklər. Halbuki bu ruzi onlara (dünyadakına) bənzər olaraq verilmişdir. Onlar üçün orada tərtəmiz zövcələr də var. Onlar orada əbədi qalacaqlar.

26. Allah bir ağcaqanadı, ondan daha da ötə bir varlığı misal gətirməkdən çəkinməz. İman edənlər onun, Rəblərindən (gələn) bir həqiqət olduğunu bilirlər. Küfrə batıb qalanlar isə: "Allah bu məsəllə nə demək istədi?" – deyərlər. (Allah) onunla (ondan dərs çıxarıb-çıxarmamaları ilə) bir çoxlarını sapdırar, bir çoxlarını da doğru yola yönəldər. Onunla yalnız fasiqləri sapdırar.[1]

27. Onlar Allaha verdikləri sözü əhdləşdirdikdən sonra pozan, Allahın qorunmasını əmr etdiyi əlaqələri (iman, qohumluq, bəşəri və əxlaqi bütün əlaqələri) kəsən və yer üzündə fitnə-fəsad törədən kəslərdir. Bax ziyana uğrayanlar məhz onlardır.

28. Siz cansız (hələ yox) ikən sizi dirildən (dünyaya gətirən) Allahı necə inkar edirsiniz? Sonra sizi öldürəcək, sonra yenə dirildəcəkdir. Ən sonda Ona qaytarılacaqsınız.

29. O, yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra göyə yönəlib onları yeddi göy halında nizamlayandır. O, hər şeyi haqqı ilə biləndir.

30. Bir vaxt Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə yaradacağam", – demişdi. Onlar: "Orada fitnə-fəsad törədəcək, qan tökəcək bir kəsmi yaradacaqsan? Halbuki biz sənə həmd edərək daim səni təsbih və təqdis edirik", – demişdilər. Allah da: "Mən sizin bilmədiyinizi bilirəm", – demişdi.

31. Allah Adəmə bütün varlıqların adlarını öyrətdi. Sonra onları mələklərə göstərərək: "Əgər doğru söyləyənlərsinizsə, buyurun, mənə bunların adlarını bildirin!" – dedi.

32. Mələklər: "Səni bütün nöqsanlardan uzaq tuturuq. Sənin bizə öyrətdiklərindən başqa bizim heç bir elmimiz yoxdur. Şübhəsiz ki, hər şeyi haqqı ilə bilən, hər şeyi hikmətlə edən sənsən!" – dedilər.

33. Allah belə dedi: "Ey Adəm! Onlara bunların adlarını de!" Adəm mələklərə onla-

---

1 Fasiq Allaha itaətdən boyun qaçıran kəs deməkdir. Bu kəlmə Qur`ani-Kərimdə "kafir", "günahkar", "yalançı" və "pislik edən" mənalarında istifadə olunmuşdur. Buradakı "fasiq" kəlməsi isə kafir mənasındadır.

Allah öz qullarına həqiqəti görmələri üçün ağıl, iradə və duyğu orqanları kimi nemətlər vermiş, üstəlik Onu tanımaları, əmr və qadağalarını öyrənib tətbiq etmələri üçün peyğəmbərlər və kitablar göndərmişdir. Bəzi insanlar bu ilahi çağırışdan faydalanmışlar, bəziləri isə bunlara qulaq asmamış, inkar yolunu seçmişlər. Öz iradəsi ilə iman və ya inkar, hidayət ya da zəlalət, itaət ya da üsyan yollarından birini seçən insandır. Allah isə bu seçimin nəticəsini yaradır. Qısacası "Allahın sapdırması" sapqınlığı seçən insanın seçimini yaratması deməkdir. Bu yanaşma "Allahın hidayət etməsi" ifadələrinə də aiddir. Yəni hidayəti və doğru yolu seçənlərin bu seçimini Allah yaradır.

İnsanın öz seçiminin nəticəsi olaraq sapması və ya hidayətə çatması ilə Allahın bu seçimi yaradaraq həyata keçirməsi arasındakı bu əlaqə ayənin sonundakı bu ifadədə açıq bir şəkildə görülür: "(Allah) onunla (ondan dərs çıxarıb-çıxarmamaları ilə) bir çoxlarını sapdırar, bir çoxlarını da doğru yola yönəldər". Eyni əlaqə "Onlar yoldan sapdıqda Allah da qəlblərini (doğru yoldan) sapdırdı" (Səff, 61/5) və "Allahın ayələrinə inanmayanları Allah, əlbəttə, doğru yola yönəltməz" (Nəhl, 16/104) ayələrində də görülür.

Bu yanaşma Qur`andakı "Allahın sapdırması" ifadələrinin hamısına aiddir.

rın adlarını bildirdikdə, Allah: "Sizə göylərin və yerin qeybini, şübhəsiz ki, mən bilərəm, açıqladıqlarınızı da, gizli saxladıqlarınızı da yenə mən bilərəm, demədimmi?" – dedi.

34. Bir vaxt mələklərə: "Adəm üçün ehtiramla baş əyin", – demişdik; İblisdən başqa bütün mələklər dərhal ehtiramla baş əymişdilər, İblis (bundan) boyun qaçırmış, təkəbbür göstərmiş və kafirlərdən olmuşdu.

35. Dedik ki: "Ey Adəm! Sən və zövcən cənnəti məskən tutun! Orada istədiyiniz kimi bol-bol yeyin, amma bu ağaca yaxınlaşmayın, yoxsa zalımlardan olarsınız".

36. Sonra şeytan onları yoldan azdırdı. Onları olduqları yerdən çıxardı. Bundan sonra biz də: "Bir-birinizə düşmən olaraq enin! Sizin üçün yer üzündə müəyyən bir vaxta qədər sığınacaq və dolanacaq var", – dedik.[1]

37. Sonra Adəm (vəhylə) Rəbbindən bəzi kəlmələr aldı, (onlarla əməl edib Rəbbinə yalvardı. O da) bundan sonra tövbəsini qəbul etdi. Şübhəsiz ki, O, tövbələri çox qəbul edəndir, çox bağışlayandır.

38. "Hamınız oradan (cənnətdən) enin. Məndən sizə bir yol göstərən (peyğəmbər) gəldiyi zaman kim ona tabe olarsa, onlar üçün heç bir qorxu yoxdur, onlar məhzun olmayacaqlar", – dedik.[2]

39. İnkar edənlərə və ayələrimizi təkzib edənlərə gəlincə, onlar məhz cəhənnəmlikdirlər. Onlar orada əbədi qalacaqlar.

40. Ey İsrail oğulları![3] Sizə verdiyim neməti xatırlayın. Mənə verdiyiniz sözü yerinə yetirin ki, mən də sizə verdiyim sözü yerinə yetirim. Yalnız məndən qorxun.

41. Əlinizdəki Tövratı təsdiqləyici olaraq endirdiyimizə (Qur`ana) iman edin. Onu inkar edənlərin ilki olmayın. Ayələrimi ucuz qiymətə dəyişməyin və mənə qarşı gəlməkdən çəkinin.[4]

42. Haqqı batillə qarışdırıb bilə-bilə haqqı gizlətməyin.

43. Namazı qılın, zəkatı verin. Rüku edənlərlə birlikdə siz də rüku edin.

---

1 Burada bəhs olunan düşmənçilik həzrət Adəm ilə Həvva arasında deyil, onların soyundan gələcək insanlar arasında meydana çıxacaq düşmənçilikdir. Dostluq və qardaşlıq əlaqələri kimi düşmənlik və çəkişmələrin də dünya həyatı üçün bir imtahan olduğu ayədən başa düşülür. Azad iradəsi ilə Allahın göstərdiyi istiqamətdə gedənlər, nəfsinə deyil, vəhyə, vicdanına qulaq asanlar zülm və haqsızlıqdan, düşmənçilik və çəkişmədən qaçanlar bu imtahanı qazanacaq.

2 Həzrət Adəm ilə həzrət Həvvanın cənnətdən endirilməsi ilə əlaqəli olaraq baxın: Ə`raf, 7/19-38; Taha, 20/120-123.

3 İsrail İshaq peyğəmbərin oğlu Yaqub peyğəmbərdir.

4 Bu ayədə olduğu kimi başqa bir çox ayədə də Qur`anın və həzrət Peyğəmbərin Tövrata təsdiq etdiyini bildirən ifadələr yer alır. Bu, Tövratın bütünlükdə təsdiq olunması mənasına gəlmir. Təsdiq bu kitabın əsli etibarilə Allahdan gələn bir kitab olması ilə bağlıdır. Bundan əlavə, Tövratda yer alan tövhid inancı, peyğəmbərlərə iman, əxlaqi keyfiyyətlərin əmr edilməsi, pis işlərin qadağan olunması kimi əsas müddəalar da bu təsdiqin mövzusudur. Qur`anda bu təsdiq məsələsinə yer verilməsinin məqsədi yəhudilərin diqqətini Qur`ana çəkərək onu araşdırıb qəbul etmələrinə imkan yaratmaqdır.

Qur`anın (və həzrət Peyğəmbərin) Tövratı təsdiq etməsi ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/91, 97, 101; Ali-İmran, 3/3, 39. 50, 81; Nisa, 4/87; Maidə, 5/46, 48; Ən`am, 6/92; Fatir, 35/31; Əhqaf, 46/12; Səff, 61/6.

44. Siz Kitabı (Tövratı) oxuduğunuz halda, özünüzü unudub başqalarına yaxşılığımı əmr edirsiniz? (Etdiyiniz əməlin çirkinliyini) başa düşmürsünüzmü?

45. Səbir edərək və namaz qılaraq (Allahdan) yardım diləyin.[1] Şübhəsiz ki, namaz Allaha qarşı dərin ehtiram bəsləyənlərdən başqasına ağır gələr.

46. Onlar Rəblərinə qovuşacaqlarını və həqiqətən, Ona qayıdacaqlarını çox yaxşı bilirlər.

47. Ey İsrail oğulları! Sizə verdiyim nemətimi və (bir zamanlar) sizi bütün aləmlərdən üstün tutduğumu xatırlayın.

48. Elə bir gündən qorxun ki, o gün heç kim başqasının əvəzinə bir şey ödəyə bilməz. Heç kimdən şəfaət qəbul olunmaz, fidyə alınmaz.[2] Onlara yardım da edilməz.

49. Xatırlayın, sizi ən pis əzaba məruz qoyan, qadınlarınızı sağ buraxıb, oğullarınızı boğazlayan Firon ailəsindən xilas etmişdik. Bunda sizə Rəbbinizdən (gələn) böyük bir imtahan vardı.

50. Bir vaxt sizin üçün dənizi yarmış, sizi xilas etmiş, gözlərinizin qarşısında Firon ailəsini suda boğmuşduq.

51. Bir vaxt biz Musa ilə qırx gecəlik vədələşmişdik. Siz isə o getdikdən sonra (özünüzə) zülm edərək bir buzovu tanrı qəbul etmişdiniz.

52. Bundan sonra şükür edəsiniz deyə sizi əfv etmişdik.

53. Doğru yolu tutasınız deyə Musaya Kitabı (Tövratı) və Furqanı[3] vermişdik.

54. Musa qövmünə dedi ki: "Ey qövmüm, siz buzovu ilah qəbul etməklə özünüzə zülm etdiniz. Gəlin yaradanınıza tövbə edib nəfslərinizi öldürün[4] (özünüzü düzəldin). Bu, Yaradanınızın qatında sizin üçün daha yaxşıdır". Beləliklə, Allah da onların tövbəsini qəbul etdi. Çünki O, tövbələri çox qəbul edəndir, çox mərhəmətlidir.

55. Bir vaxt siz: "Ey Musa! Biz Allahı açıq-aşkar görmədikcə sənə əsla inanmarıq", – demişdiniz. Belə olduqda gözünüz görə-görə sizi ildırım vurmuşdu.

56. Sonra şükür edəsiniz deyə ölümünüzdən sonra sizi yenidən diriltdik.

57. Buludu üstünüzə kölgə etdik. Sizə qüdrət halvası ilə bildirçin endirdik. "Verdiyimiz ruzilərin yaxşı və gözəl olanlarından yeyin!" – (dedik). Onlar (verdiyimiz nemətlərə nankorluq etməklə) bizə zülm etmədilər, fəqət özlərinə zülm edirdilər.

---

1 Səbir insanı yetişdirir, inkişaf etdirir və gücləndirir. Namaz isə Allaha qulluğun, təslimiyyətin və nemətlərə qarşı şükrün ən yüksək ifadə forması və fəal, müntəzəm bir həyatın göstəricisidir. Ayədə çətinliklər qarşısında insanı həm mənəvi, həm də maddi olaraq gücləndirəcək iki əsas ünsürdən faydalanmaq tövsiyə olunur.

2 Şəfaət bir kəsin bağışlanması üçün vasitəçilik etmək deməkdir. Qiyamət günü başda həzrət Peyğəmbər olmaqla Allahın izin verəcəyi bəzi insanlar və mələklər günahkar möminlərin bağışlanmasını, günahsızların dərəcələrinin yüksəldilməsini Allahdan diləyəcəklər. Şəfaət tələblərinin qəbul olunub-olunmaması Allahın təqdirinə bağlıdır.

3 Furqan "Haqq ilə batili bir-birindən ayıran" mənasındadır. Burada Musaya verilən əmrlər və hökmlər nəzərdə tutulur.

4 Ayənin bu hissəsi "Aranızdan buzova tapınanları öldürün!" şəklində də tərcümə edilmişdir.

58. Bir vaxt: "O ölkəyə[1] girin. Orada istədiyiniz kimi bol-bol yeyin. Qapısından əyilərək təvazö ilə girin və "hıtta!" (Ya Rəbb, bizi əfv et) deyin ki, biz də sizin xətalarınızı bağışlayaq. Yaxşılıq edənlərə isə daha artığını verəcəyik", – demişdik.

59. Sonra aralarında olan zalımlar sözü onlara deyiləndən başqa bir şəklə saldılar. Biz də haqdan ayrıldıqları üçün o zalımlara göydən əzab endirdik.[2]

60. Xatırlayın ki, Musa qövmü üçün su istəmişdi. Biz də: "Əsanı qayaya vur!" – demişdik, beləliklə, qayadan on iki çeşmə fışqırmış, hər boy öz su götürəcəyi çeşməni tanımışdı. "Allahın verdiyi ruzidən yeyin, için. Ancaq yer üzündə fitnə-fəsad çıxartmayın!" – demişdik.

61. Bir vaxt: "Ey Musa! Biz bir növ yeməyə əsla dözə bilmərik. O halda bizim üçün Rəbbinə yalvar, O, bizə yerdən bitən tərəvəz, qabaq, sarımsaq, mərcimək və soğan versin", – demişdiniz. O da sizə: "Xeyirli olanı daha aşağı olanla dəyişdirmək istəyirsiniz? Elə isə enin şəhərə! İstədikləriniz orada var", – demişdi. Beləliklə, zillət və yoxsulluq onları bürüdü. Onlar Allahın qəzəbinə düçar oldular. Bunun səbəbi o idi ki, onlar Allahın ayələrini inkar edər, peyğəmbərləri də haqsız yerə öldürərdilər. Bütün bunların səbəbi isə üsyan etmələri və həddi aşmaları idi.

62. Şübhəsiz, iman edənlər (müsəlmanlar), yəhudilər, xristianlar və sabiilərdən[3] (hər bir qrupun öz şəriətində) "Allaha və axirət gününə inanan və saleh işlər görənlər üçün Rəbləri qatında mükafat var; onlar üçün qorxu olmayacaq, onlar məhzun olmayacaqlar", – (deyə hökm verilmişdir).[4]

63. Bir vaxt (Tövrata əməl edəcəyinizə dair) sizdən bir söz almış, Tur dağını başınızın üstünə qaldırmış və: "Qorxub-çəkinəsiniz deyə sizə verdiyimiz Kitabı möhkəm tutun, onun içindəkiləri düşünün (qafil olmayın)!" – demişdik.[5]

64. Bundan sonra yenə üz döndərdiniz. Allahın bol neməti və mərhəməti olmasaydı, yəqin ki, ziyana uğrayanlardan olardınız.

65. Şübhəsiz ki, siz aranızdan şənbə günü qadağasına[6] əməl etməyənləri bilirsiniz. Biz onlara: "Alçaq meymunlar olun!" – demişdik.

---

1 Qeyd olunan ölkənin Qüds və ya Əriha olduğu rəvayət edilmişdir.

2 Ayədə ifadə olunan bu əzabın vəba kimi qorxunc və yoluxucu bir xəstəlik olduğu təfsir alimləri tərəfindən bildirilmişdir.

3 Bəzi təfsir alimlərinə görə sabiilər yəhudilik və xristianlıq arasında olan və tövhid əqidəsinə əsaslanan bir dinin mənsublarıdır. İslam alimlərinin əksəriyyəti isə bunların əhli-kitabdan olmadığı fikrindədirlər. Başqa bir rəvayətə görə isə sabiilər həzrət İbrahimin dininə mənsub kəslərdir.

4 İslam özündən əvvəlki dinlərin hökmünü ortadan qaldırmışdır. Bu baxımdan hansı dinə mənsub olursa olsun, bütün insanlar İslamı qəbul etməklə mükəlləfdirlər. İslamdan əvvəlki səmavi dinlərə mənsub olanlardan Allaha və axirətə inanıb yaxşı işlər görənlər eynilə İslamda olduğu kimi qurtuluşa nail olmuşdurlar. Bu, ümumi bir qaydadır. Ayə bunu vurğulayır. Yoxsa İslam gəldikdən sonra İslamı qəbul etmədən öz ölçüləri daxilində "Allaha və axirətə inanıb yaxşı işlər görmək" insanı qurtuluşa çatdırmaz. Bənzər ifadələr üçün baxın: Maidə, 5/69.

5 Allah bəzi zamanlarda peyğəmbərləri vasitəsilə İsrail oğullarından itaət edəcəklərinə dair söz alır lakin onlar bir müddət sonra bu sözlərindən dönərək, üsyan və inkara üz tuturdular. (Mövzu ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/83-84, 93).

6 Həzrət Musanın dininə görə şənbə günü çalışmayıb ibadətlə məşğul olmaq bir qayda idi. İsrail oğullarının

**66.** Bunu həm onu görənlər, həm də sonradan gələnlər üçün bir ibrət və Allaha qarşı gəlməkdən çəkinənlər üçün də bir öyüd olsun deyə etdik.[1]

**67.** Bir vaxt Musa qövmünə: "Allah sizə bir inək kəsməyi əmr edir", – demişdi. Onlar da: "Sən bizi ələ salırsan?" – demişdilər. Musa: "Həddini bilməz cahillərdən olmaqdan Allaha sığınıram", – demişdi.[2]

**68.** "Bizim üçün Rəbbinə dua et, onun necə bir inək olduğunu bizə açıqlasın", – dedilər. Musa belə dedi: "Rəbbim deyir ki, o, nə qoca, nə də körpə, bu ikisi arasında bir inəkdir. Sizə əmr olunanı yerinə yetirin!"

**69.** Onlar: "Bizim üçün Rəbbinə dua et, onun hansı rəngdə olduğunu bizə açıqlasın", – dedilər. Musa belə dedi: "Rəbbim deyir ki, o, sapsarı, rəngi baxanların ürəyini açan bir inəkdir", – dedi.

**70.** "Bizim üçün Rəbbinə dua et, de ki, onun necə bir inək olduğunu bizə açıqlasın. Çünki bizə görə inəklər bir-birinə oxşayır. Amma Allah istəsə, əlbəttə ki, taparıq", – dedilər.

**71.** Musa belə dedi: "Rəbbim deyir ki, o, tarla sürmək, əkin sulamaq üçün boyunduruq altına salınmamış, qüsursuz, heç ləkəsi olmayan bir inəkdir". Onlar: "Bax indi doğrusunu bildirdin", – dedilər. Nəhayət, o inəyi kəsdilər. Az qalmışdı ki, bunu etməsinlər.

**72.** Xatırlayın ki, bir nəfəri öldürmüşdünüz, sonra da günahı bir-birinizin üstünə atmışdınız. Halbuki Allah gizlədiyinizi aşkara çıxaracaqdı.

**73.** "İnəyin bir parçası ilə ölüyə vurun!" – dedik. (Deyiləni etdilər və ölü dirildi.) Allah ölüləri belə diriltdir, düşünəsiniz deyə möcüzələrini[3] də sizə belə göstərir.

**74.** Bundan sonra qəlbləriniz yenə qatılaşdı, daş kimi, hətta daha qatı oldu. Çünki daş

---

bu qaydanı pozmaları ilə bağlı əlavə olaraq bu ayələrə baxın: Nisa, 4/47-54; Ə`raf, 7/163; Nəhl, 16/124.

1 Bəzi təfsir alimləri ayədə qeyd olunan meymunlaşdırma hadisəsinin simvolik olduğunu, bəziləri isə həqiqi olduğunu bildirmişlər.

2 Təfsir mənbələrinin nəql etdiyinə görə, İsrail oğullarından bir nəfər mal-dövlətinə yiyələnmək məqsədilə varlı, lakin övladı olmayan əmisini öldürmüş, sonra da cəsədini başqa birinin evinin qarşısına atmışdı. Bununla da kifayətlənməyərək "Əmimi öldürdülər!" – deyərək hay salmış və tərəflər vuruşma həddinə çatmışdılar. Aralarından bir nəfər: "Niyə bir-birimizi öldürürük? Gəlin, Allahın peyğəmbərinə müraciət edək!" – dedi. Məsələni həzrət Musaya bildirdilər. Lakin qatili müəyyənləşdirmək mümkün olmadı. Allah-Təala onların bir inək kəsərək inəyin bir parçası ilə ölüyə vurmalarını əmr etdi. Onlar kəsiləcək inəyin xüsusiyyətlərini soruşmağa başladılar. Nəhayət, xüsusiyyətləri bildirilən inəyi tapıb kəsdilər və bir parçası ilə öldürülən şəxsə vurdular. Ölü dirilib qatilin kim olduğunu bildirdi. 67-74-cü ayələr bu hadisədən bəhs edir.

3 Möcüzə peyğəmbərlərin peyğəmbərliklərini isbat etmək üçün Allahın izni ilə göstərdikləri xariqüladə şeylər, hadisələr və işlər deməkdir. Möcüzələr hər peyğəmbərin öz dövründə məşhur olan sahələrdə baş vermişdir.

Məsələn, həzrət Musanın dövründə sehrbazlıq çox inkişaf etmişdi. Belə olduqda həzrət Musanın əsası ilana çevrilərək Fironun sehrbazlarının sehrlərini udmuşdu. Yenə Musa əlini qoynuna salıb çıxardıqda əli işıq saçırdı.

Həzrət İsaya – nə qədər mahir olursa olsun heç bir həkimin edə bilməyəcəyi – Allahın izni ilə ölüləri diriltmək, korların gözünü açmaq kimi möcüzələr verilmişdir.

Həzrət Peyğəmbər (s.ə.s.) dövründə ərəblər arasında şeir və ədəbiyyat xeyli inkişaf etmişdi. Qur`an ərə-

var ki, içindən bulaqlar fışqırar. Daş var ki, yarılar, içindən sular çıxar. Daş da var ki, Allah qorxusu ilə (yerindən qopub) düşər. Allah etdiklərinizdən heç bir zaman xəbərsiz deyil.

75. İndi onların sizə inanacaqlarınamı ümid edirsiniz? Halbuki aralarından bir qismi Allahın kəlamına qulaq asar, yaxşıca anladıqdan sonra onu bilə-bilə təhrif edərdilər.[1]

76. Onlar iman edənlərlə qarşılaşdıqda: "İman etdik", – deyərlər. Bir-biriləri ilə tənha qaldıqda isə belə deyərlər: "Rəbbinizin hüzurunda dəlil kimi istifadə edib sizi susdursunlar deyəmi Allahın (Tövratda) sizə bildirdiklərini onlara söyləyirsiniz? (Belə sadə bir şeyi) dərk edə bilmirsinizmi?"

77. Onlar bilmirlərmi ki, Allah onların gizli saxladıqlarını da bilir, aşkara çıxardıqlarını da.

78. Bunların bir də ümmi[2] olanları var: Kitabı (Tövratı) bilməzlər. Onların bütün bildikləri bir sıra xam xəyallardır. Onlar ancaq zənn edirlər.

79. Vay o kəslərə ki, əlləri ilə Kitabı yazarlar,[3] sonra da onu ucuz qiymətə dəyişmək üçün: "Bu, Allahın qatındadır", – deyərlər. Əllərinin yazdıqlarından ötrü vay onların halına! Qazandıqlarından ötrü vay onların halına!

80. Bir də dedilər ki: "Atəş bizə bir neçə gündən artıq əsla toxunmayacaq". Sən onlara de ki: "Siz bunun üçün Allahdan sözmü aldınız? Əgər belədirsə, Allah verdiyi sözdən dönməz. Yoxsa siz Allah barəsində bilməyəcəyiniz şeylər söyləyirsiniz?"

81. Bəli, çirkin işlər görüb, günahı mənliyini bürümüş (və beləliklə, şirkə düşən) kəslər ki var, məhz onlar cəhənnəmlikdirlər. Onlar orada əbədi qalacaqlar.

82. İman edib saleh işlər görənlər isə cənnətlikdirlər. Onlar orada əbədi qalacaqlar.

83. Bir vaxt Biz İsrail oğullarından: "Allahdan başqasına ibadət etməyəcəksiniz, ata-anaya, yaxınlara, yetimlərə, yoxsullara yaxşılıq edəcəksiniz, hər kəsə gözəl sözlər

---

bcə danışanların kiçik bir parçasının belə meydana gətirə bilməyəcəkləri bir möcüzə kitab olaraq həzrət Peyğəmbərə verildi.

1 Təhrif sözünün lüğəvi mənası bir uca çəkməkdir. Ayədəki mənası batil şübhələr, əsassız izahlar və müxtəlif söz oyunları ilə kəlməni əsl mənasından uzaqlaşdırıb, ona əlaqəsi olmayan bir məna yükləməkdir.

Mövzu ilə əlaqəli olaraq bu surənin 79-cu ayəsi və onun istinadına, Maidə surəsinin13 və 41-ci ayələrinə baxın.

Bu ayə yəhudilərin müqəddəs kitabları Tövratı təhrif etdiklərini açıq bir şəkildə bəyan edir. Bu həqiqət Moris Bukay kimi bəzi qərbli tədqiqatçılar tərəfindən də qəti bir şəkildə ifadə edilmişdir. Məhz Tövratda da bunu təsdiqləyən ifadələr var. (Ərəmya, 8/8-9.)

2 Ümmi, anadan doğulduğu kimi qalan, yəni oxuma-yazma bilməyən kəs deməkdir. Burada dinləri barəsində az da olsa məlumatı olmayanlar nəzərdə tutulur.

3 Təfsir mənbələrinin bildirdiyinə görə, yəhudi alimləri öz dinlərində bəzi hökmlər icad edir, bəzi hökmləri dəyişdirir və bunları Tövrata əlavə edirdilər. Üstəlik bu müdaxilənin Allah qatından olduğunu bildirir, xalq nəzdində etibar qazanıb mənfəət əldə edirdilər.

Başqa bir fikrə görə isə yəhudi alimləri müxtəlif dini mövzularda bəzi kitablar yazıb bunların Allah qatından gələn dini həqiqətlər olduğunu deyir və yazdıqlarını xalqa satırdılar.

söyləyəcəksiniz, namazı qılacaqsınız, zəkatı verəcəksiniz", – deyə söz almışdıq. Sonra çox azınız xaric üz çevirib sözünüzdən döndünüz.

84. Bir vaxt: "Bir-birinizin qanını tökməyəcəksiniz, bir-birinizi yurdlarınızdan çıxarmayacaqsınız", – deyə də sizdən qəti söz almışdıq. Sonra bunu belə qəbul etmişdiniz. Özünüz də buna hələ də şahidlik edirsiniz.

85. Amma siz bir-birinizi öldürən, aranızdan bir dəstəyə qarşı yamanlıq və zülmdə köməkləşərək sizə haram olduğu halda onları yurdlarından çıxaran, sizə əsir olaraq gəldikləri zaman fidyə verib onları qurtaran kəslərsiniz. Yoxsa siz Kitabın (Tövratın) bir qisminə inanıb bir qismini inkar edirsiniz?[1] Artıq sizdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaqdan başqa bir şey deyildir. Qiyamət günündə isə onlar əzabın ən şiddətlisinə düçar olarlar. Çünki Allah etdiklərinizdən xəbərsiz deyil.

86. Onlar axirəti verib dünya həyatını satın alan kəslərdir. Artıq bunların əzabı əsla yüngülləşdirilməz. Onlara yardım da edilməz.

87. And olsun ki, Musaya Kitabı (Tövratı) verdik. Ondan sonra ard-arda peyğəmbərlər göndərdik. Məryəm oğlu İsaya möcüzələr verdik. Onu Ruhul-Qüds (Cəbrail) ilə dəstəklədik. Hər hansı bir peyğəmbər sizə xoşunuza gəlməyən bir şey gətirdikcə, kibrlənib (onların) bir qismini inkar edib, bir qismini də öldürmədinizmi?

88. "Qəlblərimiz örtülüdür", – dedilər. Elə deyil. İnkarları səbəbi ilə Allah onları lənətləmişdir. Buna görə də çox az iman edərlər.[2]

89. Onlara əllərindəkini (Tövratı) təsdiq edən bir kitab (Qur`an) gəldikdə onu inkar etdilər.[3] Halbuki əvvəlcə (bu kitabı gətirəcək peyğəmbər ilə) inkarçılara (müşrik ərəblərə) qarşı yardım istəyirdilər. (Tövratdan) tanıdıqları (bu peyğəmbər) onlara gəldikdə isə onu inkar etdilər. Allahın lənəti inkarçıların üzərinə olsun!

90. Allahın, qullarından istədiyinə lütfü ilə endirdiyi vəhyi qısqanclıqları səbəbi ilə inkar edərək əvəzində nəfslərini satmaları nə pisdir! Buna görə üst-üstə qəzəbə düçar oldular. İnkar edənlərə alçaldıcı bir əzab var.

91. Onlara: "Allahın endirdiyinə (Qur`ana) iman edin", – deyildikdə: "Biz yalnız

---

1 Mədinədəki ərəb Övs və Xəzrəc qəbilələri bir-biriləri ilə savaş hallında idilər. Yəhudi qəbilələrindən Bəni Nəzir və Bəni Qüreyzə Övs qəbilə ilə Bəni Qeynuqa isə Xəzrəc qəbiləsi ilə müttəfiq idi. Ərəb qəbilələrinin savaşa başlaması ilə yəhudi qəbilələri də qarşılıqlı olaraq savaşmış, bir-birilərinin qanını tökmüş və bir-birilərini yurdlarından çıxarmışdılar. Bununla yanaşı Tövratın əmrinə tabe olaraq əllərində olan əsrləri də fidyə qarşılığında xilas etmişdilər. Lakin yəhudilərin bir-birilərinin qanını tökməyəcəkləri, bir-birilərini yurdlarından çıxarmayacaqlarına dair söz verdikləri Tövratda yazılı idi. Ayədə Mədinə yəhudiləri bu tutarsız davranışları səbəbi ilə xəbərdar olunur, müsəlmanlara da belə davranmamaları bildirilir.

2 Yəhudilər tarix boyunca ağlasığmaz hiylə və fitnələrə əl ataraq onlara göndərilən peyğəmbərlərin çoxuna qarşı çıxmış, onlardan bəzilərinə işgəncə etmiş, hətta bəzilərini öldürmüşlər. Bundan sonrakı ayələr yəhudilərin həzrət Peyğəmbərə qarşı mənfi münasibətlərini dilə gətirir.

3 Qur`anın Tövratı (və İncili) təsdiq etməsi bu kitablarının əsllərinin Allah qatından göndərilmiş kitablar olması ilə bağlıdır. Əgər Qur`an onları təhrif edilmiş, dəyişdirilmiş, mövcud vəziyyətləri ilə olduqları kimi təsdiq etsəydi, Qur`anın gəlməsinə ehtiyac olmazdı. Belə ki, bu kitablarda Qur`anın gətirdiyi tövhid prinsipinə, İslamın gətirdiyi digər hökmlərə zidd olan bir çox ifadə və fikirlər yer alır. (Əlavə olaraq baxın: Bəqərə surəsinin 41-ci ayəsinin istinadı).

bizə endiriləna (Tövrata) inanarıq", – deyib, ondan sonra gələni (Qur`anı) inkar edərlər. Halbuki o, əllərində olanı (Tövratı) təsdiq edən haqq bir kitabdır. De ki: "Əgər inanırdınızsa, daha əvvəl niyə Allahın peyğəmbərlərini öldürürdünüz?"

92. And olsun ki, Musa sizə açıq möcüzələr gətirmişdi. Sonra siz onun ardından nəfslərinizə zülm edərək buzovu ilahlaşdırmışdınız.

93. Bir vaxt Turu başınızın üstünə qaldıraraq sizdən söz almışdıq: "Sizə verdiyimiz Kitaba möhkəm sarılın, onu eşidin", – demişdik. Onlar (daha sonra inkara yönələrək): "Eşitdik, qarşı çıxdıq",[1] – demişdilər. İnkarları ucbatından buzov sevgisi onların qəlblərinə hopdurulmuşdu. Onlara de ki: "Əgər inanırsınızsa, (iddia etdiyiniz kimi Tövrata olan) imanınızın sizə əmr etdiyi şey nə pisdir!"

94. De ki: "Əgər (iddia etdiyiniz kimi) Allah qatındakı axirət yurdu (cənnət) digər insanlar üçün deyil, yalnız sizindirsə və doğru söyləyənlərsinizsə, onda ölümü istəyin!"

95. Lakin öz əlləri ilə indiyə qədər etdikləri ucbatından ölümü heç bir zaman istəməzlər. Allah o zalımları haqqı ilə biləndir.

96. And olsun ki, sən onların yaşamağa bütün insanlardan, hətta Allaha şərik qoşanlardan belə daha həris olduqlarını görərsən. Onların hər biri min il yaşamaq istəyər. Halbuki uzun yaşamaq onları əzabdan qurtaran deyil. Allah onların bütün etdiklərini görür.

97. De ki: "Kim Cəbrailə düşməndirsə, bilsin ki, o, Allahın izni ilə Qur`anı əvvəlki kitabları təsdiqləyici, möminlər üçün də bir hidayət və müjdə olaraq sənin qəlbinə endirmişdir".[2]

98. Kim Allaha, mələklərinə, peyğəmbərlərinə, Cəbrailə və Mikailə düşmən olarsa, bilsin ki, Allah da inkar edənlərin düşmənidir.

99. And olsun ki, biz sənə açıq-aydın ayələr endirdik. Bunları yalnız fasiqlər inkar edər.

100. Onlar nə vaxt bir əhd bağladılarsa, aralarından bir qismi o əhdi pozmadımı? Onsuz da onların çoxu iman etməz.

101. Onlara Allah qatından, əllərində olan Kitabı (Tövratı) təsdiqləyici bir peyğəmbər gəldikdə kitab verilənlərdən bir qismi, sanki bilmirlərmiş kimi Allahın Kitabından (Tövratdan) üz döndərdi.

102. Süleymanın hökmranlığı haqqında şeytanların (və şeytan xislətli insanların) uydurduqları yalanların arxasınca düşdülər. Halbuki Süleyman (cadu edərək) küfrə düşmədi. Lakin şeytanlar insanlara sehri və (xüsusilə də) Babildəki Harut və Ma-

1 İsrail oğullarından söz alınması ilə əlaqədar olaraq bu surənin 63-cü ayəsinə baxın.

2 Təfsir mənbələrinə görə, Fədək yəhudiləri həzrət Peyğəmbərdən bəzi suallar soruşmuş və cavab verə biləcəyi təqdirdə ona iman edəcəklərini bildirmişdilər. Bu suallardan biri də "Sənə gələn, vəhy gətirən mələk hansıdır?" sualı idi. Həzrət Peyğəmbər "Cəbrail" cavabını verdikdə, yəhudilər: "O bizim düşmənimizdir, çünki o savaş və zorakılıq mələyidir. Əgər sənə vəhy gətirən mələk rəhmət, bolluq və yağmur mələyi olan Mikail olsaydı, sənə iman edərdik"- deyə cavab vermişdilər. Ayə bu hadisə haqqında nazil olmuşdur.

Bu mövzu haqqında buna bənzər başqa rəvayətlər də var.

rut adlı iki mələyə ilham edilən (sehr)i öyrətməklə küfrə düşdülər. Halbuki o iki mələk: "Biz ancaq imtahan üçün göndərilmiş mələklərik", – demədikcə heç kimə (sehr) öyrətmirdilər. Beləliklə, (insanlar) onlardan ər ilə arvadı bir-birindən ayıracaqları sehri öyrənirdilər. Halbuki onlar Allahın izni olmadıqca o sehrlə heç kimə zərər verə bilməzdilər. (Onlar belə edərək) özlərinə zərər verən, fayda verməyən şeyləri öyrənirdilər. And olsun ki, onu satın alanın axirətdə bir payı olmadığını bilirdilər. Qarşılığında özlərini satdıqları şey nə pisdir! Kaş biləydilər!

**103.** Əgər onlar iman edib Allahın əmrlərinə qarşı çıxmaqdan çəkinsəydilər, Allah qatında qazanacaqları savab özləri üçün daha xeyirli olardı. Kaş ki, biləydilər!

**104.** Ey iman edənlər! "Raina (bizi nəzərində saxla)" deməyin, "Unzurna (bizə bax)" deyin və eşidin. Kafirlər üçün acınacaqlı bir əzab var.[1]

**105.** Nə əhli-kitabdan inkar edənlər, nə də Allaha şərik qoşanlar Rəbbinizdən sizə bir xeyir gəlməsini istəyərlər. Halbuki Allah rəhmətini istədiyinə bəxş edər. Allah böyük lütf sahibidir.

**106.** Biz hər hansı bir ayənin hökmünü ləğv etsək və ya onu unutdursaq (ya da müəyyən bir vaxta qədər təxirə salsaq), əvəzinə daha xeyirlisini və ya onun mislini gətirərik. Allahın gücünün hər şeyə haqqı ilə çatdığını bilmirsənmi?

**107.** Bilmirsənmi ki, göylərin və yerin hökmranlığı Allaha məxsusdur? Sizin üçün Allahdan başqa nə bir dost, nə də bir yardımçı var.

**108.** Yoxsa daha əvvəl Musanın sorğu-suala çəkildiyi kimi siz də peyğəmbərinizi sorğu-suala çəkmək istəyirsiniz? Kim imanı küfrə dəyişərsə, o, artıq doğru yoldan azar.

**109.** Kitab əhlindən bir çoxu haqq onlara aydın olduqdan sonra belə, içlərindəki qısqanclıqdan ötrü sizi imanınızdan sonra küfrə qaytarmaq istəyərlər. Siz hələlik, Allah onlar haqqındakı əmrini gətirincəyə qədər əfv edin, etdiklərini anlayışla qarşılayın. Şübhəsiz ki, Allah hər şeyə haqqı ilə qadirdir.

**110.** Namazı düzgün qılın, zəkatı verin. Özünüz üçün nə xeyir iş görmüsünüzsə, Allah qatında onu taparsınız. Şübhəsiz ki, Allah bütün etdiklərinizi görür.

**111.** Bir də "Yəhudilərdən və xristianlardan başqası cənnətə girməyəcək", – dedilər. Bu, onların xam xəyallarıdır. De ki: "Əgər doğru söyləyənlərsinizsə, (iddianızı isbat edəcək) dəlilinizi gətirin".

**112.** Xeyr, elə deyil! Kim yaxşı və faydalı işləri ən gözəl şəkildə edərək özünü Allaha təslim edərsə, onun mükafatı Rəbbinin qatındadır. Artıq onlara qorxu yoxdur, onlar məyus olmayacaqlar.

**113.** Yəhudilər: "Xristianlar bir əsas üzərində deyillər (bir şeyə əsaslanmırlar)", – de-

---

1 Səhabələr həzrət Peyğəmbərin nəsihətlərindən daha çox faydalanmaq üçün ona "Raina (bizi nəzərində saxla)", – deyirdilər. Yəhudilər bu sözü İbranicədə təhqir mənasına gələn bir şəkildə istifadə edirdilər. Başqa bir yozuma görə "raina" (راعنا) kəlməsini kiçik bir tələffüz dəyişikliyi ilə (راعينا) ərəbcədə "çobanımız" mənasına gələcək bir şəkildə oxuyurdular. Buna görə də ayə möminlərdən "raina" əvəzinə, yenə "Bizə də bax", "Bizi də nəzərində saxla" mənasındakı "unzurna" kəlməsini istifadə etmələrini istəmişdir. Ayədə yanlış mənaya yozula biləcək kəlmələr istifadə etməkdən çəkinməyin ədəbə uyğun olduğuna işarə edilir. Mövzu ilə əlaqəli olaraq bax: Nisa, 4/46.

dilər. Xristianlar da: "Yəhudilər bir əsas üzərində deyillər (bir şeyə əsaslanmırlar)", – dedilər. Halbuki hamısı Kitabı[1] oxuyurlar. (Kitabı) bilməyənlər də eynilə bunların dedikləri kimi demişdilər. Artıq onların aralarında razılığa gələ bilmədikləri ixtilaf barəsindəki hökmü qiyamət günü Allah verəcək.

114. Allahın məscidlərində Onun adının zikr edilməsinə qadağa qoyan və onların viran qalması üçün çalışandan daha zalım kim olar? Belələri oralara (əgər girərlərsə) ancaq qorxa-qorxa girə bilməlidirlər. Bunlar üçün dünyada rüsvayçılıq, axirətdə də böyük bir əzab var.

115. Şərq də, qərb də (bütün yer üzü) Allahındır. Hansı tərəfə yönəlsəniz, Allahın üzü[2] elə oradadır. Şübhəsiz ki, Allah lütfü geniş olandır, haqqı ilə biləndir.

116. "Allah övlad götürdü", – dedilər.[3] O, bundan uzaqdır. Xeyr! Göylərdəki və yerdəki hər şey Allahındır. Hamısı ona boyun əymişdir.

117. O, göyləri və yeri misilsiz yaradandır. Bir işə hökm etsə, ona yalnız "ol" deyər, o da dərhal olar.

118. Cahillər: "Allah bizimlə danışsa ya da bizə bir möcüzə gəlsə olmaz?!" – deyərlər. Bunlardan əvvəlkilər də eynilə bunların dedikləri kimi demişdilər. Onların qəlbləri (düşüncələri) bir-birinə oxşayır. Biz ayələri yəqinliklə inanacaq bir toplum üçün açıqladıq.

119. Şübhəsiz ki, biz səni haqq ilə müjdələyən və xəbərdar edən olaraq göndərdik. Sən cəhənnəmlik olanlar barəsində məsul tutulmayacaqsan.

120. Sən dinlərinə tabe olmadıqca nə yəhudilər, nə də xristianlar əsla səndən razı olmazlar. De ki: "Allahın yolu əsl doğru yoldur". Sənə gələn elmdən sonra əgər onların arzu və istəklərinə tabe olsan, bil ki, Allahdan sənə nə bir dost, nə də yardımçı var.

121. Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar. Bunlar ona inanırlar. Onu inkar edənlərə gəlincə, məhz onlar ziyana uğrayanlardır.[4]

122. Ey İsrail oğulları! Sizə verdiyim nemətimi və (bir zamanlar) sizi cümlə aləmdən üstün tutduğumu xatırlayın.

123. Heç kimin başqa biri üçün bir şey ödəməyəcəyi, heç kimdən fidyə qəbul edilməyə-

1 Ayədəki "Kitab" sözü ilə həzrət İsanı təsdiq edən Tövrat və həzrət Muhammədi təsdiq edən İncil nəzərdə tutulur. İki kitabdan hər biri digər kitabı gətirən peyğəmbəri təsdiq etdiyi üçün ikisi birdən "Kitab" olaraq ifadə edilmişdir.

2 "Allahın üzü" ifadəsi məcazi bir ifadə olub, burada "Allahın rəhməti, rizası və neməti" deməkdir. Qul tamamilə Allaha aid olan yer üzünün hər hansı bir yerində və cəhətində nə cür bir iş görsə, orada Allahın lütfü və rəhməti ilə qarşılaşar.

3 Yəhudilər: "Üzeyr Allahın oğludur", – deyirdilər. Xristianlar isə İsanın Allahın oğlu olduğuna inanırdılar. Baxın: Tövbə, 9/30.

4 Təfsir alimləri ayədəki "Kitab verilən kəslər" ifadəsi ilə kimlərin nəzərdə tutulduğu barədə müxtəlif fikirlər irəli sürmüşlər. Bir fikrə görə, bunlar Allah Rəsuluna (s.ə.s.) inanan və onun Allahdan gətirdiklərini təsdiq edən möminlər (səhabələr)dir. Başqa bir fikrə görə isə ayədə nəzərdə tutulanlar Allaha inanan, peyğəmbərlərini təsdiq edən, Muhammədə tabe olmaqla bağlı Tövratdakı əmrə uyan yəhudi alimləridir.

cəyi, heç kimə şəfaətin (vasitəçiliyin) fayda verməyəcəyi və heç kimin kömək görməyəcəyi bir gündən qorxun.

124. Bir zaman Rəbbi İbrahimi bəzi əmrlərlə sınamış, İbrahim onların hamısını yerinə yetirmişdi. (Sonra) Rəbbi belə buyurmuşdu: "Mən səni insanlara öndər təyin edəcəyəm". İbrahim də: "Soyumdan da (öndərlər çıxart, ya Rəbb!)", – demişdi. Rəbbi isə: "Mənim əhdim (verdiyim söz) zalımlara şamil olmaz", – demişdi.

125. Bir vaxt biz Kəbəni insanlar üçün toplanma və əmin-amanlıq yeri etmişdik. Siz də Məqami-İbrahimdən[1] özünüzə bir namaz yeri tutun. İbrahim və İsmailə belə əmr etmişdik: "Təvaf edənlər, özünü ibadətə verənlər, rüku və səcdə edənlər üçün evimi (Kəbəni) təmiz saxlayın".

126. İbrahim: "Rəbbim! Bu şəhəri əmin-amanlığın hökm sürdüyü bir şəhər et. Əhalisindən Allaha və axirət gününə iman edənləri hər növ məhsulla ruziləndir", – demişdi. Allah da: "İnkar edənə belə bir müddət (bu müvəqqəti qısa həyatda) ruzi verərəm, sonra onu cəhənnəm əzabına sürükləyərəm. Nə pis mənzildir ora!" – demişdi.

127. O vaxt İbrahim İsmail ilə birlikdə evin (Kəbənin) bünövrəsini yüksəldir, "Ey Rəbbimiz! Bizdən qəbul et! Şübhəsiz, sən haqqı ilə eşidən, haqqı ilə bilənsən", – deyirdilər.

128. "Rəbbimiz! Bizi sənə təslim olan kimsələr et. Soyumuzdan gələnləri də sənə təslim olan bir ümmət et. Bizə ibadət yerlərini və qaydalarını göstər. Tövbəmizi qəbul et. Çünki sən tövbələri çox qəbul edənsən, çox mərhəmətlisən".

129. "Rəbbimiz! Onlara aralarından bir peyğəmbər göndər. Onlara sənin ayələrini oxusun, kitabı və hikməti öyrətsin və onları hər pislikdən təmizləsin. Şübhəsiz, sən mütləq güc sahibisən, hökm və hikmət sahibisən".

130. Özünübilməz kimsədən başqa İbrahimin dinindən kim üz döndərər? And olsun ki, biz İbrahimi bu dünyada seçdik (seçilmişlərdən etdik). Şübhəsiz ki, o, axirətdə də salehlərdəndir.

131. Rəbbi ona: "Təslim ol", – dedikdə, "Aləmlərin Rəbbinə təslim oldum", – demişdi.

132. İbrahim bunu öz oğullarına da vəsiyyət etdi, Yaqub da həmçinin: "Oğullarım! Allah sizin üçün bu dini (İslamı) seçdi. Siz də ancaq müsəlmanlar olaraq ölün", – dedi.

133. Ölüm döşəyində ikən Yaqubun öz övladlarına: "Məndən sonra kimə ibadət edəcəksiniz?" – dediyi, onların da: "Sənin ilahına və ataların İbrahim, İsmail və İshaqın ilahı olan tək bir ilaha ibadət edəcəyik. Bizlər ona boyun əymiş müsəlmanlarıq", – dedikləri zaman, yoxsa siz onların yanında idiniz?

134. Onlar keçib getmiş bir ümmətdir. Onların qazandıqları özlərinin, sizin qazandıqlarınız sizindir. Siz onların etdiklərindən məsul tutulmazsınız.

---

1 Ayədə keçən Məqami-İbrahimin nə olduğu barəsində təfsir alimləri müxtəlif fikirlər bildirmişlər. "Həcc edərkən ziyarət edilən yerlərdən biri", "Kəbə", "Haram adlanan bölgə", "Həzrət İbrahimin Kəbəni inşa edərkən üstünə çıxdığı və yenə camaatı həccə dəvət edərkən üstünə çıxdığı daşın olduğu yer" şəklindəki açıqlamalar bunlardan bəziləridir.

135. (Yəhudilər:) “Yəhudi olun” və (xristianlar da:) “Xristian olun ki, doğru yolu tapasınız”, – dedilər. De ki: “Xeyr, biz haqqa yönələn İbrahimin dininə tabe olarıq. O, Allaha şərik qoşanlardan deyildi”.

136. Deyin ki: “Biz Allaha, bizə endirilənə (Qur`ana), İbrahim, İsmail, İshaq, Yaqub və Yaqub oğullarına endirilənə, Musa və İsaya verilən (Tövrat və İncil) ilə digər bütün peyğəmbərlərə Rəbləri tərəfindən verilənə iman etdik. Onlardan heç biri arasında fərq qoymarıq və biz ona təslim olmuş kəslərik”.

137. Əgər onlar sizin iman etdiyiniz kimi iman etsələr, həqiqətən, doğru yolu taparlar. Üz döndərsələr, əlbəttə ki, onlar dərin bir təfriqəyə düşərlər. Allah səni onlardan qoruyacaq. O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

138. “Biz Allahın boyası ilə boyanmışıq. Boyası Allahın boyasından daha gözəl olan kimdir? Biz ona ibadət edənlərik”, – (deyin).[1]

139. Onlara de ki: “Allah haqqındamı bizimlə mübahisə edirsiniz? Halbuki O, bizim də Rəbbimizdir, sizin də. Bizim etdiklərimiz bizə, sizin etdikləriniz sizə aiddir. Biz Ona ürəkdən bağlanmışıq”.

140. Yoxsa siz: “İbrahim də, İsmail də, İshaq da, Yaqub ilə Yaqub oğulları da yəhudi və xristian idilər”, – deyirsiniz? De ki: “Siz daha yaxşı bilirsiniz, yoxsa Allah?” Allahdan gələn bir həqiqəti gizləyən kimsədən daha zalım kim ola bilər? Allah etdiyiniz əməllərdən xəbərsiz deyil.

141. Onlar keçib getmiş bir ümmətdir. Onların qazandıqları onların, sizin qazandıqlarınız sizindir. Siz onların etdiklərindən məsul tutulmazsınız.

142. Bəzi özünübilməz insanlar: “Onları (müsəlmanları) üz tutduqları qiblədən döndərən nədir?” – deyəcəklər. De ki: “Şərq də, qərb də Allahındır. Allah istədiyi kimsəni doğru yola yönəldər”.

143. Beləliklə, sizi orta bir ümmət[2] etdik ki, siz insanlara şahid (və nümunə) olasınız, Peyğəmbər də sizə şahid (və nümunə) olsun. Hər nə qədər Allahın doğru yolu göstərdiyi kəslərdən başqasına ağır gəlsə də, biz üz tutduğun cəhəti ancaq Rəsula tabe olanlarla üz döndərənləri ayırd etmək üçün qiblə təyin etdik. Allah imanınızı boşa çıxarmaz. Şübhəsiz, Allah insanlara qarşı çox şəfqətli və çox mərhəmətlidir.[3]

144. (Ey Muhamməd!) Biz sənin üzünü göyə çevirdiyini (vəhy gözlədiyini) görürük.

---

1 Xristianlar yeni doğulan uşaqlarını, Xristianlığı qəbul edənləri ya da bir kilsənin mənsubiyyətindən çıxıb başqa kilsənin mənsubiyyətinə keçənləri vəftiz edirlər. Vəftiz su səpmək və ya suya batırmaqla edilir. Ata, Oğul və Müqəddəs Ruh naminə icra edilən bu ayinin insanı təbiətindəki günahkarlıqdan qurtaracağına, beləliklə, sanki insanın yeni bir həyat boyasına boyanacağına inanırlar. Vəftiz ayininin əsli Yəhudilikdən gəlir.

Bu ayədə həqiqi qurtuluşun bu cür zahiri və rəmzi əməllərlə deyil, Allahın insanların fitrətinə yerləşdirdiyi tövhid inancı ilə mümkün olacağı vurğulanır.

2 Ayədəki “orta ümmət” ifadəsi ilə ədalətli, sayseçmə, hər baxımdan mötədil, haqdan əsla uzaqlaşmayan, öndər, bütün cəmiyyətlər tərəfindən haqqa və hüquqa riayət etmək baxımından hakim bir ümmət nəzərdə tutulur.

3 Bu və bundan sonrakı üç ayədə qiblənin Qüdsdən Kəbəyə çevrilməsi və bu barədə yəhudilərin yaydığı dedi-qodular dilə gətirilir və cavablandırılır.

(Narahat olma,) əlbəttə ki, səni razı qalacağın bir qibləyə tərəf döndərəcəyik. (Bundan sonra) üzünü Məscidi-Harama tərəf çevir. (Ey müsəlmanlar!) Siz də harada olursunuz olun, (namazda) üzünüzü hər zaman ona tərəf çevirin. Şübhəsiz ki, kitab verilənlər bunun Rəblərindən (gələn) bir həqiqət olduğunu bilirlər. Allah onların etdiklərindən xəbərsiz deyil.[1]

**145.** And olsun ki, sən kitab verilənlərə hər cür möcüzə gətirsən də, onlar yenə də sənin qiblənə tabe olmazlar. Sən də onların qibləsinə tabe olan deyilsən. Onlar bir-birilərinin qibləsinə də tabe olmazlar. And olsun ki, əgər sənə gələn bu qədər elmdən sonra onların arzu və istəklərinə uysan, şübhəsiz ki, onda sən də zalımlardan olarsan.

**146.** Kitab verdiklərimiz onu (Peyğəmbəri) oğullarını tanıdıqları kimi tanıyırlar. Hal belə ikən onlardan bəziləri bilə-bilə həqiqəti ört-basdır edirlər.[2]

**147.** Haqq ancaq Rəbbindəndir. Artıq şübhəyə düşənlərdən olma!

**148.** Hər kəsin üz tutduğu bir yön var. Haydı, xeyirlərə tələsin, (xeyirdə) yarışın! Harada olsanız, Allah hamınızı bir yerə toplayar. Şübhəsiz ki, Allahın gücü hər şeyə haqqı ilə çatar.

**149.** (Ey Muhamməd!) Haradan yola çıxırsan çıx, (namazda) Məscidi-Harama tərəf dön. Bu, əlbəttə, Rəbbindən gələn gerçək bir əmrdir. Allah sizin etdiklərinizdən əsla xəbərsiz deyil.

**150.** (Ey Muhamməd!) Haradan yola çıxırsan çıx, üzünü Məscidi-Harama tərəf çevir. (Ey möminlər!) Siz də harada olursunuz olun, üzünüzü Məscidi-Harama çevirin ki, zalımlardan qeyri kimsələrin əlində (sizə qarşı) bir dəlil olmasın. Zalımlardan qorxmayın, məndən qorxun. Beləliklə, sizə olan nemətlərimi tamamlayım və doğru yolu tapasınız.

**151.** Aranızdan sizə ayələrimizi oxuyan, sizi hər pislikdən təmizləyən, sizə kitab və hikməti öyrədən və bilmədiklərinizi də öyrədən bir peyğəmbər göndərdik.

**152.** Elə isə yalnız məni anın ki, mən də sizi anım. Mənə şükür edin, nankorluq etməyin.

**153.** Ey iman edənlər! Səbir edərək və namaz qılaraq Allahdan yardım diləyin. Şübhə yoxdur ki, Allah səbir edənlərlədir.[3]

---

1 Həzrət Peyğəmbər hicrətin 2-ci ilinin ortalarına qədər namazda üzünü Qüdsə tərəf çevirir, lakin Kəbə tərəfə yönəlməklə bağlı əmrin gəlməsini hey gözləyirdi. Bir əsr namazı əsnasında Allah-Təala Kəbəyə tərəf dönməsini əmr etdi. Qüdsə tərəf yönələrək başlayan bu namaz Kəbəyə tərəf yönələrək tamamlandı. Bu hadisənin baş verdiyi yerdə inşa edilən məscid bu gün “Məscidi-Qibləteyn”, yəni iki qibləli məscid adı ilə tanınır.

2 Yəhudilər və xristianlar həzrət Peyğəmbərə aid xüsusiyyətləri öz müqəddəs kitablarından oxuduqları üçün onu çox yaxşı tanıyırdılar. Ayədə yəhudilərin və xristianların həzrət Peyğəmbəri inkar etmələrinin məlumatsızlıqdan deyil, inadkarlıqdan qaynaqlandığına işarə edilir.

3 Səbir insanı kamilləşdirir, inkişaf etdirir və gücləndirir. Namaz isə Allaha qulluğun, təslimiyyətin və nemətlərə qarşı şükrün ən yüksək ifadə forması və fəal, müntəzəm bir həyatın göstəricisidir. Ayədə çətinliklər qarşısında insanı həm mənəvi, həm də maddi olaraq gücləndirəcək iki əsas ünsürdən faydalanmaq tövsiyə olunur.

**154.** Allah yolunda öldürülənlərə "ölülər" deməyin. Xeyr, onlar diridirlər. Ancaq siz bunu bilməzsiniz.[1]

**155.** And olsun ki, sizi bir az qorxu və aclıqla, bir də mallar, canlar və məhsullardan azaltmaqla imtahan edərik. Səbir edənləri müjdələ.

**156.** Başlarına bir müsibət gəldiyi zaman onlar: "Biz şübhəsiz, (hər şeyimizlə) Allaha aidik və şübhəsiz ki, Ona qayıdacağıq", – deyərlər.

**157.** Rəbləri qatından rəhmət və mərhəmət məhz onlaradır. Doğru yola qovuşdurulmuş olanlar da məhz onlardır.

**158.** Şübhəsiz ki, Səfa ilə Mərvə Allahın (dininin) nişanələrindəndir. Ona görə də kim həcc və ümrə niyyəti ilə Kəbəni ziyarət edər və onları da təvaf edərsə, bunda bir günah yoxdur.[2] Kim də könüllü olaraq xeyirli bir iş görərsə, şübhəsiz ki, Allah onu bilər və əvəzini verər.

**159.** Biz endirdiyimiz açıq-aydın dəlilləri və hidayəti Kitabda açıqladıqdan sonra onları gizləyənlərə həm Allah lənət edər, həm də bütün lənət edənlər lənət edər.[3]

**160.** Ancaq tövbə edib (özlərini) islah edənlər və həqiqəti açıq-aydın bəyan edənlər (lənətlənməkdən) qurtularlar. Çünki mən onların tövbələrini qəbul edərəm. Mən tövbələri çox qəbul edənəm, çox mərhəmət göstərənəm.

**161.** Lakin ayələrimizi inkar edən və kafir olaraq ölənlərə gəlincə, Allahın, mələklərin və bütün insanların lənəti onlaradır.

**162.** Onlar əbədi olaraq lənət içərisində qalarlar. Artıq onların nə əzabı yüngülləşdirilər, nə də üzlərinə baxılar.

**163.** Sizin ilahınız tək bir ilahdır. Ondan başqa ilah yoxdur. O, Rəhmandır, Rəhimdir.[4]

**164.** Şübhəsiz ki, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-biri ardınca gəlməsində, insanlara fayda verəcək şeyləri daşıyaraq dənizdə üzən gəmilərdə, Allahın səmadan endirib ölmüş torpağı diriltdiyi yağışda, hər növ canlını yer üzünə yaymasında, küləkləri və göylə yer arasındakı əmrə amadə buludların (bir tərəfdən başqa tərəfə) yönləndirilməsində, əlbəttə, düşünən bir qövm üçün dəlillər var.

**165.** İnsanlar arasında Allahı qoyub Ona şərik qoşanlar var. Onları Allahı sevən kimi sevərlər.  Möminlərin Allaha olan sevgisi daha güclü bir sevgidir. Zülm edənlər əzaba uğrayacaqları zaman bütün qüvvətin Allaha məxsus olduğunu və Allahın əzabının çox şiddətli olduğunu kaş ki, biləydilər.

---

1 Ayədə şəhidlik mərtəbəsinin ucalığı vurğulanır. Eyni mənaya gələn başqa bir ifadə üçün Ali-İmran surəsinin 169-cu ayəsinə baxın.

2 Səfa ilə Mərvə Kəbənin şərq tərəfindəki iki təpənin adıdır. Bu iki təpə arasında müəyyən bir üsula görə gedib-gəlmək mənasındakı "sə`y" həzrət İbrahim, arvadı Həcər və oğlu İsmailə qədər gedib çıxan bir ənənənin yaşadılması olub, həccin və ümrənin vacib rüknlərindəndir. Cahiliyyə dövründə Səfa və Mərvə təpələrində bütlər yerləşdirilmişdi və müşriklər də bu təpələr arasında sə`y edirdilər. İslam gəldiyi zaman möminlər bu qədim müşrik adəti səbəbi ilə Səfa və Mərvə təpələri arasında sə`y etmək barəsində tərəddüd etmişdilər. Bu ayə onların həmin narahatlığını aradan qaldırmışdır.

3 Lənət edənlərin Allah, mələklər və insanlar olduğu bu surənin 161-ci ayəsi və Ali-İmran surəsinin 87-ci ayəsində açıqlanmışdır.

4 "Rəhman" və "Rəhim" sözlərinin mənaları üçün Fatihə surəsinin ikinci ayəsinə aid istinada baxın.

166. Tabe olunanlar o gün əzabı gördükdə, özlərinə tabe olanlardan uzaqlaşacaqlar, aralarındakı bütün bağlar qopacaqdır.

167. Tabe olanlar belə deyərlər: "Kaş ki, dünyaya bir qayıdaydıq, onların indi bizdən uzaqlaşdıqları kimi biz də onlardan uzaqlaşaydıq". Beləliklə, Allah onlara etdikləri əməlləri peşmanlıq qaynağı olaraq göstərər. Onlar atəşdən çıxacaq deyillər.

168. Ey insanlar! Yer üzündəki nemətlərin halal və təmiz olanlarından yeyin! Şeytanın izi ilə getməyin. Çünki o, sizin üçün açıq-aşkar bir düşməndir.

169. O, sizə ancaq pisliyi, həyasızlığı və Allaha qarşı bilmədiyiniz şeyləri söyləməyinizi əmr edir.

170. Onlara: "Allahın endirdiyinə tabe olun!" – deyildikdə, "Xeyr, biz atalarımızın yolu ilə gedərik!" – deyərlər. Bəs ataları heç nə anlamayan, doğru yolu tapa bilməyən kimsələr olsalar (yenəmi onların yoluna tabe olacaqlar)?[1]

171. İnkar edənləri imana çağıran (peyğəmbər) ilə inkar edənlərin halı qışqırtı və bağırtıdan başqa bir şey eşitməyən heyvanları çağıran (çoban) ilə heyvanların halı kimidir. Onlar kardırlar (həqiqətləri eşitməzlər), laldırlar (həqiqətləri danışmazlar), kordurlar (həqiqətləri görməzlər). Buna görə də anlamazlar.

172. Ey iman edənlər! Əgər siz ancaq Allaha ibadət edirsinizsə, sizə verdiyimiz ruzilərin yaxşı və təmizlərindən yeyin və Allaha şükür edin.

173. Allah sizə ancaq leş, qan, donuz əti və Allahdan başqası adına kəsiləni haram etdi. Ancaq kim məcburiyyət qarşısında qalaraq sui-istifadə etmədən və zəruri ehtiyac miqdarını aşmadan yeməli olarsa, ona günah yoxdur. Şübhəsiz ki, Allah çox bağışlayandır və çox mərhəmət edəndir.[2]

174. Allahın endirdiyi kitabdan bir qismini gizlədib onu ucuz qiymətə dəyişənlər (ucuza satanlar) qarınlarına atəşdən başqa bir şey doldurmurlar. Qiyamət günü Allah onlarla nə danışacaq, nə də onları təmizə çıxaracaqdır. Onlar üçün ağrılı-acılı bir əzab var.[3]

175. Məhz bunlar hidayəti verib sapqınlığı, bağışlanmağı verib əzabı satın alanlardır. Onlar cəhənnəm oduna qarşı nə qədər də dözümlüdürlər!?

176. Bu (əzab) da Allahın Kitabı haqq olaraq endirməsi (və onların bunu inkar etməsi) səbəbi ilədir. Kitab barəsində ixtilafa düşənlər isə dərin bir nifaq içərisindədirlər.

177. Yaxşılıq üzlərinizi şərq və qərb tərəfə çevirməniz (dən ibarət) deyildir. Əsl yax-

---

1 Ayədə əməllərinin yanlışlığını və çirkinliyini başa düşmədən atalarının etiqadını kor-koranə təqlid edən müşriklər qınanır.

2 İslamda zərurətlərin məhzurları (haramları) aradan qaldırması ilə bağlı ən gözəl dəlil bu ayədə öz əksini tapmışdır. Bir haramı halal saymamaq və həddi aşmamaq şərti ilə məcburiyyət halında zərurət miqdarına görə günah və suç olan bir hərəkəti etmək olar. Yeyilməsi haram olan şeyərlə bağlı əlavə olaraq baxın: Nəhl, 16/115.

3 Son peyğəmbər həzrət Muhammədin əlamət və xüsusiyyətləri Tövratda bildirilmişdi. Yəhudi din adamları bunları gizlədilər. Beləliklə, həm özləri, həm də qövmləri sapdılar. Buna görə ayədə keçən kitab kəlməsi ilə Tövrat, gizlədikləri şey ifadəsi ilə də həzrət Peyğəmbərin əlamət və xüsusiyyətləri nəzərdə tutulur. Ancaq Allahın kitabında yer alan hər hansı bir hökmü gizləməyə istiqamətlənmiş hər bir niyyət və təşəbbüs buna daxildir.

şılıq Allaha, axirət gününə, mələklərə, kitab və peyğəmbərlərə iman edənlərin, mal-dövlətə olan sevgilərinə baxmayaraq onu yaxınlara, yetimlərə, yoxsullara, yolda qalmışa, (möhtac olduğu üçün) istəyənə və (azadlığa qovuşmaları üçün) kölələrə verənlərin, namazı düzgün qılan, zəkatı verən, əhd bağladıqda sözlərini yerinə yetirənlərin və çətinlikdə, xəstəlikdə və savaşın qızışdığı zamanlarda (dözüb) səbir edənlərin hal və hərəkətləridir. Məhz bunlar doğru olanlardır. Allaha qarşı gəlməkdən çəkinənlər məhz onlardır.

**178.** Ey iman edənlər! Öldürülənlərdən ötrü qisas almaq sizə vacib buyuruldu. Azadın əvəzində azad, kölənin əvəzində kölə, qadının əvəzində qadın qisasla cəzalandırılar. Ancaq öldürən kəs qardaşı (öldürülənin varisi, qəyyumu) tərəfindən bağışlanarsa, ağlın və dinin tələblərinə uyğun bir yol tutulmalı və gözəl bir şəkildə qanbahası ödənməlidir. Bu, Rəbbiniz tərəfindən bir asanlıq və rəhmətdir. Bundan sonra həddi aşana ağrılı-acılı bir əzab var.[1]

**179.** Ey ağıl sahibləri! Qisasda sizin üçün həyat var. Ola bilsin ki, (bu hökmə tabe olaraq) qorunasınız.

**180.** Sizdən birinə ölüm gəlib çatdığı zaman əgər arxada bir xeyir (mal) qoymuşsa, anaya, ataya və yaxın qohumlara məqbul bir vəsiyyət etməsi – Allaha qarşı gəlməkdən çəkinənlər üzərində bir haqq olaraq – sizə vacib buyuruldu.[2]

**181.** Kim eşitdikdən sonra vəsiyyəti dəyişdirərsə, günahı ancaq onu dəyişdirənlərin boynunadır. Şübhəsiz ki, Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

**182.** Vəsiyyət edənin xətaya düşməsindən və günaha batmasından qorxan bir kimsə (tərəflərin) arasını düzəldərsə, ona heç bir günah yoxdur. Şübhəsiz ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

**183.** Ey iman edənlər! Allaha qarşı gəlməkdən çəkinməniz üçün oruc sizdən əvvəlkilərə fərz buyurulduğu kimi, sizə də fərz buyuruldu.

**184.** Oruc müəyyən saydakı günlərdədir. Sizdən kim xəstə ya da səfərdə olarsa, oruc tuta bilmədiyi günlərin sayı qədər başqa günlərdə tutsun. Oruc tutmağa gücü çatmayanlar isə bir yoxsulu doyuracaq qədər fidyə versin.[3] Bununla birlikdə kim

1 Qisas misli ilə əvəz çıxmaq deməkdir. İslam hüququnda isə qəsdən və haqsız yerə birini öldürmə ya da bədəninə və ya hər hansı bir üzvünə zərər vurmaqla cinayət işləyən kəslərin, vurduqları zərərin eynisi ilə cəzalandırılmaları deməkdir. Bu ayədə qisas "cana can" qaydasını ifadə edir. Maidə surəsinin 45-ci ayəsi qisasın şamil olduğu suçları bildirir. Qisas sahibinin qisas tələb etmədiyi təqdirdə qisas qanbahası (diyə) ilə əvəz olunur. Xristianlıqda adam öldürənin bağışlanması, yəhudilikdə isə qisasın mütləq tətbiq olunması bir qaydadır. İslam diyə ilə orta yolu tutdu.

2 Vəsiyyətlə bağlı bu əmr hələ mirasla bağlı qaydalar açıqlanmadan əvvəl verilmişdi. Məqsəd isə varisləri ədalətsizlikdən qorumaq idi. Daha sonra mirasla əlaqədar hökmlər Nisa surəsində açıqlandı.

3 Ramazan orucu yetkinlik yaşına çatmış, ağlı yerində olan hər müsəlmana vacibdir. Xəstəlik, səfər, qadınlara xas müəyyən günlər kimi səbəblərdən ötrü Ramazan ayında oruc tuta bilməyənlər bu orucları şərtlərin əlverişli olduğu başqa vaxtlarda qəza edərlər. Səbəbsiz yerə oruc tutmayanlar böyük günah işləmiş olarlar. Həddindən artıq yaşlı olanlar ya da çarəsiz xəstələr bu səbəblə oruc tutmaz və bu orucları qəza etməkdən də ümid kəsərlərsə, orucsuz keçirilən hər günə görə bir fidyə verərlər. Fidyə eynilə fitr sədəqəsi kimi bir yoxsulu bir gün doyurmaq ya da bunun müqabilini verməkdir.

könüllü olaraq bir yaxşılıq edərsə (məsələn, fidyəni artıq verərsə), bu, onun üçün daha xeyirli olar. Əgər bilsəniz, oruc tutmağınız sizin üçün daha xeyirlidir.

**185.** (O müəyyən saydakı günlər) insanlar üçün bir hidayət, doğru yolun və haqq ilə batili bir-birindən ayırd etməyin açıq-aşkar dəlilləri olaraq Qur`anın endirildiyi Ramazan ayıdır. Elə isə sizdən kim bu aya yetişərsə, onu oruclu keçirsin. Kim də xəstə və ya səfərdə olarsa, tuta bilmədiyi günlərin sayı qədər başqa günlərdə oruc tutsun. Allah sizin üçün asanlıq istər, çətinlik istəməz. Bu da sayı tamamlamanız və hidayətə çatdırdığı üçün Allahı uca tutmanız və şükür etməniz üçündür.

**186.** Qullarım məni səndən soruşsalar, (bilsinlər ki,) həqiqətən, mən (onlara çox) yaxınam. Mənə dua etdikdə dua edənin duasına cavab verərəm. O halda doğru yolu tapmaları üçün mənim dəvətimə uysunlar, mənə iman etsinlər.

**187.** Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi.[1] Onlar sizə örtükdürlər, siz də onlara örtüksünüz.[2] Allah (Ramazan gecələrində qadınlarınıza yaxınlaşaraq) özünüzə zülm etdiyinizi bildi, tövbənizi qəbul edib sizi bağışladı. Artıq qadınlarınıza yaxınlaşın və Allahın sizin üçün yazıb təqdir etdiyini istəyin. Sübhün aydınlığı gecənin qaranlığından fərqlənənə (dan yeri ağarana) qədər yeyin, için. Sonra da axşama qədər orucu tam tutun. Bununla birlikdə siz məscidlərdə etikafda ikən qadınlarınızla yaxınlaşmayın. Bunlar Allahın qoyduğu hədlərdir. Bu hədlərə yaxınlaşmayın. Allah ayələrini insanlara belə açıqlayır ki, ona qarşı gəlməkdən çəkinsinlər.

**188.** Aranızda bir-birinizin mallarını haqsız yerə yeməyin. İnsanların mallarından bir qismini bilə-bilə günaha girərək yemək üçün onları səlahiyyət sahiblərinə[3] (rüşvət olaraq) verməyin.

**189.** Səndən hilalları soruşurlar. De ki: "Onlar insanlar və həcc üçün vaxt ölçüləridir.[4] Yaxşılıq evlərə arxalarından girməyiniz deyildir. Ancaq yaxşı davranış təqva sahibi (Allaha qarşı gəlməkdən çəkinən) insanın davranışıdır. Evlərə qapılarından girin. Allaha qarşı gəlməkdən çəkinin ki, nicat tapasınız".[5]

---

1 Təfsir mənbələrinə görə orucun vacib buyurulduğu ilk dövlərdə müsəlmanlar oruc tutacaqları zaman yalnız günəşin batmasından işa namazını qılına ya da yatana qədər yeyib-içmək və cinsi əlaqədə olmaq halal idi. Bir sözlə imsak işa namazından ya da yatmaq vaxtından etibarən başlayardı. Ayədə işa namazından ya da yatmaq vaxtından sonra da cinsi əlaqənin orucu pozmadığı vurğulanır.

2 Ayənin bu qismində ər-arvad arasındakı münasibətin təbii xarakteri bədii üslubla qeyd olunur. Libas və örtü insanı soyuqdan və istidən necə qoruyur, qüsurlarını necə örtürsə, eləcə, ər ilə arvad da bir-birinin qoruyucusu, bir-birinə bağlı olmalıdır.

3 Hakim hökm edən, idarə edən, səlahiyyətli mənalarına gəlir. Buna görə bu söz məhkəmədə hökm verən hakim də daxil olmaqla vəzifə başında olan səlahiyyətli hər bir kəsə şamildir.

4 Həzrət Peyğəmbərdən "Niyə hilal əvvəlcə sap kimi incə görünür, sonra qalınlaşır, nəhayət, dairə şəklini alır?" – deyə soruşuldu. Ayənin bu qismində həmin suala ayın hərəkətlərinin vaxtı təyin etməkdə, xüsusilə həcc, oruc və zəkat kimi ibadətlərin vaxtlarının müəyyənləşdirilməsində bir ölçü olduğu bildirilərək cavab verilir. Eyni mövzuya Yunus surəsinin 5-ci ayəsi ilə İsra surəsinin 12-ci ayəsində də toxunulur.

5 Cahilliyə dövründə ərəblər ehramlı olduqları zaman evlərinə arxa tərəfdən açdıqları bir yerdən daxil olar və bunu yaxşı bir əməl sayardılar. Ayə onların bu davranışlarının mənasız olduğunu, əsl yaxşılığın təqvaya (Allaha qarşı gəlməkdən çəkinməyə) əsaslanan davranışlar olduğunu vurğulayır.

190. Sizinlə savaşanlara qarşı Allah yolunda siz də savaşın. Lakin həddi aşmayın.[1] Çünki Allah həddi aşanları sevməz.

191. Onları harada yaxalasanız, öldürün. Sizi çıxardıqları yerdən (Məkkədən) siz də onları çıxarın. Zülm və təzyiq adam öldürməkdən daha ağırdır. Lakin Məscidi-Həram yanında onlar sizinlə savaşmadıqca siz də onlarla savaşmayın. Sizinlə savaşsalar, (siz də onlarla savaşın) onları öldürün. Kafirlərin cəzası belədir.[2]

192. Əgər onlar (savaşdan və küfrdən) əl çəksələr, (bunu yaxşı bilin ki,) Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

193. Heç bir zülm və təzyiq qalmayana və din yalnız Allahın olana qədər onlarla savaşın. Onlar savaşmağa son qoysalar, artıq düşmənlik yalnız zalımlara qarşıdır.

194. Haram ay haram aya qarşılıqdır.[3] Hörmətlər (ehtiram göstərilməsi lazım gələn şeylər) qisas qaydasına tabedir. O halda kim sizə hücum etsə, sizə hücum etdiyi kimi siz də ona hücum edin, (lakin həddi aşmayın). Allaha qarşı gəlməkdən çəkinin və bilin ki, Allah özünə qarşı gəlməkdən çəkinənlərlədir.[4]

195. (Mallarınızı) Allah yolunda xərcləyin. Özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevər.

196. Həcci də, ümrəni də Allah üçün tamamlayın. Əgər (düşmən, xəstəlik və bu kimi səbəblərlə) maneə ilə qarşılaşsanız, artıq sizə asan olan qurbanı göndərin. Bu qurban yerinə çatana qədər başınızı qırxmayın. Sizdən kim xəstələnər və ya başında bir ağrı olar (başını qırxdırmaq məcburiyyətində qalar)sa, fidyə olaraq ya oruc tutmalı, ya sədəqə verməli, ya da qurban kəsməlidir. (Təhlükə və maneələrin aradan qalxdığına) əmin olduğunuz zaman həccə qədər ümrə ilə savab qazanmaq istəyən kəs özü üçün asan olan bir qurban kəsməlidir. Tapa bilməyən isə üçü həcdə, yeddisi də qayıtdığınız zaman (olmaqla) tam on gün oruc tutmalıdır. Bu (ziyarət) ailəsi

---

1 "Həddi aşmayın" ifadəsi ilə məcbur qalmadıqca savaşa girilməməsi, savaş qaçılmaz olduqda uşaqlara, qadınlara, qocalara və dinc əhaliyə zərər verilməməsi, işgəncə edilməməsi və s. kimi məsələlər nəzərdə tutulur.

2 Müşriklər tərəfindən ata yurdları Məkkədən çıxarılan müsəlmanlar çətin şəraitdə Mədinədə yeni bir həyat qurmağa çalışır, lakin düşmənləri onları burada da rahat buraxmırdılar. Hər fürsətdə onları yox etməyə çalışır, ədavəti davam etdirirdilər. Ayədə müsəlmanlara xitab edilərək davamlı olaraq təhlükə yaradan, fitnə çıxaran bu düşmənləri qarşılıqlılıq prinsipinə əsasən aradan qaldırmaları və ata yurdları Məkkənin yolunu özləri üçün yenidən açmaları əmr edilir.

İslam müsəlmanlara hücum etməyən, özləri üçün təhlükə təşkil etməyən, dini təbliğ etməyə mane olmayan, aralarında sülh müqaviləsi olan qeyri-müsəlmanları öldürməyi, müsəlman olmağa məcbur etməyi, onlarla savaşmağı qadağan edir.

Qur`anda keçən savaş və cihadla bağlı bütün hökmlər bu şərtlərə bağlıdır. Başqalarının zorla müsəlman edilməyəcəyi barəsində Qur`anın yanaşması üçün baxın: Bəqərə, 2/272; Yunus, 10/99; Hud, 11/118; Yusuf, 12/103; Kəhf, 18/29.

3 Haram ay ehtiram göstərilməsi lazım olan bir zaman dilimi olduğu üçün savaşın qadağan olduğu ay deməkdir. Haram aylar zilhiccə, zilqədə, məhərrəm və rəcəb olmaqla dörddür. İslam haram ay ənənəsini ləğv etmişdir.

4 Bu ayədə haram aylarda müsəlmanlara savaş açıldığı təqdirdə onların da bu aylarda qarşılıq verə biləcəkləri ifadə edilməkdə, əlavə olaraq, bu hökmü də ehtiva edəcək şəkildə ümumi qisas prinsipi gətirilməkdədir.

Məscidi-Həram yaxınında olmayanlar üçündür. Allaha qarşı gəlməkdən çəkinin və Allahın cəzalandırmasının şiddətli olduğunu bilin.

**197.** Həcc ayları məlum aylardır.[1] Kim o aylarda həccə başlarsa, artıq ona həcdə cinsi yaxınlıq, günaha düşmək, dava-dalaş etmək olmaz. Siz nə xeyir iş görsəniz, Allah onu bilər. (Axirət üçün) azuqə toplayın. Şübhəsiz ki, ən xeyirli azuqə təqvadır (Allaha qarşı gəlməkdən çəkinməkdir). Ey ağıl sahibləri, mənə qarşı gəlməkdən çəkinin.

**198.** (Həcc mövsümündə ticarətlə məşğul olaraq) Rəbbinizin lütf və kərəmini istəməkdə sizə bir günah yoxdur. Ərəfatdan ayrılıb (sel kimi Müzdəlifəyə) axın etdiyiniz zaman Məş`əri-Haramda Allahı zikr edin.[2] Onu, sizə göstərdiyi kimi zikr edin. Doğrusu, siz Onun yol göstərməsindən əvvəl yolunu itirmişlərdən idiniz.

**199.** Sonra insanların axın etdiyi yerdən siz də axın edin və Allahdan bağışlanma diləyin. Şübhəsiz ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

**200.** Həcc ibadətinizi tamamladığınız zaman artıq (cahiliyyə dövründə) atalarınızı yad etdiyiniz kimi, hətta ondan da qüvvətli bir şəkildə Allahı zikr edin. İnsanlardan "Ey Rəbbimiz! Bizə (verəcəyini) bu dünyada ver" deyənlər var. Bunların axirətdə götürəcəyi bir pay yoxdur.[3]

**201.** Onlardan "Rəbbimiz! Bizə dünyada da yaxşılıq ver, axirətdə də yaxşılıq ver və bizi cəhənnəm odunun əzabından qoru" deyənlər də var.

**202.** Məhz onlara qazandıqlarından bir nəsib var. Allah çox tez hesaba çəkəndir.

**203.** Sayı bəlli olan günlərdə[4] Allahı zikr edin (təlbiyə və təkbir gətirin). Kim iki gün içində tələsib (Minadan Məkkəyə) qayıdarsa, ona günah yoxdur. Kim qalarsa, ona da günah yoxdur. Bu, Allaha qarşı gəlməkdən çəkinənlər üçündür. Allaha qarşı gəlməkdən çəkinin və Onun hüzurunda toplanacağınızı bilin.

**204.** İnsanlardan eləsi də var ki, dünya həyatına dair sözləri sənin xoşuna gələr. Bir də Allahı qəlbindəkinə (özü ilə sözünün bir olduğuna) şahid tutar. Halbuki o, düşmənçilikdə ən amansız olandır.

**205.** O, (sənin yanından) ayrılan kimi yer üzündə fitnə-fəsad çıxarmağa, əkini və nəsli yox etməyə çalışar. Allah isə fitnə-fəsadı sevməz.

**206.** Ona "Allahdan qorx", – deyildiyi zaman qüruru onu daha da günaha sövq edər. Artıq beləsinin öhdəsindən cəhənnəm gələr. O nə pis yataqdır!

**207.** İnsanlardan eləsi də var ki, Allahın razılığını qazanmaq üçün özünü fəda edər. Allah qullarına qarşı çox şəfqətlidir.

---

1 Həcc ayları şəvval və zilqədə ayları ilə zilhiccə ayının ilk on günüdür.

2 Məş`əri-Haram Müzdəlifədə bir yerdir. Müzdəlifəyə gəldikdə vəqfənin burada edilməsi sünnədir.

3 Təfsir mənbələrinə görə İslamdan əvvəl müşriklər həcc ayinlərini tamamladıqdan sonra Müzdəlifədə oturar, atalarını yad edər, onların və özlərinin uğurları ilə öyünərdilər. Bu ayədə müsəlmanlara müşriklərin bu adəti ilə əməl etməmələri və Allahı çox zikr etmələri xatırladılır.

4 "Sayı bəlli olan günlər" təşriq günləridir. Təşriq günləri isə zilhiccə ayının 9, 10, 11, 12 və 13-cü günləridir.

208. Ey iman edənlər! Hamılıqla sülhə və əmin-amanlığa (İslama) daxil olun. Şeytanın izi ilə addımlamayın. Çünki o, sizə açıq-aşkar düşməndir.

209. Sizə açıq-aydın dəlillər gəldikdən sonra əgər yenə yanlış yola düşsəniz, bilin ki, Allah, həqiqətən, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

210. Onlar (belə davranmaqla) bulud kölgələri içində Allahın (əzabının) və mələklərin onlara gəlməsini və işin bitməsinimi gözləyirlər? Halbuki bütün işlər Allaha döndərilir.

211. İsrail oğullarından soruş; biz onlara neçə-neçə açıq-aşkar möcüzələr verdik. Allahın nemətinə nail olduqdan sonra kim onu dəyişdirərsə, (bilsin ki,) şübhəsiz ki, Allah cəzalandırması çox şiddətli olandır.

212. İnkar edənlərə dünya həyatı təmtəraqlı göstərildi. Onlar iman edənlərə istehza ilə baxırlar. Allaha qarşı gəlməkdən çəkinənlər isə qiyamət günü bunlardan üstündürlər. Allah istədiyinə saysız-hesabsız ruzi verər.

213. İnsanlar tək bir ümmət idi. Allah müjdə verən və xəbərdar edən peyğəmbərlər göndərdi və onlarla birlikdə, ixtilafa düşdükləri şeylər barəsində insanlar arasında hökm vermək üçün kitabları haqq olaraq endirdi. Onlara açıq-aşkar ayələr gəldikdən sonra o mövzuda ancaq kitab verilmişlər, aralarındakı qısqanclıq ucbatından ixtilafa düşdülər. Belə olduqda Allah iman edənləri, izni ilə, onların haqqında ixtilafa düşdükləri həqiqətə yönəltdi. Allah istədiyini doğru yola yönəldər.

214. Yoxsa siz sizdən əvvəlkilərin başına gələnlər sizin də başınıza gəlmədən cənnətə girəcəyinizimi sandınız? Peyğəmbər və onunla birlikdə olan möminlər: “Allahın yardımı nə zaman (gələcək)?” – deyəcək qədər sıxıntı və çətinliyə uğramış və sarsılmışdılar. Yaxşı bilin ki, Allahın yardımı çox yaxındır.

215. Səndən Allah yolunda nə xərcləyəcəklərini soruşurlar. De ki: “Xeyir olaraq nə xərcləsəniz, o, ata-ana, qohum-əqrəba, yetimlər, yoxsullar və yolda qalanlar üçündür. Xeyir olaraq nə etsəniz, həqiqətən, Allah onu haqqı ilə bilər”.

216. Xoşunuza gəlmədiyi halda savaş sizə vacib buyuruldu. Ola bilər ki, bir şey sizin üçün xeyirli ikən, siz onu xoş qarşılamazsınız. Ola bilər ki, bir şey sizin üçün zərərli ikən, siz onu sevərsiniz. Allah bilər, siz bilməzsiniz.

217. Səndən haram ayda savaşmaq haqqında soruşurlar. De ki: “O ayda savaşmaq böyük bir günahdır. Allahın yoluna yönələnlərə mane olmaq, Onu inkar etmək, Məscidi-Haramın ziyarət edilməsinə mane olmaq və əhalisini oradan çıxarmaq Allah qatında daha böyük günahdır. Zülm və təzyiq isə adam öldürməkdən daha böyükdür. Onlar gücləri çatsa, sizi dininizdən döndərənə qədər sizinlə savaşmağa davam edərlər. Sizdən kim dinindən dönər və kafir olaraq ölərsə, elələrinin etdikləri bütün əməllər dünyada da, axirətdə də boşa çıxmışdır. Bunlar cəhənnəmliklərdir, orada daimi qalacaqlar”.[1]

---

1 Həzrət Peyğəmbər hicri 2-ci ildə Bədr savaşından təqribən iki ay əvvəl Qüreyşin vəziyyətini öyrənmək üçün Abdullah ibn Cəhşin başçılığı altında səkkiz nəfərlik bir dəstə göndərmişdi. Dəstə Bətni-Nəhlə adlanan yerə çatdıqda Qüreyşə aid bir karvana hücum etdi. Bir nəfəri öldürüb iki nəfəri də əsir götürərək Mədinəyə qayıtdılar. Həzrət Peyğəmbər icazəsi olmadan edilən bu işə görə çox məyus oldu. Hadisənin cəmaziyəlaxir ayının son günündə, yoxsa haram ay olan Rəcəb ayının ilk günündə baş verdiyi dəqiq de-

**218.** İman edənlər, hicrət edənlər, Allah yolunda cihad edənlər, şübhəsiz ki, Allahın rəhmətinə ümid edərlər. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

**219.** Səndən içki və qumarı soruşurlar. De ki: "Onlarda həm böyük günah, həm də insanlar üçün (bəzi zahiri) mənfəətlər var. Amma günahları mənfəətlərindən böyükdür". Həmçinin səndən Allah yolunda nə xərcləyəcəklərini soruşurlar. De ki: "Ehtiyacdan artıq qalanı". Allah sizə ayələri belə açıqlayır ki, düşünəsiniz.[1]

**220.** Dünya və axirət haqqında düşünəsiniz deyə belə edir. Bir də səndən yetimləri soruşurlar. De ki: "Onların vəziyyətini yaxşılaşdırmaq xeyirlidir. Əgər onlarla qarışıb (birlikdə yaşa)yarsınızsa, (bunda bir maneə və sıxıntı yoxdur). (Onlar da) sizin qardaşlarınızdır. Allah fitnə-fəsad salanı da bilir, islah edəni də. Allah istəsəydi, sizi çətinə salardı. Şübhəsiz ki, Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir".

**221.** İman etmədikləri müddətcə Allaha şərik qoşan qadınlarla evlənməyin. Allaha şərik qoşan qadın xoşunuza gəlsə də, mömin bir cariyə Allaha şərik qoşan bir qadından daha xeyirlidir. İman etmədikləri müddətcə qadınlarınızı Allaha şərik qoşan kişilərlə evləndirməyin. Allaha şərik qoşan azad kişi xoşunuza gəlsə də, iman edən bir kölə Allaha şərik qoşan bir kişidən daha xeyirlidir. Onlar cəhənnəm oduna çağırırlar, Allah isə izni ilə cənnətə və bağışlanmağa çağırır. O, insanlara ayələrini açıqlayır ki, öyüd götürüb düşünsünlər.

**222.** Səndən qadınların heyz (aybaşı) halı haqqında soruşurlar. De ki: "O, bir əziyyət halıdır. Heyz halında ikən qadınlardan uzaq durun. Təmizlənənə qədər onlara yaxınlaşmayın. Təmizləndikləri zaman Allahın sizə əmr etdiyi yerdən onlara yaxınlaşın. Şübhəsiz ki, Allah çox tövbə edənləri sevər, çox təmizlənənləri sevər".[2]

**223.** Qadınlarınız sizin tarlanızdır.[3] Tarlanıza istədiyiniz kimi gəlin! Özünüz üçün (gələcəyə hazırlıq olaraq) əvvəlcədən gözəl əməllər hazırlayın. Allaha qarşı gəlməkdən çəkinin və hər halda Onun hüzuruna gedəcəyinizi bilin. (Ey Muhamməd!) Möminləri müjdələ.

**224.** Yaxşılıq etməməyə, təqvalı olmamağa və insanların arasını düzəltməməyə dair andlarınıza Allahı sipər tutmayın. (Bu cür andlarınızı pozub kəffarəsini ödəyin və etməli olduğunuz yaxşı işi edin.) Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.[4]

---

yildi. Yəhudilər və müşriklər: "Muhamməd haram ayda savaşır", – deyərək camaat arasında onun əleyhinə təbliğat aparmağa başladılar. Bu ayə məhz o məsələni gündəmə gətirərək, haram ayda savaşmağın günah olduğunu, ancaq müşriklərin bundan daha ağır cinayətlər törədərək insanların Allahın yoluna yönəlməsinə mane olduqlarını, onu inkar etdiklərini, Kəbənin ziyarət edilməsinə mane olub fitnə çıxardıqlarını onlara xatırladır.

1 Bu ayə içki haqqında nazil olan ikinci ayədir. İçki haqqında nazil olan ilk ayə isə Nəhl surəsinin 67-ci ayəsidir. Daha sonra Nisa surəsinin 43-cü və Maidə surəsinin 90-cı ayələri ilə içki tədrici olaraq və birdəfəlik haram buyurulmuşdur.

2 Ayədə qadınların adət halı "əziyyət" olaraq ifadə edilmişdir. Adət halında qadınlar xəstəliyə daha çox yaxın olurlar. O günlərdə onlara yaxınlaşmamaq lazımdır. Burada nəzərdə tutulan yaxınlaşma cinsi əlaqədir.

3 Ayədə ana rəhmi cəninin yaranıb inkişaf etdiyi və dünyaya gələcək hala çatdığı yer olması baxımından toxumun əkilib cücərdiyi və inkişaf etdiyi torpağa bənzədilmişdir.

4 Təfsir mənbələrinə görə, Qur`anın nazil olduğu dövrlərdə bəzi insanlar yaxşılıq etməməyə, təqvadan ira-

**225.** Bilmədən içdiyiniz andlardan ötrü Allah sizi məsul tutmaz, lakin sizi qəlblərinizin qazandığı (bilə-bilə içdiyiniz) andlardan ötrü məsul tutar. Allah çox bağışlayandır, həlimdir (Dərhal cəzalandırmaz, möhlət verər).

**226.** Zövcələrinə yaxınlaşmamağa and içən kəslər üçün dörd ay gözləmə müddəti var. Əgər (bu müddət ərzində) dönsələr, şübhəsiz ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

**227.** Əgər (and içənlər andlarından dönməyib zövcələrini) boşamağa qərar versələr, (ayrılarlar). Bilin ki, Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

**228.** Boşanmış qadınlar öz-özlərinə üç adət (heyz və ya təmizlənmə) müddəti gözləyərlər. Əgər Allaha və axirət gününə inanırlarsa, Allahın onların rəhimlərində yaratdığını gizləmələri onlara halal olmaz. Ərləri bu müddət ərzində barışmaq istəsələr, onları geri almağa daha çox haqq sahibidirlər. Qadınların öhdəlikləri olduğu qədər haqları da var. Lakin kişilərin qadınlar üzərində bir dərəcə fərqi var. Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

**229.** (Geri dönülə bilən) boşama iki dəfədir. Ondan sonrası ya yaxşı dolanmaq ya da xoşluqla buraxmaqdır. (Evlilikdə) tərəflərin Allahın təyin etdiyi ölçüləri qoruya bilməmək qorxusu xaricində, qadınlara verdiklərinizdən bir şeyi (boşanarkən) geri almanız sizin üçün halal olmaz. Əgər onlar Allahın təyin etdiyi ölçülərə riayət etməyəcəklər deyə əndişəyə düşsəniz, o zaman qadının (boşanmaq üçün) bir şey verməsində ikisinə də günah yoxdur. Bunlar Allahın qoyduğu hədlərdir. Bunlardan kənara çıxmayın. Kim Allahın qoyduğu hədlərdən kənara çıxsa, onlar məhz zalımlardır.

**230.** Əgər kişi övrətini (üçüncü dəfə) boşasa, qadın ondan başqa bir kişi ilə nikahlanmadıqca ona halal olmaz.[1] (Bu kişi də) onu boşadığı təqdirdə onlar (qadın ilə əvvəlki əri) Allahın qoyduğu ölçülərə riayət edə biləcəklərinə inanırlarsa, yenidən bir-birilərinə qayıdıb evlənmələrində bir günah yoxdur. Bunlar Allahın anlayan bir qövm üçün açıqladığı ölçüləridir.

**231.** Qadınları boşadığınız və onlar da gözləmə müddətini tamamladıqları zaman ya onları xoşluqla saxlayın ya da xoşluqla buraxın. Haqlarına təcavüz edib zərər vermək üçün onları saxlamayın. Kim bunu edərsə, özünə zülm etmiş olar. Allahın ayələrinə qeyri-ciddi yanaşmayın. Allahın üzərinizdəki nemətini, sizə öyüd vermək üçün endirdiyi Kitabı və hikməti xatırlayın. Allaha qarşı gəlməkdən çəkinin və bilin ki, Allah hər şeyi haqqı ilə biləndir.

---

li gələn bəzi işləri etməməyə. İnananların arasını düzəltməməyə and içir, sonra da bu istiqamətdə üzərlərinə bir öhdəlik düşdükdə: “And içmişəm, bunu edə bilmərəm” deyərək andlarını bəhanə edirdilər. Ayədə bu cür andlara bağlı qalmamaq vurğulanır. Pozulan andlar üçün kəffarə lazımdır. (Andın kəffarəsi üçün baxın: Maidə, 5/89.)

1 Üçüncü boşanmadan sonra qadının başqa bir kişi ilə evliliyi daimi, ailə həyatını davam etdirmək niyyəti ilə olmalı, başqa bir plan və hesaba əsaslanmamalıdır. Keçmiş əri ilə yenidən evlənmə imkanı əldə etmək məqsədilə saxta evlilik yoluna getmək onunla yenidən evlənməyə imkan verməz. Peyğəmbərimiz bu kimi təşəbbüslərə əl atanları şiddətlə qınamışdır.

Üçüncü dəfə boşanan qadının keçmiş əri ilə evlənə bilməsi üçün evliliyin sona çatması və qadının iddət müddətini doldurması lazımdır.

232. Qadınları boşadığınız və onlar da gözləmə müddətini tamamladıqları zaman öz aralarında ağla və dinə uyğun olaraq xoşluqla razılaşdıqları təqdirdə ərləri ilə (yenidən) evlənmələrinə mane olmayın. Bununla sizdən Allaha və axirət gününə iman edənlərə öyüd verilir. Bu, sizin üçün daha xeyirli və daha təmizdir. Allah bilir, siz bilməzsiniz.

233. Əmizdirməyi tamamlamaq istəyənlər üçün analar uşaqlarını tam iki il əmizdirərlər.[1] Onların (anaların) yeməyi, geyimi adətə uyğun olaraq ataya aiddir. Heç kimə gücünün çatdığından artıq bir yük və məsuliyyət yüklənməz. Heç bir ana və heç bir ata uşağı səbəbi ilə zərərə uğramasın! (Ata ölübsə,) mirasçı da eyni şeydən məsuldur. Əgər (ana və ata) öz aralarında razılaşaraq (iki il tamamlanmadan) uşağı süddən kəsmək istəsələr, onlara günah yoxdur. Əgər uşaqlarınızı (bir süd anasına) əmizdirmək istəsəniz, adətə uyğun olaraq əvəzini gözəl bir şəkildə ödədiyiniz təqdirdə sizə bir günah yoxdur. Allaha qarşı gəlməkdən çəkinin və bilin ki, Allah etdiklərinizi haqqı ilə görəndir.

234. İçinizdən ölənlərin geridə qoyub getdikləri övrətləri öz-özlərinə dörd ay on gün (iddət) gözləyərlər. Müddətlərini tamamladıqda artıq özləri üçün şəriətə uyğun olaraq etdiklərindən ötrü sizə bir günah yoxdur. Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

235. (Əri vəfat edib özü iddət gözləyən) qadınlara onlarla evlənmək istədiyinizi üstüörtülü olaraq çatdırmanızda və ya bu istəyinizi içinizdə saxlamanızda sizin üçün bir günah yoxdur. Allah bilir ki, siz onlara (bunu əvvəl-axır mütləq) deyəcəksiniz. Şəriətin icazə verdiyi şəkildə sözlər söyləməniz xaricində onlarla xəlvət görüşmək üçün vədələşməyin. Gözləmə müddəti bitincəyə qədər də nikah bağlamaq fikrinə düşməyin.[2] Bunu da bilin ki, Allah içinizdən keçəni haqqı ilə bilir. Ona görə Allaha qarşı gəlməkdən çəkinin və yenə bunu da bilin ki, Allah, həqiqətən, çox bağışlayandır, həlimdir (Dərhal cəzalandırmaz, möhlət verər).

236. Onlara toxunmadan ya da mehr təyin etmədən boşasanız, sizə bir günah yoxdur. (Bu halda) – imkanı geniş olan öz gücü qədər, imkanı dar olan da öz gücü qədər – onlara ağlın və dinin tələblərinə uyğun olaraq mütə[3] verin. Bu, yaxşılıq edənlər üzərində bir borcdur.

237. Əgər onlara mehr təyin edər və onlara toxunmadan boşayarsınızsa, təyin etdiyiniz mehrin yarısı onlarındır. Ancaq qadının ya da nikah bağı əlində olanın (ərin, öz paylarından) imtina etməsi istisnadır. Bununla birlikdə (ey kişilər), sizin imtina etməniz təqvaya (Allaha qarşı gəlməkdən çəkinməyə) daha yaxındır. Aranızda yaxşılıq etməyi də unutmayın. Şübhəsiz ki, Allah etdiklərinizi haqqı ilə görəndir.

---

1 Süd əmizdirməklə əlaqəli olaraq baxın: Loğman, 31/14; Talaq, 65/6-7.

2 Boşanan ya da əri ölən qadının evlənə bilməsi üçün dini baxımdan gözləməli olduğu müddətə iddət deyilir. Əri ölən qadının iddəti dörd ay on gündür. Boşanan qadın isə üç adət müddəti qədər gözləməlidir. Əgər boşanan qadın adət görmürsə, iddəti üç aydır. Hamilə qadının iddəti isə uşağını dünyaya gətirməsi ilə sona çatar.

3 Mütə faydalandırmaq və faydalanılan şey deməkdir. Termin olaraq isə mehr təyin etmədən bağlanan nikahdan sonra cinsi əlaqədə olmadan boşanan qadına boşayan tərəfindən verilməli olan geyim, mal ya da bunların müqabilidir. Mütənin miqdarı bunu verəcək kəsin maddi vəziyyətinə görə müəyyən edilir.

**238.** Namazlara və orta namaza[1] davam edin. Allaha könüldən boyun əyərək namaza qalxın.

**239.** Əgər (bir təhlükədən) qorxsanız, namazı piyada və ya minik üstündə gedərək qılın. Təhlükənin keçdiyindən əmin olduqda isə Allahı daha əvvəl bilmədiyiniz və Onun sizə öyrətdiyi şəkildə anın (namazı adi vaxtlardakı kimi qılın).

**240.** Sizdən ölüb arxada dul övrətlər qoyub gedən kişilər övrətləri üçün evdən çıxarılmadan bir illik dolanışıqlarının təmin edilməsini vəsiyyət etsinlər. Ancaq onlar (öz istəkləri ilə) çıxsalar, artıq onların şəriətə uyğun şəkildə özləri ilə əlaqəli olaraq etdiklərindən ötrü sizə bir günah yoxdur. Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

**241.** Boşanmış qadınların qəbul olunmuş ölçüyə görə dolanışıqlarının təmin edilməsi onların haqqıdır. Bu, Allaha qarşı gəlməkdən çəkinənlər üzərində bir borcdur.

**242.** Düşünəsiniz deyə Allah sizə ayələrini belə açıqlayır.

**243.** Minlərlə nəfər olduqları halda ölüm qorxusu ilə yurdlarını tərk edənləri görmədinmi? Allah onlara: "Ölün", – dedi, sonra da onları diriltdi. Şübhəsiz ki, Allah insanlara qarşı lütf və kərəm sahibidir. Ancaq insanların çoxu şükür etməz.

**244.** Allah yolunda savaşın və bilin ki, şübhəsiz, Allah haqqı ilə eşidəndir və haqqı ilə biləndir.

**245.** Kimdir Allaha gözəl bir borc verəcək o kimsə ki, Allah da o borcu ona qat-qat artıq ödəsin. (Ruzini) Allah azaldar və çoxaldar. Ancaq Ona qaytarılacaqsınız.

**246.** Musadan sonra İsrail oğullarından öndə gələnləri görmədinmi (nə etdilər)? Peyğəmbərlərindən birinə: "Bizə bir hökmdar göndər, Allah yolunda savaşaq", – demişdilər. O: "Savaş sizə vacib buyurulduğu zaman savaşmasanız necə?" – demişdi. Onlar: "Yurdumuzdan çıxarılmış, övladlarımızdan uzaqlaşdırılmış olduğumuz halda Allah yolunda niyə savaşmayaq ki?!" – deyə cavab vermişdilər. Ancaq savaş onlara vacib buyurulduqda, onlardan çox azı xaric, üz döndərdilər. Allah zalımları haqqı ilə biləndir.

**247.** Peyğəmbərləri onlara: "Allah Talutu sizə hökmdar olaraq göndərdi", – dedi. Onlar: "O, necə bizə hökmdar ola bilər? Hökmdarlığa biz ondan daha layiqik. Ona heç mal-dövlət də verilməyib", – dedilər. Peyğəmbərləri belə dedi: "Şübhəsiz, Allah onu sizə (hökmdar) seçdi, onun elmini və gücünü artırdı". Allah mülkü istədiyinə verər. Allah lütfü geniş olandır, haqqı ilə biləndir.

**248.** Peyğəmbərləri onlara belə dedi: "Onun hökmdarlığının əlaməti sizə o sandığın gəlməsidir.[2] Onda Rəbbinizdən bir sükunət ilə Musa ailəsinin və Harun ailəsinin qoyub getdiyi şeylər var. Onu mələklər daşımaqdadır. Əgər inanmış kimsələrsinizsə, bunda şübhəsiz, sizin üçün tutarlı bir dəlil var".

**249.** Talut ordu ilə hərəkətə keçdikdə: "Şübhəsiz, Allah sizi bir axar çayla imtahan

1 Ayədə keçən "orta namaz"ın sübh, zöhr və əsr namazı olduğu ilə bağlı müxtəlif fikirlər var. Ancaq ən mötəbər fikir bu namazın əsr namazı olduğudur.

2 Rəvayətə görə burada sözügedən sandıq, içində Tövratın olduğu sandıqdır. İsrail oğullarının üsyanı nəticəsində həmin sandıq onların əlindən çıxmışdı.

edəcəkdir. Kim ondan içsə, məndən deyildir. Kim ondan dadmasa, o, məndəndir. Ancaq əli ilə bir ovuc götürən istisnadır", – dedi. Onlardan çox azı xaric, hamısı çayın suyundan içdilər. Talut və onunla birlikdə iman edənlər çayı keçdikdə (arxada qalanlar): "Bu gün bizim Caluta və əsgərlərinə qarşı vuruşmağa gücümüz yoxdur", – dedilər. Allaha qovuşacaqlarını qəti olaraq bilənlər (çayı keçənlər) isə bu cavabı verdilər: "Allahın izni ilə böyük bir dəstəyə qalib gələn neçə-neçə kiçik dəstələr var. Allah səbir edənlərlədir".

**250.** (Talutun əsgərləri) Calut və əsgərləri ilə qarşı-qarşıya gəldikdə belə dedilər: "Ey Rəbbimiz! Üzərimizə səbir yağdır, qədəmlərimizi sabit et və bu kafir qövmə qarşı bizə yardım et".

**251.** Allahın izni ilə onları məğlubiyyətə uğratdılar. Davud Calutu öldürdü. Allah ona (Davuda) hökmdarlıq və hikmət verdi və ona istədiyini öyrətdi. Əgər Allahın, insanların bir qismi ilə digərlərini dəf etməsi olmasaydı, yer üzü fitnə-fəsada uğrayardı. Ancaq Allah bütün aləmlərə qarşı lütf sahibidir.

**252.** Bunlar Allahın ayələridir. Biz onları sənə haqq olaraq oxuyuruq. Şübhəsiz ki, sən Allah tərəfindən göndərilmiş peyğəmbərlərdənsən.

**253.** Budur peyğəmbərlər! Biz onların bir qismini bir qismindən üstün etdik. Onlardan bəzisi ilə Allah danışmışdır. Bir qisminin də dərəcələrini yüksəltmişdir. Məryəm oğlu İsaya isə açıq-aydın dəlillər verdik və onu Ruhul-Qüds (Cəbrail) ilə dəstəklədik. Əgər Allah istəsəydi, bunların ardından gələn (millət)lər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra bir-birilərini öldürməzdilər. Lakin ixtilafa düşdülər. Onlardan inananlar da var idi, inkar edənlər də. Yenə Allah istəsəydi, bir-birilərini öldürməzdilər. Lakin Allah istədiyini edər.[1]

**254.** Ey iman edənlər! Heç bir alış-verişin, heç bir dostluğun və heç bir şəfaətin olmadığı qiyamət günü gəlmədən əvvəl, sizə ruzi olaraq verdiklərimizdən Allah yolunda xərcləyin. İnkar edənlər isə məhz zalımlardır.

**255.** Allah ondan başqa heç bir ilah olmayandır. Diridir, qəyyumdur.[2] Onu nə mürgüləmə tutar, nə də yuxu. Göylərdəki hər şey, yerdəki hər şey Onundur. İzni olmadan Onun qatında kim şəfaət edə bilər?[3] O, qulların önlərindəkiləri və arxalarındakıları (etdiklərini və edəcəklərini) bilir. Onlar Onun elmindən Onun istədiyindən artıq heç nə qavraya bilməzlər. Onun kürsüsü bütün göyləri və yeri əhatə etmişdir. (O, göylərə, yerə, bütün kainata hökmranlıq edir.) Göyləri və yeri qoruyub nəzarətdə saxlamaq Ona çətin gəlməz. O ucadır, böyükdür.[4]

---

1 Yəni Allah etmək istədiyini mütləq edər. Ancaq Allahın bu iradəsi və təqdiri qulun iradəsi istiqamətində gerçəkləşir. Bu səbəblə də qulların azad iradəsi üzərində ilahi bir təzyiqdən söhbət gedə bilməz.

2 Qəyyum varlığı özündən qaynaqlanan, özü özünə kifayət edən, yaratdıqlarına hakim olan və onları qoruyub nəzarətdə saxlayan deməkdir.

3 Şəfaət ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/48.

4 Bu ayə Ayətül-kürsi (kürsü ayəsi) olaraq adlandırılır. Kürsü Allahın qüdrət və əzəməti, Onun hər şeyi əhatə edən elmi deməkdir. Ayədə Allah-Təala öz zatını məcazi üslubla tanıdır. İncildə yanlış və təhrif edilmiş bir şəkildə tanıdılan Allah burada olduğu kimi tanıdılır. O, yerdə, göydə və ikisi arasında olan hər şeyin sahibi və malikidir. Hakimiyyətində, hökmranlığında, mülkündə və idarəçiliyində Ona ortaq deyildir. Heç bir

**256.** Dində məcburiyyət yoxdur.[1] Çünki doğruluq azğınlıqdan tamamən ayrılmışdır. O halda kim tağutu[2] tanımayıb Allaha inanarsa, qopmaq bilməyən möhkəm bir qulpdan yapışmışdır. Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

**257.** Allah iman edənlərin dostudur. Onları qaranlıqdan aydınlığa çıxarar. Kafirlərin dostları isə tağutdur. (O da) onları aydınlıqdan qaranlığa (çəkib) salar. Onlar cəhənnəmliklərdir. Orada əbədi qalarlar.

**258.** Allah ona hökmranlıq verdi deyə (təkəbbür göstərərək) Rəbbi haqqında İbrahim ilə mübahisə edəni görmədinmi? İbrahim: "Mənim Rəbbim dirildər və öldürər", – demiş, o da: "Mən də dirildərəm və öldürərəm", – demişdi. (Cavab olaraq) İbrahim: "Şübhəsiz ki, Allah günəşi şərqdən gətirir, sən də onu qərbdən gətir", – dediyi zaman kafir donub qaldı. Onsuz da Allah zalımlar qövmünü hidayətə yetirməz.

**259.** Yaxud alt-üst olmuş (viran qalmış) bir şəhərdən keçən kimsəni görmədinmi? O: "Allah buranı ölümündən sonra necə dirildəcək (əcəba)?" – demişdi. Belə olduqda Allah onu öldürüb yüz il ölü saxladı, sonra diriltdi və ondan soruşdu: "Nə qədər (ölü) qaldın?" O: "Bir gün və ya bir gündən daha az qaldım", – deyə cavab verdi. Allah belə dedi: "Xeyr, yüz il qaldın. Yeməyinə və içməyinə nəzər sal, hələ xarab olmayıb. Bir də ulağına bax! Səni belə etdik ki, insanlar üçün ibrət olasan. (Ulağın) sümüklər(in)ə də bax, gör onları necə birləşdirir, sonra onlara necə ət geyindiririk?" Bütün bunlar ona açıq-aşkar bəlli olduqda belə dedi: "İndi bilirəm ki, şübhəsiz, Allahın qüdrəti hər şeyə haqqı ilə yetər".[3]

**260.** Bir vaxt İbrahim: "Rəbbim! Mənə ölüləri necə diriltdiyini göstər", – demişdi. Allah ona "Məgər inanmırsan?" – dedikdə, "Xeyr, (inandım) ancaq qəlbimin mütməin olması üçün", – demişdi. "Elə isə dörd quş tut. Onları özünə alışdır. Sonra onları parçalayıb hər bir parçasını bir dağın üstünə qoy. Sonra da onları çağır. Uçaraq sənə gələcəklər. Bil ki, şübhəsiz, Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir".

**261.** Mallarını Allah yolunda xərcləyənlərin halı yeddi sünbül verən və hər bir sünbüldə yüz ədəd dən olan bir toxum kimidir. Allah istədiyinə qat-qat verər. Allah lütfü geniş olandır, haqqı ilə biləndir.

**262.** Mallarını Allah yolunda xərcləyən, sonra da xərclədiklərini başa qaxmayan və qəlb incitməyənlərin Rəbləri qatında mükafatları var. Onlar üçün qorxu yoxdur. Onlar məhzun olmayacaqlar.

---

şey ona rəqib və tay ola bilməz. O, mütləq elm və iradə sahibidir. Ona heç bir varlığın gücü çatmaz. O, bütün kainatın sahibi, idarə edəni və hakimidir.

1 Din etiqad əsaslarını və bununla bağlı olaraq yaşanan həyat tərzini ifadə edir. Buna görə İslam iman və həyat tərzi olaraq heç kimə zorla qəbul etdirilə bilməz.

2 Tağut lüğəvi mənası etibarı ilə həddi aşan deməkdir. Qur`anda istifadə olunan şəkli ilə bu sözün "şeytan", "nəfs", "bütlər", "sehrbazlar" kimi müxtəlif mənalara gəldiyi bildirilmişdir. Bir sözlə tağut sözü insanları azdıran, yoldan çıxaran şeylərin hamısını ifadə edir.

3 Bu ayədə ölümdən sonrakı diriliş məsələsini dərk etməyə çalışan kəsin mömin olduğu görünür. Bununla əlaqəli olaraq ayədə kim olduğu bildirilməyən həmin şəxsin Üzeyr, Ərəmya və ya Xızır olduğu mənbələrdə qeyd olunur. Ancaq burada vurğulanan məsələ Allahın diriltmə qüdrətini görmək, Onun ölümdən sonrakı dirilişi mütləq gerçəkləşdirəcəyinə inanmaqdır.

263. Gözəl bir söz və bağışlama, başa qaxılan sədəqədən daha xeyirlidir. Allah hər baxımdan hədsiz zəngindir, həlimdir (Dərhal cəzalandırmaz, möhlət verər).

264. Ey iman edənlər! Allaha və axirət gününə inanmadığı halda (özünü) insanlara göstərmək üçün malını xərcləyən kimsətək siz də sədəqələrinizi başa qaxaraq və qəlb qıraraq hədər etməyin. Beləsinin halı üstündə bir az torpaq olan və məruz qaldığı şiddətli yağışın çılpaq hala saldığı bir qayanın halı kimidir. Onlar qazandıqlarından heç bir şey əldə edə bilməzlər. Allah kafirlər qövmünü hidayətə yetirməz.

265. Allahın razılığını qazanmaq arzusu ilə və qəlbən mütməin olaraq mallarını Allah yolunda xərcləyənlər yüksək bir yerdəki gözəl bir bağça kimidir ki, (oraya) bol yağış düşdükdə ikiqat məhsul verir. Əgər bol yağış düşməsə belə, çiskin ona kifayət edər. Allah etdiklərinizi haqqı ilə görəndir.

266. Hər hansı biriniz istərmi ki, içərisində hər növ meyvə olan, içindən çaylar axan, xurma və üzüm ağacları olan bir bağçası olsun; himayəyə möhtac övladları olduğu halda qocalıq gəlib ona çatsın, həmin vaxt bağa odlu (ildırımlı) bir qasırğa düşsün və o bağ yanıb kül olsun? Düşünəsiniz deyə Allah sizə ayələrini belə açıqlayır.[1]

267. Ey iman edənlər! Qazandıqlarınızın yaxşılarından və sizin üçün yerdən çıxardıqlarımızdan Allah yolunda xərcləyin. Özünüzün göz yummadan alıcısı olmayacağınız heç bir qiyməti olmayan şeyləri vermək fikrinə düşməyin və bilin ki, Allah hər baxımdan zəngindir, tərifə layiqdir.

268. Şeytan sizi yoxsulluqla qorxudar[2] və sizə çirkinliyi və həyasızlığı əmr edər. Allah isə sizə öz qatından məğfirət və bol nemət vəd edir. Şübhəsiz ki, Allah lütfü geniş olandır, haqqı ilə biləndir.

269. Allah hikməti[3] istədiyinə verər. Kimə hikmət vermişsə, deməк, ona çoxlu xeyir vermişdir. Bunu ancaq ağıl sahibləri dərk edər.

270. Allah yolunda nə xərcləsəniz və ya nə nəzir etsəniz, şübhəsiz, Allah onu bilər. Zülm edənlər üçün heç bir yardımçı yoxdur.

271. Sədəqələri aşkara versəniz də gözəl olar. Ancaq onları gizləyərək yoxsullara versəniz, bu sizin üçün daha xeyirlidir və günahlarınızdan bir qisminə də kəffarə olar. Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

272. Onları hidayətə çatdırmaq sənin işin deyildir. Ancaq Allah istədiyini hidayətə çatdırar. Xeyir olaraq nə xərcləsəniz, bu, özünüz üçündür. Onsuz da siz ancaq Allahın razılığını qazanmaq üçün xərcləyirsiniz. Xeyir olaraq nə xərcləsəniz, heç bir haqsızlığa uğramadan əvəzi sizə tamamilə ödənər.

273. (Sədəqələr) özlərini Allah yoluna həsr edən, yer üzündə gəzib dolaşa bilməyən yoxsullar üçündür. Həyalarından ötrü (dilənmədikləri üçün) bilməyən onları varlı

1 Bu ayədə etdikləri yaxşılıqları başa qaxıb qəlb qıranların halı dilə gətirilir. İldırımlı bir qasırğa göz oxşayan bir bağı necə yandırıb məhv edərsə, onların bu davranışı da eləcə etdikləri yaxşılıqları boşa çıxaracaqdır.

2 Yoxsulluğa düşəcəyinizi söyləyərək sədəqə verməkdən uzaq durmanızı istəyər.

3 Hikmət nəyin doğru, nəyin yanlış olduğunu dərk etməyə yarayan dərin və faydalı elm deməkdir. Həzrət Peyğəmbər faydalı elm istəməyi tövsiyə etmiş, özü də Allahdan bunu diləmişdir.

hesab edər. Sən onları üzlərindən tanıyarsan. İnsanlardan arsızca (bir şey) istəməzlər. Siz xeyir olaraq nə versəniz, şübhəsiz, Allah onu bilər.

274. Mallarını gecə-gündüz, gizli və aşkar Allah yolunda xərcləyənlərin Rəbləri qatında mükafatları var. Onlara qorxu yoxdur. Onlar məhzun da olmayacaqlar.

275. Faiz yeyənlər ancaq şeytanın vurduğu kimsənin qalxdığı kimi qalxarlar. Bu, onların "Alış-veriş də faiz kimidir", – dediklərindən ötrüdür. Halbuki Allah alış-verişi halal, faizi haram etmişdir. Bundan belə kimə Rəbbindən bir nəsihət gələr, (o da o nəsihətə qulaq asaraq) faizdən əl çəkərsə, artıq əvvəlcədən aldığı onun olar. İşi də Allaha qalmışdır. (Allah onu əfv edər.) Kim yenidən (faizə) qayıdarsa, (bax) onlar cəhənnəmlikdirlər. Orada əbədi qalacaqlar.

276. Allah faizi məhv edər, sədəqələri[1] isə artırar (bərəkətləndirər). Allah heç bir günahkar nankoru sevməz.

277. Şübhəsiz ki, iman edib saleh əməllər işləyən, namazı doğru-düzgün qılan və zəkatı verənlərin mükafatları Rəbləri qatındadır. Onlara qorxu yoxdur. Onlar məhzun da olmayacaqlar.

278. Ey iman edənlər! Allaha qarşı gəlməkdən çəkinin və həqiqətən, iman etmiş kimsələrsinizsə, faizdən (qazanc olaraq) qalanı tərk edin.

279. Əgər belə etməsəniz, Allah və Rəsulu ilə savaşa girdiyinizi bilin. Əgər tövbə etsəniz, sərmayəniz sizindir. Beləliklə, nə siz başqalarına haqsızlıq etmiş olarsınız, nə də başqaları sizə haqsızlıq etmiş olar.

280. Əgər borclu çətin vəziyyətdədirsə, imkan tapana qədər ona möhlət verin. Əgər bilsəniz, (borcu) sədəqə olaraq bağışlamanız sizin üçün daha xeyirlidir.

281. Özünüzü elə bir gündən qoruyun ki, o gün hamınız Allaha qaytarılacaqsınız. Sonra hər kəsə qazandığının əvəzi veriləcək və onlara əsla haqsızlıq edilməyəcəkdir.

282. Ey iman edənlər! Müəyyən müddətə bir-birinizə borc alıb verdiyiniz zaman bunu yazın. Aranızda bir katib ədalətlə yazsın. Katib Allahın ona öyrətdiyi şəkildə yazmaqdan boyun qaçırmasın, (hər şeyi olduğu kimi doğru-düzgün) yazsın. Üzərində haqq olan (borclu) da yazdırsın və Rəbbi olan Allahdan qorxub çəkinsin ki, borcdan heç bir şeyi əskik etməsin (hamısını tam yazdırsın). Əgər borclu ağılsız və ya zəif bir kimsədirsə ya da yazdıra bilmirsə, vəlisi ədalətlə yazdırsın. (Buna) şahidliklərinə güvəndiyiniz iki kişini, əgər iki kişi olmazsa, bir kişi və iki qadını şahid tutun. Bu, onlardan biri unudarsa, digərinin ona xatırlatması üçündür. Şahidlər çağırıldıqları zaman (gəlməkdən) boyun qaçırmasınlar. Az və ya çox olmasından asılı olmayaraq borcu öz müddətinə qədər yazmağa ərinməyin. Bu, Allah qatında ədalətə daha uyğun, şahidlik baxımından daha güclü, şübhəyə düşməməniz üçün daha münasibdir. Ancaq aranızda o an alıb verdiyiniz nağd ticarət olarsa, onu yazmamanızdan ötrü sizə bir günah yoxdur. Alış-veriş etdiyiniz zaman da şahid tutun.

1 Burada "sədəqələr" sözü ilə nəzərdə tutulan həm fərz olan zəkat, həm də nafilə olaraq Allah yolunda təmənnasız verilənlərdir. Ayə həm sədəqələrin savabının qat-qat artıq olacağını, həm də sədəqəsi verilən malların bərəkətləndirilib çoxaldılacağını ifadə edir.

Yazana da, şahidə də bir zərər verilməsin.[1] Əgər əksini edərsinizsə, bu, sizin üçün günahkarca bir davranış olar. Allaha qarşı gəlməkdən çəkinin. Allah sizə öyrədir. Allah hər şeyi haqqı ilə biləndir.[2]

**283.** Əgər səfərdə olub bir katib də tapa bilməsəniz, o zaman qoyulmuş girovlar da kifayətdir. Əgər bir-birinizə güvənirsinizsə, özünə güvənilən kəs əmanətini (borcunu) ödəsin və Rəbbi olan Allahdan çəkinsin. Şahidliyi də gizlətməyin. Kim şahidliyi gizlərsə, şübhəsiz, onun qəlbi günahkardır. Allah etdiklərinizi haqqı ilə biləndir.

**284.** Göylərdəki hər şey, yerdəki hər şey Allahındır. İçinizdəkini aşkara çıxarsanız da, gizləsəniz də, Allah sizi onunla hesaba çəkər, istədiyini bağışlayar, istədiyinə əzab verər. Allahın qüdrəti hər şeyə haqqı ilə çatar.

**285.** Peyğəmbər Rəbbindən özünə endiriləno iman etdi, möminlər də (iman etdilər). Hər biri Allaha, mələklərinə, kitablarına və peyğəmbərlərinə iman etdilər və belə dedilər: "Onun peyğəmbərlərindən heç birini (digərindən) ayırd etmərik". Həmçinin belə dedilər: "Eşitdik və itaət etdik. Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik. Sonda qayıdış yalnız Sənədir".

**286.** Allah bir kimsəni ancaq gücünün çatdığı şeylə mükəlləf edər. Onun qazandığı yaxşılıq öz xeyrinə, pislik də öz zərərinədir. (Belə dua edin): "Ey Rəbbimiz! Unutsaq ya da yanılsaq, bizi məsul tutma! Ey Rəbbimiz! Bizə bizdən əvvəlkilərə yüklədiyin kimi ağır yük yükləmə! Ey Rəbbimiz! Bizə gücümüzün yetmədiyi şeyləri yükləmə! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Mövlamızsan. Kafirlər qövmünə qarşı bizə kömək et!"

# 3. ALİ-İMRAN SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 200 ayədən ibarətdir. Surənin adı 33-cü ayədə keçən "Ali-İmran" söz birləşməsindən götürülmüşdür. Ali-İmran İmran ailəsi deməkdir. 35-ci ayədə Məryəmin anasından İmranın zövcəsi olaraq bəhs olunur. Buna görə İmran Məryəmin atasıdır və İmran ailəsi də Məryəmin mənsub olduğu ailəni bildirir.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Əlif Ləm Mim.[3]

---

1 Ayənin bu qismi "Nə katib, nə də şahid (ədalətdən uzaqlaşaraq haqq sahiblərinə) zərər verməsinlər" şəklində də tərcümə oluna bilər.

2 Bu ayədə borc və alış-veriş işlərində mübahisə doğuran məqamların yaranmasının qarşısını alacaq, tərəflərin haqsızlığa məruz qalmamasını təmin edəcək sənədləşdirmə, şahid tutma və girov qoyma kimi önləyici tədbirlərin görülməsi istənilir. Bu tədbirlərin hansı şəkildə həyata keçiriləcəyinin təfsilatlı olaraq bildirilməsi bu mövzuya nə qədər əhəmiyyət verildiyini göstərir. Ancaq əsas prinsip işin təminat altına alınması olmaqla yanaşı qarşılıqlı etibar hissinin də önəmli bir ünsür olduğu və bundan sui-istifadə etməmək vurğulanır.

3 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinə aid istinada baxın.

2. Allah ondan başqa heç bir ilah olmayandır. Diridir, Qəyyumdur.[1]

3, 4. O, Kitabı sənə haqq olaraq və özündən əvvəlkiləri təsdiqləyici olaraq endirdi. O, daha əvvəl Tövratı və İncili insanlar üçün bir hidayət olaraq endirmişdi. Furqanı[2] da endirdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab var. Allah mütləq güc sahibidir, intiqam sahibidir.

5. Şübhəsiz ki, yerdə və göydə heç bir şey Allahdan gizli qalmaz.

6. O, sizə ana rəhmində istədiyi kimi surət verəndir. Ondan başqa ilah yoxdur. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

7. O, sənə Kitabı endirəndir. Onun (Qur`anın) bəzi ayələri möhkəmdir, onlar kitabın anasıdır. Digərləri isə mütəşabihdir.[3] Qəlblərində bir əyrilik olanlar, fitnə salmaq və onu ağlasığmaz şəkildə yozmaq üçün mütəşabih ayələrin üstünə düşərlər. Halbuki onun həqiqi mənasını yalnız Allah bilir. Elmdə dərinləşmiş kəslər: "Ona inandıq, hamısı Rəbbimizin qatındandır", – deyərlər. (Bu incəliyi) yalnız ağıl sahibləri düşünüb qavrayar.

8. (Onlar belə yalvararlar): "Rəbbimiz! Bizi hidayətə qovuşdurduqdan sonra qəlblərimizə əyrilik salma. Bizə qatından bir rəhmət bəxş et. Həqiqətən, sən çox bəxş edənsən".

9. "Rəbbimiz! Şübhəsiz, sən haqqında şübhə olmayan bir gündə insanları toplayacaqsan. Həqiqətən, Allah vədinə xilaf çıxmaz".

10. Həqiqətən, inkar edənlərə nə malları, nə də övladları Allah qarşısında heç bir fayda verməz. Onlar cəhənnəm odunun yanacağıdırlar.

11. (Bunların halı) Firon ailəsinin və onlardan əvvəlkilərin halı kimidir; ayələrimizi yalan saydılar. Allah da onları günahları ilə yaxaladı. Allah əzabı çox şiddətli olandır.

12. İnkar edənlərə de ki: "Siz mütləq məğlub olacaqsınız və toplanıb cəhənnəmə doldurulacaqsınız. Ora necə də pis yataqdır!"

13. Şübhəsiz ki, üz-üzə gələn iki dəstədə sizin üçün bir ibrət var; bir dəstə Allah yolunda vuruşurdu. Digəri isə kafir idi. (Onları) gözəyarı özlərinin iki misli qədər görürdülər. Allah da istədiyini öz yardımı ilə dəstəkləyirdi. Bəsirəti olanlar üçün bunda, əlbəttə, ibrət var.[4]

14. Qadınlar, oğullar, yığın-yığın qızıl və gümüş, sərbəst gəzib otlayan atlar, mal-qa-

---

1 Qəyyum varlığı özündən qaynaqlanan, özü özünə kifayət edən, yaratdıqlarına hakim olan və onları qoruyub nəzarətdə saxlayan deməkdir.

2 Furqan Qur`anın digər bir adı olub haqq ilə batili bir-birindən ayıran deməkdir.

3 Mütəşabih ayələr mənasını və həqiqətini yalnız Allahın bildiyi ayələrdir. Bunları insanın tamamilə qavraması mümkün deyil. Allahın sifətləri, qiyamət, cənnət, cəhənnəm kimi məsələlərlə əlaqəli ayələr və surələrin əvvəlində yer alan hürufi-müqəttəa bunlardandır. İnsan nə qədər çalışsa da, bu ayələri bütün yönləri ilə anlaması mümkün deyildir. Mütəşabih ayələr xaricindəki ayələr isə möhkəm ayələrdir.

4 Bu ayə möminlərin say baxımından özlərindən üç dəfə çox olan müşriklərə qarşı Bədrdə qazandıqları zəfərə işarə edir. Müşriklər özlərini möminlərdən təxminən iki dəfə çox görür və sayca üstün olduqlarına güvənirdilər. Halbuki bu zahiri bir say üstünlüyü idi. Çünki Ənfal surəsinin 9-cu ayəsində də işarə edildiyi kimi Allah möminləri min mələk ilə dəstəkləmişdi.

ra və əkin yerləri kimi nəfsin şiddətlə arzuladığı şeylər insanlara gözəl göstərildi. Bunlar dünya həyatının müvəqqəti mənfəətidir. Halbuki gediləcək əsl gözəl yer ancaq Allahın qatındadır.

15. De ki: "Sizə onlardan daha xeyirlisini xəbər verimmi? Allaha qarşı gəlməkdən çəkinənlər üçün Rəbləri qatında içindən çaylar axan, içində əbədi qalacaqları cənnətlər, pak zövcələr və Allahın rizası var". Allah qullarını haqqı ilə görəndir.

16, 17. (Bunlar) "Rəbbimiz, biz iman etdik. Bizim günahlarımızı bağışla. Bizi cəhənnəm odunun əzabından qoru" deyənlər, səbir edənlər, doğru olanlar, hüzurunda sidq-ürəkdən boyun əyib itaət edənlər, Allah yolunda xərcləyənlər və sübh vaxtları (Allahdan) bağışlanma diləyənlərdir.

18. Allah, mələklər və elm sahibləri Ondan başqa ilah olmadığına ədalətlə şahidlik etdilər. Ondan başqa ilah yoxdur. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

19. Şübhəsiz ki, Allah qatında din İslamdır. Kitab verilənlər onlara elm gəldikdən sonra sırf aralarındakı hərislik və həddi aşma ucbatından təfriqəyə düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah çox tez hesaba çəkəndir.

20. Səninlə mübahisə etsələr, de ki: "Mən mənə tabe olanlarla birlikdə özümü Allaha təslim etdim". Kitab verilənlərə və ümmilərə[1] de ki: "Siz də İslamı qəbul etdinizmi?" Əgər İslamı qəbul etsələr, hidayətə çatarlar. Yox, əgər üz döndərsələr, sənin öhdənə düşən sadəcə təbliğ etməkdir. Allah qullarını haqqı ilə görəndir.

21. Allahın ayələrini inkar edənlər, peyğəmbərləri haqsız yerə öldürənlər, insanlardan ədaləti əmr edənləri öldürənlər ki var, onları ağrılı-acılı bir əzabla müjdələ.

22. Onlar əməlləri dünyada da, axirətdə də boşa çıxan kimsələrdir. Onların heç yardımçıları da yoxdur.

23. Kitabdan bir pay verilənləri görmürsənmi ki, aralarında hökm verməsi üçün Allahın Kitabına çağırılırlar, sonra aralarından bir qismi üz döndərərək çıxıb gedir.

24. Bunun səbəbi onların "Bizə cəhənnəm odu sadəcə bir neçə gün toxunacaq" demələridir. Uydurduqları şeylər dinləri barəsində onları yanıltmışdır.

25. Görək, heç bir şübhə olmayan o gün onları bir yerə topladığımız və heç kimə haqsızlıq edilmədən hər kəsə qazandığı tamamilə ödəndiyi zaman onların halı necə olacaq.

26. De ki: "Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyinə verirsən. İstədiyindən də mülkü alırsan. İstədiyini izzətli edirsən, istədiyini zəlil edirsən. Xeyir sənin əlindədir. Şübhəsiz, sən hər şeyə haqqı ilə qadirsən".

27. Gecəni gündüzə qatırsan, gündüzü gecəyə qatırsan. Ölüdən diri çıxarırsan, diridən ölü çıxarırsan. İstədiyinə də saysız-hesabsız ruzi verirsən.

28. Möminlər möminləri buraxıb inkarçıları dost tutmasınlar. Kim belə etsə, Allah ilə bir bağı qalmaz. Ancaq onlardan (gələ biləcək təhlükədən) qorunmanız istis-

1 "Ümmi" oxuma-yazma bilməyən deməkdir. Burada, ümmi kəlməsi ilə kitab verilməyənlər və müşrik ərəblər nəzərdə tutulmuşdur. Kitab verilənlər isə yəhudilər və xristianlardır.

nadır. Allah sizi özünə qarşı diqqətli olmanız barəsində xəbərdar edir. Çünki qayıdış Allahadır.

29. De ki: "İçinizdəkini gizləsəniz də, aşkara çıxarsanız da Allah onu bilər. Göylərdəki hər şeyi, yerdəki hər şeyi bilir. Allah hər şeyə haqqı ilə qadirdir".

30. İnsan hər kəsin etdiyi yaxşılığı və etdiyi pisliyi (qarşısında) hazır görəcəyi gün pislikləri ilə özü arasında uzaq bir məsafə olmasını istəyər. Yenə Allah sizi özünə qarşı diqqətli olmanız barəsində xəbərdar edir. Allah qullarını çox əsirgəyəndir.

31. De ki: "Əgər Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Çünki Allah çox bağışlayandır, çox mərhəmət edəndir".

32. De ki: "Allaha və Peyğəmbərə itaət edin". Əgər üz döndərsələr, şübhə yoxdur ki, Allah kafirləri sevməz.

33, 34. Şübhəsiz ki, Allah Adəmi, Nuhu, İbrahim ailəsini (soyunu) və İmran ailəsini (soyunu) bir-birindən törəmiş bir nəsil olaraq seçib cümlə aləmlərdən üstün etdi. Allah hər şeyi haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

35. Bir vaxt İmranın zövcəsi: "Rəbbim! Bətnimdəki uşağı sırf xidmət etməsi üçün nəzir etdim. Məndən qəbul et. Şübhəsiz ki, sən haqqı ilə eşidənsən, haqqı ilə bilənsən", – demişdi.

36. Onu doğduğu zaman: "Rəbbim! Onu qız doğdum" – Halbuki Allah onun nə doğduğunu daha yaxşı bilir[1] – "Oğlan qız kimi deyildir. Onun adını Məryəm qoydum. Onu və soyunu qovulmuş şeytandan sənin himayənə tapşırıram", – dedi.

37. Belə olduqda Rəbbi onu gözəl bir şəkildə qəbul etdi və onu gözəl bir şəkildə yetişdirdi. Ona baxmağı Zəkəriyyaya[2] tapşırdı. Zəkəriyya hər dəfə onun ibadət etdiyi yerə daxil olanda onun yanında bir azuqə görürdü. "Məryəm! Bu, sənə haradan gəldi?" – deyərdi. O da: "Bu, Allah qatındandır", – deyə cavab verərdi. Çünki Allah istədiyinə saysız-hesabsız ruzi verir.

38. Orada Zəkəriyya Rəbbinə dua etdi: "Rəbbim! Mənə öz qatından təmiz bir nəsil bəxş et. Şübhəsiz ki, sən duanı haqqı ilə eşidənsən", – dedi.

39. Zəkəriyya məbəddə namaz qılarkən mələklər ona: "Rəbbin səni, Ondan gələn bir kəlməni (İsanı) təsdiqləyici, əfəndi, nəfsinə hakim və salehlərdən bir peyğəmbər olaraq Yəhya ilə müjdələyir", – deyə səsləndilər.

40. Zəkəriyya: "Ey Rəbbim! Qocalıq məni haqlamışkən və zövcəm də qısırkən mənim necə övladım ola bilər?" – dedi. Allah: "Elədir, amma Allah istədiyini edər", – dedi.

41. Zəkəriyya: "Rəbbim! (övladım olacağına dair) mənə bir əlamət ver", – dedi. Allah da belə buyurdu: "Sənin üçün əlamət insanlarla üç gün danışmamaq, sadəcə işarələrlə ünsiyyət qurmaqdır. Bir də Rəbbini çox zikr et, səhər-axşam təsbih et".

---

1 Ayədəki bu ifadə İmranın zövcəsinin doğduğu qızın, xəyalında canlandırdığı və nəzir etdiyi oğlandan daha xeyirli olacağına işarə edir. Çünki bu qız həzrət İsanın anası olacaq.

2 Zəkəriyya Məryəmin xalasının əri idi. Zəkəriyya müqəddəs məbəddə Məryəmə baxmağı öz öhdəsinə götürmüşdü.

42. Mələklər: "Ey Məryəm! Allah səni seçdi. Səni pak etdi və səni dünya qadınlarından üstün tutdu".

43. "Ey Məryəm! Rəbbinə sidq ürəkdən boyun əyib itaət et. Səcdə et və (Onun hüzurunda) rüku edənlərlə birlikdə rüku et", – dedilər.

44. (Ey Muhamməd!) Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Məryəmi kim himayəsinə götürüb qoruyacaq deyə qələmlərini (püşk məqsədilə) atdıqları zaman sən yanlarında deyildin. (Bu haqda) mübahisə etdikləri zaman da yanlarında deyildin.

45. Bir vaxt mələklər belə dedi: "Ey Məryəm! Allah səni öz tərəfindən bir kəlmə ilə müjdələyir ki, adı Məryəm oğlu İsa Məsihdir. Dünyada da, axirətdə də adı-sanı uca və Allaha çox yaxın olanlardandır".

46. "O, beşikdə də, yetkinlik çağında da insanlarla danışacaq, salehlərdən olacaq".[1]

47. (Məryəm): "Ey Rəbbim! Mənə bir bəşər toxunmadığı halda mənim necə övladım olar?" – dedi. Allah: "Elədir, amma Allah istədiyini yaradar. O, bir şeyin olmasını istədikdə ona sadəcə "ol" deyər, o da dərhal olar", – dedi.

48. Allah ona kitabı, hikməti, Tövratı və İncili öyrədəcək.

49. Allah onu İsrail oğullarına bir peyğəmbər olaraq göndərəcək (və o da onlara belə deyəcək): "Şübhəsiz ki, mən sizə Rəbbinizdən bir möcüzə gətirdim. Mən palçıqdan quş şəklində bir şey düzəldər, ona üfürərəm. O da Allahın izni ilə dərhal quş olar. Koru və cüzamlını sağaldaram və Allahın izni ilə ölüləri dirildərəm. Evlərinizdə nə yediyinizi və nə yığıb saxladığınızı sizə xəbər verərəm. Əgər möminlərsinizsə, bunda sizin üçün, əlbəttə, bir ibrət var".

50. "Məndən əvvəl gələn Tövratı təsdiqləyici olaraq və sizə haram buyurulan bəzi şeyləri halal etmək üçün göndərildim və Rəbbiniz tərəfindən sizə bir möcüzə də gətirdim. Artıq Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin".

51. "Şübhəsiz ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin. Bu, doğru yoldur".

52. İsa onların küfrünü hiss etdikdə: "Allah yolunda köməkçilərim kimdir?" – dedi. Həvarilər: "Bizik Allah yolunun köməkçiləri. Allaha iman etdik. Şahid ol, biz müsəlmanlarıq", – dedilər.

53. "Rəbbimiz! Sənin endirdiyinə iman etdik və Peyğəmbərə də tabe olduq. Artıq bizi (həqiqətə) şahidlik edənlərlə birlikdə yaz".

54. Onlar bir tədbir gördülər. Allah da bir tədbir gördü. Allah tədbir görənlərin ən xeyirlisidir.[2]

55. Bir vaxt Allah belə buyurdu: "Ey İsa! Şübhəsiz ki, sənin həyatına mən son verəcəyəm. Səni özümə yüksəldəcəyəm. Səni inkar edənlərdən qurtararaq təmizləyə-

1 Həzrət İsanın beşikdə olarkən danışması ilə əlaqəli olaraq baxın: Maidə, 5/110, Məryəm, 19/29-33.

2 Ayədə bildirilən tədbir görmə İsrail oğullarının həzrət İsaya sui-qəsd təşkil etmə təşəbbüsüdür. "Allahın tədbir görməsi" isə Allahın hiyləgər təşəbbüsləri boşa çıxarması və ya hiylə işlədənləri cəzalandırması mənasındadır.

cəyəm və sənə tabe olanları qiyamətə qədər küfrə düşənlərdən üstün tutacağam. Sonra qayıdışınız yalnız mənədir. İxtilafa düşdüyünüz şeylər haqqında aranızda mən hökm verəcəyəm".

56. "İnkar edənlərə gəlincə, onlara dünyada da, axirətdə də şiddətli bir əzab verəcəyəm. Onların heç yardımçıları da olmayacaq".

57. "İman edib saleh işlər görənlərə gəlincə, Allah onların mükafatlarını tam verəcək. Allah zalımları sevməz".

58. (Ey Muhammməd!) Bunu (bildirdiklərimizi) biz sənə ayələrdən və hikmət dolu Qur`andan oxuyuruq.

59. Şübhəsiz ki, Allah qatında (yaradılış baxımından) İsa da Adəm kimidir. Onu torpaqdan yaratdı. Sonra ona "ol" dedi. O da dərhal oldu.[1]

60. Haqq Rəbbindəndir. O halda şübhə edənlərdən olma.

61. Sənə (lazımi) bilik gəldikdən sonra artıq bu mövzuda kim səninlə mübahisə etsə, de ki: "Gəlin, oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı çağıraq. Biz də, siz də toplanaq. Sonra ürəkdən dua edək, (aramızdan) yalan söyləyənlərə Allahın lənətini diləyək".[2]

62. Şübhəsiz ki, bu, (İsa haqqındakı) gerçək qissədir. Allahdan başqa heç bir ilah yoxdur. Şübhəsiz, Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

63. Əgər üz döndərsələr, şübhəsiz ki, Allah fitnə-fəsad çıxaranları çox yaxşı bilir.

64. De ki: "Ey kitab əhli! Bizimlə sizin aranızda ortaq bir sözə gəlin: Yalnız Allaha ibadət edək. Ona heç bir şeyi şərik qoşmayaq. Allahı qoyub bəzilərimiz bəzilərimizi ilah qəbul etməsin". Əgər onlar yenə üz döndərsələr, deyin ki: "Şahid olun, biz müsəlmanlarıq".[3]

65. Ey kitab əhli! İbrahim haqqında niyə mübahisə edirsiniz? Halbuki Tövrat da, İncil də ondan sonra endirilmişdir. Siz heç düşünmürsünüzmü?[4]

---

1 Adəmi torpaqdan anasız və atasız yaradan Allah həzrət İsanı da atasız yaratmışdır. Ayədə Allahın qüdrətinin sonsuzluğu, Onun qüdrətinin hər şeyə yetdiyi bildirilir. Bundan başqa həzrət Məryəmin iffətinə də diqqət çəkilir.

2 Bu ayəyə mübahələ ayəsi deyilir. Mübahələ bir mövzuda haqlı olanın ortaya çıxması üçün üsuluna uyğun olaraq lənətləşmək deməkdir. Nəcran xristianları: "Qur`an həzrət İsanın atasız doğulduğunu qəbul etdiyinə görə onun Allah olması lazım gəlir", – şəklində iddia irəli sürdülər. Belə olduqda həzrət Peyğəmbər haqqın ortaya çıxması üçün onları mübahələyə dəvət etdi. Ancaq onlar bunu qəbul etmədilər.

3 Bu ayə nazil olanda əvvəlcə xristian olub sonra müsəlman olan Ədiyy ibn Hatim: "Ya Rəsulullah, biz dini öndərlərimizi məbud yerinə qoymazdıq", – dedi. Həzrət Peyğəmbər: "Onlar sizə bir şeyi halal və ya haram edərkən, siz də onların dediklərinə tabe olmurdunuzmu? Bax elə bu, onları məbud yerinə qoymaq deməkdir" – buyurdu.

4 Yəhudilər həzrət İbrahimin yəhudi, xristianlar isə onun xristian olduğunu iddia edirdilər. Ayədə onların bu iddiaları tənqid olunur və onların bu tutarsız iddiaları göstərilir. Bu iki dinə mənsub olan insanlar həzrət İbrahimin öz dinlərinə aid olduğunu iddia edə bilərlər? Halbuki hər iki dininin mənbəyi olan Tövrat və İncil həzrət İbrahimdən sonra nazil olmuşdur. Yəhudi və xristianların bu iddiaları nəticə etibarilə həzrət İbrahimə yəhudilik və xristianlıqdakı yanlış inanc və əməlləri istinad etmək mənasına gəldiyi üçün ayədə bu iddianın həqiqəti əks etdirmədiyinə, ona iftira atıldığına işarə var. Belə ki, surənin 67-68-ci ayələrində bu mövzu açıq şəkildə izah olunur.

66. Siz bax belə kimsələrsiniz! Tutaq ki, bir az bildiyiniz şey haqqında mübahisə etdiniz. Bəs heç bilmədiyiniz şey haqqında niyə mübahisə edirsiniz? Allah bilir, siz bilməzsiniz.

67. İbrahim nə yəhudi idi, nə də xristian. Lakin o, hənif (Allahı bir olaraq tanıyan, haqqa üz tutan) bir müsəlman idi. Allaha şərik qoşanlardan deyildi.[1]

68. Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı, əlbəttə, ona tabe olanlar, bir də bu peyğəmbər (Muhamməd) və möminlərdir. Allah da möminlərin dostudur.

69. Kitab əhlindən bir dəstə sizi yoldan çıxarmağı çox arzu etdi. Halbuki yalnız özlərini yoldan çıxarırlar, ancaq bunun fərqinə varmırlar.

70. Ey Kitab əhli! (Həqiqətə) şahid olduğunuz halda niyə Allahın ayələrini inkar edirsiniz?

71. Ey Kitab əhli! Niyə haqqı batillə qarışdırır və bilə-bilə həqiqəti gizlədirsiniz?

72. Kitab əhlindən bir dəstə: "Möminlərə endirilənə günün başlanğıcında inanın, sonunda isə inkar edin, bəlkə onlar (sizə baxaraq) dönərlər", – dedi.[2]

73. "Sizin dininizə tabe olandan başqasına inanmayın", (– dedilər). De ki: "Şübhəsiz, əsl hidayət Allahın hidayətidir. Sizə verilənin bənzərinin başqa birinə verilməsindən və ya Rəbbinizin hüzurunda əleyhinizə dəlillər gətirəcəklərindən ötrümü (belə deyirsiniz)?" De ki: "Lütf Allahın əlindədir. Onu istədiyinə verər. Allah lütfü geniş olandır, haqqı ilə biləndir".

74. O, rəhmətini istədiyinə bəxş edər. Allah böyük lütf sahibidir.

75. Kitab əhlindən eləsi var ki, ona yüklərlə mal əmanət etsən, onu sənə (əskiksiz) qaytarar. Lakin onlardan eləsi də var ki, ona bir dinar əmanət etsən, başının üstündə durub (tələb etmədikcə) onu sənə qaytarmaz. Bu da onların, "Ümmilərə qarşı (etdiklərimizə görə) bizə günah yoxdur" demələri səbəbi ilədir. Onlar bilə-bilə Allaha qarşı yalan söyləyirlər.[3]

76. Xeyr! (Gerçək onların dediyi deyil.) Kim sözünü yerinə yetirər və Allaha qarşı gəlməkdən çəkinərsə, şübhəsiz ki, Allah da çəkinənləri sevər.

77. Şübhəsiz, Allaha verdikləri sözü və andlarını ucuz qiymətə dəyişənlər ki var, onların axirətdə bir payı yoxdur. Allah qiyamət günü onlarla danışmayacaq, onlara baxmayacaq və onları təmizləməyəcək. Onlar üçün ağrılı-acılı bir əzab var.

---

1 Yəhudilər həzrət İbrahimi yəhudi, xristianlar da onu xristian olaraq qəbul edir, haqqında mübahisə edirdilər. Ayə bu mövzuda onlara əsl həqiqəti bildirir.

2 Bu ayədə İslam dininin qarşısını kəsmək üçün istifadə olunan psixoloji mübarizə üsullarından biri dilə gətirilir. Mədinə ətrafında yaşayan yəhudilərdən bəzi bilikli və lider şəxslər imanı hələ möhkəmlənməmiş kimsələri şübhəyə salmaq üçün öz aralarında belə bir qərara gəlmişdilər. Buna görə İslamı qəbul etmiş kimi görünəcəklər, sübh namazını müsəlmanlarla birlikdə qılıb, axşamüstü İslamdan çıxdıqlarını elan edəcəkdilər. Məqsədləri heç olmasa bəzi kəslərdə "Bunlar Müsəlmanlıqda mütləq bir nöqsan tapıblar ki, ondan vaz keçiblər" fikrini oyatmaq idi. Ayədə onların bu planları ifadə edilir.

3 Bu ayədə keçən "ümmi" sözü təfsir alimləri tərəfindən "zəif kimsələr", "biliksizlər", "Kitab əhlindən olmayanlar" şəklində açıqlanmışdır. Yəhudilərin bir qismi haqq-hüquq və dürüstlük baxımından özlərini yalnız öz dindaşlarına qarşı məsul görür, öz dinlərindən olmayanlara qarşı isə dürüst davranmaq məcburiyyəti hiss etmirdilər.

78. Onlardan (Kitab əhlindən) bir dəstə var ki, Kitabdan olmadığı halda Kitabdan zənn edəsiniz deyə (oxuduqları) Kitabdanmış kimi dillərini əyib bükürlər və: "Bu Allah qatındandır", – deyirlər. Halbuki o, Allah qatından deyil. Bilə-bilə Allaha qarşı yalan söyləyirlər.

79. Allahın Kitab, hökm (hikmət) və peyğəmbərlik verdiyi bir insanın, "Allahı buraxıb mənə qullar olun" deməsi ağlabatan deyil. Lakin (belə öyüd verər:) "Öyrətdiyiniz və dərindən öyrəndiyiniz Kitab sayəsində rəbbanilər (Allahın istədiyi nümunəvi və dindar qullar) olun".

80. Onun sizə: "Mələkləri və peyğəmbərləri ilahlar olaraq qəbul edin", – deyə əmr etməsi də ağlabatan deyil. Siz müsəlman olduqdan sonra O, heç sizə inkar etməyi əmr edərmi?

81. Bir vaxt Allah peyğəmbərlərdən: "And olsun ki, sizə verəcəyim hər kitab və hikmətdən sonra əlinizdəkini təsdiq edən bir peyğəmbər gəldikdə ona mütləq iman edəcəksiniz və ona mütləq yardım edəcəksiniz", – deyə söz aldı və: "Bunu qəbul etdinizmi? Verdiyim bu ağır vəzifəni öz öhdənizə götürdünüzmü?" – dedi. Onlar: "Qəbul etdik", – dedilər. Allah da: "Elə isə şahid olun, mən də sizinlə birlikdə şahid olanlardanam", – dedi.

82. Artıq bundan sonra kim üz döndərsə, onlar məhz yoldan çıxanlardır.

83. Göylərdəki və yerdəki hər kəs istər-istəməz Ona boyun əydiyi halda və Ona qaytarılacaqkən onlar Allahın dinindən başqasınımı axtarırlar?

84. De ki: "Allaha, bizə endirilənə (Qur`ana), İbrahimə, İsmailə, İshaqa, Yaquba və Yaqub oğullarına endirilənə, Musaya, İsaya və peyğəmbərlərə Rəblərindən verilənə inandıq. Onlardan heç birini digərindən fərqləndirmərik. Biz Ona təslim olanlarıq".

85. Kim İslamdan başqa bir din axtarsa, (bilsin ki, o din) ondan qəbul edilməyəcək və o, axirətdə ziyana düşənlərdən olacaq.

86. İman etdikdən, Peyğəmbərin haqq olduğuna şahidlik etdikdən və özlərinə açıq-aydın dəlillər gəldikdən sonra inkar edən bir topluluğu Allah necə doğru yola yönəltsin? Allah zalımlar qövmünü doğru yola yönəltməz.

87. Onların cəzası Allahın, mələklərin və bütün insanların lənətinə tuş gəlməkdir.

88. Onun (lənətin) içində əbədi qalacaqlar. Onların əzabı yüngülləşdirilməz, onlara aman verilməz.

89. Ancaq bundan sonra tövbə edib özlərini düzəldənlər istisnadır. Şübhəsiz ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

90. Şübhəsiz, iman etdikdən sonra inkar edən, sonra da inkarda dərinə gedənlərin tövbələri əsla qəbul edilməyəcək. Onlar məhz azğınlardır.

91. Sözsüz ki, inkar edib kafir olaraq ölənlər ki var, dünya dolusu qızılı fidyə versələr belə bu, heç birindən əsla qəbul olunmayacaq. Onlar üçün ağrılı-acılı bir əzab var. Onların heç bir yardımçıları da yoxdur.

92. Sevdiyiniz şeylərdən Allah yolunda xərcləmədikcə yaxşılığa əsla nail ola bilməzsiniz. Nə xərcləsəniz, Allah onu bilir.

93. Tövrat endirilmədən əvvəl İsrailin (Yaqubun) özünə haram etdiyi xaricində bütün təamlar İsrail oğullarına halal idi. De ki: "Əgər doğru söyləyənlərsinizsə, Tövratı gətirib oxuyun".

94. Artıq bundan sonra Allaha qarşı kim yalan uydursa, onlar məhz zalımlardır.

95. De ki: "Allah doğru söyləmişdir. Elə isə haqqa üz tutan İbrahimin dininə tabe olun. O, Allaha şərik qoşanlardan deyildi".

96. Şübhəsiz ki, insanlar üçün qurulan ilk ibadət evi, əlbəttə, Məkkədə aləmlərə rəhmət və hidayət mənbəyi olaraq qurulan Kəbədir.

97. Onda açıq-aydın dəlillər, Məqami-İbrahim[1] var. Oraya kim daxil olsa, amanda olar. O yolu getməyə gücü yetənlərin həcc etməsi Allahın insanlar üzərində bir haqqıdır. Kim inkar edərsə (bu haqqı tanımazsa), şübhə yoxdur ki, Allah bütün aləmlərdən müstəğnidir. (Heç kimə möhtac deyildir, hər şey Ona möhtacdır.)

98. De ki: "Ey kitab əhli! Allah etdiklərinizi gördüyü halda Allahın ayələrini niyə inkar edirsiniz?"

99. De ki: "Ey kitab əhli! (Həqiqəti) görüb bildiyiniz halda niyə Allahın yolunu əyri göstərməyə cəhd edərək inananları Allahın yolundan döndərməyə çalışırsınız? Allah etdiklərinizdən xəbərsiz deyil".

100. Ey iman edənlər! Kitab verilənlərdən hər hansı bir firqəyə tabe olsanız, imanınızdan sonra sizi döndərib kafir edərlər.

101. Sizə Allahın ayələri oxunduğu halda və Allahın rəsulu da aranızda ikən necə dönüb inkar edirsiniz? Kim Allaha möhkəm bağlansa, mütləq o, doğru yola yönəldilmişdir.

102. Ey iman edənlər! Allaha qarşı gəlməkdən, lazımınca çəkinin və siz ancaq müsəlmanlar olaraq ölün.

102. Hamılıqla Allahın ipinə (Qur`ana) möhkəm sarılın. Bölünüb parçalanmayın. Allahın sizə olan nemətini xatırlayın. Siz bir-birinizə düşmən idiniz, O, qəlblərinizi birləşdirmişdi. Onun bu nemətləri sayəsində qardaş olmuşdunuz. Yenə siz oddan bir çuxurun tam kənarındaydınız, O, sizi oradan qurtarmışdı. Allah sizə ayələrini belə açıq-aydın bildirir ki, doğru yola yönələsiniz.

104. Sizdən xeyrə səsləyən, yaxşılığı əmr edən, pisliyi qadağan edən bir camaat olsun. Qurtuluşa nail olanlar onlardır.

105. Özlərinə açıq-aydın dəlillər gəldikdən sonra bölünüb ixtilafa düşənlər kimi olmayın. Onlar üçün böyük bir əzab var.

106. O gün bəzi üzlər ağarar, bəzi üzlər qaralar. Üzləri qaralanlara: "İmanınızdan sonra inkar etdiniz, eləmi? Elə isə inkar etməyinizin müqabilində əzabı dadın", – deyilər.

107. Üzləri ağaranlar isə Allahın rəhməti içindədirlər. Onlar orada əbədi qalacaqlar.

---

1 Məqami-İbrahim ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/125 və istinadı.

108. Bunlar Allahın sənə haqq olaraq oxuduğumuz ayələridir. Allah aləmlərə zülm etməyi əsla istəməz.

109. Göylərdəki hər şey, yerdəki hər şey Allahındır. Bütün işlər ancaq Allaha qaytarılar.

110. Siz insanlar üçün çıxarılmış ən xeyirli ümmətsiniz. Yaxşılığı əmr edər, pisliyi qadağan edər və Allaha iman edərsiniz. Kitab əhli də inansaydı, əlbəttə, özləri üçün xeyirli olardı. Onlardan iman edənlər də var. Ancaq çoxu fasiq kimsələrdir.

111. Onlar sizə əziyyət verməkdən başqa zərər yetirə bilməzlər. Əgər sizinlə savaşmalı olsalar, dönüb qaçarlar. Sonra onlara yardım da edilməz.

112. Onlar harada olursa olsunlar, Allahın və (mömin) insanların zəmanətinə sığınmadıqca zillətə düçar olmuşlar. Onlar Allahın qəzəbinə düçar oldular və miskinlik onları bürüdü. Bunun səbəbi o idi ki, onlar Allahın ayələrini inkar edər və peyğəmbərlərini də haqsız yerə öldürərdilər. Bütün bunların səbəbi isə üsyan etmələri və (Allahın qoyduğu) hədləri aşmaları idi.

113. Onların (Kitab əhlinin) hamısı eyni deyil. Kitab əhli içində gecə saatlarında qiyama duran, səcdəyə qapanaraq Allahın ayələrini oxuyan bir zümrə də var.[1]

114. Onlar Allaha və axirət gününə inanırlar. Yaxşılığı əmr edirlər. Pisliyi qadağan edir, xeyirli işlərdə bir-biriləri ilə yarışırlar. Onlar salehlərdəndir.

115. Onların işlədiyi xeyirlər əvəzsiz qalmayacaq. Allah Ona qarşı gəlməkdən çəkinənləri bilər.

116. İnkar edənlərə nə malları, nə də övladları Allah qatında heç bir fayda verməz. Onlar cəhənnəmlikdirlər. Onlar orada əbədi qalacaqlar.

117. Onların bu dünya həyatında xərclədikləri mallar özlərinə zülm edən bir qövmün əkinlərini vurub tələf edən qovurucu və soyuq bir külək kimidir. Allah onlara zülm etmədi. Lakin onlar özlərinə zülm edirlər.

118. Ey iman edənlər! Sizdən olmayan heç kimi sirdaş tutmayın. Onlar sizə pislik etməkdən əsla əl çəkməzlər. Hey sıxıntıya düçar olmağınızı istəyərlər. Onların kinləri danışıqlarından bəlli olur. Qəlblərində gizlədikləri isə daha böyükdür. Əgər düşünürsünüzsə, sizə ayələri açıqladıq.

119. Siz elə kimsələrsiniz ki, onları sevərsiniz. Onlar isə bütün kitablara iman etdiyiniz halda sizi sevməzlər. Onlar sizinlə qarşılaşdıqları zaman: "İnandıq", – deyərlər. Ancaq təklikdə qaldıqları zaman sizə qarşı kinləri səbəbi ilə barmaqlarını gəmirərlər. De ki: "Hirsinizdən ölün!" Şübhəsiz, Allah sinələrin özünü (qəlblərdə olanı) bilir.

120. Sizə bir yaxşılıq toxunsa, bu, onları məyus edər. Başınıza pis bir şey gəlsə, ona sevinərlər. Əgər siz səbirli olar, Allaha qarşı gəlməkdən çəkinərsinizsə, onların hiylələri sizə heç bir zərər verməz. Çünki Allah onların əməllərini əhatə etmişdir.

121. Xatırla ki, sən möminləri (Uhudda) döyüş mövqelərinə yerləşdirmək üçün səhər tezdən ailəndən (evindən) ayrılmışdın. Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

---

1 Bu ayə ilə sonrakı iki ayədə kitab əhlindən olub sonradan müsəlman olan Abdullah ibn Səlam və onun dostları nəzərdə tutulur. Bu surənin 199-cu və 200-cü ayələrində də bu şəxslərə işarə edilir.

122. Sizdən iki dəstə (təşvişə qapılaraq) geri çəkilmək fikrinə düşmüşdü. Halbuki Allah onların yardımçısı idi. Möminlər yalnız Allaha təvəkkül etsinlər.[1]

123. And olsun ki, siz son dərəcə gücsüz ikən Allah sizə Bədrdə yardım etmişdi. O halda Allaha qarşı gəlməkdən çəkinin ki, şükür etmiş olasınız.

124. Sən möminlərə: "Rəbbinizin endirilmiş üç min mələk ilə yardım etməsi sizə kifayət etməzmi?" – deyirdin.

125. Bəli, səbir etdiyiniz və Allaha qarşı gəlməkdən çəkindiyiniz təqdirdə, onlar gözləmədiyiniz bir anda üzərinizə gəlsələr belə Rəbbiniz nişan qoyulmuş beş min mələklə sizə yardım edər.

126. Allah bunu sizə sırf bir müjdə olsun və qəlbləriniz bununla rahatlıq tapsın deyə etdi. Yardım və zəfər ancaq mütləq güc sahibi, hökm və hikmət sahibi Allah qatındandır.

127. Bir də Allah bunu, inkar edənlərdən bir qismini həlak etsin və ya darmadağın etsin ki, ümidsiz olaraq dönüb getsinlər deyə etdi.

128. Bu işdə sənin edəcəyin bir şey yoxdur. Allah ya tövbələrini qəbul edib onları əfv edər, ya da zalım olduqları üçün onlara əzab verər.

129. Göylərdəki hər şey və yerdəki hər şey Allahındır. O, istədiyini bağışlayar, istədiyinə əzab verər. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

130. Ey iman edənlər! Qat-qat artırılmış olaraq faiz yeməyin. Allaha qarşı gəlməkdən çəkinin ki, nicat tapasınız.[2]

131. Kafirlər üçün hazırlanmış oddan özünüzü qoruyun.

132. Allaha və Peyğəmbərə itaət edin ki, sizə mərhəmət edilsin.

133. Allahın məğfirətinə, genişliyi göylərlə yer arası qədər olan və Allaha qarşı gəlməkdən çəkinənlər üçün hazırlanmış olan cənnətə tələsin.

134. Onlar bolluqda və qıtlıqda Allah yolunda xərcləyənlər, qəzəblərini ram edənlər, insanları əfv edənlərdir. Allah yaxşılıq edənləri sevər.

135. Yenə onlar çirkin bir iş gördükləri, yaxud nəfslərinə zülm etdikləri zaman Allahı xatırlayıb dərhal günahlarının bağışlanmasını istəyənlər – ki Allahdan başqa günahları kim bağışlayar? – və bilə-bilə etdikləri (günah) üzərində israr etməyənlərdir.

136. Onların mükafatları Rəbləri tərəfindən bağışlanmaq və içindən çaylar axan cənnətlərdir ki, orada əbədi qalacaqlar. (Allah yolunda) çalışanların mükafatı nə gözəldir!

---

1 Uhud döyüşündə sağ və sol cinahlara yerləşdirilmiş Xəzrəc qəbiləsindən Sələmə oğulları ilə Övs qəbiləsindən Harisə oğulları həzrət Peyğəmbərin savaş taktikasına riayət etməmiş, savaş əsnasında düşmən qarşısında qorxaqlıq və zəiflik göstərmişdilər.

2 Bu ayə cahiliyyə dövründə ərəblər arasında mövcud olan bir adətə işarə edir və onu qadağan edir. Müşrik ərəblər vaxtında ödənilməyən borca yüksək faizlər qoyaraq vaxtı uzadardılar, beləliklə, alınan borc qısa zamanda qat-qat artardı. Ayədəki sözün əks mənasını nəzərə alaraq qat-qat artırılmayan faizin yeyilə biləcəyini demək mümkün deyil. Çünki Bəqərə surəsinin 275-ci ayəsi ilə, miqdarı nə olur olsun, faiz birmənalı olaraq qadağan olunmuşdur.

137. Sizdən əvvəl(ki millətlərin başından) nə hadisələr keçmişdir. Yer üzündə gəzib dolaşın, təkzib edənlərin sonunun necə olduğunu bir görün.

138. Bu (Qur`an), insanlar üçün bir bəyan, Allaha qarşı gəlməkdən çəkinənlər üçün bir hidayət və bir öyüddür.

139. Məyus olmayın, hüznlənməyin. Əgər (həqiqətən,) iman etmiş kimsələrsinizsə, üstün olan sizsiniz.

140. Əgər siz (Uhudda) bir yara aldınızsa, şübhəsiz, o dəstə də (müşriklər də Bədrdə) bənzər bir yara almışdı. (Yaxşı və pis) günləri insanlar arasında (belə) dəyişdiririk. (Bəzən bir topluluğa yaxşı və ya pis günlər göstəririk, bəzən də digərinə.) Allah sizdən iman edənləri ayırd etmək, sizdən şahidlər tutmaq üçün belə edər. Allah zalımları sevməz.

141. Həm də Allah iman edənləri təmizləmək və küfrə düşənləri məhv etmək üçün belə edər.

142. Yoxsa siz Allah sizdən cihad edənləri (sınayıb) ayırd etmədən və yenə səbir edənləri (sınayıb) ayırd etmədən cənnətə girəcəyinizimi sandınız?

143. And olsun ki, siz ölümlə qarşılaşmadan əvvəl onu arzulayırdınız. Artıq onu gördünüz, ancaq durub baxırsınız.

144. Muhamməd sadəcə bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib keçmişdir. İndi o ölər və ya öldürülərsə, geri (köhnə dininizə) dönəcəksiniz? Kim geri dönərsə, Allaha heç bir zərər verə bilməz. Allah şükür edənləri mükafalandıracaqdır.

145. Heç kim Allahın izni olmadan ölməz. Ölüm müəyyən bir müddətə görə yazılmışdır. Kim dünya mənfəətini istəsə, ona ondan verərik. Kim də axirət mükafatını istəsə, ona da ondan verərik. Biz şükür edənləri mükafatlandıracağıq.

146. Neçə-neçə peyğəmbərlər var ki, onlarla birlikdə bir çox Allah dostu vuruşdu. Bunlar Allah yolunda başlarına gələnlərə görə ruhdan düşmədilər, zəiflik göstərmədilər, boyun əymədilər. Allah səbir edənləri sevər.

147. Onların sözləri sadəcə: “Rəbbimiz! Günahlarımıza və işimizdə həddi aşdığımıza görə bizi bağışla və (yolunda) qədəmlərimizi sabit et. Kafir qövmə qarşı bizə yardım et”, – deməkdən ibarət idi.

148. Allah da onlara həm dünya nemətini, həm də axirətin gözəl mükafatını verdi. Allah gözəl davrananları sevər.

149. Ey iman edənlər! Əgər siz kafir olanlara tabe olsanız, sizi (küfrə) geri döndərərlər, tamamilə ziyana düşərsiniz.

150. Xeyr! Sadəcə Allah yardımçınızdır. O, yardımçıların ən xeyirlisidir.

151. Haqqında heç bir dəlil endirmədiyi şeyləri Allaha şərik qoşmaları səbəbi ilə inkar edənlərin qəlblərinə qorxu salacağıq. Sığınacaqları yer də cəhənnəmdir. Zalımların qalacaqları yer nə pisdir.

152. And olsun ki, Allah izni ilə onları (müşrikləri) əzib keçdiyiniz zaman sizə olan vədini gerçəkləşdirdi. Nəhayət, sevdiyiniz şeyi (zəfəri) sizə göstərdikdən sonra zəiflik

göstərdiniz. (Peyğəmbərin verdiyi) əmr barəsində mübahisə etdiniz və əmrə qarşı çıxdınız. Aranızdan dünyanı istəyənlər də var idi, axirəti istəyənlər də. Sonra sizi sınamaq üçün üzünüzü onlardan çevirdi. (Qaçıb məğlubiyyətə düçar oldunuz. Buna rəğmən) sizi bağışladı. Allah möminlərə qarşı çox lütfkardır.

**153.** Peyğəmbər arxanızdan sizi çağırarkən siz durmadan dağ yuxarı qaçır, dönüb heç kimə baxmırdınız. Bu səbəblə Allah sizə kədər üstünə kədər verdi ki, (bu vəziyyətlərə alışasınız və daha sonra) əlinizən çıxana və başınıza gələnə kədərlənməyəsiniz. Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.[1]

**154.** Sonra o kədərin ardından (Allah) üzərinizə sizdən bir qismini bürüyən bir güvən, bir yuxu endirdi. Bir qisminiz də öz canlarının dərdinə düşdülər. Allaha qarşı cahiliyyə zənni kimi həqiqətə uyğun olmayan bir gümana düşür: "Bu işdə bizim heç bir dəxlimiz yoxdur", – deyirdilər. De ki: "Bütün iş Allahındır". Onlar sənə açıq bir şəkildə bildirə bilmədiklərini içlərində saxlayır və deyirlər ki: "Bu barədə bizim əlimizdə bir şey olsaydı, burada öldürülməzdik". De ki: "Evlərinizdə də olsaydınız, üzərilərinə ölüm yazılmış olanlar mütləq yatacaqları (öldürüləcəkləri) yerlərə çıxıb gedəcəkdilər. Allah bunu sinələrinizdəkini sınamaq, qəlblərinizdəkini təmizləmək üçün etdi. Allah sinələrin özünü (qəlblərdə olanı) bilir".

**155.** Şeytan iki topluluğun qarşılaşdığı gün sizdən üz döndərib qaçanları etdikləri bəzi xətalar səbəbi ilə yoldan çıxarmaq istəmişdi. Ancaq yenə də Allah onları əfv etdi. Şübhəsiz, Allah çox bağışlayandır, həlimdir (dərhal cəzalandırmaz, möhlət verər).

**156.** Ey iman edənlər! Qardaşları səfərə və ya savaşa getdikdə onlar haqqında "Onlar bizim yanımızda olsaydılar, ölməzdilər və öldürülməzdilər" deyən inkarçılar kimi olmayın. Allah bunu (bu düşüncəni) onların qəlblərinə bir həsrət (yarası) olaraq qoydu. Allah yaşadar və öldürər. Allah etdiklərinizi görəndir.

**157.** And olsun ki, əgər Allah yolunda öldürülər və ya ölərsinizsə, Allahın bağışlamağı və rəhməti onların yığdıqları (dünya malı)ndan daha xeyirlidir.

**158.** And olsun ki, ölsəniz də, öldürülsəniz də Allahın hüzurunda toplanacaqsınız.

**159.** Allahın rəhməti sayəsində sən onlara qarşı mülayim rəftar etdin. Əgər qaba, qatı qəlbli olsaydın, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et. Onlar üçün Allahdan bağışlanma dilə. İş barəsində onlarla məşvərət et. Qəti qərara gəlib əzm etdikdə isə, artıq Allaha təvəkkül et (Ona arxalan). Şübhəsiz, Allah təvəkkül edənləri sevər.

**160.** Allah sizə yardım edərsə, heç kim sizə qalib gələ bilməz. Əgər sizi yardımsız buraxarsa, ondan sonra sizə kim yardım edə bilər? Möminlər ancaq Allaha təvəkkül etsinlər.

---

1 Bu ayələr Uhud döyüşündə baş verən bəzi hadisələrə diqqət çəkir. Döyüşdən əvvəl həzrət Peyğəmbər bir bölüyü bir keçidə yerləşdirərək, onlara nəyin bahasına olursa olsun, bir əmr gəlmədikcə mövqelərini tərk etməməyi tapşırdı. Döyüşün başlanğıcında müsəlmanlar üstünlük əldə edincə, bir neçə nəfər xaric, keçiddəkilər mövqelərini tərk edərək qənimət toplamağa tələsdilər. Bunu fürsət bilən müşriklər arxadan dolanaraq müsəlmanları çətin vəziyyətə saldı. Müsəlmanlar döyüşün əvvəlində qazandıqları üstünlüyü əldən verərək dağıldılar. Həzrət Peyğəmbərin çağırışı ilə edilən son bir həmlə sayəsində müsəlmanlar məğlubiyyətdən qurtuldular, ancaq tam bir uğur da qazana bilmədilər. Müsəlman əsgərlərdən bir qisminin verilən əmri yerinə yetirməməsi İslam ordusuna baha başa gəlmişdi.

161. Heç bir peyğəmbərin əmanətə xəyanət etməsi düşünülə bilməz. Kim xəyanət edərsə, qiyamət günü xəyanət etdiyi şeylə birlikdə gələr. Sonra da heç bir haqsızlığa məruz qalmadan hər kəsə qazandığının qarşılığı tam ödənər.

162. Allahın rizasına tabe olan kimsə Allahın qəzəbinə düçar olan və varacağı yer cəhənnəm olan kimi olarmı? O nə pis mənzildir!

163. Onların (insanların) Allahın qatında (fərqli) dərəcələri var. Allah onların etdiklərini görəndir.

164. And olsun ki, Allah möminlərə öz aralarından; onlara ayələrini oxuyan, onları arındırıb təmizləyən, onlara kitab və hikməti öyrədən bir peyğəmbər göndərməklə böyük bir lütf etmişdir. Halbuki onlar daha əvvəl açıq-aydın zəlalət içində idilər.

165. Onların (müşriklərin) başına (Bədrdə) iki mislini gətirdiyiniz bir müsibət (Uhudda) sizin başınıza gəldikdə: "Bu haradan başımıza gəldi?" – dediniz, eləmi? De ki: "O (müsibət) özünüzdəndir". Şübhəsiz, Allahın gücü hər şeyə haqqı ilə yetər.

166, 167. İki topluluğun (ordunun) qarşılaşdığı gündə başınıza gələn müsibət Allahın izni ilədir. Bu da möminləri ortaya çıxarması və münafiqlik edənləri müəyyən etməsi üçün idi. Onlara (münafiqlərə): "Gəlin Allah yolunda savaşın və ya müdafiəyə keçin", – deyildi, onlar: "Əgər savaşa bilsəydik, arxanızca gələrdik", – dedilər. Onlar o gün imandan çox küfrə daha yaxın idilər. Ağızları ilə qəlblərində olmayanı söyləyirdilər. Halbuki Allah içlərində gizlədikləri şeyi çox yaxşı bilir.

168. (Onlar) özləri oturub qaldıqları halda qardaşları üçün: "Əgər bizə qulaq assaydılar, öldürülməzdilər" deyən kimsələrdir. De ki: "Əgər doğru söyləyənlərsinizsə, ölümü özünüzdən dəf edin".

169, 170. Allah yolunda öldürülənləri əsla ölülər sanma. Əksinə onlar diridirlər, Rəbləri qatında Allahın, lütfündən onlara verdiyi nemətlərin sevincini yaşayaraq ruziləndirilirlər. Arxalarından özlərinə yetişə bilməyən (hələ şəhid olmamış) kimsələrə də heç bir qorxu olmayacağına və onların hüznlənməyəcəklərinə sevinirlər.

171. (Şəhidlər) Allahın nemətinə, kərəminə və Allahın möminlərin əcrini puç etməyəcəyinə sevinirlər.

172. Onlar yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətinə uyan kimsələrdir. Onlardan gözəl davranıb yaxşılıq edənlərə və Allaha qarşı gəlməkdən çəkinənlərə böyük bir mükafat var.

173. Onlar elə kəslərdir ki, camaat onlara: "İnsanlar sizə qarşı ordu toplayıblar, onlardan qorxun", – dedikləri zaman bu söz onların imanını artırdı və: "Allah bizə yetər, O nə gözəl vəkildir!" – dedilər.

174. Bu səbəblə Allahdan bir nemət və lütflə onlara heç bir pislik toxunmadan geri döndülər və Allahın rizasına uydular. Allah böyük lütf sahibidir.

175. O şeytan[1] sizi ancaq öz dostları ilə qorxudur. Onlardan qorxmayın, əgər möminsinizsə, məndən qorxun.

1 Təfsir alimlərinə görə ayədə "şeytan" olaraq işarə edilən adam məkkəli müşriklərin mədinəli müsəlmanlar arasında mənfi təbliğat aparmaq üçün göndərdiyi Nüeym adlı biridir.

176. Küfrdə yarışanlar səni məyus etməsin. Onlar Allaha heç bir şəkildə zərər verə bilməzlər. Allah istəyir ki, onlara axirətdə bir pay verməsin. Onlar üçün böyük bir əzab var.

177. İman qarşılığında küfrü satın alanlar Allaha heç bir zərər yetirə bilməzlər. Onlar üçün ağrılı-acılı bir əzab var.

178. İnkar edənlər onlara verdiyimiz möhlətin özləri üçün xeyirli olduğunu sanmasınlar. Biz onlara ancaq günahları artsın deyə möhlət veririk. Onlar üçün alçaldıcı bir əzab var.

179. Allah pisi təmizdən ayırıncaya qədər möminləri içində olduğunuz bu vəziyyətdə buraxacaq deyil. Allah sizə qeybi bildirəcək də deyil. Lakin Allah peyğəmbərlərindən istədiyini seçər (qeybi ona bildirər). O halda Allaha və peyğəmbərlərinə iman edin. Əgər iman edər və Allaha qarşı gəlməkdən çəkinərsinizsə, sizin üçün böyük bir mükafat var.[1]

180. Allahın öz lütfündən onlara verdiyi nemətlərdə xəsislik edənlər bunun özləri üçün xeyirli olduğunu sanmasınlar. Xeyr! O, özləri üçün bir şərdir. Xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaq. Göylərin və yerin mirası Allahındır. Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

181. “Həqiqətən, Allah kasıbdır, biz varlıyıq” deyənlərin sözünü Allah, əlbəttə, eşitdi. Onların dediklərini və haqsız yerə peyğəmbərləri öldürdüklərini yazacaq və: “Dadın atəşin əzabını!” – deyəcəyik.

182. “Bu, öz əllərinizin (əvvəlcədən edib) göndərdiklərinin qarşılığıdır”. Allah qullara əsla zülm edən deyil.

183. Onlar: “Allah bizə atəşin yeyəcəyi bir qurban gətirmədikcə heç bir peyğəmbərə inanmamağı əmr etdi”, – dedilər. De ki: “Məndən əvvəl neçə-neçə peyğəmbərlər sizə açıq-aşkar dəlillər və sizin dediyiniz şeyi gətirdi. Əgər doğru söyləyənlərsinizsə, nə üçün onları öldürdünüz?”[2]

184. Əgər səni təkzib etdilərsə, səndən əvvəl açıq dəlilləri, hikmətli səhifələri və aydınlıq saçan kitabı gətirən peyğəmbərlər də təkzib edilmişdi.[3]

185. Hər canlı ölümü dadacaq. Ancaq etdiklərinizin qarşılığı qiyamət günü sizə tam

---

1 Müsəlmanlar Mədinədə yerləşib güclənməsindən sonra İslamı qəbul edənlərin sayı sürətlə artdı. Lakin əslində inanmadığı halda özünü inanmış kimi göstərənlərin sayı da artmışdı. Belə ki, min nəfərlik İslam ordusu içində yer alan üç yüz münafiq Uhud döyüşündən əvvəl ayrılmışdı. Səmimi möminlərin tanımadıqları münafiqlərlə bu qədər yaxın olmaları təhlükəli idi. Uhud döyüşü məhz belə bir şəraitdə baş vermiş və müsəlmanlar çox çətin və mürəkkəb vəziyyətə düşmüşdülər. Buna görə ayədə belə bir mesaj verilir: Allah siz möminləri həmişə bu vəziyyətdə qoymaz. Bəzən də Uhudda olduğu kimi şəhidlik və digər çətinliklərlə sınağa çəkər ki, pis ilə təmiz, yəni münafiqlə mömin bir-birindən ayrılsın.

2 Rəvayətə görə keçmişdə bir nəfər sədəqə verdiyi zaman onun qəbul edilib-edilmədiyini anlamaq üçün bir qurban kəsərdi. Əgər sədəqəsi qəbul edilibsə, göydən bir atəş enib o qurbanı yandırardı. Bu üsul İsrail oğullarına göndərilən peyğəmbərlərin peyğəmbərliklərini isbat etmək üçün göstərdikləri möcüzələrdən biri olmuşdu. Mədinə yəhudiləri buna istinadən Rəsulullaha peyğəmbər olduğunu sübut etmək üçün İsrail oğullarının peyğəmbərləri kimi atəşin yandırdığı qurban möcüzəsini göstərməsini istəmişdilər.

3 Ayənin məalı bu şəkildə də ola bilər: “Səni təkzib etdikləri təqdirdə, (bununla) səndən əvvəl açıq dəlillər, hikmətli səhifələr və aydınlıq saçan kitab gətirən (digər) peyğəmbərlər də təkzib edilər”.

veriləcək. Kim cəhənnəmdən uzaqlaşdırılıb cənnətə daxil edilərsə, həqiqətən, qurtuluşa nail olmuşdur. Dünya həyatı aldadıcı həzdən başqa bir şey deyil.

186. And olsun ki, mallarınız və canlarınız barəsində imtahan ediləcəksiniz. Sizdən əvvəl kitab verilənlərdən və Allaha şərik qoşanlardan bir çox acı söz eşidəcəksiniz. Əgər səbir edər və Allah qarşı gəlməkdən çəkinərsinizsə, bilin ki, bunlar əzmkarlıq istəyən işlərdəndir.

187. Bir vaxt Allah kitab verilənlərdən: “Onu (Kitabı) mütləq insanlara açıqlayacaq, onu gizlətməyəcəksiniz”, – deyə möhkəm bir söz almışdı. Lakin onlar verdikləri sözə əməl etməyib onu ucuz qiymətə dəyişdilər. Etdikləri bu alış-veriş nə pisdir!

188. Etdikləri ilə sevinən və etmədikləri şeylərə görə tariflənməyi sevən kimsələrin əzabdan qurtulacaqlarını sanma. Onlar üçün ağrılı-acılı bir əzab var.

189. Göylərin və yerin hökmranlığı Allahındır. Allah hər şeyə haqqı ilə gücü yetəndir.

190. Göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-biri ardınca gəlib-getməsində ağıl sahibləri üçün, əlbəttə, ibrətlər var.

191. Onlar ayaq üstə ikən, oturarkən və yan üstə uzanarkən Allahı xatırlayarlar. Göylərin və yerin yaradılışı haqqında düşünərlər. “Rəbbimiz! Bunu boş yerə yaratmadın, səni nöqsanlardan uzaq tuturuq. Bizi atəşin əzabından qoru”, – deyərlər.

192. “Rəbbimiz! Sən kimi cəhənnəm oduna atsan, onu rüsvay etmisən. Zalımların heç bir yardımçısı yoxdur”.

193. “Rəbbimiz! Biz: “Rəbbinizə iman edin”, – deyə imana səsləyən bir dəvətçi eşitdik, dərhal iman etdik. Rəbbimiz! Günahlarımızı bağışla. Pisliklərimizi ört. Canımızı yaxşılarla bir yerdə al”.

194. “Rəbbimiz! Peyğəmbərlərin vasitəsilə bizə vəd etdiklərini ver bizə. Qiyamət günü bizi rüsvay etmə. Şübhəsiz, sən vədinə xilaf çıxmazsan”.

195. Rəbləri onlara bu cavabı verdi: “Mən istər kişi olsun, istər qadın sizdən heç bir çalışanın əməlini puç etməyəcəyəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlər, yurdlarından çıxarılanlar, yolumda əziyyətə qatlananlar, savaşanlar və öldürülənlərin də and olsun ki, günahlarını, əlbəttə, örtəcəyəm. Allah qatından bir mükafat olaraq onları içindən çaylar axan cənnətlərə qoyacağam. Ən gözəl mükafat Allah qatındandır”.

196. Kafirlərin rifah içində diyar-diyar gəzib dolaşması qətiyyən səni aldatmasın.

197. (Onların bu rifahı) azacıq bir mənfəətdir. Sonra onların sığınacağı cəhənnəmdir. Ora nə pis bir yataqdır!

198. Lakin Rəblərinə qarşı gəlməkdən çəkinənlər üçün Allah qatından rahatlıqla qalacaqları bir yer olaraq içində əbədi qalacaqları, içindən çaylar axan cənnətlər var. Allah qatında olan şeylər yaxşılar üçün daha xeyirlidir.

199. Kitab əhlindən elələri var ki, Allaha, sizə endirilənə və özlərinə endirilənə Allaha dərindən ehtiram duyaraq inanırlar. Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların Rəbləri qatında mükafatları var. Şübhəsiz, Allah çox tez hesaba çəkəndir.

200. Ey iman edənlər! Səbir edin. Səbir yarışında düşmənlərinizi ötüb keçin. (Cihad

üçün) hazır və ayıq-sayıq olun və Allaha qarşı gəlməkdən çəkinin ki, qurtuluşa nail olasınız.

# 4. NİSA SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 176 ayədən ibarətdir. Surə xüsusilə qadın haqlarından, onların hüquqi və ictimai mövqelərindən bəhs etdiyi üçün belə adlandırılmışdır. "Nisa" qadınlar deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey insanlar! Sizi tək bir nəfsdən yaradan və ondan[1] da zövcəsini yaradan, ikisindən bir çox kişi və qadın (meydana gətirib) törədən Rəbbinizə qarşı gəlməkdən çəkinin. Adı ilə bir-birinizdən istədiyiniz Allaha qarşı gəlməkdən və qohumluq əlaqələrini kəsməkdən çəkinin. Şübhəsiz, Allah üzərinizdə gözətçidir.[2]
2. Yetimlərə mallarını verin. Təmizi pis olanla (halalı haramla) dəyişməyin. Onların mallarını öz mallarınıza qatıb yeməyin. Çünki bu, böyük bir günahdır.
3. Əgər (qəyyumluq etdiyiniz) yetim qızlar (ilə evlənib onlar) haqqında ədalətsizlik etməkdən qorxarsınızsa, (onlarla deyil), sizə halal olan (başqa) qadınlardan iki-iki, üç-üç, dörd-dörd olmaqla nikah bağlayın.[3] Əgər (o qadınlar arasında da) ədalətli davranmayacağınızdan qorxarsınızsa, onda biri ilə evlənin və ya sahib olduğunuz (cariyələr) ilə kifayətlənin. Bu, ədalətdən ayrılmamağınız üçün daha uyğundur.
4. Qadınlara mehrlərini (bir vəzifə olaraq) könül xoşluğu ilə verin. Əgər öz istəkləri ilə o mehrin bir hissəsini sizə bağışlasalar, onu da nuşcanlıqla yeyin.
5. Allahın sizin üçün dolanışıq mənbəyi etdiyi mallarınızı ağılsızlara verməyin. O mallarla onları bəsləyin, geyindirin və onlara gözəl söz söyləyin.[4]
6. Yetimləri sınayın. Evlilik yaşına (həddi-büluğa) çatdıqları zaman əgər əqli yetkinliyə sahib olduqlarını görsəniz, mallarını özlərinə verin. Böyüyəcəklər (və mallarını geri alacaqlar) deyə israf edərək və tələm-tələsik onların mallarını yeməyin. (Qəyyumlardan) kim varlıdırsa, (yetim malı yeməkdən) çəkinsin. Kim də kasıbdırsa, ağlın və dinin uyğun gördüyü bir ölçüdə (xidmətinin qarşılığı qədər) yesin. Mallarını özlərinə geri qaytardığınız zaman da yanlarında şahid tutun. Hesaba çəkən olaraq Allah yetər.
7. Ana, ata və qohumların (miras olaraq) qoyub getdiklərindən kişilərə bir pay var.

1 Buradakı "ondan" ifadəsi "onun cinsindən" şəklində də başa düşülə bilər.

2 Bu mövzu üçün baxın: Hucurat, 49/13.

3 Bu ayədə keçən "nikah bağlayın" əmri vaciblik mənası deyil, rüxsət və icazə mənası daşıyır. Bu baxımdan İslam dinində çoxevlilik bir qayda deyil, lazım gəldikdə müraciət olunan müstəsna bir haldır.

4 Bu ayədə yetimlərin mallarını əllərində saxlayan qəyyumlara xitab edilir. Ayədəki "mallarınız" ifadəsi ilə, yetimlərə aid olub, qəyyumların nəzarətində olan mallar nəzərdə tutulur. Bundan başqa bu mallardan xərcləndiyi zaman məşru ölçülər daxilində ağla uyğun davranılmasına da işarə edilir.

Ana, ata və qohumların (miras olaraq) qoyub getdiklərindən qadınlara da bir pay var. Allah miras olaraq buraxılanın azından da, çoxundan da bunları vacib bir hissə olaraq təyin etmişdir.

**8.** Miras bölgüsündə (pay düşməyən) qohumlar, yetimlər və kasıblar iştirak etsələr, onlara da maldan bir şey verin və onlara (könüllərini alacaq) gözəl sözlər söyləyin.

**9.** Geridə zəif uşaqlar qoyub getdikləri təqdirdə, onlar haqqında əndişə duyanlar (yetimlər haqqında da) qorxsunlar. Allaha qarşı gəlməkdən çəkinsinlər və doğru söz söyləsinlər.

**10.** Yetimlərin mallarını haqsız yerə yeyənlər ancaq və ancaq qarınlarını doldurarcasına atəş yemiş olarlar və onsuz da onlar çılğın bir atəşə (cəhənnəmə) girəcəklər.

**11.** Allah sizə övladlarınız(ın alacağı miras) haqqında kişiyə iki qadının payı qədərini əmr edir. (Övladlar sadəcə) ikidən artıq qızdırlarsa, (ölənin geridə) buraxdığının üçdə ikisi onlarındır.[1] Əgər qız birdirsə, (mirasın) yarısı onundur. Ölənin övladı varsa, geridə buraxdığı maldan valideynlərindən hər birinin altıda bir payı var. Əgər övladı yoxdursa və (yalnız) ata-anası ona varis olursa, anasına üçdə bir düşər. Əgər qardaşları varsa, anasının payı altıda birdir. (Bu bölgü, ölənin) edəcəyi vəsiyyətdən ya da borcundan sonradır. Atalarınız və oğullarınızdan hansının sizə daha faydalı olduğunu bilə bilməzsiniz. Bunlar Allah tərəfindən fərz buyurulmuşdur. Şübhəsiz, Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

**12.** Əgər övladları yoxdursa, zövcələrinizin geridə buraxdıqları mirasın yarısı sizindir. Əgər övladları varsa, buraxdıqları mirasın dörddə biri sizindir. (Bu bölgü, ölən zövcələrinizin) etdikləri vəsiyyətlərin yerinə yetirilməsi, yaxud da borclarının ödənməsindən sonradır. Əgər sizin övladınız yoxdursa, buraxdığınız mirasın dörddə biri onlarındır. Əgər övladınız varsa, buraxdığınız mirasın səkkizdə biri onlarındır. (Yenə bu bölgü) etdiyiniz vəsiyyətin yerinə yetirilməsindən, yaxud da borclarınızın ödənməsindən sonradır. Əgər varis olunan bir kişi və ya bir qadının övladı və atası olmazsa və bir qardaşı və ya bir bacısı olarsa, ona altıda bir düşər.[2] Əgər (qardaş və bacılar) birdən çox olarsa, üçdə birə ortaqdırlar. (Bu bölgü varislərə) zərər vermədən[3] edilən vəsiyyətin yerinə yetirilməsindən, yaxud da borcun ödənməsindən sonra edilir. (Bütün bunlar) Allahın əmridir. Allah haqqı ilə biləndir, həlimdir (dərhal cəzalandırmaz, möhlət verər).

**13.** Bax bu (hökmlər), Allahın qoyduğu hədlərdir. Kim Allaha və peyğəmbərinə itaət

---

1 Ayədə eyni vəziyyətdəki iki qız övladın payı açıq şəkildə ifadə edilməmişsə də, bunlar da ikidən artıq olanlar kimi üçdə iki pay alırlar.

2 Burada anabir bacı-qardaşlardan söhbət gedir. Onlar İslam hüququnda "övladi-ümm" olaraq adlanırlar. Onlar varis olduqları təqdirdə, öz aralarında kişi qadın fərqi qoyulmaz. Anabir və atabir bacı-qardaşlar isə varis olduqları zaman öz aralarında "kişiyə iki, qadına bir" olmaqla pay alırlar. (Eyni ana və atadan olan övladlarla əlaqədar olaraq baxın: Nisa, 4/176.)

3 Bu ayədə vəsiyyət ediləcək kimsələr ilə vəsiyyətin miqdarı haqqında bir məhdudiyyət yoxdur. Ancaq həzrət Peyğəmbər ayənin bu ümumi ifadəsini həm vəsiyyət ediləcək kimsələr baxımından, həm də vəsiyyət miqdarı baxımından müəyyən bir hədlə məhdudlaşdırmışdır. Belə ki, Peyğəmbərin bildirdiyinə əsasən, varislərə vəsiyyət edilə bilməz və vəsiyyət geridə qalan malın üçdə birindən çox ola bilməz. Beləliklə, varisin vəsiyyət yolu ilə zərərə uğramasının qarşısı alınmışdır.

edərsə, Allah onu içindən çaylar axan, içində əbədi qalacaqları cənnətlərə daxil edər. Bax bu, böyük uğurdur.

14. Kim də Allaha və peyğəmbərinə üsyan edər və Onun qoyduğu hədləri aşarsa, Allah onu əbədi qalacağı cəhənnəm atəşinə atar. Onun üçün alçaldıcı bir əzab var.

15. Qadınlarınızdan əxlaqsız iş görənlərə (zina edənlərə) qarşı aranızdan dörd şahid gətirin. Əgər onlar şahidlik etsələr, o qadınları ölənə qədər və ya Allah onlar haqqında bir yol açana qədər evlərdə saxlayın (evdən çıxmağa qoymayın).[1]

16. Sizdən əxlaqsız iş görənlərin (zina edənlərin) hər ikisini də incidib danlayın. Əgər onlar tövbə edib islah olsalar, onları incidib danlamaqdan əl çəkin. Çünki Allah tövbələri çox qəbul edəndir, çox mərhəmət edəndir.

17. Allah qatında (məqbul) tövbə ancaq bilmədən günah işləyib sonra çox keçmədən tövbə edənlərin tövbəsidir. Allah bunların tövbəsini qəbul edər. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

18. Yoxsa (məqbul) tövbə pis əməllər (günahlar) edib, ölüm gəlib çatdığı zaman "Mən indi tövbə etdim" deyən kimsələr ilə kafir olaraq ölənlərinki deyil. Bunlar üçün axirətdə ağrılı-acılı bir əzab hazırlamışıq.

19. Ey iman edənlər! Qadınlara zorla mirasçı olmanız sizə halal deyildir. Açıq bir həyasızılıq etmələri xaricində, onlara verdiklərinizin bir qismini onlardan geri almaq üçün onları sıxışdırmayın. Onlarla yaxşı rəftar edin. Əgər onlardan xoşlanmadınızsa, ola bilər ki, siz bir şeydən xoşlanmazsınız, amma Allah onda çox xeyir yaratmış olar.[2]

20. Əgər bir zövcənin yerinə başqa bir zövcə almaq istəyərsinizsə, o birisinə (mehir olaraq) yüklərlə mal vermiş olsanız da ondan heç bir şeyi geri almayın. İftira ataraq və açıq-aşkar günaha girərəkmi verdiyinizi geri alacaqsınız?[3]

21. Üstəlik siz zövcələrinizlə birləşdiyiniz və onlar da sizdən möhkəm bir söz aldıqları halda onu necə (geri) alarsınız?

22. Keçmişdə olanlar xaric, artıq atalarınızın evləndiyi qadınlarla evlənməyin. Çünki bu, bir həyasızlıq, qəzəb və nifrət yaradan bir işdir. Bu, nə pis bir yoldur.

23. Sizə bunlarla evlənmək haram buyuruldu: Analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacı qızları, sizi əmizdirən süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları, cinsi əlaqədə olduğunuz arvadlarınızdan olub evlərinizdə olan ögey qızlarınız, – əgər anaları ilə cinsi əlaqədə olmamısınızsa, onlarla evlənməyinizdə sizə bir günah yoxdur – öz oğullarınızın arvadları, iki bacını (ni-

---

1 Zina üçün müəyyən olunan və İslamın ilk dövrlərindən etibarən qüvvədə olan bu evə həbs etmək cəzası daha sonra 16-cı ayə ilə danlamaq və təmbeh etmək cəzasına çevrilmiş, nəhayət, bu hökm də Nur surəsinin ikinci ayəsi ilə dəyişdirilmişdir. Bəzi müfəssirlər 15-ci ayənin qadının qadınla cinsi münasibəti şəklindəki əxlaqsızlıq, 16-cı ayənin isə kişinin kişi ilə cinsi münasibəti şəklindəki əxlaqsızlıq haqqında olduğu fikrindədirlər.

2 İslamdan əvvəl ərəblər arasında əri ölən dul qadın bir mal, bir əşya kimi öz razılığına məhəl qoyulmadan alınıb satılırdı. Ayə bu haqsız adəti qadağan edib, qadına layiq olduğu haqqı və hürriyyəti vermişdir.

3 Evlilik əqdi əsnasında kişi evlənəcəyi qadına mehir deyilən müəyyən bir miqdar pul ya da mal verir. Mehir qadının haqqı, onun şəxsi malıdır. Boşanma zamanı bu malın geri alınmaması bu ayədə əmr olunur.

kah altında) birləşdirmək. Ancaq bundan əvvəlkilər (bu cür evliliklər) müstəsnadır.[1] Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

24. (Savaş əsiri olaraq) sahib olduqlarınız xaric, evli qadınlar (da sizə) haram edildi. (Bunlar) sizə Allahın əmri olaraq yazılmışdır. Bunlardan başqalarını isə iffətli yaşamaq və zina etməmək şərti ilə mallarınızla (mehirlərini verib) istəməyiniz sizə halal edildi. Onlardan (nikah bağlayıb) faydalanmanız qarşılığında sabit bir haqq olaraq onlara mehirlərini verin. Mehir təyin edildikdən sonra onunla bağlı uzlaşdığınız xüsuslarda sizə günah yoxdur. Şübhəsiz ki, Allah (hər şeyi) haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

25. Sizdən kimin hürr mömin qadınlarla evlənməyə gücü çatmazsa, sahib olduğunuz gənc mömin qızlarınızdan (cariyələrinizdən) alsın. Allah sizin imanınızı daha yaxşı bilir. Hamınız bir-birinizdənsiniz. Elə isə iffətli yaşadıqları, zina etmədikləri və gizli dost tutmadıqları halda sahiblərinin izni ilə onlarla evlənin, mehirlərini də gözəl bir şəkildə verin. Evləndikdən sonra əxlaqsız bir iş tutsalar, onlara hürr qadınların cəzasının yarısı verilər. Bu (cariyə ilə evlənmə icazəsi), sizdən günaha düşməkdən qorxanlar üçündür. Səbir etməyiniz isə sizin üçün daha xeyirlidir. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

26. Allah (hökmlərini) sizə açıqlamaq, sizdən əvvəlkilərin yollarını sizə göstərmək və tövbənizi qəbul etmək istəyir. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

27. Allah sizin tövbənizi qəbul etmək istəyir. Şəhvətlərinə uyanlar isə sizin böyük bir sapqınlığa düşməyinizi istəyirlər.

28. Allah sizdən (öhdəliklərinizi) yüngülləşdirmək istəyir. Çünki insan zəif yaradılmışdır.

29. Ey iman edənlər! Mallarınızı aranızda batil yollarla yeməyin. Ancaq qarşılıqlı razılıqla edilən ticarət müstəsnadır. Özünüzü həlak etməyin. Şübhəsiz, Allah sizə qarşı çox mərhəmətlidir.

30. Kim həddi aşaraq və zülm edərək bunu edərsə, onu cəhənnəm atəşinə atacağıq. Bu, Allaha çox asandır.

31. Əgər sizə qadağan olunan (günah)ların böyüklərindən çəkinsəniz, sizin kiçik günahlarınızı örtərik və sizi gözəl bir yerə qoyarıq.

32. Allahın birinizi digərinizdən üstün tutmağa vəsilə etdiyi şeyləri (həsəd edərək) arzulamayın. Kişilərə qazandıqlarından bir pay var. Qadınlara da qazandıqlarından bir pay var. Allahdan Onun lütfünü istəyin. Şübhəsiz, Allah hər şeyi haqqı ilə biləndir.

33. (Kişi və qadından) hər biri üçün ata-ananın və qohumların qoyub getdiklərindən (pay alan) varislər təyin etdik. Andlarınızın bağladığı (əhdləşdiyiniz) kəslərə də öz paylarını verin.[2] Şübhəsiz, Allah hər şeyə şahiddir.

---

1 Ayənin bu cümləsində keçmişdəki bu cür çirkin evlilik adətlərinin əfv olunduğu vurğulanır. Ancaq ayənin hökmünə əsasən bu qadağanın şamil olduğu mövcud evliliklərin sona çatdırılması və ya ləğv olunması da tələb olunmur.

2 “Andların bağladığı kəslər” ifadəsi ilə nəzərdə tutulan “vəla əqdi” yolu ilə mirasçı olanlardır. Vəla əqdi

34. Kişilər qadınları qoruyub saxlayandırlar.[1] Çünki Allah insanların bəzisini bəzisindən üstün etmişdir. Bir də kişilər öz mallarından xərcləyir (və ailənin dolanışığını təmin edir)lər. Yaxşı qadınlar itaətkardırlar. Allahın (onları) qoruması sayəsində onlar da "qeyb"i[2] qoruyurlar. (Evlilikdən yaranan öhdəlikləri rədd edərək) baş qaldırdıqlarını gördüyünüz qadınlara öyüd verin, onları yataqlarında yalnız buraxın. (Bunların bir faydası olmasa və məcbur qalsanız) onları (yüngülcə) döyün.[3] Əgər itaət etsələr, daha onların əleyhinə başqa bir yol axtarmayın. Şübhəsiz, Allah çox ucadır, çox böyükdür.

35. Əgər ər-arvadın arasının pozulmasından əndişə etsəniz, kişinin ailəsindən bir hakim, qadının ailəsindən bir hakim göndərin. Hər iki tərəf (aranı) düzəltmək istəsə, Allah da onları uzlaşdırar. Şübhəsiz, Allah haqqı ilə biləndir, haqqı ilə xəbərdardır.

36. Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın. Ata-anaya, qohumlara, yetimlərə, yoxsullara, yaxın qonşuya, uzaq qonşuya, yanınızdakı dosta, yolçuya, əlinizin altındakılara yaxşılıq edin. Şübhəsiz, Allah kibrlənən və qürrələnən kimsələri sevməz.

37. Bunlar xəsislik edən, insanlara da xəsisliyi əmr edən və Allahın, öz lütfündən onlara verdiyi neməti gizləyən kimsələrdir. Biz də o nankorlara alçaldıcı bir əzab hazırlamışıq.

38. Bunlar mallarını insanlara göstəriş üçün xərcləyən, Allaha və axirət gününə də inanmayan kimsələrdir. Yaxın dostu şeytan olan kəs nə pis dost tutmuşdur.

39. Bunlar Allaha və axirət gününə iman etsəydilər və Allahın verdiyi ruzidən (riyasız olaraq) xərcləsəydilər, onlara nə zərər dəyərdi ki? Allah onları ən yaxşı biləndir.

---

soyu bəlli olmayan, varisi olmayan bir kimsənin ikinci bir şəxsə: "Mən ölsəm, varisim ol. Diyə ödənilməsi lazım olan bir cinayət törətsəm, onu da sən ödə", – deməsi və onun da bu istəkləri qəbul etməsi ilə gerçəkləşən bir əqddir.

1 "Qoruyub saxlayan" şəklində tərcümə edilən ifadənin ayənin mətnindəki əsli "qavvam" kəlməsidir. Kişilərə qoruyub saxlamaq vəzifəsinin verilməsi iki cins arasında bir bərabərsizlik nəzərdə tutulduğuna görə deyil, kişilərin güc-qüvvət və fiziki xarakter baxımından fərqli bir yaradılışa sahib olmalarına görədir. Bu, qadını kişidən aşağı bir səviyyəyə düşürmür. Bunun əvəzində kişilərə ailənin dolanışığı və idarəsini təmin etmək kimi ağır bir məsuliyyət yükləyir.

2 Burada "qeyb" arvadından uzaqda olan kişinin namusu, malı və sair haqları mənasındadır.

3 Möminlər üçün ən gözəl nümunə həzrət Muhamməd əleyhissalamdır. Bu ayəni ən yaxşı anlayan da, şübhəsiz ki, odur. Dəqiq olaraq bilirik ki, o, ömründə bir dəfə də olsun əl qaldırıb bir qadını vurmamışdır. "Qadınlarını döyənləriniz sizin yaxşılarınız deyildir" – buyuran da odur, "Sizdən biri arvadını kölə kimi döyüb sonra da gecə onunla yata bilərmi?" – deyərək ər-arvad münasibətlərinin sevgiyə əsaslanmalı olduğuna diqqət çəkən də odur. Məlum olduğu kimi Peyğəmbərimiz Vida xütbəsində çox mühüm məsələlərə toxunmuşdur. Bu xütbəsində qadınların haqlarına riayət etməyi və bu barədə Allahdan qorxmağı xüsusilə vurğulamışdır. Qadının evlilik məsuliyyətlərini yerinə yetirməmək, ərinin haqlarını pozmaq, onun şərəf və ləyaqətini zədələyəcək hərəkətlər etmək və ya onun iffət və namusunu təhlükəyə atacaq hallara meyl etmək kimi mənfi davranışlar göstərməsi halında, ailə yuvasının davamiyyətini təmin etməkdən birinci növbədə məsul olan ərin, məcburiyyət səbəbi ilə bəzi tədbirlərə əl atması təbiidir. Bu tədbirlər zamana, yerə və sosial şərtlərə görə fərqli ola bilər. Ayədə sonuncu yol olaraq qeyd edilən vurma məsələsi də çox müstəsna bir tədbirdir. Belə bir tədbirin fayda verməyəcəyi, əksinə zərər verəcəyi bilinən hallarda, qətiyyən bu yola əl atılmaması barəsində İslam alimləri həmfikirdirlər.

40. Şübhəsiz, Allah (heç kimə) zərrə qədər zülm etməz. (Edilən) çox kiçik bir yaxşılıq da olsa, onun savabını qatbaqat artırar və öz qatından böyük bir mükafat verər.

41. Hər ümmətdən bir şahid gətirdiyimiz və səni də onlara şahid tutduğumuz zaman görək onların halı necə olacaq!

42. O qiyamət günü, Allahı inkar edib Peyğəmbərə üsyan edənlər yer yarılıb içinə girməyi istəyərlər və Allahdan heç bir söz gizləyə bilməzlər.

43. Ey iman edənlər! Sərxoş ikən nə dediyinizi bilincəyə qədər, bir də – səfərdə olmağınız xaric – cünub ikən yuyununcaya qədər namaza yaxınlaşmayın. Əgər xəstə olar və ya səfərdə olarsınızsa və yaxud biriniz ayaq yolundan gəlincə ya da qadınlarınızla cinsi əlaqədə olub, su da tapa bilməzsinizsə, o zaman təmiz torpağa yönəlib (niyyət edərək onunla) üzlərinizi və əllərinizi məsh edin. Şübhəsiz, Allah çox əfv edəndir, çox bağışlayandır.[1]

44. Kitabdan bir pay verilənləri görmürsənmi? Onlar zəlaləti satın alırlar və sizin də yoldan azmanızı istəyirlər.

45. Allah sizin düşmənlərinizi daha yaxşı bilir. Dost olaraq Allah yetər. Yardımçı olaraq da Allah yetər.

46. Yəhudilərdən elələri var ki, sözləri yerlərindən və mənalarından uzaqlaşdırır (təhrifə uğradır)lar. Dillərini əyib bükərək və dinə tənə edərək: "Eşitdik, qarşı çıxdıq", "Eşit, kar olası!" və "Raina"[2] deyərlər. Halbuki onlar: "Eşitdik və itaət etdik; eşit və bizə bax", – desəydilər, bu, onlar üçün daha xeyirli və daha doğru olardı. Lakin Allah küfrləri üzündən onları lənətləmişdir. Buna görə də çox az iman edərlər.[3]

47. Ey kitab verilənlər! Bəzi üzləri silib tərsinə çevirmədən, yaxud şənbə camaatını[4] lənətlədiyimiz kimi onları lənətləmədən, yanınızda olanı (Tövratı) təsdiqləyici olaraq endirdiyimiz bu kitaba (Qur`ana) iman edin. Allahın əmri mütləq yerinə yetəcəkdir.

48. Şübhəsiz, Allah özünə şərik qoşulmasını əsla bağışlamaz. Bunun xaricində qalan

1 Ayə içkinin qəti qadağan olunmasından əvvəl nazil olmuşdur. Təfsir mənbələrinə görə, səhabələrdən Əbdürrəhman ibn Övf bəzi yoldaşlarını ziyarət etmiş, yeyib-içib sərxoş olduqdan sonra namaza durmuşlar. Namazı qıldıran şəxs içkinin təsiri ilə Kafirun surəsini mənanı pozacaq şəkildə yanlış oxumuşdu. Bundan sonra nə dediyini bilməyəcək qədər sərxoş olan kimsənin bu halda namaz qılmasını qadağan edən yuxarıdakı ayə nazil oldu. Bu ayənin nazil olması ilə içki içmə vaxtı praktik olaraq sabah və işa namazı vaxtları ilə məhdudlaşdırılırdı. Çünki bir şəxsin sadəcə bu iki vaxtda sərxoş olub bir sonrakı vaxta qədər özünə gəlməsi mümkün idi.

İçkinin qəti şəkildə qadağan olunması haqqında Maidə surəsinin 90-cı ayəsinə və həmin ayənin istinadına baxın.

2 Bəqərə surəsinin 104-cü ayəsi ilə əlaqədar olaraq daha əvvəl açıqlandığı kimi "raina" (راعنا) Ərəb dilində "Bizi nəzərində saxla", "Bizə bax" deməkdir. Yəhudilər bu sözü İbranicədə təhqir ifadə edən bir mənaya; başqa bir yozuma görə isə həqarət məqsədilə Peyğəmbərimizə xitabən "Çobanımız" mənasına gələn "raina" (راعينا) şəklində söyləyirdilər.

3 Mövzu ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/104.

4 "Şənbə camaatı" ifadəsi ilə həzrət Musanın dininə görə şənbə günü ilə bağlı bəzi qadağaları pozanlar nəzərdə tutulur. Əlavə olaraq baxın: Bəqərə, 2/65; Nisa, 4/154; Ə`raf, 7/163-166; Nəhl, 16/124.

(günah)ları isə istədiyi kimsə üçün bağışlayar. Allaha şirk qoşan kimsə, şübhəsiz, böyük bir günah işləyərək iftira etmiş olar.

49. Özlərini təmizə çıxaranları görmədinmi? Xeyr! Allah dilədiyini təmizə çıxarar və onlara tük qədər zülm edilməz.

50. Gör, Allaha qarşı necə yalan uydururlar? Açıq-aşkar bir günah olaraq bu (onlara) yetər.

51. Kitabdan pay verilənləri görmürsənmi? Onlar cibtə və tağuta[1] inanırlar. İnkar edənlər üçün də: "Bunlar iman edənlərdən daha doğru yoldadırlar", – deyirlər.

52. Onlar Allahın lənət etdiyi kimsələrdir. Allah kimə lənət edərsə, daha ona əsla bir yardımçı tapa bilməzsən.

53. Yoxsa onların hökmranlıqda bir payımı var? Elə olsa, insanlara bir zərrə belə verməzlər.

54. Yoxsa Allahın onlara lütf etməsi səbəbi ilə insanları qısqanırlar? Şübhəsiz, biz İbrahim ailəsinə də kitab və hikmət vermişdik. Onlara böyük bir hökmranlıq da vermişdik.[2]

55. Beləliklə, onlardan kimisi ona iman etdi, kimisi də üz döndərdi. (O iman etməyənlərə) çılğın atəş olaraq cəhənnəm yetər.

56. Şübhəsiz, ayələrimizi inkar edənləri biz atəşə atacağıq. Dəriləri yanıb töküldükcə, əzabı dadmaları üçün onların dərilərini yeniləyəcəyik. Şübhəsiz, Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

57. İman edib saleh əməllər işləyənləri isə içindən çaylar axan, içində əbədi qalacaqları cənnətlərə daxil edəcəyik. Onlara orada pak zövcələr var. Onları sıx kölgələr altına yerləşdirəcəyik.

58. Allah sizə əmanətləri mütləq əhlinə verməyinizi və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etməyinizi əmr edir. Həqiqətən, Allah bununla sizə nə gözəl öyüd verir! Şübhəsiz ki, Allah haqqı ilə eşidəndir, haqqı ilə görəndir.

59. Ey iman edənlər! Allaha itaət edin. Peyğəmbərə itaət edin və sizdən olan ulul-əmrə (idarəçilərə) də. Hər hansı bir şey barəsində mübahisəyə düşdüyünüz zaman Allaha və axirət gününə, həqiqətən, inanırsınızsa, onu Allah və Rəsuluna ərz edin.[3] Bu, daha yaxşıdır, nəticə etibarilə də daha gözəldir.

60. (Ey Muhamməd!) Sənə endirilən Qur`ana və səndən əvvəl endirilənə inandıqlarını iddia edənləri görmürsənmi? Tağutu tanımamaları onlara əmr olunduğu

1 "Cibt" büt, cadugər, kahin, Allahın haram buyurduğu hər şey və Allahdan başqa sitayiş olunan hər şey deməkdir. "Tağut" isə hərfi mənası etibarilə həddi aşan deməkdir. Qur`anda istifadə olunan şəkli ilə bu söz şeytan, nəfs, bütlər, cadugər kimi müxtəlif mənalarda açıqlanmışdır. Qısacası, cibt və tağut insanları azdıran, sapdıran şeylərin hamısını ifadə edir. (Tağut üçün əlavə olaraq baxın: Bəqərə, 2/256-257; Nisa, 4/60, 76; Maidə, 5/60; Nəhl, 16/36; Zümər, 39/17.)

2 Ayədə keçən "insanlar" sözü ilə nəzərdə tutulan həzrət Muhamməd, ona verilən "şey" isə peyğəmbərlikdir.

3 Allah və Rəsuluna ərz etmək məsələlərin Qur`an və Sünnəyə görə həll edilməsidir.

halda onun qarşısında mühakimə olunmaq istəyirlər. Şeytan da onları dərin bir sapqınlığa salmaq istəyir.[1]

61. Münafiqlərə: "Allahın endirdiyinə (Qur`ana) və Peyğəmbərə gəlin", – deyildiyi zaman onların səndən tamamilə uzaqlaşdıqlarını görərsən.

62. Öz etdikləri ucbatından başlarına bir müsibət gəldiyi, sonra da: "Biz yaxşılıq etmək və uzlaşdırmaqdan başqa bir şey istəməmişdik", – deyə Allaha and içərək sənin yanına gəldikləri zaman halları necə olar?

63. Onlar elə kəslərdir ki, Allah onların qəlblərindəkini bilir. Elə isə onlara baş qoşma. Onlara öyüd ver və onlara özləri haqqında təsirli və gözəl söz söylə.

64. Biz hər peyğəmbəri məhz Allahın izni ilə itaət olunsun deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan günahlarının bağışlanmasını diləsəydilər və Peyğəmbər də onlara bağışlanma diləsəydi, əlbəttə, Allahın tövbələri çox qəbul edən və çox mərhəmətli olduğunu görərdilər.

65. Xeyr! Rəbbinə and olsun ki, onlar aralarında çıxan mübahisəli mövzularda səni hakim təyin edib sonra da verdiyin hökmə içlərində heç bir sıxıntı duymadan, tam bir təslimiyyətlə boyun əymədikcə iman etmiş olmazlar.

66. Əgər biz onlara: "Həyatlarınızı fəda edin və ya yurdlarınızdan çıxın", – deyə yazsaydıq, onlardan çox azı xaric, bunu etməzdilər. Əgər onlara verilən öyüdləri yerinə yetirsəydilər, əlbəttə, onlar üçün həm daha xeyirli olardı, həm də (imanlarını) daha çox möhkəmləndirərdi.

67. O zaman onlara əlbəttə, qatımızdan böyük bir mükafat verərdik.

68. Onları əlbəttə, doğru yola yönəldərdik.

69. Kim Allaha və Peyğəmbərə itaət edərsə, onlar Allahın nemət verdiyi peyğəmbərlərlə, siddiqlərlə, şəhidlərlə və salehlərlə birlikdədirlər. Bunlar nə gözəl yoldaşlardır!

70. Bu lütf Allahdandır. Haqqı ilə bilən olaraq Allah yetər.

71. Ey iman edənlər! (Düşmənə qarşı) hazırlığınızı görüb, kiçik dəstələr halında ya da toplu halda savaşa gedin.

72. Şübhəsiz, aranızda elə kimsələr var ki, (onların hər biri savaşa getmək barəsində) həqiqətən, çox ağır tərpənir. Əgər başınıza bir müsibət gəlsə: "Allah mənə lütf etdi ki, onlarla birlikdə olmadım", – deyər.

73. Əgər Allahdan sizə bir lütf (zəfər) nəsib olarsa, bu dəfə də sizinlə öz arasında heç tanışlıq yox imiş kimi belə deyər: "Kaş ki, mən də onlarla birlikdə olaydım ki, böyük bir uğur (qənimət) əldə edəydim".

74. O halda dünya həyatını axirət həyatı qarşılığında satanlar Allah yolunda savaş-

---

1 Münafiqlərdən birinin bir yəhudi ilə mübahisəsi düşmüşdü. Mübahisənin həlli üçün yəhudi, Peyğəmbərimizə müraciət etməyi təklif etdi, münafiq isə bunu qəbul etmədi. Münafiq şeirləri ilə həzrət Peyğəmbəri pisləyən Kəb ibn Əşrəfi hakim təyin etməyi təklif etdi. Səhabələrdən İbn Abbasın ifadəsinə görə ayədə keçən "Tağut" kəlməsi ilə həmin bu Kəb nəzərdə tutulur. Bu şəxsin Cüheynə ya da Əsləm qəbiləsindən bir kahin olduğunu ifadə edənlər də var. (Tağutun digər mənaları ilə əlaqəli olaraq Nisa surəsinin 51-ci ayəsinə aid istinada baxın.)

sınlar. Kim Allah yolunda savaşar, öldürülər və ya qalib gələrsə, biz ona böyük bir mükafat verəcəyik.

75. Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizləri xalqı zalım olan bu diyardan çıxar, qatından bizə bir dost ver, bizə qatından bir yardımçı ver", – deyə yalvaran zəif və aciz kişilər, qadınlar və uşaqlar uğrunda savaşa çıxmırsınız?

76. İman edənlər Allah yolunda savaşırlar. İnkar edənlər də tağut[1] yolunda savaşırlar. O halda siz şeytanın dostlarına qarşı savaşın. Şübhəsiz, şeytanın hiyləsi zəifdir.

77. O kəsləri görmədinmi ki, onlara daha əvvəl: "(savaşmaqdan) əllərinizi çəkin, namazı qılın, zəkatı verin", – deyilmişdi. Onlara savaş yazılınca dərhal aralarından bir qismi insanlardan Allahdan qorxduqları kimi hətta daha çox qorxarlar və: "Rəbbimiz! Bizə nə üçün savaş yazdın? Nə olardı ki, bizi yaxın bir zamana qədər yubandıraydın", – deyərlər. De ki: "Dünya mənfəəti azdır. Axirət Allaha qarşı gəlməkdən çəkinən kimsə üçün daha xeyirlidir. Sizə tük qədər haqsızlıq edilməz".

78. Harada olursunuz olun, ölüm sizə yetişəcək, möhkəm qalalar içində olsanız belə. Onlara bir xeyir gəlsə: "Bu Allahdandır", – deyərlər. Başlarına bir müsibət gəldikdə isə: "Bu səndəndir", – deyərlər. (Ey Muhamməd!) De ki: "Hamısı Allahdandır". Bu qövmə nə olub ki, az qala heç bir sözü anlamırlar!

79. Sənə nə yaxşılıq gəlsə, Allahdandır. Sənə nə pislik gəlsə, özündəndir. (Ey Muhamməd!) Səni insanlara bir peyğəmbər olaraq göndərdik. Şahid olaraq Allah yetər.

80. Kim peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar. Kim üz döndərərsə, (bilsin ki,) biz səni onlara nəzarətçi olaraq göndərmədik.

81. Sənə "baş üstə" deyərlər. Lakin sənin yanından çıxdıqları zaman aralarından bir qismi gecə vaxtı (sənin gündüz) dediklərinin əksini düzüb-qoşarlar. Allah onların gecə vaxtı düzüb-qoşduqlarını yazır. Sən onlara baş qoşma. Allaha təvəkkül et. Vəkil olaraq Allah yetər.[2]

82. Hələ də Qur`anı düşünüb anlamağa çalışmırlarmı? Əgər o, Allahdan başqası tərəfindən (endirilmiş) olsaydı, mütləq onda bir çox ziddiyyət tapardılar.

83. Onlara əmin-amanlıq (sülh) və ya qorxu (savaş) ilə bağlı bir xəbər gəldiyi zaman onu yayarlar. Halbuki onu peyğəmbərə və aralarından səlahiyyətli kimsələrə çatdırsaydılar, əlbəttə, ondan nəticə (hökm) çıxaracaq fərasətlilər onu anlayıb bilərdilər. Allahın sizə lütfü və mərhəməti olmasaydı, çox azınız xaric, mütləq şeytana uyardınız.

84. (Ey Muhamməd!) Artıq Allah yolunda savaş! Sən ancaq özünə cavabdehsən! Möminləri də savaşa təşviq et. Güman ki, Allah inkar edənlərin gücünü qırar. Allahın gücü daha üstündür, cəzası daha şiddətlidir.

85. Kim gözəl bir (işdə) vasitəçilik edərsə, ona o işin savabından bir pay var. Kim də

1 Tağut sözü şeytan, nəfs, büt, cadugər kimi insanları yoldan azdıran, sapdıran hər şeyi ifadə edir. (Baxın: Bəqərə, 2/256-257; Nisa, 4/51, 60, 76; Maidə, 5/60; Nəhl, 16/36; Zümər, 39/17.)

2 Münafiqlər İslam cəmiyyətini dağıtmaq üçün ağlasığmaz hiylələrə əl atdılar. Həzrət Peyğəmbərin hüzurunda: "Baş üstə, qəbuldur", – dedikləri halda özləri bir yerə yığışdıqları zaman gizli planlar və hiylələr hazırlayırdılar. Allah onların bütün hiylələrini puç etmişdir.

pis bir (işdə) vasitəçilik edərsə, ona da o pislikdən bir pay var. Allahın hər şeyə gücü yetər.

86. Sizə salam verildiyi zaman ondan daha gözəli ilə və ya eynisi ilə qarşılıq verin. Şübhəsiz, Allah hər şeyi lazımınca hesaba alandır.

87. Allah ondan başqa heç bir ilah olmayandır. And olsun ki, sizi qiyamət günündə mütləq, bir yerə toplayacaq. Bunda əsla şübhə yoxdur. Allahdan daha doğru sözlü olan kimdir?

88. Sizə nə oldu ki, münafiqlər haqqında iki dəstəyə ayrıldınız? Allah onları etdikləri işlərə görə başıaşağı edərək köhnə hallarına (küfrə) qaytarmışdır. Allahın zəlalətə düçar etdiyini yola gətirməkmi istəyirsiniz? Allah kimi zəlalətə salarsa, sən onun üçün əsla bir çıxış yolu tapa bilməzsən.

89. Arzu etdilər ki, özləri küfrə düşdükləri kimi siz də küfrə düşəsiniz ki, bərabər olasınız. Bu səbəblə onlar Allah yolunda hicrət edənə qədər onlardan dost tutmayın. Əgər bundan üz döndərsələr, onları yaxalayın və tutduğunuz yerdə öldürün. Onlardan nə bir dost tutun, nə də bir yardımçı.

90. Ancaq sizinlə aralarında razılaşma olan bir qövmə sığınmış olanlar, yaxud, nə sizinlə, nə də öz qövmləri ilə savaşmağa ürəkləri razı olmayıb (bitərəf olaraq) sizin yanınıza gələnlər istisnadır. Əgər Allah istəsəydi, onları sizin üstünüzə salardı, sizinlə savaşardılar. Əgər onlar sizdən uzaq durar, sizinlə savaşmayıb sizə sülh təklif edərlərsə, daha Allah onlara hücum etmək üçün sizə bir yol (ixtiyar) verməmişdir.

91. Başqa bəzi kimsələrin də həm sizdən, həm də öz qövmlərindən arxayın olmaq istədiklərini görəcəksən. Bunlar hər dəfə küfrə döndərildikdə ona başıaşağı atılarlar. Bunlar sizdən uzaq durmasalar, sizinlə sülh içində yaşamaq istəməsələr, əllərini savaşdan çəkməsələr, onları yaxalayın və onları harada tutsanız, öldürün. Bunlar əleyhində sizə açıq-aşkar bir ixtiyar verdik.

92. Bir möminə başqa bir mömini öldürmək yaraşmaz. Ancaq yanlışlıqla olması istisnadır. Kim bir mömini yanlışlıqla öldürərsə, bir mömin köləni azad etməli və bağışlamadıqları təqdirdə ailəsinə diyə ödəməlidir. (Öldürülən kəs) mömin olar və düşməniniz olan bir qövmdən olarsa, mömin bir kölə azad etmək lazım gələr. Əgər sizinlə andlaşması olan bir qövmdən olarsa, ailəsinə veriləcək bir diyə və mömin bir kölə azad etmək lazım gələr. Kim bunlara imkan tapa bilməzsə, Allah tərəfindən tövbəsinin qəbul olunması üçün ard-arda iki ay oruc tutmalıdır. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

93. Kim bir mömini qəsdən öldürərsə, cəzası içində əbədi qalacağı cəhənnəmdir. Allah ona qəzəb etmiş, lənət etmiş və onun üçün böyük bir əzab hazırlamışdır.

94. Ey iman edənlər! Allah yolunda səfərə çıxdığınız zaman vəziyyəti lazımi şəkildə araşdırıb təhlil edin. Sizə salam verənə dünya həyatının müvəqqəti mənfəətinə (qənimətə) göz dikərək: “Sən mömin deyilsən”, – deməyin. Allah qatında çox qənimətlər var. Daha əvvəl siz də elə idiniz, Allah sizə lütf etdi (müsəlman oldunuz). Ona görə siz də yaxşıca ölçüb-biçin. Çünki Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

95, 96. Möminlərdən üzrlü səbəbi olmadan (cihaddan geri qalıb) oturanlarla, Allah yolunda malları ilə, canları ilə cihad edənlər bir olmaz. Allah malları və canları ilə cihad edənləri dərəcə etibarilə cihada qoşulmayanlardan üstün tutmuşdur. Hərçənd Allah (möminlərin) hamısına ən gözəl olanı (cənnəti) vəd etmişdir. Amma mücahidləri böyük bir mükafat olaraq öz qatından dərəcələr, bağışlanma və rəhmət ilə cihada qoşulmayanlardan üstün tutmuşdur. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

97. Mələklər özlərinə zülm edənlərin canlarını aldıqları zaman belə deyərlər: “Nə halda idiniz? (Nə üçün hicrət etmədiniz?)” Onlar da: “Biz yer üzündə zəif və gücsüz kimsələr idik”, – deyərlər. Mələklər: “Allahın ərzi geniş deyildimi, orada hicrət edəydiniz!” – deyərlər. Bunların gedəcəkləri yer cəhənnəmdir. O necə də pis yerdir.[1]

98. Ancaq, həqiqətən, zəif və gücsüz olan,[2] çarəsiz qalan və hicrət etməyə yol tapa bilməyən kişilər, qadınlar və uşaqlar istisnadır.

99. Güman ki, Allah bu kimsələri əfv edər. Çünki Allah çox əfv edəndir, çox bağışlayandır.

100. Kim Allah yolunda hicrət edərsə, yer üzündə gediləsi çox yer də tapar, genişlik də. Kim Allaha və Peyğəmbərinə hicrət etmək məqsədilə evindən çıxar, sonra ölüm onu haqlarsa, şübhəsiz, onun mükafatı Allaha aiddir. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

101. Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizin üzərinizə düşəcəyindən qorxarsınızsa, namazı qısaltmağınızdan ötrü sizə bir günah yoxdur. Şübhəsiz, kafirlər sizin açıq-aşkar düşməninizdir.[3]

102. (Ey Muhammədǃ) Cəbhədə sən də onların arasında olub onlara namaz qıldırdığın zaman onlardan bir qismi səninlə bərabər namaza dursun. Silahlarını da yanlarında saxlasınlar. Bunlar səcdəyə vardıqları zaman (bir rükət qıldıqları zaman) arxanıza (düşmən qarşısına) keçsinlər. Sonra o namaz qılmamış olan digər dəstə gəlsin, səninlə birlikdə qılsınlar və ehtiyatlı olsunlar, silahlarını yanlarında saxlasınlar. İnkar edənlər arzu edərdilər ki, silahlarınız və əşyalarınız barəsində ehtiyatsız olasınız, sizə qəfil bir hücum edələr. Yağışdan əziyyət çəkər ya da xəstə olarsınız-

1 Bu ayədə hicrət əmri gəldikdən sonra möminlərlə birlikdə hicrət etməyib Məkkədə müşriklərlə qalan, onlarla yaxın münasibətdə olan bəzi müsəlmanlar qınanır.

2 Bu ayədə Mədinəyə hicrət edildiyi zaman hicrət edə bilməyərək Məkkədə müşriklərin təzyiqinə məruz qalan müsəlmanlardan söhbət gedir.

3 Bu ayədə keçən “namazın qısaldılması” ifadəsini İslam alimləri əsasən iki şəkildə izah etmişdirlər. Bir yanaşmaya görə namazın qısaldılması dörd rükətli namazların yolçuluq səbəbi ilə iki rükət olaraq qılınması deməkdir. Digər yanaşmaya görə isə ayədə yolçuluq halından söhbət getdiyinə görə dörd rükətli namazlar onsuz da iki rükət olaraq qılınacaq. Burada nəzərdə tutulan qısaltma düşmən qorxusu səbəbi ilə tətbiq olunacaq yeni bir qısaltmadır. Bu da səfərdə onsuz da iki rükət olaraq qılınacaq namazların düşmən təhlükəsinin dərəcəsinə görə bəzən yeriyərək, bəzən də işarə ilə qılınması deməkdir. 102-ci ayədə düşmən qarşısında namaz qılmaq mümkün olduğu halda namazı qısaltmağın camaatla birlikdə tətbiq oluna biləcək xüsusi bir forması bildirilir.

sa, silahlarınızı buraxmağınızda sizə bir günah yoxdur. Bununla birlikdə ehtiyatlı olun (tədbir görün). Şübhəsiz, Allah inkarçılara alçaldıcı bir əzab hazırlamışdır.[1]

**103.** Elə ki, namazı qıldınız, istər ayaq üstə, istər oturarkən və istərsə də uzanaraq Allahı zikr edin. Elə ki, arxayınlığa çıxdınız, namazı tam olaraq qılın. Çünki namaz möminlərə bəlli vaxtlara bağlı olaraq fərz buyurulmuşdur.

**104.** Düşmən qövmü təqib etməkdə səhlənkar davranmayın. Əgər siz acı çəkirsinizsə, şübhəsiz, onlar da sizin acı çəkdiyiniz kimi acı çəkirlər. Üstəlik siz, Allahdan onların ümid edə bilməyəcəkləri şeyləri umursunuz. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

**105.** (Ey Muhamməd!) Biz sənə Kitabı (Qur`anı) haqq olaraq endirdik ki, insanlar arasında Allahın sənə öyrətdikləri ilə hökm verəsən. Əsla xainləri müdafiə etmə.

**106.** Allahdan bağışlanma dilə. Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

**107.** Özlərinə xəyanət edənləri müdafiə etmə. Çünki Allah heç bir xaini, heç bir günahkarı sevməz.

**108.** Bunlar insanlardan gizlənməyə çalışırlar, amma Allahdan gizlənməzlər. Halbuki Allah gecə vaxtı, razı olmayacağı sözləri düzüb-qoşduqları zaman onlarla bərabərdir. Allah onların etdiklərini (elmi ilə) əhatə etmişdir.

**109.** Siz elə kimsələrsiniz ki, (tutaq ki,) dünya həyatında onları müdafiə etdiniz. Bəs qiyamət günü onları Allah qarşısında kim müdafiə edəcək, yaxud kim onlara vəkil olacaq?

**110.** Kim bir pislik edər, yaxud özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın çox bağışlayan və çox mərhəmətli olduğunu görər.

**111.** Kim bir günah qazanarsa, onu ancaq öz əleyhinə qazanar. Allah hər şeyi haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

**112.** Kim bir xəta edər və ya bir günah qazanar, sonra onu günahsız birinin üstünə atarsa, şübhəsiz ki, iftira etmiş, açıq-aşkar bir günah yüklənmiş olar.

**113.** (Ey Muhamməd!) Allahın sənə lütf və mərhəməti olmasaydı, onlardan bir dəstə səni sapdırmağa çalışardı. Halbuki onlar özlərini sapdırarlar, sənə heç bir zərər verə bilməzlər. Allah sənə kitabı (Qur`anı) və hikməti endirmiş və sənə bilmədiklərini öyrətmişdir. Allahın sənə lütfü çox böyükdür.

**114.** Bir sədəqə verməyi, yaxud yaxşılıq etməyi, yaxud da insanların arasını düzəltməyi əmr edənlər xaric, onların öz aralarındakı gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Kim bunları sırf Allahın razılığını qazanmaq üçün edərsə, biz ona böyük bir mükafat verəcəyik.

**115.** Kim özünə hidayət (doğru yol) bəlli olduqdan sonra peyğəmbərə qarşı çıxar, mö-

1 Bu halda imam iki rükət qılmış və namazı tamamlamış olur. Hər biri bir rükət qılmış olan hər iki dəstə də yenə növbə ilə bir rükət qılıb namazlarını özləri tamamlayırlar. Ancaq birinci dəstə tamamlayacağı rükəti qiraətsiz olaraq, ikinci dəstə isə qiraətlə qılar.

minlərin yolundan başqa bir yola uyarsa, onu yönəldiyi yolda buraxarıq və cəhənnəmə salarıq. Ora necə də pis yerdir?

**116.** Şübhəsiz, Allah özünə şərik qoşulmasını bağışlamaz. Bundan başqa günahları dilədiyi kimsələr üçün bağışlayar. Allaha şərik qoşan, sözsüz ki, dərin bir azğınlığa düşmüşdür.

**117.** Onlar Allahı buraxıb ancaq dişilərə tapınırlar.[1] Halbuki (əslində) azğın bir şeytana sitayiş edirlər.

**118.** Allah o şeytana lənət etdi və o da: "And olsun ki, sənin qullarından, əlbəttə, müəyyən bir pay alacağam", – dedi.

**119.** "Onları mütləq zəlalətə salacağam, mütləq onları əsli-əsası olmayan yanlış və yersiz düşüncələrə sövq edəcəyəm və onlara əmr edəcəyəm; (bütlərə nəzir üçün) heyvanların qulaqlarını dələcəklər. Yenə onlara əmr edəcəyəm; Allahın yaratdığını dəyişdirəcəklər".[2] Kim Allahı qoyub şeytanı dost tutarsa, şübhəsiz, o, açıq-aşkar ziyana düşmüşdür.

**120.** Şeytan onlara (bir çox) vədlər verir və onları xam xəyallara sövq edir. Halbuki şeytan ancaq aldatmaq üçün onlara vəd verir.

**121.** Onların yeri cəhənnəmdir. Ondan bir qaçış yolu tapa bilməzlər.

**122.** İman edib saleh əməllər işləyənləri də əbədi olaraq qalacaqları, içindən çaylar axan cənnətlərə daxil edəcəyik. Allah gerçək bir vəd vermişdir. Allahdan daha doğru sözlü olan kimdir?

**123.** İş nə sizin xülyanıza, nə də kitab əhlinin xülyasına görədir. Kim pis bir iş görərsə, onunla cəzalandırılar. O, özünə Allahdan başqa nə bir dost, nə də bir yardımçı tapa bilər.

**124.** İstər kişi olsun, istər qadın, mömin olaraq hər kim saleh əməllər işləyərsə, onlar cənnətə daxil olarlar və zərrə qədər haqsızlığa məruz qalmazlar.

**125.** Kimin dini yaxşılıq edərək özünü Allaha təslim edən və haqqa yönələn İbrahimin dininə tabe olan kimsənin dinindən daha gözəldir? Allah İbrahimi dost tutdu.

**126.** Göylərdəki hər şey, yerdəki hər şey Allahındır. Allah hər şeyi əhatə edəndir.

**127.** Qadınlar haqqında səndən fətva istəyirlər. De ki: "Onlar haqqında sizə fətvanı Allah verir". Kitabda özlərinə (verilməsi) fərz buyurulan (miras)ı vermədiyiniz və evlənmək istədiyiniz yetim qızlara, aciz uşaqlara və yetimlərə ədalətlə rəftar etməyiniz barəsində sizə oxunan ayələr də bunu açıqlayır. Nə xeyir iş görsəniz, şübhəsiz ki, Allah onu bilər.

**128.** Əgər bir qadın ərinin onunla pis rəftar etməsindən, yaxud üz döndərməsindən narahat olarsa, uzlaşaraq aralarını düzəltmələrində ikisinə də bir günah yoxdur. Uzlaşmaq daha xeyirlidir. Nəfslər isə qısqanclığa və xudbin həvəslərə hazır (əlve-

---

1 Ayədəki "dişilər" sözü ilə nəzərdə tutulan, müşrik ərəblərin əsasən "dişi" (unsa) deyə adlandırdıqları Lat, Üzza, Mənat kimi bütlərdir.

2 Allahın yaratdığının dəyişdirilməsi həm maddi sahədə, həm də fitrət sahəsində gerçəkləşə bilər. Çağımızda yer üzündə təbii nizamı pozan hər addımı bu çərçivədə dəyərləndimək mümkündür.

rişli) yaradılmışdır. Əgər yaxşılıq edər və Allaha qarşı gəlməkdən çəkinərsinizsə, şübhəsiz, Allah etdiklərinizdən xəbərdardır.

129. Nə qədər çalışsanız da qadınlar arasında ədaləti təmin edə bilməzsiniz. Elə isə (birinə) tamamilə könül verib digərini asılı qalmış (nə ərli, nə ərsiz bir) qadın kimi buraxmayın. Əgər aranı düzəldər və Allaha qarşı gəlməkdən çəkinərsinizsə, şübhəsiz, Allah çox bağışlayan və çox mərhəmət edəndir.

130. Əgər ayrılsalar, Allah bol lütf və neməti ilə onların hər birini varlı edər (başqalarına möhtac qoymaz). Allah lütfü geniş olandır. O, hökm və hikmət sahibidir.

131. Göylərdəki hər şey, yerdəki hər şey Allahındır. Sizdən əvvəl kitab verilənlərə də, sizə də, "Allaha qarşı gəlməkdən çəkinin", – deyə tövsiyə etdik. Əgər inkar etsəniz, (bilin ki,) göylərdəki hər şey, yerdəki hər şey Allahındır. Allah zəngindir, şükrə layiqdir.

132. Göylərdəki hər şey, yerdəki hər şey Allahındır. Vəkil olaraq Allah yetər.

133. Ey insanlar! Allah istəsə, sizi yox edər və başqalarını gətirər. Allah buna haqqı ilə qadirdir.

134. Kim dünya savabı (nəməti) istəyirsə (bilsin ki), dünya savabı da, axirət savabı da Allah qatındadır. Allah haqqı ilə eşidəndir, haqqı ilə görəndir.

135. Ey iman edənlər! Özünüz, ata-ananız və ən yaxınlarınız əleyhinə də olsa, Allah üçün şahidlik edərək ədaləti qoruyub saxlayan kimsələr olun. (Şahidlik etdikləriniz) varlı da olsa, kasıb da olsa, (ədalətdən ayrılmayın). Çünki Allah ikisinə də daha yaxındır. (Onların qeydinə sizdən çox qalır.) Elə isə ədaləti yerinə yetirməkdə nəfsinizə uymayın. Əgər (şahidlik edərkən həqiqəti) təhrif etsəniz və ya (şahidlikdən) boyun qaçırsanız (bilin ki), şübhəsiz, Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

136. Ey iman edənlər! Allaha, Peyğəmbərinə, Peyğəmbərinə endirdiyi kitaba və daha əvvəl endirdiyi kitaba iman edin. Kim Allahı, mələklərini, kitablarını, peyğəmbərlərini və axirət gününü inkar edərsə, dərin bir zəlalətə düşər.

137. İman edib sonra inkar edən, sonra inanıb yenidən inkar edən, sonra da inkarlarında dərinə gedənlər ki var, Allah onları bağışlayan da deyil, doğru yola yönəldən də deyil.

138. Münafiqləri müjdələ ki, onlar üçün ağrılı-acılı bir əzab var.

139. Onlar möminləri qoyub kafirləri dost tutan kimsələrdir. Onların yanında izzət və şərəfmi axtarırlar? Halbuki bütün izzət və şərəf Allaha aiddir.

140. Allah sizə kitabda (Qur`anda): "Allahın ayələrinin inkar edildiyini və onlara istehza edildiyini eşitdiyiniz zaman, başqa bir sözə keçmədikləri müddətcə onlarla oturmayın, əks təqdirdə siz də onlar kimi olarsınız", – deyə hökm endirmişdir. Şübhəsiz, Allah münafiqlərin və kafirlərin hamısını cəhənnəmdə toplayacaq.

141. Onlar (göz qırpmadan) sizi izləyən kimsələrdir. Əgər Allah tərəfindən sizə bir fəth (zəfər) nəsib olarsa: "Biz sizinlə bərabər deyildikmi?" – deyərlər. Əgər kafirlərin (zəfərdən) bir payı olarsa: "Sizə üstün tutub möminlərdən qorumadıqmı?"

– deyərlər. Allah qiyamət günü aranızda hökmünü verəcək. Allah möminlərin əleyhinə kafirlərə heç bir yol verməyəcək.

142. Münafiqlər Allahı aldatmağa çalışarlar. Allah da onların bu cəhdlərini onların əleyhinə çevirər. Onlar namaza qalxdıqları zaman tənbəl-tənbəl qalxar, özlərini insanlara göstərər və Allahı çox az yad edərlər.

143. Onlar küfr və iman arasında tərəddüd edirlər. Nə bunlara (möminlərə), nə də onlara (kafirlərə) bağlanırlar. Allah kimi zəlalətə düçar edərsə, ona əsla bir çıxış yolu tapa bilməzsən.

144. Ey iman edənlər! Möminləri qoyub kafirləri dost tutmayın! Öz əleyhinizə Allaha açıq-aşkar bir dəlilmi vermək istəyirsiniz?

145. Şübhəsiz ki, münafiqlər cəhənnəm odunun ən aşağı təbəqəsindədirlər. Onlara heç bir yardımçı da tapa bilməzsən.

146. Ancaq tövbə edənlər, özlərini düzəldənlər, Allahın kitabına sarılanlar və dinlərini Allaha məxsus edənlər (ixlaslı olanlar) istisnadır. Bunlar möminlərlə bərabərdirlər. Allah möminlərə böyük bir mükafat verəcək.

147. Əgər şükür edər və iman edərsinizsə, Allah sizə nə üçün əzab versin ki? Allah şükrün əvəzini verəndir, haqqı ilə biləndir.

148. Allah zülmə uğrayanların dilə gətirməsi istisna olmaqla, pis sözün söylənməsini sevməz. Şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

149. Bir xeyri aşkara çıxarar və ya gizlədərsinizsə, yaxud bir yamanlığı əfv edərsinizsə (bilin ki), Allah da çox əfv edəndir, hər şeyə haqqı ilə gücü yetəndir.

150, 151. Şübhəsiz, Allahı və peyğəmbərlərini inkar edənlər, Allaha inanıb peyğəmbərlərinə inanmayaraq aralarında fərq qoymaq istəyənlər, "(Peyğəmbərlərdən) bəzisinə inanarıq, bəzisini inkar edərik" deyənlər və beləliklə, bu ikisi (imanla küfr) arasında bir yol tutmaq istəyənlər ki var, onlar, həqiqətən, kafirlərdir. Biz də kafirlərə alçaldıcı bir əzab hazırlamışıq.

152. Allaha və peyğəmbərlərinə iman edənlər və onlardan heç birini digərlərindən fərqləndirməyənlərə gəlincə, Allah onlara mükafatlarını verəcək. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

153. Kitab əhli səndən istəyir ki, onlara göydən bir kitab endirəsən. (Buna təəccüb etmə!) Musadan bundan daha böyüyünü istəmiş və "Allahı bizə əyani bir şəkildə göstər", – demişdilər. Beləliklə, zülmləri səbəbi ilə onları ildırım vurdu. Sonra onlara açıq-aydın dəlillər gəldikdən sonra buzovu tanrı qəbul etdilər. Biz bunu da əfv etdik və Musaya açıq-aşkar bir güc və ixtiyar verdik.

154. Verdikləri möhkəm söz(ə əməl etməmələri) səbəbi ilə "Tur"u onların üstünə qaldırdıq və onlara: "Təvazö ilə qapıdan girin", – dedik. Yenə onlara: "Şənbə günü (qadağaları) barəsində həddi aşmayın", – dedik və onlardan möhkəm bir söz aldıq.

155. Verdikləri əhdi pozduqları, Allahın ayələrini inkar etdikləri, peyğəmbərləri haqsız yerə öldürdükləri və "qəlblərimiz örtülüdür", – dedikləri üçün (onları hər müsi-

bətə düçar etdik. Onların qəlbləri örtülü deyil), əksinə inkarları səbəbi ilə Allah onların qəlblərini möhürləmişdir. Daha onlar inanmazlar.[1]

**156, 157.** Həmçinin inkarları və Məryəmə böyük bir iftira atmaları və "Biz Allahın peyğəmbəri Məryəm oğlu İsa Məsihi öldürdük", – demələri səbəbi ilə onların qəlblərini möhürlədik. Halbuki onu öldürmədilər və asmadılar. Lakin onlara elə göstərildi. Onun haqqında ixtilafa düşənlər bu barədə qəti bir şübhə içərisindədirlər. Bu barədə heç bir bilgiləri yoxdur. Ancaq zənnə uyurlar. Qəti olaraq onu öldürmədilər.

**158.** Lakin Allah onu özünə (öz qatına) yüksəltmişdir. Allah üstün və güclüdür, hökm və hikmət sahibidir.

**159.** Kitab əhlindən elə bir kəs yoxdur ki, ölümündən əvvəl ona (İsaya) iman etməsin. Qiyamət günü o (İsa), onların əleyhinə şahid olacaq.[2]

**160, 161.** Yəhudilərin etdikləri zülm və bir çoxlarını Allahın yolundan döndərmələri, onlara qadağan olunduğu halda faiz almaları, insanların mallarını haqsız yerə yemələri səbəbi ilə daha əvvəl onlara halal buyurulmuş təmiz və gözəl şeyləri onlara haram buyurduq. Aralarından inkar edənlərə də ağrılı-acılı bir əzab hazırladıq.

**162.** Lakin onlardan elmdə dərinləşmiş olanlar və möminlər sənə endiriləné və səndən əvvəl endiriləné iman edərlər. O namazı qılanlar, zəkatı verənlər, Allaha və axirət gününə inananlar ki var, onlara böyük bir mükafat verəcəyik.

**163.** Biz Nuha və ondan sonra gələn peyğəmbərlərə vəhy etdiyimiz kimi sənə də vəhy etdik. İbrahimə, İsmailə, İshaqa, Yaquba, onun nəvələrinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etmişdik. Davuda da Zəburu vermişdik.[3]

**164.** Daha əvvəl qissələrini sənə danışdığımız peyğəmbərlər göndərdik. Danışmadığımız (neçə-neçə) peyğəmbərlər də göndərdik. Allah Musa ilə də birbaşa danışdı.

**165.** Müjdə verənlər və xəbərdar edənlər olaraq peyğəmbərlər göndərdik ki, peyğəmbərlərdən sonra insanların Allaha qarşı bir bəhanələri olmasın. Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

**166.** Lakin Allah şahidlik edir ki, sənə endirdiyini öz elmi ilə endirmişdir. Mələklər də buna şahidlik edir. Şahid olaraq Allah yetər.

**167.** Şübhəsiz, inkar edənlər, insanları Allahın yolundan döndərənlər dərin bir zəlalətə düşmüşlər.

**168.** Şübhəsiz, inkar edənlər və zülm edənlər (ki var), Allah onları əsla bağışlayan və doğru yola yönəldən deyildir.

---

1 Ayənin son cümləsi "onların çox azı inanır" və ya "onlar çox az inanırlar" şəklində də tərcümə edilə bilər.

2 Allah, peyğəmbəri İsanı yəhudilərdən qorumuş, onu öldürmələrinə imkan verməmişdir. Bu dəqiq belədir. Onu öz qatına qaldırması da şübhəsizdir. Ancaq bunun nə şəkildə və nə zaman olduğu barəsində müxtəlif mülahizələr mövcuddur.

3 Vəhy Allahın, peyğəmbərlərinə istədiyini deməsi və bildirməsi üçün seçdiyi xüsusi bir ünsiyyət vasitəsidir. Vəhy mələk vasitəsilə olduğu kimi bilavasitə də ola bilər. Qəlbinə vəhy endirilən bir peyğəmbər özündə Allahdan gəldiyinə əsla şübhə etmədiyi bir bilik və aydınlanma müşahidə edir. Vəhy bəşəriyyət üçün ən doğru və ən etibarlı bilik mənbəyidir. Qur`an vəhyin əl dəyməmiş, misilsiz və bənzərsiz son və yeganə nümunəsidir. Ayədəki "nəvələr" sözü ilə Yaqub peyğəmbərin övladları və nəvələri nəzərdə tutulur.

169. (Allah onları) ancaq içində əbədi qalacaqları cəhənnəmin yoluna yönəldər. Bu isə Allah üçün çox asandır.

170. Ey insanlar! Peyğəmbər sizə Rəbbinizdən haqqı (həqiqəti) gətirdi. Elə isə öz xeyriniz üçün iman edin. Əgər inkar edərsinizsə, bilin ki, göylərdəki hər şey, yerdəki hər şey Allahındır. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

171. Ey Kitab əhli! Dininizdə həddi aşmayın və Allah haqqında yalnız haqqı söyləyin. Məryəm oğlu İsa Məsih, yalnız və yalnız, Allahın peyğəmbəri, Məryəmə çatdırdığı (əmri ilə onda yaratdığı) kəlməsi və özündən olan bir ruhdur. Elə isə Allaha və peyğəmbərlərinə iman edin, "(Allah) üçdür" deməyin.[1] Öz yaxşılığınız üçün buna son qoyun. Allah yalnız tək bir ilahdır. O, övlad sahibi olmaqdan uzaqdır. Göylərdəki hər şey, yerdəki hər şey Onundur. Vəkil olaraq Allah yetər.

172. Məsih də, Allaha yaxın mələklər də Allaha qul olmaqdan əsla çəkinməzlər. Kim Allaha qulluq etməkdən çəkinər və kibrlənərsə, bilsin ki, O, onların hamısını hüzurunda toplayacaq.

173. İman edib saleh işlər görənlərə gəlincə, (Allah) onların mükafatlarını tam verəcək və lütfündən onlara daha da artığını verəcək. Allaha qulluq etməkdən çəkinənlərə və kibrlənənlərə gəlincə, (Allah) onları ağrılı-acılı bir əzaba düçar edəcək və onlar özlərinə Allahdan başqa bir dost və yardımçı da tapa bilməyəcəklər.

174. Ey insanlar! Sizə Rəbbinizdən möhkəm bir dəlil (həzrət Muhammməd) gəldi və sizə açıq-aşkar bir nur (Qur`an) endirdik.

175. Allaha iman edib ona möhkəm sarılanları isə (Allah) özündən bir rəhmət və lütfə qovuşduracaq və onları özünə aparan doğru bir yola yönəldəcək.

176. Səndən fətva istəyirlər. De ki: "Allah sizə "kəlalə" (atasız və övladsız kimsə)nin mirası haqqında hökmünü açıqlayır: Övladı olmayan bir kimsə ölərsə və bacısı varsa, qoyub getdiyi malın yarısı onundur. Əgər bacısı ölərsə və övladı da yoxdursa, qardaşı onun varisi olar. Əgər iki bacıdırlarsa, (qardaşın) buraxdığı malın üçdə ikisi onlarındır. Əgər (varis olaraq) həm qardaşlar, həm bacılar varsa, o zaman (bir) kişiyə iki qızın hissəsi qədər (pay) düşür". Doğru yoldan çıxmayasınız deyə Allah sizə (hökmünü) açıqlayır. Allah hər şeyi haqqı ilə biləndir.

1 Xristianlar Allahın ata, oğul və müqəddəs ruh olmaqla üç ünsürdən ibarət olduğuna inanırlar.

# 5. MAİDƏ SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 120 ayədən ibarətdir. Surənin adı 112-ci və 114-cü ayələrdə keçən "maidə" (süfrə) sözündən götürülmüşdür. Surədə başlıca olaraq, verilən sözlərin yerinə yetirilməsi, İsrail oğullarının sözlərinə əməl etməmələri, xristianların yanlış etiqadları, dünyapərəstlikləri və onlara verilən nemətlərdən sui-istifadə etmələri, müsəlmanlar üçün bəzi təlimatlar, xəbərdarlıq və dini hökmlər yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey iman edənlər! Əqdlərinizi yerinə yetirin.[1] Ehramlı ikən ovu halal saymamağınız şərti ilə,[2] oxunacaq (bildiriləcək) olanlardan başqa heyvanlar[3] sizə halal buyuruldu. Şübhəsiz, Allah istədiyi hökmü verər.

2. Ey iman edənlər! Allahın (qoyduğu din) nişanələrinə,[4] haram aya,[5] həcc qurbanına (bu qurbanlıq heyvanların boynuna taxılan) boyunbağılara və Rəblərindən bol nemət və riza istəyərək Kəbəyə gələnlərə hörmətsizlik etməyin. Ehramdan çıxdığınız zaman (istərsinizsə,) ov edin. Sizi Məscidi-Hərama girməyə qoymadılar deyə bəzilərinə bəslədiyiniz kin, əsla sizi həddi aşmağa sövq etməsin. Yaxşılıq və təqvada (Allaha qarşı gəlməkdən çəkinmək) köməkləşin. Ancaq günah və düşmənçilikdə köməkləşməyin. Allaha qarşı gəlməkdən çəkinin. Çünki Allahın cəzası çox şiddətlidir.

3. Ölmüş heyvan, qan, donuz əti, Allahdan başqasının adına kəsilən, (hələ canı çıxmamışkən) kəsdikləriniz xaric; boğularaq, zərbə alaraq, yüksək yerdən düşərək, buynuzlanaraq ölmüş və yırtıcı heyvan tərəfindən parçalanmış heyvanlar ilə dik daşlar[6] üzərində kəsilən heyvanlar, bir də fal oxları ilə qismət axtarmağınız[7] sizə haram buyuruldu. Bütün bunlar günahdır. (Allaha itaətdən uzaqlaşmaqdır). Bu gün kafirlər dininizdən (onu yox etməkdən) ümidlərini kəsdilər. Artıq onlardan qorxmayın, məndən qorxun. Bu gün dininizi sizin üçün kamala çatdırdım. Sizə

---

1 Əqd müqavilə deməkdir. Bu kəlmə burada həm Qur`anın gətirdiyi iman əsaslarını, Allahın əmr və qadağalarını, tətbiq edilməli qaydaları, həm də ümumi mənada şəxslərin öz aralarında bağladıqları əqdləri, verdikləri sözləri əhatə edir.

2 Həcc və ümrə üçün ehrama girənlər quruda ov edə bilməzlər, ehramlı bir şəxsin ovladığı heyvanın ətindən yeyə bilməzlər.

3 Tərcümədəki bu "heyvanlar" kəlməsi ayədə keçən "Bəhimətul-Ən`am" ifadəsinin qarşılığı olaraq qeyd olunub. Bununla nəzərdə tutulan, dəvə, inək, qoyun, keçi və bu qəbildən digər heyvanlardır.

4 Tərcümədə keçən "nişanələr" kəlməsi ayədəki "şəair" sözünün qarşılığı olaraq verilmişdir. "Şəair" əlamətlər, işarələr və simvollar deməkdir. Burada nəzərdə tutulan dinin nəzərə çarpan əlamətləri, işarələri və simvollarıdır. Xüsusilə həccin yerinə yetirildiyi müqəddəs yerlər və bəzi həcc ritualларıdır.

5 Haram ay ifadəsi ilə Məhərrəm, Zilqədə, Zilhiccə və Rəcəb ayları nəzərdə tutulur.

6 Cahiliyyə dövründə ərəblər Kəbənin ətrafına təzim məqsədi ilə qoyduqları dik daşlar üzərində qurban kəsərdilər. Kəsilən qurbanların qanları bu daşlar üzərinə səpilər, ətləri də bunlar üzərinə qoyulardı.

7 Cahiliyyə dövründə bir insan bir iş görməyə qərar vermək məqsədilə, bir torba içərisində olan və birinin üzərində "et!", birinin üzərində "etmə!" yazılı, biri də yazısız olan üç oxdan birini çəkərdi. Əgər torbadan yazısız ox çıxsa, bir daha çəkərdi.

nemətimi tamamladım və sizin üçün din olaraq İslamı seçdim.[1] Kim şiddətli aclıq səbəbi ilə çətin vəziyyətdə qalar, günaha meyl etmədən (haram ətlərdən) yeyərsə, şübhəsiz ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

4. (Ey Muhamməd!) Səndən, onlara nəyin haram buyurulduğunu soruşurlar. De ki: "Sizə təmiz və gözəl olan şeylər, bir də Allahın sizə verdiyi bacarıqlarla öyrədib əhliləşdirdiyiniz ov heyvanlarının tutduğu (ovlar) halal buyuruldu. Onların sizin üçün tutduqlarından yeyin. Onu (ov etməsi üçün) sərbəst buraxarkən Allahın adını anın (bəsmələ çəkin). Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allah tez hesaba çəkəndir".

5. Bu gün sizə təmiz və gözəl şeylər halal buyuruldu. Kitab əhlinin yeməkləri sizə, sizin də yeməkləriniz onlara halaldır.[2] İffətli mömin qadınlarla və sizdən əvvəlki Kitab əhlindən olan iffətli qadınlarla mehirlərini verməyiniz şərtilə evlənmək, zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə sizə halaldır. Kim imanı inkar edərsə, bütün əməlləri boşa çıxar. Axirətdə də o, ziyana uğrayanlardandır.

6. Ey iman edənlər! Namaza qalxacağınız zaman üzlərinizi, dirsəklərə qədər əllərinizi və – başlarınızı məsh edib – hər iki topuğa qədər[3] də ayaqlarınızı yuyun. Əgər cünub olsanız, yaxşıca yuyunaraq təmizlənin. Xəstə və ya səfərdə olduqda, yaxud biriniz ayaq yolundan gəldikdə və ya qadınlara toxunduqda[4] (cinsi münasibətdə olduqda), su tapmasanız, o zaman təmiz torpağa yönəlin. Onunla üzlərinizi və əllərinizi məsh edin (təyəmmüm edin). Allah sizə hər hansı bir çətinlik yaratmaq istəməz. Lakin o, sizi tərtəmiz etmək və sizə olan nemətini tamamlamaq istər ki, şükür edəsiniz.

7. Allahın sizə olan nemətini və "eşitdik, itaət etdik", – dediyiniz zaman ona verdiyiniz və sizi onunla bağladığı möhkəm sözü xatırlayın. Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allah sinələrin özünü (qəlblərdə olanı) haqqı ilə biləndir.

8. Ey iman edənlər! Allah üçün haqqı qətiyyətlə qoruyan, ədalətlə şahidlik edən kimsələr olun. Bir qövmə olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allah əməllərinizdən haqqı ilə xəbərdardır.

9. Allah iman edib saleh işlər görənlər haqqında: "Onlar üçün bir bağışlanma və böyük bir mükafat var", – deyə vəd etmişdir.

10. İnkar edib ayələrimizi yalanlayanlar ki var, onlar cəhənnəmlikdirlər.

1 Vida həccində Ərəfatda bu ayənin nazil olmasından sonra həzrət Peyğəmbər yalnız 81 və ya 82 gün yaşamışdır. Ən son nazil olan hökm ayəsi budur.

2 Kitab əhlinin yeməklərinin müsəlmanlara halal olması donuz əti, boğazı kəsilmədən ölən və ya öldürülən heyvanların ətləri kimi İslamda yeyilməsi qadağan olunmuş yeməklərə şamil edilmir.

3 Buradakı "topuqlar" sözü ilə ayaq biləklərinin hər iki tərəfində yer alan çıxıntı formasındakı sümüklər nəzərdə tutulur.

4 Ayədəki "qadınlara toxunmaq" ifadəsi ilə məcazi mənada cinsi əlaqədə olmaq nəzərdə tutula biləcəyi kimi, həqiqi mənada toxunmaq da nəzərdə tutula bilər. Bu səbəblə bəzi fiqh alimləri qadına toxunmağın dəstəmazı pozmayacağını, bəziləri isə pozacağını bildirmişlər. Bu tərcümədə birinci yanaşma əsas götürülmüşdür.

11. Ey iman edənlər! Allahın sizə olan nemətini xatırlayın. Xatırlayın ki, bir qövm sizə əl uzatmaq (hücum etmək) fikrinə düşmüş, Allah (buna mane olmuş) onların əllərini sizdən çəkmişdi. Allaha qarşı gəlməkdən çəkinin. Möminlər yalnız Allaha təvəkkül etsinlər.[1]

12. And olsun ki, Allah İsrail oğullarından möhkəm bir söz almışdı. Onlardan on iki nümayəndə – başçı – seçmişdik. Allah belə demişdi: "Sizinləyəm. And olsun ki, əgər namazı qılar, zəkatı verər və elçilərimə inanar, onları dəstəkləyərsinizsə, (kasıblara ürəklə köməklik göstərərək) Allaha gözəl bir borc verərsinizsə, əlbəttə, sizin pisliklərinizi örtərəm və and olsun, sizi içindən çaylar axan cənnətlərə qoyaram. Ancaq bundan sonra sizdən kim inkar edərsə, mütləq o, doğru yoldan azmışdır".

13. Verdikləri sözləri pozduqları üçün onları lənətlədik, qəlblərini də qatılaşdırdıq. Sözləri yerlərindən və mənalarından uzaqlaşdırırlar (təhrif edirlər). Yaddan çıxarmamalı olduqları şeylərin mühüm bir qismini də unutdular. (Ey Muhamməd!) Onlardan çox azı xaric, onların daim bir xainliyini görürsən. Yenə də sən onları bağışla və (onların günahlarından və təqsirlərindən) keç. Çünki Allah yaxşılıq edənləri sevər.

14. "Biz xristianıq" deyənlərdən də möhkəm söz almışdıq. Ancaq onlar da yaddan çıxarmamalı olduqları şeylərin mühüm bir qismini unutdular. Bu səbəblə biz də aralarına qiyamət gününə qədər davam edəcək ədavət və kin saldıq. Allah onların nə etdiklərini onlara bildirəcək!

15. Ey kitab əhli! Artıq sizə elçimiz (Muhamməd) gəlmişdir. O, kitabınızdan gizlətdiyiniz həqiqətlərdən bir çoxunu sizə açıqlayır, bir çoxunu da əfv edir. Artıq sizə Allahdan bir nur və açıq-aydın bir kitab (Qur`an) gəlmişdir.

16. Allah, rizasını axtaranları onunla salamatlıq yollarına yönəldər və onları izni ilə qaranlıqlardan aydınlığa çıxarıb onları doğru yola yönəldər.

17. And olsun ki, "Allah Məryəm oğlu Məsihdir" deyənlər mütləq kafir oldular.[2] De ki: "Əgər Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanları yox etmək istəsə, Allaha qarşı kim nə edə bilər? Göylərin, yerin və bunlar arasında olan hər şeyin hökmranlığı Allahındır. İstədiyini yaradar. Allah hər şeyə haqqı ilə gücü yetəndir".

18. (Bir də) yəhudilər və xristianlar: "Biz Allahın oğulları və sevimli qullarıyıq", – dedilər. De ki: "Elə isə (Allah) nə üçün sizə günahlarınız səbəbi ilə əzab verir? Xeyr, siz də Onun yaratdıqlarından bir bəşərsiniz". (Allah) istədiyini bağışlayar, istədi-

---

1 Təfsir mənbələrində bu ayənin nüzul səbəbi haqqında müxtəlif rəvayətlər var. Bunlardan biri belədir: Usfanda (Ciddə şəhərinin təqribən 1,5 km şimal-şərqindəki bir yer) baş verən Zu Ənmar qəzvəsində müşriklər Rəsulullah və səhabələrinin zöhr namazını camaatla qılmaq üçün qalxdıqlarını gördülər. Namaz bitdikdən sonra fürsətdən istifadə edib müsəlmanlara hücum etmədiklərinə peşman oldular. Əsr namazı haqqında: "Onların zöhr namazından sonra bir də atalarından və övladlarından daha çox sevdikləri əsr namazları da var" – deyərək bu namazın qılınması əsnasında hücum etməyi planlaşdırdılar. Bundan sonra savaş vaxtlarında camaatla namazın necə qılınacağını öyrədən Nisa surəsinin 102-103-cü ayələri nazil oldu.

2 Eyni mövzu üçün baxın: Maidə, 5/72.

yinə əzab verər. Göylərin, yerin və bunların arasında olanların da hökmranlığı Allahındır. Dönüş də ancaq Onadır.

19. Ey kitab əhli! Peyğəmbərlərin ardı-arası kəsildiyi bir zamanda: "Bizə nə müjdələyən bir peyğəmbər gəldi, nə də xəbərdar edən", – deməməyiniz üçün sizə (həqiqəti) açıqlayan elçimiz (Muhamməd) gəldi. (Bəli,) sizə bir müjdələyən və xəbərdar edən gəlmişdir. Allah hər şeyə haqqı ilə gücü yetəndir.

20. Bir vaxt Musa qövmünə demişdi ki: "Ey qövmüm! Allahın sizə olan nemətini xatırlayın. Xatırlayın ki, sizdən peyğəmbərlər çıxarmışdı. Sizi hökmdarlar etmişdi[1] və (digər) xalqlardan heç birinə vermədiyini sizə vermişdi".

21. "Ey qövmüm! Allahın sizə yazdığı müqəddəs torpağa girin. Geri dönməyin. Yoxsa ziyana uğrayanlardan olarsınız".[2]

22. Dedilər ki: "Ey Musa! O (dediyin) torpaqlarda çox güclü, zorba bir millət var. Onlar oradan çıxmadıqca biz oraya əsla girə bilmərik. Əgər oradan çıxsalar, biz də girərik".

23. Qorxanlar arasından Allahın nemət verdiyi iki adam belə demişdi: "Onların üstünə qapıdan girin. Əgər oraya girsəniz, şübhəsiz, qaliblərdən olarsınız. Əgər möminlərsinizsə, yalnız Allaha təvəkkül edin".

24. Dedilər ki: "Ey Musa! Onlar orada olduğu müddətcə biz oraya əsla girməyəcəyik. Sən və Rəbbin gedin, onlarla savaşın. Biz burada oturacağıq".

25. Musa: "Ey Rəbbim! Mənim sözüm ancaq özümə və qardaşıma keçər. Artıq bizimlə o yoldan çıxanların arasını ayır", – dedi.

26. Allah belə dedi: "O halda ora onlara qırx il haram edilmişdir. Bu müddət ərzində yer üzündə sərgərdan gəzib dolaşacaqlar. Artıq yoldan çıxan qövmə görə kədərlənmə".

27. (Ey Muhamməd!) Onlara Adəmin iki oğunun xəbərini olduğu kimi oxu. Hərəsi bir qurban ərz etmişdi, birindən qəbul edilmiş, digərindən qəbul edilməmişdi. Qurbanı[3] qəbul olunmayan: "And olsun, səni mütləq öldürəcəyəm", – dedi. Digəri: "Allah ancaq müttəqilərdən qəbul edər", – dedi.

28. "And olsun! Sən məni öldürmək üçün əlini mənə uzatsan da, mən səni öldürmək üçün əlimi sənə uzadacaq deyiləm. Çünki mən aləmlərin Rəbbi olan Allahdan qorxuram".

29. "Mən istəyirəm ki, sən mənim günahımı da, öz günahını da üstünə götürüb cəhənnəmliklərdən olasan. Zalımların cəzası budur".

---

1 Ayənin bu qismi "Sizi öz-özünüzün ağası etmişdi" şəklində də tərcümə oluna bilər.

2 Qeyd olunan torpaqların İsrail oğullarına vətən olaraq qalması onların Allahın Kitabı və Peyğəmbərinin göstərdiyi istiqamətdə dürüst bir şəkildə getmələrinə bağlı idi. Çünki Tövratdan sonra Zəburda da yer üzündə ancaq yaxşı bəndələrin varis olacağı ifadə edilmişdir. Baxın: Ənbiya, 21/105.

3 Burada keçən "qurban" sözü Allaha yaxınlaşmağa vəsilə olacaq şey deməkdir. Təfsir mənbələrinə görə, həzrət Adəmin oğullarından Qabilin təqdim etdiyi qurban biçilib bağlanmış bir dəstə sünbül, Habilinki isə bir qoç idi.

30. Nəfsi onu qardaşını öldürməyə sövq etdi, (nəfsinə tabe olaraq) onu öldürdü və beləliklə, ziyana düşənlərdən oldu.

31. Nəhayət, Allah ona qardaşının ölmüş cəsədini necə örtüb gizlədəcəyini göstərmək üçün yeri eşələyən bir qarğa göndərdi. "Vay halıma! Bu qarğa qədər olub qardaşımın cəsədini örtməkdən acizəmmi mən?" – dedi. Artıq peşmanlıq çəkənlərdən olmuşdu.

32. Buna görə İsrail oğullarına (Kitabda) bunu yazdıq: "Kim bir insanı – bir canın qarşılığı olmadan və ya yer üzündə fitnə-fəsad çıxarmağın qarşılığı olmadan – öldürsə, o, sanki bütün insanları öldürmüşdür. Kim də birini (həyatını xilas edərək) yaşatsa, sanki bütün insanları yaşatmışdır". And olsun ki, rəsullarımız onlara açıq-aşkar dəlillər (möcüzə və ayələr) gətirdilər. Amma onlardan bir çoxu bundan sonra da yer üzündə (hələ də) həddi aşırlar.

33. Allah və Rəsuluna qarşı savaş açanların və yer üzündə fitnə-fəsad salmağa çalışanların cəzası ancaq öldürülmələri, yaxud asılmaları və ya əllərinin və ayaqlarının çarpaz kəsilməsi, yaxud da o yerdən sürgün olunmalarıdır. Bu cəzalar onlar üçün dünyadakı bir rüsvayçılıqdır. Axirətdə isə onlara böyük bir əzab var.[1]

34. Ancaq onları ələ keçirməyinizdən əvvəl tövbə edənlər istisnadırlar. Artıq Allahın çox bağışlayan, çox mərhəmət edən olduğunu bilin.

35. Ey iman edənlər! Allaha qarşı gəlməkdən çəkinin. Ona yaxınlaşmağa vəsilə axtarın və Onun yolunda cihad edin ki, nicat tapasınız.

36. Şübhəsiz, yer üzündə olanların hamısı, üstəlik bir o qədəri də kafirlərin olsa və qiyamət gününün əzabından qurtulmaq üçün hamısını fidyə olaraq versələr, yenə onlardan qəbul edilməz. Onlara ağrılı-acılı bir əzab var.

37. Oddan çıxmaq istərlər, amma ondan çıxacaq deyillər. Onlara davamlı bir əzab var.

38. Etdiklərinin əvəzi olaraq və Allahdan çəkindirici bir cəza olaraq oğru kişi ilə oğru qadının əllərini kəsin. Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

39. Hər kim də etdiyi zülmün ardından tövbə edib özünü düzəltsə, şübhəsiz, Allah onun tövbəsini qəbul edər. Şübhə yox ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

40. Bilmirsənmi ki, göylərin və yerin hökmranlığı Allaha aiddir. O, istədiyinə əzab verər, istədiyini də bağışlayar. Allah hər şeyə haqqı ilə gücü yetəndir.

41. Ey Peyğəmbər! Qəlbən inanmadıqları halda ağızlarıyla "İnandıq" deyənlər (münafiqlər) ilə yəhudilərdən küfrdə yarışanlar səni üzməsin. Onlar (yəhudilər öz din alimlərinin Allaha iftira və Tövratı təhriflə bağlı uydurduqları) yalanlara qulaq asar, (həmçinin kin və düşmənçilikləri səbəbilə) sənin yanına gələ bilməyən bir (yəhudi) camaata qulaq asarlar (və onların yalanlarını, sözlərini tətbiq edərlər). (Qulaq asdıqları kimsələr) sözləri yerlərindən oynadıb (təhrif edər) və belə deyər-

1 Ayədə "Allah və Rəsuluna qarşı savaş və yer üzündə fitnə-fəsadçılıq" şəklində ifadə edilən cinayətlər terror, yol kəsmək, qan tökmək, quldurluq, soyğunçuluq, günahsız insanları öldürmək kimi cəmiyyətin hüzurunu və əmin-amanlığını pozan əməllərdir. Bu ayə terror, quldurluq və soyğunçuluq kimi cəmiyyətin hüzurunu pozan qeyri-qanuni əməllərin nə dərəcədə təhlükəli olduğuna işarə edir.

lər: "Əgər sizə bu (təhrif edilmiş) hökm verilərsə, onu tutun. O verilməzsə, uzaq durun". Allah kimin əzaba düçar olmasını istəmişsə, artıq sən onun üçün qətiyyən Allaha qarşı bir şey edə bilməzsən. Onlar elə kəslərdir ki, Allah onların qəlblərini təmizləmək istəməmişdir.[1] Onlara dünyada bir rüsvayçılıq, axirətdə isə yenə onlara böyük bir əzab var.

42. Onlar yalana çox qulaq asan, çox haram yeyənlərdir. Əgər sənin yanına gəlsələr, ya aralarında hökm ver, ya da onlardan üz çevir. Onlardan üz çevirsən, sənə qətiyyən bir zərər verə bilməzlər. Əgər hökm versən, aralarında ədalətlə hökm ver. Çünki Allah ədalətli olanları sevər.

43. İçərisində Allahın hökmü olan Tövrat yanlarında ola-ola necə olur ki, səni hakim təyin edirlər, sonra bunun ardından verdiyin hökmdən üz döndərirlər? Onlar (nə öz kitablarına, nə də sənə) inanan kimsələr deyillər.

44. Şübhəsiz, Tövratı biz endirdik. İçərisində bir hidayət, bir nur var. (Allaha) təslim olan nəbilər onunla yəhudilərə hökm verərdilər. Özlərini Rəbbə həsr edən kimsələr ilə alimlər də elə hökm edərdilər. Çünki onlara Allahın kitabını qorumaq tapşırılmışdı. Onlar Tövratın haqq olduğuna da şahid idilər. O halda siz də insanlardan qorxmayın, məndən qorxun və ayələrimi ucuz qiymətə dəyişməyin. Allahın endirdiyi ilə hökm verməyənlər kafirlərdir.

45. Onda (Tövratda) onlara bunu yazdıq: Cana can, gözə göz, buruna burun, qulağa qulaq, dişə diş qisas alınar. Yaralar üçün də qisas var. Kim də bu haqqı bağışlayar, onu sədəqə sayarsa o, özü üçün kəffarə olar. Allahın endirdiyi ilə hökm verməyənlər zalımlardır.

46. O peyğəmbərlərin izi ilə Məryəm oğlu İsanı önündəki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, önündəki Tövratı təsdiqləyən, Allaha qarşı gəlməkdən çəkinənlər üçün doğru yola yönəldən və bir öyüd olaraq İncili verdik.

47. İncil əhli Allahın ona endirdiyi ilə hökm versin. Allahın endirdiyi ilə hökm verməyənlər fasiqlərdir.

48. (Ey Muhamməd!) Sənə də o Kitabı (Qur`anı) haqq, özündən əvvəlki kitabları təsdiq edən, qoruyan olaraq endirdik. Artıq Allahın endirdiyi ilə onlar arasında hökm ver və sənə gələn haqdan ayrılıb onların arzularına uyma. Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, əlbəttə, sizi bir tək ümmət edərdi. Lakin verdiyi şeylərdə sizi imtahan etmək üçün ümmətlərə ayırdı. Elə isə xeyir işlərdə yarışın. Hamınızın dönüşü Allahadır. O zaman ixtilafa düşdüyünüz şeyləri sizə bildirəcəkdir.

49. Aralarında Allahın endirdiyi ilə hökm ver. Onların arzularına uyma və Allahın sənə endirdiyinin bir qismindən (Qur`anın bəzi hökmlərindən) səni yayındırmalarına qarşı ayıq ol. Əgər üz döndərsələr, bil ki, şübhəsiz, Allah bəzi günahları səbəbi ilə onları müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların bir çoxu yoldan çıxanlardır.

1 Çünki özləri bu istiqamətdə bir səy göstərmirlər.

50. Onlar hələ də cahiliyyə dövrünün hökmünümü istəyirlər? Yəqinliklə inanan bir qövm üçün kimin hökmü Allahınkından daha gözəldir?

51. Ey inananlar! Yəhudi və xristianları dost tutmayın. Onlar bir-birilərinin dostudurlar. Sizdən kim onları dost tutarsa, şübhəsiz, o da onlardandır. Şübhəsiz, Allah zalımlar qövmünü doğru yola yönəltməz.[1]

52. Qəlblərində bir xəstəlik (nifaq) olanların: "Başımıza bir fəlakət gəlməsindən qorxuruq", – deyərək onların arasında gedib-gəldiklərini görərsən. Ancaq Allah yaxın bir fəth və ya qatından bir əmr gətirər və onlar içlərində gizlədikləri şeyə (nifaqa) görə peşman olarlar.

53. (O zaman) iman edənlər deyərlər ki: "Sizinlə olduqlarına dair möhkəm bir şəkildə Allaha and içənlər bunlardırmı?" Bunların cəhdləri boşa çıxmışdır. Beləliklə, ziyana uğrayanlardan olmuşlar.

54. Ey iman edənlər! Sizdən kim dinindən dönərsə, (bilin ki,) Allah onların yerinə elə bir qövm gətirər ki, Allah onları sevər, onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı xoşrəftar, kafirlərə qarşı güclü və məğrurdurlar. Allah yolunda cihad edərlər. (Bu yolda) heç bir qınayanın qınağından da qorxmazlar. Bu, Allahın bir lütfüdür. Onu istədiyinə verər. Allah lütfü geniş olandır, haqqı ilə biləndir.

55. Sizin dostunuz ancaq Allahdır, Rəsuludur və Allahın əmrlərinə boyun əyərək namaz qılan, zəkatı verən möminlərdir.

56. Kim Allahı, Onun peyğəmbərini və inananları dost tutarsa, bilsin ki, şübhəsiz, qalib gələnlər məhz Allahın tərəfdarlarıdır.

57. Ey iman edənlər! Sizdən əvvəl kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq yerinə qoyanları və digər kafirləri dost tutmayın. Əgər möminlərsinizsə, Allaha qarşı gəlməkdən çəkinin.

58. Siz namaza çağırdığınız zaman onlar onu ələ salıb oyun-oyuncaq yerinə qoyarlar. Bu, şübhəsiz ki, onların ağılsız bir qövm olduqları üçündür.

59. De ki: "Ey kitab əhli! Yalnız Allaha, bizə endirilənə və daha əvvəl endirilənə (ilahi kitablara) inanmağımız və sizin çoxunuzun fasiq olması səbəbi ilə bizdən xoşunuz gəlmir".

60. De ki: "Allah qatında cəzası bundan daha pis olanları sizə xəbər verimmi? Onlar Allahın lənətlədiyi və qəzəbinə düçar etdiyi, aralarından meymunlar və donuzlar çıxardığı kimsələr ilə şeytanlara tapınan kimsələrdir. Bunların yeri daha pisdir və onlar doğru yoldan daha çox azanlardır".

61. (Yanınıza) küfrlə daxil olub yenə (yanınızdan) küfrlə çıxdıqları halda sizə gəldikləri zaman: "İnandıq", – dedilər. Allah onların gizli saxladıqları şeyi daha yaxşı bilir.

62. Onlardan çoxunun günahda, düşmənçilikdə, haram yeməkdə bir-biriləri ilə yarışdıqlarını görərsən. Etdikləri şey nə pisdir!

---

1 Bu ayədə müsəlmanların yəhudiləri və xristianları inanclarına görə özlərinə yaxın görüb dost tutmaları qadağan edilir, öz inanc və dəyərlərinə bağlı qalmaları istənilir. Ali-İmran surəsinin 28-ci ayəsi bu mövzuda açıq-aşkar bir xəbərdarlıq ehtiva edir.

63. Kaş ki, din adamları və din alimləri bunları günah söz söyləməkdən və haram yeməkdən çəkindirəydilər. Etdikləri şey nə pisdir!

64. Bir də yəhudilər: "Allahın əli bağlıdır", – dedilər. Söylədiklərindən ötrü öz əlləri bağlansın və lənətə gəlsinlər! Xeyr, Onun iki əli də açıqdır, istədiyi kimi verər. And olsun, sənə Rəbbindən endirilən (Qur`an) onlardan bir çoxunun azğınlığını və küfrünü artıracaq. Biz onların arasına qiyamətə qədər ədavət və kin saldıq. Onlar nə zaman savaş alovunu yandırmışlarsa, Allah onu söndürmüşdür. Onlar yer üzündə fitnə-fəsad törətməyə çalışırlar. Allah fitnə-fəsad törədənləri sevməz.

65. Əgər kitab əhli iman etsəydi və Allaha qarşı gəlməkdən çəkinsəydi, onların pisliklərinin üstünü örtərdik və onları Nəim cənnətlərinə qoyardıq.

66. Əgər onlar Tövratı, İncili və Rəbləri tərəfindən onlara endiriləni (Qur`anı) lazımınca tətbiq etsəydilər, əlbəttə, üstlərindən və ayaqlarının altından (bol-bol ruzi) yeyərdilər. Onlardan orta yolu tutan bir zümrə var. Amma onların bir çoxunun etdiyi necə də pisdir!

67. Ey Peyğəmbər! Rəbbindən sənə endiriləni təbliğ et. Əgər bunu etməsən, Onun verdiyi peyğəmbərlik vəzifəsini yerinə yetirməmiş olarsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz, Allah kafirlər qövmünü hidayətə çatdırmayacaq.

68. De ki: "Ey Kitab əhli! Tövratı, İncili və Rəbbinizdən sizə endiriləni (Qur`anı) tətbiq etmədikcə heç bir şey üzərində deyilsiniz". And olsun ki, sənə Rəbbindən endirilən bu Qur`an onlardan çoxunun azğınlıq və küfrünü artıracaq. Elə isə o kafirlər qövmünə görə məyus olma.

69. Şübhəsiz, inananlar (müsəlmanlar) ilə yəhudilər, sabiilər və xristianlardan (hər birinin öz şəriətində) "Allaha və axirət gününə inanan və saleh əməl işləyənlər üçün heç bir qorxu yoxdur. Onlar qəm-qüssə də görməyəcəklər", – (deyə hökm verilmişdir.)[1]

70. And olsun, İsrail oğullarından möhkəm söz almış və onlara peyğəmbərlər göndərmişdik. Lakin nə zaman ki, peyğəmbər onlara nəfslərinə xoş gəlməyən bir hökm gətirdi, onlardan bir qismini təkzib etdilər, bir qismini də öldürdülər.

71. (Bu etdiklərində) bir bəla olmayacağını hesab etdilər, kor və kar oldular. Sonra (tövbə etdilər), Allah da onların tövbəsini qəbul etdi. Sonra yenə onlardan çoxu kor və kar oldular. Allah onların əməllərini haqqı ilə görəndir.

72. And olsun, "Allah Məryəm oğlu Məsihdir" deyənlər kafir oldu.[2] Halbuki Məsih belə demişdi: "Ey İsrail oğulları! Yalnız mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha qulluq edin. Kim Allaha şərik qoşarsa, artıq Allah ona cənnəti haram etmişdir. Onun yeri cəhənnəm odudur. Zalımlar üçün heç bir yardımçı yoxdur".

73. And olsun, "Allah üçün üçüncüsüdür" deyənlər kafir oldu.[3] Halbuki tək bir ilah-

---

1 Ayə haqqında açıqlama üçün Bəqərə surəsinin 62-ci ayəsinin istinadlarına baxın.

2 Eyni mövzu üçün baxın: Maidə, 5/17.

3 Xristianlar Allahı Ata, Oğul və Müqəddəs Ruhdan ibarət üçlü ünsürün bir parçası olaraq düşünürlər. Xristinaların Allahı "Üçün üçüncüsü" şəklində ifadə etmələri həzrət İsa və Məryəmin hər ikisini ilah olaraq qəbul etmələri etibarilə də ola bilər.

dan başqa heç bir ilah yoxdur. Əgər dediklərinə son qoymasalar, and olsun, onlardan inkar edənlərə, əlbəttə, ağrılı-acılı bir əzab toxunacaq.

74. Hələ də Allaha tövbə etmir və Ondan bağışlanma istəmirlərmi? Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

75. Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də neçə-neçə peyğəmbərlər gəlib keçdi. Onun anası da dürüst bir qadındır. (Necə ilah ola bilərlər?) İkisi də yemək yeyərdi. Gör onlara ayələrimizi necə açıqlayırıq. Sonra gör ki, necə də (haqdan) üz döndərirlər.

76. (Ey Muhamməd!) De ki: "Allahı qoyub, sizin üçün nə bir zərər, nə də bir xeyir verməyə gücü yetən şeylərəmi tapınırsınız? Halbuki Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir".

77. De ki: "Ey Kitab əhli! Haqdan kənara çıxaraq dininizdə həddi aşmayın. Daha əvvəl yolunu azmış, bir çoxlarını da azdırmış və zəlalətə düşmüş bir millətin arzu və həvəslərinə uymayın".

78. İsrail oğullarından inkar edənlər Davud və Məryəm oğlu İsanın dili ilə lənətləndi. Bu, onların üsyan etmələri və həddi aşmalarına görə idi.

79. Hər hansı bir pis əməldən bir-birilərini daşındırmağa çalışmazdılar. Əməlləri necə də pis idi!

80. Onlardan bir çoxunun inkar edənləri dost tutduğunu görürsən. And olsun ki, özləri üçün əvvəlcədən (axirətə) göndərdikləri şey; Allahın onlara əzab verməsi necə də pisdir! Onlar əzab içində əbədi olaraq qalanlardır.

81. Əgər Allaha, Peyğəmbərə və ona endirilənə (Qur`ana) inansaydılar, onları (müşrikləri) dost tutmazdılar. Lakin onlardan bir çoxu fasiq kimsələrdir.

82. (Ey Muhamməd!) İman edənlərə düşmənlik etmək baxımından insanların ən şiddətlisinin yəhudilər ilə Allaha şərik qoşanlar olduğunu görərsən. Yenə onların iman edənlərə sevgi baxımından ən yaxınının da "Biz xristianlarıq" deyənlər olduğunu mütləq görərsən. Çünki onların içində keşişlər və rahiblər var. Onlar təkəbbür göstərməzlər.

83. Peyğəmbərə endiriləni (Qur`anı) dinlədikləri zaman haqqı tanıdıqları üçün gözlərinin yaşla dolduğunu görərsən. "Ey Rəbbimiz! İnandıq. Artıq bizi (həqiqətə) şahidlik edənlər (Muhammədin ümməti) ilə[1] bərabər yaz", – deyərlər.

84. "Rəbbimizin bizi salehlər topluluğu ilə birlikdə (cənnətə) qoymasını umarkən, Allaha və bizə gələn həqiqətə nə üçün inanmayaq?"

85. Dedikləri bu sözə görə Allah onlara daimi qalacaqları, içindən çaylar axan cənnətləri mükafat olaraq verdi. Bu, yaxşılıq edənlərin mükafatıdır.

86. İnkar edənlərə və ayələrimizi təkzib edənlərə gəlincə, onlar cəhənnəmlikdirlər.

87. Ey iman edənlər! Allahın sizə halal etdiyi yaxşı və təmiz nemətləri (özünüzə) haram etməyin və (Allahın qoyduğu) hədləri aşmayın. Çünki Allah həddi aşanları sevməz.

---

1 Muhamməd ümmətinin "şahidlər" olması ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/143; Həcc, 22/78.

88. Allahın sizə ruzi olaraq verdiklərindən halal, yaxşı və təmiz olaraq yeyin və inandığınız Allaha qarşı gəlməkdən çəkinin.

89. Allah bilmədən içdiyiniz andlara görə sizi məsul tutmaz. Ancaq bilə-bilə içdiyiniz andlara görə sizi məsul tutar. Bu halda andın kəffarəsi ailənizə yedirdiyinizin orta hesabından on yoxsulu doyurmaqdır, yaxud onları geyindirmək ya da bir kölə azad etməkdir. Kim (bunları etməyə imkan) tapa bilməsə, onun kəffarəsi üç gün oruc tutmaqdır. And içdiyiniz zaman andlarınızın kəffarəsi budur. Andlarınızı qoruyun. Allah sizə ayələrini belə açıqlayır ki, şükür edəsiniz.[1]

90. Ey iman edənlər! (Ağlı başdan alan) içki (və ona bənzər şeylər), qumar, dik daşlar və fal oxları şeytan işi olan pis şeylərdir. Onlardan uzaq durun ki, qurtuluşa çatasınız.[2]

91. Şeytan içki və qumarla, ancaq aranıza ədavət və kin salmaq, sizi Allahı zikr etməkdən və namazdan yayındırmaq istər. Artıq əl çəkirsinizmi?

92. Elə isə Allaha itaət edin, peyğəmbərə itaət edin və Allaha qarşı gəlməkdən çəkinin. Əgər üz döndərsəniz, bilin ki, elçimizin öhdəsinə düşən ancaq və ancaq açıq-aşkar təbliğdir.

93. İman edib saleh işlər görənlərə Allaha qarşı gəlməkdən çəkindikləri, iman etdikləri və saleh işlər gördükləri, sonra Allaha qarşı gəlməkdən çəkindikləri və iman etdikləri, sonra yenə Allaha qarşı gəlməkdən çəkindikləri və yaxşılıq etdikləri təqdirdə daha əvvəl yeyib-içdikləri şeylərə görə bir günah yoxdur. Allah yaxşılıq edənləri sevər.

94. Ey iman edənlər! And olsun, Allah sizi əllərinizin və mizraqlarınızın çata biləcəyi ov(lar) ilə əlbəttə, sınayacaq ki, görmədiyi halda Ondan qorxanı ayırıb meydana çıxarsın. Kim bundan (bu açıqlamadan) sonra həddini aşarsa, ona ağrılı-acılı bir əzab var.

95. Ey iman edənlər! Ehramlı olarkən (quruda) ov heyvanı öldürməyin. Kim (ehramlı ikən) onu qəsdən öldürərsə, (ona) bir cəza var. (Bu cəza) Kəbəyə çatdırılmaq məqsədilə öldürdüyünə bənzər, içinizdən iki ədalətli kimsənin münasib biləcəyi bir qurbanlıq heyvan və ya kəffarə olaraq yoxsulları yedirmək, yaxud ona müvafiq oruc tutmaqdır. (Bu) gördüyü işin pis nəticəsini dadması üçündür. Allah keçmişdəkiləri əfv etmişdir. Lakin kim bir daha belə edərsə, Allah ondan intiqam alar. Allah mütləq güc sahibidir, intiqam sahibidir.

96. Sizin üçün də, yolçular üçün də bir dolanışıq olaraq dəniz ovu etmək və dəniz

---

1 Üç cür and var: 1. Bilə-bilə yalandan and içmək. Bunun kəffarəsi yoxdur. Çünki bu böyük bir günahdır, kəffarə ilə təmizlənməz. Tövbə və istiğfar etmək lazımdır. 2. Səhvən and içmək. Bunun üçün bir şey etmək lazım deyil. 3. Bir şəxsin gələcəkdə bir şey edəcəyinə və ya etməyəcəyinə dair and içməsi. Bu and pozularsa, kəffarə lazım gələr. Ayə bu kəffarənin necə yerinə yetiriləcəyini açıqlayır.

2 Bu ayədə sərxoşluq verən hər cür içki və qumarın hər növü birmənalı olaraq haram buyurulmuşdur. Ayə nazil olduğu zaman bütün müsəlmanlar əllərində olan şərabları Mədinə küçələrinə töküb qablarını sındırmış, içki alışqanlıqlarını Qur`anın bu qəti əmri qarşısında tərəddüd etmədən hamılıqla tərk etmişdilər. Tərcümədə keçən "içki" sözü ayədəki "xamr" kəlməsinin qarşılığı olaraq işlədilmişdir. Burada xamr ağlın fəaliyyətini məhdudlaşdıran şey deməkdir. Bu xususiyyəti daşıyan bütün içki və narkotik vasitələr xamr olaraq qiymətləndirilir. Haram buyurulan qidalar ilə fal oxları üçün əlavə olaraq baxın: Maidə, 5/3.

məhsullarını yemək sizə halal buyuruldu. Quru ovu isə ehramlı olduğunuz müddətcə sizə haram buyuruldu. Hüzurunda toplanacağınız Allaha qarşı gəlməkdən çəkinin.

**97.** Allah Kəbəni – o hörmətli evi, haram ayı,[1] həcc qurbanını və (bu qurbanlara taxılmış) boyunbağıları insanlar(ın din və dünyaları) üçün dirilik (və canlanma) səbəbi etdi. Bunlar göylərdə və yerdə nə varsa hamısını Allahın bildiyini və Allahın (zatən) hər şeyi haqqı ilə bildiyini bilməyiniz üçündür.[2]

**98.** Bilin ki, Allahın cəzası çətindir və Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

**99.** Peyğəmbərin öhdəsinə düşən, ancaq təbliğdir. Allah sizin açıqladığınızı da, gizlədiyinizi də bilir.

**100.** (Ey Muhamməd!) De ki: "Pis ilə təmiz bir olmaz. Pisin çoxluğu xoşuna gəlsə belə". Ey ağıl sahibləri! Allaha qarşı gəlməkdən çəkinin ki, qurtuluşa nail olasınız.

**101.** Ey iman edənlər! Sizə açıqlandığı zaman sizi məyus edəcək şeylər haqqında sual soruşmayın.[3] Əgər Qur`an endirilərkən bunlar haqqında sual soruşsanız, sizə açıqlanar. (Halbuki) Allah onları bağışlamışdır. Allah çox bağışlayandır, həlimdir (dərhal cəzalandırmaz, möhlət verər).

**102.** Sizdən əvvəlki bir millət o cür şeylər soruşdu, sonra o səbəblə kafir oldu.

**103.** Allah nə "Bəhirə", nə "Saibə", nə "Vəsilə", nə də "Ham" deyə bir şey əmr etməmişdir. Lakin inkar edənlər Allaha qarşı yalan uydururlar. Onsuz da onların çoxu düşünməz.[4]

**104.** Onlara: "Allahın endirdiyinə (Qur`ana) və Peyğəmbərə gəlin", – deyildikdə onlar: "Atalarımızın etiqadı bizə yetər", – deyərlər. Bəs ataları bir şey bilmirsə və doğru yolu tapa bilməmiş kimsələr olsa necə (onların yoluna tabe olacaqlar)?

**105.** Ey iman edənlər! Siz özünüzü düzəldin. Siz doğru yolda olsanız, yolunu azmış

---

1 "Haram ay" ifadəsi ilə əlaqəli olaraq bu surənin ikinci ayəsinin istinadına baxın.

2 Bu ayədə Kəbə, haram ay və qurbanlar insanlar üçün maddi və mənəvi yüksəlişin səbəbləri olaraq göstərilir. Kəbə dünya müsəlmanları üçün əqidədəki tövhid ilə sosial tövhidin birlikdə yaşandığı mübarək bir məkandır. Həcc ayları da bütün müsəlmanların iman qardaşlığını, dostluq münasibətlərini gücləndirən bir mövsümdür. Bununla yanaşı kəsilən qurbanlar ehtiyacı olan kütlələrə yardım olaraq çatar. Ticarət yolu ilə iqtisadi güc əldə edilir. Hər kəs üçün eyni dəyərdə olan geyim bütün insanların bərabər olduğunun simvoludur. Ehram qadağaları sosial həyatda pisliklərdən uzaq durma alışqanlığı yaradır.

3 Bəzi kəslər həzrət Peyğəmbərdən "Həcc hər il fərzdir, yoxsa ömürdə bir dəfə?", "Mənim atam kimdir?", "Atam cənnətdədir, yoxsa cəhənnəmdə?" kimi suallar soruşmuşdu. Ayədə sual soruşan şəxsə lazım olmayan, etik qaydalara uyğun düşməyən bir cavab verildiyi zaman sual soruşanın məyus olmasına səbəb olacaq sualların soruşulmaması tövsiyə olunur.

4 "Bəhirə", "Saibə", "Vəsilə" və "Ham" bütpərəst ərəblərin ilahlarına qurban etdikləri və ya onlara xatir sərbəst buraxdıqları heyvanlara verilən adlardır. "Bəhirə" beşincisi erkək olmaqla beş qarın doğan və sağılmayıb, minilməyib, qulağı yarılaraq sərbəst buraxılan dəvə; "Saibə" bir kimsənin düşdüyü xəstəlikdən qurtulduğu təqdirdə "Bəhirə" etməyə nəzir etdiyi dəvə deməkdir. Ərəblər qoyun dişi doğarsa, balasını özlərinə saxlayar, erkək doğarsa, onu bütlərə qurban edərdilər. Quzular biri dişi biri erkək olmaqla əkiz doğulduğu təqdirdə dişinin hörmətinə erkəyi də qurban etməyib "Vəsilə" adı ilə sərbəst buraxardılar. "Ham" isə on nəsil dəvəni dölləndirən və belinə yük vurulmayın sərbəst buraxılan erkək dəvə deməkdir.

kimsə sizə zərər verə bilməz. Hamınızın qayıdışı Allahadır. O zaman Allah sizə etdiklərinizi xəbər verəcək.

**106.** Ey iman edənlər! Birinizin ölümü yaxınlaşdıqda vəsiyyət etdiyi zaman sizdən olan ədalətli iki nəfər aranızda şahidlik etsin. Yaxud səfərdə olarkən başınıza ölüm müsibəti gələrsə, sizdən olmayan başqa iki nəfər şahidlik edər. Əgər şübhə edərsinizsə, onları namazdan sonra tutub saxlayarsınız, onlar: "Qohum da olsa, şahidliyimizi heç bir şeylə dəyişmərik. Allah üçün etdiyimiz şahidliyi gizləmərik. Gizlədiyimiz təqdirdə şübhəsiz, günahkarlardan olarıq", – deyə Allaha and içərlər.

**107.** (Əgər sonradan) o iki şəxsin günaha girdikləri (yalan dedikləri) bəlli olarsa, o zaman bu ilk şahidlərin zərər verdiyi kimsələrdən olan başqa iki adam onların yerinə keçər və: "Allaha and içirik ki, bizim şahidliyimiz onların şahidliyindən, əlbəttə ki, daha doğrudur. Biz haqqı da tapdalamadıq. Çünki o təqdirdə biz, əlbəttə, zalımlardan olarıq", – deyə and içərlər.

**108.** Bu (üsul), şahidliyi layiqincə yerinə yetirmələri və andlarından sonra başqa andlara üz tutulacağından qorxmalarını təmin etmək üçün ən münasib çarədir. Allaha qarşı gəlməkdən çəkinin və eşidin. Allah fasiq qövmü doğru yola yönəltməz.

**109.** Allahın peyğəmbərləri toplayıb:[1] "Sizin dəvətinizə nə cavab verildi?" – deyəcəyi, onların da: "Bizim heç bir məlumatımız yoxdur. Qeybləri haqqı ilə bilən sənsən", – deyəcəkləri günü xatırlayın.

**110.** O gün Allah belə deyəcək: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi düşün. O zaman səni Ruhul-Qüds (Cəbrail) ilə dəstəkləmişdim. Beşikdə ikən də, yetkin ikən də insanlarla danışırdın.[2] Sənə kitabı, hikməti, Tövratı və İncili də öyrətmişdim.[3] İznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, mənim iznimlə dərhal bir quş olurdu.[4] Yenə mənim iznimlə anadangəlmə koru və cüzamlını sağaldırdın. Mənim iznimlə ölüləri də (həyata) çıxarırdın. Sən İsrail oğullarına açıq-aydın möcüzələr gətirdiyin zaman mən səni onlardan qurtarmışdım. Onlardan inkar edənlər: "Bu ancaq açıq-aşkar bir sehrdir", – demişdilər".

**111.** Bir də xatırla ki, havarilərə:[5] "Mənə və Peyğəmbərimə iman edin", – deyə ilham etmişdim. Onlar da: "İman etdik. Bizim müsəlman olduğumuza sən də şahid ol", – demişdilər.

**112.** Bir vaxt havarilər də: "Ey Məryəm oğlu İsa! Rəbbin bizə göydən bir süfrə endirə bilərmi?" – demişdilər. İsa da: "Əgər möminlərsinizsə, Allaha qarşı gəlməkdən çəkinin", – demişdi.

---

1 Allah-Təala hər peyğəmbəri öz ümməti haqqında dindirəcək, şahid olaraq dinləyəcək. Ümmətlərin peyğəmbərlərə bəslədiyi münasibət onlara göstəriləcək. Peyğəmbərlərinə bağlı qalanlar sevinəcək, onları xor görənlər və ya ilahlaşdıranlar hesaba çəkiləcək. Bu ayələrdə peyğəmbərlər arasında ifrata və təfritə ən çox hədəf olan həzrət İsa bir nümunə olaraq qeyd olunur.

2 Həzrət İsanın beşikdə ikən danışması ilə əlaqəli olaraq baxın: Ali-İmran, 3/ 46; Məryəm, 19/29-33.

3 "Kitab" yazı və ya bütün ilahi kitablar, "hikmət" kitablardakı elm, din və dünya üçün ehtiyac duyulan şey deməkdir.

4 Mövzu ilə əlaqəli olaraq baxın: Ali-İmran, 3/48-49.

5 Həvarilər həzrət İsanı görmüş, ona iman etmiş və sədaqətlə kömək etmiş kimsələrdir.

113. Onlar: “İstəyirik ki, ondan yeyək, qəlblərimiz sakitlik tapsın. Sənin bizə doğru söylədiyini bilək və ona (gözü ilə) şahidlik edənlərdən olaq”, – demişdilər.

114. Məryəm oğlu İsa: “Ey Allahım! Ey Rəbbimiz! Bizə göydən bir süfrə endir ki, əvvəl gələnlərimizə (zamanımızdakı dindaşlarımıza) və sonradan gələnlərimizə bir bayram və səndən (gələn) bir möcüzə olsun. Bizi ruziləndir. Sən ruzi verənlərin ən xeyirlisisən”, – dedi.

115. Allah isə: “Mən onu sizə endirəcəyəm. Ancaq ondan sonra sizdən kim inkar edərsə, artıq mən ona kainatda heç kimə verməyəcəyim əzabı verərəm”, – demişdi.

116. Allah qiyamət günü belə deyəcək: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Allahı buraxıb məni və anamı iki ilah olaraq qəbul edin”, – demisən? İsa isə belə deyəcək: “Səni bütün nöqsanlardan uzaq tuturam. Olası bir şey deyil ki, haqqım olmayan bir şeyi söyləyim. Əgər mən onu söyləmiş olsaydım, əlbəttə, sən onu bilərdin. Sən mənim içimdə olanı bilirsən, amma mən səndə olanı bilə bilmərəm. Şübhəsiz ki, yalnız sən qeybləri haqqı ilə bilənsən”.

117. “Mən onlara ancaq mənə əmr etdiyin şeyi söylədim: Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha qulluq edin (dedim). Aralarında olduğum müddətcə onlara şahid (və nümunə) idim. Ancaq məni aralarından aldığın zaman artıq onlar üzərində nəzarətçi yalnız sən oldun. Sən hər şeyə haqqı ilə şahidsən”.

118. “Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, mütləq güc sahibisən, hökm və hikmət sahibisən”.

119. Allah belə deyəcək: “Bu gün sadiqlərə sədaqətlərinin fayda verəcəyi gündür”. Onlara içindən çaylar axan, içində əbədi qalacaqları cənnətlər var. Allah onlardan razı olmuş, onlar da Allahdan razı olmuşlar. Bax bu, böyük uğurdur.

120. Göylərin, yerin və bunlardakı hər şeyin hökmranlığı yalnız Allahındır. O, hər şeyə haqqı ilə gücü yetəndir.

# 6. ƏN`AM SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. Mötəbər görüşə görə 91, 92, 93, 151, 152 və 153-cü ayələr Mədinədə nazil olmuşdur. 165 ayədən ibarətdir. Surənin adı 136, 138 və 139-cu ayələrdə keçən “əl-Ən`am” kəlməsindən götürülmüşdür. Ən`am qoyun, keçi, dəvə və inək cinsindən olan ev heyvanları mənasına gələn bir kəlmədir. Surənin mövzusunu başlıca olaraq tövhid, ədalət, peyğəmbərlik və axirətlə bağlı məsələlər, həmçinin küfrün və batil inancların rəddi və bəzi əxlaq qaydaları təşkil edir.

*Bismilləhir-Rahmənir-Rahim.*

1. Həmd göyləri və yeri yaradan, qaranlığı və aydınlığı var edən Allaha məxsusdur. Belə olduğu halda inkar edənlər başqa şeyləri Rəblərinə tay tuturlar.

2. O elə bir Rəbdir ki, sizi palçıqdan yaratmış, sonra (hər birinizə) bir əcəl təyin et-

mişdir. (Qiyamətin qopması üçün) müəyyən edilmiş bir əcəl də Onun qatındadır. Siz isə hələ də şübhə edirsiniz.

3. Halbuki O, göylərdə də Allahdır, yerdə də. Sizin gizlinizi də bilir, aşkara vurduğunuzu da. Sizin nə qazanacağınızı da bilir.

4. Onlara Rəblərinin ayələrindən elə bir ayə gəlməz ki, ondan üz çevirməsinlər.

5. Haqq (Qur`an) onlara gəldiyi zaman onu yalan saydılar. Lakin istehza etdikləri şeyin xəbərləri onlara gələcəkdir.[1]

6. Onlardan əvvəl neçə-neçə nəsilləri həlak etdiyimizi görmədilərmi? Yer üzündə sizə vermədiyimiz imkan və iqtidarı onlara vermişdik. Onlara bol-bol yağmur yağdırmışdıq. Torpaqlarından çaylar axıtmışdıq. Sonra da günahları səbəbi ilə onları həlak etdik və onlardan sonra başqa bir nəsil var etdik.

7. (Ey Muhamməd!) Əgər sənə kağıza yazılı bir kitab endirsəydik, onlar da əllərilə ona toxunsaydılar, yenə o inkar edənlər: "Bu açıq-aşkar bir sehrdən başqa bir şey deyil", – deyəcəkdilər.

8. Bir də dedilər ki: "Yaxşı olardı ki, Ona (gözlə görəcəyimiz) bir mələk endiriləydi". Əgər (elə) bir mələk endirsəydik, artıq iş bitmiş olardı, sonra onlara möhlət verilməzdi. (Dərhal həlak edilərdilər.)

9. Əgər onu (Peyğəmbəri) bir mələk etsəydik, yenə onu bir kişi (surətində) edərdik[2] və onları yenə içinə düşdükləri çaşqınlığa salardıq.[3]

10. (Ey Muhamməd!) And olsun, səndən əvvəl də bir çox peyğəmbər məsxərəyə qoyulmuşdu. Onları məsxərəyə qoyanları məsxərəyə qoyduqları şey bürüyüb məhv etmişdi.

11. De ki: "Yer üzündə gəzib dolaşın ki, (peyğəmbərləri) yalançı sayanların sonu necə olmuşdur, bir görün".

12. De ki: "Bu göydəkilər və yerdəkilər kimindir?" "Allahındır", – de. O, mərhəmət etməyi özünə vacib etdi. And olsun, sizi mütləq qiyamət günü toplayacaq. Bunda heç şübhə yoxdur. Özlərini ziyana salanlar ki var, onlar inanmazlar.

13. Gecə və gündüzdə qərar tutan hər şey Onundur. O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

14. De ki: "Göylərin və yerin yaradıcısı olan, bəslədiyi halda bəslənməyə ehtiyacı olmayan Allahdan başqasınımı dost tutum?" De ki: "Mənə (Allaha) təslim olanların ilki olmağım əmr edildi və Allaha şərik qoşanlardan olma (deyildi)".

---

1 Hicrətdən sonra İslamın dövlət olması, Bədr zəfəri, fəthlər və İslamın yayılması o gün üçün xəyala belə sığmır, İslam dini məsxərəyə qoyulurdu. Ayə əvvəlcədən bu tarixi hadisələrin xəbərini verir, İslam dininə istehza ilə baxanların axirətdə gözləmədikləri şəkildə qarşılarına çıxacaq əzaba da işarə edir.

2 Müşriklər mələkləri qadın surətində xəyal edib inanırdılar. Bu inancın yanlış olduğunu vurğulamaq üçün onlara mələk göndərilsə belə onun qadın surətində olmayacağı ifadə edilmişdir. (Baxın: Zuxruf, 43/19.)

3 Kafirlərin israrla istədikləri kimi peyğəmbər bir mələk olsaydı, o mələk bir insan surətində gələcəkdi. Çünki insanların mələyi əsl surətində görməsi mümkün deyil. Bu dəfə də onların şübhələri və çaşqınlıqları eynilə təkrarlanmış olacaqdı. Çünki peyğəmbərə dedikləri kimi ona da: "Sən də bizim kimi bir bəşərsən, mələk ola bilməzsən", – deyəcəkdilər.

**15.** De ki: "Mən Rəbbimə üsyan etsəm, həqiqətən, böyük bir günün (qiyamət gününün) əzabından qorxaram".

**16.** (O günün əzabı) kimdən yan keçərsə, həqiqətən, (Allah) ona rəhm etmişdir. Bu, açıq-aydın qurtuluşdur.

**17.** Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kim sovuşdura bilməz. Əgər sənə bir xeyir yetirsə, onu da heç kim sovuşdura bilməz. Bil ki, O, hər şeyə haqqı ilə gücü yetəndir.

**18.** O, qulları üzərində mütləq hakimiyyət sahibidir. O, hökm və hikmət sahibidir, (hər şeydən) haqqı ilə xəbərdardır.

**19.** De ki: "Şahidlik baxımından hansı şey daha böyükdür?" De ki: "Allah mənimlə sizin aranızda şahiddir.[1] Bu Qur`an onunla sizi və (onun) çatdığı hər kəsi xəbərdar edim deyə mənə vəhy olundu. Həqiqətən, sizmi Allah ilə bərabər başqa ilahlar olduğuna şahidlik edirsiniz?" De ki: "Mən şahidlik etmərəm". De ki: "O, ancaq bir tək ilahdır və şübhəsiz, mən sizin Allaha şərik qoşduğunuz şeylərdən uzağam".

**20.** Kitab əhli onu (Peyğəmbəri) öz oğullarını tanıdıqları kimi tanıyırlar.[2] Özlərini ziyana salanlar ki var, onlar inanmazlar.

**21.** Kim Allaha qarşı yalan uydurandan ya da Onun ayələrini yalan sayanlardan daha zalımdır? Şübhəsiz ki, zalımlar qurtula bilməzlər.

**22.** Onları toplu olaraq (məhşərə) toplayıb Allaha şərik qoşanlara: "İlah olduqlarını iddia etdiyiniz şərikləriniz hanı?" – deyəcəyimiz günü xatırla.

**23.** Sonda onların edəcəkləri şey "Rəbbimiz Allaha and olsun ki, biz (Ona) şərik qoşanlardan deyildik" – deməkdən başqa bir şey olmayacaq.

**24.** Bax gör özlərinə necə yalan söylədilər və iftira etdikləri şeylər (qondarma ilahları) onları necə də darda qoyub yox oldu?

**25.** Onların arasında (Qur`an oxuyarkən) səni dinləyənlər də var. Onu anlamamaları üçün qəlbləri üzərinə pərdələr (çəkərik), qulaqlarına ağırlıq qoyarıq.[3] Hər cür möcüzəni görsələr də onlara inanmazlar. Hətta mübahisə etmək üçün sənin yanına gəldikləri zaman inkar edənlər: "Bu (Qur`an) əvvəlkilərin nağıllarından başqa bir şey deyil", – deyərlər.

**26.** Onlar başqalarını ondan (Qur`andan) yayındırırlar, həm də özləri ondan uzaq dururlar. Onlar fərqinə varmadan ancaq özlərini həlak edirlər.

**27.** Cəhənnəm odunun qarşısında dayandırılıb: "Ah, kaş ki, dünyaya qaytarılaydıq, Rəbbimizin ayələrini yalan saymayaydıq və möminlərdən olaydıq", – dedikləri zaman sən bir (onların halını) görəydin!

**28.** Xeyr, (onların bu heyifsilənmələri) daha əvvəl gizlədikləri şeylər onlara göründü(-

1 Qüreyşlilər: "Ey Muhamməd! Yəhudilərdən və xristianlardan sənin haqqında soruşduq, peyğəmbərliyinə dair bir xəbər olmadığını dedilər. Bizə sənin peyğəmbər olduğuna dair bir şahid göstər", – demişdilər və bununla bağlı bu ayə nazil oluşdu.

2 Çünki Tövratda və İncildə Rəsulullah haqqında məlumatlar var. (Baxın: Bəqərə, 2/146.)

3 Mövzu ilə əlaqəli olaraq baxın: İsra, 17/46.

yü üçündür).[1] Əgər geri qaytarılsaydılar, əlbəttə, onlara qadağan olunan şeylərə yenə qayıdacaqdılar. Şübhəsiz, onlar yalançıdırlar.

29. Deyərdilər ki: "Həyat elə dünya həyatımızdır. Artıq biz bir daha dirildilmərik".

30. Rəblərinin hüzurunda dayandırıldıqları zaman sən (onların halını) bir görəydin! (Allah) deyəcək ki: "Bu (dirilmək) haqq deyilmi?" Onlar: "Bəli, Rəbbimizə and olsun ki, haqq imiş", – deyəcəklər. (Allah:) "Elə isə inkar etdiyiniz üçün dadın əzabı!" – deyəcək.

31. Allahın hüzuruna çıxmağı yalan sayanlar, həqiqətən, ziyana uğramışdır. Nəhayət, onlara qəflətən o saat (qiyamət) yetişdiyi zaman bütün günahlarını bellərinə yüklənərək: "Dünyada etdiyimiz qüsurlara görə vay halımıza!" – deyəcəklər. Diqqət edin, yükləndikləri günah yükü nə pisdir!

32. Dünya həyatı ancaq bir oyun və əyləncədir. Əlbəttə ki, axirət yurdu Allaha qarşı gəlməkdən çəkinənlər üçün daha xeyirlidir. Hələ də ağlınızı işlətməyəcəksinizmi?

33. Ey Muhamməd! Biz çox yaxşı bilirik ki, söylədikləri, əlbəttə, səni incidir. Onlar əslində səni yalançı saymırlar. Ancaq o zalımlar Allahın ayələrini inadla inkar edirlər.

34. And olsun ki, səndən əvvəl də bir çox peyğəmbər təkzib olunmuşdu. Onlar təkzib olunmalarına və əziyyətə məruz qalmalarına qarşı səbir etmiş və nəhayət, onlara yardımımız yetişmişdi. Allahın kəlmələrini dəyişdirə biləcək bir güc də yoxdur.[2] And olsun, peyğəmbərlərlə bağlı xəbərlərin bir qismi sənə gəlib çatmışdır.

35. Əgər onların üz çevirmələri sənə ağır gəldisə, bir lağım açıb yerin dibinə enərək, yaxud bir nərdivan qurub göyə çıxaraq onlara bir möcüzə gətirməyə gücün çatırsa, dayanma, et! Əgər Allah istəsəydi, əlbəttə, onları hidayət yolunda toplayardı. O halda əsla cahillərdən olma.

36. (Dəvəti) ancaq (bütün qəlbi ilə) qulaq asanlar qəbul edər. (Qəlbən) ölüləri isə (yalnız) Allah dirildər. Sonra da hamısı Ona qaytarılar.

37. Dedilər ki: "Yaxşı olardı ki, ona Rəbbindən bir möcüzə endiriləydi". (Ey Muhamməd!) De ki: "Şübhəsiz, Allahın bir möcüzə endirməyə gücü yetər. Lakin onların çoxu bilmir".

38. Yer üzündə gəzən hər növ canlı və (göydə) iki qanadı ilə uçaq hər növ quş, hər biri sizin kimi bir ümmətdən başqa bir şey deyil. Biz Kitabda heç bir şeyi əskik qoymadıq. Sonda hamısı toplanıb Rəblərinin hüzuruna gətiriləcəklər.

---

1 Gizlədikləri və cəhənnəmə girəcəkləri əsnada meydana çıxacağı bildirilən şeylərin nələr olduğu haqqında təfsir alimləri müxtəlif fikirlər bildirmişlər. Bir fikrə görə bunlar dünyada olarkən ürəklərində saxladıqları inkar və təkzib meylinin meydana çıxmasıdır.

Bir fikrə görə bunlar özlərinə tabe olanlara Peyğəmbərin xəbər verdiyi şeylərin həqiqət olmadığını təlqin etmələrinə rəğmən əslində bunların doğru olduğuna inandıqlarının meydana çıxmasıdır.

Başqa bir fikrə görə isə bunlar inanmış kimi görünən Məkkə dövrü münafiqlərinin qəlblərində saxladıqları küfr və inadkarlığın meydana çıxmasıdır.

2 Mövzu ilə əlaqəli olaraq baxın: Saffat, 37/171-173.

39. Ayələrimizi yalan sayanlar qaranlıqlar içindəki bəzi karlar və lallardır. Allah kimi istəsə, zəlalətə düçar edər.[1] Kimi də istəsə, doğru yola yönəldər.

40. (Ey Muhamməd!) De ki: "Deyin görək, sizə Allahın əzabı gəlsə və ya sizə qiyamət saatı yetişsə, (belə bir halda) siz Allahdan başqasınımı çağırarsınız? Əgər (bütlərin sizə fayda verdiyi ilə bağlı iddianızda) doğru söyləyənlərsinizsə, (o halda onları köməyə çağırın)".

41. "Xeyr! (Bu vəziyyətdə) yalnız Ona dua edərsiniz, O da istərsə, (qurtulmaq üçün) dua etdiyiniz sıxıntını aradan qaldırar və siz o an Allaha şərik qoşduqlarınızı unudarsınız".

42. And olsun, səndən əvvəl bəzi ümmətlərə də peyğəmbərlər göndərdik. (Peyğəmbərlərinə qulaq asmadılar.) Sonda yalvarsınlar, tövbə etsinlər deyə onları şiddətli yoxsulluq və məhrumiyyətə düçar etdik.

43. Heç olmasa onlara əzabımız gəldiyi zaman yalvarıb tövbə edəydilər. Lakin (onu etmədilər) qəlbləri qatılaşdı. Şeytan da etdiklərini onlara süslü göstərmişdi.

44. Belə olduqda onlar özlərinə xatırladılanı unutduqları zaman (əvvəlcə) hər şeyin qapılarını onların üzərinə açdıq. Sonra onlara verilənə sevindikləri zaman onları qəfil yaxaladıq, bir anda bütün ümidlərini itirib pərişan oldular.

45. Beləliklə, zülm edən o qövmün kökü kəsildi. Həmd aləmlərin Rəbbi Allaha məxsusdur.

46. De ki: "Deyin görüm, əgər Allah sizin qulaqlarınızı və gözlərinizi (əlinizdən) alarsa, qəlblərinizi də möhürləsə, Allahdan başqa onu sizə (geri) gətirəcək ilah kimdir?" Bax, biz ayələri necə müxtəlif yollarla açıqlayırıq, sonra onlar necə üz döndərirlər?

47. De ki: "Deyin görüm, Allahın əzabı sizə qəflətən və ya aşkar gəlsə, zalımlar qövmündən başqasımı həlak ediləcək?"

48. Biz peyğəmbərləri ancaq müjdə verənlər və xəbərdar edənlər olaraq göndəririk. Kim iman edər və özünü düzəldərsə, onlara qorxu yoxdur. Onlar məhzun da olmayacaqlar.

49. Ayələrimizi yalan sayanlara isə etdikləri fasiqlik səbəbi ilə əzab toxunacaq.

50. De ki: "Mən sizə "Allahın xəzinələri mənim yanımdadır", – demirəm. Mən qeybi də bilmirəm. Sizə "Mən bir mələyəm" də demirəm. Mən yalnız mənə göndərilən vəhyə tabe oluram". De ki: "Görməyənlə görən bir olarmı? Siz heç düşünməzsinizmi?"

51. Özləri üçün Allahdan başqa nə bir dost, nə də bir şəfaətçi olmadan Rəblərinin hüzurunda toplanmaqdan qorxanları Allaha qarşı gəlməkdən çəkinsinlər deyə onunla (Qur`an ilə) xəbərdar et.

52. Rəblərinin rizasını istəyərək səhər-axşam Ona dua edənləri yanından qovma. On-

1 İnsan Allahı tanımağa, iman və İslamı qəbul etməyə münasib bir fitrətlə yaradılmışdır. İnsan bu fitrətə uymazsa; onu pozarsa, küfrə və azğınlığa meyl edərsə, Allah da onu yoldan azdırar.

ların hesabından sənə bir şey yoxdur, sənin hesabından da onlara bir şey yoxdur ki, onları qovasan. Əgər qovsan, zalımlardan olarsan.[1]

**53.** Beləliklə, insanların bəzisini bəzisi ilə sınadıq ki, "Allah aramızdan bu adamlarımı iman nemətinə layiq gördü?" – desinlər. Allah şükür edən qullarını daha yaxşı bilən deyilmi?

**54.** Ayələrimizə iman edənlər sənin yanına gəldikləri zaman de ki: "Salam olsun sizə! Rəbbiniz öz üzərinə rəhməti (mərhəməti) yazdı. Belə ki, sizdən kim cahilliklə qəbahət bir iş görər, sonra ardından tövbə edər, özünü düzəldərsə, (bilin ki,) O, çox bağışlayandır, çox mərhəmət edəndir".

**55.** Günahkarların yolu açıq-aydın bəlli olsun deyə ayələri belə ayrı-ayrı açıqlayırıq.

**56.** De ki: "Sizin Allahdan başqa ibadət etdiyiniz şeylərə ibadət etməyim mənə qəti olaraq qadağan edildi. Mən sizin arzularınıza tabe olmaram. (Tabe olsam,) o təqdirdə azmış olaram, hidayət tapmışlardan olmaram".

**57.** De ki: "Şübhəsiz, mən Rəbbimdən (gələn) qəti bir dəlilə sahibəm. Siz isə onu təkzib etdiniz. Sizin tez bir zamanda gəlməsini istədiyiniz əzab mənim əlimdə deyil. Hökm yalnız Allaha aiddir. O, haqqı danışır. O, haqqı batildən ayırd edənlərin ən xeyirlisidir".

**58.** De ki: "Sizin tez bir zamanda gəlməsini istədiyiniz əzab mənim əlimdə olsaydı, mənimlə sizin aranızda iş, əlbəttə, bitmiş olardı". Allah zalımları daha yaxşı bilən-dir.[2]

**59.** Qeybin açarları yalnız Onun qatındadır. Onları ancaq O bilir. Quruda və dənizdə olanı da bilir. Heç bir yarpaq düşməz ki, O, onu bilməsin. Yerin qaranlıqları içərisində də heç bir toxum, heç bir yaş, heç bir quru şey yoxdur ki, açıq-aydın kitabda (Allahın elmi daxilində, Lövhi-məhfuzda) olmasın.

**60.** O, gecə vaxtı sizi ölü kimi yuxuya daldıran və gündüz vaxtı qazandıqlarınızı bilən, sonra da müəyyən edilmiş əcəliniz tamamlanıncaya qədər gündüzləri sizi təkrar dirildəndir (oyandırandır). Sonra qayıdışınız yalnız Onadır. Sonra O, etdiklərinizi sizə xəbər verəcək.

**61.** O, qulları üzərində mütləq hakimiyyət sahibidir. Üzərinizə də qoruyucu mələklər göndərir.[3] Nəhayət, birinizə ölüm yetişdiyi vaxt (vəzifələndirilmiş) elçilərimiz onun canını alar və onlar vəzifələrində qətiyyən nöqsana yer verməzlər.

---

1 Qüreyşin böyükləri həzrət Peyğəmbərə: "Kasıb müsəlmanları yanından qovsan, gəlib səninlə oturarıq", – dedilər. Həzrət Peyğəmbər də: "Mən möminləri qova bilmərəm", – buyurdu. Onlar: "Barı biz sənin yanına gəldiyimiz zaman onlar durub getsinlər, biz çıxdıqdan sonra gəlsinlər. Çünki biz onlarla oturmağı qürurumuza sığışdıra bilmirik", – dedilər. Rəsulullah da bu sayədə həmin şəxslərin müsəlman ola biləcəyini düşünərək təklifi qəbul etmək istədikdə bu ayə nazil oldu.

2 Həzrət Peyğəmbərə qarşı çıxanlar: "Səni rədd edirik, inkar edirik, amma bizə heç nə olmur. Həqiqətən, peyğəmbər olsaydın, başımıza daş yağardı. Dərhal belə bir əzab gəlsin, görək", – deyirdilər. İslamın elm və ağıl yolu ilə özünü qəbul etdirməyi əsas prinsip olaraq götürdüyünü, zorbalığa əsaslanmadığını bilmirdilər. Onsuz da belə bir əzabı istəmək Peyğəmbərin aləmlərə rəhmət olması ilə uzlaşmazdı.

3 Qoruyucu mələklər insanların pis və ya yaxşı bütün əməllərini qeyd edən mələklərdir. Mövzu ilə əlaqəli olaraq baxın: İnfitar, 82/10.

62. Sonra hamısı gerçək sahibləri olan Allaha qaytarılar. Yaxşı bilin ki, hökm yalnız Onundur. O, ən sürətli hesaba çəkəndir.

63. De ki: "Siz aşkara və gizlin Ona, "Əgər bizi bundan qurtararsa, əlbəttə, şükür edənlərdən olacağıq", – deyə dua edərkən sizi qurunun və dənizin qaranlıqlarından (təhlükələrindən) kim xilas edir?"

64. De ki: "Onlardan və hər cür sıxıntıdan sizi Allah qurtarar. Amma siz yenə də Ona şərik qoşursunuz".

65. De ki: "O sizə üstünüzdən (göydən) və ya ayaqlarınızın altından (yerdən) bir əzab göndərməyə ya da sizi firqələrə ayırmağa və bir qisminizə digərlərinizin zorunu daddırmağa qadirdir". Bax, anlasınlar deyə ayələri müxtəlif yollarla necə açıqlayırıq?

66. O (Qur`an) haqq olduğu halda qövmün onu yalan saydı. De ki: "Mən sizə vəkil (sizdən məsul) deyiləm".[1]

67. Hər xəbərin gerçəkləşəcəyi bir zaman var, mütləq biləcəksiniz.

68. Ayələrimiz haqqında dedi-qoduya dalanları gördüyün zaman başqa bir söhbətə dalıncaya qədər onlardan üz çevir, uzaqlaş. Əgər şeytan sənə unutdurarsa, xatırladıqdan sonra (qalx), o zalımlar dəstəsi ilə birlikdə oturma.[2]

69. Allaha qarşı gəlməkdən çəkinənlərə onların hesabından bir şey (cavabdehlik) yoxdur. Lakin onların üzərinə düşən bir xatırlatmadır. Bəlkə çəkinələr.

70. Dinlərini oyun və əyləncə yerinə qoyanları və dünya həyatının aldatdığı kimsələri burax. Heç bir kəsin qazandığı ucbatından məhrumiyyətə sürüklənməməsi üçün Qur`an ilə öyüd ver. Yoxsa ona Allahdan başqa nə bir dost var, nə də bir şəfaətçi. (Qurtuluşu üçün) hər cür fidyə versə də, bu, ondan qəbul olunmaz. Onlar qazandıqları ucbatından həlaka sürüklənmiş kimsələrdir. Küfrə batıb qalmaları səbəbi ilə onlara qaynar bir içki və ağrılı-acılı bir əzab var.

71. De ki: "Allahı qoyub bizə faydası olmayan, zərəri də toxunmayan şeylərəmi tapınaq? Allah bizi hidayətə qovuşdurduqdan sonra (şirkə) gerimi döndərilək? Dostları: "Bizə tərəf gəl", – deyə doğru yola çağırdıqları halda yer üzündə sərgərdan dolaşıb şeytanların aldatdığı kimsə kimimi (olaq)?" De ki: "Heç şübhəsiz, əsl doğru yol Allahın yoludur. Bizə aləmlərin Rəbbinə boyun əymək əmr olundu".

72. Bir də bizə: "Namazı düzgün qılın və Allaha qarşı gəlməkdən çəkinin", – deyə əmr olundu. O, hüzurunda toplanacağınız Allahdır.

73. O, göyləri və yeri haqq və hikmətlə yaradandır. Xatırla o günü ki, Allah "ol" deyər, hər şey dərhal olar. Onun sözü haqdır. Sura[3] üfürüldüyü gün də mülk (hökmranlıq) Onundur. Qeybi də, şəhadət aləmini də biləndir. O, hökm və hikmət sahibidir, (hər şeydən) haqqı ilə xəbərdardır.

---

1 Ayədə bu mesaj verilir: "Mən sizi təsdiq etməyə məcbur etmərəm, inkar etməyinizə mane olmaram, sizi Allah adına cəzalandırmaram və ya əzab gəldiyi zaman onun qarşısını almaram, sizi ondan qorumaram. Mən olanları və olacaqları Allahın mənə vəhy etdiyi şəkildə xəbər verirəm".

2 Mövzu ilə əlaqəli olaraq baxın: Nisa, 4/140.

3 Sur üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bilinməyən bir növ boru deməkdir.

74. Bir vaxt İbrahim atası Azərə: “Sən bütləri ilahmı tutursan? Şübhəsiz, mən səni də, qövmünü də açıq-aşkar bir azğınlıq içində görürəm”, – dedi.

75. Beləliklə, İbrahimə göylərdəki və yerdəki hökmranlığı və nizamı[1] göstərirdik ki, mütləq elmə çatanlardan olsun.

76. Üzərinə gecənin qaranlığı çökdüyü zaman bir ulduz gördü. “Budur Rəbbim!” – dedi. Yalnız batdığı zaman isə: “Mən belə batanları sevmərəm”, – dedi.

77. Doğduğu zaman Ayı gördükdə isə: “Budur Rəbbim!” – dedi. Ay da batdıqda: “And olsun ki, Rəbbim mənə doğru yolu göstərməzsə, mütləq mən də yolunu azanlardan olaram”, – dedi.

78. Günəşi doğarkən gördükdə isə: “Budur mənim Rəbbim! Bu daha böyükdür”, – dedi. O da batdığı zaman (qövmünə üz tutub): “Ey qövmüm! Mən sizin Allaha şərik qoşduğunuz şeylərdən uzağam”, – dedi.

79. “Mən haqqa yönələn biri olaraq üzümü göyləri və yeri yaradana döndərdim. Mən Allaha şərik qoşanlardan deyiləm”.

80. Qövmü onunla mübahisəyə girdi. Dedi ki: “Məni doğru yola yönəltmişkən Allah haqqında mənimlə mübahisə etmək fikrindəsiniz? Mən sizin Ona şərik qoşduqlarınızdan qorxmuram. Ancaq Rəbbimin bir şey diləməsi istisnadır. Rəbbimin elmi hər şeyi əhatə etmişdir. Hələ də düşünüb öyüd götürməyəcəksinizmi?”

81. “Allahın, haqqında sizə heç bir dəlil endirmədiyi şeyləri Ona şərik qoşmaqdan qorxmursunuz, sizin şərik qoşduğunuz şeylərdən mən nə üçün qorxum? Elə isə iki tərəfdən hansı əmin olmağa daha layiqdir? Əgər bilirsinizsə, deyin”.

82. İman edib imanlarına zülmü (şirki) qarışdırmayanlar ki var, əmin olmaq məhz onların haqqıdır. Doğru yolu tapanlar da onlardır.

83. (Bax) bunlar qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimiz(dir)... Biz dilədiyimiz kimsənin dərəcələrini yüksəldərik. Şübhəsiz ki, Rəbbin hökm və hikmət sahibidir, haqqı ilə biləndir.

84. Biz ona İshaqı və Yaqubu ərməğan etdik. Hamısını hidayətə çatdırdıq. Daha əvvəl Nuhu da hidayətə çatdırmışdıq. Zürriyyətindən Davudu, Süleymanı, Əyyubu, Yusufu, Musanı və Harunu da. Yaxşılıq edənləri belə mükafatlandırırıq.

85. Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası doğru yola yönəltmişdik. Bunların hamısı salehlərdən idi.

86. İsmaili, Əlyəsəni, Yunusu və Lutu da doğru yola yönəltmişdik. Hər birini aləmlərdən üstün tutmuşduq.[2]

1 Məaldakı “hökmranlıq və nizam” ifadəsi ayədəki “mələkut” kəlməsinin qarşılığıdır. Mələkut Allaha xas hökmranlıq deməkdir. “Mələkutu göstərmək” isə Uca Allahın kainatda qoyduğu hiss edilə bilən və ya hiss edilə bilməyən möhtəşəm nizamı və təbiət qanunlarını araşdırıb anlaya biləcək, incəliklərini qavraya biləcək qabiliyyətin verilməsidir.

2 Həzrət Lut İsrail-İordaniya sərhədi boyunca uzanan Duz gölünün (Ölü dəniz) yaxınlarında yaşamış bir xalqa peyğəmbər olaraq göndərilmişdir. İbrahim (ə.s) ilə eyni dövrdə yaşamışdır. Lut qövmü Tövratda Sodom adlandırılan şəhərdə yaşayırdı. Bu qövm eşcinsəllik başda olmaqla hər cür əxlaqsızlıqla məşğul olurdu. Lutun (ə.s.) qövmünü əqxlaqsızlıqdan qurtarıb hidayətə çatdırmaq üçün apardığı mübarizə Ənkəbut surəsinin 28-35-ci və Qəmər surəsinin 33-39-cu ayələrində ifadə edilir.

87. Atalarından, övladlarından və qardaşlarından bir qismini də... Bütün bunları seçdik və bunları doğru bir yola yönəltdik.

88. Bu, Allahın hidayətidir ki, qullarından istədiyini buna yönəldər. Əgər onlar da Allaha şərik qoşsaydılar, bütün etdikləri boşa gedərdi.

89. Onlar kitab, hikmət və peyğəmbərlik verdiyimiz kimsələrdir. Əgər onlar (inanmayanlar) bunları tanımayıb inkar edirlərsə, (bilsinlər ki,) biz onları inkar etməyəcək bir qövmü onlara vəkil təyin etmişik.[1]

90. O peyğəmbərlər Allahın doğru yola yönəltdiyi kimsələrdir. (Ey Muhamməd!) Sən də onların tutduğu yola tabe ol. De ki: "Bu təbliğin müqabilində sizdən bir şey istəmirəm. O, (Qur`an) bütün aləmlər üçün yalnızca bir xəbərdarlıqdır".

91. Allahın qədrini layiqincə bilmədilər.[2] Çünki: "Allah heç kimə heç bir şey endirmədi", – dedilər.[3] De ki: "Musanın insanlara bir nur və hidayət olaraq gətirdiyi, parça-parça kağızlar halına salıb ortaya çıxardığınız, bir çoxunu isə gizlədiyiniz, (onunla) sizin də, atalarınızın da bilmədiyi şeylərin sizə öyrədildiyi Kitabı kim endirdi?" (Ey Muhamməd!) "Allah" (endirdi) de, sonra onları burax, içinə düşdükləri bataqlıqda oynaya-oynaya qalsınlar.

92. Bu (Qur`an) da bərəkət qaynağı, özündən əvvəlkiləri (ilahi kitabları) təsdiq edən və şəhərlər anasını (Məkkəni) və bütün ətrafını (bütün insanları) xəbərdar edəsən deyə endirdiyimiz bir kitabdır.[4] Axirətə iman edənlər ona da inanırlar. Onlar namazlarını vaxtı-vaxtında qılarlar.

93. Allaha qarşı yalan uyduran və ya özünə bir şey vəhy edilmədiyi halda: "Mənə vəhy olundu" deyən, ya da: "Allahın endirdiyinin bənzərini mən də endirəcəyəm"[5] deyən kimsədən daha zalım kim ola bilər? Zalımların şiddətli ölüm sancıları içində çırpındığı, mələklərin əllərini uzadaraq: "İndi canlarınızı qurtarın! Allaha qarşı doğru olmayanı söylədiyiniz və Onun ayələrindən kibrlənərək üz döndərdiyiniz üçün bu gün alçaldıcı bir əzab ilə cəzalandırılacaqsınız", – deyəcəkləri zaman onların hallarını bir görəydin!

94. And olsun, sizi ilk dəfə yaratdığımız kimi tək-tək bizim hüzurumuza gəldiniz. Sizə verdiyimiz dünyəvi nemətləri də arxanızda qoydunuz. Sizə görə Allahın şərikləri olduğunu zənn etdiyiniz şəfaətçilərinizi də yanınızda görmürük? Artıq aranızdakı bağlar tamamilə qopmuş və (Allahın şəriki olduqlarını) iddia etdikləriniz sizi darda qoyub qeyb olmuşlar.

---

1 Yəni ilahi kitablara, onların hökmlərinə və peyğəmbərlərin dəvətinə uyacaq möminlər olacaqlar.

2 Yəni Allahı onun şəninə yaraşan şəkildə tanımadılar, bilmədilər.

3 Yəhudilər Peyğəmbəri və ona endirilən Qur`anı inkar etmək üçün göstərdikləri inadkarlıq ucbatından öz peyğəmbərlərini və kitablarını inkar edəcək nöqtəyə gəlib çatmışdılar.

4 Bu surənin 90-cı ayəsində ifadə edildiyi kimi İslam ümumbəşəri bir dindir. Buna görə də "Məkkə ətrafındakı insanlar" ifadəsi bütün dünya insanlarını əhatə edir.

5 Təfsir mənbələrinə görə, "Allahın endirdiyinin bənzərini mən də endirəcəyəm" deyənlər Yəmamədə meydana çıxan Müseyləmə ilə Sənada meydana çıxan Əsvədi-Ənsi adlı yalançı peyğəmbərlərdir. Onlar oxuduqları şeirləri Qur`anla bir tutaraq özlərinə tərəfdar toplamağa çalışırdılar. Ayədəki ifadə bu şəxslər başda olmaqla bunlar kimi Allaha iftira etməklə özünə peyğəmbərlik verildiyini iddia edən hər kəsə şamildir.

95. Şübhəsiz, Allah toxumu və çəyirdəyi yarıb cücərdəndir. Ölüdən diri çıxarır. Diridən də ölü çıxarandır. Budur Allah! (Elə isə Ondan) necə döndərilirsiniz?

96. O, qaranlığı yarıb səhəri çıxarandır. Gecəni dincəlmə vaxtı, günəşi və ayı da incə bir hesab ölçüsü etdi. Bütün bunlar mütləq güc sahibinin, haqqı ilə bilənin təqdiridir (ölçüb biçməsidir).

97. O, sayələrində qurunun və dənizin qaranlıqlarında yolunuzu tapasınız deyə sizin üçün ulduzları yaradandır. Bilən bir topluluq üçün ayələri ayrı-ayrı açıqladıq.

98. O, sizi tək bir candan yaradandır. Sizin bir qərar tutma yeriniz, bir də əmanət edilmə yeriniz var. Biz anlayan bir qövm üçün ayələri müfəssəl şəkildə açıqlamışıq.

99. O, göydən su endirəndir. Biz onunla hər növ bitki çıxarıb onlardan yaşıllıq ərsəyə gətirir və o yaşıl bitkilərdən üst-üstə dənələr, – xurma ağacının tumurcuğundan da aşağı sallanmış salxımlar – üzüm bağları, zeytun və nar çıxardırıq; (Hər biri) bir-birinə bənzər və (hər biri) bir-birindən fərqli.[1] Bunların meyvəsinə, bir bar verdiyi zaman, bir də yetişdiyi zaman baxın. Şübhəsiz, bunda inanan bir topluluq üçün (Allahın varlığını göstərən) ibrətlər var.

100. Bir də cinləri Allaha şərik qoşdular. Halbuki onları O yaratdı. Onlar heç nə bilmədən Allaha oğullar və qızlar da uydurdular. O, onların vəsf etdiklərindən uzaqdır, ucadır.

101. O, göyləri və yeri bənzərləri yox ikən yaradandır. Onun bir yoldaşı (zövcəsi) olmadığı halda necə bir övladı ola bilər? Halbuki hər şeyi O yaratdı. O, hər şeyi haqqı ilə biləndir.

102. Budur Rəbbiniz Allah! Ondan başqa heç bir ilah yoxdur. O, hər şeyin yaradıcısıdır. Elə isə ona qulluq edin. O, hər şeyə vəkil (hər şeyi idarə edən, nəzarət edən) dir.

103. Gözlər onu idrak edə bilməz, amma O, gözləri idrak edər.[2] O, ən gizli şeyləri biləndir, (hər şeydən) haqqı ilə xəbərdar olandır.

104. Rəbbinizdən sizə gerçəkləri göstərən dəlillər[3] gəldi. Artıq kim gözünü açar, haqqı idrak edərsə, öz xeyrinə, kim də (haqqın qarşısında) korluq edərsə, öz zərərinədir. Mən sizə gözətçi deyiləm.

105. Biz ayələri müxtəlif yollarla belə açıqlayırıq ki, onlar: "Sən yaxşı dərs almısan", – desinlər və Biz də bilən bir topluluq üçün onu (Qur`anı) bəyan edək.[4]

---

1 Bu ifadə ilə meyvə və tərəvəzlərin yetişmə və inkişaf qanunauyğunluqları baxımından bir-birilərinə bənzəmələrinə rəğmən dad, rəng, qoxu, quruluş və görüntü olaraq bir-birindən çox fərqli olduqları vurğulanmış ola biləcəyi kimi başqa bənzərlik və fərqliliklər də nəzərdə tutulmuş ola bilər. Ayədə Allahın varlıqları yaratmasındakı heyranedici incəliklərə diqqət çəkilir.

2 Allahın zatını dünya gözü görmək, Onun həqiqətini qavramaq mümkün deyil. Axirətdə isə bir çox göz Onu görəcək. Mövzu ilə əlaqəli olaraq baxın: Qiyamət, 75/23.

3 Bəsirət qəlb gözü deməkdir. Başdakı gözə bəsər deyildiyi kimi qəlb və könül gözünə də bəsirət deyilir. Ayədəki "gerçəkləri göstərən dəlillər" ifadəsi ilə Allah-Təala tərəfindən Rəsulullaha vəhy olunan ayələr və Allahın birliyinə, gücünə və qüdrətinə dəlalət edən və yuxarıda keçən ayələrdə dilə gətirilən ibrət götürüləcək kainat hadisələri nəzərdə tutulmuşdur.

4 Peyğəmbərə göndərilən vəhy qarşısında heyrətə düşən müşriklər: "Sən dərs almısan, oxumusan, yoxsa bu

**106.** Ey Muhamməd! Sən Rəbbindən sənə vəhy olunana tabe ol. Ondan başqa heç bir ilah yoxdur. Allaha şərik qoşanlardan üz döndər.

**107.** Allah istəsəydi, şərik qoşmazdılar. Biz səni onlara bir gözətçi təyin etməmişik. Sən onlara vəkil (onlara görə məsuliyyət daşıyan) deyilsən.

**108.** Onların Allahı buraxıb tapındıqlarına söyməyin, sonra onlar da həddi aşaraq bilmədən Allaha söyərlər. Beləliklə, hər ümmətə əməlləri süslü göstərildi. Sonra qayıdışları ancaq Rəblərinədir. O, etdiklərini onlara bildirəcəkdir.

**109.** Əgər onlara (başqa) bir möcüzə gələrsə, mütləq ona inanacaqlarına dair ən möhkəm andları ilə Allaha and içdilər. De ki: "Möcüzələr ancaq Allah qatındadır. O möcüzələr gəldiyi zaman yenə də inanmayacaqlarını siz nə biləsiniz?"

**110.** Biz onların qəlblərini və gözlərini tərsinə çevirərik, ilk dəfə ona iman etmədikləri kimi (möcüzə gəldikdən sonra da inanmazlar) və yenə onları azğınlıqları içində buraxarıq, çırpına-çırpına qalarlar.

**111.** Biz onlara mələkləri də endirsəydik, onlarla ölülər də danışsaydı və hər şeyi qarşılarında (həqiqətin şahidləri olaraq) toplasaydıq, Allah istəmədikcə yenə də iman edən deyildilər. Amma onların çoxu bilmir.

**112.** Beləliklə, biz hər peyğəmbərə insan və cin şeytanlarını düşmən etdik. Bunlar aldatmaq üçün bir-birlərinə təmtəraqlı sözlər pıçıldayarlar. Rəbbin diləsəydi, bunu etməzdilər. O halda onları iftiralarıyla baş-başa burax.

**113.** Bir də (şeytanlar) axirətə inanmayanların könülləri bu təmtəraqlı sözlərə meyl etsin, onlardan xoşlansınlar və edəcəkləri günahları etsinlər deyə (bu təlqinləri edərlər).

**114.** "Sizə Kitabı (Qur`anı) açıqlanmış olaraq endirən O olduğu halda mən Allahdan başqa bir hakimmi axtarım?" (de). Kitab verdiklərimiz də onun Rəbbin qatından haqq olaraq endirildiyini bilirlər. Elə isə şübhə edənlərdən olma.[1]

**115.** Rəbbinin sözü (Qur`an) doğruluq və ədalət baxımından tamdır. Onun sözlərini dəyişdirə biləcək biri yoxdur. O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

**116.** Əgər yer üzündəkilərin çoxuna tabe olsan, səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə uyurlar və onlar ancaq yalan uydururlar.

**117.** Şübhəsiz, sənin Rəbbin yolundan azanları çox yaxşı bilir və yenə O, doğru yolu tapanları ən yaxşı biləndir.

**118.** Artıq Onun ayələrinə inanan kimsələrsinizsə, Allahın adı çəkilərək kəsilmiş heyvanlardan yeyin.

**119.** Allah yemək məcburiyyətində qaldıqlarınız xaricində sizə nələri haram etdiyini tək-tək açıqladığı halda Onun adının çəkildiyi heyvanları yeməməyinizin səbəbi

---

oxuduğun Qur`an ayələri ümmi birinin işi deyil", – deyirdilər.

1 Qüreyş müşrikləri peyğəmbərimizə: "Aramızda yəhudi və xristian alimlərindən bir hakim seçək. Sənin gətirdiyin din haqqında onların kitablarında olanı bizə bildirsinlər", – demişdilər. Onlara bu ayə ilə cavab verilmişdir.

nədir?[1] Həqiqətən, bir çoxları nəfslərinə uyaraq bilmədikləri halda (camaatı) azdırırlar. Şübhəsiz, sənin Rəbbin həddi aşanları çox yaxşı bilir.

**120.** Günahın aşkarından da əl çəkin, gizlisindən də. Çünki günah qazananlar etdiklərinin əvəzi olaraq cəzalandırılacaqlar.

**121.** Kəsilərkən Allahın adı çəkilməyən (heyvan)lardan yeməyin. Çünki bu fasiqlikdir. Bir də şeytanlar öz dostlarına sizinlə mücadilə etməyi təlqin edərlər. Onlara boyun əysəniz, şübhəsiz siz də Allaha şərik qoşmuş olarsınız.[2]

**122.** Ölü ikən diriltdiyimiz və insanlar arasında gəzəcəyi bir nur verdiyimiz kimsənin halı, qaranlıqlar içində qalmış, ondan çıxa bilməmiş kimsənin halı kimi olarmı? Kafirlərə əməlləri belə süslü göstərilmişdir.[3]

**123.** Beləliklə, hər məmləkətdə günahkarları oranın öndərləri etdik ki, oralarda hiyləgərlik etsinlər. Halbuki onlar hiyləgərliyi ancaq özlərinə edərlər. Amma fərqinə varmırlar.

**124.** Onlara bir ayə gəldiyi zaman: "Allah elçilərinə verilənin bir bənzəri bizə də verilənə qədər əsla inanmayacağıq", – deyərlər. Allah elçilik vəzifəsini kimə verəcəyini çox yaxşı bilir. Günah işləyənlərə Allah qatından bir rəzillik və etdikləri hiyləgərlik səbəbi ilə şiddətli bir əzab üz verəcək.

**125.** Allah kimi doğru yola yönəltmək istərsə, onun köksünü İslama açar. Kimi də azdırmaq istərsə, onun da köksünü göyə çıxırmışcasına daraldar, sıxar.[4] Allah inanmayanlara əzab (və sıxıntını), bax belə verər.

**126.** Bu, Rəbbinin doğru yoludur. Şübhəsiz, düşünüb öyüd götürəcək bir qövm üçün ayələri ayrı-ayrı açıqladıq.

**127.** Rəbləri qatında salam yurdu (cənnət) onlarındır. Allah etdikləri şeylərə görə onların dostudur.

**128.** Onların hamısını bir yerə toplayacağı gün belə deyəcək: "Ey cin topluluğu! İnsanlardan bir çoxunu azdırıb aranıza qatdınız". Onların insanlardan olan dostları: "Ey Rəbbimiz! Bizlər bir-birimizdən bəhrələndik və bizə təyin etdiyin müddətin sonuna çatdıq", – deyəcəklər. Allah da deyəcək ki: "Allahın dilədikləri (bağışladıqları) xaric, içində əbədi qalacağınız yer oddur". Ey Muhamməd! Şübhəsiz, sənin Rəbbin hökm və hikmət sahibidir, haqqı ilə biləndir.

**129.** Beləliklə, Biz qazandıqları günahlar səbəbi ilə zalımların bir qismini digər bir qisminin üstünə salarıq.

---

1 Yeyilməsi haram olan şeylər üçün baxın: Bəqərə, 2/173; Maidə, 5/3; Ən`am, 6/145; Nəhl, 16/114-115.

2 Müşriklər ölmüş heyvan əti yeyir və öz aralarında: "Baxın, Muhamməd və əshabı öz əlləri ilə kəsdikləri heyvanın ətini yeyirlər, ancaq Allahın öldürdüyü haramdır deyirlər", – deyərək dedi-qodu edirdilər. Ayə möminləri müşriklərin düşdüyü vəziyyətə düşməmələri barəsində xəbərdar edir.

3 Ayədə inkarçılar ölüyə, iman edənlər isə diriyə bənzədilmişdir. Buna əsasən iman etmək ölümdən həyata keçmək, yəni dirilməkdir.

4 Ayədə inanmayanların yaşadığı psixoloji hal səbəbilə ürəklərində meydana gələn sıxıntı və daralma atmosferdə yüksələn insanın fiziki sıxıntısına bənzədilmişdir. Artıq elmə məlumdur ki, atmosferin üst təbəqələrinə yüksəldikcə təzyiq düşər və nəfəs almaq çətinləşər. Belə bir təbiət qanununun hələ bilinmədiyi bir dövrdə Qur`anın buna işarə etməsi onun Allah kəlamı olduğunu göstərir.

**130.** (O gün Allah belə deyəcək:) “Ey cin və insan topluluğu! Aranızdan sizə ayələrimi danışan və bu gününüzün gəlib çatacağı haqqında sizi xəbərdar edən peyğəmbərlər gəlmədimi?” Onlar belə deyəcəklər: “Biz öz əleyhimizə şahidlik edirik”. Dünya həyatı onları aldatdı və kafir olduqlarına dair öz əleyhlərinə şahidlik etdilər.

**131.** Bu (peyğəmbərlərin göndərilməsi) ona görədir ki, Rəbbin, əhalisi xəbərsizkən ölkələri haqsız yerə həlak edən deyildir.

**132.** Hər kəsin əməllərinə görə dərəcələri var. Rəbbin onların etdiklərindən xəbərsiz deyil.

**133.** Rəbbin hər baxımdan hədsiz zəngindir, rəhmət sahibidir. Sizi başqa bir qövmün soyundan gətirdiyi kimi, istərsə, sizi aradan qaldırar (yox edər) və sizdən sonra da yerinizə istədiyini gətirər.

**134.** Şübhəsiz, sizə vəd olunan şeylər mütləq gələcəkdir.[1] Siz bunun qarşısını ala bilməzsiniz.

**135.** De ki: “Ey qövmüm! Əlinizdən gələni edin. Mən də (vəzifəm nəyi tələb edirsə, onu) edəcəyəm. Amma dünya yurdunun aqibətinin kimin olacağını yaxın zamanda öyrənəcəksiniz. Şübhəsiz, zalımlar qurtuluşa nail olmazlar”.

**136.** Allahın yaratdığı əkinlərdən və heyvanlardan Ona bir pay ayırdılar və ağıllarına görə: “Bu Allah üçün, bu da bizim şərik qoşduqlarımız (bütlərimiz) üçündür”, – dedilər. Şərik qoşduqları üçün olan Allahınkına əlavə olunmur. Allah üçün olan isə onların şərik qoşduqlarınınkına əlavə olunur. Nə pis hökm verirlər![2]

**137.** Yenə bunun kimi Allaha şərik qoşanların çoxuna, qoşduqları şəriklər, övladlarını öldürmələrini gözəl göstərdi ki, onları həlaka sürükləsinlər və dinlərini qarışdırıb onları yanıltsınlar. Əgər Rəbbin istəsəydi, bunu edə bilməzdilər. Artıq sən onları uydurduqları ilə baş-başa burax.

**138.** Bir də (əsassız iddialar ortaya ataraq) dedilər ki: “Bunlar qadağan olunmuş heyvanlar və əkinlərdir. Onları bizim istədiklərimizdən başqası yeyə bilməz. (Bunlar da) belləri (minilməsi və yüklənməsi) haram edilmiş heyvanlardır”. Bir qism heyvanları da kəsərkən Allahın adını çəkməzlər. (Bütün bunları) Allaha iftira ataraq edərlər. Bu iftiraları səbəbi ilə Allah onları cəzalandıracaq.

**139.** Bir də dedilər ki: “Bu heyvanların qarınlarındakı balalar (canlı olarsa,) yalnız kişilərimizə aiddir. Zövcələrimizə isə haramdır”. Əgər ölü olarsa, o zaman onda hamısı ortaqdırlar. Allah onların bu cür dəyərləndirmələrinin cəzasını verəcək.[3] Şübhəsiz, O, hökm və hikmət sahibidir, haqqı ilə biləndir.

---

1 Ayədəki “vəd olunan şeylər” ifadəsi ilə öldükdən sonra dirilmə, hesab, cənnət, cəhənnəm, yaxşılara yaxşı dərəcə, pislərə pis dərəcə veriləcəyi kimi məsələlər nəzərdə tutulur.

2 Bu ayə Cahiliyyə ərəblərinin yanlış bir adətindən bəhs edir; Xurma, arpa, buğda kimi əkinçilik məhsulları ilə qoyun, keçi, dəvə və inəkdən Allaha bir pay ayırır, ondan qonaqlara, yoxsullara xərcləyir, lakin özləri bundan yemirdilər. Bir pay da bütlərə ayırır, onu istədikləri kimi bütlərə xidmət üçün xərcləyirdilər. Allah üçün ayırdıqlarını xərclədikdən sonra geri qalanını bütlərə aid paya əlavə edir, “Allah varlıdır, artığına ehtiyacı yoxdur. Bütlər isə kasıbdır”, – deyərək əməllərinə don geydirirdilər. Ayədə onların bu adəti qınanır.

3 Ərəb müşriklərin batil inancları çox idi. Bunlardan biri də bir ailədən olan heyvanların bəzən erkəklərinin, bəzən də dişilərinin əti haram sayılır, bəzi adlar altında uydurma halal-haram siyahısı tərtib edilirdi.

**140.** Səfehlikləri ucbatından cahilcə övladlarını öldürənlər, Allahın verdiyi ruzini – Allaha iftira ataraq – haram sayanlar, şübhəsiz ki, ziyana uğramışlar. Həqiqətən, onlar azmışlardır. Doğru yolu tapmış da deyillər.

**141.** O, çardaqlı və ya çardaqsız olaraq bağları, məhsulları, növbənöv xurmalıqları və əkinləri, zeytunu və narı (hər biri) bir-birinə bənzər və (hər biri) bir-birindən fərqli şəkildə yaradandır.[1] Bunlar bar verdikdə meyvələrindən yeyin. Yığım günü də haqqını (öşürünü)[2] verin, lakin israf etməyin. Çünki O, israf edənləri sevməz.

**142.** Yenə O, böyüklü-kiçikli heyvanları da var edəndir.[3] Allahın sizə ruzi olaraq verdiyindən yeyin, şeytanın addımlarına uymayın. Çünki o, sizin üçün açıq-aşkar bir düşməndir.

**143.** O, (heyvanlardan da) səkkiz cüt yaradandır; (Erkək və dişi olmaqla) qoyundan iki, keçidən də iki. Ey Muhamməd! De ki: "Allah iki erkəyimi haram buyurdu, yoxsa iki dişinimi? Yoxsa iki dişinin rəhmlərində olan (bala)larımı? Əgər doğru söyləyənlərsinizsə, bir elmə əsaslanaraq mənə bildirin".

**144.** Yenə (erkək və dişi olmaqla) dəvədən iki, inəkdən də iki. De ki: "İki erkəyimi haram buyurdu, yoxsa iki dişinimi? Yoxsa iki dişinin rəhmlərində olan (bala)larımı? Yoxsa Allah sizə bunları haram buyurduğu zaman orada şahid idiniz?!" İnsanları elmsizcə azdırmaq üçün Allaha qarşı yalan uyduran kimsədən daha zalım kimdir? Şübhəsiz, Allah zalımlar qövmünü doğru yola yönəltməz.[4]

**145.** De ki: "Mənə vəhy olunan Qur`anda bir kimsənin yediyi yeməklər arasında leş, axıdılmış qan, donuz əti – ki o, şübhəsiz, nəcisdir – ya da Allahdan başqası adına kəsilmiş bir (mundar) heyvandan başqa haram buyurulmuş bir şey görmürəm. Lakin istismar etmədən və zərurət ölçüsünü aşmadan kim bunlardan yemək məcburiyyətində qalarsa, yeyə bilər". Şübhəsiz Rəbbin çox bağışlayandır, çox mərhəmətlidir.[5]

**146.** Yəhudilərə dırnaqlı heyvanların hamısını haram buyurduq. İnək və qoyunların isə bellərində və ya bağırsaqlarında olanlar, ya da sümüklərinə qarışanlar xaricindəki iç yağlarını (yenə) onlara haram buyurduq. Beləliklə, azğınlıqları səbəbi ilə onları cəzalandırdıq.[6] Biz əlbəttə, doğru söyləyənlərik.

---

Halbuki bu heyvanların dəvə, inək, qoyun, keçi, erkək, dişi olmaları ya da doğmuş olması yaxud olmaması ətlərinin haram olmasının səbəbi və illəti ola bilməzdi. Ayə bu məntiqsizliyi açıqlayır. (Əlavə olaraq baxın: Maidə, 5/103.)

1 Baxın: Ən`am surəsi, 99-cu ayə və ona aid istinad.

2 Öşür "onda bir" deməkdir. Torpaq məhsullarından bu nisbətdə verilən zəkatın xüsusi adıdır.

3 Ayənin bu qismi "O, heyvanlardan yük daşıyanları və yunlarından döşək düzəldilənləri yaradandır" şəklində də tərcümə oluna bilər.

4 Mövzu ilə əlaqəli olaraq 139-cu ayənin istinadına baxın.

5 Çətin vəziyyətdə qalan kimsənin haram buyurulan qidalardan yeyə biləcəyi məsələsi ilə əlaqədar əlavə olaraq bu surənin 119-cu və Bəqərə surəsinin 173-cü ayələrinə baxın.

6 Mövzu ilə əlaqəli olaraq baxın: Nisa, 4/160. Əslində bunlar haram şeylər deyildi. Yəhudilər bir zamanlar bildirçin əti və qüdrət halvasıyla qidalanmışdılar. Sonra zülmkarlıq, haqqa qarşı üsyan, peyğəmbərləri öldürmək, faiz almaq, insanları öldürməyi halal saymaq kimi ölçüsüz davranışları səbəbi ilə bir çox təmiz ruzilərdən məhrum edilmişdilər. İnək və qoyun kimi bəzi heyvanların yalnız iç yağlarının onlara haram

147. Əgər səni təkzib edərlərsə, de ki: "Rəbbiniz geniş rəhmət sahibidir. (Bununla yanaşı) Onun əzabı günahkar bir qövmdən geri qayıtmaz (yan keçməz)".

148. Allaha şərik qoşanlar deyəcəklər ki: "Əgər Allah istəsəydi, biz də şərik qoşmazdıq, atalarımız da. Heç bir şeyi də haram saymazdıq". Onlardan əvvəlkilər də (öz peyğəmbərlərini) belə təkzib etmişdilər, axırda əzabımızı dadmışdılar. De ki: "Sizin (iddianızı isbat edəcək) bir elminiz varmı ki, onu bizə göstərəsiniz? Siz ancaq zənnə uyursunuz və siz ancaq yalan danışırsınız".

149. De ki: "Ən üstün dəlil yalnız Allahındır. O, istəsəydi, əlbəttə, sizin hamınızı doğru yola yönəldərdi".[1]

150. De ki: "Buyurun, "Allah bunu haram buyurdu" deyə şəhadət verəcək şahidlərinizi gətirin". Onlar şəhadət versələr də, sən onlarla bərabər şahidlik etmə. Ayələmizi yalan sayanların və axirətə inanmayanların arzularına uyma. Onlar başqa şeyləri Rəblərinə tay tuturlar.

151. (Ey Muhamməd!) De ki: "Gəlin, Rəbbinizin sizə haram buyurduğu şeyləri oxuyum; Ona heç bir şeyi şərik qoşmayın. Valideynlərlə xoş rəftar edin. Kasıblıq qorxusu ilə övladlarınızı öldürməyin. Sizə də, onlara da biz ruzi veririk. (Zina və bu kimi) çirkinliklərə, bunların açığına da, gizlisinə də yaxınlaşmayın.[2] Məşru bir haqq qarşılığı olmadıqca Allahın haram (toxunulmaz) buyurduğu canı öldürməyin.[3] Allah sizə bunu əmr etdi ki, düşünəsiniz".

152. Həddi-büluğa çatana qədər yetimin malına ancaq ən gözəl şəkildə yaxınlaşın.[4] Ölçünü və mizanı ədalətlə tam yerinə yetirin. Biz hər kəsi ancaq gücünün yetdiyi qədərindən məsul tutarıq.[5] (Biri haqqında) danışdığınız zaman yaxınınız belə olsa, ədalətli olun. Allaha verdiyiniz sözü tutun. Allah bunları sizə öyüd götürəsiniz deyə əmr etdi.

153. Bu, mənim doğru yolumdur. Artıq ona tabe olun. Başqa yollara uymayın. Yoxsa o yollar sizi parça-parça edib Onun yolundan ayırar. Allah bunları sizə çəkinəsiniz deyə əmr etdi.

---

buyurulduğu və bu heyvanların onlara haram buyurulan dırnaqlı heyvanlardan olmadığı ayənin mətnindən aydın olur.

1 Bu ayədən, Allahın insanları doğru yola yönəltmək istəmədiyi kimi bir məna çıxarmaq olmaz. Burada vurğulanmaq istənilən nöqtə insanların azad iradəsinə Allahın müdaxilə etmədiyidir. İnsanlar doğru və ya yanlış yolu öz hürr iradələri ilə seçərlər. Allah da onların bu seçimlərinin əksinə bir iradə göstərməz. Çünki belə bir şey insan iradəsinə təzyiq göstərmək olardı ki, bu təqdirdə insanların məsul tutulmaması lazım gələrdi. Buna görə də Allahın insanları öz seçimləri ilə uzlaşmayacaq şəkildə məcburi olaraq doğru yola yönəltmək istəməməsi əslində onların bu istiqamətdə bir iradəyə sahib olmadıqlarının göstəricisidir. Sözün qısası, ayə belə başa düşülməlidir: "Siz istəməsəniz də Allah sizi doğru yola yönəldə bilərdi. Lakin bu sizin azad iradənizi heçə saymaq olardı. Bu səbəblə Allah sizin seçiminizə zidd olacaq şəkildə doğru yola yönəlməyinizi istəmədi ki, iradənizə təzyiq göstərmiş olmasın".

2 Mövzu ilə əlaqəli olaraq baxın: İsra, 17/32..

3 Mövzu ilə əlaqəli olaraq baxın: İsra, 17/33.

4 Yetimin malına ən gözəl şəkildə yaxınlaşmaq onun malının çoxalmasını təmin edəcək yolları araşdıqmaq deməkdir.

5 Mövzu ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/286.

**154.** Sonra yaxşılıq edənlərə neməti tamamlamaq, hər şeyi açıqlamaq, hidayət və rəhmətə qovuşdurmaq üçün Musaya Kitabı (Tövratı) verdik ki, Rəblərinin hüzuruna çıxacaqlarına iman etsinlər.

**155.** Bu (Qur`an) da bizim endirdiymiz bərəkət qaynağı bir kitabdır. Artıq ona tabe olun və Allaha qarşı gəlməkdən çəkinin ki, sizə mərhəmət göstərilsin.

**156, 157.** "Kitab yalnız bizdən əvvəlki iki topluluğa (yəhudilərə və xristianlara) endirildi. Biz onların oxumalarından xəbərsiz idik", – deməyəsiniz, yaxud da: "Əgər bizə kitab endirilsəydi, biz onlardan daha çox doğru yolda olardıq", – deməyəsiniz deyə bu Qur`anı endirdik. (Budur) sizə Rəbbinizdən açıq-aşkar bir dəlil, bir hidayət və bir rəhmət gəldi. Artıq Allahın ayələrini yalan sayan və (insanları) onlardan yayındıran kimsədən daha zalım kimdir?! İnsanları ayələrimizdən yayındırmağa çalışanları törətdikləri maneəçilik səbəbi ilə əzabın ən şiddətlisi ilə cəzalandıracağıq.

**158.** (Ey Muhamməd!) Onlar (iman etmək üçün) ancaq özlərinə mələklərin gəlməsini və ya Rəbbinin gəlməsini,[1] ya da Rəbbinin bəzi ayələrinin gəlməsinimi gözləyirlər? Rəbbinin ayələrindən bəzisinin gəldiyi gün daha əvvəl iman etməmiş və ya imanında bir xeyir qazanmamış olan bir kimsəyə (ogünkü) imanı fayda verməz.[2] De ki: "Siz gözləyin. Şübhəsiz, biz də gözləyirik".

**159.** Dinlərini parça-parça edənlər və özləri də firqələrə bölünmüş olanlar ki var, (sənin) onlarla heç bir əlaqən yoxdur. Onların işi ancaq Allaha qalmışdır. Sonra (O,) etdiklərini onlara xəbər verəcək.

**160.** Kim bir yaxşılıq edərsə, ona on qatı var. Kim də bir pislik edərsə, o da yalnız o pisliyin misli ilə cəzalandırılar və onlara zülm edilməz.

**161.** De ki: "Şübhəsiz, Rəbbim məni doğru bir yola, doğru bir dinə, Haqqa yönələn İbrahimin dininə yönəltdi. O, Allaha şərik qoşanlardan deyildi".

**162.** (Ey Muhamməd!) De ki: "Şübhəsiz, mənim namazım da, digər ibadətlərim də, yaşamağım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür".

**163.** "Onun heç bir şəriki yoxdur. Mənə bu əmr olunmuşdur. Mən müsəlmanların ilkiyəm".

**164.** De ki: "Hər şeyin Rəbbi O ikən mən başqa bir rəbmi axtarım? Hər kəs günahı yalnız öz əleyhinə qazanır. Heç bir günahkar başqa bir günahkarın günah yükünü çəkməz.[3] Sonra qayıdışınız yalnız Rəbbinizədir. O, sizə ixtilaf etdiyiniz şeyləri bildirəcək".

**165.** O, sizi yer üzündə xəlifələr (oraya hakim olan kimsələr) olaraq yaradan, sizə verdiyi nemətlər barəsində sizi sınamaq üçün bəzinizin dərəcəsini bəzinizinkindən üstün edəndir. Şübhəsiz, Rəbbin tezliklə cəzalandırandır. Şübhə yoxdur ki, O, çox bağışlayandır, çox mərhəmət edəndir.

---

1 Mövzu ilə əlaqəli olaraq baxın: Furqan, 25/7, 8, 21.

2 Mövzu ilə əlaqəli olaraq baxın: Mömin, 40/84-85.

3 Mövzu ilə əlaqəli olaraq baxın: İsra, 17/15; Fatir, 35/18; Zümər, 39/7; Nəcm, 53/38.

# 7. Ə`RAF SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 163-170-ci ayələrin Mədinə dövründə endiyini söyləyən alimlər də var. 206 ayədən ibarətdir. Surənin adı 46 və 48-ci ayələrdə keçən "əl-ə`raf" kəlməsindən götürülmüşdür. "əl-Ə`raf" yüksək yerlər, yüksək mövqelər deməkdir. Surənin əsas mövzusu ilahi vəhyin doğruluğu və vəhyə olan ehtiyacdır.

***Bismillahir-Rahmənir-Rahim.***

1. Əlif Ləm Mim Sad.[1]
2. Bu, sənə onunla (insanları) xəbərdar edəsən deyə və möminlərə öyüd olaraq endirilmiş bir kitabdır. Artıq ona görə qəlbində bir sıxıntı olmasın.[2]
3. Rəbbinizdən sizə endirilənə tabe olun. Onu qoyub başqa dostlara uymayın. Nə qədər də az öyüd götürürsünüz?!
4. Neçə-neçə məmləkətləri həlak etdik. Əzabımız onlara gecə yuxusuna dalmışkən, yaxud gündüz istirahət edərkən yetişdi.
5. Əzabımız onlara gəldiyi zaman: "(Biz buna layiqik.) Həqiqətən, biz zalımlar olmuşduq", – deməkdən başqa sözləri qalmamışdı.
6. Özlərinə peyğəmbər göndərilənləri mütləq sorğu-sual edəcəyik.[3] Əlbəttə, peyğəmbərləri də sorğu-sual edəcəyik.[4]
7. And olsun, onlara (etdiklərini) tam bir bilgi ilə danışacağıq. Çünki biz onlardan uzaq deyilik.
8. O gün mizan da haqdır. Kimin savabı ağır gələrsə, onlar qurtuluşa çatanlardır.
9. Ancaq kimlərin savabı yüngül gələrsə, onlar ayələrimizə haqsızlıq etdikləri üçün özlərini ziyana salanlardır.
10. And olsun, sizə yer üzündə imkan və iqtidar verdik.[5] Sizin üçün orada bir çox dolanışıq imkanları da yaratdıq. Ancaq siz nə qədər az şükür edirsiniz?!
11. And olsun, sizi yaratdıq. Sonra sizə surət verdik. Sonra da mələklərə: "Adəm üçün ehtiramla əyilin", – dedik. İblisdən başqa hamısı ehtiramla əyildilər. O, ehtiramla əyilənlərdən olmadı.
12. Allah: "Sənə əmr etdiyim zaman ehtiramla əyilməyinə nə mane oldu?" – dedi. (O da:) "Mən ondan xeyirliyəm. Çünki məni oddan yaratdın. Onu isə palçıqdan yaratdın", – dedi.

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Bu ayədə insanların küfrdə, zülmdə, şirkdə, Allaha qarşı yalanlar uydurmaqda israr etmələri və ilahi dəvətdən üz döndərmələrinə görə kədərlənən Peyğəmbərimizə təskinlik verilir. Mövzu ilə əlaqəli olaraq baxın: Hicr, 15/97; Kəhf, 18/5-6; Hud, 11/12.

3 Mövzu ilə əlaqəli olaraq baxın: Qəsəs, 28/65.

4 Mövzu ilə əlaqəli olaraq baxın: Maidə, 5/109.

5 Ayənin bu qismi "And olsun, sizi yer üzünə yerləşdirdik" şəklində də tərcümə oluna bilər.

13. Allah: "İndi en aşağı oradan. Çünki orada təkəbbür göstərmək sənin həddin deyil! Dərhal çıx! Çünki sən alçaqlardansan", – dedi.

14. Şeytan dedi ki: "(Elə isə) insanların yenidən dirildiləcəkləri günə qədər mənə möhlət ver".

15. Allah da: "Sən möhlət verilənlərdənsən", – dedi.

16. Şeytan dedi ki: "(Elə isə) məni zəlalətə salmağının əvəzi olaraq, and içirəm ki, mən də onları azdırmaq üçün sənin doğru yolunun üstündə, əlbəttə, oturacağam".

17. "Sonra (tələ qurub) onlara qarşılarından, arxalarından, sağlarından və sollarından yanaşacağam və sən onların çoxunu şükür edən (kimsə)lər olaraq görməyəcəksən".

18. Allah dedi ki: "Qınanmış və qovulmuş halda çıx oradan. And olsun, onlardan kim sənə uyarsa, sizin hamınızı cəhənnəmə dolduraram".

19. "Ey Adəm! Sən və zövcən cənnətdə qalın. İstədiyiniz yerdən yeyin. Lakin bu ağaca yaxınlaşmayın. Yoxsa zalımlardan olarsınız".

20. Şeytan onlara gizli qalan övrət yerlərini özlərinə göstərmək üçün onlara vəsvəsə verdi və dedi ki: "Rəbbiniz sizə bu ağacı, ancaq, mələk olmayasınız ya da (cənnətdə) əbədi qalanlardan olmayasınız deyə qadağan etdi. (Elə isə qadağan olunmuş ağacın meyvəsindən yeyin ki, mələk olasınız, yaxud cənnətdə əbədi olaraq qalasınız)".

21. "Şübhəsiz, mən sizə nəsihət verənlərdənəm", – deyərək onlara and içdi.

22. Bu şəkildə onları aldadaraq qadağanı pozmağa sövq etdi. Ağacdan daddıqları zaman övrət yerləri özlərinə göründü. Dərhal cənnət yarpaqları ilə üstlərini örtməyə başladılar. Rəbləri onlara: "Mən sizə bu ağacı qadağan etmədimmi? Şeytan sizə açıq-aşkar bir düşməndir, demədimmi?" – deyə səsləndi.

23. Dedilər ki: "Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, mütləq ziyana uğrayanlardan olarıq".

24. Allah dedi ki: "Bir-birinizin düşməni olaraq enin (oradan). Sizə yer üzündə müəyyən bir vaxta qədər qərar tutma və dolanışıq var".

25. Allah dedi ki: "Orada yaşayacaqsınız, orada öləcəksiniz və oradan (məhşərə) çıxarılacaqsınız".

26. Ey Adəm oğulları! Sizə övrət yerlərinizi örtəcək geyim və süslənəcək libas verdik. Təqva (Allaha qarşı gəlməkdən çəkinmək) libası ki var, (bax) o, daha xeyirlidir. Bu (geyimlər) Allahın rəhmətinin əlamətlərindəndir. Bəlkə öyüd götürərlər (deyə onları insanlara verdik).

27. Ey Adəm oğulları! Övrət yerlərini özlərinə göstərmək üçün geyimlərini soyunduraraq ana-atanızı cənnətdən çıxardığı kimi, şeytan sizi də azdırmasın. Çünki o və qəbiləsi sizin onları görə bilməyəcəyiniz yerdən sizi görürlər. Şübhəsiz, biz şeytanları iman etməyənlərin dostları etmişik.

28. Çirkin bir iş etdikləri zaman: "Biz atalarımızdan belə gördük, Allah da bizə bunu əmr etdi", – deyərlər. De ki: "Şübhəsiz, Allah çirkin işləri əmr etməz. Siz bilmədiyiniz şeyləri Allahın üstünəmi atırsınız?"

29. De ki: "Rəbbim ədaləti əmr etdi. Hər səcdə yerində üzlərinizi (Ona) tutun. Dini Allaha məxsus edərək (ixlasla) Ona ibadət edin. Sizi başlanğıcda yaratdığı kimi (yenə Ona) qayıdacaqsınız".

30. Allah bir qisminə hidayət verdi, bir qismi isə zəlalətə layiq görüldü. Çünki onlar Allahı qoyub şeytanları dost tutmuşdular. Özlərinin də doğru yolda olduqlarını sanırdılar.

31. Ey Adəm oğulları! Hər məsciddə zinətinizi taxın (gözəl və təmiz geyinin). Yeyin, için, lakin israf etməyin. Çünki O, israf edənləri sevməz.

32. De ki: "Allahın, qulları üçün yaratdığı zinəti və təmiz ruzini kim haram etmişdir?" De ki: "Bunlar dünya həyatında möminlər üçündür. Qiyamət günündə isə yalnız onlara məxsusdur. Bilən bir topluluq üçün ayələrimizi müfəssəl açıqlayırıq".

33. De ki: "Rəbbim ancaq aşkar və gizli çirkin işləri, günahı, haqsız yerə həddi aşmağı, haqqında heç bir dəlil endirmədiyi hər hansı bir şeyi Allaha şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeylər söyləməyinizi haram buyurmuşdur".

34. Hər millətin müəyyən bir əcəli var. Onların əcəli gəldiyi zaman nə bir an geri qala bilərlər, nə də önə keçə bilərlər.

35. Ey Adəm oğulları! Aranızdan sizə mənim ayələrimi danışan peyğəmbərlər gəldiyi zaman kim Allaha qarşı gəlməkdən çəkinər və özünü düzəldərsə, artıq onlara qorxu yoxdur. Onlar kədərlənməyəcəklər.

36. Ayələrimizi yalan sayanlar və onlara uymağı qürurlarına sığışdıra bilməyənlərə gəlincə, onlar cəhənnəmlikdirlər. Onlar orada əbədi qalacaqlar.

37. Allaha qarşı yalan uyduran və ya Onun ayələrini yalan sayandan daha zalım kimdir? Onlara kitabdan (özləri üçün yazılmış ömür və ruzilərdən) payları çatar. Nəhayət, mələk elçilərimiz canlarını almaq üçün onların yanına gəldiyi zaman: "Allahı buraxıb tapındığınız şeylər hanı?" – deyərlər. Onlar da: "Bizi darda qoyub yox oldular", – deyərlər və kafir olduqlarına dair öz əleyhlərinə şahidlik edərlər.

38. Allah belə deyər: "Sizdən əvvəl gəlib geçmiş cin və insan topluluqları ilə birlikdə cəhənnəm oduna girin". Hər topluluq (arxasınca gedib zəlalətə düşdüyü) yoldaşına lənət edər. Nəhayət, hamısı orada toplandığı zaman arxalarından gedənlər özlərinə öndərlik edənlər üçün: "Ey Rəbbimiz! Bunlar bizi azdırdılar. Onlara iki qat artıq cəhənnəm əzabı ver", – deyərlər. Allah deyər ki: "Hər biriniz üçün iki qat artıq əzab var. Lakin bilmirsiniz".

39. Əvvəlkilər sonrakılara: "Sizin bizə qarşı heç bir üstünlüyünüz yoxdur. Artıq qazandığınız şeylərin əvəzi olaraq əzabı dadın", – deyərlər.

40. Ayələrimizi yalan sayanlar və o ayələrə uymağı qürurlarına sığışdıra bilməyənlər ki var, onlara göylərin qapıları açılmaz. Onlar dəvə iynənin dəliyindən keçənə qədər cənnətə də girə bilməzlər![1] Biz günahkarları belə cəzalandırarıq.

41. Onlar üçün cəhənnəm atəşindən döşək, üstlərində də cəhənnəm atəşindən örtüklər var. Biz zalımları belə cəzalandırarıq.

1 Ayənin bu qismi "kəndir iynə dəliyindən keçənə qədər cənnətə girə bilməzlər" şəklində də tərcümə oluna bilər.

42. İman edib saleh işlər görənlərə gəlincə – ki, biz insana ancaq gücünün yetdiyini yükləyərik – onlar cənnətlikdirlər. Onlar orada əbədi qalacaqlar.

43. Biz onların qəlblərindəki kini çıxarıb atdıq. Altlarından da çaylar axar. "Həmd, bizi buna yetişdirən Allaha məxsusdur. Əgər Allah bizə hidayət etməsəydi, biz hidayətə nail olmazdıq. And olsun, Rəbbimizin peyğəmbərləri bizə haqqı gətirmişdir", – deyərlər. Onlara: "Budur etdiyiniz (yaxşı əməllər) sayəsində varisi olduğunuz cənnət!" – deyə səslənləcək.

44. Cənnətliklər cəhənnəmliklərə: "Biz Rəbbimizin bizə vəd etdiyini haqq olaraq gördük. Siz də Rəbbinizin sizə vəd etdiyini haqq olaraq gördünüzmü?" – deyə səslənərlər. Onlar: "Bəli", – deyərlər. O zaman aralarında bir carçı: "Allahın lənəti zalımlara (olsun)!" – deyə səslənər.

45. Onlar Allah yolundan yayındıran, onu əyri və təzadlı göstərmək istəyənlərdir. Onlar axirəti də inkar edənlərdir.

46. İkisi (cənnət və cəhənnəm) arasında bir divar,[1] Ə`raf[2] üzərində də bəzi adamlar var. Cənnət və cəhənnəmliklərin hamısını üzlərindən tanıyırlar. Cənnətliklərə: "Salam olsun sizə!" – deyə səslənərlər. Onlar hələ cənnətə girməmişlər, amma buna ümid edirlər.

47. Gözləri cəhənnəmliklərə tərəf yönəldiyi zaman: "Ey Rəbbimiz! Bizi zalımlar topluluğu ilə bərabər etmə", – deyərlər.

48. Ə`rafdakılar üzlərindən tanıdıqları bəzi adamlara da səslənər və belə deyərlər: "Nə çoxluğunuz, nə də kibrlənməyiniz sizə fayda verdi!"

49. "Sizin: "Allah bunları rəhmətə nail etməz", – deyə and içdikləriniz bunlardırmı?" (Sonra cənnətliklərə üz tutaraq:) "Girin cənnətə. Sizə qorxu yoxdur. Siz kədərlənməyəcəksiniz", – deyərlər.

50. Cəhənnəmliklər isə cənnətliklərə: "Nə olar, sudan və ya Allahın sizə verdiyi ruzidən bir az da bizim üzərimizə tökün", – deyə səslənərlər. Onlar: "Şübhəsiz, Allah bunları kafirlərə haram buyurmuşdur", – deyərlər.

51. Onlar dinlərini oyun və əyləncəyə çevirmişlər və dünya həyatı onları aldatmışdı. Onlar bu günlərinə qovuşacaqlarını necə unutdularsa və ayələrimizi necə inkar etdilərsə, biz də onları bu gün elə unudarıq.[3]

52. And olsun, biz onlara bilərək bəyan etdiyimiz bir kitabı inanan bir topluluq üçün hidayət və rəhmət olaraq gətirdik.

53. Onlar isə ancaq ("Baxaq görək!" – deyərək) Qur`anın bildirdiyi sonu (tə`vilini) gözləyirlər. Onun bildirdiyi son gəlib çatdığı gün əvvəl onu unutmuş olanlar deyərlər ki: "Həqiqətən, Rəbbimizin peyğəmbərləri haqqı gətirmişlər. İndi bizim üçün şəfaətçilər varmı ki, bizə şəfaət etsinlər və ya (dünyaya) qaytarılaq, etdiklə-

---

1 Divar kəlməsi ilə əlaqəli olaraq həmçinin baxın: Hədid, 57/13.

2 Ə`raf yüksək yerlər, yüksək mövqelər deməkdir. Bəzi müfəssirlər Ə`raf sözü ilə cənnət və cəhənnəm arasındakı divarın yüksək yerlərinin nəzərdə tutulduğunu bildirirlər.

3 Mövzu ilə əlaqəli olaraq baxın: Ən`am, 6/70.

rimizdən başqasını edək?" Həqiqətən, onlar özlərinə ziyan etmişlər. (İlah deyə) uydurduqları (bütlər) də onları darda qoyaraq uzaqlaşıb yox olmuşlar.

54. Şübhəsiz, sizin Rəbbiniz göyləri və yeri altı gündə (altı mərhələdə) yaradan və Ərşə[1] istiva edən, gecəni, onu sürətlə təqib edən gündüzə qatan, günəşi, ayı və bütün ulduzları əmrinə itaətkar olaraq yaradan Allahdır. Diqqət edin, yaratmaq da, əmr etmək də yalnız Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allahın şəni ucadır.

55. Rəbbinizə yalvararaq və gizlicə dua edin. Çünki O, həddi aşanları sevməz.

56. Nizama salındıqdan sonra yer üzündə fitnə-fəsad törətməyin. Allaha (əzabından) qorxaraq və (rəhmətini) umaraq dua edin. Şübhəsiz, Allahın rəhməti yaxşılıq edənlərə çox yaxındır.

57. O, küləkləri rəhmətinin önündə müjdə olaraq göndərəndir. Nəhayət, küləklər ağır buludları daşıdığı vaxt onları ölü bir məmləkət(i diriltmək) üçün sövq edər, suyu oraya endirərik. Onunla növbənöv meyvələr çıxararıq. Ölüləri də elə çıxaracağıq. Bəlkə ibrət götürüb düşünərsiniz.

58. (Torpağı) yaxşı və əlverişli məmləkətin bitkisi Rəbbinin izni ilə bol və bərəkətli çıxar. (Torpağı) pis və əlverişsiz olandan isə faydasız bitkidən başqa bir şey çıxmaz. Şükür edəcək bir topluluq üçün biz ayələri belə müxtəlif yönlərdən izah edirik.[2]

59. And olsun, Nuhu öz qövmünə peyğəmbər olaraq göndərdik: "Ey qövmüm! Allaha qulluq edin. Sizin üçün Ondan başqa ilah yoxdur. Şübhəsiz, mən sizin adınıza böyük bir günün əzabından qorxuram", – dedi.

60. Qövmünün öndərləri: "Biz səni açıq-aşkar bir zəlalət içərisində görürük", – dedilər.

61. (Nuh onlara) belə dedi: "Ey qövmüm! Məndə bir zəlalət yoxdur. Əksinə mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm".

62. "Mən sizə Rəbbimin vəhy etdiklərini təbliğ edirəm və sizə nəsihət edirəm. Sizin bilmədiyiniz şeyləri də Allah tərəfindən gələn vəhy ilə bilirəm".

63. Sizi xəbərdar etməsinə və sizin də Allaha qarşı gəlməkdən çəkinib rəhmətə qovuşmağınız üçün aranızdan bir adam vasitəsilə Rəbbinizdən sizə bir zikr (vəhy və öyüd) gəlməsinə təəccübləndinizmi?

64. Nəhayət qövmü onu yalançılıqda ittiham etdi. Biz də onu və gəmidə onunla bərabər olanları qurtardıq. Ayələrimizi təkzib edənləri isə suda boğduq. Çünki onlar (vicdanları haqqa qarşı bağlı olan) kor bir qövm idilər.

65. Ad qövmünə[3] də qardaşları Hudu peyğəmbər olaraq göndərdik. Onlara: "Ey qöv-

---

1 Ərş qüdrət və hakimiyyət taxtı, sonsuz qüdrət mərtəbəsi deməkdir.

2 Rəhmət külləkləri kimi peyğəmbərlər də ilahi rəhmətin müjdəçiləridir. Təbliğ etməklə vəzifələndirildikləri səmavi kitablar yağmur yüklü buludlar kimi qəlblərə həyat verir. Torpaq kimi insanların da yaxşısı, pisi var. Yaxşılar əlverişli torpaq kimi cəmiyyətə yararlı olurlar. Pislər isə qeyri-münbit torpağa bənzəyirlər. Cəmiyyətə faydaları toxunmaz.

3 Ad qövmü ehtimal ki, Yəməndəki Umman ilə Həzrətmövt arasındakı Əhqaf adlanan səhra yaşamış qədim bir ərəb xalqıdır. Hud (ə.s.) onlara peyğəmbər olaraq göndərilmişdi. Qur`anın 46-cı surəsi də Əhqaf adlanır. Bundan əlavə Fəcr surəsinin 6-9-cu ayələrində bu xalqdan bəhs olunmuşdur. Həzrət İsadan əsr-

müm! Allaha qulluq edin. Sizin üçün Ondan başqa heç bir ilah yoxdur. Allaha qarşı gəlməkdən çəkinmirsinizmi?" – dedi.

66. Qövmünün öndərlərindən inkar edənlər dedilər ki: "Şübhəsiz, biz səni ağılsız görürük. Biz qəti surətdə sənin yalançılardan olduğuna inanırıq".

67. Hud belə dedi: "Ey qövmüm! Mən ağılsız deyiləm. Əksinə mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm".

68. "Rəbbimin vəhy etdiklərini sizə təbliğ edirəm. Mən sizin üçün etibar edəcəyiniz bir nəsihətçiyəm".

69. "Sizi xəbərdar etməsi üçün aranızdan bir adam vasitəsilə Rəbbinizdən sizə bir zikr (vəhy və öyüd) gəlməsinə təəccübləndinizmi? Xatırlayın ki, Allah sizi Nuh qövmündən sonra onların yerinə gətirdi və sizi yaradılış etibatilə daha güclü etdi. Allahın nemətlərini xatırlayın ki, nicat tapasınız".

70. Onlar: "Sən bizə tək Allaha ibadət edək, atalarımızın ibadət etdiklərindən əl çəkək deyəmi gəldin? Əgər doğru söyləyənlərdənsənsə, bizi təhdid etdiyin əzabı bizə gətir", – dedilər.

71. Hud: "Artıq sizə Rəbbinizdən bir əzab və qəzəb enmişdir. Haqlarında Allahın heç bir dəlil endirmədiyi, yalnız sizin və atalarınızın uydurduğu bir sıra isimlər (uydurma tanrılar) haqqındamı mənimlə mübahisə edirsiniz? Elə isə (başınıza gələcək olanı) gözləyin! Mən də sizinlə birlikdə gözləyənlərdənəm!" – dedi.

72. Belə olduqda biz onu və onunla birlikdə olanları rəhmətimizlə xilas etdik. Ayələrimizi təkzib edən və iman etməyənlərin isə kökünü kəsdik.

73. Səmud qövmünə[1] də qardaşları Salihi peyğəmbər olaraq göndərdik. Dedi ki: "Ey qövmüm! Allaha qulluq edin. Sizin üçün Ondan başqa bir ilah yoxdur. Həqiqətən, sizə Rəbbinizdən (mənim bir peyğəmbər olduğumu göstərən) açıq-aydın bir dəlil gəldi. Budur sizə bir möcüzə olaraq Allahın bu dəvəsi! Buraxın onu, Allahın mülkündə yesin, içsin. Ona bir pislik etməyin. Yoxsa sizi ağrılı-acılı bir əzab yaxalayar".

74. "Xatırlayın ki, Allah Ad qövmündən sonra sizi onların yerinə gətirdi və sizi yer üzündə yerləşdirdi. Yerin düzlüklərində qəsrlər tikir, dağları oyub evlər düzəldirsiniz. Artıq Allahın nemətlərini xatırlayın, yer üzündə fitnə-fəsad törədərək hərc-mərclik salmayın".

75. Qövmünün kibrlənən öndərləri xor görülüb əzilən inananlara: "Siz Salihin, Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbər olduğunu (həqiqətən) bilirsinizmi?" – dedilər. Onlar da: "Biz şübhəsiz, onunla göndərilənə inananlarıq", – dedilər.

---

lər əvvəl yox olmuş bu qövm həzrət Peyğəmbər dövründə hələ də yaddaşlarda yaşayırdı. Bu ayədən başqa Qur`anda 23 yerdə Ad qövmündən bəhs olunmuşdur. Misal üçün baxın: Əraf, 7/74; Tövbə, 9/70; Hud, 11/50, 59-60; İbrahim, 14/9; Həcc, 22/42.

1 Suriya ilə Hicaz arasında və Mədinədən şimalda yerləşən Hicr adlı bölgədə yaşamış qədim bir ərəb qövmüdür. Bu qövm əvvəllər tövhid inancına sahib idilər, sonradan bütpərəst oldular. Həzrət Salih onlara peyğəmbər olaraq göndərilmişdi. Qur`anın 15-ci surəsi Hicr adlanır. Bu surənin 80-ci ayəsində Səmud qövmündən "Hicr əhli" bəhs olunur. Bundan başqa Qur`anda 25 yerdə bu qövmdən bəhs olunur, onların inkarçılıqları vurğulanır. Misal üçün baxın: Tövbə, 9/70; Hud, 11/61, 68, 95; İbrahim, 14/9; İsra, 17/59; Həcc, 22/42; Furqan, 25/38.

76. Təkəbbür göstərənlər: “Şübhəsiz, biz sizin inandığınız şeyi inkar edənlərik”, – dedilər.

77. Nəhayət, dəvəni kəsdilər, Rəblərinin əmrinə qarşı çıxdılar və: “Ey Salih! Sən əgər (dediyin kimi) peyğəmbərlərdənsənsə, bizi təhdid etdiyin əzabı gətir”, – dedilər.

78. Belə olduqda onları o qüvvətli sarsıntı yaxaladı, yurdlarında üzü üstə hərəkətsiz çöküb qaldılar.

79. Artıq Salih onlardan üz döndərdi və: “And olsun, mən sizə Rəbbimin vəhy etdiklərini təbliğ etdim və sizə nəsihət verdim. Lakin siz nəsihət verənləri sevmirsiniz”, – dedi.

80. Lutu da peyğəmbər olaraq göndərdik. Bir vaxt o, qövmünə belə demişdi: “Sizdən əvvəl aləmlərdən heç kimin etmədiyi çirkin işimi edirsiniz?”

81. “Həqiqətən, siz qadınları qoyub şəhvətlə kişilərə yaxınlaşırsınız. Xeyr, siz həddi aşan bir topluluqsunuz”,

82. Qövmünün cavabı isə ancaq: “Çıxarın bunları məmləkətinizdən! Guya, onlar özlərini çox təmiz saxlayan insanlardır!” – deməkdən ibarət oldu.

83. Belə olduqda biz də onu və övrəti istisna olmaqla ailə üzvlərini xilas etdik. Övrəti isə əzab içində qalanlardan oldu.

84. Onların üstünə bir əzab yağışı yağdırdıq.[1] Gör günahkarların aqibəti necə oldu?!

85. Mədyən xalqına[2] da qardaşları Şüeybi peyğəmbər olaraq göndərdik. Dedi ki: “Ey qövmüm! Allaha qulluq edin. Sizin üçün Ondan başqa heç bir ilah yoxdur. Rəbbinizdən sizə açıq-aydın bir dəlil gəlmişdir. Artıq ölçünü və mizanı düz tutun. Nizama salındıqdan sonra yer üzündə fitnə-fəsad törətməyin. İnananlarsınızsa, bunlar sizin üçün xeyirlidir”.

86. “Bir də hədələyərək Ona iman edənləri Allahın yolundan yayındırmaq, Allahın yolunu əyri və təzadlı göstərmək üçün hər yol üstündə oturmayın. Xatırlayın ki, siz az (və gücsüz) idiniz, O, sizi çoxaltdı. Görün fitnə-fəsad törədənlərin aqibəti necə oldu?!”

87. “Əgər sizdən bir qismi mənimlə göndərilən həqiqətə inanmış, bir qismi də inanmamışsa, artıq Allah aramızda hökmünü verənə qədər səbir edin. O, hökm verənlərin ən xeyirlisidir”.

88. Şüeybin qövmündən kibrlənən öndərlər dedilər ki: “Ey Şüeyb! And olsun, ya qəti surətdə bizim dinimizə dönərsiniz, ya da mütləq səni və səninlə birlikdə inananları məmləkətimizdən çıxararıq”. Şüeyb: “İstəməsək də?” – dedi.

89. “Allah bizi sizin dininizdən qurtardıqdan sonra əgər yenidən o dinə qayıtsaq, şübhəsiz ki, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəmədikcə, sizin dininizə dönən deyilik. Rəbbimiz hər şeyi elmi ilə əhatə etmişdir. Biz yalnız Alla-

1 Hicr surəsinin 74-cü ayəsində də ifadə edildiyi kimi bu yağış daş yağışıdır.

2 Mədyən Fələstin ilə Misir arasında Sina yarımadasının şimalındakı (İordaniya və İsrailin cənubundakı) dağlıq bölgəyə verilən addır. Həzrət Şüeybin dövründə ərəblərin Əmur soyuna mənsub qəbilələr yaşayırdı. Mədyənlə əlaqəli olaraq baxın: Hud, 11/84; Hicr, 15/78; Şüəra, 26/176; Sad, 38/13; Qaf, 50/14.

ha təvəkkül etdik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında haqq ilə hökm ver. Çünki sən hökm verənlərin ən xeyirlisisən".

90. Şüeybin qövmündən inkar edən öndərlər dedilər ki: "(Ey əhali!) And olsun ki, əgər Şüeybə tabe olsanız, o zaman ziyana düşənlərdən olarsınız".

91. Belə olduqda onları o qorxunc sarsıntı yaxaladı, yurdlarında üzü üstə hərəkətsiz çöküb qaldılar.

92. Şüeybi yalançı hesab edənlər sanki orada heç yaşamamışdılar. Şüeybi yalançı hesab edənlər ki var, əsl ziyana uğrayanlar onlar oldu.

93. (Şüeyb) onlardan üz döndərdi və dedi ki: "Ey qövmüm! And olsun, mən sizə Rəbbimin vəhy etdiklərini çatdırdım. Sizə öyüd-nəsihət verdim. İndi mən inkarçı bir qövmə görə necə kədərlənim?!"

94. Biz hansı məmləkətə bir peyğəmbər göndərdiksə, (qarşı çıxmaqdan əl çəkib) yalvarıb-yaxarsınlar deyə oranın xalqını yoxsulluq və sıxıntıya düçar etdik.

95. Sonra pisliyin (sıxıntı və məhrumiyyətin) yerinə yaxşılığı (bolluğu) gətirdik. Nəhayət, çoxaldılar və (nankorluq edib): "Atalarımız da sıxıntıya uğramış və bolluğa qovuşmuşdular", – dedilər. Biz də onları nə baş verdiyini anlamadıqları bir anda qəflətən yaxaladıq.

96. Əgər o məmləkətlərin xalqları iman etsəydilər və Allaha qarşı gəlməkdən çəkinsəydilər, əlbəttə, onların üstünə göydən və yerdən neçə-neçə bərəkətlər(in qapısını) açardıq. Lakin onlar inkar etdilər, biz də onları etdikləri günahlar səbəbi ilə yaxaladıq.

97. Yoxsa məmləkətlərin xalqları gecə vaxtı yuxudaykən onlara əzabımızın gəlməyəcəyindən əmin oldular?

98. Ya da o məmləkətlərin xalqları səhər vaxtı əyləndikləri zaman onlara əzabımızın gəlməyəcəyindən əmin oldular?

99. Yaxud Allahın tələsindən əmin oldular? Ziyana uğrayan qövmdən başqası Allahın məkrindən əmin olmaz.[1]

100. Əvvəlki sahiblərindən sonra yer üzünə varis olanlara bu həqiqət açıq-aydın bəlli olmadımı ki, biz istəsəydik onları da (əvvəlkilər kimi) günahları ucbatından cəzalandırardıq. Biz onların qəlblərini möhürləyərik, onlar haqqı eşitməzlər.

101. Budur məmləkətlər! Onların xəbərlərindən bir qismini sənə danışırıq. And olsun, peyğəmbərləri onlara açıq-aydın dəlillər gətirmişdi. Lakin onlar daha əvvəl inkar etdiklərinə inanacaq deyildilər. Allah kafirlərin qəlblərini bax belə möhürləyər.

102. Biz onların çoxunda əhdə vəfa görmədik. Amma, həqiqətən, onların çoxunu yoldan çıxmış kimsələr olaraq gördük.

103. Sonra onların ardından Musanı açıq-aşkar möcüzələrimizlə Firona və onun əyanlarına peyğəmbər olaraq göndərdik, onları (möcüzələri) inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!

---

1 "Allahın tələsi" ifadəsi məcazi bir ifadə olub "inkarçılara möhlət verib sonra onları qəflətən yaxalaması", "inkarçıların inkarına qarşılıq verməsi" kimi mənalar ifadə edir.

104. Musa dedi ki: "Ey Firon! Şübhəsiz ki, mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm".
105. Mənə, Allaha qarşı yalnız həqiqəti söyləmək yaraşar. Mən sizə Rəbbinizdən açıq-aydın bir dəlil (möcüzə) gətirdim. Artıq İsrail oğullarını mənimlə göndər.[1]
106. Firon: "Əgər açıq-aydın bir dəlil gətirmisənsə və əgər doğru söyləyənlərdənsənsə, göstər onu görək", – dedi.
107. (Fironun bu sözündən) sonra Musa əsasını yerə atdı. Bir də gördülər ki, açıq-aşkar bir əjdaha (oldu).
108. Əlini (qoynundan) çıxartdı. Bir də gördülər ki, o, baxanlar üçün ağappaq olub.[2]
109. Firon qövmündən əyanlar dedilər ki: "Şübhəsiz, bu adam mahir bir sehrbazdır".
110. "Sizi yerinizdən çıxarmaq istəyir". Firon əyanlara: "Elə isə siz nə düşünürsünüz?" – dedi.[3]
111. Onlar belə dedilər: "Musanı və qardaşını (bir müddət) saxla (onlara bir şey etmə) və şəhərlərə yığıcılar göndər".
112. "Bütün usta sehrbazları (yığıb) sənə gətirsinlər".
113. Sehrbazlar Firon(un hüzurun)a gəldilər. "Əgər qalib gələnlər biz olsaq, mütləq bizə bir mükafat var, eləmi?" – dedilər.
114. Firon: "Bəli. Üstəlik siz (nəinki mükafat alacaq, həm də) mütləq mənim ən yaxınlarımdan olacaqsınız", – dedi.
115. (Sehrbazlar:) "Ey Musa! Ya əvvəlcə sən at, ya da əvvəlcə atanlar biz olaq", – dedilər.
116. (Musa:) "Siz atın", – dedi. Onlar (əllərindəkini) atdıqda insanların gözlərini (sanki bağlayıb) sehrlədilər və onları qorxutdular. Böyük bir sehr göstərdilər.
117. Biz də Musaya: "Əlindəki əsanı yerə at", – deyə vəhy etdik. Bir də gördülər ki, o, onların uydurduqlarını yaxalayıb udur.
118. Beləliklə, haqq yerini tapdı və onların etdikləri şeylərin hamısı boşa çıxdı.
119. Artıq orada məğlub olmuş və xar olmuşdular.
120. Sehrbazlar isə səcdəyə qapandılar.
121. "Aləmlərin Rəbbinə iman etdik", – dedilər.
122. "Musa və Harunun Rəbbinə".
123. Firon: "Mən sizə izin vermədən ona iman etdiniz?" – dedi. "Şübhəsiz, bu, əhalisini oradan çıxarmaq üçün şəhərdə qurduğunuz bir hiylədir. Görəcəksiniz!"
124. "Mütləq sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsəcəyəm, sonra da (ibrət olsun deyə) sizin hamınızı, əlbəttə, asacağam".
125. Dedilər ki: "Biz mütləq Rəbbimizə dönəcəyik".

---

1 Firon İsrail oğullarını vətənlərindən uzaqlaşdırıb onları ən çətin işlərdə qul kimi işlədirdi.

2 Həzrət Musanın bu möcüzəsi üçün baxın: Qəsəs, 28/32; Şüəra, 26/33.

3 Həzrət Musa ilə Firon və sehrbazlar arasında baş verən bu hadisə ilə əlaqəli olaraq baxın: Taha, 20/60-63; Şüəra, 26/43-44.

126. "Sən sırf Rəbbimizin ayələri bizə gəldiyi zaman iman etdiyimiz üçün bizə qarşı intiqam hissi bəsləyirsən. Ey Rəbbimiz! Üzərimizə səbir yağdır və bizim canımızı müsəlman olaraq al!"

127. Firon qövmündən olan əyanlar dedilər ki: "Sən (sehrbazları cəzalandırıb) Musanı və qövmünü bu ölkədə fəsad törətsinlər, səni və ilahlarını tərk etsinlər deyə buraxacaqsan?" Firon: "Biz onların oğullarını öldürəcək, qızlarını sağ buraxacağıq. Biz onlara qarşı əzici bir gücə sahibik", – dedi.

128. Musa qövmünə: "Allahdan yardım istəyin və səbir edin. Şübhəsiz, yer üzü Allahındır. Qullarından istədiyini ona varis edər. Aqibət Allaha qarşı gəlməkdən çəkinənlərindir", – dedi.

129. Dedilər ki: "Sən bizə gəlməzdən əvvəl də bizə işgəncə olundu, gəldikdən sonra da". Musa: "Bəlkə də Rəbbiniz düşməninizi həlak edəcək və sizi bu yerdə (Misirdə) hökmran edib, necə davranacağınıza baxacaq", – dedi.

130. And olsun, biz Firon ailəsini öyüd götürsünlər deyə illərcə davam edən qıtlıq və məhsul azlığı ilə cəzalandırdıq.

131. Lakin onlara yaxşılıq (bolluq vaxtı) gəldiyi zaman: "Bu bizimdir (biz çalışıb qazandıq)", – deyərlər. Əgər başlarına bir yamanlıq gələrsə, Musa və onunla birlikdə olanların uğursuzluğuna yozardılar. Yaxşı bilin ki, onların uğursuzluq səbəbi ancaq Allah qatında (yazılı)dır. Lakin çoxları bilməz.

132. Dedilər ki: "Bizi ovsunlamaq üçün nə gətirirsən gətir, biz sənə inanan deyilik".

133. Biz də hər biri ayrı-ayrılıqda bir möcüzə olaraq başlarına tufan, çəyirtkə, güvə (həşərat), qurbağalar və qan göndərdik. (Heç birindən ibrət almadılar.) Kibrləndilər və günahkar bir qövm oldular.

134. Üstlərinə əzab çökdüyü zaman: "Ey Musa! Sənə verdiyi sözə uyğun olaraq bizim üçün Rəbbinə dua et. Əgər əzabı üstümüzdən götürsən, mütləq sənə inanacağıq və İsrail oğullarını səninlə birlikdə, əlbəttə, göndərəcəyik", – dedilər.

135. Lakin müəyyən bir müddətə qədər əzabı üstlərindən götürdükdə dərhal andlarını pozdular.

136. Bu səbəblə onlardan intiqam aldıq. Ayələrimizi təkzib etmələri və onlara əhəmiyyət verməmələri səbəbi ilə onları dənizdə boğduq.

137. Xor görülüb əzilməkdə olan qövmü (İsrail oğullarını) torpağına bolluq və bərəkət verdiyimiz yerin şərqinə və qərbinə varis etdik. Rəbbinin İsrail oğullarına verdiyi gözəl söz onların səbir etmələri səbəbi ilə gerçəkləşdi.[1] Firon və qövmünün düzəltdiklərini və (həvəslə qurub) ucaltdıqlarını yerlə bir etdik.

138. İsrail oğullarını dənizdən keçirdik. Özlərinə aid bütlərə sitayiş edən bir qövmə rast gəldilər. İsrail oğulları: "Ey Musa! Onların özlərinə aid ilahları (bütləri) olduğu kimi sən də bizə aid bir büt düzəlt", – dedilər. Musa belə dedi: "Şübhəsiz, siz cahillik edən bir qövmsünüz".

1 Daha əvvəl yerli Misir xalqının hakimiyyəti altında olan Misir və Şamın məhsuldar şərq və qərb ərazilərinə əzilən İsrail xalqı yerləşmiş, bu surənin 128-ci və 129-cu ayələrindəki vəd gerçəkləşmişdi.

139. "Şübhəsiz, bunlar (din adına) yaşadıqları həyat baxımından yox olmağa məhkumdurlar. Bütün əməlləri də batildir".

140. "Sizi aləmlərdən üstün tutduğu halda sizə Allahdan başqa ilah axtarım?"

141. Bir vaxt sizi Firon ailəsindən qurtarmışdıq. Sizi ən pis əzaba düçar edirdilər. Oğullarınızı öldürür, qızlarınızı sağ buraxırdılar. Bunda sizin üçün Rəbbiniz tərəfindən böyük bir imtahan var idi.

142. Musaya otuz gecəlik müddət təyin etdik, buna on (gecə də) əlavə etdik. Beləliklə, Rəbbinin təyin etdiyi vaxt qırx gecəyə tamamlandı. Musa qardaşı Haruna: "Qövmüm arasında mənim yerimə keç və islah et. Fitnəkarların yoluna uyma", – dedi.[1]

143. Musa təyin etdiyimiz yerə gəlib, Rəbbi də onunla danışdıqda: "Rəbbim! Mənə (özünü) göstər, sənə baxım", – dedi. Allah isə: "Məni (dünyada) qətiyyən görə bilməzsən. Lakin (o) dağa bax, əgər o, yerində durarsa, sən məni görə bilərsən", – dedi. Rəbbi dağa təcəlli etdikdə[2] onu darmadağın etdi. Musa da özündən gedib yıxıldı. Oyandıqda: "Səni nöqsanlardan uzaq tuturam, Allahım! Sənə tövbə etdim. Mən inananların ilkiyəm", – dedi.

144. Allah: "Ey Musa! Vəhylərim və danışmağımla səni seçib insanlardan üstün tutdum. Elə isə sənə verdiyimi al və şükür edənlərdən ol!" – dedi.

145. Musa üçün Tövrat lövhələrində hər şeyə dair bir öyüd və hər şeyin təfsilatını yazdıq və ona belə dedik: "İndi onları möhkəm tut, qövmünə də əmr et ki, onları ən gözəl şəkildə mənimsəsinlər (tətbiq etsinlər). Yaxın zamanda sizə fasiqlərin yurdunu göstərəcəyəm".

146. Yer üzündə haqsız yerə kibrlənənləri ayələrimdən uzaqlaşdıracağam. (Onlar) hər bir ayəni görsələr də ona iman etməzlər. Doğru yolu görsələr, onunla getməzlər. Amma azğınlıq yolunu görsələr, (dərhal) ona yönələrlər. Bu, onların ayələrimizi yalan saymaları və hər zaman onlardan qafil olmaları səbəbi ilədir.

147. Ayələrimizi və axirətə qovuşmağı yalan sayanların əməlləri boşa çıxmışdır. Onlar ancaq etdiklərinin cəzasını çəkərlər.

148. Musanın qövmü on (un Tura yollanmasın)dan sonra zinət əşyalarından böyürtüsü olan bir buzov heykəli (düzəldərək onu ilah) tutdular. Onun özləri ilə danışmadığını və onlara heç bir yol göstərmədiyini görmədilərmi? (Beləliklə,) onu (ilah) qəbul etdilər, zalım kimsələr oldular.

149. İsrail oğulları (etdiklərinə) peşman olub həqiqətdən sapdıqlarını gördükdə: "Əgər Rəbbimiz bizə rəhm etməz və bizi bağışlamazsa, biz mütləq ziyana uğrayanlardan olarıq", – dedilər.

150. Musa qövmünə qəzəbli və kədərli bir halda döndükdə: "Məndən sonra nə pis işlər gördünüz! Rəbbinizin əmrini gözləməyib tələsdinizmi?" – dedi. (Qəzəbindən) lövhələri attı və qardaşının saçından tutdu, onu özünə tərəf çəkməyə başladı. (Qardaşı:) "Ey anam oğlu! Qövm məni gücsüz gördü. Az qaldı ki, məni öldürələr.

---

1 Həzrət Musanın qövmü: "Ey Musa! Allahı açıq-aşkar görmədikcə sənə inanmayacağıq", – demişdilər. (Baxın: Bəqərə, 2/55.) Bu ayənin son cümləsi onlara da bir cavabdır.

2 Allahın dağa təcəlli etməsi Onun qüdrət və ucalığının dağ üzərində təzahür etməsi deməkdir.

Sən də mənimlə belə rəftar edərək düşmənləri sevindirmə. Məni o zalımlar topluluğu ilə bir tutma", – dedi.

151. (Musa:) "Ey Rəbbim! Məni və qardaşımı bağışla. Bizi öz rəhmətinə daxil et. Sən mərhəmətlilərin ən mərhəmətlisisən", – dedi.

152. Buzovu ilah tutanlara mütləq (axirətdə) Rəblərindən bir qəzəb, dünya həyatında isə bir zillət yetişəcək. Biz iftiraçıları belə cəzalandırarıq.

153. Pis əməllər törədib sonra ardından tövbə edənlər ilə iman (larında səbat) edənlərə gəlincə, şübhə yoxdur ki, Rəbbin ondan (tövbədən) sonra, əlbəttə, çox bağışlayandır, çox mərhəmət edəndir.

154. Musanın qəzəbi soyuduqda (atdığı) lövhələri götürdü. Onların yazısında Rəblərindən qorxanlar üçün bir hidayət və bir rəhmət var idi.

155. Musa təyin etdiyimiz yerə getmək üçün qövmündən yetmiş adam seçdi. Onları sarsıntı yaxaladıqda (özlərindən getdilər). Musa: "Ey Rəbbim! İstəsəydin onları da, məni də bundan əvvəl həlak edərdin. İndi aramızdan bəzi səfehlərin etdiyi günah səbəbi ilə bizi həlak edəcəksən? Bu, sırf sənin bir imtahanındır. Onunla istədiyini zəlalətə düçar edər, istədiyini də doğru yola yönəldərsən. Sən bizim vəlimizsən. Artıq bizi bağışla və bizə rəhm et. Sən bağışlayanların ən xeyirlisisən", – dedi.

156. "Bizim üçün dünyada da bir yaxşılıq yaz, axirətdə də. Çünki biz Sənə yönəldik". Allah belə dedi: "Əzabım ki var, istədiyimi ona düçar edərəm. Rəhmətim isə hər şeyi əhatə etmişdir. Onu mənə qarşı gəlməkdən çəkinənlərə, zəkatı verənlərə və ayələrimizə inananlara yazacağam".

157. Onlar yanlarındakı Tövratda və İncildə yazılı gördükləri Rəsula, o ümmi[1] peyğəmbərə tabe olan kimsələrdir. O, onlara yaxşılığı əmr edər, onları pislikdən daşındırar. Onlara yaxşı və təmiz şeyləri halal, pis şeyləri isə haram buyurar. Üzərlərindəki ağır yükləri və zəncirləri qaldırar.[2] Ona iman edənlər, ona ehtiram göstərənlər, ona yardım edənlər və ona endirilən nura (Qur`ana) tabe olanlar ki var, onlar qurtuluşa nail olanlardır.

158. (Ey Muhamməd!) De ki: "Ey insanlar! Şübhəsiz, mən göylərin və yerin hökmranlığı özünə aid olan Allahın hamınıza göndərdiyi peyğəmbəriyəm. Ondan başqa heç bir ilah yoxdur. O dirildər və öldürər. Elə isə Allaha və Onun sözlərinə inanan Rəsuluna, o ümmi peyğəmbərə iman edin və ona tabe olun ki, doğru yolu tapasınız".

159. Musanın qövmündən (insanları) haqq ilə doğru yola yönəldən və onunla ədalətli davranan bir ümmət də var idi.

160. Biz onları on iki qəbiləyə böldük. (Tih səhrasında susuzluqdan əziyyət çəkən) qöv-

---

1 "Ümmi" oxumağı, yazmağı bilməyən insan deməkdir. Ancaq oxuma-yazma bilməyən hər insan savadsız olmadığı üçün "ümmi" cahil mənasına gəlmir. Oxuma-yazma bilməyən həzrət Peyğəmbər vəhy yolu ilə aldığı bilgilərlə yanaşı böyük ölçüdə dünyəvi təcrübə və biliyə də sahib idi.

2 Ayədəki "ağır yük" və "zəncir" ifadələri məcazi olub "ağır mükəlləfiyyətlər, ağır öhdəliklər" mənalarını ifadə edir.

mü Musadan su istədikdə biz ona: "Əsanı daşa vur", – deyə vəhy etdik. (O, əsasını daşa vurduqda) daşdan on iki bulaq fışqırdı. Hər kəs (öz) su içəcəyi yeri bildi. Buludu üstlərinə kölgəlik etdik və onlara qüdrət halvası və bildirçin endirdik. "Sizə ruzi olaraq verdiyimiz şeylərin yaxşı və təmiz olanlarından yeyin", – (dedik). Onlar bizə zülm etmədilər, lakin öz nəfslərinə zülm edirdilər.

161. O zaman onlara deyilmişdi ki: "Bu məmləkətə[1] yerləşin. Orada istədiyiniz kimi yeyin və: "Hitta (Ya Rəbb! Bizi bağışla!)" – deyin. Şəhərin qapısından əyilərək təvazö ilə daxil olun ki, biz də sizin xətalarınızı bağışlayaq. Yaxşılıq edənlərə daha da artığını verəcəyik".

162. Onlardan zülm edənlər dərhal sözü özlərinə deyiləndən başqa şəklə saldılar. Biz də zülm etmələrinin əvəzi olaraq üstlərinə göydən bir əzab göndərdik.[2]

163. (Ey Muhamməd!) Onlardan dəniz sahilində yerləşən şəhər əhalisinin[3] halını soruş. Bir zaman onlar şənbə (qadağası) barəsində həddi aşırdılar. Çünki tətil etdikləri şənbə günü balıqlar onlara sürü-sürü gəlir, tətil etmədikləri (digər) günlərdə isə gəlmirdilər. Yoldan çıxmaları səbəbi ilə onları məhz belə imtahan edirdik.[4]

164. Onlardan bir dəstə demişdi ki: "Siz Allahın həlak edəcəyi və ya şiddətli bir əzaba düçar edəcəyi bir qövmə nə üçün (boş yerə) öyüd-nəsihət verirsiniz?" Onlar da: "Rəbbinizə bir üzrxahlıq bildirmək üçün, bir də bəlkə Allaha qarşı gəlməkdən çəkinərlər deyə (öyüd-nəsihət veririk)", – demişdilər.

165. Onlar özlərinə xatırladılanı unutduqları zaman biz də pislikdən daşındırmağa çalışanları qurtardıq. Zülm edənləri yoldan çıxdıqlarına görə şiddətli bir əzab ilə yaxaladıq.

166. Qadağan olunduqları şeylərdən əl çəkmək istəmədikdə isə onlara: "Alçaq meymunlar olun", – dedik.[5]

167. Rəbbin, əlbəttə, qiyamət gününə qədər onlara əzabın ən şiddətlisini daddıracaq kimsələri göndərəcəyini bildirmişdi. Şübhəsiz, Rəbbin, əlbəttə, tez cəza verəndir. Şübhəsiz, o, çox bağışlayandır, çox mərhəmət edəndir.

168. Biz onları yer üzündə parçalayıb firqələrə böldük. Onlardan saleh kimsələr var idi. Aralarında elə olmayanları da var idi. Bəlkə qayıdarlar deyə onları yaxşılıqlar və pisliklər ilə sınadıq.

---

1 Adı keçən məmləkətin Qüds və ya Əriha olduğu rəvayət olunmuşdur.

2 Bəqərə surəsinin 58-59-cu ayələrində də qeyd edildiyi kimi söyləmələri istənilən "hitta (ya Rəbb bizi əfv et)" ifadəsini, təfsir mənbələrinin bildirdiyinə görə buğda mənasına gələn "hinta" ilə əvəz edərək guya istehza etmişdilər.

3 Ayədə qeyd olunan bu şəhər İordaniyanın Əqəbə limanına yaxın Eylə qəsəbəsi ola bilər.

4 Allah-Təala İsrail oğullarına şənbə (səbt) günü dünyəvi işlərlə və o cümlədən balıq ovu ilə məşğul olmamağı və o günü ibadətlə keçirib tətil etməyi əmr etmişdi. Balıqlar şənbə günləri axın-axın sahilə gəlir, digər günlərdə isə o qədər gəlmirdi. Bu bir imtahan idi. İsrail oğulları bu qadağanı pozaraq şənbə günləri də balıq ovlamağa başladılar. Ayədə bəhs olunan hadisə budur.

5 Ayədə bəhs olunan qövmün meymun olmaları haqqında iki fərqli fikir var. Bir fikrə görə, onlar həqiqətən meymuna çevrilməklə cəzalandırılmışlar. Digər fikrə görə, ayədə nəzərdə tutulan fiziki-görünüş olaraq meymuna çevrilmək deyil, meymunlaşmaqdır. Yəni o insanlar meymun kimi alçaq kimsələr olmuşlar.

169. Nəhayət onların ardından yerlərinə Kitaba (Tövrata) varis olan (pis) bir nəsil gəldi. Bu müvəqqəti dünyanın dəyərsiz malını alar və: "(Onsuz da) biz bağışlanacağıq", – deyərdilər. Onlara buna bənzər bir mal gəlsə, onu da alarlar. Allah haqqında haqdan başqa bir şey söyləməyəcəklərinə dair onlardan Kitabda söz alınmamışdımı? Onun içindəkiləri oxumamışdılarmı? Halbuki Allaha qarşı gəlməkdən çəkinənlər üçün axirət yurdu daha xeyirlidir. Heç düşünmürsünüzmü?

170. Kitaba möhkəm sarılanlara və namazı düzgün qılanlara gəlincə, şübhəsiz, biz saleh işlər görən (fəzilətli) kimsələrin mükafatını zay etmərik.

171. Bir vaxt dağı sanki bir kölgə kimi onların üstünə qaldırmışdıq, üstlərinə düşəcəyini sanmışdılar. (Onlara:) "Sizə verdiyimiz Kitaba möhkəm sarılın və onun içindəkiləri xatırlayın ki, Allaha qarşı gəlməkdən çəkinəsiniz", – demişdik.

172. Rəbbin (əzəldə) Adəm oğullarının sülblərindən zürriyyətlərini almış, onları özlərinə qarşı şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – demişdi. Onlar da: "Bəli, şahid olduq (ki, Rəbbimizsən)", – demişdilər. Belə etməyimiz qiyamət günü "Biz bundan xəbərsiz idik", – deməməyiniz üçündür.

173. Yaxud: "Bizdən əvvəl atalarımız Allaha şərik qoşmuşlar. Biz onlardan sonra gələn bir nəsilik. İndi, batilə uyanların etdikləri üzündən bizi həlak edəcəksən?" – deməməyiniz üçündür.

174. Haqqa dönsünlər deyə ayələrimizi belə müfəssəl açıqlayırıq.

175. Ona ayələrimizi verdiyimiz halda onlardan uzaqlaşıb Şeytanın onu özünə tabe etdiyi, bu səbəblə də azğınlardan olan kimsənin xəbərini onlara danış.

176. İstəsəydik, o ayələrlə onu, əlbəttə, ucaldardıq. Lakin o, dünyaya bağlanıb qaldı, öz həvasına uydu. Onun halı elə bir köpəyə bənzəyir ki, üstünə getsən də, dilini çıxarıb ləhləyər, öz başına buraxsan da dilini çıxarıb ləhləyər. Bu, ayələrimizi yalan sayan qövmün halıdır. İndi onlara bu qissələri danış ki, düşünsünlər.

177. Ayələrimizi yalan sayan və ancaq özlərinə zülm edən bir qövmün halı necə də pisdir.

178. Allah kimi doğru yola yönəldərsə, doğru yolu tapan odur. Kimləri də azdırarsa, onlar məhz ziyana uğrayanlardır.

179. And olsun, biz cinlər və insanlardan qəlbləri olub bunlarla anlamayan, gözləri olub bunlarla görməyən, qulaqları olub bunlarla eşitməyən bir çoxlarını cəhənnəm üçün yaratdıq. Bunlar heyvanlar kimidir, hətta daha da aşağıdırlar. Bunlar məhz qafillərdir.[1]

180. Ən gözəl isimlər Allahındır. Ona o gözəl isimləri ilə dua edin və Onun isimləri haqqındakı həqiqəti təhrif edənləri tərk edin. Onlar etdiklərinin cəzasını çəkəcəklər.

181. Yaratdıqlarımızdan haqqa sarılaraq doğru yolu göstərən və onunla ədaləti bərqərar edən bir ümmət var.

---

1 Ayədə bildirilən kəslər onlara verilən bu qabiliyyətləri sui-istifadə etdikləri üçün cəhənnəmlik olmuşlar. Allah bunların belə davranacaqlarını əzəldə bildiyi üçün onları "cəhənnəmliklər" olaraq bildirmişdir.

**182.** Ayələrimizi yalan sayanlara gəlincə, biz onları bilməyəcəkləri bir yerdən yavaş-yavaş fəlakətə sürükləyəcəyik.

**183.** Mən onlara möhlət verirəm. Şübhəsiz, mənim tələm (dən qurtulmaq) çətindir.[1]

**184.** Onlar düşünmədilərmi ki, (çox yaxşı tanıdıqları, özləri ilə bir arada yaşamış) yoldaşlarında (Peyğəmbərdə) dəlilikdən əsər-əlamət yoxdur. O, ancaq açıq-aydın xəbərdar edəndir.

**185.** Onlar göylərdəki və yerdəki sonsuz hökmranlıq və nizama,[2] Allahın yaratdığı hər şeyə, əcəllərinin yaxın ola biləcəyinə heç nəzər salmadılarmı? Bundan sonra daha hansı sözə inanacaqlar?

**186.** Allah kimi azdırarsa, daha onu doğru yola yönəldəcək kimsə yoxdur. Allah onları azğınlıqları içində buraxar, çırpına-çırpına qalarlar.

**187.** Səndən qiyamətin nə zaman qopacağını soruşurlar. De ki: "Onun elmi ancaq Rəbbimin qatındadır. Onu öz vaxtında ancaq O, (Allah) ortaya çıxaracaq. O, göylərə də, yerə də ağır gəlmişdir. O, sizə ancaq bir anda gələcək". Sanki sənin ondan xəbərin varmış kimi səndən soruşurlar. De ki: "Onun elmi yalnız Allah qatındadır. Lakin insanların çoxu bilmir".

**188.** De ki: "Allah istəmədikcə mən özümə nə bir zərər, nə də bir fayda verə bilərəm. Əgər mən qeybi bilsəydim, daha çox xeyir əldə etmək istərdim və mənə pislik toxunmazdı. Mən inanan bir qövm üçün ancaq bir xəbərdar edən və bir müjdələyənəm".

**189.** Allah sizi tək bir nəfsdən yaradan və onunla hüzur tapsın deyə zövcəsini də ondan[3] yaradandır. (İnsan) zövcəsi ilə birləşdikdə zövcəsi yüngül bir yük yüklənir (hamilə qalır) və (bir müddət) onu daşıyır. Hamiləliyi ağırlaşdıqda ikisi də Rəbləri Allaha: "Əgər bizə yaxşı və sağlam bir övlad versən, əlbəttə, şükür edənlərdən olacağıq", – deyə dua edərlər.[4]

**190.** Lakin Allah onlara yaxşı və sağlam bir övlad verdikdə isə Allahın onlara verdiyi övlad barəsində Ona şəriklər qoşarlar. Allah onların şərik qoşduqları şeylərdən ucadır.

**191.** Heç bir şey yarada bilməyən, özləri də yaradılmış olan şeyləri Allaha şərik qoşurlar?

**192.** Halbuki onlar (tapındıqları ilahlar) nə onlara yardım edə bilərlər, nə də özlərinə yardım edə bilərlər.

**193.** Onları doğru yola çağırsanız, sizə uymazlar. Onları çağırsanız da, sussanız da sizin üçün birdir (bir nəticə əldə edə bilməzsiniz).

---

1 Buradakı "tələ" kəlməsi ilə əlaqədar olaraq bu surənin 99-cu ayəsinin istinadına baxın.

2 Baxın: Ən`am surəsinin 75-ci ayəsi ilə bağlı istinad.

3 Buradakı "ondan" ifadəsini "onun cinsindən" şəklində də başa düşmək olar.

4 Ayədə keçən "tək bir nəfsdən yaratdı" ifadəsi yaradılan zövcənin fiziki olaraq o nəsfdən yaradıldığını deyil, "nəfs" (insan) ilə zövcəsinin eyni növə – insan növünə mənsub olaraq yaradıldığını ifadə edir. Yəni insan növünün kişi cinsi olan Adəmə yenə insan növündən qadın cinsində bir zövcə yaradılmışdır.

194. Allahı buraxıb tapındıqlarınızın hamısı sizin kimi (yaradılmış) qullardır. Əgər doğru söyləyənlərsinizsə, dərhal onları çağırın, sizə cavab versinlər (duanızı yerinə yetirsinlər).

195. Məgər onların yeriyəcək ayaqları var? Yaxud tutacaq əlləri var? Və ya görəcək gözləri ya da eşidəcək qulaqları var? De ki: "Çağırın ortaqlarınızı, sonra mənə tələ qurun, mənə göz açmağa imkan verməyin, görək!"

196. Çünki mənim vəlim Kitabı (Qur`anı) endirən Allahdır. O, bütün salehlərə vəlilik edər.

197. Allahdan başqa tapındıqlarınızın isə sizə yardım etməyə gücləri yetməz. Onlar özlərinə də yardım edə bilməzlər.

198. Əgər onları doğru yola çağırsanız, eşitməzlər. Sən onların sənə baxdıqlarını görərsən, halbuki onlar görməzlər.

199. Sən əfv yolunu tut, yaxşılığı əmr et, cahillərdən üz döndər.

200. Əgər şeytandan sənə bir vəsvəsə gələrsə, dərhal Allaha sığın. Şübhəsiz, O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

201. Şübhə yoxdur ki, Allaha qarşı gəlməkdən çəkinənlər özlərinə şeytandan bir vəsvəsə toxunduğu zaman yaxşıca düşünərlər (dərhal Allahı xatırlar) sonra dərhal gözlərini açarlar.

202. Şeytanlara qardaş olanlara gəlincə, şeytanlar onları azğınlığın içinə çəkərlər, sonra da bundan əl çəkməzlər.

203. (Ey Muhamməd!) Onlara (istədikləri) bir ayə gətirmədiyin zaman (istehza edərək) deyərlər ki: "Gərək onu da bir yerdən düzüb-qoşaydın". De ki: "Mən ancaq Rəbbimdən mənə vəhy olunana tabe oluram. Bu (Qur`an ayələri) Rəbbinizdən gələn bəsirətlərdir (qəlb gözünü aydınlandıran nurlardır). İman edəcək bir topluluq üçün bir hidayət qaynağı və bir rəhmətdir".

204. Qur`an oxunduğu zaman ona qulaq asıb dinləyin və susun ki, sizə mərhəmət edilsin.

205. Təvazö ilə yalvararaq və qorxaraq, səsini yüksəltmədən səhər-axşam öz-özünə Rəbbini zikr et və qafillərdən olma.

206. Şübhəsiz Rəbbinin qatındakılar (mələklər) Ona ibadət etməkdə təkəbbür göstərməzlər. Onu təsbih edərlər və yalnız Ona səcdə edərlər.[1]

---

1 Bu ayə Qur`andakı on dörd səcdə ayəsindən biridir. Bunlardan birini oxuyan ya da dinləyən kimsənin səcdə etməsi vacibdir. Bu səcdəyə tilavət səcdəsi deyilir. Tilavət səcdəsi belə edilir: Dəstəmazlı halda qibləyə yönələrək təkbir gətirilib səcdə edilir. Üç dəfə "Subhanə Rabbiyəl-ə`la" deyərək səcdədən qalxılır. Bu səcdənin həm ayaq üstə, həm də oturaq vəziyyətdə edilməsi caiz olsa da ayaq üstə durub səcdə edilməsi daha uyğundur.

# 8. ƏNFAL SURƏSİ

Mədinə dövründə hicrətin ikinci ilində Bədr savaşından sonra nazil olmuşdur. 75 ayədən ibarətdir. Surənin adı ilk ayədəki "əl-ənfal" sözündən götürülmüşdür. "Ənfal" savaş qənimətləri deməkdir.

Savaşdan, xüsusilə Bədr savaşından sonra əldə olunan qənimətlər və bunların kimlərə və necə paylanacağı kimi məsələlər surənin başlıca mövzusunu təşkil edir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. (Ey Muhamməd!) Səndən qənimətlər haqqında soruşurlar. De ki: "Qənimətlər Allaha və Rəsuluna aiddir. Əgər möminlərsinizsə, Allaha qarşı gəlməkdən çəkinin, aranızı düzəldin, Allaha və Rəsuluna itaət edin".
2. Möminlər ancaq o kəslərdir ki, Allah adı gələndə qəlbləri ürpərər. Onun ayələri onlara oxunan zaman (bu) onların imanını artırar. Onlar yalnız Rəblərinə təvəkkül edərlər.[1]
3. Onlar namazı doğru-düzgün qılan, özlərinə ruzi olaraq verdiyimiz şeylərdən Allah yolunda xərcləyən kimsələrdir.
4. Onlar həqiqi möminlərdir. Onlara Rəbləri qatında yüksək mərtəbələr, bağışlanma və bol ruzi var.
5. Rəbbin səni haqq uğrunda (savaşmaq üçün) evindən çıxarmışdı. Möminlərdən bir dəstə isə bu barədə könülsüz idi.
6. Həqiqət açıq-aşkar ortaya çıxdıqdan sonra sanki göz görə-görə ölümə sürüklənirmiş kimi səninlə o barədə mübahisə edirdilər.
7. Allah sizə vəd edirdi ki, o iki dəstədən biri sizindir. Siz də gücsüz olanın sizin olmasını istəyirdiniz. Halbuki Allah sözləri ilə haqqı meydana çıxarmaq və kafirlərin kökünü kəsmək istəyirdi.[2]
8. Bu, günahkarların xoşuna gəlməsə də, Allahın haqqı ortaya çıxarması və batili ortadan qaldırması üçün idi.
9. Xatırlayın ki, yalvararaq Rəbbinizdən yardım istəyirdiniz. O da: "Mən sizə ard-arda gələn min mələklə yardım edirəm", – deyə cavab vermişdi.[3]
10. Allah bunu ancaq bir müjdə olsun və onunla qəlbləriniz təskinlik tapsın deyə etmişdi. Yoxsa yardım ancaq Allah qatındandır. Şübhəsiz, Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

---

1 Təvəkkül lazımi bütün tədbirləri gördükdən sonra işin nəticəsini Allaha həvalə edərək Ona güvənmək deməkdir.

2 Ayədə bildirilən iki dəstə Qüreyş müşriklərinin Məkkəyə tərəf gedən silahsız ticarət karvanı ilə Məkkədən Bədrə tərəf hərəkət edən Qüreyş ordusudur. Müsəlmanlar ordu ilə savaşmaq əvəzinə karvana hücum edərək qənimət əldə etmək istəmişdilər.

3 Burada Allahın yardımı min mələk vasitəsilə gerçəkləşmişdir. Yoxsa Allah-Təala istəsəydi, bir tək mələklə ya da vasitəsiz olaraq birbaşa yardım edərdi.

11. (Xatırlayın ki, Allah) öz tərəfindən bir əminlik olaraq sizi yüngül bir yuxuya daldırır, sizi təmizləmək, sizdən şeytanın vəsvəsəsini uzaqlaşdırmaq, qəlblərinizi möhkəmləndirmək və sizi sabitqədəm etmək üçün üstünüzə göydən yağmur yağdırırdı.

12. O zaman Rəbbin mələklərə: "Mən sizinləyəm. İman edənlərə mətanət verin. Mən kafirlərin qəlblərinə qorxu salacağam. İndi onların boyunlarına vurun. Vurun onların bütün barmaqlarına", – deyə vəhy edirdi.

13. Bu, onların Allaha və Rəsuluna qarşı gəldiklərinə görədir. Kim Allaha və Rəsuluna qarşı gələrsə, bilsin ki, Allahın cəzası şiddətlidir.

14. İndi siz dadın onu! Kafirlərə bir də cəhənnəm əzabı var.

15. Ey iman edənlər! Savaş meydanında kafirlərlə qarşılaşdığınız zaman onlara arxanızı çevirməyin (savaşdan qaçmayın).

16. – Döyüş taktikası olaraq düşməni vurmaq üçün geri çəkilmək ya da başqa bir dəstəyə qoşulmaq kimi hallar istisna olmaqla – belə bir gündə kim onlara arxasını dönərsə, o, mütləq Allahın qəzəbinə uğrayar. Onun gedəcəyi yer cəhənnəmdir. Nə pis yerdir ora!

17. (Döyüşdə) onları siz öldürmədiniz, lakin Allah onları öldürdü. Atdığın zaman da sən atmadın, lakin Allah atdı. Öz tərəfindən gözəl bir imtahanla möminləri sınamaq üçün Allah belə etdi.[1] Şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

18. Budur! (Allah möminləri gözəl bir şəkildə sınayar.) Bir də Allah kafirlərin hiyləsini zəif edəndir.

19. (Ey inkarçılar!) Əgər fəth[2] istəyirsinizsə, budur sizə fəth gəldi. Əgər (peyğəmbərə qarşı gəlməkdən) əl çəksəniz, bu sizin üçün daha xeyirli olar. Əgər qayıtsanız, biz də qayıdarıq. Dəstəniz nə qədər çox olsa da sizə heç bir fayda verməz. Çünki Allah möminlərlə bərabərdir.

20. Ey iman edənlər! Allaha və Rəsuluna itaət edin və (Qur`anı) dinlədiyiniz halda ondan üz döndərməyin.

21. (Qur`anı) eşitmədikləri halda "eşitdik" deyənlər kimi olmayın.[3]

22. Şübhəsiz, yer üzündə gəzən canlıların ən pisi düşünməyən (həqiqəti görməyən) karlar və lallardır.

---

1 Bədr savaşında təkbətək vuruşmalardan sonra həzrət Peyğəmbər hücum əmri verəcəyi anda Cəbrailin təlimatı ilə yerdən bir ovuc torpaq götürüb Qüreyş ordusunun üstünə tərəf atdı və "üzləri qovrulsun" buyurdu. Müşriklər gözlərinə girən tozları təmizləməklə məşğul ikən həzrət Peyğəmbər orduya hücum əmri verdi. Döyüş qələbə ilə nəticələndi.

2 Müşriklər döyüşə getməzdən əvvəl Kəbənin örtüyündən yapışıb: "Ey Allahım! Bu döyüşdə iki dəstədən doğru yolda olana yardım et, fəth nəsib et", – deyərək dua etmişdilər.

3 Həzrət Peyğəmbər nazil olan Qur`an ayələrini oxuyur, insanlara təbliğ edir, onun Allah kəlamı olduğuna inanmalarını və əmrlərinə tabe olmalarını istəyirdi. Müşriklər isə Qur`anı dinləyir "dinlədik (amma o qədər)" deyir, lakin iman etmirdilər. Onların bu hərəkətinə işarə edilərək qəlbən inanıb əməl etmədikcə Qur`anı sadəcə qulaqla dinləməyin "dinləmək" sayılmayacağını vurğulayır. Bu həqiqət möminlərin diqqətinə çatdırılaraq, dinləyib oxuduqları Qur`anın və həzrət Peyğəmbərin əmrlərini həyata keçirməyəcəkləri halda bir baxıma müşriklərin düşdüyü vəziyyətə düşəcəkləri xatırladılır.

23. Allah onlarda bir xeyir (haqqa yönəliş) olduğunu bilsəydi, əlbəttə, onlara eşitdirərdi. Onlara eşitdirsəydi də mütləq yenə üz döndərib gedərdilər.

24. Ey iman edənlər! Sizə həyat verəcək şeylərə sizi çağırdığı zaman Allahın və Rəsulunun dəvətini qəbul edin və bilin ki, Allah insan ilə qəlbi arasına girər. Yenə bilin ki, Onun hüzurunda toplanacaqsınız.

25. Sizdən yalnız zülm edənlərə toxunmaqla kifayətlənməyəcək bir əzabdan çəkinin və bilin ki, Allahın əzabı şiddətlidir.[1]

26. Xatırlayın ki, bir vaxt siz yer üzündə zəif və gücsüz idiniz. İnsanların sizi ələ keçirməyindən qorxurdunuz.[2] Allah sizi himayə etdi, yardımıyla dəstəklədi və sizə təmiz şeylərdən ruzi verdi ki, şükür edəsiniz.

27. Ey iman edənlər! Allaha və peyğəmbərinə xəyanət etməyin. Bilə-bilə öz (aranızdakı) əmanətlərinizə də xəyanət etməyin.

28. Bilin ki, mallarınız və övladlarınız bir imtahandır. Allah qatında isə böyük bir mükafat var.

29. Ey iman edənlər! Əgər Allaha qarşı gəlməkdən çəkinsəniz, O, sizə yaxşını pisdən seçəcək bir qavrayış verər və sizin pisliklərinizin üstünü örtər, sizi bağışlayar. Allah böyük lütf sahibidir.

30. Bir vaxt kafirlər səni ələ keçirmək və ya öldürmək ya da (Məkkədən) çıxarmaq üçün yollar axtarırdılar. Onlar tədbir görürdülər. Allah da tədbir görürdü. Allah tədbir görənlərin ən xeyirlisidir.[3]

31. Onlara ayələrimiz oxunduğu zaman: “Eşitdik. İstəsək, biz də bunun bənzərini, əlbəttə, söyləyərik. Bu, keçmişlərin nağıllarından başqa bir şey deyil”, – dedilər.

32. Bir vaxt onlar: “Ey Allahım, əgər bu (Qur`an) sənin qatından enmiş haqq (kitab) dırsa, dərhal üzərimizə göydən daş yağdır və ya bizə ağrılı-acılı bir əzab gətir”, – demişdilər.

33. Halbuki sən onların arasında olduğun müddətcə Allah onlara əzab verməz. Onlar bağışlanma diləyərkən də Allah onlara əzab verməz.

34. Onlar Məscidi-Haramdan (mömінləri) uzaq tutmağa çalışdıqları halda və oraya

1 Bu ayədə müsəlmanların pisliklərlə mübarizə aparmaq barəsində məsuliyyətli davranmaları əmr edilir, əks təqdirdə əzabın bütün cəmiyyəti əhatə edəcəyi ilə bağlı xəbərdarlıq edilir.

2 Baxın: Nisa surəsi, 98-ci ayə və onun istinadı.

3 Ayədəki “Allahın tədbir görməsi” ifadəsi məcazi olub “Allahın hiylələri pozması” və ya “qurğu quranları cəzalandırması” mənasına gəlir. Müşriklər həzrət Peyğəmbərin Mədinəyə hicrət edəcəyini öyrəndikdə ona mane olmaq üçün bir çarə tapmaq məqsədilə Darun-Nədvədə toplandılar. Çünki hicrətin baş tutacağı təqdirdə İslamın yayılmasının qarşısı alına bilməyəcək, bir çox mənfəətləri bu səbəblə yox olacaqdı. Toplantıda həzrət Peyğəmbərin həbs edilməsi, sürgün edilməsi və öldürülməsi istiqamətində təkliflər səsləndirildi. Öldürmək məsələni birdəfəlik həll etmək demək idi. Ancaq Haşim oğullarının problem çıxaracağından çəkinirdilər. Əbu Cəhl belə bir variant təklif etdi: “Hər qəbilədən bir gənc seçək, hərəsinin əlinə bir qılınc verək, hamısı birdən hücum edib onu öldürsünlər. Belə etsək Haşim oğulları bütün qəbilələrlə qarşıdurmaya girib bir haqq tələb edə bilməz”. Bu fikir qəbul olunduqda Cəbrail vəziyyətin nə yerdə olduğunu həzrət Peyğəmbərə xəbər verdi. Həzrət Peyğəmbər öz yatağına həzrət Əlini uzandıraraq həzrət Əbu Bəkrlə birlikdə Məkkədən çıxdı və hicrət etdi. Bununla əlaqəli olaraq baxın: Ali-İmran surəsi, 54-cü ayə və onun istinadı.

xidmət etməyə layiq olmadıqları halda Allah onlara nə üçün əzab etməsin? Oraya xidmət etməyə layiq olanlar ancaq Allaha qarşı gəlməkdən çəkinənlərdir. Lakin onların çoxu bilməz.

35. Kəbənin yanında onların duaları fit verib əl çalmaqdan ibarətdir. Elə isə (ey müşriklər) inkar etdiyinizə görə dadın əzabı.[1]

36. Şübhə yoxdur ki, inkar edənlər mallarını (insanları) Allah yolundan yayındırmaq üçün xərcləyirlər və xərcləyəcəklər. Sonra bu mallar onları peşman edəcək, sonra da məğlubiyyətə uğrayacaqlar. İnkar edənlər toplanıb cəhənnəmə sürüklənəcəklər.

37. Allah pisi təmizdən ayırmaq, pislərin hamısını bir-biri üstünə yığaraq cəhənnəmə qoymaq üçün belə edər. Onlar məhz ziyana uğrayanlardır.

38. Ey Muhamməd! İnkar edənlərə söylə: “Əgər (iman edib, düşmənçilik və savaşdan) əl çəksələr, keçmiş günahları bağışlanar. Əgər (düşmənçilik və savaşa) qayıtsalar, əvvəlkilərin aqibətinə düçar olarlar”.[2]

39. Fitnə qalmayana və din tamamilə Allahın olana qədər onlarla vuruşun. Əgər (küfr etməyə) son qoysalar, şübhəsiz ki, Allah onların etdiklərini haqqı ilə görəndir.

40. Əgər üz döndərsələr, bilin ki, Allah sizin dostunuzdur. O nə gözəl dostdur! O nə gözəl yardımçıdır!

41. Bilin ki, qənimət olaraq ələ keçirdiyiniz hər hansı bir şeyin beşdə biri mütləq Allaha, peyğəmbərə, onun yaxınlarına, yetimlərə, yoxsullara və yolda qalanlara aiddir. Əgər Allaha və haqq ilə batili bir-birindən ayırdığı gün, (yəni) iki ordunun (Bədrdə) qarşı-qarşıya gəldiyi gün qulumuza endirdiklərimizə[3] iman etmisinizsə (bunu belə qəbul edin). Allah hər şeyə haqqı ilə gücü yetəndir.

42. Xatırlayın ki, siz vadinin (Mədinəyə) yaxın tərəfində, onlar uzaq tərəfində, karvan isə sizdən aşağıda idi. (Onlar say etibarilə sizdən o qədər çox idilər ki,) Əgər görüşmək üçün vədələşmiş olsaydınız, (vəziyyəti öyrənən kimi həmin) vədələşmə barəsində ixtilafa düşərdiniz (savaşmaq fikrindən daşınardınız). Lakin Allah olacaq bir işi (möminlərin zəfərini) gerçəkləşdirmək üçün belə etdi ki, ölən açıq bir dəlillə ölsün, yaşayan da açıq bir dəlillə yaşasın. Şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

43. Xatırla ki, Allah yuxunda onları sənə az göstərirdi. Əgər onları sənə çox göstərsəydi, əlbəttə, ruhdan düşərdiniz və o iş barəsində bir-birinizlə çəkişərdiniz. Lakin Allah (sizi bunlardan) qurtardı. Çünki O, qəlblərdə olanı haqqı ilə biləndir.

44. Qarşılaşdığınız zaman onları sizin gözlərinizə az göstərir, sizi də onların gözlərində azaldırdı ki, Allah olacaq bir işi gerçəkləşdirsin. Bütün işlər Allaha döndərilir.

45. Ey iman edənlər! (Savaş üçün) bir dəstə ilə qarşılaşdığınız zaman səbat edin və Allahı çox zikr edin ki, qurtuluşa nail olasınız.

---

1 Müşriklər Məscidi-Haramda müsəlmanların ibadətinə mane olurdular. Onların bir qismi – kişilərlə qadınlar bir yerdə olmaqla – çılpaq bir şəkildə Kəbəni təvaf edərkən fit verib əl çalırdılar.

2 Ayədə keçmişdə küfrə qayıdanlara verilən cəzaların onlara da veriləcəyi ifadə edilir.

3 Baxın: Ali-İmran, 3/123-124.

46. Allah və Rəsuluna itaət edin və bir-birinizlə çəkişməyin. Yoxsa sonra zəifləyərsiniz və gücünüz, iqtidarınız əldən gedər. Səbirli olun. Çünki Allah səbir edənlərlədir.

47. Kibrlənmək, özünü insanlara göstərmək və (xalqı) Allah yolundan yayındırmaq üçün yurdlarından çıxanlar (Məkkə müşrikləri) kimi olmayın. Allah onların etdiklərini bilir.

48. Şeytan onlara etdiklərini süslü göstərmiş və: "Bu gün artıq insanlardan sizə qalib gələcək (heç kim) yoxdur, mütləq mən də sizə yardımçıyam", – demişdi. Lakin iki tərəf (savaş meydanında) üz-üzə gəldiyi zaman (şeytan) geri dönüb: "Mən sizdən uzağam. Çünki mən sizin görmədiyiniz şeylər (mələklər)[1] görürəm. Mən Allahdan qorxuram. Allahın cəzası şiddətlidir", – demişdi.

49. Xatırlayın ki, münafiqlər və qəlblərində xəstəlik olanlar: "Bunları dinləri aldatmışdır", – deyirdilər. Halbuki kim Allaha təvəkkül edərsə, heç şübhəsiz, Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

50. Mələklər kafirlərin üzlərinə və arxalarına vura-vura və "dadın atəşin əzabını" deyərək canlarını alarkən kaş ki, bir görəydin.

51. (Ey kafirlər!) Bu, sizin əllərinizin əvvəlcədən etdiyinin qarşılığıdır. Yoxsa Allah qullarına zülm edən deyil.

52. Bunların halı eynilə Firon ailəsi və onlardan əvvəlkilərin halı kimidir. Allahın ayələrini inkar etmişdilər, Allah da onları günahları səbəbi ilə dərhal yaxalamışdı. Şübhəsiz, Allah qüvvətlidir, əzabı şiddətlidir.

53. Bu, ona görədir ki, bir qövm özündə olan (yaxşı davranışlar)ı dəyişdirmədikcə Allah onlara verdiyi bir neməti dəyişdirməz və şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

54. Bunların halı eynilə Firon ailəsi və onlardan əvvəlkilərin halı kimidir. Onlar Rəblərinin ayələrini inkar etmişdilər, biz də onları günahları səbəbi ilə həlak etmişdik və Firon ailəsini də suda boğmuşduq. Hamısı zalım kimsələr idi.

55. Şübhəsiz, Allah qatında yer üzündə gəzən canlıların ən pisi inkar edənlərdir. Daha onlar iman etməzlər.

56. Onlar sənin əhd bağladığın, sonra da hər dəfə əhdlərini heç çəkinmədən pozan kimsələrdir.

57. Əgər onları savaşda ələ keçirsən, bunlar(a verəcəyin cəza) ilə onların arxalarında olanları da dağıt ki, ibrət götürsünlər.

58. (Əhd bağladığın) bir qövmün xəyanət etməsindən qorxsan, sən də sözləşməni pozduğunu eyni şəkildə onlara bildir. Çünki Allah xainləri sevməz.

59. İnkar edənlər əsla qurtulduqlarını zənn etməsinlər. Çünki onlar (sizi) aciz qoya bilməzlər.

60. Onlara qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın. Onlarla Allahın düşmənini, sizin düşməninizi və bunlardan başqa sizin bilmədiyiniz, lakin Alla-

1 Baxın: Ənfal, 8/ 8-9.

hın bildiyi digər düşmənləri qorxudarsınız. Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam olaraq ödənər. Sizə zülm edilməz.

61. Əgər onlar sülhə yanaşsalar, sən də ona yanaş və Allaha təvəkkül et. Çünki O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

62, 63. Əgər səni aldatmaq istəsələr, bil ki, sənə yetən Allahdır. O, səni öz yardımı ilə və möminlərlə dəstəkləyən və onların qəlblərini uzlaşdırandır. Əgər yer üzündəkilərin hamısını xərcləsəydin, sən onların qəlblərini uzlaşdıra bilməzdin. Lakin Allah onların arasını uzlaşdırdı. Şübhəsiz, O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

64. Ey Peyğəmbər! Sənə və sənə tabe olan möminlərə Allah yetər.

65. Ey Peyğəmbər! Möminləri savaşa təşviq et. Əgər aranızda səbirli iyirmi nəfər olsa, iki yüz nəfərə qalib gələrlər. Əgər aranızda (səbirli) yüz nəfər olsa, inkar edənlərdən min nəfərə qalib gələrlər. Çünki onlar anlamayan bir qövmdür.

66. İndi isə Allah yükünüzü yüngülləşdirdi və sizdə bir zəiflik olduğunu bildi. Əgər aranızda səbirli yüz nəfər olarsa, iki yüz nəfərə qalib gələrlər. Əgər aranızda (səbirli) min nəfər olarsa, Allahın izni ilə iki min nəfərə qalib gələrlər. Allah səbir edənlərlədir.

67. Yer üzündə düşməni məğlub edib hakim olana qədər heç bir peyğəmbərə əsir götürmək yaraşmaz. Siz müvəqqəti dünya mənfəətini istəyirsiniz, halbuki Allah axirəti (qazanmağınızı) istəyir. Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.[1]

68. Əgər Allahın daha əvvəl verilmiş bir hökmü olmasaydı, aldığınız şey (fidyə)dən ötrü sizə böyük bir əzab toxunardı.

69. Artıq əldə etdiyiniz qənimətdən halal və təmiz olaraq yeyin. Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

70. Ey Peyğəmbər! Əlinizdəki əsirlərə söylə: “Əgər Allah qəlblərinizdə (iman, ixlas, xoş niyyət kimi) bir xeyir (olduğunu) bilərsə, sizdən alınan fidyədən daha xeyirlisini sizə verər və sizi bağışlayar. Allah çox bağışlayandır, çox mərhəmət edəndir”.

71. Əgər sənə xəyanət etmək istəsələr, (bil ki,) onlar daha əvvəl Allaha da xəyanət etmişdilər, Allah onlara qarşı (sənə) imkan vermişdi. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

72. İman edib hicrət edən və Allah yolunda malları ilə, canları ilə cihad edənlər və (mühacirlərə) sığınacaq verib (onlara) yardım edənlər ki var, onlar bir-birilərinin dostudurlar. İman edib hicrət etməyənlərə gəlincə, hicrət edənə qədər onların vəlayətləri sizə aid deyil. Əgər din barəsində sizdən yardım istəsələr, – sizinlə

1 Bədr savaşının sonunda Rəsulullaha yetmiş nəfər savaş əsiri gətirilmişdi. Aralarında Peyğəmbərin əmisi Abbas ilə digər əmisi Əbu Talibin oğlu Aqil də var idi. Həzrət Peyğəmbər əsirlər haqqında nə tədbir görüləcəyi ilə bağlı səhabələrlə məşvərət etdi. Həzrət Əbu Bəkr: “Bunlar sənin qövmün və qohumlarındır. Onları öldürmə. Onlardan fidyə al. Tövbə edə bilərlər. Beləliklə, möminləri də gücləndirmiş olarsan”, – dedi. Həzrət Ömər isə öldürülmələrini təklif etdi. Nəhayət, fidyə alınması və əsirlərin azad edilməsi fikri qəbul olundu. Həmin hadisə ilə bağlı bu ayə nazil oldu.

aralarında sözləşmə olan bir qövmün əleyhinə olmadıqca – yardım etmək sizin borcunuzdur. Allah etdiklərinizi haqqı ilə görəndir.

73. İnkar edənlər də bir-birilərinin dostudur. Əgər siz bunları etməsəniz, yer üzündə bir fitnə və böyük bir fəsad olar.

74. İman edib hicrət edən və Allah yolunda cihad edənlər və (mühacirlərə) sığınacaq verib (onlara) yardım edənlər ki var, onlar həqiqi möminlərdir. Onlar üçün bir bağışlanma və bol-bol ruzi var.

75. Daha sonra iman edib hicrət edən və sizinlə birlikdə cihad edənlərə gəlincə, onlar da sizdəndir. Allahın kitabına görə qan qohumları bir-birilərinə (varis olmağa) daha layiqdirlər. Şübhəsiz, Allah hər şeyi haqqı ilə biləndir.

## 9. TÖVBƏ SURƏSİ

Son iki ayə xaric Mədinə dövründə, Peyğəmbərimizin vəfatına yaxın bir zamanda nazil olmuşdur. 129 ayədən ibarətdir. Surənin adı Allahın, qullarının tövbəsini qəbul edəcəyini bildirdiyi 104-cü ayədən götürülmüşdür. İlk ayədə keçən "bəraət" kəlməsi səbəbi ilə surəyə Bəraə surəsi adı da verilmişdir. Əvvəlində bəsmələ olmayan yeganə surədir. Surənin əvvəlinə bəsmələnin yazılmamasını bəzi alimlər onun, özündən əvvəlki surənin davamı mahiyyətində olması ilə açıqlamışdırlar. Surədə başlıca olaraq bağladıqları əhdlərə sadiq qalmayan düşmənlərlə əlaqələrin kəsilməsi, sözləşmələrə riayət edənlərə qarşı isə sözləşməyə sadiq qalmağın vacibliyi, Qur`anın müsəlmanlar üzərində yaratdığı təsir və həzrət Peyğəmbərin müsəlmanlar üçün keçirdiyi narahatçılıq kimi məsələlər yer alır.

1. Allah və Rəsulundan saziş bağladığınız müşriklərə qəti bir xəbərdarlıqdır.

2. Yer üzündə dörd ay daha gəzib-dolaşın. Bunu bilin ki, siz Allahı aciz qoya bilməzsiniz. Allah isə inkarçıları rüsvay edəcəkdir.

3. Həcci-Əkbər günündə[1] Allah və Rəsulundan bütün insanlara bir bildirişdir: Allah və Rəsulu Allaha şərik qoşanlardan uzaqdır. Əgər tövbə etsəniz, bu, sizin üçün daha xeyirlidir. Amma üz çevirsəniz, bunu yaxşı bilin ki, siz Allahı aciz qoya bilməzsiniz. İnkarçılara ağrılı-acılı bir əzabı müjdələ!

4. Ancaq Allaha şərik qoşanlardan saziş bağladıqlarınız, sonra da əhdlərində sizə qarşı heç bir nöqsana yol verməmiş və sizin əlehinizə heç kimə kömək etməmiş kəslər bu hökmün xaricindədir. Onların əhdlərini müddəti bitənə qədər tamamlayın. Şübhəsiz ki, Allah özünə qarşı gəlməkdən çəkinənləri sevər.

5. Haram aylar çıxdığı zaman Allaha şərik qoşanları artıq tutduğunuz yerdə öldürün, onları yaxalayıb həbs edin və hər pusqu yerində oturub onları pusun. Əgər tövbə edər, namazı qılıb zəkatı da verərlərsə, onları sərbəst buraxın. Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

6. Əgər Allaha şərik qoşanlardan biri səndən sığınacaq tələb etsə, Allahın kəlamını

1 İslam alimlərinin əksəriyyətinə görə Həcci-Əkbər günü həcc günlərindən ərəfə günü ya da bayramın birinci günüdür. Ancaq ərəfə günü olması ehtimalı daha qüvvətlidir.

eşidə bilməsi üçün ona sığınma haqqı ver. Sonra da onu əminlik içərisində olacağı yerə çatdır. Bu, onların bilməyən bir qövm olmaları səbəbi ilədir.

7. Allaha şərik qoşanların Allah qatında və Rəsulu yanında bir əhdi necə ola bilər? Ancaq Məscidi-Həramın yanında saziş bağladıqlarınız istisnadır. Bunlar sizə qarşı dürüst davrandığı müddətcə siz də onlara dürüst davranın. Çünki Allah özünə qarşı gəlməkdən çəkinənləri sevər.

8. Onların necə bir əhdi ola bilər ki?! Əgər onlar sizə üstün gəlsəydilər, sizin barənizdə nə qohumluq əlaqələrinə, nə də andlaşmaya baxardılar. Sözləri ilə sizi məmnun etməyə çalışırlar, halbuki qəlbləri buna qarşı çıxır. Onların bir çoxu fasiq kimsələrdir.

9. Allahın ayələrini ucuza satdılar, insanları Onun yolundan yayındırdılar. Bunların əməlləri nə pisdir!

10. Bir mömin barəsində nə bir qohumluq əlaqəsinə, nə də bir andlaşmaya baxarlar. Onlar həddi aşanlardır.

11. Lakin tövbə edib namazı qılar və zəkatı verərlərsə, artıq onlar sizin din qardaşlarınızdır. Bilən bir qövmə ayələri belə müfəssəl açıqlayırıq.

12. Əgər (bağladıqları) əhdlərindən sonra andlarını pozub dininizə dil uzadarlarsa, küfrün öndərləri ilə savaşın. Çünki onlar andlarına riayət etməyən kimsələrdir. Bəlkə (bu yanlışa) son qoyalar!

13. Andlarını pozan, peyğəmbəri yurdundan çıxarmağa cəhd edən və üstəlik sizə təcavüzü ilk dəfə özləri başladan bir qövmlə savaşmayacaqsınız? Yoxsa onlardan qorxursunuz? Halbuki Allah – əgər siz həqiqi möminlərsinizsə – qorxulmağa daha layiqdir.

14, 15. Onlarla savaşın ki, Allah onlara sizin əlinizlə əzab versin, onları rüsvay etsin, onlara qarşı sizə yardım etsin, mömin topluluğun ürəklərini rahatlatsın və onların qəlblərindəki qəzəbi silib aparsın. Allah istədiyinin tövbəsini qəbul edər. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

16. Yoxsa Allah aranızdan, Allahdan, Rəsulundan və möminlərdən başqasını özlərinə sirdaş tutmadan cihad edənləri ayırd etmədən buraxılacağınızı sandınız? Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

17. Özləri öz küfrlərinə şahid ikən Allaha şərik qoşanların Allahın məscidlərini abad etmələri ağlabatan deyil. Onların bütün əməlləri boşa getmişdir. Onlar atəşdə əbədi qalacaqlar.

18. Allahın məscidlərini ancaq Allaha və axirət gününə inanan, namazı doğru-düzgün qılan, zəkatı verən və Allahdan başqasından qorxmayan kimsələr abad[1] edərlər. Onların doğru yolu tapanlardan olması ümid olunur.

19. Siz hacılara su paylamağı və Məscidi-Həramın baxımını və təmirini, Allaha və

1 Ayədəki "abad" sözü məscidlər inşa edib, maddi-mənəvi olaraq onların davamlılığını təmin etmək mənasındadır. Maddi abadlıq və təmir hər kəs tərəfindən bilinir. Mənəvi abadlıq isə möminlərin məscidlərin əsl məqsədlərinə uyğun davranmaqla yəni iman-əməl bütünlüyünə riayət etməklə olar. Ayənin vurğuladığı əsl mövzu da budur.

axirət gününə iman edib Allah yolunda cihad edən kimsə (lərin əməlləri) ilə bir tutdunuz? Bunlar Allah qatında eyni olmazlar. Allah zalım qövmü doğru yola yönəltməz.

20. İman edib hicrət edən və Allah yolunda malları ilə, canları ilə cihad edən kimsələrin mərtəbələri Allah qatında daha üstündür. Məhz onlar uğur tapanlardır.

21. Rəbləri onları öz qatından bir rəhmət, bir razılıq və içində onlar üçün tükənməz nemətlər olan cənnətlərlə müjdələyir.

22. Onlar orada əbədi qalacaqlar. Şübhəsiz, Allah qatında böyük bir mükafat var.

23. Ey iman edənlər! Əgər küfrü imandan üstün tutsalar, atalarınızı və qardaşlarınızı belə dost tutmayın. Sizdən kim onları dost tutsa, onlar məhz zalımlardır.

24. De ki: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, əşirətiniz, qazandığınız mallar və ticarət və bəyəndiyiniz məskənlər sizə Allahdan, peyğəmbərindən və Onun yolunda cihaddan daha sevimlidirsə, onda Allahın əmri gələnə qədər gözləyin! Allah fasiq qövmü doğru yola yönəltməz".

25. And olsun, Allah bir çox yerdə və Hüneyn savaşı günü sizə yardım etmişdir. (O gün) çoxluğunuz sizə özünüzü bəyəndirmiş, lakin (bu çoxluq) sizə heç bir fayda verməmiş, yer üzü bütün genişliyinə rəğmən sizə dar gəlmişdi. Nəhayət, geri dönüb qaçmışdınız.[1]

26. Sonra Allah, Rəsulu ilə möminlər üzərinə öz qatından güvən duyğusu və hüzur endirdi. Bir də sizin görmədiyiniz ordular endirdi və inkar edənlərə əzab verdi. İnkarçıların cəzası budur.

27. Sonra Allah bunun ardından yenə istədiyi kimsənin tövbəsini qəbul edər. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

28. Ey iman edənlər! Allaha şərik qoşanlar ancaq bir nəcisdir. Artıq onların bu ilindən sonra Məscidi-Hərama yaxınlaşmasınlar. Əgər yoxsulluqdan qorxursunuzsa, Allah istəsə, lütfü ilə sizi zəngin edər. Şübhəsiz, Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

29. Kitab əhlindən Allaha və axirət gününə iman etməyən, Allah və Rəsulunun haram buyurduğunu haram saymayan və haqq din İslamı din olaraq qəbul etməyənlərlə, kiçilərək (diz çökərək) öz əlləri ilə cizyə verənə qədər savaşın.

30. Yəhudilər: "Üzeyr Allahın oğludur", – dedilər. Xristianlar isə: "İsa Məsih Allahın oğludur", – dedilər. Bu, onların ağızları ilə söylədikləri (həqiqəti əks etdirməyən) sözləridir. Onların bu sözləri daha əvvəl inkar edənlərin sözlərinə bənzəyir. Allah onları öldürsün. Necə də haqdan döndərilirlər!

---

1 Hüneyn Məkkədən Taifə gedən yollardan birinin üstündə, Məkkəyə təqribən 16 km uzaqlıqdakı bir vadinin adıdır. Bu ayə ilə bundan sonrakı ayədə Məkkənin fəthindən sonra (hicri 8-ci il) müsəlmanlarla müşrik Həvazin qəbiləsi arasında bu vadidə baş verən savaşa işarə edilir. Bu savaşda müsəlmanların sayı düşmənlərin sayından çox idi. Müsəlmanlar say etibarilə üstün olduqlarına güvənərək savaşdan əvvəl çox arxayın və rahat hərəkət edirdilər. Bu səbəblə həvazinlilərin qurduğu tələyə düşdülər. İslam ordusunun böyük bir qismi dağınıq bir şəkildə geri çəkilməyə başladı. Ancaq həzrət Peyğəmbərin və sabitqədəm bir dəstə müsəlmanın səyi ilə dağılan ordunun yenidən nizama girməsi mümkün oldu və təkrar hücum edilərək qələbə qazanıldı.

31. (Yəhudilər) Allahı qoyub ravvinlərini, (xristianlar isə) rahiblərini və Məryəm oğlu İsanı rəbb olaraq qəbul etdilər. Halbuki bunlara da ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa heç bir ilah yoxdur. O, onların şərik qoşduqları hər şeydən uzaqdır.

32. Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Halbuki kafirlərin xoşuna gəlməsə də Allah nurunu tamamlamaqdan başqa bir şeyə razı olmaz.

33. Allaha şərik qoşanların xoşuna gəlməsə belə O, dinini bütün dinlərdən üstün etmək üçün peyğəmbərini hidayətlə və haqq dinlə göndərəndir.

34. Ey iman edənlər! Ravvinlərdən və rahiblərdən bir çoxu insanların mallarını haqsız yerə yeyirlər və Allahın yolundan yayındırırlar. Qızıl və gümüşü yığıb gizlədərək onları Allah yolunda xərcləməyənləri ağrılı-acılı bir əzabla müjdələ.

35. O gün bunlar cəhənnəm atəşində qızdırılacaq, onların alınları, böyürləri və kürəkləri bunlarla dağlanacaq və: "Bu, özünüz üçün yığıb saxladığınız şeylərdir. İndi yığıb saxladıqlarınızı dadın görək!" – deyiləcək.

36. Şübhəsiz, Allahın göyləri və yeri yaratdığı günki yazısında Allah qatında ayların sayı on ikidir. Bunlardan dördü haram aylardır.[1] Bu, Allahın doğru qanunudur. Elə isə o aylarda özünüzə zülm etməyin. Lakin Allaha şərik qoşanlar sizinlə necə hamılıqla savaşırlarsa, siz də onlarla hamılıqla savaşın. Bilin ki, Allah özünə qarşı gəlməkdən çəkinənlərlədir.

37. Haram ayları ertələmək[2] ancaq küfrdə daha da irəli getməkdir ki, bununla inkar edənlər azdırılırlar. Allahın haram buyurduğu ayların sayına uyğun gətirib, beləliklə, Allahın haram buyurduğunu halal etmək üçün haram ayı bir il halal, bir il haram sayırlar. Onların bu çirkin işləri özlərinə gözəl göstərildi. Allah inkarçı qövmü doğru yola yönəltməz.[3]

38. Ey iman edənlər! Sizə nə olub ki, "Allah yolunda səfərə çıxın", – deyildikdə yerə qaxılıb qaldınız. Yoxsa axirətdən əl çəkib dünya həyatınımı seçdiniz? Halbuki axirətə görə dünya həyatının faydası çox azdır.

39. Əgər Allah yolunda səfərə çıxmasanız, sizi ağrılı-acılı bir əzabla cəzalandırar və yerinizə sizdən başqa bir qövm gətirər. Siz isə Ona heç bir zərər verə bilməzsiniz. Allah hər şeyə haqqı ilə gücü yetəndir.

40. Əgər siz ona (Peyğəmbərə) yardım etməsəniz, (bilirsiniz ki,) inkar edənlər onu iki nəfərdən biri olaraq (Məkkədən) çıxardıqları zaman ona məhz Allah yardım etmişdi. Onlar mağarada olduqları vaxt o, öz yoldaşına: "Məyus olma, çünki Al-

---

1 Haram aylar Cahiliyyə dövrü adətinə görə hörmət edilməsi gərəkən, savaş və qan tökülməsi qadağan olan qəməri aylar deməkdir. Bu aylardan Zilqədə on birinci, Zilhiccə on ikinci, Məhərrəm birinci, Rəcəb isə yeddinci aydır.

2 Qur`anda "ən-Nəsi" şəklində ifadə edilən bu adət Cahiliyyə dövründə qan tökülməsi qadağan olan dörd aydan arxa-arxaya gələn Zilqədə, Zilhiccə və Məhərrəm aylarından birinin yerini qadağa dövrünə daxil olmayan bir başqa ay ilə dəyişdirərək qadağa dövrü içində vuruşub qan tökə biləcəkləri bir ara müddət yaratmaq adətidir. Haram aylar adəti İslam dini ilə aradan qaldırılmışdır.

3 Doğru yol Qur`anda açıq-aydın göstərilmişdir. Ayədə sapqınlıq və inkar yolunu tutanların doğru yola yönəldilməyəcəyi bir qayda olaraq ifadə edilir. Buna bənzər digər ayələri də belə başa düşmək lazımdır.

lah bizimlədir", – deyirdi. Allah da ona bir arxayınlıq duyğusu və hüzur endirmiş, sizin görmədiyiniz ordularla onu dəstəkləmiş, beləliklə, inkar edənlərin sözünü alçaltmışdı. Allahın sözü isə ən ucadır. Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

41. İstər piyada olaraq, istərsə də minik üzərində[1] Allah yolunda səfərə çıxın. Mallarınızla, canlarınızla Allah yolunda cihad edin. Əgər bilsəniz, bu, sizin üçün daha xeyirlidir.

42. Əgər yaxın bir dünya mənfəəti və asan bir səfər olsaydı, (səfərdə iştirak etməyən münafiqlər də) mütləq sənə tabe olardılar. Lakin məşəqqətli yol onlara uzaq gəldi. Onlar: "Əgər gücümüz çatsaydı, əlbəttə, sizinlə birlikdə çıxardıq", – deyə Allaha and içəcəklər. Onlar özləri özlərini məhvə sürükləyirlər. Allah bilir ki, onlar, həqiqətən, yalançıdırlar.[2]

43. Allah səni əfv etsin! Doğru söyləyənlər sənə bəlli olub yalançıları tanıyıncaya qədər gözləmədən nə üçün onlara izin verdin?

44. Allaha və axirət gününə iman edənlər malları və canları ilə cihad etməkdən geri qalmaq üçün səndən izin istəməzlər. Allah özünə qarşı gəlməkdən çəkinənləri çox yaxşı biləndir.

45. Ancaq Allaha və axirət gününə inanmayan, qəlbləri şübhəyə düşüb özləri də o şübhələrinin içində çırpınan kəslər səndən izin istəyərlər.

46. Əgər onlar savaşa çıxmaq istəsəydilər, əlbəttə, bunun üçün bir hazırlıq görərdilər. Lakin Allah onların hərəkətə keçmələrini istəmədi, onları geri saxladı və onlara: "Oturun, oturan acizlərlə birlikdə", – deyildi.

47. Əgər onlar da sizin aranızda (səfərə) çıxsaydılar, sizə fitnəkarlıqdan başqa bir xeyirləri toxunmayacaq və sizi fitnəyə salmaq üçün aranızda var-gəl edəcəkdilər. Aranızda onlara qulaq asacaq insanlar da var idi. Allah zalımları haqqı ilə biləndir.

48. And olsun ki, bunlar daha əvvəl də fitnə çıxarmaq istəmiş və sənə qarşı cürbəcür işlərə əl atmışdılar. Nəhayət, haqq gəldi və onlar istəmədikləri halda Allahın dini qalib gəldi.

49. Onlardan "Mənə izin ver, məni fitnəyə (üsyana) sövq etmə" deyən də var. Bilin ki, onlar (belə deyərək) fitnəyə düşdülər. Şübhəsiz ki, cəhənnəm kafirləri, əlbəttə, bürüyəcəkdir.

50. Sənə bir yaxşılıq nəsib olsa, bu onları məyus edər. Əgər başına bir müsibət gəlsə: "Biz əvvəlcədən tədbirimizi görmüşdük", – deyərlər və sevinərək dönüb gedərlər.

51. De ki: "Bizim başımıza ancaq Allahın bizim üçün yazdığı şeylər gələr. O, bizim yardımçımızdır. Elə isə möminlər yalnız Allaha güvənsinlər".

---

1 Təfsir alimləri tərəfindən ayənin bu hissəsinə "Gənclər və yaşlılar olaraq", "Sizə asan da gəlsə, çətin də gəlsə" kimi müxtəlif mənalar da verilmişdir.

2 Bu ayədə və ardından gələn təqribən altı səhifədə həzrət Peyğəmbərin Təbuk səfərinə çıxma qərarına münafiqlərin göstərdiyi münasibətə yer verilir. Həmin qərar verildikdə onların bir qismi səfərə qatılmamaq üçün bəhanə gətirmiş, bir qismi isə bəzi pis niyyətlərlə müsəlmanların yanında yer almışdılar. Ayələrdə müsəlmanlar bu ikiüzlü insanlara qarşı diqqətli olmaları barəsində xəbərdar olunurlar.

52. De ki: "Siz bizim üçün ancaq iki gözəllikdən (şəhidlik və zəfərdən) birini gözləyə bilərsiniz. Biz də Allahın öz qatından və ya bizim əllərimizlə sizə verəcəyi bir əzabı gözləyirik. Gözləyin, şübhəsiz, biz də sizinlə birlikdə gözləyirik".

53. Yenə de ki: "İstər könüllü xərcləyin, istər könülsüz, sizdən əsla qəbul olunmayacaq. Çünki siz fasiq bir topluluqsunuz".

54. Onların xərclədiklərinin qəbul olunmasına, ancaq Allahı və Rəsulunu inkar etmələri, namaza candərdi gəlmələri və könülsüz xərcləmələri mane olmuşdur.

55. Onların malları və övladları sənə xoş gəlməsin. Allah bununla ancaq onlara dünya həyatında əzab verməyi və canlarının kafir olaraq çıxmasını istəyir.

56. Həqiqətən, sizdən olduqları barəsində Allaha and içərlər. Halbuki onlar sizdən deyillər. Lakin onlar qorxaq bir topluluqdur.

57. Əgər sığınacaq bir yer və ya (gizlənəcək) mağaralar yaxud girməyə bir deşik tapsaydılar, tələsik ora üz tutardılar.

58. Aralarından sədəqələr barəsində sənə söz atanlar da var. Onlara ondan bir pay verilsə, məmnun qalarlar. Əgər onlara ondan bir pay verilməsə, dərhal qəzəblənərlər.[1]

59. Əgər onlar Allah və Rəsulunun onlara verdiyinə razı olub: "Bizə Allah yetər. Öz lütfü ilə Allah və Rəsulu bizə yenə verər. Biz yalnız Allaha rəğbət edərik", – desəydilər, onlar üçün daha xeyirli olardı.

60. Sədəqələr (zəkatlar) Allahdan bir fərz olaraq ancaq fəqirlər, miskinlər, zəkat toplayan məmurlar, qəlbləri İslama isinişdiriləsi olanlarla (azad olunacaq) kölələr, borclular, Allah yolunda cihad edənlər və yolda qalmış yolçular üçündür. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

61. Yenə onlardan peyğəmbəri incidən və: "O, (hər deyiləni eşidən) bir qulaqdır" deyən kimsələr də var. De ki: "O sizin üçün bir xeyir qulağıdır ki, Allaha inanır, möminlərə inanır (güvənir). Sizdən inanan kimsələr üçün bir rəhmətdir. Allahın rəsulunu incidənlər üçün isə ağrılı-acılı bir əzab var".

62. Sizi razı salmaq üçün Allaha and içərlər. Əgər həqiqətən, mömindirlərsə, (bilsinlər ki,) Allah və Rəsulunu razı salmaları daha vacibdir.

63. Allah və Rəsuluna qarşı gələn kimsəyə, içində əbədi qalacağı cəhənnəm atəşinin olduğunu bilmədilərmi? Bu isə böyük bir rüsvayçılıqdır.

64. Münafiqlər qəlblərində olanları üzlərinə qarşı açıq bir şəkildə xəbər verəcək bir surənin endirilməsindən çəkinərlər. De ki: "Siz istehza etməyinizdə olun! Allah çəkindiyiniz o şeyi ortaya çıxaracaqdır".

65. Əgər onlardan (nə üçün istehza etdiklərini) soruşsan: "Biz ancaq söhbət edib öz aramızda zarafatlaşırdıq", – deyərlər. De ki: "Allaha, Onun ayələrinə və Peyğəmbərinə istehza edirdiniz?"

66. Əbəs yerə üzr istəməyin! Çünki siz (dildə) iman etdikdən sonra küfrünüzü aşka-

---

1 Bu ayənin nüzul səbəbi haqqında təfsir mənbələrində nəql olunan müxtəlif rəvayətlərə görə, həzrət Peyğəmbər zəkat və yardım payladığı əsnada bir münafiq gəlmiş və: "Ey Muhamməd, adil ol!" – deyərək Rəsulullahın bölgüdə haqsızlıq etdiyini söyləmişdi. Ayədə bu çirkin davranış tənqid olunur.

ra çıxardınız. Sizdən (tövbə edən) bir zümrəni əfv etsək belə, günahlarında israr etmələri səbəbi ilə başqa bir zümrəyə əzab verəcəyik.

67. Münafiq kişilər və münafiq qadınlar bir-birilərindəndir (bir-birilərinin bənzəridir). Pisliyi əmr edib yaxşılığı qadağan edərlər, əllərini də sıx saxlayarlar. Onlar Allahı unutdular, Allah da onları unutdu. Şübhəsiz, münafiqlər məhz fasiqlərdir.

68. Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içində əbədi qalacaqları cəhənnəm atəşini vəd etdi. O, onlara yetər. Allah onlara lənət etmişdir. Onlar üçün davamlı bir əzab var.

69. (Ey münafiqlər!) Siz də eynilə sizdən əvvəlkilər kimisiniz. Onlar sizdən daha güclü, malları və övladları da daha çox idi. Onlar öz paylarına düşəndən faydalanmışdılar. Sizdən əvvəlkilərin paylarına düşəndən faydalandığı kimi siz də payınıza düşəndən eləcə faydalandınız və onların qapıldığı kimi siz də (dünya zövqünə) qapıldınız. Onların dünyada da axirətdə də əməlləri boşa çıxmışdır. Onlar məhz ziyana uğrayanlardır.

70. Onlara özlərindən əvvəlkilərin – Nuh, Ad və Səmud qövmlərinin, İbrahimin qövmünün, Mədyən xalqının və yerlə yeksan olan şəhərlərin xəbərləri gəlib çatmadımı? Peyğəmbərləri onlara açıq möcüzələr gətirmişdi. (Amma inanmadılar, Allah da onları cəzalandırdı.) Allah onlara zülm etmirdi, ancaq onlar özlərinə zülm edirdilər.

71. Mömin kişilər və mömin qadınlar bir-birilərinin dostudurlar. Yaxşılığı əmr edər, pislikdən çəkindirərlər. Namazı doğru-düzgün qılar, zəkatı verərlər. Allaha və Rəsuluna itaət edərlər. Onlara Allah mərhəmət edəcək. Şübhəsiz, Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

72. Allah mömin kişilərə və mömin qadınlara əbədi olaraq qalacaqları, içindən çaylar axan cənnətlər və Ədn cənnətlərində çox gözəl köşklər vəd etdi. Allahın rizası isə bunların hamısından daha böyükdür. Bu, böyük uğurdur.

73. Ey peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı cihad et və onlara qarşı sərt ol. Onların gedəcəkləri yer cəhənnəmdir. Ora nə pis mənzildir!

74. Bir şey söyləmədiklərinə dair Allaha and içirlər. Halbuki o küfr sözünü söylədilər və (dildə) müsəlman olduqdan sonra inkar etdilər. Həmçinin müvəffəq ola bilmədikləri şeyə (peyğəmbəri öldürməyə) də cəhd etdilər. Sırf Allah və Rəsulu öz lütfü ilə onları varlandırdığı üçün intiqam almaq fikrinə düşdülər. Əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Əgər üz döndərsələr, Allah onları dünyada və axirətdə ağrılı-acılı bir əzaba düçar edəcək. Artıq onlar üçün yer üzündə nə bir dost, nə də bir yardımçı var.[1]

75. Aralarında: "Əgər Allah bizə lütf və kərəmindən versə, mütləq bol-bol sədəqə verərik və mütləq salehlərdən olarıq", – deyə Allaha söz verənlər də var.

---

1 Təfsir mənbələrində münafiqlərin demədikləri dair and içdikləri sözün nə olduğunu açıqlayan müxtəlif rəvayətlər yer alır. Lakin ayənin əsas mesajı odur ki, münafiqlər nə qədər inkar edirlərsə etsinlər ikiüzlü olduqlarını gizləyə bilməyəcəklər.

76. Lakin Allah lütf və kərəmindən onlara verdikdə onda xəsislik etdilər və üz çevirərək dönüb getdilər.

77. Allaha verdikləri sözə əməl etmədikləri və yalan danışdıqları üçün O da qəlblərinə, özü ilə qarşılaşacaqları günə qədər (davam edəcək) bir nifaq saldı.

78. İçlərində gizlədiklərini və pıçıltılarını Allahın bildiyini[1] və Allahın qeybləri çox yaxşı bilən olduğunu bilmədilərmi?

79. Könüllü sədəqə verən möminlərlə güclərinin yetdiyindən başqasını tapa bilməyənləri məsxərəyə qoyanlar ki var, Allah əslində onları gülünc vəziyyətə salmışdır. Onlar üçün ağrılı-acılı bir əzab var.

80. Onlar üçün istər bağışlanma dilə, istər diləmə (fərqi yoxdur). Onlar üçün yetmiş dəfə bağışlanma diləsən də Allah onları əsla əfv etməyəcək. Bu, onların Allahı və Rəsulunu inkar etmələri səbəbi ilədir. Allah fasiq qövmü doğru yola yönəltməz.

81. Allahın Rəsuluna qarşı gələrək (səfərə çıxmayıb) arxada qalanlar oturub qalmalarına sevindilər. Allah yolunda malları ilə, canları ilə cihad etmək onlara xoş gəlmədi və: "Bu istidə səfərə çıxmayın", – dedilər. De ki: "Cəhənnəm odu daha istidir". Kaş ki, anlayaydılar.

82. Artıq qazandıqlarının cəzası olaraq az gülsünlər, çox ağlasınlar.

83. Əgər (bundan sonra) Allah səni onlardan bir zümrənin yanına qaytarsa, onlar (da səfərə) çıxmaq üçün səndən izin istəsələr, de ki: "Daha siz mənimlə birlikdə əbədiyyən çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənə qarşı əsla döyüşməyəcəksiniz. Çünki siz əvvəlcədən yerinizdə oturub qalmağa razı oldunuz. İndi də arxada qalan (qadın və uşaq)larla birlikdə oturun".

84. Onlardan ölən heç bir kəsin namazını qətiyyən qılma və qəbrinin başında durma. Çünki onlar Allahı və Rəsulunu inkar etdilər və fasiq olaraq öldülər.

85. Onların malları və övladları sənə xoş gəlməsin. Allah bunlarla ancaq onlara dünyada əzab verməyi və canlarının kafir olaraq çıxmasını istəyir.

86. "Allaha iman edin və Rəsulu ilə birlikdə cihad edin", – deyə bir surə endirildiyi zaman onlardan sərvət sahibi olanlar səndən izin istədilər və: "Qoy biz də oturub qalanlarla birlikdə olaq", – dedilər.

87. Onlar arxada qalan (qadın və uşaq)larla birlikdə olmağa razı oldular və qəlbləri möhürləndi. Artıq onlar anlamazlar.

88. Lakin peyğəmbər və onunla birlikdə olan möminlər malları ilə, canları ilə cihad etdilər. Bütün xeyirlər məhz onlarındır. Qurtuluşa nail olanlar da məhz onlardır.

89. Allah onlara içində əbədi qalacaqları, içindən çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur.

90. Bədəvilərdən özlərinə izin verilsin deyə üzrxahlıq edən kimsələr gəldilər. Allaha və Rəsuluna yalan danışanlar isə (üzrxahlıq belə diləmədən) oturub qaldılar. Onlardan kafir olanlara ağrılı-acılı bir əzab üz verəcəkdir.

---

1 Ayənin bu hissəsi "içlərində gizlədikləri və gizlicə apardıqları görüşmələri..." şəklində də tərcümə oluna bilər.

91. Allaha və Rəsuluna qarşı sadiq və səmimi olduqları təqdirdə, zaiflərə, xəstələrə və (səfərdə) xərcləməyə bir şey tapa bilməyənlərə (səfərə qatılmadıqları üçün) bir günah yoxdur. Yaxşı işlər görən kimsələr(in məzəmmət olunması) üçün də bir səbəb yoxdur. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

92. Özlərini (bir miniyə) mindirib (cəbhəyə) göndərəsən deyə sənin yanına gəldikləri, sənin də: “Sizi mindirə biləcəyim bir şey tapa bilmirəm”, – dediyin zaman, (bu yolda) xərcləməyə bir şey tapa bilmədikləri üçün gözü yaşlı geri qayıdan kimsələrə də (cihaddan geri qaldıqları üçün) günah yoxdur.

93. Məsuliyyət ancaq imkanlı olduqları halda səndən izin istəyənlərədir. Onlar arxada qalan (qadın və uşaq)larla birlikdə olmağa razı oldular. Allah da qəlblərini möhürlədi. Artıq onlar bilməzlər.

94. Onların yanına qayıtdığınız zaman sizə bəhanə gətirəcəklər. De ki: “Bəhanə gətirməyin. Sizə qətiyyən inanmarıq. Çünki Allah bizə sizin xəbərinizi bildirdi. Bundan sonra əməllərinizi Allah da, Rəsulu da görəcək. Sonra hamınız qeybi də, görünən aləmi də bilənə qaytarılacaqsınız, etdiklərinizi sizə xəbər verəcək”.

95. Yanlarına qayıtdığınız zaman sizə Allahın adıyla and verəcəklər ki, onları rahat buraxasınız. Artıq onlardan əl çəkin. Çünki onlar pisdir. Qazandıqlarının cəzası olaraq gedəcəkləri yer cəhənnəmdir.

96. Onlardan razı olasınız deyə sizə and verəcəklər. Siz onlardan razı olsanız belə, Allah o fasiqlər güruhundan əsla razı olmaz.

97. Bədəvilər inkar və nifaq baxımından daha betərdirlər və Allahın peyğəmbərinə endirdiyi hökmlərin hüdudlarını tanımamağa daha meyillidirlər. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

98. Bədəvilərdən elələri var ki, (Allah yolunda) xərcləyəcəkləri şeyi bir zərər sayar və (bundan qurtulmaq üçün) başınıza bəlalar gəlməsini gözləyərlər. Bəlalar öz başlarına olsun! Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

99. Bədəvilərdən elələri də var ki, Allaha və axirət gününə inanır. Xərcləyəcəklərini Allaha yaxınlıq və Peyğəmbərin dualarını almağa vəsilə sayarlar. Bilin ki, bu (Allah qatında) onlar üçün yaxınlıqdır. Allah onları rəhmətinə daxil edəcəkdir. Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

100. İslamı ilk qəbul edən mühacirlər və ənsar ilə yaxşı işlər görməkdə onlara tabe olanlar ki var, Allah onlardan razı olmuş, onlar da Ondan razı olmuşdurlar. Allah onlara içindən çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur.

101. Ətrafınızdakı bədəvilərdən bəzi münafiqlər var. Mədinə əhalisindən də münafiqlikdə israr edənlər var ki, sən onları bilməzsən. Biz onları bilirik. Onlara iki dəfə əzab verəcəyik. Sonra da böyük bir əzaba düçar ediləcəklər.

102. Digər bir qismi isə günahlarını etiraf etdilər. Bunlar saleh əməllə pis əməli bir-birinə qarışdırmışlar. Ola bilsin ki, Allah tövbələrini qəbul edər. Çünki Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

103. Onların mallarından sədəqə (zəkat) al. Bununla onları paklamış və təmizləmiş

olacaqsan. Və onlara dua et, çünki sənin duan onlar üçün bir sükunətdir (Onların qəlblərinə təskinlik verər). Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

104. Onlar bəndələrinin tövbəsini qəbul edənin və sədəqələri alanın Allah olduğunu, tövbəni çox qəbul edənin, çox mərhəmətli olanın Allah olduğunu bilmədilərmi?

105. De ki: "Çalışın. Etdiklərinizi Allah da, Rəsulu da, möminlər də görəcək. Sonra qeybi də, görünən aləmi də bilən Allahın hüzuruna qaytarılacaqsınız. O, da sizə bütün etdiklərinizi xəbər verəcək".

106. (Səfərə qatılmayanlardan) digər bir qismi isə Allahın əmrinə həvalə olunanlardır. Bunlara ya əzab verər ya da tövbələrini qəbul edər. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

107. Bir də zərərli fəaliyyətlərlə məşğul olmaq, küfrə yardım etmək, möminlər arasına təfriqə salmaq üçün və əvvəldən bəri Allaha və Rəsuluna qarşı savaşanlara qərargah olsun deyə bir məscid düzəldənlər var. Bunlar: "Bizim yaxşılıqdan başqa bir məqsədimiz yoxdur", – deyə mütləq and içirlər. Amma Allah şahidlik edir ki, bunlar, həqiqətən, yalançılardır.[1]

108. Orada qətiyyən namaz qılma. İlk gündən təqva (Allaha qarşı gəlməkdən çəkinmək) üzərində qurulan məscid (Quba məscidi) içində namaz qılmağın üçün, əlbəttə, daha layiqdir. Orada təmizlənməyi sevən adamlar var. Allah da təmiz olanları sevər.

109. Binasını təqva (Allaha qarşı gəlməkdən çəkinmək) və Onun razılığını qazanmaq üzərində quran kəs daha xeyirlidir, yoxsa binasını çökmək üzrə olan bir yerin kənarında qurub onunla birlikdə özü də cəhənnəm atəşinə yuvarlanan kəs? Allah zalımlar güruhunu doğru yola yönəltməz.

110. Qurduqları binaları ürəkləri parça-parça olana (ölənə) qədər ürəklərində daimi bir şübhə olaraq qalacaq. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

111. Şübhəsiz, Allah möminlərdən canlarını və mallarını onlara verəcəyi cənnət müqabilində satın almışdır. Onlar Allah yolunda savaşırlar, öldürürlər və ölürlər. Allah bunu Tövratda, İncildə və Qur`anda haqq olaraq vəd etmişdir. Allahdan daha çox əhdinə vəfa edən kimdir? Elə isə etdiyiniz bu alış-verişə görə sevinin. Böyük uğur məhz budur.

112. Bunlar tövbə edənlər, ibadət edənlər, həmd edənlər, oruc tutanlar,[2] rüku və səcdə edənlər, yaxşılığı əmr edib pislikdən çəkindirənlər və Allahın qoyduğu hədləri haqqı ilə qoruyanlardır. Möminləri müjdələ.

113. Cəhənnəm əhli olduqları açıq-aydın özlərinə bəlli olduqdan sonra – yaxınları ol-

1 İslam tarixində Zirar məscidi olaraq tanınan bir məscid var idi. Bu məscid bəzi münafiqlər tərəfindən Quba məscidi yaxınlığında həmin məscidi gözdən salmaq üçün inşa edilmişdi. Münafiqlər bu işə xristian bir rahib olan Əbu Amirin təşviqi ilə girişmişdilər. Əbu Amir həzrət Peyğəmbər ilə uzun müddət savaşdıqdan sonra Suriyaya qaçmışdı. Münafiqlər Əbu Amirin bir ordu ilə gəlib müsəlmanlarla döyüşməsini gözləyirdilər. İnşa etdikləri bu məscidin müsəlmanları bölməsini və beləliklə, ona yardım edəcəklərini umurdular.

2 "Oruc tutanlar" şəklində tərcümə olunan "əs-Saihun" kəlməsi "(Allah yolunda) səyahət edənlər" şəklində də tərcümə edilə bilər.

salar belə – Allaha şərik qoşanlar üçün məğfirət diləmək nə Peyğəmbərə yaraşar, nə də möminlərə.

**114.** İbrahimin öz atası üçün əfv diləməsi yalnız ona verdiyi bir sözə görə idi.[1] Onun bir Allah düşməni olduğu özünə açıq-aydın bəlli olduqda ondan uzaqlaşdı. Şübhəsiz, İbrahim həssas və mülayim idi.

**115.** Doğru yola yönəltdikdən sonra qorxub çəkinəcəkləri şeyləri onlara açıq-aydın bildirmədikcə, Allah bir qövmü sapdırmaz. Şübhəsiz, Allah hər şeyi haqqı ilə bilən-dir.

**116.** Şübhəsiz, göylərin və yerin hökmranlığı yalnız Allahındır. O dirildir və öldürür. Sizin üçün Allahdan başqa nə bir dost, nə də bir yardımçı var.

**117.** And olsun, Allah Peyğəmbər ilə aralarından bir qisminin qəlbləri (haqdan) dönməyə üz tutduqdan sonra çətin bir zamanda ona tabe olan mühacirlərlə ənsarın tövbələrini qəbul etmişdir. Bəli, onların tövbələrini qəbul etmişdir. Şübhəsiz, O, onlara (qarşı) çox şəfqətli və çox mərhəmətlidir.

**118.** Savaşdan geri qalan üç nəfərin də tövbələrini qəbul etdi.[2] Yer üzü bütün genişliyinə rəğmən onlara dar gəlmiş, vicdanları onları sıxmış, beləliklə, Allah (ın əzabın)dan yenə Ona sığınmaqdan başqa çarə olmadığını anlamışdılar. Sonra (əvvəlki hallarına) qayıtsınlar deyə onların tövbələrini də qəbul etdi. Şübhəsiz, Allah tövbəni çox qəbul edən və çox mərhəmət edəndir.

**119.** Ey iman edənlər! Allaha qarşı gəlməkdən çəkinin və doğru olanlarla birlikdə olun.

**120.** Mədinə əhalisi və onların ətrafında olan bədəvilərə Allahın rəsulundan geri qalmaq, öz canlarını onun canından üstün tutmaq yaraşmaz. Çünki onların Allah yolunda çəkdikləri susuzluq, yorğunluq, aclıq, kafirləri qəzəbləndirmək üçün bir yerə addım atmaları və düşmənə qarşı hər hansı bir uğur qazanmaları kimi elə bir hadisə yoxdur ki, əvəzində onlara yaxşı bir əməl(in savabı) yazılmasın. Şübhəsiz, Allah yaxşılıq edənlərin mükafatını hədər etməz.

**121.** Allah onları etdiklərinin ən gözəli ilə mükafatlandırmaq üçün kiçik-böyük xərclədikləri hər məsrəf, qət etdikləri hər vadi mütləq onların hesabına yazılır.

**122.** Möminlərin hamısının birdən səfərə çıxması uyğun olmaz. Elə isə hər tayfadan bir dəstə dini dərindən öyrənmək və qayıtdıqları zaman qövmlərini xəbərdar etmək üçün arxada qalsın ki, bəlkə çəkinələr.[3]

---

1 Həzrət İbrahimin atasına söz verməsi ilə əlaqəli olaraq baxın: Məryəm, 19/47, Şuəra, 26/69-86, Mümtəhinə, 60/4.

2 Ayədə bəhs olunan üç nəfər mədinəli müsəlmanlardan Kəb ibn Malik, Hilal ibn Ümeyyə və Mürarə ibn Rəbidir. Onlar Təbuk səfərinə qatılmayıb geridə qalmışdılar. Həzrət Peyğəmbər Təbukdan döndükdə onlarla danışmamış, səhabələr də onlardan üz çevirmişdi. Onların tövbələrinin qəbul edilməsi ilə bağlı hökm əvvəlkilərdən əlli gün sonra gerçəkləşmişdi.

3 Təbuk səfərindən sonra həzrət Peyğəmbər kiçik bir dəstə göndərmişdi. Səfərdə iştirak etməyənlər haqqında nazil olan ayələrin də təsiri ilə bu dəfə hər kəs bu dəstəyə qatılmış, din sahəsində elmlə məşğul olacaq heç kim qalmamışdı. Bu ayədə elmin cihad qədər önəmli olduğuna, biri olmadan digərinin də olmayacağına diqqət çəkilir.

**123.** Ey iman edənlər! Kafirlərdən (əvvəlcə) yaxınınızda olanlarla savaşın və sizdə bir sərtlik görsünlər. Bilin ki, Allah özünə qarşı gəlməkdən çəkinənlərlədir.

**124.** Hər hansı bir surə nazil edildiyi zaman aralarından (istehza ilə): "Bu, sizin hansınızın imanını artırdı?" deyənlər olur. İman edənlərə gəlincə, nazil olan surə onların imanını artırmışdır. Onlar bunu bir-birilərinə müjdələyirlər.

**125.** Qəlblərində xəstəlik olanların isə pisliklərini (küfrlərini) artırmış, beləliklə, kafir olaraq ölüb getmişlər.

**126.** Görmürlərmi ki, onlar hər il bir-iki dəfə bəlaya düçar edilib sınanırlar? Sonra nə tövbə edirlər, nə də ibrət götürürlər.

**127.** Bir surə nazil edildiyi zaman: "Sizi kimsə görürmü?" – deyə bir-birilərinə baxır, sonra da çəkilib gedirlər. Anlamayan bir güruh olmaları səbəbi ilə Allah onların qəlblərini döndərmişdir.[1]

**128.** And olsun, sizə öz aranızdan elə bir peyğəmbər gəlmişdir ki, sizin əziyyətə düşməyiniz ona çox ağır gəlir. O, sizə qarşı çox qayğıkeş, möminlərə qarşı da çox şəfqətli və mərhəmətlidir.

**129.** Əgər üz döndərsələr, de ki: "Mənə Allah yetər. Ondan başqa heç bir ilah yoxdur. Mən ancaq Ona təvəkkül etdim. O, uca ərşin sahibidir".

## 10. YUNUS SURƏSİ

Surənin 40, 94, 95 və 96-cı ayələri Mədinə dövründə, digərləri Məkkə dövründə nazil olmuşdur. 109 ayədən ibarətdir. Surədə vurğulanan əsas mövzu Allahın rəhmətinin qəzəbindən üstün olmasıdır. Surədə Yunus, Nuh və Musa peyğəmbərlərlə onların qövmlərinin qissələrinə yer verilir. Surənin adı Yunus qissəsindən götürülmüşdür.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Əlif, Ləm, Ra.[2] Bunlar hikmət dolu Kitabın ayələridir.

**2.** Aralarından bir adama: "İnsanları xəbərdar et və iman edənlərə Rəblərinin qatında özləri üçün bir doğruluq məqamı olduğunu müjdələ", – deyə vəhy etməyimiz insanlara təəccüblümü gəldi ki, o kafirlər: "Bu, şübhəsiz, açıq-aşkar bir sehrbazdır", – dedilər?

**3.** Şübhəsiz, Rəbbiniz göyləri və yeri altı gündə (altı mərhələdə) yaradan, sonra Ərşə[3] bərqərar olub işləri yoluna qoyan Allahdır. Onun izni olmadan heç kim şəfaətçi

1 Başdan etibarən münafiqlərin iç üzlərini, möminlər haqqındakı pis söz və niyyətlərini dilə gətirən bu surə bəzi münafiqlərin yanında oxunurdu. Münafiqlər söz və əməllərinin surədə aşkara çıxarıldığını gördükdə bir-birilərinin üzünə baxaraq: "Bizi görüb dinləyərək xəbər verən biri var?"- demiş və ayəni dinləməyib oradan ayrılmışdılar.

2 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

3 Ərş qüdrət və hakimiyyət taxtı, sonsuz qüdrət mərtəbəsi deməkdir.

ola bilməz. O, Rəbbiniz Allahdır. Elə isə Ona qulluq edin. Hələ də düşünmürsünüzmü?

4. Hamınızın qayıdışı yalnız Onadır. Allah bunu bir haqq olaraq vəd etmişdir. Şübhəsiz, O, yaratmağı başladar, sonra iman edib saleh işlər görənləri ədalətlə mükafatlandırmaq üçün onu (yaratmanı) təkrar edər. Kafirlərə gəlincə, inkar etmələri səbəbi ilə onlar üçün qaynar sudan bir içki və ağrılı-acılı bir əzab var.

5. O, günəşi bir işıq (mənbəyi), ayı isə (gecə vaxtı) bir aydınlıq (mənbəyi) olaraq yaradan, illərin sayını və hesabı biləsiniz deyə ona mənzillər müəyyən edəndir. Allah bunları (əbəs yerə yox) ancaq haqq ilə (hikmətlə) yaratmışdır. O, bilən bir topluluğa ayələrini müfəssəl açıqlayır.

6. Şübhəsiz, gecə və gündüzün bir-biri ardınca gəlməsində, Allahın göylərdə və yer üzündə yaratdığı şeylərdə, Allaha qarşı gəlməkdən çəkinən bir topluluq üçün bir çox dəlillər var.

7, 8. Şübhəsiz, bizə qovuşacağını ummayan və dünya həyatına razı olub onunla kifayətlənərək tətmin olan kəslər ilə ayələrimizdən qafil olanlar ki var, onların qazandıqları günahlar ucbatından gedəcəkləri yer cəhənnəm atəşidir.

9. (Lakin) iman edib saleh işlər görənlərə gəlincə, Rəbləri onları imanları səbəbi ilə hidayətə qovuşdurar. Nemətlərlə dolu cənnətlərdə onların altlarından çaylar axar.

10. Onların oradakı duaları "Səni nöqsanlardan uzaq tuturuq, Allahım!", orada bir-birilərinə qarşı xoş diləkləri "salam", dualarının sonu isə "Həmd aləmlərin Rəbbi Allaha məxsusdur" sözləridir.

11. Əgər Allah insanlara onların xeyri tezliklə istədikləri kimi şəri də tezliklə versəydi, əlbəttə, onların əcəllərinə hökm verilərdi. Biz bizə qovuşmağı ummayanları öz azğınlıqları içində çırpınar halda qoyarıq.

12. İnsana bir sıxıntı toxunan zaman uzanarkən də, oturarkən də, ayaq üstə ikən də (hər halında bu sıxıntıdan xilas olmaq üçün) bizə dua edər. Amma biz onun sıxıntısını qaldıran kimi sanki özünə toxunan bir sıxıntı üçün bizə heç yalvarmamış kimi çıxıb gedər. Etdikləri şeylər o həddi aşanlara belə süslü (xoş) göstərilmişdir.

13. And olsun, sizdən əvvəlki neçə-neçə nəsilləri peyğəmbərləri onlara açıq-aydın möcüzələr gətirdikləri halda (inkar edib) zülm etdikləri zaman həlak etdik. Onlar onsuz da inanan deyildilər. Biz günahkar topluluğu belə cazalandırırıq.

14. Sonra necə davranacağınızı görək deyə onların ardınca yer üzündə sizi onların yerinə gətirdik.

15. Ayələrimiz onlara açıq-aydın bir dəlil olaraq oxunduqda (öldükdən sonra) bizə qovuşmağı ummayanlar: "Ya (bizə) bundan başqa bir Qur`an gətir və ya onu dəyişdir", – dedilər. De ki: "Mən onu öz istəyimə görə dəyişdirə bilmərəm. Mən ancaq mənə vəhy olunana tabe olaram. Əgər Rəbbimə üsyan etsəm, əlbəttə, böyük bir günün əzabından qorxaram".

16. De ki: "Əgər Allah istəsəydi, mən sizə onu oxumazdım, Allah da sizə onu bildirməzdi. Mən sizin aranızda bundan (Qur`an olmazdan) əvvəl (qırx illik) bir ömür yaşadım. Heç düşünmürsünüzmü?"

17. Allaha qarşı yalan uydurandan və ya Onun ayələrini təkzib edəndən daha zalım kim ola bilər? Şübhə yoxdur ki, (belə) günahkarlar əsla qurtuluşa nail olmazlar.

18. Onlar Allahı qoyub nə özlərinə bir zərər verən, nə də bir fayda verən şeylərə ibadət edir və: "Bunlar Allah qatında bizim şəfaətçilərimizdir", – deyirlər. De ki: "Siz Allaha göylərdə və yerdə Onun bilmədiyi bir şeyi xəbər verirsiniz? O, onların şərik qoşduqları şeylərdən uzaqdır, ucadır".

19. İnsanlar (başlanğıcda tövhid etiqadına bağlı) tək bir ümmət idilər, sonra ixtilafa düşdülər. Əgər (əzabın müəyyən bir vaxta qədər göndərilməməsi ilə bağlı əzəldə) daha əvvəl Rəbbindən bir söz olmasaydı, ixtilafa düşdükləri şeylər barəsində aralarında dərhal hökm verilər (işləri bitirilər)di.

20. "Barı ona (peyğəmbərə) Rəbbindən bir möcüzə endirilsin", – deyirlər. De ki: "Qeyb ancaq Allahındır. Gözləyin, şübhəsiz, mən də sizinlə birlikdə gözləyənlərdənəm!"

21. Başlarına gələn bir müsibətdən sonra insanlara bir rəhmət (rahatlıq və xoşbəxtlik) daddırdığımız zaman bir də görərsən ki, ayələrimiz haqqında onların bir hiylələri (bəzi fəndləri və əsassız iddiaları) var. De ki: "Allah tədbir görməkdə daha sürətlidir". Şübhəsiz, elçilərimiz (mələklər) qurduğunuz hiylələri yazırlar.[1]

22. O, sizi quruda və dənizdə gəzdirəndir. Gəmilərlə dənizə üz tutduğunuz və içindəkilərlə birlikdə gəmilərinizin əlverişli bir küləklə irəlilədiyi, gəmidəkilərin də bununla sevindikləri bir vaxt şiddətli bir fırtına onu haqlayar və hər tərəfdən dalğalar onlara hücum edər. Dalğaların arasında qaldıqlarını (dənizdə qərq olub boğulacaqlarını) başa düşdükdə dini Allaha məxsus edərək: "And olsun, əgər bizi bundan xilas etsən mütləq şükür edənlərdən olacağıq", – deyə Allaha yalvararlar.

23. Lakin onları xilas edincə bir də görərsən ki, yer üzündə haqsız yerə azğınlıq edirlər. Ey insanlar! Sizin azğınlığınız məhz öz əleyhinizədir. (Bununla) ancaq dünya həyatının mənfəətini əldə edərsiniz. Sonra qayıdışınız bizədir. (Biz də) bütün etdiklərinizi sizə xəbər verəcəyik.

24. Dünya həyatı ancaq göydən endirdiyimiz yağmur kimidir; insanların və heyvanların yedikləri yer üzü bitkiləri onunla yetişib bir-birinə qarışmışdır. Nəhayət, yer üzü (o bitkilərlə) bütün zinət və gözəlliklərini alıb bəzəndiyi və sahibləri də ona (onun məhsulunu istədikləri kimi sərf etməyə) qadir olduqlarını zənn etdikləri vaxt gecə və ya gündüz qəflətən əmrimiz (bəlamız) gələr, onları sanki heç dünən yerində yoxmuş kimi kökündən yolunmuş bir hala salarıq. Düşünən bir qövm üçün ayələri belə müfəssəl açıqlayırıq.

25. Allah əmin-amanlıq yurduna çağırır və istədiyini doğru yola yönəldir.

26. Yaxşı işlər görənlərə (əməllərinin əvəzi olaraq) daha gözəli və bir də artığı var. Onların üzlərinə nə qara bulaşar, nə də bir zillət. Məhz onlar cənnətliklərdir və orada əbədi qalacaqlar.

27. Pis işlər görənlərə gəlincə, bir pisliyin cəzası (onun) misli (qədər)dir və onları bir

---

1 Ayədəki "Allahın tədbir görməsi" ifadəsi məcazi bir ifadə olub "inkar edənlərə möhlət verib sonra onları qəfil yaxalaması" və "inkar edənləri cəzalandırması" kimi mənalara gəlir.

zillət bürüyəcək. Onları Allah (ın əzabın)dan qoruyacaq bir kimsə də yoxdur. Sanki üzləri gecənin zülmət parçaları ilə örtülmüşdür. Onlar cəhənnəmliklərdir. Onlar orada əbədi qalacaqlar.

28. Onların hamısını bir yerə toplayacağımız, sonra da Allaha şərik qoşanlara: "Siz də, şərikləriniz də yerinizdə gözləyin", – deyəcəyimiz günü düşün. Onların (qoşduqları şəriklərlə) aralarını tamamilə ayırarıq və qoşduqları şərikləri deyərlər ki: "Siz bizə ibadət etmirdiniz".

29. "İndi isə sizin bizə ibadət etməyinizdən bizim xəbərsiz olduğumuza dair sizinlə bizim aramızda şahid olaraq Allah yetər. "

30. Orada hər kəs daha əvvəl etdiyi şeyləri yoxlayacaq (və öz aqibətini öyrənəcək), həqiqi sahibləri olan Allaha döndəriləcək və (ilah deyə) uydurduqları şeylər (onları dar ayaqda buraxıb) onlardan qeyb olub gedəcəklər.

31. De ki: "Sizə göydən və yerdən kim ruzi verir? Ya da eşitmə və görmə qabiliyyətinin sahibi kimdir? Ölüdən dirini, diridən də ölünü kim çıxarır? İşləri kim yoluna qoyur?" "Allah", – deyəcəklər. De ki: "Elə isə Allaha qarşı gəlməkdən çəkinməyəcəsinizmi?"

32. O, sizin əsl Rəbbiniz olan Allahdır. Haqdan sonra yalnız zəlalət var. Bu halda necə olur ki, (Haqdan) döndərilirsiniz?

33. Rəbbinin yoldan çıxanlar haqqındakı "Onlar daha imana gəlməzlər" sözü, bax belə gerçək oldu.

34. De ki: "Allaha qoşduğunuz şəriklərinizdən başlanğıcda yaradan sonra onu təkrarlayan kimsə varmı?" De ki: "Allah əvvəldə yaradar, sonra onu təkrar edər. Elə isə necə (haqdan) döndərilirsiniz?"

35. De ki: "Allaha qoşduğunuz şəriklərinizdən haqqa yönəldən biri varmı?" De ki: "Haqqa Allah yönəldər". Elə isə haqqa yönəldən tabe olunmağa daha layiqdir, yoxsa doğru yola yönəldilmədikcə onu tapa bilməyən? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?

36. Onların çoxu ancaq zənnə uyur. Halbuki zənn haqqın yerini tutmaz. Şübhəsiz, Allah onların etdiklərini haqqı ilə biləndir.

37. Bu Qur`an Allahdan başqası tərəfindən uydurulmamışdır. Lakin o, özündən əvvəlkiləri təsdiqləyən və Kitabı (Allahın Lövhi-məhfuzdakı yazısını) açıqlayan (bir kitab) olaraq endirilmişdir. Bunda heç bir şübhə yoxdur. (O,) Aləmlərin Rəbbi tərəfindəndir.

38. Yoxsa: "Onu (Muhamməd özü) uydurdu", – deyirlər? De ki: "Əgər doğru söyləyənlərsinizsə, siz də ona bənzər bir surə gətirin və Allahdan başqa çağıra biləcəyiniz kim varsa, onları da köməyə çağırın".

39. Xeyr, elə deyil. Onlar elmini qavraya bilmədikləri və özlərinə yozumu gəlməmiş olan bir şeyi təkzib etdilər. Onlardan əvvəlkilər də (peyğəmbərləri və onlara endirilən kitabları) belə təkzib etmişdilər. Bir gör, o zalımların sonu necə oldu.

40. Onlardan eləsi var ki, ona (Qur`ana) inanır, eləsi də var ki, inanmır. Rəbbin fitnə-fəsad törədənləri ən yaxşı biləndir.

41. Əgər onlar səni təkzib etsələr, de ki: "Mənim işim mənə aiddir, sizin işiniz də sizə. Siz mənim etdiyimdən uzaqsınız, mən də sizin etdiklərinizdən uzağam (sizin əməllərinizə görə məsuliyyət daşımıram)".

42. Onlardan sənə qulaq asanlar da var. Lakin karlara, üstəlik ağılları da kəsmirsə, sənmi (söz) eşitdirəcəksən?

43. Onlardan sənə baxanlar da var. Lakin korlara, üstəlik həqiqəti görmürlərsə, sənmi doğru yolu göstərəcəksən?

44. Şübhəsiz, Allah insanlara heç bir şəkildə zülm etməz. Lakin insanlar özlərinə zülm edərlər.

45. Onları yenidən dirildib hamısını bir yerə toplayacağı gün sanki gündüz sadəcə bir-biriləri ilə tanış olacaqları bir saat qədər qalmış kimidirlər. Allaha qovuşmağı yalan sayanlar ziyana uğrayanlar və doğru yolu tapa bilməyənlərdir.

46. Onları vəd etdiklərimizin bir qismini sənə göstərsək də, (göstərmədən) sənin canını alsaq da sonda onların qayıdışı bizədir. Sonra Allah onların etdiklərinə də şahiddir.

47. Hər ümmətin bir peyğəmbəri var. Onların peyğəmbəri gəldiyi (təbliğini yerinə yetirdiyi) zaman aralarında ədalətlə hökm verilər və onlara qətiyyən zülm edilməz.

48. "Əgər doğru söyləyənlərsinizsə, (deyin görək) bu vəd nə zaman (gerçəkləşəcək)?" – deyirlər.

49. De ki: "Allah diləmədikcə mən özümə belə nə bir zərər, nə də fayda vermək gücünə sahibəm. Hər millətin bir əcəli var. Onların əcəli gəldiyi zaman nə bir an geri qala bilərlər, nə də irəli keçə bilərlər".[1]

50. De ki: "Onun əzabı sizə gecə və ya gündüz vaxtı (qəflətən) gəldikdə (nə edəcəyinizi) heç düşündünüzmü? Günahkarlar bunun tez gəlməsini necə istəyərlər?!" (Bunların heç biri arzuolunan deyil.)

51. (Onlara:) "Əzab gəldikdən sonramı Ona iman etdiniz yoxsa indimi? Halbuki siz onun tez gəlməsini istəyirdiniz", (– deyiləcək.)

52. Sonra isə zülm edənlərə: "Əbədi əzabı dadın! Siz ancaq vaxtilə qazandığınızın cəzasını çəkirsiniz", – deyiləcək.

53. "O (əzab) gerçəkdirmi?" – deyə səndən xəbər alırlar. De ki: "Bəli, Rəbbimə and olsun ki, o, əlbəttə, gerçəkdir. Siz (bu barədə Allahı) aciz buraxa bilməzsiniz".

54. Zülm edən hər kəs əgər yer üzündəki hər şeyə sahib olsaydı, (o gün) özünü qurtarmaq üçün onu fidyə verərdi. Əzabı gördükləri zaman için-için dərin bir peşmanlıq keçirərlər. Zülmə məruz qalmadan aralarında ədalətlə hökm verilər.

55. Bilin ki, göylərdəki hər şey, yerdəki hər şey Allahındır. Həmçinin bilin ki, Allahın vədi haqdır. Lakin onların çoxu bunu bilməz.

1 Bu mövzu ilə əlaqəli olaraq baxın: Ə`raf, 7/34.

56. O dirildir və öldürür. Ancaq Ona qaytarılacaqsınız.

57. Ey insanlar! Sizə Rəbbinizdən bir öyüd, qəlblərə bir şəfa və inananlar üçün hidayət və rəhmət (olan Qur`an) gəldi.

58. De ki: "Allahın lütfü və rəhməti ilə yalnız bunlarla sevinsinlər. Bu, onların yığdıqlarından daha xeyirlidir".

59. De ki: "Allahın sizə endirdiyi, sizin də bir qismini halal, bir qismini haram saydığınız ruzilər haqqında nə deyirsiniz?" De ki: "Bunun üçün Allah sizə izin verdi, yoxsa Allaha iftira atırsınız?"

60. Allaha qarşı yalan uyduranların qiyamət günü barəsindəki şübhələri nədir? Şübhəsiz, Allah insanlara qarşı çox lüftkardır, lakin onların çoxu (verdiyi nemətlərə görə Ona) şükür etməzlər.

61. (Ey Muhamməd!) Sən nə iş görürsən gör, ona dair Qur`andan nə oxuyursan oxu və (ey insanlar, siz də) nə iş görürsünüz görün, siz onunla məşğul olduğunuz zaman biz sizi mütləq görürük. Nə yerdə, nə də göydə zərrə ağırlığında, (hətta) bu zərrədən daha kiçik və ya daha böyük olsun heç bir şey Rəbbindən uzaq (və gizli) olmaz, hamısı açıq-aydın bir kitabda (Lövhi-məhfuzda yazılı)dır.

62. Bilin ki, Allahın dostlarına heç bir qorxu yoxdur. Onlar qəm-qüssə görməyəcəklər.

63. Onlar iman edənlər və Allaha qarşı gəlməkdən çəkinənlərdir.

64. Dünya həyatında da, axirət həyatında da onlar üçün müjdə var. Allahın sözlərində heç bir dəyişiklik olmaz. Bu, böyük uğurdur.[1]

65. Onların (inkarçıların) sözləri səni kədərləndirməsin. Çünki bütün güc Allahındır. O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

66. Bilin ki, göylərdə və yerdə kim varsa Allahındır. Allahdan başqasına tapınanlar (əslində) Allaha qoşduqları şəriklərə tabe olmurlar, şübhəsiz, onlar ancaq zənnə uyurlar və yalnız yalan söyləyirlər.

67. O, içində dincələsiniz deyə gecəni sizin üçün (qaranlıq), gündüzü isə aydınlıq edəndir. Şübhəsiz, bunda eşidən bir qövm üçün ibrətlər var.

68. "Allah (özünə) övlad götürdü", – dedilər. O, bundan uzaqdır. O, hər baxımdan hədsiz zəngindir. Göylərdəki və yerdəki hər şey Onundur. Bu barədə əlinizdə heç bir dəlil yoxdur. Allaha qarşı bilmədiyiniz bir şey deyirsiniz?[2]

69. De ki: "Allah haqqında yalan uyduranlar əsla qurtuluşa nail olmazlar".

70. Onlar üçün dünyada (müvəqqəti) bir dolanacaq var. Sonra qayıdışları bizədir. Sonra da inkar etdiklərinə görə onlara şiddətli əzabı daddıracağıq.

71. Nuhun xəbərini onlara oxu. O, bir vaxt öz qövmünə belə demişdi: "Ey qövmüm! Əgər mənim məqamım və Allahın ayələri ilə öyüd-nəsihət verməyim sizə ağır gə-

---

1 Allahın sözləri Allahın vədləri deməkdir. Allah qullarına nə vəd etmişsə, onu mütləq gerçəkləşdirər. Bu barədəki hökmü dəyişməz.

2 Şirk inancında "Allahın oğlu" və "Allahın qızı" kimi fikirlərə rast gəlmək mümkündür. Belə ki, bütpərəst ərəblər də bu fikir var idi. Onlar mələklərin Allahın qızları olduqlarına inanırdılar. Baxın: Nəhl, 16/57; Ənbiya, 21/26.

lirsə, (bilin ki,) mən yalnız Allaha bel bağlamışam. Siz də şəriklərinizlə birlikdə (mənə) nə edəcəyinizi qərarlaşdırın ki, işiniz sizə dərd olmasın! Bundan sonra da qərarımı verin, mənə möhlət də verməyin!"

72. Əgər üz çevirsəniz, onsuz da sizdən heç bir mükafat istəmədim. Mənim mükafatım ancaq Allaha aiddir. Mənə müsəlmanlardan olmağım əmr edildi.

73. Onu yenə də inkar etdilər. Biz də onu və onunla birlikdə gəmidə olanları xilas etdik və onları o birilərin yerinə keçirdik. Ayələrimizi yalan sayanları da suda boğduq. Bir gör, xəbərdar olunan (lakin sözdən anlamayan)ların sonu necə oldu!

74. Sonra bunun ardından bir çox peyğəmbəri öz qövmünə göndərdik. Onlara açıq-aşkar möcüzələr gətirdilər. Lakin onlar öncə inkar etdikləri şeyə inanacaq deyildilər. Biz həddi aşanların qəlblərini belə möhürləyərik.

75. Sonra bunların ardından Firona və onun əyanlarına da Musa və Harunu da möcüzələrimizlə göndərdik. Lakin təkəbbür göstərdilər və günahkar bir qövm oldular.

76. Bizdən onlara haqq (möcüzə) gəldikdə: "Şübhəsiz, bu, açıq-aşkar bir sehrdir", – dedilər.

77. Musa: "Sizə haqq gəldiyi zaman onun haqqında belə deyirsiniz? Bu bir sehrdirmi? Halbuki sehrbazlar nicat tapmazlar!" – dedi.

78. Dedilər ki: "Bizi atalarımızın yolundan döndərəsən deyə və yer üzündə hakimiyyət (dövlət) ikinizin əlinə keçsin deyə bizə gəldin? Biz ikinizə də inanmırıq".

79. Firon: "Bütün mahir sehrbazları yanıma gətirin", – dedi.[1]

80. Sehrbazlar gəldikdə Musa onlara: "Atacağınızı atın (məharətinizi göstərin)", – dedi.

81. Sehrbazlar atacaqlarını atdıqda Musa dedi ki: "Sizin bu etdiyiniz sehrdir. Allah onu, əlbəttə, batil edəcək. Çünki Allah fitnə-fəsad törədənlərin işini düzəltməz.

82. Günahkarların xoşuna gəlməsə də, Allah haqqı öz sözləri ilə gerçəkləşdirəcək".

83. Firon və əyanlarının özlərinə pislik edəcəyi qorxusu ilə qövmünün yalnız kiçik bir dəstəsi xaric (heç kəs) Musaya iman etmədi. Çünki Firon o yerdə müstəbid biri idi. Həqiqətən, o, həddi aşanlardan idi.

84. Musa: "Ey qövmüm! Əgər siz, həqiqətən, Allaha iman etmisinizsə, Ona təslim olan kəslərsinizsə, yalnız Ona təvəkkül edin", – dedi.

85. Onlar isə belə dedilər: "Biz yalnız Allaha təvəkkül etdik. Ey Rəbbimiz, bizi zalımlar qövmünün təzyiq və zülmünə məruz qoyma!"

86. Bizi rəhmətinlə kafirlər qövmündən xilas et.

87. Musaya və qardaşına: "Qövmünüz üçün Misirdə (sığınacaq) evlər hazırlayın və evlərinizi namaz qılınan yerlər edin. Namazı doğru-düzgün qılın. Möminləri müjdələ!" – deyə vəhy etdik.

88. Musa belə dedi: "Ey Rəbbimiz! Həqiqətən, Sən Firona və onun əyanlarına dün-

1 Musa və Firon qissəsinin başqa bir versiyası üçün baxın: Ə`raf, 7/103-140.

ya həyatında neçə-neçə nemət və mallar əta etdin. Ey Rəbbimiz, sənin yolundan sapdırsınlar deyəmi? Ey Rəbbimiz, sən onların mal-dövlətini məhv et və qəlblərinə darlıq ver. Çünki onlar ağrılı-acılı əzabı görənə qədər iman etməzlər".

**89.** Allah: "Hər ikinizin duası qəbul olundu. Elə isə doğru-dürüst olmağa davam edin və əsla bilməyənlərin yoluna uymayın", – dedi.

**90.** İsrail oğullarını dənizdən keçirdik. Firon da əsgərləri ilə birlikdə zülm və düşmənlik etmək məqsədilə onların arxasınca düşdü. Nəhayət, boğulmaq üzrə ikən: "İsrail oğullarının iman etdiyindən başqa bir ilah olmadığına inandım. Mən də müsəlmanlardanam", – dedi.

**91.** İndimi? Halbuki daha əvvəl üsyan etmiş və fitnə-fəsad törədənlərdən olmuşdun.

**92.** Səndən sonra gələnlər üçün ibrət olasan deyə bu gün sənin bədənini xilas edəcəyik. Çünki insanlardan bir çoxu ayələrimizdən, həqiqətən, xəbərsizdir.

**93.** And olsun, biz İsrail oğullarını çox gözəl bir yurda yerləşdirdik və onlara təmiz ruzilər verdik. Onlara elm gələnə qədər ixtilafa düşmədilər. Şübhəsiz ki, ixtilafa düşdükləri şey haqqında Rəbbin qiyamət günü aralarında hökm verəcək.[1]

**94.** Əgər sənə endirdiyimiz şeydən şübhə edirsənsə, səndən əvvəl Kitabı (Tövratı) oxuyanlardan soruş. And olsun ki, sənə Rəbbindən haqq gəlmişdir. Elə isə şübhə edənlərdən olma!

**95.** Allahın ayələrini təkzib edənlərdən də olma! Yoxsa ziyana uğrayanlardan olarsan.

**96, 97.** Şübhəsiz, barələrində Rəbbinin sözü (hökmü) gerçəkləşmiş olanlar özlərinə bütün möcüzələr gəlsə də, ağrılı-acılı əzabı görənə qədər iman etməzlər.

**98.** Yunusun qövmündən başqa kaş ki, (əzabı görmədən) iman edib imanı özünə fayda verən bir tək məmləkət əhli olaydı! (Yunusun qövmü) iman etdikdə dünya həyatında (başlarına gələ biləcək) rüsvayçılıq əzabını onlardan uzaqlaşdırmış və onlara müəyyən bir vaxta qədər faydalandırmışdıq.

**99.** Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı birdən iman edərdi. Belə olduğu halda insanları mömin olmağa sənmi məcbur edəcəksən?[2]

---

1 Yəhudilər müqəddəs kitabları Tövratdakı məlumatlardan həzrət Peyğəmbərin əlamətlərini bilirdilər. Axır zamana qədər belə bir peyğəmbərin gələcəyi haqqında həmfikir idilər. Həzrət Peyğəmbər (s.ə.s.) gəlib: "Mən Allahın elçisiyəm" – dediyi zaman isə yəhudilərin çoxu onu inkar etdi. Az bir qismi onun haqq peyğəmbər olduğuna iman etdi. Buna görə ayədə yəhudilərin barəsində ixtilafa düşdükləri xəbər verilən məsələ həzrət Muhammədin (s.ə.s.) peyğəmbərliyidir.

2 Ayədə insanları inanmağa məcbur etməyin doğru bir yol olmadığı, belə bir şeyə ehtiyac olsaydı, bunu Allahın edəcəyi bildirilir. İmanı iman edən şey onun azad iradəyə əsaslanmasıdır. İnsan imanı seçdiyi üçün əbədi səadətə layiq olur. İnanmağa məcbur edildiyi halda iradə və seçim olmayacağı üçün iman olmaz.

100-cü ayədə isə Allahın izni olmadan heç kimin iman edə bilməyəcəyi bildirilir, sonra isə düşünməyənlərin əzaba düçar olacaqları xəbər verilir. Bunun mənası belədir: iman barəsində seçim bəndəyə, bu seçimi yaradıb gerçəkləşdirmək isə Allaha aiddir. Qulun iradəsinə görə nəticənin hasil olması Allahın izni, yəni yaratması ilə olur. O yaratmazsa, qulların iradə və seçimi nəticə verməzdi. Lakin Allah ədalət sifətinin gərəyi olaraq qulların vəhyə qulaq asıb düşünərək göstərdikləri iradə və seçimin nəticələrini yaradır. Bu, iman barəsində də belədir.

100. Allahın izni olmadıqca heç kim iman edə bilməz. Allah əzabı ağıllarından (düzgün) istifadə etməyənlərə verir.

101. De ki: "Bir baxın görün, göylərdə və yerdə nələr var". Lakin ayələr və xəbərdarlıqlar inanmayan bir qövmə heç bir fayda verməz.

102. Onlar yalnız özlərindən əvvəl gəlib-keçənlərin başlarına gələn (əzab dolu) günlərin bənzərini gözləyirlər? De ki: "Gözləyin, mən də sizinlə birlikdə gözləyənlərdənəm".

103. Sonra rəsullarımızı və iman edənləri xilas edərik. (Ey Muhamməd!) Beləliklə, üzərimizə düşən bir haqq olaraq inananları da qurtaracağıq.

104. De ki: "Ey insanlar, əgər mənim dinim barəsində şübhədəsinizsə, bilin ki, mən Allahı buraxıb sizin tapındıqlarınıza tapınmaram, lakin mən sizin canınızı alacaq Allaha qulluq edirəm. Mənə möminlərdən olmaq əmr olundu".

105, 106. Yenə mənə belə əmr olundu: "Haqqa yönələn biri olaraq üzünü dinə çevir. Allaha şərik qoşanlardan olma. Allahı buraxıb sənə nə fayda, nə də zərər verə bilən şeylərə yalvarma. Əgər belə etsən, şübhəsiz ki, sən zalımlardan olarsan".

107. Əgər Allah sənə bir zərər versə, bil ki, onu Ondan başqa heç kəs dəf edə bilməz. Əgər sənə bir xeyir diləsə, Onun lütfünə mane olacaq bir kəs də olmaz. O, bunu qullarından istədiyinə nəsib edər. O, çox bağışlayandır, çox mərhəmət edəndir.

108. De ki: "Ey insanlar, sizə Rəbbinizdən haqq (Qur`an) gəlmişdir. Artıq kim doğru yola yönələrsə, yalnız özü üçün yönələr. Kim də doğru yoldan azarsa, yalnız öz əleyhinə azar. Mən sizdən məsul deyiləm".

109. (Ey Muhamməd!) Sənə vəhy olunana tabe ol və Allah hökmünü verənə qədər səbir et. O, hökm verənlərin ən xeyirlisidir.

# 11. HUD SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 123 ayədən ibarətdir. Surənin adı içərisində söhbət açılan Hud peyğəmbərin adından götürülmüşdür. Surədə başlıca olaraq tövhid, peyğəmbərlik, öldükdən sonra dirilmə və cəza mövzuları ələ alınır və bunlar bəzi peyğəmbərlərin qissələri ilə dəstəklənir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Əlif Ləm Ra.[1] Bu Qur`an, ayələri hökm və hikmət sahibi (olan və hər şeydən) haqqı ilə xəbərdar olan Allah tərəfindən möhkəmlənmiş (nöqsansız, tutarlı və açıq-aydın), sonra da Allahdan başqasına qulluq etməyəsiniz deyə müfəssəl açıqlanmış bir kitabdır. (De ki:) "Şübhəsiz, mən sizə Onun tərəfindən göndərilmiş bir xəbərdar edən və müjdələyənəm".

3. Rəbbinizdən bağışlanma diləyin, sonra da Ona tövbə edin ki, sizə müəyyən bir müddətə (ömrünüzün sonuna) qədər gözəl bir gün-güzaran versin və hər fəzilət

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinə aid istinada baxın.

sahibinə fəzilətinin əvəzini versin. Əgər üz çevirsəniz, mən sizin üçün böyük bir günün əzabından qorxuram.

4. Qayıdışınız yalnız Allahadır. O, hər şeyə haqqı ilə gücü yetəndir.

5. Yaxşı bilin ki, onlar Ondan gizlənmək üçün qəlblərindəki düşmənliyi gizlədirlər. Yenə bilin ki, onlar (görünməsinlər, eşidilməsinlər deyə) libaslarına büründükləri zaman belə Allah onların gizlədiklərini də, aşkara vurduqlarını da bilir. Çünki O, qəlblərdə olanı haqqı ilə biləndir.

6. Yer üzündə heç bir canlı yoxdur ki, ruzisi Allaha aid olmasın. Hər birinin (dünyada) qərar tutduqları yeri də, (öldükdən sonra) əmanət olaraq qoyulacaqları yeri də O bilir. Bunların hamısı açıq bir kitabda (Lövhi-məhfuzda yazılı)dır.

7. O, hansınızın əməl baxımından daha yaxşı olacağı barəsində sizi sınağa çəkmək üçün hələ Ərşi[1] su üstündə ikən göyləri və yeri altı gündə (altı mərhələdə) yaradandır. Hal belə ikən "Ölümdən sonra şübhəsiz, dirildiləcəksiniz", – desən, inkarçılar: "Bu, açıq-aşkar bir sehrdir", – deyərlər.

8. And olsun, biz onlara gələcək əzabı müəyyən bir vaxta qədər gecikdirsək, o zaman da mütləq: "Ona nə mane olur?" – deyərlər. Yaxşı bilin ki, əzab onlara gələcəyi gün onlardan bir daha uzaqlaşdırılmaz və istehza ilə baxdıqları şey onları ağuşuna alar.

9. Əgər insana tərəfimizdən bir rəhmət (nemət) daddırsaq, sonra bunu ondan alsaq, şübhəsiz, o, ümidsiz və nankor olar.

10. Ancaq ona üz verən bir sıxıntıdan sonra ona bir nemət daddırsaq, mütləq: "Pisliklər məndən sovuşdu", – deyəcək. Çünki o, özündən razı və qürrələnən biridir.

11. Lakin səbir edib saleh işlər görənlər belə deyildir. Məhz onlar üçün bağışlanma və böyük bir mükafat var.

12. (Ey Muhammməd!) Bəlkə də sən (müşriklərin) "Ona bir xəzinə endirilsəydi və ya onunla birlikdə bir mələk göndərilsəydi olmazdı?!" demələri səbəbi ilə sənə vəhy olunanlardan bir qismini tərk edəcəksən və o səbəblə köksün daralacaq. Lakin sən ancaq bir xəbərdar edənsən. Allah isə hər şeyə vəkildir.[2]

13. Yoxsa: "Onu (Qur`anı) uydurdu", – deyirlər? De ki: "Əgər doğru söyləyənlərsinizsə, Allahdan başqa kimi (köməyə) çağıra bilirsinizsə çağırıb, siz də onun kimi uydurma on surə gətirin".[3]

14. Əgər sizə (bu barədə) cavab verə bilmədilərsə, bilin ki, o, (Qur`an) ancaq Allahın elmi ilə endirilmişdir və Ondan başqa bir ilah yoxdur. Artıq müsəlman olursunuzmu?

---

1 Ərş məhfumu ilə əlaqəli olaraq baxın: Ə`raf, 7/54.

2 Müşriklər: "Madam ki, Muhamməd peyğəmbərdir, elə isə nə üçün dolanışıq sıxıntısı çəkir? Göydən ona bir xəzinə endirilsə yaxud peyğəmbərliyini sübut edəcək bir mələk gəlsə olmazdı?" – deyərək istehza edir, həzrət Peyğəmbəri sıxışdırmağa çalışırdılar. Bu və bundan sonrakı ayələrdə Uca Allah çətin vəziyyətdə qalan Rəsulun müşriklərin bütlərini hədəf alan ayələr kimi bəzi ayələrin təbliğini gecikdirmə ehtimalına qarşı onu xəbərdar edir və dəstəkləyir.

3 Ayənin açıqlaması üçün Bəqərə surəsinin 24-cü ayəsinin istinadına baxın.

15. Kim yalnız dünya həyatını və onun zinətini istərsə, biz onlara etdiklərinin qarşılığını orada tam şəkildə ödəyərik. Onlar orada bir əskiklik görməzlər.

16. Onlar elə kəslərdir ki, özləri üçün axirətdə atəşdən başqa bir şey yoxdur. (Dünyada) etdikləri şeylər orada puç olmuşdur. Etdikləri bütün əməllər də boşdur.

17. Rəbbinin qatından açıq bir dəlilə söykənən bir kəs yalnız dünyalıq istəyən kimsə kimi olarmı? Bu dəlili Rəbbindən bir şahid (Qur`an) və bir də ondan (Qur`andan) əvvəl bir öndər və bir rəhmət olaraq (endirilən) Musanın kitabı (Tövrat) dəstəkləyir.[1] Bunlar ona (Qur`ana) inanırlar. Dəstələrdən kim onu inkar edərsə, cəhənnəm odu onun gedəcəyi yerdir. Ondan heç şübhən olmasın. Şübhəsiz, o, Rəbbin tərəfindən (bildirilən) həqiqətdir. Lakin insanların çoxu inanmazlar.

18. Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər? Bunlar Rəblərinə ərz ediləcəklər və şahidlər də: “Rəblərinə qarşı yalan söyləyənlər məhz bunlardır”, – deyəcəklər. Bilin ki, Allahın lənəti zalımlaradır.

19. Onlar (insanları) Allah yolundan yayındıran və onu əyri və təzadlı göstərmək istəyən kimsələrdir. Axirəti inkar edənlər də məhz onlardır.

20. Onlar yer üzündə (Allahı) aciz buraxan deyillər. Onların Allahdan başqa sığına biləcəkləri bir yardımçıları da yoxdur. Onlar üçün əzab qat-qat artırılacaq. Çünki onlar (həqiqətləri) eşitməyə dözə bilmir, həm də görmürdülər.

21. Bunlar özlərini ziyana salan kimsələrdir. Uydurduqları şeylər də onları darda qoyub getmişdir.

22. Şübhəsiz, bunlar axirətdə ən çox ziyana uğrayanlardır.

23. İman edib saleh işlər görən və Rəblərinə sidq-ürəkdən bağlananlara gəlincə, onlar cənnətliklərdir. Onlar orada əbədi qalacaqlar.

24. Bu iki firqənin halı kor və kar kimsə ilə görən və eşidən kimsənin halı kimidir. Bunların halı heç bir-biri ilə eyni olarmı? Hələ də düşünmürsünüzmü?

25. And olsun, biz Nuhu öz qövmünə peyğəmbər olaraq göndərdik. Onlara belə dedi: “Mən sizin üçün açıq-aşkar bir xəbərdar edənəm”.

26. Allahdan başqasına ibadət və qulluq etməyin. Düzü, mən sizə üz verəcək böyük bir günün əzabından qorxuram.

27. Qövmünün inkarçı liderləri: “Biz sənin yalnız bizim kimi bir insan olduğunu görürük. İlk baxışda sənə tabe olanların da ancaq ən səfillərimizdən ibarət olduğunu görürük. Sizin bizə qarşı hər hansı bir üstünlüyünüzü də görmürük. Əksinə sizin yalançı kimsələr olduğunuzu düşünürük”, – dedilər.

28. Nuh dedi ki: “Ey qövmüm! Deyin görək, əgər mən Rəbbimdən gələn açıq-aydın bir dəlilə söykənmişəmsə və O, öz qatından mənə bir rəhmət vermiş, siz isə ona qarşı kor qalmısınızsa, onu istəmədiyiniz halda biz sizi ona məcbur edəcəyik?”

29. “Ey qövmüm! Bunun əvəzində sizdən bir mal da istəmirəm. Mənim mükafatım

1 İslam alimlərinə görə burada bildirilən dəlil ağıldır. Buna görə ayədə ağlından lazımınca istifadə edən və bu sayədə Allahın varlığına və birliyinə inanan şəxs ilə hər şeyi dünya həyatından ibarət bilib fitrətə zidd olaraq inkara düşən kimsələrin bir olmadığı, üstəlik insanın doğru bir etiqada sahib olmasının yalnız ağla həvalə olunmayıb, ağlın ilahi vəhy ilə də dəstəkləndiyi vurğulanır.

ancaq Allaha aiddir. Mən o iman edənləri (sizə uyaraq yanımdan) qovmaram. Çünki onlar Rəblərinə qovuşacaqlar. Lakin mən sizin cahil bir toplum olduğunuzu görürəm".

30. "Ey qövmüm! Əgər mən onları qovsam, məni Allahdan kim qoruya bilər? Heç düşünmürsünüzmü?"

31. Mən sizə: "Allahın xəzinələri mənim yanımdadır", – demirəm. Qeybi də bilmirəm. "Mən bir mələyəm", – də demirəm. Sizin xor gördüyünüz kimsələr üçün: "Allah onlara əsla bir xeyir verməz", – də deyə bilmərəm. Allah onların qəlblərindəkini daha yaxşı bilir. Belə bir şey söyləsəm, o zaman mən, həqiqətən, zalımlardan olaram.

32. Dedilər ki: "Ey Nuh! Bizimlə mübahisə etdin və mübahisəni uzatdın. Əgər doğru söyləyənlərdənsənsə, o zaman bizə vəd etdiyin əzabı gətir".

33. Nuh dedi ki: "Onu sizə, əgər istərsə, ancaq Allah gətirər və siz (Allahı) aciz buraxa bilməzsiniz".

34. Mən sizə öyüd vermək istəsəm də, əgər Allah sizi sapdırmaq istəmişsə, öyüdüm sizə fayda verməz. O, sizin Rəbbinizdir və Ona qaytarılacaqsınız.

35. (Ey Muhamməd!) Yoxsa: "Onu (Qur`anı) özündən uydurdu", – deyirlər? De ki: " Əgər onu özümdən uydurmuşamsa, günahı mənə aiddir. Mən də sizin işlədiyiniz günahlardan uzağam".[1]

36. Nuha vəhy olundu ki: "Əvvəlcə iman edənlərdən başqa qövmündən daha heç kim iman etməyəcək. O halda onların etdiklərinə görə məyus olma".

37. "Nəzarətimiz altında və vəhyimizə görə gəmini düzəlt. Zülm edənlər haqqında mənə bir şey söyləmə. Çünki onlar suda boğulacaqlar".

38. (Nuh) gəmini düzəldirdi. Qövmündən öndə gələnlər isə nə zaman yanından keçsələr, onu məsxərəyə qoyurdular. Dedi ki: "Siz bizi məsxərəyə qoyursunuzsa, bizi məsxərəyə qoyduğunuz kimi biz də sizi məsxərəyə qoyacağıq".

39. Artıq, çatdığı kimsəni rüsvay edən əzabın kimə gələcəyini, kimin üzərinə daimi bir əzabın enəcəyini yaxında anlayacaqsınız.

40. Nəhayət, əmrimiz gəlib təndir qaynamağa başlayınca (sular aşıb daşdığı zaman) Nuha dedik ki: "Hər növ canlıdan (erkək və dişi olmaqla) bir cüt, bir də haqlarında daha əvvəl hökm verilmiş kəslər xaric, ailəni və iman edənləri ona yüklə". Amma onunla birlikdə çox az adam iman etmişdi.[2]

41. (Nuh:) "Minin ona. Onun üzüb getməsi də, dayanması da Allahın adı ilədir. Şübhəsiz, Rəbbim çox bağışlayandır, çox mərhəmət edəndir", – dedi.

42. Gəmi dağlar kimi dalğalar arasında onları aparırdı. Nuh aralıda olan oğluna: "Oğlum, bizimlə bərabər sən də min, inkarçılarla bir olma", – deyə səsləndi.

43. O: "Məni sudan qoruyan bir dağa sığınacağam", – dedi. Nuh: "Bu gün Allahın

1 Ayənin açıqlaması üçün Bəqərə surəsinin 24-cü ayəsinin istinadına baxın.

2 Bununla əlaqəli olaraq baxın: Mu`minun, 23/27.

rəhmət etdikləri xaric, Onun əzabından qorunacaq bir kimsə yoxdur", – dedi. Bunun ardından aralarına bir dalğa girdi, oğlu boğulanlardan oldu.

44. "Ey yer! Suyunu ud. Ey göy! Suyunu tut", – deyildi. Su çəkildi, iş bitirildi. Gəmi də Cudiyə oturdu və "Zalımlar qövmü Allahın rəhmətindən uzaq olsun!" – deyildi.

45. Nuh Rəbbinə səslənib belə dedi: "Rəbbim! Şübhəsiz, oğlum da ailəmdəndir. Sənin vədin, əlbəttə, haqdır. Sən hökm edənlərin ən yaxşı hökm edənisən".

46. Allah: "Ey Nuh! O, əsla sənin ailəndən deyil. Onun etdiyi yaxşı bir iş deyil. Elə isə bilmədiyin şeyi məndən istəmə. Mən sənə cahillərdən olmamağı nəsihət edirəm", – dedi.

47. Nuh: "Rəbbim! Şübhəsiz, mən səndən bilmədiyim şeyi istəməkdən sənə sığınıram. Əgər məni bağışlamasan və mənə rəhm etməsən, şübhəsiz, ziyana uğrayanlardan olaram", – dedi.

48. Ona deyildi ki: "Ey Nuh! Sənə və səninlə birlikdə olanlardan bir çox ümmətə bizdən bir əmin-amanlıq və bərəkətlərlə (gəmidən) en. Hələ bəzi ümmətlər də olacaq ki, biz onlara (dünyada) xoş gün-güzəran verəcəyik. Sonra da bizdən onlara ağrılı-acılı bir əzab toxunacaq".

49. Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl onları nə sən bilirdin, nə də qövmün. O halda səbir et. Çünki (yaxşı) sonluq Allaha qarşı gəlməkdən çəkinənlərin olacaq.

50. Ad qövmünə də qardaşları Hudu göndərdik. Hud belə dedi: "Ey qövmüm! Allaha qulluq edin. Ondan başqa sizin heç bir ilahınız yoxdur. Siz yalnız iftira edirsiniz".

51. "Ey qövmüm! Mən buna görə sizdən bir mükafat istəmirəm. Mənim mükafatım yalnız, məni yaradana aiddir. Hələ də düşünməyəcəksinizmi?"

52. "Ey qövmüm! Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin ki, üzərinizə bol-bol yağmur göndərsin və gücünüzə güc qatsın. Günahkarlar olaraq üz çevirməyin".

53. Dedilər ki: "Ey Hud! Sən bizə açıq bir möcüzə gətirmədin. Biz də sənin sözünlə ilahlarımızı tərk edən deyilik. Biz sənə iman edən də deyilik".

54, 55. Biz ancaq bunu deyirik: "İlahlarımızdan biri sənə sədəmə toxundurmuşdur". Hud dedi ki: "Mən Allahı şahid tuturam. Siz də şahid olun ki, mən sizin Allahı buraxıb Ona şərik qoşduğunuz şeylərdən uzağam. Hamınız birdən mənə hiylə qurun, sonra da mənə aman verməyin".

56. "Mən həm mənim, həm də sizin Rəbbiniz olan Allaha bel bağlamışam. Yer üzündə olan elə bir canlı yoxdur ki, Allah onun pərçimindən yapışmasın.[1] Şübhəsiz, Rəbbim doğru bir yoldadır".

57. "Əgər üz çevirsəniz, bilin ki, mən mənimlə göndəriləni sizə təbliğ etdim. Rəbbim (istərsə,) sizdən başqa bir qövmü sizin yerinizə gətirər və siz Ona bir zərər verə bilməzsiniz. Şübhəsiz, Rəbbim hər şeyi qoruyub nəzarətdə saxlayandır".

1 Ayənin bu qismində bütün canlıların Allahın qüdrət və iradəsi altında olduğu məcazi üslubla dilə gətirilir.

58. Həlak əmrimiz gəldiyi zaman Hudu və onunla birlikdə iman edənləri rəhmətimizlə xilas etdik. Onları ağır bir əzabdan qurtardıq.

59. Bu da Ad qövmü! Rəblərinin ayələrini inkar etdilər. Onun peyğəmbərlərinə qarşı çıxdılar və inadkar hər zorbanın əmrinə tabe oldular!

60. Onlar həm bu dünyada, həm də qiyamət günündə lənətə düçar edildilər. Bilin ki, Ad qövmü Rəblərini inkar etdi. (Yenə) bilin ki, Hudun qövmü Ad Allahın rəhmətindən uzaqlaşdı.

61. Səmud qövmünə[1] də qardaşları Salihi peyğəmbər göndərdik. Dedi ki: "Ey qövmüm! Allaha qulluq edin. Sizin Ondan başqa heç bir ilahınız yoxdur. O, sizi yerdən (torpaqdan) yaratdı və sizə oranı abad etmək vəzifəsi verdi.[2] Elə isə ondan bağışlanma diləyin. Sonra da Ona tövbə edin. Şübhəsiz, Rəbbim yaxındır və dualara cavab verəndir".

62. Onlar belə dedilər: "Ey Salih! Bundan əvvəl sən aramızda ümid edilən bir kimsə idin. İndi atalarımızın tapındıqlarına tapınmağımızı bizə qadağan edirsən? Şübhəsiz, biz sənin bizi çağırdığın şey barəsində dərin bir şübhədəyik".

63. Salih dedi ki: "Ey qövmüm! Deyin görüm, əgər mən Rəbbim tərəfindən açıq bir dəlilə əsaslanıramsa və mənə rəhmətini (peyğəmbərlik) vermişsə, Ona qarşı gəldiyim təqdirdə məni Allahdan kim qoruya bilər? Deməli, ziyana salmaqdan başqa mənə xeyriniz toxunmaz".

64. "Ey qövmüm! Budur sizə möcüzə olaraq Allahın dişi bir dəvəsi! Buraxın onu, Allahın (yaratdığı) yer üzündə otlasın. Ona yamanlıq toxundurmayın, yoxsa sizi yaxın bir əzab haqlayar".

65. Bunun ardından onu kəsdilər. Salih dedi ki: "Yurdunuzda daha üç gün yaşayın. (Sonra həlak olacaqsınız.) Bu, inkaredilməz bir təhdiddir".

66. (Həlak) əmrimiz gəldikdə Salihi və onunla birlikdə iman edənləri həlak olmaqdan və o günün rüsvayçılığından rəhmətimizlə xilas etdik. Şübhəsiz, Rəbbin mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

67. Zülm edənləri o qorxunc uğultulu səs yaxaladı, yurdlarında diz üstə çöküb qaldılar.

68. Sanki orada heç yaşamamışdılar. Bilin ki, Səmud qövmü Rəblərini inkar etdi. (Yenə) bilin ki, Səmud qövmü Allahın rəhmətindən uzaqlaşdı.

69. And olsun, elçilərimiz (mələklər) İbrahimə müjdə gətirib: "Salam olsun sənə!" – dedilər. O: "Sizə də salam olsun", – dedi və (gedib onlara) qızardılmış bir buzov gətirməkdə gecikmədi.

---

1 Həzrət Salihin peyğəmbər olaraq göndərildiyi Səmud qövmü ilə əlaqədar olaraq Ə`raf surəsinin 73-cü və Hicr surəsinin 80-ci ayələrinə və onların istinadlarına baxın. Bu ayədən etibarən 68-ci ayəyə qədər Salih peyğəmbərin bu yolda apardığı mübarizənin bir hissəsinə yer verilir.

2 Bu ayədə insanlara çox mühüm bir mesaj verilir. Çünki yer üzü Allahın insana bir əmanətidir. Bu əmanətin Allahın yer üzündə yaratdığı təbii nizama uyğun olaraq qorunması, inkişaf etdirilməsi və abadlaşdırılması lazımdır. Allahın yer üzündə qoyduğu təbii nizama zərər verəcək hər anlayış və fəaliyyət isə Qur`anın bu mesajı ilə tərs düşür. Çünki insana verilən vəzifə yer üzünü istismar edib yaşanılmaz hala salmaq deyil, onu abadlaşdırmaq və gözəlləşdirməkdir.

70. Əllərini yeməyə uzatmadıqlarını gördükdə onların bu hərəkətini qəribə qarşıladı və onlardan içində bir qorxu düşdü. Dedilər ki: "Qorxma, çünki biz Lut qövmünə göndərilmişik".

71. İbrahimin arvadı ayaq üstə idi. (Bu sözləri eşidəndə) güldü. Ona da İshaqı, İshaqın ardınca da Yaqubu müjdələdik.

72. Arvadı: "Vay halıma! Mən qoca bir qarı, bu ərim də bir ixtiyar ola-ola övlad doğacam? Həqiqətən, bu, təəccüblü bir şeydir", – dedi.

73. Mələklər: "Allahın əmrinə təəccüb edirsən? Allahın rəhməti və bərəkəti sizə olsun, ey (peyğəmbər ocağının) ev əhli! Şübhəsiz, O, tərifə layiqdir, şanı ucadır", – dedilər.

74. İbrahimin qorxusu gedib ona müjdə gəldikdə Lut qövmü haqqında bizim (elçilərimiz)lə mübahisə etməyə başladı.

75. Çünki İbrahim çox həssas və Allaha yönələn bir kimsə idi.

76. Elçilərimiz: "Ey İbrahim, bundan əl çək! Çünki Rəbbinin əmri qəti olaraq gəlmişdir. Şübhəsiz, onlara qarşısıalınmaz bir əzab gələcək", – dedilər.

77. Elçilərimiz Lutun yanına gəldikləri zaman onlara görə məyus oldu, ürəyi sıxıldı və: "Bu çox çətin bir gündür", – dedi.

78. Qövmü (pis niyyətlə) tələsik onun yanına gəldi. Onlar əvvəl də bu cür çirkin işlər görürdülər. Lut dedi ki: "Ey qövmüm! Budur bunlar mənim qızlarımdır. Onlar(-la evlənməyiniz) sizin üçün daha təmizdir.[1] Allaha qarşı gəlməkdən çəkinin və qonaqlarımın yanında məni rüsvay etməyin. Aranızda heç ağlı başında bir adam yoxdurmu?"

79. Onlar: "Yaxşı bilirsən ki, qızlarında gözümüz yoxdur. Sən bizim nə istədiyimizi çox yaxşı bilirsən", – dedilər.

80. (Lut isə:) "Kaş sizə qarşı bir gücüm olaydı ya da möhkəm bir dayağa arxalana biləydim", – dedi.

81. Qonaqları belə dedi: "Ey Lut! Biz Rəbbinin elçiləriyik. Onlar sənə əsla toxuna bilməyəcəklər. Gecənin bir vaxtında ailəni də götür get. Aranızdan heç kim arxaya baxmasın. Ancaq arvadın istisnadır. (Onu qoy qalsın.) Çünki onların (qövmünün) başına gələcək əzab onun da başına gələcək. Onların əzabla qarşılaşacaqları vaxt səhər vaxtıdır. Səhər yaxın deyilmi?"

82, 83. (Əzab) əmrimiz gəldiyi zaman oranın altını üstünə çevirdik. Üstünə də bişirilmiş daşlar yağdırdıq. Rəbbinin qatında nişanlanmış (daşlar). Bunlar zalımlardan uzaq deyil.

84. Mədyən xalqına da qardaşları Şüeybi peyğəmbər göndərdik. O, belə dedi: "Ey qövmüm! Allaha qulluq edin. Sizin ondan başqa heç bir ilahınız yoxdur. Ölçünü və

1 Bir peyğəmbər göndərildiyi qövmün mənəvi atası sayılır. Bu baxımdan göndərildiyi cəmiyyətin qadınları o peyğəmbərin mənəvi qızları kimidir. Burada Lut peyğəmbər qövmünü bu cinsi sapqınlığı (kişinin kişi ilə cinsi əlaqəsini) tərk edib qanuni və təbii əlaqəyə yönəlmələri və qadınlarla evlənmələri barəsində xəbərdar edir.

çəkini azaltmayın. Mən sizi bolluq içində görürəm. Mən sizin adınıza (hamınızı) bürüyəcək bir günün əzabından qorxuram".

85. "Ey qövmüm! Ölçünü və çəkini ədalətlə yerinə yetirin. İnsanların əşyalarını (mallarını və haqlarını) əskiltməyin. Yer üzündə fitnə-fəsad törədərək qarışıqlıq yaratmayın".

86. "Əgər inanan kimsələrsinizsə, Allahın qoyduğu halal qazanc sizin üçün daha xeyirlidir. Mən sizin başınızın üstündə bir nəzarətçi deyiləm".

87. Dedilər ki: "Ey Şüeyb! Atalarımızın tapındığını və mallarımızı istədiyimiz kimi xərcləməyi tərk etməyimizi sənə namazın əmr edir? Halbuki sən mülayim xasiyyətli və ağlı başında bir adamsan".

88. Şüeyb belə dedi: "Ey qövmüm! Deyin görüm, əgər mən Rəbbimdən gələn açıq bir dəlilə söykənmişəmsə və qatından mənə gözəl bir ruzi vermişsə, (o zaman başqa necə edə bilərəm ki?!) Mən sizə qadağan etdiyim şeyi özüm etmək istəmirəm. Mən ancaq bacardığım qədər (sizi) islah etmək istəyirəm. Uğur qazanmağım yalnız Allahın yardımı ilədir. Mən yalnız Ona təvəkkül etdim və yalnız Ona üz tuturam".

89. "Ey qövmüm! Mənə qarşı olan ədavətiniz Nuh qövmünün və ya Hud qövmünün, yaxud da Salih qövmünün başına gələnin bir bənzərini sizin də başınıza gətirməsin. (Və unutmayın ki,) Lut qövmü sizdən uzaq deyil".

90. "Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin. Şübhəsiz, Rəbbim çox mərhəmətlidir, çox sevəndir".

91. Dedilər ki: "Ey Şüeyb! Dediklərinin çoxunu anlamırıq və səni aramızda zəif görürük. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Yoxsa sən bizim nəzərimizdə mötəbər bir adam deyilsən".

92. Şüeyb belə dedi: "Ey qövmüm! Mənim qəbiləm sizin nəzərinizdə Allahdan daha etibarlıdırmı ki, siz Ona arxa çevirdiniz? Şübhəsiz, Rəbbim sizin etdiklərinizi biləndir".

93. "Ey qövmüm! Əlinizdən gələni edin. Şübhəsiz, mən də (əlimdən gələni) edəcəyəm. Rüsvayedici əzabın kimə gələcəyini və kimin yalançı olduğunu yaxın zamanda biləcəksiniz. Gözləyin. Şübhəsiz, mən də sizinlə birlikdə gözləyirəm".

94. (Əzab) əmrimiz gəldiyi zaman Şüeybi və onunla birlikdə iman edənləri rəhmətimizlə qurtardıq. Zülm edənləri isə o qorxunc (uğultulu) səs yaxaladı, yurdlarında diz üstü çöküb qaldılar.

95. Sanki orada heç yaşamamışdılar. Bilin ki, Səmud qövmü Allahın rəhmətindən uzaqlaşdığı kimi Mədyən xalqı da uzaqlaşdı.

96, 97. And olsun, biz Musanı ayələrimizlə və açıq-aşkar bir möcüzə ilə Firona və onun əyan-əşrafına peyğəmbər göndərdik. Onlar Fironun əmrinə tabe oldular. Halbuki Fironun əmri doğru deyildi.[1]

1 Musa (ə.s.) Fironun yanına gedib Allahın ibadətə layiq tək ilah olduğu gerçəyini təbliğ etdikdə Firon və əyanları onu inkar etmiş və Firon özünün ilah olduğu fikrində təkid etmişdir. Firon bununla da kifayət-

98. Firon qiyamət günündə qövmünün önünə düşəcək və onları atəşə aparacaq. Nə pis mənzildir ora!

99. Onlar həm bu dünyada, həm də qiyamət günündə lənətə düçar edildilər. Nə pis dəstəkdir onlara verilən dəstək!

100. (Ey Muhamməd!) Bunlar o məmləkətlərin xəbərlərindən bəziləridir. Onları sənə danışırıq. Onlardan bəziləri ayaq üstədir (yaşayır), bəziləri də yıxılıb getmişdir.

101. Biz onlara zülm etmədik. Lakin onlar özlərinə zülm etdilər. Rəbbinin əzab əmri gəldiyi zaman Allahı buraxıb tapındıqları ilahları onlara heç bir fayda vermədi. İlahları yalnız onların ziyanlarını artırdı.

102. Rəbbin zülmə sapmış məmləkətlərin əhalisini yaxalayanda, bax belə yaxalayar. Şübhəsiz, Onun yaxalamağı ağrılı-acılı və şiddətlidir.

103. Şübhəsiz, axirət əzabından qorxanlar üçün bunda bir ibrət var. Bu insanların (sorğu-sual üçün) toplanacaqları bir gündür. Bu, hər kəsin toplanıb bir araya gələcəyi bir gündür.[1]

104. Biz onu ancaq müəyyən bir müddətə qədər təxirə salırıq.

105. O gün gəldiyi zaman Allahın izni olmadan heç kim danışa bilməz. Onlardan bədbəxt (cəhənnəmlik) olanlar da var, xoşbəxt (cənnətlik) olanlar da.

106. Bədbəxt olanlara gəlincə, onlar cəhənnəmdədirlər. Onların orada şiddətli bir xırıltıları var.

107. Göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Ancaq Rəbbinin diləməsi istisnadır. Şübhəsiz, Rəbbin istədiyini edəndir.

108. Xoşbəxt olanlara gəlincə, onlar göylər və yer durduqca içində əbədi qalacaqları cənnətdədirlər. Ancaq Rəbbinin diləməsi başqadır. Bu, onlara bitməz-tükənməz bir lütf olaraq verilmişdir.

109. (Ey Muhamməd!) Bunların tapındıqları şeylərin batil olduğu barəsində şübhəyə düşmə. Onlar ancaq daha əvvəl atalarının tapındığı kimi tapınırlar. Şübhəsiz, biz onların nəsibini (əzabdan paylarına düşəni) nöqsansız bir şəkildə verəcəyik.

110. And olsun, biz Musaya Kitabı (Tövratı) vermişdik, onun barəsində ixtilaf edilmişdi.[2] Əgər daha əvvəl Rəbbinin bir sözü olmasaydı, əlbəttə, aralarında hökm verilərdi. Onlar da (müşriklər də) o Qur`an haqqında dərin bir şübhə içindədirlər.

---

lənməyib xalqa öz fikrinə tabe olmalarını əmr etmişdi. Xalq da Allahın Musa vasitəsilə göndərdiyi Allaha iman əmrinə yox, Fironun sapqın əmrinə tabe olmuşdu.

1 Ayənin son cümləsi "Bu hər şeyin meydana çıxarılıb görüləcəyi bir gündür" şəklində də tərcümə oluna bilər.

2 Ayədə müşriklərin Allahın Rəsulunu və Qur`anı inkar etmələri qarşısında bu mesaj ilə Peyğəmbərə dəstək verilir: Allah tərəfindən peyğəmbər olaraq göndərilib, təbliğ etdiyi kitabın inkar edildiyi tək peyğəmbər sən deyilsən. Səndən əvvəl biz Musanı da peyğəmbər olaraq göndərdik. Ona verdiyimiz Tövrat da İsrail oğullarının bir qismi tərəfindən inkar edilmiş, bir qismi tərəfindən isə təsdiq edilmişdi. Sənin çəkdiyin bu çətinliklərin bənzərlərini bütün peyğəmbərlər çəkmişdilər. Lakin onlar bu çətinliklər qarşısında səbr etmiş, təbliğ vəzifəsini yerinə yetirmişdilər. Sən də onların yolundan get.

**111.** Şübhəsiz, Rəbbin onların hər birinə, etdiklərinin qarşılığını tam verəcək. Şübhəsiz, Rəbbin onların etdiklərindən haqqı ilə xəbərdardır.

**112.** Elə isə əmr olunduğun kimi doğru ol. Yanındakı tövbə edənlər də doğru olsunlar. Haqq və ədalət ölçülərini aşmayın. Şübhəsiz, O, etdiklərinizi haqqı ilə görür.

**113.** Zülm edənlərə meyl etməyin. Yoxsa sizə də atəş toxunar. Sizin Allahdan başqa dostlarınız yoxdur. Sonra sizə yardım da edilməz.

**114.** (Ey Muhamməd!) Gündüzün iki tərəfində və gecənin gündüzə yaxın vaxtlarında namaz qıl. Çünki yaxşılıqlar pislikləri yuyub aparar. Bu, öyüd götürənlər üçün bir öyüddür.[1]

**115.** Səbir et! Çünki Allah yaxşı işlər görənlərin mükafatını hədər etməz.

**116.** Gərək sizdən əvvəlki nəsillərdən ağlı başında olan kimsələr (insanlar) yer üzündə fitnə-fəsad törədilməsini qadağan edəydilər. Ancaq aralarından özlərini xilas etdiyimiz çox az kimsə bunu etmişdi. Zülm edənlər isə onlara bəxş edilən rifaha uydular və günahkar kimsələr oldular.

**117.** Rəbbin, xalqı saleh işlər gördüyü halda məmləkətləri zülm ilə həlak etməz.

**118, 119.** Rəbbin istəsəydi, insanları (eyni dinə mənsub) tək bir ümmət edərdi. Lakin Rəbbinin mərhəmət etdikləri istisna olmaqla onlar ixtilafa davam edəcəklər. Onsuz da onları bunun üçün yaratdı. Rəbbinin "And olsun ki, cəhənnəmi həm cinlərdən, həm də insanlardan (günahkarlarla) dolduracağam" sözü tam olaraq yerinə yetdi.[2]

**120.** (Ey Muhamməd!) Peyğəmbərlərin xəbərlərindən, sənin qəlbini möhkəmləndirəcək nə varsa, sənə hekayə edirik. Bunlarda sənə haqq, möminlərə isə bir öyüd və xatırlatma gəlmişdir.

**121.** İman etməyənlərə de ki: "Əlinizdən gələni edin, biz də edəcəyik".

**122.** "Gözləyin, biz də gözləyəcəyik".

**123.** Göylərin və yerin qeybini bilmək Allaha məxsusdur. Bütün işlər Ona döndərilər. Elə isə Ona qulluq et və Ona təvəkkül et. Rəbbin etdiklərinizdən xəbərsiz deyil.

---

1 Bu ayə namaz vaxtlarını göstərir. Gündüzün iki tərəfi ifadəsi ilə günəşin təpə nöqtəsinə gəlməsindən əvvəlki və sonrakı vaxt dilimləri nəzərdə tutulur. Buna əsasən sübh namazı gündüzün bir tərəfində, zöhr və əsr namazları isə digər tərəfinə düşür. Gecənin gendüzə yaxın vaxtları isə axşam və işa namazları vaxtlarıdır.

2 Allah peyğəmbərlər vasitəsilə insanlara doğrunu və yanlışı bildirdikdən sonra öz azad iradələri ilə istədikləri yolu seçməkdə onları sərbəst buraxmış, onları, hökmən özünün razı qaldığı yolu seçməyə məcbur etməmişdir. Əgər onlara yanlış yolu seçmək haqqı verməsəydi, insanları tək bir ümmət etmiş olardı. Yalnız belə etməmiş, doğru və ya yanlış yolu seçməkdə onları sərbəst buraxmışdır. Əks təqdirdə öz seçimlərinə görə sorğu-suala çəkilmələrinin bir mənası olmazdı. Bunun nəticəsi olaraq insanların bəziləri öz nəfslərinə uyub yanlışları seçmiş və beləliklə, ixtilaflar meydana gəlmişdir. Üstəlik ixtilaflar meydana gəlməyə davam edəcəkdir. Ayədə bu həqiqət vurğulanır, Allahın göstərdiyi yolu seçənlərin Onun rəhmətinə qovuşacaqları, yanlış yolu tutanlar üçünsə cəhənnəmin qaçılmaz olduğu ifadə edilir. Əlavə olaraq baxın: İnsan, 76/3.

# 12. YUSUF SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 111 ayədən ibarətdir. Bu surədə Yusuf peyğəmbərin həyatda qarşılaşdığı çətinliklər və bunlara səbir edərək necə müvəffəqiyyətə nail olmasından söhbət açılır və inananlara faydalı öyüd-nəsihətlər, mühüm mesajlar verilir. Qur`anda əvvəldən axıra qədər tək bir mövzudan bəhs edən yeganə surə budur.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Əlim Ləm Ra.[1] Bunlar açıq-aydın Kitabın ayələridir.[2]

**2.** Biz anlayasınız deyə onu ərəbcə bir Qur`an olaraq endirdik.

**3.** Bu Qur`anı sənə vəhy etməklə sənə qissələrin ən gözəlini danışırıq. Halbuki daha əvvəl sən bunlardan xəbərsiz idin.

**4.** Bir vaxt Yusuf atasına: "Atacan! Həqiqətən, mən (yuxuda) on bir ulduz, günəşi və ayı gördüm. Gördüm ki, onlar mənə boyun əyirdilər", – demişdi.

**5.** Atası belə dedi: "Ey oğlum! Yuxunu qardaşlarına danışma. Yoxsa sənə hiylə qurarlar. Çünki şeytan insanın açıq-aşkar düşmənidir".

**6.** "Rəbbin səni belə seçəcək, sənə (yuxuda görülən) hadisələrin yozumunu öyrədəcək və daha əvvəl ataların İbrahim və İshaqa nemətlərini tamamladığı kimi sənə və Yaqub soyuna da tamamlayacaq. Şübhəsiz, Rəbbin haqqı ilə biləndir, hökm və hikmət sahibidir".

**7.** And olsun, Yusuf və qardaşlarında (həqiqəti axtarıb) soraqlayanlar üçün ibrətlər var.

**8.** Qardaşları dedilər ki: "Biz güclü bir dəstə olduğumuz halda Yusuf və qardaşı (Bünyamin) atamıza bizdən daha əzizdir. Doğrusu, atamız açıq-aydın bir yanlışlıq içindədir".[3]

**9.** "Yusufu öldürün və ya onu bir yerə atın ki, atanız ancaq sizə yönəlsin. Ondan sonra (tövbə edib) saleh kəslər olarsınız".

**10.** Aralarından biri: "Yusufu öldürməyin, onu bir quyunun dibinə atın ki, keçən karvanlardan biri onu tapıb götürsün. Əgər edəcəksinizsə, belə edin", – dedi.

**11.** Atalarına belə dedilər: "Ey atamız! Yusuf barəsində bizə niyə güvənmirsən? Halbuki biz onun yaxşılığını istəyən kəslərik".

**12.** "Sabah onu bizimlə birlikdə göndər, gəzib oynasın. Şübhəsiz, biz onu qoruyarıq".

**13.** Ataları: "Doğrusu, onu aparmağınız məni üzər və siz ondan xəbərsiz olduğunuz bir vaxtda onu qurd yeyər deyə qorxuram".

**14.** Onlar isə: "And olsun, biz güclü bir dəstə olduğumuz halda onu qurd yeyərsə, onda biz həqiqətən, ziyana uğramış olarıq", – dedilər.

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinə aid istinada baxın.

2 Bu ayə "Əlif, Ləm, Ra. Bunlar açıqlayıcı Kitabın ayələridir" şəklində də tərcümə oluna bilər.

3 Yusuf ilə Bünyamin bir anadan, digər qardaşlar isə başqa anadan idilər.

15. Yusufu aparıb quyunun dibinə atmağa qərar verdikləri zaman biz də ona: "And olsun, (sənin Yusuf olduğunun) fərqində olmadıqları bir vaxtda onların bu işlərini sən onlara xəbər verəcəksən", – deyə vəhy etdik.

16. (Yusufu quyuya atıb) axşam vaxtı ağlaya-ağlaya atalarının yanına gəldilər.

17. "Ey atamız! Biz yarışmağa getmişdik. Yusufu da əşyalarımızın yanında qoymuşduq. (Bir də gördük ki,) onu qurd yeyib. Hər nə qədər biz doğru danışsaq da sən bizə inanmazsan", – dedilər.

18. Bir də üstünə saxta bir qan bulaşdırılmış köynəyini gətirdilər. Yaqub dedi ki: "Xeyr! Nəfsləriniz sizi aldadıb belə bir işə sövq etdi. Artıq mənə gözəlcə səbir etmək qalır. Danışdıqlarınız qarşısında yalnız Allahdan kömək istənilə bilər".

19. Bir karvan gəlmiş, suçularını suya göndərmişdilər. Suçu qabını quyuya salan kimi: "Müjdə! Müjdə! Bu bir oğlandır!" – dedi. Onu götürüb satlıq bir mal olaraq gizlədib saxladılar. Halbuki Allah onların etdiklərini bilirdi.

20. Onu ucuz bir qiymətə, bir neçə dirhəmə satdılar. Onsuz da ona dəyər vermirdilər.[1]

21. Onu satın alan misirli şəxs xanımına dedi ki: "Ona yaxşı bax. Bəlkə bizə xeyri dəyər və ya onu övladlığa götürərik". Beləliklə, biz Yusufu o yerə (Misirə) yerləşdirdik və ona (yuxudakı) hadisələrin yozumunu öyrədək deyə belə etdik. Allah öz işində qalibdir, lakin insanların çoxu bunu bilməz.

22. Yetkinlik yaşına çatdıqda ona hikmət və elm verdik. Biz yaxşı işlər görənləri belə mükafatlandırırıq.

23. Evində olduğu qadın (ona könül verib) ondan arzuladığı şeyi əldə etmək istədi və qapıları kilidləyərək: "Gəlsənə!" – dedi. O isə: "Allaha sığınıram, çünki o (ərin) mənim ağamdır, mənə yaxşı baxıb. Şübhəsiz, zalımlar nicat tapmazlar", – dedi.

24. And olsun, qadın onu arzulamışdı. Əgər Rəbbinin dəlilini görməsəydi, Yusuf da onu arzulayacaqdı. Biz pisliyi və azğınlığı ondan uzaqlaşdırmaq üçün belə etdik. Çünki o, ixlaslı bəndələrimizdən idi.

25. İkisi də qapıya tərəf qaçdılar. Qadın Yusufun köynəyini arxadan cırdı. Qapının yanında xanımın ağası ilə rastlaşdılar. Qadın dedi ki: "Sənin ailənə pislik etmək istəyənin cəzası, ancaq zindana atılmaq və ya ağrılı-acılı bir əzabdır".

26. Yusuf: "O, məndən həvəsini almaq istədi", – dedi. Qadının ailəsindən bir şahid də belə şahidlik etdi: "Əgər onun köynəyi öndən cırılıbsa, qadın doğru söyləmişdir, o (Yusuf) yalançılardandır".

27. "Əgər köynəyi arxadan cırılıbsa, qadın yalan söyləmişdir. O, (Yusuf) isə doğru söyləyənlərdəndir".

28. Qadının əri Yusufun köynəyinin arxadan cırıldığını gördükdə dedi: "Şübhəsiz, bu, siz qadınların hiyləsidir. Şübhəsiz, sizin hiyləniz çox böyükdür".

29. "Ey Yusuf! Sən bu barədə heç kimə heç nə demə. (Ey qadın,) sən də günahının bağışlanmasını dilə. Çünki sən günah edənlərdənsən".

30. Şəhərdə bəzi qadınlar: "Əzizin arvadı (qulluqçusu olan) cavandan kam almaq

1 Ayənin bu qismi "Onsuz da onu dərhal əldən çıxarmaq istəyirdilər" şəklində də tərcümə oluna bilər.

istəyib. Ona olan məhəbbəti qəlbində yer edib. Şübhəsiz, biz onu açıq bir zəlalət içində görürük", – dedilər.

31. Qadın onların dedi-qodularını eşitdikdə xəbər göndərib onları çağırdı. (Ziyafət tərtib edib) onlar üçün oturub söykənəcəkləri yer hazırladı. Hər birinə bir bıçaq verdi və Yusufa: "Onların qarşısına çıx!" – dedi. Qadınlar Yusufu görəndə onu (gözlərində) çox böyütdülər və özlərini itirib əllərini kəsdilər. "Aman Allah! Bu bir insan deyil, ancaq şərəfli bir mələkdir", – dedilər.

32. Hal belə olduqda qadın onlara dedi ki: "Bu, barəsində məni qınadığınız kəsdir. And olsun, mən ondan kam almaq istədim. Lakin o, iffəti səbəbi ilə bundan imtina etdi. And olsun, əgər əmr etdiyimi etməzsə, mütləq zindana atılacaq və zillətə uğrayanlardan olacaq".

33. Yusuf: "Ey Rəbbim! Zindan mənə bunların məni dəvət etdiyi şeydən daha sevimlidir. Onların hiylələrini məndən uzaqlaşdırmasan, onlara meyl edər və cahillərdən olaram", – dedi.

34. Rəbbi onun duasını qəbul etdi və qadınların hiyləsini ondan uzaqlaşdırdı. Şübhəsiz ki, O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

35. Sonra onlar Yusufun günahsız olduğunu göstərən dəlilləri gördükdən sonra yenə də onu bir müddət zindana salmağı qərara aldılar.

36. Onunla birlikdə zindana iki cavan oğlan da girdi. Onlardan biri: "Mən yuxuda şərab üçün üzüm sıxdığımı gördüm", – dedi. Digəri: "Mən də yuxuda gördüm ki, başımın üstündə quşların yediyi bir çörək aparıram. Bizə bunun yozumunu xəbər ver. Şübhəsiz, bizə görə sən əməli-salehlərdənsən", – dedi.

37. Yusuf dedi ki: "Sizin yeyəcəyiniz yemək sizə gəlmədən əvvəl onun nə olduğunu bildirərəm. Bu, mənə Rəbbimin öyrətdiklərindəndir. Mən Allaha inanmayan və axirəti inkar edən bir millətin dinini tərk etdim".

38. "Atalarım İbrahim, İshaq və Yaqubun dininə uydum. Allaha hər hansı bir şeyi şərik qoşmaq bizə yaraşmaz. Bu, bizə və insanlara Allahın bir lütfüdür, lakin insanların çoxu şükür etməzlər".

39. "Ey zindan yoldaşlarım! Ayrı-ayrı ilahlar daha yaxşıdır, yoxsa mütləq hakimiyyət sahibi olan tək Allah?"

40. "Siz Allahı buraxıb yalnız sizin və atalarınızın qoyduğu bəzi isimlərə (qondarma ilahlara) tapınırsınız. Allah onlar haqqında heç bir dəlil endirməmişdir. Hökm ancaq Allaha aiddir. O, özündən başqa heç bir şeyə tapınmamağınızı əmr etmişdir. Ən doğru din budur. Lakin insanların çoxu bilməzlər".

41. "Ey zindan yoldaşlarım! (Yuxunuzun yozumuna gəlincə) biriniz ağasına şərab verəcək, digəri isə asılacaq və quşlar başından yeyəcək. Yozumunu soruşduğunuz iş belə nəticələnmişdir".

42. Yusuf o ikisindən qurtulacağını düşündüyü yoldaşına: "Ağanın yanında məni yada sal", – dedi. Lakin şeytan ona (Yusufu) ağasına xatırlatmağı unutdurdu, bu səbəblə o, bir neçə il daha zindanda qaldı.

43. Kral: "Mən yuxumda yeddi arıq inəyin yeddi kök inəyi yediyini, həmçinin yeddi yaşıl sünbül və yeddi də quru sünbül görürəm. Ey əyanlar! Əgər yuxu yozursunuzsa, mənə yuxumu yozun", – dedi.

44. Dedilər ki: "Bunlar qarmaqarışıq yuxulardır. Biz belə yuxuların yozumunu bilmirik".

45. Zindandakı iki nəfərdən qurtulmuş olanı neçə vaxtdan sonra (Yusufu) xatırladı və: "Mən sizə onun yozumunu xəbər verərəm, dərhal məni (zindana) göndərin", – dedi.

46. (Zindana Yusufun yanına gəlib dedi:) "Yusuf! Ey doğru sözlü! Yeddi arıq inəyin yeddi kök inəyi yeməsi, bir də yeddi yaşıl sünbüllə digər yeddi quru sünbül yuxusunu bizim üçün yoz. Ümid edirəm ki, (verəcəyin bilgi ilə) insanların yanına qayıdaram, onlar da (sənin dəyərini) bilərlər".

47. Yusuf dedi ki: "Yeddi il adətiniz üzrə əkin əkəcəksiniz. Yeyəcəyiniz az miqdar xaric biçdiklərinizi sünbülündə saxlayın".

48. "Sonra bunun ardınca yeddi quraq il gələcək, saxlayacağınız az miqdar xaric bu illər üçün yığdıqlarınızı yeyib bitirəcək".

49. "Sonra bunun ardınca insanların yağışa qovuşacaqları bir il gələcək. O zaman (bol ruzi əldə edib) şirə və yağ sıxacaqlar".

50. Kral: "Onu mənim yanıma gətirin", – dedi. Elçi Yusufun yanına gəldikdə (Yusuf) dedi ki: "Ağanın yanına qayıt, soruş ki, əllərini kəsən o qadınların qərəzi nə idi? Şübhəsiz, Rəbbin onların hiyləsini haqqı ilə biləndir".

51. Kral qadınlara: "Yusufdan kam almaq istədiyiniz zaman qərəziniz nə idi?" – dedi. Qadınlar: "Əsla! Allah üçün biz onun bir pisliyini bilmirik", – dedilər. Əzizin arvadı isə: "İndi həqiqət ortaya çıxdı. Mən ondan kam almaq istədim. Şübhəsiz, Yusuf doğru söyləyənlərdəndir", – dedi.

52. (Yusuf:) "Bu, ona görədir ki, Əziz (o evdə) olmayanda mənim ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin".

53. "Mən nəfsimi təmizə çıxarmıram, çünki Rəbbimin mərhəmət etdiyi xaric nəfs pis işlər görməyi əmr edər. Şübhəsiz, Rəbbim çox bağışlayandır, çox mərhəmət edəndir", – dedi.

54. Kral: "Onu mənə gətirin, yanıma götürüm", – dedi. Onunla danışdıqda dedi ki: "Şübhəsiz, bu gün sən yanımızda yüksək məqam sahibi və güvənilən birisən".

55. Yusuf: "Ölkənin xəzinələrini mənə tapşırın. Çünki mən yaxşı qoruyan və bilən biriyəm".

56. Beləliklə, Yusufa ölkədə istədiyi yerdə qalıb istədiyini edəcəyi bir imkan və iqtidar verdik. Biz rəhmətimizi istədiyimizə verərik və yaxşı işlər görənlərin mükafatını hədər etmərik.

57. Sözsüz ki, axirət mükafatı inananlar və Allaha qarşı gəlməkdən çəkinənlər üçün daha yaxşıdır.

58. (Gedişat belə ikən bir gün) Yusufun qardaşları çıxıb gəldilər və onun yanına girdilər. Yusuf onları tanıdı, onlar isə Yusufu tanıya bilmirdilər.

59. Yusuf onların yüklərini hazırladarkən dedi ki: "Atabir qardaşınızı da yanıma gətirin. Görmürsüzmü mən ölçünü tam tuturam və mən qonaqpərvərlərin ən yaxşısıyam?"

60. "Əgər onu mənim yanıma gətirməsəniz, daha məndən sizə bir ölçü belə (ərzaq) yoxdur və bir daha da yanıma yaxınlaşmayın".

61. Dedilər ki: "Onu atasından istəyərik, mütləq bunu edərik".

62. Yusuf adamlarına dedi ki: "Onların ərzaq əvəzində ödədiklərini də yüklərinin içinə qoyun. Bəlkə ailələrinin yanına döndükləri zaman onu başa düşərlər, bəlkə yenə qayıdıb gələrlər".

63. Onlar atalarının yanına qayıtdıqları zaman: "Ey atamız! Daha bizə ərzaq verilməyəcək. Qardaşımızı (Bünyamini) bizimlə göndər ki, ərzaq alaq. Biz onu mütləq qoruyarıq", – dedilər.

64. Yaqub onlara: "Onun haqqında sizə ancaq daha əvvəl qardaşı haqqında güvəndiyim qədər güvənə bilərəm. Allah ən yaxşı qoruyandır və O, mərhəmətlilərin ən mərhəmətlisidir", – dedi.

65. Yüklərini açıb ərzaq əvəzində ödədiklərinin özlərinə geri verildiyini gördülər. "Ey atamız! Daha nə istəyirik? Ödədiklərimiz də bizə geri verilib. Onunla yenə ailəmizə ərzaq gətirər, qardaşımızı qoruyar və əlavə bir dəvə yükü də ərzaq alarıq. Çünki bu gətirdiyimiz ərzaq azdır", – dedilər.

66. Ataları: "Mühasirəyə düşüb çıxılmaz vəziyyətdə qalmağınız xaric, onu mənə gətirəcəyinizə dair Allah adına səmimi bir söz vermədikcə onu sizinlə göndərməyəcəyəm", – dedi. Onlar ona söz verdikdə isə: "Allah söylədiklərimizə vəkildir", – dedi.

67. Sonra da: "Ey oğullarım! Bir qapıdan girməyin, ayrı-ayrı qapılardan girin. Ancaq Allahdan gələcək heç bir şeyi sizdən uzaq tuta bilmərəm. Hökm yalnız Allahındır. Mən Ona təvəkkül etdim.[1] Təvəkkül edənlər də yalnız Ona təvəkkül etsinlər", – dedi.

68. Atalarının əmr etdiyi şəkildə (ayrı-ayrı qapılardan) girdikləri zaman (belə) bu, Allahdan gələcək heç bir şeyi onlardan uzaqlaşdıracaq deyildi. Sadəcə Yaqub içindəki bir diləyi ortaya qoymuş oldu. Şübhəsiz ki, o, biz ona öyrətdiyimiz üçün bilik sahibidir. Lakin insanların çoxu bilməzlər.

69. Yusufun hüzuruna girdikləri zaman o, qardaşı Bünyamini bağrına basdı və (gizlicə): "Xəbərin olsun, mən sənin qardaşınam, daha onların etdiklərinə görə məyus olma", – dedi.

70. Yusuf onların yüklərini hazırladarkən su qabını qardaşının yükünə qoydurdu. Sonra da bir carçı: "Ey karvan əhli! Siz oğrusunuz", – deyə haray saldı.

---

1 Təvəkkül lazımi bütün tədbirləri gördükdən sonra işin nəticəsini Allaha həvalə edərək Ona güvənmək deməkdir.

71. Yusufun qardaşları onlara tərəf dönərək: "Nə itirmisiniz?" – dedilər.

72. Onlar: "Hökmdarın su qabını itirmişik. Onu tapıb gətirənə bir dəvə yükü mükafat var. Mən buna zaminəm", – dedilər.

73. Dedilər ki: "Allaha and olsun, siz də bilirsiniz ki, biz bu ölkəyə fitnə-fəsad çıxarmağa gəlməmişik, oğru da deyilik".

74. Onlar: "Əgər oğrusunuzsa, oğurluğun cəzası nədir?" – dedilər.

75. Onlar da: "Cəzası su qabı kimin yükündə olarsa, onun özü (nün həbs edilməsi) onun cəzasıdır. Biz zalımları belə cəzalandırırıq", – dedilər.

76. Yusuf qardaşının yükündən əvvəl onların yüklərini axtarmağa başladı. Sonra su qabını qardaşının yükündən çıxartdı. Biz Yusufa belə bir tədbir öyrətdik. Yoxsa kralın qanunlarına görə qardaşını saxlaya bilməzdilər. Ancaq Allahın istəməsi istisnadır. Biz istədiyimiz kimsənin dərəcələrini yüksəldərik. Hər elm sahibinin fövqündə daha yaxşı bir bilən var.

77. Dedilər ki: "Əgər o oğurlayıbsa, daha əvvəl onun qardaşı da oğurlamışdı". Yusuf bunu öz içində saxladı və onlara bəlli etmədi. Dedi ki: "Siz pis bir məqamdasınız. Dediyinizi Allah daha yaxşı bilir".

78. Onlar Yusufa: "Ey güclü vəzir! Bunun ixtiyar bir atası var. Onun əvəzinə bizdən birini saxla. Şübhəsiz ki, sənin yaxşılıq edənlərdən olduğunu görürük", – dedilər.

79. Yusuf: "Malımızı kimin yanında tapmışıqsa ondan başqasını tutub saxlamaqdan Allaha sığınırıq. Şübhəsiz, biz o təqdirdə zülm etmiş olarıq", – dedi.

80. Ondan ümidlərini üzdükdə öz aralarında danışmaq üçün bir kənara çəkildilər. Böyükləri dedi ki: "Atanızın Allah adına sizdən söz aldığını, daha əvvəl də Yusuf barəsində etdiyiniz təqsiri bilmirsinizmi? Artıq atam mənə izin verənə qədər və ya Allah haqqımda hökm verənə qədər buradan əsla ayrılmayacağam. O, hökm edənlərin ən xeyirlisidir".

81. "Siz atanızın yanına qayıdın və deyin ki: "Ey atamız! Həqiqətən, oğlun oğurluq etdi, biz ancaq bildiyimizə şahidlik etdik. (Sənə söz verdiyimiz zaman) qeybi (oğlunun oğurluq edəcəyini) bilməzdik"."

82. "Olduğumuz şəhərin əhalisindən və aralarında olduğumuz karvandan da soruş. Həqiqətən, biz doğru söyləyənlərik".

83. Yaqub: "Nəfsləriniz sizi bir işə sövq etdi. Artıq mənə gözəl bir şəkildə səbir etmək qalır. Bəlkə Allah onların hamısını mənə gətirər. Çünki O, haqqı ilə biləndir, hökm və hikmət sahibidir", – dedi.

84. Onlardan üz döndərdi və: "Heyf sənə Yusuf!" – dedi və kədərdən iki gözünə ağ düşdü. O, artıq hüznünü içində saxlayırdı.

85. Oğulları: "Allaha and olsun ki, sən hələ də Yusufun fikrini çəkirsən. Axırda üzüntüdən əriyib bitəcəksən və ya həlak olacaqsan", – dedilər.

86. Yaqub: "Mən dərdimi və hüznümü yalnız Allaha ərz edirəm. Mən Allahdan sizin bilmədiyiniz şeyləri bilirəm", – dedi.

87. “Ey oğullarım! Gedin Yusufu və qardaşını araşdırın. Allahın rəhmətindən ümidinizi kəsməyin. Çünki Allahın rəhmətindən yalnız kafirlər qövmü ümidini kəsər”.

88. (Bunun ardından Misirə qayıdıb) Yusufun hüzuruna daxil olduqları zaman: “Ey güclü vəzir! Bizə və ailəmizə məhrumiyyət və sıxıntı üz verdi. Dəyərsiz bir sərmayə ilə gəldik. Ərzağımızı tam ölç, bir də bizə sədəqə ver. Şübhəsiz, Allah sədəqə verənləri mükafatlandırar”, – dedilər.

89. Yusuf dedi ki: “Siz (hələ) cahil olduğunuz zaman Yusufa və qardaşına nələr etdiyinizi bilirsinizmi?”

90. Qardaşları: “Yoxsa sən Yusufun özüsən?” – dedilər. O da: “Mən Yusufam, bu da qardaşım. Allah bizə lütf etdi. Çünki kim pis əməllərdən çəkinər və səbir edərsə, şübhəsiz, Allah yaxşılıq edənlərin mükafatını hədər etməz”, – dedi.

91. Dedilər ki: “Allaha and olsun, həqiqətən, Allah səni bizdən üstün tutmuşdur. Həqiqətən, biz günah etmişdik”.

92. Yusuf dedi ki: “Bu gün sizə bir məzəmmət yoxdur. Allah sizi bağışlasın. O, mərhəmətlilərin ən mərhəmətlisidir”.

93. “Bu köynəyimi aparın, atamın üzünə qoyun ki, gözləri açılsın və bütün ailənizi mənim yanıma gətirin”, – dedi.

94. Karvan Misirdən ayrıldıqda ataları: “Əgər məni ağlını itirmiş qoca hesab etməsəydiniz, şübhəsiz, mən Yusufun ətrini alıram, (deyərdim)”, – dedi.

95. Onlar da: “Allaha and olsun ki, sən hələ də köhnə yanlışlığındasan”, – dedilər.

96. Muştuluqçu gəlib köynəyi Yaqubun üzünə qoyan kimi gözləri açıldı. Yaqub: “Mən sizə demədimmi ki, Allah tərəfindən sizin bilməyəcəyiniz şeyləri bilirəm?” – dedi.

97. Oğulları: “Ey atamız! Allahdan günahlarımızın bağışlanmasını dilə. Biz həqiqətən, günahkar idik”, – dedilər.

98. Yaqub: “Rəbbimdən sizin bağışlanmağınızı diləyəcəyəm. Şübhəsiz, O, çox bağışlayandır, çox mərhəmət edəndir”, – dedi.

99. (Misirə gedib) Yusufun hüzuruna çıxdıqları zaman Yusuf ata-anasını bağrına basdı və: “Allahın iradəsi ilə əmin-amanlıq içində Misirə daxil olun”, – dedi.

100. Ata-anasını taxtın üstünə çıxardı. Hamısı ona (Yusufa) ehtiramla əyildilər. Yusuf dedi ki: “Atacan! Bax bu, daha əvvəl gördüyüm yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. Şeytan mənimlə qardaşlarımın arasını vurduqdan sonra Rəbbim məni zindandan çıxararaq və sizi də çöldən gətirərək mənə çox yaxşılıq etdi. Şübhəsiz, Rəbbim istədiyi şeydə incəliklər göstərəndir. Şübhəsiz, O, haqqı ilə biləndir, hökm və hikmət sahibidir”.

101. “Rəbbim! Həqiqətən, mənə mülk verdin və mənə sözlərin yozumunu öyrətdin. Ey göyləri və yeri yaradan! Dünyada da, axirətdə də sən mənim vəlimsən. Mənim canımı müsəlman olaraq al və məni salehlərə qat”.

102. Bu (qissə) qeyb xəbərlərindəndir. Onu sənə biz vəhy yolu ilə bildiririk. Yoxsa onlar hiylə quraraq işlərinə qərar verdikləri zaman sən onların yanında deyildin.

103. Sən nə qədər şiddətlə arzu etsən də, insanların çoxu inanan deyil.

**104.** Halbuki sən bunun əvəzində onlardan bir mükafat da istəmirsən. O, (Qur`an) aləmlər içində ancaq bir öyüddür.

**105.** Göylərdə və yerdə neçə-neçə dəlillər var ki, onların yanından üz çevirərək keçərlər.

**106.** Onların çoxu Allaha ancaq şərik qoşaraq inanırlar.[1]

**107.** Yoxsa onlar Allah tərəfindən özlərini əhatə edəcək bir əzabın gəlməyəcəyindən və ya özləri də bilmədən qiyamətin qəflətən gəlib çatmayacağından əmindirlər?

**108.** De ki: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar bəsirətlə Allaha çağırırıq. Allahın şanı ucadır. Mən Allaha şərik qoşanlardan deyiləm".

**109.** Biz səndən əvvəl də məmləkətlərin əhalisindən yalnız özlərinə vəhy etdiyimiz bəzi kişiləri peyğəmbər olaraq göndərdik. Yer üzündə dolaşıb özlərindən əvvəl gələnlərin aqibətlərinin necə olduğuna baxmadılarmı? Əlbəttə, axirət yurdu Allaha qarşı gəlməkdən çəkinənlər üçün daha yaxşıdır. Hələ də düşünmürsünüzmü?

**110.** Nəhayət, peyğəmbərlər ümidlərini kəsəcəkləri həddə çatıb təkzib olunduqlarını düşündükləri vaxtda onlara yardımımız gəldi, beləliklə, dilədiyimiz kimsələrə nicat bəxş edildi. Əzabımız isə günahkarlar qövmündən sovuşdurulmaz.

**111.** And olsun ki, onların qissələrində ağıl sahibləri üçün ibrət var. Qur`an uydurulan bir söz deyil. Lakin özündən əvvəlkiləri təsdiq edən, hər şeyi təfsilatı ilə açıqlayan və inanan bir toplum üçün də bir bələdçi və bir rəhmətdir.

## 13. RƏ`D SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 43 ayədən ibarətdir. Surənin adı 13-cü ayədə keçən "rə`d" sözündən götürülmüşdür. Rə`d göy gurultusu deməkdir. Surədə başlıca olaraq Allahın birliyi, peyğəmbərlik, öldükdən sonra dirilmək, sorğu-sual kimi mövzularla yanaşı müşriklərin İslam haqqında ortaya atdıqları şübhələrə də yer verilmişdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Əlif Ləm Mim Ra.[2] Bunlar Kitabın ayələridir. Sənə Rəbbindən endirilən gerçəkdir, lakin insanların çoxu inanmazlar.

**2.** Allah göyləri gördüyünüz hər hansı bir dirək olmadan yüksəldən, sonra Ərş[3] üzərində bərqərar olan, günəşi və ayı əmrinə ram edəndir. Bunların hamısı müəyyən bir vaxta qədər axıb gedir. O, hər işi (haqqı ilə) nizama qoyar, ayələri müfəssəl şəkildə açıqlayar ki, Rəbbinizə qovuşacağınıza yəqinliklə inanasınız.

**3.** O, yeri yayıb döşəyən, orada dağlar, çaylar meydana gətirən, orada hər cür mey-

1 Müşriklər Allahın varlığına inanmaqla yanaşı ilah tutduqları kəsləri və ya şeyləri Allah ilə öz aralarında vasitəçi ilahlar olaraq qəbul edir, yaxud da yalnız Allaha nisbət olunan xüsusiyyətləri ilah tutduqları bu şeylərə verirlər. (Mövzu ilə əlaqəli olaraq baxın: Zümər, 39/3.)

2 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinə aid istinada baxın.

3 Ərş qüdrət və hakimiyyət taxtı, sonsuz qüdrət mərtəbəsi deməkdir.

vədən (erkək-dişi olmaqla) cüt-cüt yaradandır.[1] O, gecəni gündüzə bürüyür. Şübhəsiz, bunlarda düşünən bir qövm üçün (Allahın varlığını göstərən) dəlillər var.

4. Yer üzündə bir-birinə yaxın qitələr, üzüm bağları, əkinlər, bir kökdən çıxan çox gövdəli və tək gövdəli xurma ağacları var ki, hamısı eyni su ilə sulanır. Ancaq biz məhsulları baxımından onların bəzisini bəzisindən üstün tuturuq. Şübhəsiz, bunda düşünən bir qövm üçün (Allahın varlığını göstərən) dəlillər var.

5. Əgər təəccüb edəcəksənsə, əsl təəccüb ediləsi şey onların "Biz torpaq olduqda (n sonra) yenidənmi yaradılacağıq?" deməlеridir. Bunlar Rəblərini inkar edənlərdir. Onlar boyunlarına dəmir halqalar taxılanlardır və onlar cəhənnəmlikdirlər. Onlar orada əbədi qalacaqlar.

6. Bir də yaxşılıqdan əvvəl pisliyin tez gəlməsini səndən istəyirlər. Halbuki onlardan əvvəl ibrət götürüləsi bir çox əzab gəlib keçmişdir. Şübhəsiz, Rəbbin insanların zülmlərinə rəğmən bağışlama sahibidir. Bununla birlikdə Rəbbinin əzabı da çox şiddətlidir.

7. İnkar edənlər: "Ona Rəbbindən bir möcüzə endirilməli deyildimi?" – deyirlər. Sən ancaq bir xəbərdar edənsən. Hər qövm üçün də bir yol göstərən var.

8. Allah hər dişinin nəyə yüklü olduğunu, rəhimlərin nəyi artırıb nəyi əskiltdiyini bilir. Hər şey Onun qatında bir ölçü ilədir.

9. O, qeybi də görünən aləmi də biləndir, çox böyükdür, çox ucadır.

10. Sizdən sözü gizlədən də, açığa vuran da, gecə vaxtı gizlənən də, gündüz vaxtı aşkara çıxan da (Allaha görə) eynidir.

11. İnsanı önündən və arxasından təqib edən mələklər var. Allahın əmri ilə onu qoruyurlar.[2] Şübhəsiz ki, bir qövm öz halını dəyişdirmədikcə Allah onların halını dəyişdirməz. Allah bir qövmə pislik yetirmək istəsə, daha onun qarşısı alına bilməz. Onlar üçün Allahdan başqa heç bir yardımçı da yoxdur.

12. O, qorxu və ümid vermək üçün sizə şimşəyi göstərəndir, yağmur dolu buludları yaradandır.

13. Göy gurultusu Ona həmd edərək təsbih edər. Mələklər də Onun qorxusundan təsbih edərlər. O, ildırımlar göndərər, onunla istədiyini vurar. Onlar isə Allah barəsində mübahisə edirlər. Halbuki O, əzabı çox şiddətli olandır.

14. Həqiqi dua yalnız Onadır. Ondan başqa yalvardıqları isə onların dualarına ancaq, ağzına su çatmayacağı halda çatsın deyə ovcunu suya uzadan kimsənin istəyinə suyun cavab verdiyi qədər cavab verərlər. Kafirlərin duası daim boşa çıxar.[3]

---

1 Botanika elminin əldə etdiyi nəticələrə görə bitkilərin törəyib çoxalması erkək və dişi orqanlar vasitəsilə baş verir. Bu erkək və dişi orqanlar bəzən eyni çiçəkdə, bəzən ayrı çiçəklərdə, bəzən də xurmada olduğu kimi ayrı ağaclardakı çiçəklərdə ola bilir.

2 "Qoruyan mələklər" haqqında əlavə olaraq baxın: Ən`am, 6/61.

3 Bu ayədə bütə sitayiş edənlər quyu başındakı susamış insana bənzədilir. Əlini uzadıb suyun gəlməsini istəyən bu kimsənin istəyini cansız, şüursuz su necə yerinə yetirə bilməzsə, eyni bunun kimi cansız və şüursuz bütlər də onlara əl açanların istəklərinə cavab verə bilməzlər.

15. Göylərdə və yerdə kim varsa, istər-istəməz özləri də kölgələri də səhər axşam Allaha boyun əyər.

16. De ki: "Göylərin və yerin Rəbbi kimdir?" "Allahdır", – de. De ki: "Onu buraxıb özlərinə (belə) bir faydası və zərəri olmayan dostlar (ilahlar) tutdunuz?" De ki: "Kor ilə görən bir olarmı? Ya da qaranlıqlarla aydınlıq bir olarmı? Yoxsa Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapıblar və bu yaratma ilə Allahın yaratması onlara görə bir-birinəmi bənzəyib?" De ki: "Hər şeyin yaradıcısı Allahdır. O, birdir, mütləq hakimiyyət sahibidir".

17. O, göydən su endirdi, vadilər öz tutumlarına görə dolub axdı və sel üstə çıxan köpüyü apardı. Bəzək əşyası və ya istifadə ediləcək bir şey əldə etmək üçün odda əritdikləri şeylərdən də böyük köpük yaranır. Allah haqq ilə batilə belə misal çəkir. Köpüyə gəlincə o, sönüb gedər. İnsanlara faydalı olan isə yerdə qalar. Allah belə misallar çəkir.

18. Rəblərinin əmrinə tabe olanlara mükafatın ən gözəli var. Ona tabe olmayanlar isə yer üzündəki hər şeyə və bir o qədərinə də sahib olsaydılar, qurtulmaq üçün hamısını fidyə olaraq verərdilər. Onları pis hesab gözləyir. Gedəcəkləri yer də cəhənnəmdir. O necə də pis bir yataqdır!

19. Rəbbindən sənə endirilənin haqq olduğunu bilən kimsə (onu bilə bilməyən) kor bir kimsə ilə eyni olarmı? (Bunu) yalnız ağıl sahibləri anlayar.

20. Onlar Allaha verdikləri sözə əməl edən və əhdi pozmayanlardır.

21. Onlar Allahın riayət edilməsini əmr etdiyi haqlara riayət edən, Rəblərinə ehtiram göstərən və pis haqq-hesabdan qorxanlardır.

22. Onlar Rəblərinin razılığına nail olmaq üçün səbir edən, namazı doğru-düzgün qılan, özlərinə verdiyimiz ruzidən gizli və ya açıq, Allah üçün xərcləyən və pisliyi yaxşılıqla aradan qaldıranlardır. Bunlar üçün dünya yurdunun gözəl bir sonluğu var.

23. Bu sonluq da Ədn cənnətləridir. Atalarından, zövcələrindən və övladlarından əməli-saleh olanlarla birlikdə oraya daxil olarlar. Mələklər də hər bir qapıdan onların yanına daxil olar (və belə deyərlər:)

24. "Səbir etdiyinizə görə sizə salam olsun. Dünya yurdunun nəticəsi (olan cənnət) nə gözəldir!"

25. Allaha verdikləri sözü əhdləşdirdikdən sonra pozanlar, Allahın qorunmasını əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) kəsənlər və yer üzündə fitnə-fəsad törədən kəslər ki var, lənət məhz onlaradır, pis yurd (cəhənnəm) də onlarındır.

26. Allah istədiyinə ruzini bol verər, (istədiyinin ruzisini də) daraldar. Onlar isə dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətin yanında çox az mənfəətdən ibarətdir.

27. İnkar edənlər deyirlər ki: "Ona (Muhamməde) Rəbbindən bir möcüzə endirilməli deyildimi?" De ki: "Şübhəsiz, Allah dilədiyini sapdırar, Ona üz tutanı da doğru yola yönəldər".

28. Onlar iman edənlər və qəlbləri yalnız Allahın zikri ilə hüzur tapanlardır. Bilin ki, qəlblər yalnız Allahın zikri ilə hüzur tapar.

29. İman edənlər və saleh işlər görənlər üçün xoşbəxtlik və gözəl bir qayıdış yeri var.

30. (Ey Muhamməd!) Beləliklə, səni özlərindən əvvəl neçə-neçə ümmətlərin gəlib keçdiyi bir ümmətə göndərdik ki, onlar Rəhmanı inkar edərkən sənə vəhy etdiyimizi onlara oxuyasan. De ki: "O, mənim Rəbbimdir. Ondan başqa heç bir ilah yoxdur. Mən yalnız Ona təvəkkül etdim, qayıdışım da yalnız Onadır".

31. Onunla dağların hərəkət etdiriləcəyi və ya yer üzünün parçalanacağı ya da ölülərin danışdırılacağı bir Qur`an olsaydı, (o yenə bu kitab olardı). Lakin bütün əmr yalnız Allahındır. İman edənlər anlamadılarmı ki, Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi. Allahın vədi yerinə yetənədək, etdikləri işlər səbəbi ilə inkar edənlərə davamlı olaraq ya böyük bir müsibət üz verəcək və ya o müsibət yurdlarının yaxınına enəcək. Şübhəsiz, Allah verdiyi sözdən dönməz.

32. And olsun, səndən əvvəl neçə-neçə peyğəmbərlərə də istehza edildi. Mən inkar edənlərə bir müddət (möhlət) verdim, sonra da onları yaxaladım. (Anladılar ki,) Mənim cəzalandırmağım necə imiş!

33. Hər kəsin nə qazandığına nəzarət edən Allah inkar edilərmi? Halbuki onlar Allaha şəriklər qoşdular. De ki: "Onların isimlərini açıqlayın. Yoxsa siz (bununla) Ona yer üzündə bilmədiyi bir şeyi xəbər verirsiniz yaxud boş söz sərf edirsiniz?" Xeyr, inkar edənlərə öz hiylələri gözəl göstərildi və onlar doğru yoldan sapdırıldılar. Allah kimi zəlalətə salarsa, daha onu doğru yola yönəldən olmaz.

34. Onlara dünya həyatında bir əzab var. Axirət əzabı isə daha ağırdır və onları Allahın əzabından qoruyacaq bir kimsə də yoxdur.

35. Allaha qarşı gəlməkdən çəkinənlərə vəd olunan cənnət belədir: onun içindən çaylar axar, yeyəcəkləri və kölgələri daimidir. Bu, Allaha qarşı gəlməkdən çəkinənlərin aqibətidir. İnkar edənlərin aqibəti isə cəhənnəm odudur.

36. Kitab verdiyimiz kimsələr sənə endirilən Qur`an ilə sevinirlər. Lakin (sənin əleyhinə olan) firqələrdən elələri də var ki, onun bir qismini inkar edirlər. De ki: "Mənə yalnız Allaha ibadət etmək və Ona şərik qoşmamaq əmr olundu. Mən yalnız Ona dəvət edirəm və dönüşüm də yalnız Onadır".

37. Beləliklə, biz onu (Qur`anı) ərəbcə bir hökm olaraq nazil etdik. Sənə gələn bu elmdən sonra əgər sən onların arzu və istəklərinə uysan, Allah tərəfindən sənin üçün nə bir dost, nə də bir qoruyucu olar.

38. And olsun, səndən əvvəl də peyğəmbərlər göndərdik. Onlara da zövcələr və övladlar verdik. Allahın izni olmadan heç bir peyğəmbər bir möcüzə gətirə bilməz. Hər əcəlin (vədənin) bir yazısı var.[1]

---

1 Ayə belə bir xəbərdarlıq edir: Hər şeyin təyin olunmuş bir vaxtı var. Sənin gətirməyini istədikləri möcüzələrin də bir vaxtı var. Allah bu vaxtları lövhi-məhfuzda yazıb saxlayıb. Onların fitnəkar təkidləri səbəbilə Allahın bu hökmləri dəyişməz.

39. Allah dilədiyini silər, dilədiyini də sabit saxlayar. Ana kitab (Lövhi-məhfuz) Onun yanındadır.[1]

40. Onlara vəd etdiyimiz əzabın bir qismini sənə göstərsək də, (göstərmədən) sənin ruhunu alsaq da, sənin vəzifən yalnız təbliğ etməkdir. Haqq-hesab çəkmək isə bizə aiddir.

41. Onlar bizim yer üzünə (qüdrətimizlə) gəlib onu ətrafından əskiltdiyimizi görmədilərmi? Allah hökm edər. Onun hökmünü dəf edəcək heç bir kimsə yoxdur. O, çox tez hesaba çəkəndir.

42. Onlardan əvvəlkilər də hiylə qurmuşdular. Bütün hiylələr Allaha aiddir. O, hər nəfsin nə qazandığını bilir. İnkar edənlər də dünya yurdunun sonunun kimə aid olduğunu biləcəklər.

43. İnkar edənlər: "Sən peyğəmbər deyilsən", – deyirlər. De ki: "Mənimlə sizin aranızda Allahın və bir də kitabı bilənlərin[2] şahid olması yetər".

## 14. İBRAHİM SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 52 ayədən ibarətdir. Həzrət İbrahimdən və ailəsindən bəhs edildiyi üçün surə belə adlandırılmışdır. İman əsaslarından olan Allaha iman, peyğəmbərlərə iman, öldükdən sonra dirilmə və sorğu-suala çəkilmə bu surədə başlıca olaraq ələ alınan mövzulardır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Əlif Ləm Ra.[3] Bu Qur`an Rəblərinin izni ilə insanları qaranlıqlardan aydınlığa, mütləq güc sahibi və tərifə layiq, göylərdəki və yerdəki hər şeyin sahibi olan Allahın yoluna çıxarman üçün sənə nazil etdiyimiz bir kitabdır. Şiddətli əzabdan ötrü vay kafirlərin halına!

3. Dünya həyatını axirət həyatından üstün tutanlar, (insanları) Allah yolundan döndərib onu əyri və təzadlı göstərmək istəyənlər ki var, onlar dərin bir zəlalət içindədirlər.

4. Biz hər peyğəmbəri yalnız öz qövmünün diliylə göndərdik ki, onlara (Allahın əmrlərini) yaxşıca açıqlasın. Allah istədiyini azdırar,[4] istədiyini də doğru yola yönəldər. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

---

1 "Ana kitab" ifadəsi ilə əlaqəli olaraq baxın: Zuxruf, 43/4.

2 Kitabı bilənlərin kimlər olduğu barəsində müxtəlif fikirlər var. Buna əsasən ayədə işarə olunan şəxslər;

Tövrat və İncili bilən yəhudi və xristian alimlər,

Vərəqə ibn Növfəl kimi məkkəlilərdən Tövrat və İncili bilən kəslər,

Müəyyən şəxslərlə məhdudlaşdırmadan ilahi kitablar haqqında biliyə sahib olan, onları oxuyub anlayan kəslər ola bilər.

3 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

4 Ayədə keçən "Allahın azdırması" ifadəsi ilə əlaqəli olaraq Bəqərə surəsinin 26-cı ayəsinin istinadına baxın.

5. And olsun, Biz Musanı da "Qövmünü qaranlıqlardan aydınlığa çıxar və onlara Allahın (keçmiş millətləri cəzalandırdığı) günlərini xatırlat" deyə ayələrimizlə göndərdik. Şübhəsiz ki, bunda, çox səbir edən, çox şükür edən hər kəs üçün ibrətlər var.

6. Bir vaxt Musa öz qövmünə: "Allahın sizə olan nemətini xatırlayın. Bir vaxt O, sizi Firon ailəsindən xilas etmişdi. Onlar sizi ən ağır işgəncələrə məruz qoyur, oğullarınızı boğazlayıb qadınlarınızı sağ buraxırdılar. Bunda sizə Rəbbinizdən böyük bir imtahan vardı", – demişdi.

7. Xatırlayın ki, Rəbbiniz belə bildirmişdi: "And olsun, əgər şükür etsəniz, əlbəttə, sizə nemətimi artıraram. Əgər nankorluq etsəniz, həqiqətən, əzabım çox şiddətlidir".

8. Musa belə dedi: "Siz və yer üzündə olanların hamısı nankorluq etsəniz belə, həqiqət budur ki, Allah hər baxımdan ehtiyacsız və tərifə layiq olandır".

9. Sizdən əvvəlki Nuh, Ad və Səmud qövmlərinin və onlardan sonrakıların – ki, onları yalnız Allah bilir – xəbəri sizə gəlmədimi? Onlara peyğəmbərləri möcüzələr gətirdilər, onlar (qəzəbdən barmaqlarını dişləmək üçün) əllərini ağızlarına aparıb: "Biz sizinlə göndəriləni inkar edirik. Bizi dəvət etdiyin şey barəsində də dərin bir şübhədəyik", – dedilər.

10. Peyğəmbərləri dedi ki: "Göyləri və yeri yaradan Allah haqqında şübhəmi var? (Halbuki) O, günahlarınızı bağışlamaq və müəyyən bir vaxta qədər sizə möhlət vermək üçün sizi (imana) çağırır". Onlar: "Siz də bizim kimi sadəcə bir insansınız. Bizi atalarımızın ibadət etdiklərindən yayındırmaq istəyirsiniz. Elə isə bizə açıq-aşkar bir dəlil gətirin", – dedilər.

11. Peyğəmbərləri onlara dedi ki: "Biz ancaq sizin kimi bir insanıq. Lakin Allah qullarından istədiyinə (peyğəmbərlik) nemətini bəxş edər. Allahın izni olmadıqca bizim sizə bir dəlil gətirməyimiz mümkün deyil. Möminlər yalnız Allaha təvəkkül etsinlər".

12. "Allah bizə yollarımızı göstərdiyi halda biz nə üçün ona təvəkkül etməyək? Bizə verdiyiniz əziyyətə, əlbəttə, dözəcəyik. Təvəkkül edənlər yalnız Allaha təvəkkül etsinlər".

13. İnkar edənlər peyğəmbərlərinə: "And olsun ki, ya sizi yurdumuzdan çıxararıq, ya da bizim dinimizə dönərsiniz", – dedilər. Rəbləri də onlara belə vəhy etdi: "Biz zalımları mütləq yox edəcəyik".

14. "Onlardan sonra sizi, əlbəttə, o yerə yerləşdirəcəyik. Bu, məqamımdan qorxan və təhdidimdən çəkinən kimsələr üçündür".

15. Peyğəmbərlər Allahdan yardım istədilər və hər inadkar zalım ziyana uğradı.

16. Ziyanın ardından da cəhənnəm var. Orada ona irinli su içirdiləcək.

17. Onu qurtum-qurtum içməyə çalışacaq, lakin boğazından keçirə bilməyəcək. Ona hər tərəfdən ölüm gələcək, lakin ölməyəcək, ardından da şiddətli bir əzab gələcək.

18. Rəblərini inkar edənlərin halı belədir: Onların əməlləri fırtınalı bir gündə küləyin

şiddətlə sovurduğu kül kimidir. (Dünyada) qazandıqları heç bir şeyin (axirətdə) faydasını görməzlər. Bax bu, dərin zəlalətdir.

19. Allahın göyləri və yeri haqq və hikmətə uyğun olaraq yaratdığını görmədinmi? İstəsə sizi yox edər və yeni bir xalq gətirər.

20. Bu, Allah üçün heç də çətin deyil.

21. İnsanların hamısı Allahın hüzuruna çıxacaq və zəiflər təkəbbür göstərənlərə deyəcəklər ki: "Şübhəsiz, biz sizə uymuşduq. İndi siz bizi Allahın əzabından az da olsa qoruya biləcəksinizmi? " Onlar isə: "Əgər Allah bizi doğru yola yönəltsəydi, biz də sizi doğru yola yönəldərdik. İndi ağlayıb-sızlasaq da, səbir etsək də bizim üçün birdir. Artıq bizim üçün bir qurtuluş yoxdur", – deyərlər.

22. İş bitirildikdə şeytan da deyəcək ki: "Şübhəsiz, Allah sizə haqq olanı vəd etdi. Mən də sizə vəd verdim, amma sizə verdiyim vədə xilaf çıxdım. Əslində mənim sizi məcbur edəcək bir gücüm yox idi. Mən sadəcə sizi çağırdım, siz də mənə uydunuz. Elə isə məni qınamayın, özünüzü qınayın. Artıq mən sizi xilas edə bilmərəm, siz də məni xilas edə bilməzsiniz. Şübhəsiz, mən daha əvvəl sizin məni Allaha şərik qoşmağınızı qəbul etməmişdim. Şübhəsiz, zalımlar üçün ağrılı-acılı bir əzab var".

23. İman edən və saleh işlər görənlər Rəblərinin izni ilə əbədi qalacaqları və içlərindən çaylar axan cənnətlərə daxil ediləcəklər. Onların oradakı sağlıq dilәkləri "salam"-dır.

24. Görmədinmi Allah gözəl bir sözü necə misal gətirdi? (Gözəl bir söz) kökü möhkəm, qol-budağı göyə yüksələn bir ağac kimidir.

25. Bu ağac Rəbbinin izni ilə hər zaman meyvəsini verir. Öyüd götürsünlər deyə Allah insanlara misallar çəkir.

26. Pis bir söz isə yerdən qoparılmış, öz gövdəsi üzərində dayanmağa gücü olmayan pis bir ağac kimidir.

27. Allah iman edənləri həm dünya həyatında, həm də axirətdə sabit bir sözlə gücləndirər,[1] zalımları isə zəlalətə düçar edər. Allah istədiyini edər.

28, 29. Allahın nemətini küfrə dəyişənləri və qövmlərini həlak yurduna, söykənəcəkləri cəhənnəmə sürükləyənləri görmədinmi? O necə də pis qərar tutma yeridir!

30. Allahın yolundan azdırmaq üçün ona şəriklər qoşdular. De ki: "Bir az da səfa sürün! Çünki qayıdışınız cəhənnəm odunadır".

31. İman edən qullarıma söylə ki, namazı doğru-düzgün qılsınlar, heç bir alış-verişin və dostluğun olmayacağı gün gəlməzdən əvvəl özlərinə ruzi olaraq verdiyimiz şeylərdən Allah yolunda gizli və aşkar xərcləsinlər.

32. Allah göyləri və yeri yaradan, göydən yağmur endirən və onunla sizə ruzi olaraq növbənöv meyvələr çıxaran, əmri ilə dənizdə üzsün deyə gəmiləri sizə ram edən, çayları da əmrinizə verəndir.

33. O, adətləri üzrə hərəkət edən günəşi və ayı sizin ixtiyarınıza verən, gecəni və gündüzü sizə ram edəndir.

---

1 Ayədəki "sabit söz" ifadəsi ilə kəlmeyi-tövhid nəzərdə tutulur.

34. O, istədiyiniz şeylərin hamısından sizə verdi. Əgər Allahın nemətlərini saymaq istəsəniz, saya bilməzsiniz. Şübhəsiz, insan çox zalımdır, çox nankordur.

35. Bir vaxt İbrahim demişdi: "Rəbbim! Bu şəhəri əmin-amanlıq yeri et, məni və oğullarımı bütlərə tapınmaqdan uzaq tut".

36. "Rəbbim! Çünki o bütlər insanlardan bir çoxunu sapdırdılar. Artıq kim mənə tabe olsa, məndəndir. Kim də mənə qarşı gəlsə, şübhəsiz ki, sən çox bağışlayan, çox mərhəmət edənsən".

37. "Rəbbimiz! Mən övladlarımdan bəzisini sənin müqəddəs evinin (Kəbənin) yanında əkin bitməz bir vadiyə yerləşdirdim. Rəbbimiz! Namazı doğru-düzgün qılmaları üçün (belə etdim). Sən də insanlardan bir qisminin könüllərini onlara meyl etdir, onlara məhsullardan ruzi olaraq ver ki, bəlkə şükür edələr".

38. "Rəbbimiz! Şübhəsiz ki, sən gizlədiyimizi də, aşkara vurduğumuzu da bilirsən. Yerdə və göydə heç bir şey Allahdan gizli qalmaz".

39. "Həmd, ixtiyar yaşımda mənə İsmaili və İshaqı verən Allaha məxsusdur. Şübhəsiz, Rəbbim duanı eşidəndir".

40. "Rəbbim! Məni namaza davam edən bir kimsə et. Soyumdan da belə kimsələr yarat. Rəbbimiz! Duamı qəbul et".

41. "Rəbbimiz! Hesab günündə məni, ata-anamı və inananları bağışla".

42. Əsla Allahı zalımların etdiklərindən xəbərsiz sanma! Allah onları ancaq gözlərin dəhşətlə baxacağı bir günə qədər yubadır.

43. O gün başlarını yuxarı dikib (çağırıldıqları yerə doğru) qaçarlar. Gözləri özlərini belə görməz, qəlbləri də bomboşdur.

44. (Ey Muhamməd!) İnsanları onlara əzabın gələcəyi gün barəsində xəbərdar et. Çünki o gün zalımlar: "Ey Rəbbimiz! Yaxın bir müddətə qədər bizə möhlət ver, sənin çağırışına əməl edək və peyğəmbərlərə tabe olaq", – deyəcəklər. Onlara belə deyiləcək: "Daha əvvəl sizə zaval toxunmayacağına dair and içməmişdinizmi?"

45. "Özlərinə zülm edənlərin yurdlarını məskən tutdunuz. Onlara nə etdiyimiz isə sizə bəlli olmuşdu. Sizə misallar da çəkmişdik".

46. Onlar həqiqətən, hiylələrini qurmuşdular. Hiylələri səbəbi ilə dağlar yerindən oynasa belə, onların hiyləsi Allah qatındadır (Allah onu bilir).

47. Allahın peyğəmbərlərinə verdiyi vədə xilaf çıxacağını sanma! Şübhəsiz, Allah mütləq güc sahibidir, intiqam sahibidir.

48. O gün yer başqa bir yerə, göylər də başqa göylərə çevrilər və insanlar bir və qəhhar (hər şeyin fövqündə yeganə hakim) olan Allahın hüzuruna çıxarlar.

49. O gün günahkarları zəncirlərə vurulmuş halda görərsən.

50. Köynəkləri qətrandandır. Üzlərini də od bürüyəcək.

51. Allah hər kəsə qazandığının əvəzini vermək üçün belə edər. Şübhəsiz, Allah tez hesaba çəkəndir.

52. Bu Qur`an insanlar üçün bir təbliğdir. (Elə bir təbliğdir ki,) onunla həm xəbərdar

olunsunlar, həm Allahın yalnız tək bir ilah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb öyüd götürsünlər.

## 15. HİCR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 99 ayədən ibarətdir. Surənin adı 80-ci ayədə keçən "hicr" kəlməsindən götürülmüşdür. Hicr Mədinənin şimalında vaxtilə Səmud qövmünün yaşadığı bir yerin adıdır. Surədə Allahın birliyi, peyğəmbərlik, öldükdən sonra dirilmə və hesab kimi mövzular, peyğəmbərlərin müxtəlif zamanlarda inkarçılara qarşı apardıqları mübarizələr çərçivəsində ələ alınır. Həmçinin bu surədə ilahi kitabların ən kamili olan Qur`anın hər cür təhrifdən qorunacağı hökmü də yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Əlif Ləm Ra.[1] Bunlar kitabın və açıq-aydın olan Qur`anın ayələridir.

**2.** İnkar edənlər: "Kaş ki, müsəlman olaydıq", – deyə çox arzu edəcəklər.

**3.** Qoy yesinlər (içsinlər), səfa sürsünlər, xamxəyalları başlarını qatsın. Onlar (həqiqəti) biləcəklər.

**4.** Həlak etdiyimiz hər məmləkətin mütləq bilinən bir yazısı (müəyyən bir vaxtı) var.

**5.** Heç bir toplum əcəlini qabaqlaya bilməz və ondan geri də qala bilməz.

**6.** Dedilər ki: "Ey özünə Zikr (Qur`an) endirilən kəs! Sən həqiqətən, dəlisən".

**7.** "Əgər doğru danışanlardansansa, bizə mələkləri gətir!"

**8.** Biz mələkləri ancaq haqq və hikmətə uyğun olaraq endirərik. O zaman da onlara möhlət verilməz.

**9.** Şübhəsiz, o zikri (Qur`anı) biz endirdik. Onun qoruyucusu da, əlbəttə, bizik.

**10.** Ey Muhamməd! And olsun, səndən əvvəlki cəmiyyətlərə də peyğəmbər göndərdik.

**11.** Onlar özlərinə gələn hər peyğəmbərə istehza edirdilər.

**12.** Həmçinin (onların davranışlarına uyğun olaraq) biz onu günahkarların qəlblərinə yeridərik.[2]

**13.** Əvvəlki millətlərin (həlakına dair Allahın) qanunu həyata keçdiyi halda bunlar ona (Qur`ana) inanmırlar.

**14, 15.** Onlara göydən bir qapı açsaq, oradan yuxarı çıxmağa başlasalar, yenə də: "Gözlərimiz bağlandı, biz yəqin ki, ovsunlanmış bir qövmük", – deyərdilər.

**16.** And olsun, biz göydə bürclər yaratdıq və onu baxanlar üçün süslədik.

**17.** Onu qovulmuş hər şeytandan qoruduq.

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Bu ayədəki "qəlb" Ə`raf surəsinin 179-cu ayəsində də olduğu kimi düşüncə və idrak mərkəzi mənasındadır. Bu baxımdan Qur`anın günahkarların qəlbinə yeridilməsi öz dilləri ilə onu başa düşmələrinə imkan yaradılması deməkdir.

18. Ancaq gizlicə qulaq asıb söz oğurluğu edən olarsa, onu da parlaq bir atəş təqib edər.

19. Yeri də döşədik, ona sabit dağlar yerləşdirdik və orada hər şeyi müəyyən ölçüdə yetişdirdik.

20. Orada həm sizin üçün, həm də sizin ruzi vermədiyiniz kimsələr üçün dolanışıq yaratdıq.

21. Elə bir şey yoxdur ki, xəzinələri yanımızda olmasın. Biz onu ancaq müəyyən bir ölçü ilə endirərik.

22. Küləkləri də tozlandırıcı olaraq göndərib yuxarıdan su endirərək sizi onunla suladıq. Onu yığıb saxlayan da siz deyilsiniz.[1]

23. Şübhəsiz, biz dirildər, biz öldürərik və biz (hər şeyə həqiqi) varislərik.

24. And olsun, biz səndən əvvəl gəlib keçənləri də bilirik, sonraya qalanları da.

25. Şübhəsiz, sənin Rəbbin onları dirildib bir yerə toplayacaq. Şübhəsiz, O, hökm və hikmət sahibidir, haqqı ilə biləndir.

26. And olsun, biz insanı quru və şəkil verilmiş bir palçıqdan yaratdıq.

27. Cinləri də daha əvvəl tüstüsüz alovdan yaratmışdıq.

28, 29. Bir vaxt Rəbbin mələklərə: "Mən quru və şəkil verilmiş bir palçıqdan bir insan yaradacağam. Ona surət verib içinə ruhumdan üflədiyim zaman dərhal onun üçün ehtiramla əyilin", – demişdi.

30. Bütün mələklər ehtiramla əyildilər.

31. Yalnız İblis ehtiramla əyilənlərlə bərabər olmaqdan boyun qaçırdı.

32. Allah: "Ey İblis! Ehtiramla əyilənlərlə bərabər olmamaqda məqsədin nədir?" – dedi.

33. İblis dedi: "Mən quru və şəkil verilmiş bir palçıqdan yaratdığın insan üçün baş əyə bilmərəm".

34, 35. Allah: "Elə isə çıx oradan, çünki sən qovuldun. Şübhəsiz, hesab gününə qədər sənə lənət var", – dedi.

36. İblis: "Rəbbim! Elə isə onların yenidən dirildiləcəkləri günə qədər mənə möhlət ver", – dedi.

37, 38. Allah: "Sən vaxtı (yalnız mənə) məlum olan günə (qiyamətə) qədər möhlət verilənlərdənsən", – dedi.

39, 40. İblis: "Rəbbim! Məni azdırdığına görə and olsun ki, yer üzündə pislikləri onlara gözəl göstərəcəyəm, aralarından ixlaslı qulların xaric onların hamısını azdıracağam", – dedi.

41, 42. Allah: "Bu, mənə varan doğru yoldur. Azğınlardan sənə uyanlar xaricində qullarım üzərində sənin bir hakimiyyətin yoxdur", – dedi.

43. Şübhəsiz, cəhənnəm onların hamısının görüşəcəyi yerdir.

---

1 Bu ayədə küləklərin həm bitkilərin tozlanmasında oynadığı rola, həm də buludları sürükləyərək yağdırdığı yağmura işarə edilir.

44. Onun yeddi qapısı var və hər qapıya onlardan bir dəstə ayrılmışdır.

45. Şübhəsiz, Allaha qarşı gəlməkdən çəkinənlər cənnətlər içində və bulaqlar başındadır.

46. Onlara: "Sağlıqla və əminliklə oraya daxil olun!" – deyilər.

47. Biz onların qəlblərindəki kini çıxarıb atdıq. Artıq onlar qardaşlar olaraq taxtlar üstündə qarşı-qarşıya otururlar.

48. Onlar orada heç bir yorğunluq çəkməzlər və onlar oradan çıxarılmazlar.

49, 50. Ey Muhammədı! Mənim çox bağışlayan, çox mərhəmətli olduğumu, əzabımın isə ağrılı-acılı əzab olduğunu qullarıma xəbər ver.

51. Onlara İbrahimin qonaqlarından da xəbər ver.

52. Qonaqlar İbrahimin yanına gəlmiş və "Salam" demişdilər. O da: "Həqiqətən, biz sizdən qorxuruq", – demişdi.

53. Onlar: "Qorxma, biz səni bilikli bir oğulla müjdələyirik", – dedilər.

54. İbrahim: "Qocalıq mənə yetişdiyi halda siz mənə müjdə verirsiniz? Məni nə ilə müjdələyirsiniz?" – dedi.

55. "Biz sənə haqqı müjdələdik. Ümidsizlərdən olma", – dedilər.

56. Dedi ki: "Zəlalətə düşənlərdən başqa kim Rəbbinin rəhmətindən ümidini kəsər?"

57. İbrahim: "Ey elçilər! Vəzifəniz nədir?" – dedi.

58. Belə dedilər: "Şübhəsiz, biz günahkar bir millətə göndərilmişik.

59, 60. Lutun ailəsi istisnadır (onlar günahkar deyillər). Lutun zövcəsindən başqa biz onların hamısını xilas edəcəyik. Biz onun arxada qalanlardan olmasını uyğun bildik".

61, 62. Elçilər (mələklər) Lutun ailəsinə gəldikdə Lut onlara: "Həqiqətən, siz tanınmayan kəslərsiniz", – dedi.

63. Dedilər ki: "Bəli, ancaq biz sənə (qövmünün) şübhə etdiyi əzabı gətirdik".

64. "Biz sənə haqqı gətirdik. Şübhəsiz, biz doğru söyləyənlərik".

65. "Gecənin bir vaxtında ailəni yola sal, sən də arxalarından get. Heç biriniz arxaya baxmasın. Sizə əmr olunan yerə (doğru) gedin".

66. Ona bu işi qəti şəkildə bildirdik: "Səhərə çıxarkən onların kökü kəsilmiş olacaq".

67. Şəhər əhli sevinə-sevinə gəldilər.

68. Lut dedi ki: "Bunlar mənim qonaqlarımdır. Məni rüsvay etməyin".

69. "Allaha qarşı gəlməkdən çəkinin, məni utandırmayın", – dedi.

70. Onlar: "Biz sənə adamlarla maraqlanmağı qadağan etməmişdikmi?" – dedilər.

71. Lut: "Bunlar mənim qızlarımdır. Əgər edəcəksinizsə, (onlarla evlənə bilərsiniz)", – dedi.[1]

1 Eyni mövzu ilə əlaqəli olaraq baxın: Hud, 11/78 və müvafiq istinad.

72. (Mələklər Luta:) "Ömrünə and olsun ki, onlar (şəhvətdən) sərməst olub sərxoş-
luqları içində qalıblar. (Bu halda əsla səni eşitməzlər)", – dedilər.
73. Beləliklə, şəfəq vaxtı o qorxunc uğultulu səs onları yaxaladı.
74. Onları alt-üst etdik. Üstlərinə də bişmiş palçıqdan daşlar yağdırdıq.
75. Şübhəsiz, düşünüb görə bilən kimsələr üçün bunda ibrətlər var.
76. O şəhərin xarabaları yol üstündə hələ də durur.
77. Bunda inananlar üçün bir ibrət var.
78. Əykə əhli də şübhəsiz, zalım idilər.[1]
79. Onlardan da intiqam aldıq. İkisi də (Lut qövmünün yaşadığı Sodom ilə Şüeyb
qövmünün yaşadığı Əykə) işlək bir yolun üstündə idilər.
80. And olsun, Hicr əhli də peyğəmbərləri inkar etmişdi.[2]
81. Biz onlara ayələrimizi vermişdik, onlardan üz çevirmişdilər.
82. Onlar əmin-amanlıq içində dağlardan evlər yonurdular.
83. Onları da səhər vaxtı o qorxunc uğultulu səs yaxaladı.
84. Qazandıqları özlərinə bir fayda vermədi.
85. Biz göyləri, yeri və ikisi arasında olanları yalnız haqqa və hikmətə uyğun olaraq
yaratdıq. Qiyamət günü mütləq gələcəkdir. Sən indi gözəl bir şəkildə rəftar et.
86. Şübhəsiz, Rəbbin haqqı ilə yaradan (və hər şeyi) bilәndir.
87. And olsun, biz sənə təkrarlanan yeddi ayəni[3] və böyük Qur`anı verdik.
88. Kafirlərdən bir qismini faydalandırdığımız şeylərdə gözün qalmasın. Onlara görə
kədərlənmə və möminləri (şəfqət) qanadının altına al.
89. De ki: "Mən açıq-aşkar xəbərdar edənəm".
90. Eynilə biz öz kitablarını qismlərə ayıranlara da (kitab) endirmişdik.
91. Onlar (bir qisminə inanıb, bir qismini inkar edərək) Qur`anı da hissə-hissə edən-
lərdir.
92, 93. Rəbbinə and olsun ki, etdikləri əməllərə görə onların hamısını mütləq sorğu-su-
ala çəkəcəyik.
94. Ey Muhamməd! İndi sən, sənə əmr olunanı açıq bir şəkildə ortaya qoy və Allaha
şərik qoşanlara fikir vermə.
95, 96. Şübhəsiz, Allah ilə yanaşı başqa ilah qəbul edən müstəhzilərə (istehza edənlərə)
qarşı biz sənə yetərik. Onlar biləcəklər.
97. And olsun, onların dediklərindən ötrü köksünün daraldığını bilirik.

---

1 Əykə əhli həzrət Şüeybin qövmü idi. "Əykə" bir-birinə keçmiş sıx ağaclar deməkdir. Şüeybin qövmü ağac-lıq bir bölgədə yaşadığı üçün onlara "Əykə əhli" deyilmişdir.

2 "Hicr" qayalıq bölgə deməkdir. Şam ilə Hicaz arasındakı bölgənin adıdır. Salih peyğəmbərin qövmü Səmud burada yaşayırdı. Bununla əlaqəli olaraq baxın: Hud 11/61 və həmin ayənin istinadı.

3 Təfsir alimləri ayədə keçən "təkrarlanan yeddi ayə" ifadəsi ilə Fatihə surəsi və ya Qur`anın yeddi uzun surəsinin nəzərdə tutulduğunu bildirmişlər.

98. Elə isə Rəbbini həmd ilə təsbih et (şanını uca tut) və səcdə edənlərdən ol.
99. Sənə ölüm gələnədək Rəbbinə ibadət et.

# 16. NƏHL SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 128 ayədən ibarətdir. Surənin adı 68-ci ayədə keçən "ən-Nəhl" sözündən götürülmüşdür. "ən-Nəhl" bal arısı deməkdir. Surədə başlıca olaraq kainatda Allahın varlığını və birliyini göstərən dəlillər, vəhy, öldükdən sonra dirilmə kimi mövzular yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Allahın əmri gələcək. Daha onu tələm-tələsik istəməyin. Allah onların şərik qoşduqları şeylərdən uzaqdır, ucadır.
2. Allah: "Məndən başqa ilah yoxdur. Elə isə mənə qarşı gəlməkdən çəkinin", – deyə (insanları) xəbərdar etmələri üçün əmrini ehtiva edən vəhy ilə mələkləri qullarından istədiyinə endirər.
3. Allah göyləri və yeri haqq və hikmətə uyğun olaraq yaratdı. O, müşriklərin şərik qoşduqları şeylərdən ucadır.
4. İnsanı nütfədən (bir damla sudan) yaratdı. Bununla belə, görərsən ki, o, Rəbbinə qarşı açıq-aşkar düşmən kəsilib.
5. Heyvanları da yaratdı. Onlarda sizin üçün bir istilik və bir çox faydalar var. Həm də onlardan yeyirsiniz.
6. Onları axşam vaxtı gətirərkən, səhər vaxtı göndərərkən də sizin üçün bir gözəllik (və zövq) var.
7. Onlar yüklərinizi sizin böyük çətinliklə gedə biləcəyiniz yerlərə daşıyırlar. Həqiqətən, Rəbbiniz çox şəfqətlidir, çox mərhəmətlidir.
8. Həm minməyiniz üçün, həm də zinət olaraq atları, qatırları və uzunqulaqları da yaratdı. Bilə bilməyəcəyiniz neçə-neçə şeylər də yaradır.
9. Doğru yolu göstərmək Allaha aiddir. Yolun əyri olanı da var.[1] Allah istəsəydi, hamınızı doğru yola yönəldərdi.
10. O, göylərdən sizin üçün su endirəndir. İçilən su ondandır. Heyvanlarınızı otlatdığınız bitkilər də onunla meydana gəlir.
11. Allah o su ilə sizə əkin, zeytun, xurma ağacları, üzümlər və bütün meyvələrdən yetişdirir. Həqiqətən, düşünən bir qövm üçün bunda bir ibrət var.
12. O, gecəni, gündüzü, günəşi və ayı sizin xidmətinizə verdi. Bütün ulduzlar da Onun əmri ilə sizin xidmətinizə verilmişdir. Şübhəsiz, düşünən bir millət üçün bunda ibrətlər var.

1 Ayənin bu cümləsi "Bu doğru yoldan sapanlar da var" şəklində də tərcümə edilə bilər.

13. Sizin üçün yer üzündə müxtəlif rəng və surətlərdə yaratdığı şeyləri də sizin xidmətinizə verdi. Öyüd götürən bir toplum üçün bunda ibrətlər var.

14. O, təzə ət yeməyiniz və taxdığınız bəzək əşyalarını çıxartmağınız üçün dənizi sizin xidmətinizə verəndir. Gəmilərin orada suyu yara-yara getdiyini görərsən. (Bütün bunlar) Onun lütfündən nəsibinizi axtarmanız və şükür etməniz üçündür.

15, 16. Sizi sarsıtmasın deyə yer üzündə möhkəm dağlar, yolunuzu tapasınız deyə də çaylar, yollar və neçə-neçə işarələr meydana gətirdi. İnsanlar ulduzlarla da yollarını tapırlar.

17. Elə isə yaradan yarada bilməyənlə bir olarmı? Heç düşünmürsünüzmü?

18. Halbuki Allahın nemətini saymaq istəsəniz, saya bilməzsiniz. Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

19. Allah gizlədiyinizi də, aşkara vurduğunuzu da bilir.

20. Allahı buraxıb tapındıqları şeylər (özləri) məxluq olduqlarına görə heç bir şey yarada bilməzlər.

21. Onlar diri olmayan cansız varlıqlardır. Nə vaxt diriləcəklərinin də fərqində olmazlar.

22. Sizin ilahınız tək bir ilahdır. Axirətə inanmayanların qəlbləri bunu inkar edir, özləri isə təkəbbür göstərirlər.

23. Şübhə yoxdur ki, Allah onların gizlədiklərini də, aşkara vurduqlarını da bilir. O, təkəbbür göstərənləri qətiyyən sevməz.

24. Onlara: “Rəbbiniz nə endirdi?” – deyildikdə, “Əvvəlkilərin nağılları”, – dedilər.

25. Beləliklə, qiyamət günündə öz günahlarını tamamilə, elmsizliklə zəlalətə saldıqları kimsələrin günahlarının da bir qismini yüklənərlər. Diqqət edin, (görün) yükləndikləri yük necə də pisdir.

26. Onlardan əvvəlkilər də hiylə qurmuşdular. Allahın əzabı onların binalarını təməlindən yıxdı, tavanları başlarına çökdü və əzab onlara fərqində olmadıqları yerdən gəldi.[1]

27. Sonra qiyamət günü Allah onları rüsvay edəcək və deyəcək ki: “Uğrunda mücadilə etdiyiniz şəriklərim haradadır?” Elm verilənlər isə belə deyərlər: “Bu gün rüsvayçılıq, zəlillik və pislik kafirlərədir”.

28. O kafirlər nəfslərinə zülm edərkən mələklər onların canlarını alar, onlar da təslim olub: “Biz heç bir pislik etmirdik”, – deyərlər. (Mələklər isə belə deyəcəklər:) “Xeyr! Allah sizin etdiklərinizi haqqı ilə bilir”.

29. “Haydı, içində əbədi qalacağınız cəhənnəmin qapılarından girin. Təkəbbür göstərənlərin yeri necə də pisdir!”

1 Təfsir mənbələrinə görə, həzrət Peyğəmbər dövründəki müşriklərdən əvvəlki iman əleyhdarları da öz dövrlərindəki peyğəmbərlərə tabe olmaq istəyənləri yoldan yayındırmaq üçün müxtəlif vasitələrə əl atırdılar. Bu vasitələrdən biri də öz sapqın iddialarına əsasən göydəki varlıqlar ilə savaşmaq məqsədilə yüksək bir bina inşa etmələri idi. Bu təşəbbüsə əl atan şəxsin nəbtilərdən zalım bir lider, həzrət İbrahim dövründə yaşamış Akkad kralı Nəmrud və ya Babil kralı Buxtunnəsr olduğu bildirilmişdir.

30. Allaha qarşı gəlməkdən çəkinənlərə: "Rəbbiniz nə endirdi?" – deyildikdə, "Xeyir endirdi", – deyərlər. Bu dünyada yaxşılıq edənlərə bir yaxşılıq var. Axirət yurdu isə daha xeyirlidir. Allaha qarşı gəlməkdən çəkinənlərin yurdu necə də gözəldir!

31. İçindən çaylar axan Ədn cənnətlərinə daxil olacaqlar. Onlar üçün orada istədikləri hər şey var. Allah özünə qarşı gəlməkdən çəkinənləri belə mükafatlandırır.

32. Mələklər onların canlarını yaxşı kimsələr olaraq alarkən: "Salam olsun sizə! Etdiyiniz yaxşı əməllərə görə cənnətə daxil olun!" – deyərlər.

33. (O kafirlər) özlərinə ancaq mələklərin yaxud sənin Rəbbinin həlak əmrinin gəlməsini gözləyirlər. Onlardan əvvəlkilər də belə etmişdilər. Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər.

34. Bu səbəblə də etdikləri pisliklərin cəzası onlara yetişdi və istehza etdikləri şey onları yaxaladı.

35. Allaha şərik qoşanlar dedilər ki: "Allah istəsəydi, nə biz, nə də atalarımız Ondan başqa bir şeyə tapınmaz, Onun əmri olmadan heç bir şeyi haram (qəbul) etməzdik". Onlardan əvvəlkilər də belə etmişdi. Peyğəmbərlərin öhdəsinə düşən sadəcə açıq-aşkar təbliğdir.

36. And olsun, biz hər ümmətə "Allaha qulluq edin, tağutdan[1] uzaq durun" deyə peyğəmbər göndərdik. Allah onlardan kimini doğru yola yönəltdi, kiminə də (öz seçimləri səbəbi ilə) zəlalət haqq oldu. İndi yer üzündə dolaşın, peyğəmbərləri təkzib edənlərin aqibətinin necə olduğunu görün.

37. Sən onların doğru yola yönəlmələri üçün var gücünlə çalışsan da, Allah sapdırdığı kimsəni doğru yola yönəltməz. Onlara yardım edənlər də olmaz.

38. Onlar: "Allah ölən bir kimsəni diriltməz", – deyə Allaha möhkəm bir and içdilər. Xeyr, dirildəcək. Bu, elə bir vəddir ki, onun yerinə yetirilməsini Allah öz öhdəsinə götürmüşdür. Lakin insanların çoxu bilməzlər.

39. (Dirildəcək ki,) ixtilafa düşdükləri şeyi onlara bəyan etsin və kafir olanlar da özlərinin yalançı olduqlarını bilsinlər!

40. Biz bir şeyin olmasını istədiyimiz zaman ona sözümüz sadəcə "Ol!" deməyimizdir. O da dərhal olar.

41. Zülmə məruz qaldıqdan sonra Allah yolunda hicrət edənlərə gəlincə, onları dünyada gözəl bir şəkildə yerləşdirərik. Axirət mükafatı isə daha böyükdür. Kaş biləydilər.

42. Onlar səbir edən və yalnız Rəblərinə təvəkkül edən kimsələrdir.

43. Səndən əvvəl də ancaq vəhy etdiyimiz bəzi kişiləri peyğəmbər olaraq göndərdik. Əgər bilmirsinizsə, elm əhlindən soruşun.[2]

44. (O peyğəmbərləri) açıq-aydın dəlillər və kitablarla göndərdik. Sənə bu Qur`anı nazil etdik ki, insanlara özlərinə endiriləni açıqlayasan və onlar da (onun haqqında) düşünsünlər.

---

1 Tağut ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/256.

2 Ayənin son cümləsi "Bilmirsinizsə, Kitab əhlindən soruşun" şəklində də tərcümə edilə bilər.

45. Pis işlər görmək üçün hiylə quranlar Allahın onları yerə batırmayacağından və ya (qəflətən) bilməyəcəkləri bir yerdən onlara əzabın gəlməyəcəyindən əmin oldular?

46. Yaxud onlar gəzib dolaşarkən Allahın onları yaxalamayacağından əmin oldular? Onlar Allahı aciz qoya bilməzlər.

47. Yaxud qorxu içində ikən onları yaxalamayacağından əmindirlərmi? Şübhəsiz, Rəbbiniz çox şəfqətli, çox mərhəmətlidir.

48. Allahın yaratdığı şeyləri görmürlərmi? Onların kölgələri Allaha səcdə edərək və təvazökarlıqla boyun əyərək sağa və sola dönürlər.

49. Göylərdə və yerdə olan canlılar və mələklər təkəbbürə düşmədən Allaha səcdə edirlər (boyun əyirlər).

50. Üstlərində hakim və üstün olan Rəblərindən qorxurlar və özlərinə əmr olunanları edirlər.

51. Allah belə dedi: "İki ilah tutmayın. O, yalnız tək ilahdır. Elə isə yalnız məndən qorxun".

52. Göylərdəki və yerdəki hər şey Onundur. İtaət də daim Ona olmalıdır. Elə isə siz Allahdan başqasındanmı qorxursunuz?

53. Sizə çatan hər nemət Allahdandır. Sonra sizə bir müsibət üz verdiyi zaman yalnız Ona yalvarıb-yaxarırsınız.

54. Sonra o müsibəti sizdən uzaqlaşdırdığı zaman bir də görərsiniz ki, aranızdan bir qismi Rəblərinə şərik qoşur.

55. Özlərinə verdiyimiz nemətlərə nankorluq etmək üçün belə edirlər. Hələ ki, bir az da səfa sürün. Yaxın zamanda biləcəksiniz.

56. Üstəlik onlara ruzi olaraq verdiklərimizdən (mahiyyətini) bilmədikləri şeylərə (bütlərə) pay ayırırlar. Allaha and olsun ki, uydurduğunuz şeylərə görə mütləq sorğu-suala çəkiləcəksiniz.

57. Onlar qızları Allaha isnad edirlər – ki, O, bundan uzaqdır – özlərinə isə öz ürəklərindən keçəni.

58. Onlardan biri qız (övlad) ilə müjdələndiyi zaman içi qəzəblə dolaraq üzü qapqara qaralar.

59. Ona verilən pis müjdə (!) səbəbi ilə camaatdan gizlənər. İndi utanc içində onu saxlayacaq, yoxsa torpağa göməcək? Gör necə də pis hökm verirlər.

60. Pis sifətlər axirətə iman etməyənlərə aiddir. Ən uca sifətlər isə Allahındır. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

61. Əgər Allah insanları zülmləri səbəbi ilə dərhal cəzalandırsaydı, yer üzündə heç bir canlını (sağ) buraxmazdı. Lakin onlara müəyyən bir zamana qədər vaxt verir. Əcəlləri gəlib çatdıqda isə nə bir an geri qala bilərlər, nə də irəli keçə bilərlər.

62. Özlərinin bəyənmədiklərini Allaha isnad edirlər. Dilləri də yalan uydurur ki, guya ən gözəl aqibət onlarındır. Heç şübhə yoxdur ki, onlar üçün cəhənnəm var və onlar oraya ən öndə daxil ediləcəklər.

63. Allaha and olsun ki, səndən əvvəlki ümmətlərə peyğəmbərlər göndərdik. Lakin şeytan onlara əməllərini gözəl göstərdi. O, bu gün də onların dostudur və onlar üçün ağrılı-acılı bir əzab var.

64. Biz kitabı sənə məhz ona görə endirdik ki, ixtilafda olduqları məsələləri onlara açıqlayasan və (o Qur`an) iman edən bir toplum üçün hidayət və rəhmət olsun.

65. Allah göydən su endirdi, onunla yer üzünü ölümündən sonra diriltdi. Şübhəsiz, eşidən bir toplum üçün bunda bir ibrət var.

66. Şübhəsiz, (sağmal) heyvanlarda da sizin üçün bir ibrət var. Biz sizə onların qarınlarındakı ifrazat ilə qan arasından (süzülən), içənlərə xalis və rahat gələn süd içirdirik.

67. Xurma ağaclarının meyvələrindən və üzümlərdən həm içki, həm də gözəl bir ruzi əldə edirsiniz. Əlbəttə, düşünən bir toplum üçün bunda bir ibrət var.

68. Rəbbin bal arısına belə ilham etdi: “Dağlarda, ağaclarda və insanların qurduqları çardaqlarda özünə evlər düzəlt”.

69. “Sonra bütün meyvələrdən ye, Rəbbinin sənin üçün asanlaşdırdığı yollarla get”. Onların qarınlarından müxtəlif rənglərdə bal çıxar. Onda insanlar üçün şəfa var. Şübhəsiz, bunda düşünən bir toplum üçün bir ibrət var.

70. Allah sizi yaratdı. Sonra sizi öldürəcək. Aranızdan kimiləri də bilikli olduqdan sonra heç bir şey bilməsin deyə ömrünün ən düşkün çağına çatdırılır. Şübhəsiz, Allah haqqı ilə biləndir, (hər şeyə) haqqı ilə qadirdir.

71. Allah ruzi barəsində bəzinizi bəzinizdən üstün etdi. Üstün olanlar ruzilərini əllərinin altındakılara verməzlər ki, ruzi baxımından bərabər olsunlar. İndi Allahın nemətinimi inkar edirlər?

72. Allah sizə öz cinsinizdən zövcələr yaratdı. Zövcələrinizdən də oğullar, nəvələr verdi və sizə təmiz şeylərdən ruzi verdi. Belə olduqda, onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?

73. Allahı qoyub özlərinə göylərdən və yerdən heç bir ruzi verməyən və buna gücü də çatmayan şeylərə tapınırlar.

74. Artıq Allaha (Onun şanına yaraşmayan) bənzətmələr uydurmayın. Çünki Allah bilir, siz bilməzsiniz.

75. Allah heç bir şeyə gücü çatmayan və başqasının malı olan bir kölə ilə verdiyimiz gözəl ruzidən gizli və aşkar olaraq Allah yolunda xərcləyən kimsəni misal gətirir. Bunlar heç eyni olarmı? Həmd Allaha məxsusdur, lakin onların çoxu bilməzlər.

76. Allah (bu) iki adamı da misal çəkdi: Onlardan biri dilsizdir, heç bir şeyə gücü çatmaz, ağasına sadəcə bir yükdür. Onu hara göndərsə, xeyir gətirməz. Bu (adam) heç ədalətlə əmr edən və doğru yolda olan kimsə ilə eyni olarmı?

77. Göylərin və yerin qeybi Allaha aiddir. Qiyamətin qopması bir göz qırpımı kimi və ya daha tezdir. Şübhəsiz, Allah hər şeyə haqqı ilə gücü yetəndir.

78. Allah sizi analarınızın qarnından heç bir şey bilmədiyiniz halda çıxardı. Şükür edəsiniz deyə sizə qulaqlar, gözlər və qəlblər verdi.

79. Göy üzündə Allahın əmrinə boyun əyərək uçan quşları görmürlərmi? Onları göydə yalnız Allah saxlayır. Şübhəsiz, bunda inanan bir toplum üçün ibrətlər var.

80. Allah sizin üçün evlərinizi hüzur və dincəlmə yeri etdi. Heyvanların dərilərindən istər köç gününüzdə, istərsə də bir yerdə qaldığınız günlərdə asanlıqla daşıyacağınız evlər, onların yunlarından, tüklərindən və qıllarından müəyyən bir vaxta qədər faydalanacağınız ev əşyası və mal yaratdı.

81. Allah yaratdıqlarından sizin üçün kölgələr meydana gətirdi və dağlarda da sizin üçün sığınacaqlar əmələ gətirdi. Sizi istidən qoruyacaq paltarlar və savaşda sizi qoruyacaq zirehlər verdi. Müsəlman olasınız deyə Allah sizə nemətini belə tamamlayır.

82. Ey Muhamməd! Əgər üz döndərsələr, daha sənin öhdənə düşən sadəcə açıq-aşkar bir təbliğdir.

83. Onlar Allahın nemətini bilir, sonra da inkar edirlər. Onların çoxu kafirdir.

84. Qiyamət günü hər ümmətdən bir şahid göndərəcəyik. Sonra inkar edənlərə nə (üzrxahlıq etmək üçün) izin veriləcək, nə də Allahın razı qalacağı işlər görməklə bağlı istəkləri qəbul ediləcək.

85. O zalımlar əzabı gördükləri zaman daha onların əzabı yüngülləşdirilməz və onlara möhlət də verilməz.

86. Müşriklər (qoşduqları) şəriklərini gördükləri zaman deyəcəklər ki: "Rəbbimiz! Bunlar səni buraxıb tapındığımız şəriklərimizdir". Qoşduqları şəriklər isə onlara: "Siz həqiqətən, yalançılarsınız", – deyə söz atacaqlar.

87. Onlar o gün Allaha təslim olarlar və uydurduqları şeylər isə onları darda qoyub yox olarlar.

88. Törətdikləri fitnə-fəsada görə inkar edən və insanları Allahın yolundan yayındıranların əzablarının üstünə əzab artırarıq.

89. (Ey Muhamməd!) Hər ümmətə özlərindən bir şahid göndərəcəyimiz, səni də onlara bir şahid olaraq gətirəcəyimiz günü düşün. Biz sənə bu kitabı hər şey üçün bir izah, doğru yolu göstərən bir bələdçi, bir rəhmət və müsəlmanlar üçün bir müjdə olaraq endirdik.[1]

90. Şübhəsiz, Allah ədaləti, yaxşılıq etməyi, yaxınlara yardım etməyi əmr edir, həyasızlığı və azğınlığı da qadağan edir. O, düşünüb əməl edəsiniz deyə sizə öyüd verir.

91. Əhd bağladığınız zaman Allaha qarşı verdiyiniz sözü yerinə yetirin. Allahı özünüzə kəfil tutaraq möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Şübhəsiz, Allah etdiklərinizi bilir.

92. Bir ümmət digər bir ümmətdən daha (güclü və) çoxdur deyə andlarınızı öz ara-

---

1 "Şahid" sözü məlum olan mənasından başqa "təmsil edən", "özündə göstərən" mənalarına da gəlir. Bir peyğəmbər və haqq din göndərilmiş ümmətlərin qiyamətdə şahid və təmsilçiləri öz peyğəmbərləri olacaq. Qiyamətdə Allah bütün ümmətləri məhşərdə toplayacaq, onları hesaba çəkəcək və peyğəmbərlərini də dünya həyatında haqq və həqiqəti onlara çatdırdıqlarına dair şahid tutacaq. Gözəl əxlaqı tamamlamaq üçün göndərilən və digər bütün haqq dinlərin ortaq xüsusiyyətlərini təbliğ edən axır zaman peyğəmbəri olaraq həzrət Muhamməd (s.ə.s.) də bütün peyğəmbərlərin şahid və təmsilçisi olacaq.

nızda bir hiylə və fitnə-fəsada çevirərək, ipliyi möhkəm əyirdikdən sonra (yenidən) açıb-sökən qadın kimi olmayın. Allah bununla sizi ancaq sınayır. Haqqında ixtilaf etdiyiniz şeyləri qiyamət günü sizə, əlbəttə, açıqlayacaq.

93. Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin o, istədiyini azdırar, istədiyini də doğru yola yönəldər. Etdiyiniz əməllərə görə mütləq sorğu-suala çəkiləcəksiniz.[1]

94. Andlarınızı aranızda hiylə və fitnə-fəsad səbəbi etməyin. Yoxsa sabitqədəm olduqdan sonra ayağınız sürüşər, Allahın yolundan azdığınıza görə pis əzabı dadarsınız. (Axirətdə də) sizin üçün böyük bir əzab olar.

95. Allaha verdiyiniz sözü ucuza satmayın. Əgər bilirsinizsə, şübhəsiz, Allah qatında olan sizin üçün daha xeyirlidir.

96. Sizin yanınızda olan tükənər, Allah qatında olan isə qalıcıdır. Əlbəttə, səbir edənləri etdikləri əməllərin ən gözəli ilə mükafatlandıracağıq.

97. İstər kişi olsun, istər qadın kim mömin olaraq saleh əməl işlərsə, əlbəttə, ona xoş bir həyat yaşadacağıq və onları etdikləri əməllərin ən gözəli ilə mükafatlandıracağıq.

98. Qur`an oxuduğun zaman qovulmuş şeytandan Allaha sığın.[2]

99. Həqiqət budur ki, iman edən və yalnız Rəblərinə təvəkkül edən kimsələr üzərində şeytanın bir hakimiyyəti yoxdur.

100. Şeytanın hakimiyyəti yalnız, onu dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir.

101. Biz bir ayəni dəyişdirib yerinə başqa bir ayə gətirdiyimiz zaman – ki, Allah nəyi nazil edəcəyini çox yaxşı bilir – onlar Peyğəmbərə: “Sən ancaq yalan uydurursan”, – deyərlər. Xeyr, onların çoxu bilməzlər.

102. Ey Muhamməd! De ki: “Qur`anı Ruhul-Qüds (Cəbrail) iman edənlərin imanını qüvvətləndirmək, müsəlmanlara doğru yolu göstərmək və onlara bir müjdə olması üçün haqq olaraq endirdi”.

103. And olsun ki, biz onların: “Qur`anı ona bir insan öyrədir”, – dediklərini bilirik. Onların nəzərdə tutduqları kimsənin dili yabançıdır. Bu Qur`an isə açıq-aydın ərəbcədir.[3]

1 “Allahın istədiyini sapdırması, istədiyinə də hidayət verməsi” prinsip olaraq Allahın mütləq qüdrətini və etdikləri barədə heç kimə hesab verməyəcəyini bildirir. Ancaq bu xüsusiyyətə sahib olmaqla yanaşı Allah ədalət və hikmətinə əsasən hər kəsin azad iradə ilə seçdiyi əməlləri yaradır və onları bu əməllərinə dəyərləndirir.

Bu mövzu ilə əlaqəli olaraq Bəqərə surəsinin 26-cı ayəsinin istinadına baxın.

2 Ayədə bildirilən Allaha sığınma “Əuzu-billəhi-minəş-şeytanir-racim” deyərək edilir. “Qovulmuş şeytandan Allaha sığınıram” deməkdir.

3 Müşriklər Qur`anın Allah tərəfindən endirildiyini inkar edir və oxumağı yazmağı bacarmayan həzrət Peyğəmbərin son dərəcə yüksək ədəbi xüsusiyyətlərə malik olan Qur`anı özünün yazmasını da istisna edirdilər. Onu ərəb olmayan birindən öyrənmiş ola biləcəyini iddia edirdilər. Bu ayədə onların bu iddialarına cavab verilir.

104. Allahın ayələrinə inanmayanları Allah, əlbəttə, doğru yola yönəltməz. Onlar üçün ağrılı-acılı bir əzab var.

105. Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydurar. Onlar əsl yalançılardır.

106. Qəlbi imanla dolu olduğu halda məcburiyyət qarşısında qalan kimsə istisna olmaqla inandıqdan sonra Allahı inkar edən və beləliklə, qəlbini küfrə açanlara Allahdan qəzəb enər və onlar üçün böyük bir əzab var.

107. Bu, onların dünya həyatını sevib onu axirətdən üstün tutmaları və Allahın kafirlər qövmünü əsla doğru yola yönəltməyəcəyi səbəbi ilədir.

108. Onlar qəlblərini, qulaqlarını və gözlərini Allahın möhürlədiyi kimsələrdir. Onlar əsl qafillərdir.

109. Heç şübhəsiz, onlar həm də axirətdə ziyana uğrayanlardır.

110. Sonra şübhəsiz ki, Rəbbin əziyyətə məruz qaldıqdan sonra hicrət edən, sonra Allah yolunda cihad edib səbir edənlərin yanındadır. Şübhəsiz, Rəbbin bundan sonra da çox bağışlayandır, çox mərhəmət edəndir.

111. Hər kəsin öz nəfsi üçün mücadilə edərək gələcəyi, özlərinə zülm edilmədən hər kəsə etdiyinin əvəzinin tam olaraq ödənəcəyi günü düşün.

112. Allah belə bir məmləkəti misal çəkdi: Ora əmin-amanlıq və hüzur içində idi. Oraya hər tərəfdən bol-bol ruzi gəlirdi. Lakin Allahın nemətlərinə nankorluq etdilər. Buna görə də etdiklərinin əvəzi olaraq Allah onlara şiddətli aclıq və qorxu iztirabını daddırdı.

113. And olsun, onlara aralarından bir peyğəmbər gəldi, onu yalançı saydılar. Beləliklə, əzab onları zülm edərkən yaxaladı.

114. Artıq Allahın sizə halal və təmiz olaraq verdiyi ruzilərdən yeyin. Əgər yalnız ona ibadət edirsinizsə, Allahın nemətinə şükür edin.

115. Allah sizə ancaq leşi, qanı, donuz ətini və Allahdan başqasının adına kəsiləni haram buyurdu. Ancaq kim məcbur olub istismar etmədən və zərurət miqdarını aşmadan yemək məcburiyyətində qalarsa, şübhəsiz ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.[1]

116. Dillərinizin yalana vərdiş etməsindən dolayı Allaha qarşı yalan uydurmaq üçün "Bu halaldır", "Bu haramdır" deməyin. Şübhəsiz, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.

117. (Onların dünyada əldə etdikləri) az mənfəətdir. Halbuki (axirətdə) onlar üçün ağrılı-acılı bir əzab var.

118. Daha əvvəl sənə danışdıqlarımızı yəhudilərə də haram buyurmuşduq. Biz (bununla) onlara zülm etmədik, lakin onlar özləri özlərinə zülm edirdilər.

119. Sonra şübhəsiz ki, Rəbbin cahillik səbəbi ilə pis iş görən, sonra bunun ardından tövbə edən və özünü düzəldənlərin yanındadır. Şübhəsiz, Rəbbin bundan sonra da, əlbəttə, çox bağışlayandır, çox mərhəmət edəndir.[2]

1 Yeyilməsi qadağan olunan şeylər haqqında əlavə olaraq baxın: Bəqərə, 2/173.

2 Tövbə ilə əlaqəli olaraq baxın: Nisa, 4/17-18.

120. Həqiqətən, İbrahim Allaha itaət edən, haqqa yönələn bir öndər idi. Allaha şərik qoşanlardan deyildi.

121. Onun nemətlərinə şükür edən bir öndər idi. Allah onu seçmiş və doğru yola yönəltmişdi.

122. Biz ona dünyada yaxşılıq nəsib etdik. Şübhəsiz, o, axirətdə də salehlərdəndir.

123. Sonra da sənə: "Haqqa yönələn İbrahimin dininə tabe ol. O, Allaha şərik qoşanlardan deyildi", – deyə vəhy etdik.

124. Şənbə gününə ehtiram ancaq onda ixtilafa düşənlərə fərz buyuruldu. Şübhəsiz, Rəbbin ixtilafa düşdükləri şeylər barəsində qiyamət günü aralarında hökm verəcək.

125. (Ey Muhamməd!) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl şəkildə mücadilə et. Şübhəsiz, sənin Rəbbin öz yolundan azanları ən yaxşı biləndir. O, doğru yolda olanları da ən yaxşı biləndir.

126. Əgər cəza verəcəksinizsə, sizə edilənin eynisi ilə cəzalandırın. Əgər səbir etsəniz, əlbəttə, bu, səbir edənlər üçün daha xeyirlidir.

127. Səbir et! Sənin səbrin ancaq Allahın yardımı ilədir. Onlara görə məyus olma. Hiylə qurduqlarına görə də ürəyini sıxma.

128. Şübhəsiz, Allah Ona qarşı gəlməkdən çəkinənlər və yaxşı işlər görənlərlədir.

## 17. İSRA SURƏSİ

Surənin 26, 32, 33, 57 və 73-80-ci ayələri Mədinə dövründə, digər ayələri isə Məkkə dövründə nazil olmuşdur. 111 ayədən ibarətdir. Surənin adı birinci ayənin mövzusu olan İsra hadisəsindən götürülmüşdür. "Gecə vaxtı yol getmək" mənasında gələn isra Merac səfərində həzrət Peyğəmbərin bir gecə Məkkədən Qüdsə aparılmasını ifadə edir. Surənin digər bir adı isə "Bəni İsrail surəsi"dir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ayələrimizdən bir qismini Ona göstərək deyə qulunu (Muhammədi) bir gecə Məscidi-Haramdan ətrafını bərəkətləndirdiyimiz Məscidi-Əqsaya aparan Allahın şanı ucadır. Heç şübhəsiz, O, haqqı ilə eşidəndir, haqqı ilə görəndir.[1]

2. Musaya Kitabı (Tövratı) verdik və "Məndən başqasını vəkil tutmayın" deyərək onu İsrail oğullarına bir hidayət bələdçisi təyin etdik.

1 İsra və Merac Peyğəmbərimizin möcüzələrindəndir. Hicrətdən təqribən bir il yarım əvvəl baş vermişdir. Həzrət Peyğəmbər bir gecə Kəbənin ətrafında yuxu ilə oyanıqlıq arası bir halda ikən Cəbrail gəlmiş, onu Buraq adlı –bizə görə mahiyyəti bilinməyən – bir miniyə mindirərək əvvəlcə Qüdsdəki Məscidi-Əqsaya aparmış, oradan da göylərə yüksəltmiş "Sidreyi-müntəha" deyilən ən üst məqama çatdırmışdır. Həzrət Peyğəmbər bu məqamı da keçərək Allah-Təalanın hüzuruna varmışdır. Möcüzələr təbiət qanunlarının xaricində baş verən fövqəladə hadisələrdir. Bu səbəblə də onları rasional ölçülər daxilində qiymətləndirmək doğru olmaz.

3. Ey Nuh ilə birlikdə (gəmidə) daşıdığımız kimsələrin övladları! Həqiqətən, o, çox şükür edən bir qul idi.

4. Biz Kitabda (Tövratda) İsrail oğullarına: "Yer üzündə iki dəfə fitnə-fəsad törədəcək və böyük bir kibrə qapılacaqsınız", – deyə hökm verdik.

5. Nəhayət, bu iki fitnə-fəsaddan birincisinin vaxtı gələndə (sizi cəzalandırmaq üçün) üstünüzə çox güclü olan bəzi qullarımızı göndərdik. Onlar evlərinizin arasına qədər girdilər. Bu, yerinə yetirilməli olan bir vəd idi.

6. Sonra onlara qarşı sizə yenidən üstünlük verdik. Mallar və övladlarla sizi gücləndirdik. Sayınızı daha da çoxaltdıq.

7. Yaxşılıq etsəniz, özünüzə etmiş olarsınız, pislik etsəniz, yenə özünüzə etmiş olarsınız. İkinci fitnə-fəsadın vaxtı gəldikdə üzünüzü qara etsinlər, daha əvvəl girdikləri kimi yenə məscidə (Beyti-Məqdisə) girsinlər və əllərinə keçirdikləri hər şeyi yerlə bir etsinlər deyə (üstünüzə yenə düşmənlərinizi göndərdik).

8. Bəlkə, Rəbbiniz sizə mərhəmət edər. Əgər siz əvvəlki halınıza qayıtsanız, biz də (sizi cəzalandırmağa) qayıdarıq. Biz cəhənnəmi kafirlər üçün bir zindan etmişik.

9, 10. Həqiqətən, bu Qur`an ən doğru yola yönəldir və saleh işlər görən möminlər üçün böyük bir mükafat olduğunu və axirətə inanmayanlar üçün də ağrılı-acılı bir əzab hazırladığımızı müjdələyir.

11. İnsan xeyrə dua edir kimi şərə dua edər. İnsan çox tələskəndir.

12. Biz gecəni və gündüzü (qüdrətimizi göstərən) iki əlamət olaraq yaratdıq. Rəbbinizdən lütf istəyəsiniz deyə, illərin sayını və hesabı biləsiniz deyə gecə əlamətini aradan qaldırıb gündüzün işıqlandırıcı əlamətini gətirdik. Biz hər şeyi təfsilatı ilə açıqladıq.

13. Hər insanın əməlini boynuna yüklədik.[1] Qiyamət günü onun qarşısına açıq bir kitab çıxaracağıq.

14. "Kitabını oxu! Bu gün haqq-hesaba çəkən olaraq öz nəfsin sənə yetər", – deyiləcək.

15. Kim doğru yola yönəlmişsə, yalnız özü üçün yönəlmişdir. Kim də doğru yoldan azmışsa, öz əleyhinə azmışdır. Heç bir günahkar başqa bir günahkarın günah yükünü yüklənməz. Biz bir peyğəmbər göndərmədikcə əzab edən deyilik.[2]

16. Biz bir məmləkəti həlak etmək istədiyimiz zaman onun naz-nemət içində yaşayan lovğa başçılarına (itaət etməyi) əmr edərik,[3] amma onlar orada fitnə-fəsad törətməklə məşğul olarlar. Beləliklə, o məmləkət haqqındakı hökmümüz gerçəkləşər, oranı yerlə yeksan edərik.

17. Nuhdan sonra da neçə-neçə nəsilləri həlak etdik. Qullarının günahlarını bilən və görən olaraq Rəbbin yetər.

---

1 Yəni hər insan işlədiyi əmələ görə məsuliyyət daşıyır.

2 Ayə "İsa insanların günahını yüklənmiş və bu günahın cəzasını qanı ilə ödəmişdir" şəklindəki xristian inancının yanlış olduğunu ifadə edir. Ayədə həmçinin günahın şəxsiliyinə də işarə edilir.

3 Ayənin bu qismi "... lovğa öndərləri onlara başçı təyin edərik..." şəklində də tərcümə oluna bilər.

18. Kim bu fani dünyanı istərsə, orada istədiyimizi istədiyimiz kəsə tezliklə verərik. Sonra da cəhənnəmi ona məskən edərik. O, buraya qınanmış və Allahın rəhmətindən qovulmuş olaraq girər.

19. Kim də mömin olaraq axirəti istər və ona çatmaq üçün lazımınca səy göstərərsə, onlara səylərinin qarşılığı verilər.

20. Rəbbinin lütfündən hər birinə – onlara da, bunlara da verərik. Rəbbinin lütfü (heç kimə) qadağan deyil.

21. Bax gör, onların bəzisini bəzisindən necə üstün tutduq. Əlbəttə, axirətdəki dərəcələr daha böyükdür, üstünlüklər daha böyükdür.

22. Allahla yanaşı başqa bir tanrı tutma, yoxsa qınanmış və yalnızlığa atılmış olaraq qalarsan.

23. Rəbbin özündən başqasına əsla ibadət etməməyinizi, ata-anaya qarşı yaxşılıq etməyinizi əmr etdi. Əgər onlardan biri və ya hər ikisi sənin yanında ixtiyarlıq çağına yetişərsə, onlara “uf!” belə demə, onları danlama, onlara xoş və gözəl söz söylə.

24. Onlara mərhəmət edərək təvazö qanadının altına al və de ki: “Rəbbim! Körpə ikən məni qoruyub yetişdirdikləri kimi sən də onlara mərhəmət et”.

25. Rəbbiniz qəlbinizdə olanı ən yaxşı biləndir. Əgər siz saleh kəslər olsanız, bunu yaxşı bilin ki, Allah tövbəyə yönələnləri çox bağışlayandır.

26. Qohum-əqrəbaya, yoxsula və yolda qalmış yolçuya haqlarını ver, lakin səpib dağıtma.

27. Çünki səpib dağıdanlar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı çox nankorluq etmişdir.

28. Əgər Rəbbindən ümidlə gözlədiyin bir rəhməti istəmək üçün onlardan üz döndərməli olsan, o zaman onlara yumşaq bir söz söylə.[1]

29. Əli bağlı olma, tamamilə əli açıq da olma. Yoxsa qınanar və çarəsiz qalarsan.[2]

30. Şübhəsiz, Rəbbin istədiyinə ruzini bol-bol verər və (istədiyindən də) azaldar. Çünki O, həqiqətən, qullarından xəbərdardır və onları görür.

31. Yoxsulluq qorxusu ilə övladlarınızı öldürməyin. Onlara da, sizə də ruzini biz veririk. Onları öldürmək, həqiqətən, böyük bir günahdır.

32. Zinaya yaxınlaşmayın. Çünki o, son dərəcə çirkin bir işdir və çox pis bir yoldur.

33. Haqlı bir səbəb olmadıqca Allahın öldürülməsini haram buyurduğu cana qıymayın. Kim haqsız yerə öldürülərsə, biz onun vəlisinə ixtiyar vermişik. Ancaq o da (qisas yolu ilə) öldürmədə həddi aşmasın. Çünki ona yardım edilmişdir.

---

1 Yoxsul səhabələr həzrət Peyğəmbərin yardımı ilə dolanırdılar. Rəsulullah bəzən onlara verəcək bir şey olmadığına görə çox məyus olar, utandığı üçün üzünü başqa tərəfə çevirərdi. Bu ayədə həzrət Peyğəmbərə, onlara verəcək bir şey olmadığı zaman, heç olmasa yumşaq sözlərlə təsəlli verməli olduğu xatırladılmışdır.

2 Bu ayə ümumiyyətlə hərfi mənada “Əlini boynuna bağlama, onu tamamilə də açma” şəklində də tərcümə olunur. “Əlini boynuna bağlamaq” və “Əlini tamamilə açmaq” Ərəb dilində “xəsislik etmək” və “israfçılıq etmək” mənalarına gələn iki ifadədir. Biz ayəni sözbəsöz tərcümə etmək əvəzinə dilimizdə bu mənalara gələn iki ifadə ilə tərcümə etməyi münasib gördük.

34. Yetkinlik yaşına çatana qədər yetimin malına, ancaq ən gözəl şəkildə yanaşın, verdiyiniz sözü də yerinə yetirin. Çünki söz (verən verdiyi sözə görə) cavabdehdir.

35. Ölçdüyünüz zaman ölçüdə düz olun, doğru tərəzi ilə çəkin. Bu, daha xeyirli, nəticə etibarilə də daha gözəldir.

36. Bilmədiyin şeyin ardına düşmə. Çünki qulaq, göz və qəlb – bunların hamısı – ondan məsuldur.

37. Yer üzündə lovğa-lovğa yerimə. Çünki sən yeri əsla yara bilməzsən, boyca dağlara çata bilməzsən.

38. Bütün bu sayılanların pis olanları Rəbbinin qatında bəyənilməyən şeylərdir.

39. Bunlar Rəbbinin sənə vəhy etdiyi bəzi hikmətlərdir. Allah ilə yanaşı başqa ilah tutma. Yoxsa qınanmış və Allahın rəhmətindən qovulmuş olaraq cəhənnəmə atılarsan.

40. Rəbbiniz oğlan uşaqlarını sizin üçün seçib özünə mələklərdən qız övladlarmı götürdü? Həqiqətən, çox böyük bir söz söyləyirsiniz.[1]

41. And olsun, onlar düşünüb öyüd götürsünlər deyə biz (gerçəkləri) bu Qur`anda müxtəlif tərzdə açıqladıq. Lakin bu, onların ancaq qaçışlarını artırır.

42. De ki: "Əgər onların iddia etdiyi kimi Allahla yanaşı (başqa) ilahlar olsaydı, o zaman o ilahlar da Ərşin sahibinə çatmaq üçün, əlbəttə, bir yol axtarardılar".[2]

43. Allah hər cür nöqsandan uzaqdır, onların söylədiklərinin ötəsindədir, ucadır.

44. Yeddi göy, yer və bunların içində olanlar Allahı təsbih edirlər. Hər şey onu həmd ilə təsbih edir. Ancaq siz onların təsbihlərini dərk etməzsiniz. O, həlimdir (dərhal cəzalandırmaz, möhlət verər), çox bağışlayandır.

45. Qur`an oxuduğun zaman səninlə axirətə inanmayanlar arasına gizli bir pərdə çəkərik.

46. Qur`anı anlamasınlar deyə qəlbləri üzərinə pərdələr, qulaqlarına da ağırlıq qoyarıq. Qur`anda (ibadətə layiq ilah olaraq) sadəcə Rəbbini andığın zaman onlar arxalarını çevirib qaçarlar.[3]

47. Onlar sənə qulaq asarkən nə məqsədlə qulaq asdıqlarını, öz aralarında danışarkən də o zalımların "Siz ancaq ovsunlanmış bir adama uyursunuz" dediklərini çox yaxşı bilirik.

48. Gör sənin üçün necə bənzətmələr etdilər, yoldan azdılar. Artıq (doğru) yolu tapa bilməzlər.

49. Dedilər ki: "Biz sür-sümük və ovxalanmış bir yığıntı olduğumuz zaman yeni bir yaradılışla dirildiləcəyik?"

50. De ki: "(Şübhəmi var?) İstər daş olun, istər dəmir!"

---

1 Ayədə Allahın övlad sahibi olduğu şəklindəki yanlış bir inanc rədd edilir.

2 Ayənin son cümləsini bu şəkildə də tərcümə etmək olar: "...o təqdirdə o ilahlar ərşin sahibi olan Allahdan üstün olmaq üçün çarələr axtarardılar".

3 Eyni mövzu ilə əlaqəli olaraq baxın: Ən`am, 6/25.

51. “Ya da sizə görə dirildilməsi daha da imkansız olan başqa bir məxluq olun, (yenə də dirildiləcəksiniz.)” Deyəcəklər ki: “Bəs bizi həyata yenidən kim qaytaracaq?” De ki: “Sizi ilk dəfə yaradan”. Onlar sənə qarşı başlarını (istehza ilə) bulayıb: “Nə vaxtdır o?” – deyəcəklər. De ki: “Bəlkə də yaxın bir zamanda!”

52. Allahın sizi (qəbirlərinizdən) çıxaracağı, sizin də Ona həmd edərək dərhal əmrinə tabe olacağınız və (qəbirlərinizdə) çox az qaldığınızı sanacağınız günü xatırla!

53. Qullarıma söylə: (İnsanlara qarşı) ən gözəl sözü söyləsinlər. Çünki şeytan onların arasına nifaq salar. Çünki şeytan insanın açıq-aşkar düşmənidir.

54. Rəbbiniz sizi daha yaxşı bilir. (Davranışlarınızdan asılı olaraq) istərsə sizə mərhəmət edər, istərsə əzab verər. Səni də onlara vəkil olaraq göndərməmişik.

55. Rəbbin göylərdə və yerdə kim varsa çox yaxşı bilir. And olsun, peyğəmbərlərin bəzisini bəzisindən üstün etdik. Davuda da Zəburu verdik.[1]

56. De ki: “Onu buraxıb ilah deyə iddia etdiklərinizi çağırın. Onlar başınızdakı müsibəti nə aradan qaldıra bilərlər, nə də dəyişdirə bilərlər”.

57. Onların yalvardıqları bu məxluqlar “Hansımız daha yaxın olacağıq” deyə öz Rəblərinə vəsilə axtararlar. Onun rəhmətini umar, əzabından qorxarlar. Çünki Rəbbinin əzabı həqiqətən, qorxuncdur.

58. Nə qədər məmləkət varsa, hamısını qiyamət günündən əvvəl ya həlak edəcəyik ya da şiddətli bir əzabla cəzalandıracağıq. Bu, Kitabda (Lövhi-məhfuzda) yazılıdır.[2]

59. Bizə (Qüreyşin istədiyi) möcüzələri göndərməyə mane olan şey, ancaq əvvəlkilərin onları inkar etməsidir. (Belə ki,) Səmud qövmünə[3] o dişi dəvəni açıq bir möcüzə olaraq verdik, onlar bu üzdən zalım oldular. Halbuki biz möcüzələri sadəcə qorxutmaq üçün göndəririk.

60. Bir vaxt sənə: “Həqiqətən, Rəbbin insanları əhatə etmişdir”, – demişdik. Sənə göstərdiyimiz o röyanı da, Qur`anda lənətlənmiş o ağacı da sırf insanları sınamaq üçün bir vəsilə etdik. Biz onları qorxuduruq. Lakin bu, sadəcə onların böyük azğınlıqlarını (daha da) artırdı.[4]

61. Bir vaxt mələklərə: “Adəm üçün ehtiramla əyilin”, – demişdik, onlar da ehtiramla əyilmişdilər. Yalnız İblis əyilməmiş: “Heç mən sənin palçıq halında yaratdığın kimsə üçün baş əyərəmmi?” – demişdi.

62. Yenə demişdi ki: “Söylə, budurmu məndən üstün tutduğun kəs? And olsun, əgər

1 Peyğəmbərlər arasındaki bu üstünlük fərqi maddi baxımdan deyil, mənəvi dəyərlər və üstün qabiliyyətlərə sahib olmaq baxımındadır. Həzrət Davudun qazandığı şərəf ona verilən mülk və səltənət səbəbi ilə deyil, Zəburun vəhy edilməsi səbəbi ilədir.

2 Toplumların öz təbii ömürlərini tamamlayıb yox olmaları da “həlak” məfhumu çərçivəsində qiymətləndirilməlidir.

3 Səmud qövmü ilə əlaqəli olaraq Ə`raf surəsinin 73-cü ayəsinin istinadına baxın.

4 Ayədə keçən “röya” ifadəsi ilə həzrət Peyğəmbərin Merac gecəsində gördükləri nəzərdə tutulur. Peyğəmbərin bu müşahidələri gecə vaxtı baş verdiyi üçün “röya” kəlməsi ilə ifadə edilmişdir. Qur`anda lənətlənmiş ağac isə cəhənnəmdəki “zəqqum” ağacıdır.

qiyamətə qədər mənə möhlət versən, onun soyunu – çox azı istisna olmaqla – (azdıraraq) öz hökmüm altına alacağam".

63. Allah belə dedi: "Çıx get! Onlardan kim sənə tabe olarsa, şübhəsiz, cəhənnəm hamınızın tam bir cəzası olacaq".

64. "Onlardan kimi bacarırsansa, yoldan çıxart. Atlılarınla və piyadalarınla onların üstünə get. Onların mallarına və övladlarına ortaq ol. Onlara vədlər ver". Halbuki şeytan onları aldatmaqdan başqa bir şey vəd etməz.

65. "Şübhəsiz, (həqiqi) qullarım üzərində sənin heç bir hakimiyyətin olmayacaq. Vəkil olaraq Rəbbin yetər!"

66. Rəbbiniz öz lütfündən payınıza düşəni axtarasınız deyə sizin üçün dənizdə gəmiləri hərəkət etdirəndir. Şübhəsiz, O, sizə qarşı çox mərhəmətlidir.

67. Dənizdə başınıza bir müsibət gəldiyi zaman bütün tapındıqlarınız (sizi darda qoyub) qeyb olar, yalnız Allah qalar. Lakin sizi qurtarıb quruya çıxartdıqda üz döndərərsiniz. Əslində, insan çox nankordur.

68. Bəs quruda sizi yerə batırmayacağından, yaxud üzərinizə daşlar yağdıran bir fırtına göndərməyəcəyindən – ki, sonra özünüzə bir vəkil də tapa bilməzsiniz – əminsinizmi?

69. Yaxud sizi yenidən dənizə qaytarıb üstünüzə şiddətli bir fırtına yollayaraq nankorluğunuz səbəbi ilə sizi qərq etməyəcəyindən – ki, sonra bizə qarşı sizə kömək olacaq bir kəs də tapa bilməzsiniz – əminsinizmi?

70. And olsun, biz Adəm övladını şərəfli etdik. Onları quruda və dənizdə daşıdıq. Onlara ən gözəl və təmiz şeylərdən ruzi verdik və onları yaratdıqlarımızın bir çoxundan üstün etdik.

71. Bütün insanları öz öndərləri ilə birlikdə çağıracağımız günü xatırla. (O gün) kimə kitabı sağından verilərsə, onlar kitablarını oxuyarlar və onlara tük qədər də haqsızlıq edilməz.[1]

72. Kim bu dünyada (haqqa qarşı) kor olmuşsa, axirətdə də kordur və yolunu daha da azmışdır.[2]

73. Onlar sənə vəhy etdiyimizdən başqasını uydurub bizə isnad edəsən deyə az qala səni ondan sapdıracaqdılar. (Əgər bunu bacarsaydılar,) o zaman səni dost tutardılar.

74. Əgər biz sənə səbat verməsəydik, az qala bir az onlara meyl edəcəkdin.

75. O zaman sənə həyatın da, ölümün də qat-qat əzabını daddırardıq. Sonra bizə qarşı özünə bir yardımçı da tapa bilməzdin.

76. Səni o yerdən (Məkkədən) çıxarmaq üçün az qalmışdı ki, səni sıxışdırsınlar. Bunu edə bilsəydilər, səndən sonra orada qısa müddət qalardılar.

---

1 Ayədə keçən kitab sözü ilə əməllərin yazıldığı kitab nəzərdə tutulur. Bu surənin 13-cü və 14-cü ayələrində keçən kitab sözü də həmin mənaya gəlir.

2 Axirətdə kor olaraq həşr edilmə məsələsi ilə əlaqəli olaraq bu surənin 97-ci ayəsi ilə Taha surəsinin 124-cü ayəsinin istinadlarına baxın.

77. Səndən əvvəl göndərdiyimiz peyğəmbərlərimiz haqqındakı qanun belədir. Bizim qanunumuzda heç bir dəyişiklik tapa bilməzsən.

78. Günəşin zəvalından (günorta vaxtı qərbə tərəf yönəlməsindən) gecənin qaranlığınadək (müəyyən vaxtlarda) namaz qıl. Bir də sübh namazını qıl. Çünki sübh namazı şahidlidir.[1]

79. Gecənin bir hissəsində də oyanaraq sənə məxsus əlavə bir ibadət olan təhəccüd namazı qıl ki, Rəbbin səni Məqami-Mahmuda çatdırsın.

80. De ki: "Rəbbim! Məni (girəcəyim yerə) doğruluq və salamatlıqla daxil et. (Çıxacağım yerdən də) məni doğruluq və salamatlıqla çıxar. Öz qatından mənə kömək olan bir qüvvə ver".

81. De ki: "Haqq gəldi, batil yox oldu. Şübhəsiz, batil yox olmağa məhkumdur".

82. Biz Qur`andan möminlər üçün şəfa və rəhmət olacaq şeylər endiririk. Zalımların isə Qur`an sadəcə zərərini artırır.

83. İnsana nemət verdiyimiz zaman üz çevirib uzaqlaşar. Ona bir müsibət üz verdikdə isə ümidsizliyə düşər.

84. De ki: "Hər kəs öz qabiliyyətinə uyğun işlər görər. Rəbbiniz ən doğru yolda olanı daha yaxşı bilir".

85. Səndən ruh haqqında soruşurlar. De ki: "Ruh Rəbbimin biləcəyi bir şeydir. Sizə çox az bilik verilmişdir".

86. And olsun, əgər istəsəydik, sənə vəhy etdiyimizi tamamilə aradan qaldırardıq, sonra bu barədə bizə qarşı özünə bir yardımçı da tapa bilməzdin.

87. Ancaq Rəbbindən bir rəhmət olaraq belə etmədik. Çünki Onun sənə olan lütfü böyükdür.

88. De ki: "And olsun, insanlar və cinlər bu Qur`anın bir bənzərini gətirmək üçün toplansalar və bir-birilərinə dəstək olsalar, yenə də onun bənzərini gətirə bilməzlər".

89. And olsun, biz bu Qur`anda insanlar üçün hər cür misal çəkdik. Yenə də insanların çoxu ancaq küfrdə inad etdilər.

90, 91, 92, 93. Dedilər ki: "Bizə yerdən bir bulaq çıxartmadıqca, xurma və üzüm bağlarına sahib olub aralarından çaylar axıtmadıqca, iddia etdiyin kimi göyü üstümüzə parça-parça düşürmədikcə, Allahı və mələkləri qarşımıza gətirmədikcə, qızıldan bir evin olmadıqca ya da göyə çıxmadıqca sənə əsla iman etməyəcəyik. Göydən bizə oxuyacağımız bir kitab endirmədikcə göyə çıxdığına da inanan deyilik". De ki: "Rəbbimi nöqsanlardan uzaq bilirəm. Mən sadəcə peyğəmbər olaraq göndərilən bir bəşərəm".

94. İnsanlara hidayət (Qur`an) gəldikdən sonra onların iman etmələrinə ancaq "Allah bir bəşərimi peyğəmbər olaraq göndərdi?" demələri mane oldu.

---

1 Bu ayədə "günəşin zəvalı" zöhr və əsr namazlarının, "gecənin qaranlığı" isə axşam və işa namazlarının vaxtına işarə edir. "Fəcr" sözü isə sübh namazının vaxtını bildirir. Təfsir alimlərinə görə sübh namazının şahidli olması gecə və gündüz mələklərinin həmin namazın qılınışı əsnasında onu müşahidə etmələri deməkdir.

95. De ki: “Əgər yer üzündə (insanlar əvəzinə) arxayınlıq içində gəzib dolaşanlar mələklər olsaydı, əlbəttə, onlara göydən bir mələk peyğəmbər endirərdik”.

96. De ki: “Sizinlə mənim aramda şahid olaraq Allah yetər. Çünki O, qullarından haqqı ilə xəbərdardır, onları haqqı ilə görəndir”.

97. Allah kimə hidayət edərsə, artıq o doğru yolun yolçusudur. Kimi də zəlalətə düçar edərsə, belələri üçün Ondan başqa dostlar tapa bilməzsən. Onları qiyamət günü kor, lal və kar olaraq üzü üstə həşr edəcəyik. Gedəcəkləri yer cəhənnəmdir. Cəhənnəmin odu azaldıqca alovu onlara bir az da artırarıq.[1]

98. Bu, onların cəzasıdır. Çünki onlar ayələrimizi inkar etdilər və: “Biz sür-sümük və ovxalanmış bir yığıntı olduğumuz zaman yeni bir yaradılışla dirildiləcəyikmi?” – dedilər.

99. Onlar göyləri və yeri yaradan Allahın özləri kimisini yaratmağa qadir olduğunu görmədilərmi? Allah onlar üçün haqqında heç bir şübhə olmayan bir müddət təyin etmişdir. Lakin zalımlar ancaq küfrdə inad etdilər.

100. De ki: “Əgər siz Rəbbimin rəhmət xəzinələrinə də sahib olsaydınız, yenə də tükənməsi qorxusu ilə xəsislik edərdiniz. Zatən insan çox xəsisdir”.

101. And olsun, biz Musaya açıq-aşkar doqquz möcüzə verdik. İsrail oğullarından soruş (sənə danışsınlar). Bir vaxt Musa onlara gəlmiş və Firon ona: “Mən sənin ovsunlandığını zənn edirəm, ey Musa!” – demişdi.[2]

102. Musa isə: “Yaxşı bilirsən ki, bunları ancaq göylərin və yerin Rəbbi açıq-aşkar dəlillər olaraq endirmişdir. Ey Firon, mən isə sənin həlak olmuş bir adam olduğunu görürəm”, – demişdi.

103. Belə olduqda Firon (işgəncə etmək və öldürməklə) onların kökünü oradan kəsmək istədi. Biz də onu və onunla birlikdə olanların hamısını birdən suda boğduq.

104. Bundan sonra İsrail oğullarına belə dedik: “Bu torpaqları məskən tutun, axirət vədi (qiyamət) gəldiyi zaman hamını toplayıb bir yerə yığacağıq”.

105. Biz onu (Qur`anı) haqq olaraq nazil etdik və o da haqq olaraq nazil oldu. Səni də sadəcə müjdələyən və xəbərdar edən olaraq göndərdik.

---

1 Qur`an bu ayədə peyğəmbərlərin təbliğ etdiyi tövhid həqiqətini görüb qəbul etmək və başqalarına çatdırmaq vəzifəsi qarşısında kor, kar və lal olanların qiyamət günündə kor, kar və lal olaraq həşr ediləcəklərini xəbər verir. (Mövzu ilə əlaqəli olaraq baxın: İsra, 17/72; Taha, 20/124-125.)

Digər tərəfdən isə bu kimi şəxslərin qiyamət günündə görmə, eşitmə və danışma qabiliyyətinə sahib olacaqlarını göstərən ayələr də var. (Misal üçün baxın: Görmə qabiliyyəti ilə əlaqəli olaraq Bəqərə, 2/166; eşitmə qabiliyyəti ilə əlaqəli olaraq Furqan, 25/12; danışma qabiliyyəti ilə əlaqəli olaraq Furqan, 25/13.)

Təfsir alimləri bu məsələni belə izah edirlər: Bəhs olunan şəxslərin kor, kar və lal olaraq həşr edilmələri onların dirildilib qəbirlərindən çıxarılmaları ilə sorğu-sual üçün məhşər yerinə gətirilmələri arasındakı vaxtı əhatə edir. Məhşərdən sonra bu qabiliyyətləri onlara qaytarılacaq.

Başqa bir izaha görə isə bu kimsələrin kor, kar və lal olaraq həşr edilmələri onları sevindirən bir xəbər eşitməyəcəkləri, cəhənnəmə girmələrinə mane olacaq bir bəhanə gətirə bilməyəcəklərini ifadə edə bilər.

2 Həzrət Musaya verilən doqquz möcüzənin bunlar olduğu rəvayət olunmuşdur: İlana çevrilən əsa, əlinin ağappaq bir şəkildə görünməsi, çəyirtkə, əkin biti, qurbağa, qan, daşdan su çıxması, dənizin yarılması və Tur dağının İsrail oğullarını qorxutması.

106. İnsanlara onu aramla oxuyasan deyə biz Qur`anı ayə-ayə ayırdıq və onu hissə-hissə nazil etdik.

107. De ki: "Ona istər inanın, istərsə də inanmayın. Şübhəsiz, daha əvvəl elm verilənlər özlərinə Qur`an oxunduğu zaman dərhal üzü üstə səcdəyə qapanırlar".

108. "Rəbbimizin şanı ucadır. Rəbbimizin vədi mütləq yerinə yetəcəkdir", – deyərlər.

109. Onlar ağlayaraq üzü üstə yerə qapanarlar. Bu da onların ehtiramını artırır.

110. De ki: "(Rəbbinizi) istər Allah deyə çağırın, istərsə də Rəhman deyə. Hansı ilə çağırırsınız çağırın, nəticədə ən gözəl isimlər Onundur". Namazında səsini çox yüksəltmə, çox da alçaltma. İkisi arasında bir yol tut.

111. "Həmd övlad sahibi olmayan, mülkdə ortağı olmayan, zillət və acizlik (dən uzaq olduğu üçün bu) barədə (ona kömək edəcək) bir dosta da möhtac olmayan Allaha məxsusdur", – de və Onu təkbir ilə uca tut.

## 18. KƏHF SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 28-ci ayənin Mədinə dövründə nazil olduğu da rəvayət olunmuşdur. 110 ayədən ibarətdir. Surənin adı birincisi 9-cu ayədə olmaqla bir neçə ayədə keçən "kəhf" sözündən götürülmüşdür. Kəhf mağara deməkdir. Surədə əsas mövzu olaraq etiqadları səbəbi ilə öldürülməkdən xilas olmaq üçün bir mağaraya sığınan gənclərin möcüzəvi halları, həmçinin həzrət Musa ilə Zülqərneynin qissəsinə yer verilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Həmd quluna Kitabı (Qur`anı) endirən və onda heç bir əyriliyə yol verməyən Allaha məxsusdur.

2, 3, 4. (Allah onu) öz qatından gələcək şiddətli bir əzab ilə (inanmayanları) xəbərdar etmək, saleh işlər görən möminləri içində əbədi olaraq qalacaqları gözəl bir mükafat (cənnət) ilə müjdələmək və "Allah özünə övlad götürdü" deyənləri də xəbərdar etmək üçün doğru bir kitab etdi.

5. Bu barədə nə özlərinin, nə də atalarının bir biliyi yoxdur. Ağızlarından çıxan söz nə böyük sözdür. Onlar ancaq yalan danışırlar.

6. Onlar bu sözə (Qur`ana) inanmasalar, deməli sən onların arxalarınca kədərlənib özünü həlak edəcəksən![1]

7. Biz insanların hansının gözəl əməl işlədiyini sınayaq deyə yer üzündəki şeyləri ona bir zinət etdik.

8. Biz, əlbəttə, (vaxtı gəldikdə) yer üzündəki hər şeyi bir quru torpaq halına salacağıq.

---

1 Bu ayə başda iman və əxlaq sahələri olmaqla hərtərəfli tənəzzülə uğramış bəşəriyyət naminə kədərlənən həzrət Peyğəmbəri təsəlli edir. Şüəra surəsinin 3-cü ayəsi ilə Hicr surəsinin 97-ci ayələri də bənzər xarakterdəki ayələrdir.

9. Yoxsa sən (sadəcə) Əshabi-kəhf və Əshabi-rəqimi bizim ibrətamiz dəlillərimizdən sandın?[1]

10. Bir vaxt o gənclər mağaraya sığınıb: “Ey Rəbbimiz! Bizə öz qatından bir rəhmət ver və bu vəziyyətdən qurtulub doğru yola yönəlmək üçün işimizi asanlaşdır”, – demişdilər.

11. Belə olduqda biz də neçə illər onların qulaqlarını (xarici aləmə) bağladıq. (Onları yuxuya daldırdıq.)

12. Sonra onları oyandırdıq ki, iki zümrədən hansının gözlədikləri müddəti daha yaxşı hesabladığını biləк.

13. Biz sənə onların xəbərlərini haqq olaraq danışırıq. Həqiqətən, onlar Rəblərinə iman etmiş bir neçə gənc idi. Biz də onların hidayətlərini artırmışdıq.[2]

14, 15. Onlar qalxıb: “Rəbbimiz göylərin və yerin Rəbbidir. Ondan qeyrisinə əsla ilah deməri̇k. Yoxsa and olsun ki, yanlış bir söz söyləmiş olarıq. Bunlar, bu qövmümüz Ondan başqa tanrılar qəbul etdilər. Barı onlar haqqında açıq-aşkar bir dəlil gətirəydilər! Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?” – dedikləri zaman onların qəlblərinə qüvvət vermişdik.

16. (Aralarından biri belə dedi:) “Madam ki, onlardan və Allahdan qeyri ibadət etdikləri şeylərdən üz döndərib ayrıldınız, onda mağaraya çəkilin ki, Rəbbiniz sizin üçün rəhmətini yaysın və işinizdə sizin üçün faydalı şeylər hazırlasın”.[3]

17. (Orada olsaydın,) günəş doğduğu zaman onların mağaralarının sağ tərəfinə meyl etdiyini, batarkən də (işığı) onlara toxunmadan sol tərəfə getdiyini görərdin. Özləri isə mağaranın geniş bir yerində idilər. Bu, Allahın möcüzələrindəndir. Allah kimə hidayət edərsə, o doğru yolun yolçusudur. Kimi də zəlalətə düçar edərsə, artıq ona doğru yolu göstərən bir dost tapa bilməzsən.

18. Yuxuda olduqları halda sən onları oyaq sanardın. Biz onları sağa-sola çevirirdik. İtləri isə mağaranın girişində iki qolunu uzadıb (yatırdı). Sən onları görsəydin, üz çevirib qaçardın və gördüklərin səbəbi ilə için qorxu ilə dolardı.

19. Beləliklə, biz onları oyatdıq ki, bir-birilərindən soruşsunlar. Onlardan biri: “Nə qədər qaldınız?” – dedi. (Bir qismi:) “Bir gün ya da bir gündən daha az”, – dedilər. (Digərləri isə) belə dedilər: “Nə qədər qaldığınızı Rəbbiniz daha yaxşı bilir. İndi sizdən birini bu gümüş pulla şəhərə göndərin, görsün (şəhər əhlindən) hansının yeməyi daha təmiz və ləzzətlidirsə, ondan sizə bir azuqə gətirsin. Üstəlik çox ehtiyatlı davransın (diqqət çəkməsin) və sizi heç kimə hiss etdirməsin”.

---

1 Kəhf mağara və dağların içindəki dəhliz deməkdir. Rəqim isə ayədə sözü keçən mağaraya qoyulan kitabədir. Bəzi alimlərə görə rəqim mağaraya sığınan gənclərin mənsub olduğu kəndin və ya şəhərin adıdır. Rəqim yüksək dağ və təpə mənasına da gəlir. Bu ayədə Allahın heyrətamiz dəlillərinin yalnız “Əshabi-kəhf”dən ibarət olmadığı, tez-tez baş verdiyi üçün adi işlər kimi görünən saysız-hesabsız hadisələrin də ilahi qüdrətin əlaməti olduğuna diqqət çəkilir.

2 Əshabi-kəhf qissəsinin Bizans imperatoru Decuisin dövrünə aid olduğu rəvayət edilir.

3 Əshabi-kəhf bu söhbətdən sonra yuxuya gedir. Bundan sonrakı ayələr onların yuxudakı hallarını təsvir edir.

20. "Çünki onlar sizi ələ keçirsələr, ya daşqalaq edərək öldürər, ya da öz dinlərinə döndərərlər. Elə olarsa, əsla bir daha nicat tapa bilməzsiniz".

21. Beləliklə, biz (insanları) onların hallarından xəbərdar etdik ki, Allahın vədinin haqq olduğunda və qiyamətin baş verəcəyində heç bir şübhə olmadığını bilsinlər. Onlar (bu hadisənin möcüzəvi tərəfini və əsl hikmətini bir tərəfə qoyub) öz aralarında onların halını müzakirə edirdilər. (Bəziləri:) "Onların üstündə bir bina inşa edin, Rəbləri onların halını daha yaxşı bilir", – dedilər. Müzakirədə sözü üstün olanlar isə: "Onların üstündə mütləq bir məscid tikəcəyik", – dedilər.

22. (Ey Muhamməd!) Bəziləri bilmədikləri şey haqqında ağlına gələni danışaraq: "Onlar üç nəfərdir, dördüncüsü köpəkləridir", – deyəcəklər. Yenə (bəziləri:) "Onlar beş nəfərdilər, altıncısı köpəkləridir", – deyəcəklər. Belə deyəcəklər: "Yeddi nəfərdilər, səkkizincisi köpəkləridir". De ki: "Onların sayını Rəbbim daha yaxşı bilir". Əslində isə onları çox az kimsə bilir. Elə isə onlar haqqında (Qur`anda) açıq-aydın bildirilənlər(i nəql etmək)dən başqa mübahisəyə girmə və bunlar haqqında onların heç birindən heç bir şey soruşma.

23. Heç bir şey haqqında "Sabah bunu edəcəyəm" demə!

24. Ancaq "Allah istərsə, edəcəyəm" de. Unutduğun zaman Rəbbini xatırla və "ola bilsin ki, Rəbbim məni bundan daha doğru olana çatdırar" de.

25. Onlar mağaralarında üç yüz il qaldılar. Buna bir doqquz il də artırdılar.

26. De ki: "Qaldıqları müddəti Allah daha yaxşı bilir. Göylərin və yerin qeybini bilmək Ona aiddir. O nə gözəl görür, nə gözəl eşidir! Onların Ondan başqa bir dostu da yoxdur. O, heç kimi öz hökmünə ortaq etməz".

27. Rəbbinin qatından sənə vəhy ediləni oxu. Heç kim Onun kəlmələrini dəyişdirə bilməz. Ondan başqa əsla bir sığınacaq da tapa bilməzsən.

28. Onun rizasını diləyərək səhər-axşam Rəblərinə dua edənlərlə birlikdə sən də nəfsin qarşısında səbirli ol. Dünya həyatının zinətini arzu edərək gözlərini onlardan çevirmə. Qəlbini zikrimizdən qafil etdiyimiz, boş həvəslərinə uymuş və hər işi ifrat olan kimsələrə boyun əymə.

29. De ki: "Haqq Rəbbimizdəndir. Artıq istəyən iman etsin, istəyən də inkar etsin". Biz zalımlar üçün elə bir atəş hazırladıq ki, onun alovlu divarları onları əhatə edər. (Susuzluqdan) ah-fəğan edib yardım istədikdə isə üzləri yandırıb yaxan ərinti kimi bir su ilə onlara yardım edilər. O necə də pis bir içkidir. Cəhənnəm necə də qorxunc bir söykənmə yeridir.[1]

30. İman edib saleh işlər görənlərə gəlincə, əlbəttə, biz yaxşı işlər görənlərin mükafatını hədər etmərik.

31. Onlar üçün içlərindən çaylar axan Ədn cənnətləri var. Orada taxtlar üstündə oturaraq qızıl bilərziklərlə bəzənəcəklər, incə və qalın ipəkdən yaşıl libaslar geyinəcəklər. O nə gözəl mükafatdır. Cənnət necə də gözəl bir söykənmə yeridir.

1 Bu ayədə insanların inanıb-inanmamaq barəsində tamamilə azad olduqları vurğulanır. Yoxsa insanın inanmamaqla məsuliyyətdən azad olacağı nəzərdə tutulmur.

32. Onlara bu iki adamı misal gətir: Onlardan birinə iki üzüm bağı vermiş, bağların ətrafını xurmalarla əhatə etmiş, ikisinin arasında da bir əkin yeri salmışdıq.

33. Hər iki bağ meyvəsini vermiş və məhsuldan heç nə əskiltməmişdi. Bu iki bağın arasından bir çay da axıtmışdıq.

34. Beləliklə, onun böyük sərvəti oldu. Yoldaşı ilə söhbət edərkən ona dedi ki: "Mənim sərvətim səninkindən daha çoxdur. Adam sarıdan da səndən daha üstünəm".

35. Nəfsinə zülm edərək bağına girib dedi: "Bunun nə vaxtsa yox olacağını zənn etmirəm".

36. "Qiyamətin baş verəcəyini də sanmıram. Rəbbimin hüzuruna qaytarılsam belə, and olsun, bundan daha yaxşı bir aqibət görərəm".

37. Yoldaşı ona cavab verərək dedi: "Səni torpaqdan, sonra bir damla nütfədən yaradan, sonra isə səni (nöqsansız şəkildə) bir insan surətinə salan Allahı inkar edirsən?"

38. "Lakin o Allah mənim Rəbbimdir. Mən Rəbbimə heç kimi şərik qoşmaram".

39, 40. Bağına girdiyin zaman: "Maşallah! Qüvvət yalnız Allahdandır", – deyəydin. Əgər mənim malımı və övladlarımı özününkülərdən az görürsənsə, ola bilər ki, Rəbbim mənə sənin bağından daha yaxşısını verər. Səninkinə isə göydən bir fəlakət endirər, beləliklə o, qupquru, əkinə əlverişsiz bir yer olar".

41. "Ya da suyu çəkilər, (tapmaq bir tərəfə dursun) heç onu axtara da bilməzsən".

42. Beləliklə, onun bütün məhsulu tələf edildi. Çardaqları üstünə çökmüş haldakı bağı üçün çəkdiyi xərcə görə (heyifsilənib) əllərini ovuşdurur və belə deyirdi: "Kaş ki, Rəbbimə heç kimi şərik qoşmayaydım".

43. Allahdan başqa ona kömək edə biləcək kəslər də yox idi. Özü özünü qurtaracaq gücdə də deyildi.

44. Belə bir vəziyyətdə vəlayət (himayə və qoruma) yalnız haqq olan Allaha məxsusdur. Onun mükafatı da daha xeyirlidir, qismət edəcəyi aqibət də daha xeyirlidir.

45. Onlara dünya həyatını misal çək: (Dünya həyatı) göydən endirdiyimiz yağmur kimidir. Onunla yer üzünün bitkiləri boy atıb bir-birinə qarışır. Lakin bütün bu canlılıq axırda, küləyin sovurduğu quru bir çör-çöp halına gələr. Allah hər şey üzərində qüdrət sahibidir.

46. Mal-mülk və övladlar dünya həyatının zinətidir. Əbədi qalacaq saleh əməllər isə Rəbbinin dərgahında həm savab baxımından, həm də ümid baxımından daha xeyirlidir.

47. Dağları hərəkət etdirəcəyimiz və yer üzünü bomboş və dümdüz bir halda görəcəyin günü bir düşün. Biz onları məhşərdə toplayarıq, onlardan heç birini buraxmarıq.

48. Hamısı səf-səf Rəbbinin hüzuruna çıxarılacaq. Onlara: "And olsun, sizi ilk dəfə yaratdığımız kimi hüzurumuza gəldiniz. Halbuki sorğu-suala çəkiləcəyiniz bir vaxt təyin etmədiyimizi sanmışdınız", – deyiləcək.

49. Kitab ortaya qoyulacaq. Günahkarların kitabın içindəkilərdən dolayı qorxuya düş-

düklərini görərsən. "Vay halımıza! Bu, necə bir kitabdır ki, kiçik, böyük heç bir şey buraxmadan hamısını saymışdır!" – deyərlər. Onlar bütün etdikləri əməlləri qarşılarında görərlər. Sənin Rəbbin heç kimə zülm etməz.

50. Bir vaxt biz mələklərə: "Adəm üçün ehtiramla əyilin", – demişdik, İblisdən başqa hamısı ehtiramla baş əymişdi. İblis isə cinlərdən idi, Rəbbinin əmrinə qarşı çıxdı. İndi siz məni buraxıb İblisi və onun nəslini özünüzə dost tutursunuz? Halbuki onlar sizin üçün düşməndirlər. Bu, zalımlar üçün necə də pis bir bədəldir?

51. Mən onları nə göylərin və yerin yaradılışına, nə də özlərinin yaradılışına şahid tutdum. Azdıranları heç bir zaman köməkçi tutan da deyiləm.

52. (Ey Muhamməd!) Allahın: "Şərikim olduğunu iddia etdiklərinizi çağırın", – deyəcəyi, onların da çağıracaqları, lakin (çağırdıqlarının) onlara cavab verməyəcəyi və bizim də aralarına bir uçurum qoyacağımız günü xatırla!

53. Günahkarlar (o gün) cəhənnəm odunu gördükdə onun içinə düşəcəklərini yaxşı anlayacaqlar və ondan bir qurtuluş yolu tapa bilməyəcəklər.

54. And olsun, biz bu Qur`anda insanlar üçün hər cür misal çəkdik. Lakin insanlar mübahisə etməyə hər şeydən daha çox həvəslidirlər.

55. İnsanlara hidayət gəldikdən sonra onların iman etmələrinə və Rəblərindən məğfirət diləmələrinə mane olan, yalnız əvvəlkilərin başına gələnlərin öz başlarına da gəlməsini və ya əzabın onlara göz görə-görə gəlməsini gözləmələri olmuşdur.

56. Biz peyğəmbərləri ancaq müjdələyən və xəbərdar edənlər olaraq göndəririk. İnkar edənlər isə haqqı batillə boşa çıxarmaq üçün mücadilə edirlər. Ayələrimi və onlara edilən xəbərdarlıqları məsxərəyə qoyurlar.

57. Rəbbinin ayələri xatırladılıb sonra onlardan üz döndərən və əlləri ilə etdiyini unudandan daha zalım kim ola bilər? Şübhəsiz, biz onu anlamasınlar deyə qəlblərinə pərdələr çəkdik, qulaqlarına da ağırlıqlar qoyduq. Sən onları hidayətə çağırsan da daha onlar əbədiyyən hidayət tapa bilməzlər.[1]

58. Rəbbin çox bağışlayandır, mərhəmət sahibidir. Əgər etdikləri əməllərə görə onları (dünyada) cəzalandırsaydı, əlbəttə, əzablarını tezləşdirərdi. Xeyr, onlar üçün təyin olunmuş bir gün var ki, (o gün gəldikdə) qurtulmaq üçün heç bir çarə tapa bilməzlər.

59. Zülm etdikləri zaman yox etdiyimiz məmləkətlər... Biz onların həlak edilməsi üçün bəlli bir vaxt təyin etmişdik.

60. Bir vaxt Musa yanındakı gəncə belə demişdi: "İki dənizin qovuşduğu yerə çatana qədər dayanmayacağam ya da uzun müddət yol gedəcəyəm".

61. Onlar iki dənizin qovuşduğu yerə çatdıqda balıqlarını yaddan çıxartdılar. Balıq isə dənizdə yolunu tutub getdi.

62. Oradan uzaqlaşdıqları zaman Musa yanındakı gəncə: "Nahar yeməyimizi gətir. Bu səfərimiz səbəbi ilə çox yorğun düşdük", – dedi.

---

1 Qəlblərə pərdə çəkilməsinin və qulaqlara ağırlıq qoyulmasının səbəbi insanın haqdan üz döndərməsi, qəlbinin qatılaşıb imanı qəbul etməməsi, yəni insanın öz davranışlarının nəticəsidir.

63. Gənc: "Gördünmü! Qayaya sığındığımız əsnada balığı unutmuşam. – Əslində onu sənə deməyi mənə ancaq şeytan unutdurdu. – Balıq –təəccüblüdür ki, – dənizdə yolunu tutub getmişdir", – dedi.

64. Musa: "Axtardığımız elə bu idi", – dedi. Belə olduqda onlar izlərini təqib edərək geri qayıtdılar.

65. (Geri qayıdıb) Qullarımızdan (elə) birini tapdılar ki, biz ona qatımızdan bir rəhmət vermiş, ona tərəfimizdən bir elm öyrətmişdik.[1]

66. Musa ona: "Sənə öyrədilən biliklərdən doğruya aparan bir biliyi mənə öyrətməyin üçün sənə tabe olummu?" – dedi.

67. Adam belə dedi: "Doğrusu sən mənimlə birlikdə olmağa əsla səbir edə bilməzsən".

68. "Mahiyyətini qavramadığın bir şeyə necə səbir edə bilərsən?"

69. Musa: "İnşallah səbirli olduğumu görəcəksən. Heç bir işdə sənə qarşı gəlməyəcəyəm", – dedi.

70. O isə belə dedi: "O halda, əgər mənə tabe olacaqsansa, mən sənə söyləmədikcə heç bir şey haqqında məndən sual soruşma".

71. Bu minvalla yola düşdülər. Nəhayət, bir gəmiyə mindikləri zaman (adam) gəmini deşdi. Musa: "İçindəkiləri suda qərq etmək üçün onu deşdin? Doğrusu qəribə bir iş gördün", – dedi.

72. Adam: "Sən mənimlə birlikdə olmağa əsla səbir edə bilməzsən, deməmişdimmi?" – dedi.

73. Musa: "Unutduğum üçün məni qınama və bu işimdə məni çətinə salma!" – dedi.[2]

74. Yenə yola düşdülər. Nəhayət, bir oğlan uşağı ilə qarşılaşdıqları zaman adam (dərhal) onu öldürdü. Musa: "Bir canın əvəzi olmadan günahsız birini öldürdün? And olsun, çox pis bir iş gördün!" – dedi.

75. Adam: "Sənə deməmişdimmi ki, sən mənimlə birlikdə olmağa əsla səbir edə bilməzsən?" – dedi.

76. Musa: "Əgər bundan sonra səndən bir şey soruşsam, mənimlə yoldaşlıq etmə.[3] Doğrusu, mənim tərəfimdən (istəniləcək son) üzrə çatdın (bu sonuncu üzr istəməyimdir)", – dedi.[4]

---

1 Əksəriyyət alimlərin fikrinə görə ayədə bəhs olunan bəndə Xızır (ə.s.)-dır. Lakin Qur`an bu bəndənin kim olduğunu bildirmir.

2 Bu qissədə müxtəlif hikmətlər və mesajlarla yanaşı müəllim tələbə münasibətləri və səbirli olmaqla bağlı maraqlı və ibrətamiz öyüdlər yer alır. Xoşgörülü davranmaq, bilmədən edilən xəta və qüsurlara qarşı bağışlayıcı olmaq, marağın həddi aşmaması, təhsil ədəbi kimi mövzular bunlardandır. İrşad üsulu və din təhsili mövzularında ixtisaslaşmaq istəyənlər Qur`anın tərbiyə və təbliğ metodları ilə əlaqəli ayələrin yozumuna xüsusi diqqət yetirməlidir.

3 Müslim və Əbu Davudun rəvayət etdiyi bir hədisdə həzrət Peyğəmbər: "Allah bizə və Musaya rəhm etsin! Əgər səbir etsəydi, qəribə şeylər görəcəkdi. Lakin o yoldaşından utandı", – buyurmuşdur. (Müslim, Fəzail, 172.)

4 Ayənin son cümləsi "O təqdirdə məni tərk etməkdə haqlı sayılacağın bir həddə çatdın" şəklində də tərcümə oluna bilər.

77. Yenə yola düşdülər. Nəhayət, bir şəhər əhlinə yetişib onlardan yeməyə bir şey istədilər. Əhali onları qonaq qəbul etmək istəmədi. Orada yıxılmaq üzrə olan bir divar gördülər. Adam o divarı düzəltdi. Musa: "İstəsəydin, bu işin müqabilində bir şey alardın", – dedi.

78. Adam: "Bu, artıq bizim bir-birimizdən ayrılmağımız deməkdir", – dedi. "İndi sənə səbir edə bilmədiyin şeylərin mahiyyətini xəbər verəcəyəm".[1]

79. "O gəmi dənizdə işləyən bir dəstə yoxsula aid idi. Ona xətər yetirmək istədim, çünki onlardan irəlidə hər gəmini zorla ələ keçirən bir kral var idi".

80. "Oğlan uşağına gəlincə, onun ata-anası mömin insanlar idi. Onları azğınlığa və küfrə sürükləməsindən qorxduq".

81. "Belə etməklə, Rəblərinin onlara bu uşağın əvəzinə daha xeyirli və daha mərhəmətli bir övlad verməsini dilədik".

82. "Divar isə şəhərdəki iki yetim uşağa aid idi. Altında onlara aid bir xəzinə var idi. Ataları da yaxşı bir insan idi. Rəbbin onların yetkinlik çağına çatmalarını və Rəbbindən bir rəhmət olaraq öz xəzinələrini tapıb çıxarmalarını istədi. Mən bunları öz başıma etmədim. Sənin səbir edə bilmədiyin şeylərin yozumu budur".

83. (Ey Muhamməd!) Bir də səndən Zülqərneyn[2] haqqında soruşurlar. De ki: "Sizə ondan bir əhvalat oxuyacağam".

84. Biz onu yer üzündə qüdrət sahibi etdik və ona hər şeydə (məqsədinə nail olacağı) bir yol verdik.

85. O da (qərbə tərəf) bir yol tutdu.

86. Günəşin batdığı yerə çatdıqda onun qara palçıqlı bir çeşmədə batdığını gördü. Orada (kafir) bir qövm gördü. "Ey Zülqərneyn! (Onları) ya cəzalandırarsan ya da onlarla xoş rəftar edərsən", – dedik.

87. Zülqərneyn: "Kim zülm edərsə, biz onu cəzalandıracağıq. Sonra o Rəbbinin hüzuruna qaytarılar. O da onu görünməmiş bir əzaba düçar edər", – dedi.

88. "Kim də iman edər və saleh işlər görərsə, ona mükafat olaraq daha gözəli var. (Üstəlik) ona əmrimizdən asan olanını söyləyəcəyik".

89. Sonra (şərqə tərəf) bir yol tutdu.

---

1 Ayələrdə bəhs olunan bu üç hadisə insanın dünya həyatında qarşılaşdığı hər işdə ilahi hikmətlərin necə təcəlli etdiyini göstərir. Təbiətdə meydana gələn heç bir hadisəni şər olaraq dəyərləndirmək olmaz. Hər hadisədə mütləq xeyirli bir nəticə nəzərdə tutulmuşdur. Bunlardan bəzilərinin zərərli və şər kimi görünməsi insanın pis yolu seçməsindən qaynaqlanır. Bu isə kainatda işləyən ilahi rəhmətə kölgə sala bilməz.

2 Qur`an bir üslub xüsusiyyəti olaraq hadisələrə onlardan çıxarılacaq hökmlər və nəticələr etibarilə diqqət çəkir. Peyğəmbər xaric hadisələrin qəhrəmanları çox vaxt gizli və arxa plandadır. Qeyd edilənlərin isə sadəcə adı çəkilər. Onların şəxsiyyəti haqqında ətraflı məlumat verilməz. Zülqərneyn də bunlardan biridir.

Zülqərneynin kim olduğuna dair dəqiq məlumatımız yoxdur. Təfsir mənbələrində onun bir peyğəmbər, Allahdan ilham alan bir şəxs, hikmət sahibi mömin və saleh bir olduğu haqqında müxtəlif fikirlər bildirilmişdir.

Zülqərneynin Yəmən krallarından Şəb ibn Rayiş, ximyərli Əbu Şəmmar və Makedoniya kralı Böyük İskəndər olduğu iddia edilmişdir. Bu haqda başqa fikirlər də irəli sürülmüşdür. Zülqərneynin Makedoniya kralı Böyük İskəndər olduğu fikrinin tarixi həqiqətlərlə üst-üstə düşmədiyi bildirilmişdir.

90. Günəşin çıxdığı yerə çatdıqda onun, özləri ilə günəş arasına bir örtük qoymadığımız bir qövmün üzərinə doğduğunu gördü.

91. Bax belə... Şübhəsiz, biz onun yanında olanları elmimizlə əhatə etmişik.

92. Sonra yenə bir yol tutdu.

93. İki dağ arasına çatdıqda onların ön tərəfində, demək olar ki, heç bir söz anlamayan bir qövm gördü.

94. Dedilər ki: "Ey Zülqərneyn! Yəcuc və Məcuc (adlı qövmlər) yer üzündə fitnə-fəsad törədirlər. Onlarla bizim aramızda bir sədd çəkməyin müqabilində sənə bir vergi verəkmi?"[1]

95. Zülqərneyn: "Rəbbimin mənə verdiyi (imkan və qüdrət sizin verəcəyiniz vergidən) daha xeyirlidir. İndi siz mənə gücünüzlə yardım edin ki, sizinlə onların arasına möhkəm bir sədd çəkim", – dedi.

96. "Mənə (lazımi miqdarda) dəmir[2] gətirin", – dedi. İki yamacın arasındakı boşluğu (dağlarla) eyni səviyyəyə çatdırdıqda: "Körükləyin!" – dedi. Dəmiri əridib od halına gətirdikdə isə: "Mənə ərimiş mis gətirin, bunun üstünə töküm", – dedi.

97. Daha onu nə aşa bildilər, nə də deşə bildilər.

98. Zülqərneyn: "Bu, Rəbbimin bir rəhmətidir. Rəbbimin vədi (qiyamətin qopma saatı) gəldikdə onu yerlə bir edər. Rəbbimin vədi haqdır", – dedi.

99. O gün biz onları buraxarıq, dalğa-dalğa bir-birilərinə qarışarlar. Sonra sura[3] üfürülər, onların hamısını bir yerə toplayarıq.

100, 101. O gün gözləri zikrimə (Qur`ana) qarşı pərdəli olan və onu dinləməyi belə bacarmayan kafirlərə cəhənnəmi (bütün dəhşəti ilə) ərz edərik.

102. İnkar edənlər məni buraxıb qullarımı dost tutacaqlarınımı sandılar? Biz cəhənnəmi kafirlər üçün bir mənzil olaraq hazırladıq.

103, 104. (Ey Muhamməd!) De ki: "Əməl baxımından ən çox ziyana uğrayan, yaxşı işlər gördüklərini sandıqları halda dünya həyatındakı bütün səyləri boşa çıxan kimsələri sizə xəbər verəkmi?"

105. Onlar Rəblərinin ayələrini və Ona qovuşacaqlarını inkar edən, beləliklə, əməlləri boşa gedən, o səbəblə də qiyamət günündə əməlləri(ni ölçmək) üçün bir tərəzi (belə) qurmayacağımız kimsələrdir.

---

1 Qur`ani-Kərimdə Yəcüc və Məcücün kimlər olduğuna, nə zaman və harada yaşadıqlarına dair bir məlumat yoxdur. Bu barədə həzrət Peyğəmbərdən bəzi rəvayətlər nəql edilmişdir. Ancaq bu rəvayətlər Yəcüc və Məcücün kim olduqları haqqında deyil, onların əməlləri haqqındadır. Tarixçilər Yəcüc və Məcücün həzrət Nuhun oğullarından Yafəsin soyundan gələn iki xalq olduğunu bildirmişlər. Bəzi alimlər isə Yəcüc və Məcücü öz dövrlərindəki savaşqan və təxribatçı xalqlarla əlaqələndirməyə çalışmışlar ki, bunların da elmi əsası yoxdur.

Yəcuc və Məcuc haqqında baxın: Ənbiya, 21/96.

2 Qur`anda "zübəral-hədid" şəklində keçən ifadə "dəmir parçaları", "dəmir kütlələri" kimi tərcümə olunsa da, biz "dəmir" kimi tərcümə etməyi daha münasib gördük.

3 "Sur" üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bizə məlum olmayan bir boru deməkdir.

**106.** Bax belə... Küfr etdikləri üçün, ayələrimi və peyğəmbərlərimi məsxərəyə qoyduqları üçün onların cəzası cəhənnəmdir.

**107, 108.** İman edib saleh işlər görənlərə gəlincə onlar üçün bir mənzil olaraq içində əbədi qalacaqları Firdovs cənnətləri var. Onlar oradan ayrılmaq istəməzlər.

**109.** De ki: "Rəbbimin sözlərini yazmaq üçün dənizlər mürəkkəb olsa və bir o qədər də əlavə etsək (dənizlərə dəniz qatsaq), Rəbbimin sözləri tükənmədən əvvəl dənizlər tükənərdi".

**110.** De ki: "Mən də ancaq sizin kimi bir insanam. (Sadəcə) mənə: "Sizin ilahınız ancaq tək bir ilahdır", – deyə vəhy olunur. Kim Rəbbinə qovuşmağı ümid edirsə, saleh bir iş görsün və Rəbbinə ibadətdə heç kəsi şərik qoşmasın".

## 19. MƏRYƏM SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 98 ayədən ibarətdir. Bəzi təfsir alimlərinə görə surənin 58-ci və 71-ci ayələri Mədinə dövründə nazil olmuşdur. Surə Məryəmin oğlu İsanı necə dünyaya gətirdiyindən bəhs etdiyi üçün bu adla adlandırılmışdır. Surədə başlıca olaraq tövhidin bərqərar olunması məqsədilə bəzi peyğəmbərlərin qissələri və qiyamət səhnələrindən söhbət açılır.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Kəf Hə Yə Ayn Sad.[1]

**2.** Bu, Rəbbinin qulu Zəkəriyyaya olan mərhəmətinin xatırlanmasıdır.

**3.** Bir vaxt o, Rəbbinə gizli bir səslə yalvarmışdı.

**4.** O, belə demişdi: "Rəbbim! Şübhəsiz, sümüklərim zəifləyib boşaldı. Saçım saqqalım ağardı. Sənə etdiyim dualarda (cavabsız qalaraq) heç məhrum olmadım".

**5, 6.** "Həqiqət budur ki, məndən sonra gələcək qohumlarım(ın üsyankar olmağın)dan qorxuram. Zövcəm isə qısırdır. Mənə öz dərgahından bir övlad bəxş et ki, mənə və Yaqub xanədanına varis olsun və onu sənin razılığını qazanan bir kimsə elə!"

**7.** (Allah belə dedi:) "Ey Zəkəriyya! Xəbərin olsun ki, biz səni Yəhya adında bir oğulla müjdələyirik. Bundan əvvəl onun adını heç kimə verməmişik".

**8.** Zəkəriyya: "Rəbbim! Zövcəm qısır və mən də qocalığın son həddinə çatdığım halda mənim necə övladım ola bilər?"

**9.** (Vəhy mələyi) dedi ki: "Bəli, elədir. (Ancaq) Rəbbin deyir ki, bu, mənim üçün asandır. Necə ki, daha əvvəl heç bir şey deyilkən səni də yaratdım".

**10.** Zəkəriyya: "Rəbbim, elə isə mənə (övladım olacağına dair) bir əlamət göstər", – dedi. Allah isə: "Sənin üçün əlamət sağlam olduğun halda insanlarla (üç gün) üç gecə danışa bilməməyindir", – dedi.[2]

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 7-10-cu ayələrlə əlaqəli olaraq baxın: Ali-İmran, 3/40-41.

11. Zəkəriyya ibadət yerindən öz qövmünün qarşısına çıxdı. (Danışmaq istədi, ancaq danışa bilmədi) və onlara: "Səhər-axşam Allahı təsbih edin", – deyə işarə etdi.[1]

12, 13, 14. (Yəhya dünyaya gəlib böyüdükdə onu peyğəmbər etdik və ona:) "Ey Yəhya, kitaba möhkəm sarıl", – dedik. O, hələ uşaq ikən biz ona hikmət və qatımızdan qəlb yumşaqlığı və ruh təmizliyi bəxş etmişdik. O, Allahdan çəkinən, ata-anasına qarşı xoşrəftar biri idi. Asi bir dikbaş deyildi.

15. Doğulduğu gün, öləcəyi gün və dirildiləcəyi gün ona salam olsun!

16, 17. (Ey Muhamməd!) Kitabda (Qur`anda) Məryəmi də yad et.[2] Bir vaxt o, ailəsindən ayrılaraq şərq tərəfdə bir yerə çəkilmiş və (özünü onlardan uzaq tutmaq üçün) onlarla özü arasına bir pərdə tutmuşdu. Biz ona Cəbraili göndərmişdik, ona tam bir insan surətində görünmüşdü.

18. Məryəm: "Səndən Rəhmana sığınıram. Əgər Allahdan çəkinən birisənsə, (mənə pislik etmə)", – dedi.

19. Cəbrail: "Mən sadəcə Rəbbimin elçisiyəm. Sənə tərtəmiz bir övlad bağışlamaq üçün göndərilmişəm", – dedi.

20. Məryəm: "Mənə heç bir insan toxumadığı və iffətsiz bir qadın olmadığım halda mənim necə övladım ola bilər?" – dedi.

21. Cəbrail: "Bəli, elədir. Rəbbin deyir ki, o mənim üçün çox asandır. Onu insanlara bir möcüzə və qatımızdan bir rəhmət olması üçün belə təqdir etdik. Bu, (əzəldə) hökmü verilmiş bir işdir", – dedi.

22. Beləliklə, Məryəm hamilə qaldı və onunla uzaq bir yerə çəkildi.

23. Doğum sancısı onu bir xurma ağacına tərəf yönəltdi. "Kaş ki, bundan əvvəl öləydim, unudulub getmiş olaydım!" – dedi.[3]

24. Bu əsnada (Cəbrail) ağacın altından ona belə səsləndi: "Məyus olma, Rəbbin sənin aşağı tərəfində bir çay meydana gətirdi".

25. "Xurma ağacını özünə tərəf silkələ ki, üstünə təzə xurma tökülsün".

26. Ye, iç, gözün aydın olsun. İnsanlardan kimisə görsən, de ki: "Şübhəsiz, mən Rəhmana susmağı nəzir etdim. Bu gün heç bir insanla danışmayacağam".[4]

27. Qucağında uşağı ilə qövmünün yanına gəldi. Onlar belə dedilər: "Ey Məryəm! Çox çirkin bir iş gördün!"

28. "Ey Harunun bacısı! Sənin atan pis adam deyildi. Anan da iffətsiz deyildi".

---

1 Zəkəriyya (ə.s.)-ın işarə vasitəsilə danışmaq məcburiyyətində qalması zövcəsinin hamiləliyi barəsində əvvəlki ayədə keçən əlamətin gerçəkləşdiyini göstərir.

2 Allahın qüdrətinin dəlili olaraq həzrət Yəhyanın qeyri-adi bir şəkildə dünyaya gəlməsi hadisəsi bildirildikdən sonra burada ondan daha da qəribə olan, həzrət İsanın atasız olaraq dünyaya gəlməsi hadisəsi dilə gətirilir.

3 Həzrət Məryəmin çəkdiyi doğum sancıları onun da hər qadın kimi doğduğunu, İsanın ilah olmadığını, hər insan kimi onun da bir qadından dünyaya gəldiyini göstərir.

4 Rəvayətə görə Məryəmin qövmü İslamda da olan yemək-içmək orucundan başqa susmaqla yerinə yetirilən sükut orucu da tutarmışlar. Bu ayə onlarda belə bir orucun mövcud olduğunu göstərir.

29. (Məryəm uşaqla danışın deyə) ona işarə etdi. "Beşikdəki bir körpəylə necə danışaq?" – dedilər.

30. Körpə belə dedi: "Şübhəsiz, mən Allahın quluyam. Mənə kitabı (İncili) verdi və məni bir peyğəmbər etdi".

31. "Harada oluramsa olum, O, məni mübarək biri etdi və mənə həyatım boyunca namazı və zəkatı əmr etdi".

32. "O, məni anama qarşı xoşrəftar biri etdi. Məni azğın bir dikbaş etmədi".

33. "Doğulduğum gün, öləcəyim gün və dirildiləcəyim gün mənə salam olsun!"[1]

34. Haqqında şübhəyə düşdükləri haqq sözə görə Məryəm oğlu İsa bax budur![2]

35. Özü üçün övlad götürmək Allaha yaraşmaz. O, bundan ucadır, uzaqdır. Bir işə hökm verdiyi zaman ona sadəcə "Ol!" – deyər və o da olar.

36. Şübhəsiz, Allah mənim də Rəbbimdir, sizin də. Elə isə (yalnız) Ona qulluq edin. Bu, doğru bir yoldur.

37. (Lakin xristian) firqələr öz aralarında ixtilafa düşdülər.[3] Böyük bir günü görüb yaşayacaqları üçün vay kafirlərin halına!

38. Bizim hüzurumuza gələcəkləri gün (həqiqəti) çox yaxşı eşidib çox yaxşı görəcəklər. Lakin zalımlar bu gün açıq-açkar bir zəlalət içindədirlər.

39. Qəflətdə olub iman etmədikləri üçün sən onları işin bitiriləcəyi o peşmanlıq günündən xəbərdar et.

40. Şübhəsiz, yer üzünə və onun üstündəkilərə biz varis olacağıq. Ancaq bizə döndəriləcəklər.

41. Kitabda İbrahimi də yad et. Həqiqətən, o, son dərəcə dürüst bir kimsə, bir peyğəmbər idi.

42. Bir vaxt atasına belə demişdi: "Atacan! Eşitməyən, görməyən və sənə bir xeyri olmayan şeylərə nə üçün ibadət edirsən?"

43. "Atacan! Doğrusu, sənə gəlməyən bir elm mənə gəlmişdir. Mənə tabe ol ki, səni doğru yola yönəldim".

44. "Atacan! Şeytana ibadət etmə! Çünki şeytan Rəhmana qarşı asi olmuşdur".

45. "Atacan! Doğrusu, mən çox şəfqətli Rəhman tərəfindən sənə bir əzabın toxunacağından və beləliklə, şeytana dost olacağından qorxuram".

46. Atası: "Ey İbrahim! Sən mənim ilahlarımdan üz çevirirsən? Əgər bu işdən əl çəkməsən, səni mütləq daşqalaq edərəm. Uzun bir müddət məndən uzaqlaş!" – dedi.

47. İbrahim belə dedi: "Salamat qal! Rəbbimdən sənin üçün əfv diləyəcəyəm. Şübhəsiz, O, məni nemətləri ilə əhatə etmişdir".

---

1 Həzrət İsanın beşikdəykən danışması ilə əlaqəli olaraq baxın: Ali-İmran, 3/46; Maidə, 5/110.

2 Ayə bu şəkildə də tərcümə oluna bilər: "Haqqında şübhə etdikləri Məryəm oğlu İsa –haqq söz olaraq – budur".

3 Xristianlardan bəzisi: "İsa Allahın oğludur", bəzisi: "İsa bir ilahdır", bəzisi də: "İsa tanrı üçlüyünün üçüncüsü olan oğuldur", – deyirlər.

48. “Sizi və Allahdan qeyri ibadət etdiklərinizi tərk edir və Rəbbimə ibadət edirəm. Rəbbimə ibadət etməklə bədbəxt olmayacağıma ümid edirəm”.

49. İbrahim onları və onların tapındıqlarını tərk etdikdə ona İshaqı və Yaqubu bəxş etdik və hər birini peyğəmbər etdik.

50. Onlara öz rəhmətimizdən bağışladıq. Onlar üçün uca bir doğruluq dili var etdik (gözəl bir sözlə yad edilmələrini təmin etdik).

51. Kitabda Musanı da yad et. Həqiqətən, o, seçilən bir insan idi. Bir rəsul, bir nəbi idi.[1]

52. Ona Tur dağının sağ tərəfindən səsləndik və onunla gizlicə danışmaq üçün özümüzə yaxınlaşdırdıq.

53. Rəhmətimiz nəticəsində qardaşı Harunu bir nəbi olaraq ona bəxş etdik.

54. Kitabda İsmaili də yad et. Həqiqətən, o, sözündə duran biri idi. Bir rəsul, bir nəbi idi.

55. Ailəsinə namazı və zəkatı əmr edərdi. Rəbbinin rizasına nail olmuşdu.

56. Kitabda İdrisi də yad et. Həqiqətən, o, doğru sözlü bir kimsə, bir nəbi idi.

57. Onu uca bir məqama yüksəltdik.

58. Bunlar Adəmin və Nuh ilə birlikdə (gəmiyə) mindirdiklərimizin soyundan, İbrahimin, Yaqubun (İsrailin) və doğru yola yönəldib seçdiklərimizin soyundan nemət verdiyimiz nəbilərdir. Onlara Rəhmanın ayələri oxunduğu zaman ağlayaraq səcdəyə qapanardılar.[2]

59. Onlardan sonra namazı hədər edən, şəhvət və dünyəvi həvəslərin arxasınca düşən bir nəsil gəldi. Onlar bu davranışlarından ötrü böyük bir əzaba düçar olacaqlar.[3]

---

1 Nəbi insanın öz gücü ilə əldə edə bilməyəcəyi bir xəbəri və ya hökmü Allahdan vəhy yolu ilə alan kimsədir. Rəsul isə Allahdan aldığı vəhyi insanlara təbliğ etmək və tətbiq etməklə vəzifələndirilmiş bir nəbidir. Bu vəhy yeni bir şəriət, yeni bir din gətirə biləcəyi kimi əvvəlki bir peyğəmbərin şəriətinə tabe olub onu təbliğ etməyi də əmr edə bilər. “Rəsul yeni bir kitab və şəriət gətirən, nəbi isə yeni bir kitab və şəriət gətirməyib əvvəlki bir peyğəmbərin şəriətinə uyaraq onu tətbiq etmək üçün göndərilən kimsədir” və ya bunun əksi, yəni “Nəbi yeni bir kitab və şəriət gətirən, rəsul isə yeni bir kitab və şəriət gətirməyib əvvəlki bir peyğəmbərin şəriətinə uyaraq onu tətbiq etmək üçün göndərilən kimsədir” şəklindəki təriflər tutarlı deyil. Çünki Qur`ani-Kərim yeni bir kitab və şəriət gətirən peyğəmbərlərə “rəsul” dediyi kimi, yeni bir kitab və şəriət gətirməyən Lut, Salih və İlyas kimi bəzi peyğəmbərləri də “rəsul” adlandırmışdır. (Baxın: Şüəra, 26/143, 162; Saffat, 37/123. Bu ayələrin tərcümələrində keçən “peyğəmbər” sözü “rəsul” sözünün qarşılığı olaraq verilmişdir.)

Göründüyü kimi bu və buna bənzər ayələr yuxarıdakı təriflərin tutarsız olduğunu göstərir. Bu tutarsızlıq təriflərdə yeni bir şəriət və kitab gətirməyin əsas meyar olaraq götürülməsindən qaynaqlanır. Bu meyarın hansı dəlil və ya dəlillərə əsaslandığını demək mümkün deyil. Halbuki yuxarıda verdiyimiz tərifdə də olduğu kimi rəsul və nəbi ilə bağlı təriflərdə əsas meyar vəhy almaq hadisəsi olmalıdır. Qeyd edilən tutarsızlıqdan yalnız bu şəkildə qurtulmaq mümkün olar. Buna əsasən nübüvvət mütləq mənada Allahdan vəhy almaq, risalət isə bu vəhyin təbliğidir. Hər ikisi də bir peyğəmbərin bir-birini tamamlayan iki ayrı vəsfidir. Rəsul olmaq üçün nəbi olmaq, yəni vəhy almaq şərt olduğu kimi, risalətsiz və təbliğsiz bir nübüvvət düşünmək də mümkün deyil. Ancaq Qur`anda yerinə görə bir peyğəmbərin bu iki vəsfindən bəzən biri, bəzən digəri, bəzən də hər ikisi birdən işlədilir.

2 Yaqub İbrahimin (ə.s.) İsmail və İshaqdan sonrakı üçüncü oğludur.

3 Ayənin son hissəsi “Onlar bu (davranışları)ndan ötrü cəhənnəmdəki Qeyyə vadisinə atılacaqlar” şəklində

60, 61. Ancaq tövbə edib iman edən və saleh işlər görənlər istisnadır. Onlar cənnətə, Rəhmanın qeybdən qullarına vəd etdiyi Ədn cənnətlərinə daxil olacaqlar və heç bir haqsızlığa məruz qalmayacaqlar. Şübhəsiz, Onun vədi mütləq yerinə yetər.

62. Orada boş söz eşitməzlər. Yalnız (mələklərin) "Salam!" (deməyini) eşidərlər. Orada səhər axşam ruziləri də var.

63. Bu, qullarımızdan Allaha qarşı gəlməkdən çəkinənləri varis edəcəyimiz cənnətdir.

64. (Cəbrail belə dedi:) "Biz ancaq Rəbbinin əmri ilə enərik. Önümüzdə, arxamızda və bunlar arasında nə varsa hamısı Onundur. Rəbbin unutqan deyil".[1]

65. (Allah) göylərin, yerin və bu ikisi arasındakıların Rəbbidir. O halda Ona ibadət et və Ona ibadət etməkdə səbirli ol. Heç Onun adını daşıyan başqa birini tanıyırsanmı?

66. İnsan: "Öldüyüm zaman, həqiqətən, diri olaraq (torpaqdan) çıxardılacammı?" – deyər.

67. İnsan bundan əvvəl heç bir şey deyilkən onu yaratdığımızı düşünməzmi?

68. Rəbbinə and olsun, onları mütləq şeytanlarla birlikdə həşr edəcəyik. Sonra onları cəhənnəmin ətrafında diz üstə hazır gözlədəcəyik.

69. Sonra isə hər firqədən Rəhmana qarşı ən üsyankar olanları çəkib çıxaracağıq.

70. Sonra oraya girməyə ən layiq olanları şübhəsiz ki, ən yaxşı biz bilirik.

71. (Ey insanlar!) Sizdən cəhənnəmə varmayacaq heç kim yoxdur. Rəbbin üçün bu, qəti olaraq hökmü verilmiş bir işdir.

72. Sonra Allaha qarşı gəlməkdən çəkinənləri xilas edərik, zalımları isə orada diz üstə çökmüş halda buraxarıq.

73. Ayələrimiz onlara açıq-aydın oxunduğu zaman inkar edənlər iman edənlərə: "İki firqədən hansının məqamı daha xeyirli, məclisi daha gözəldir?" – dedilər.[2]

74. Biz onlardan əvvəl mal-mülk və görünüş baxımından daha gözəl olan neçə-neçə nəsilləri həlak etdik.

75. (Ey Muhamməd!) De ki: "Kim zəlalət içindədirsə, Rəhman onlara istənilən qədər möhlət versin! Nəhayət, onlara vəd olunan əzabı ya da qiyaməti gördükləri zaman kimin yerinin daha pis, kimin tərəfdarlarının daha zəif olduğunu biləcəklər".

76. Allah doğru yolda olanların hidayətini artırar. Qalıcı saleh əməllər Rəbbinin qatında həm savab etibarilə, həm də nəticə etibarilə daha xeyirlidir.

---

də tərcümə oluna bilər.

1 Müşriklərin Əshabi-kəhf, Zülqərneyn və Nuh haqqındakı suallarına cavab verməyən həzrət Peyğəmbər bu suallarla bağlı qısa zamanda vəhy gələcəyini ümid edirdi. Lakin vəhyin gəlməsi on beş və ya qırx gün gecikmişdi. Belə olduqda müşriklər ona istehza edərək: "Rəbbi Muhamlmədi tərk etdi", – demişdilər. Məhz bu ayə müşriklərin ittihamına cavab olması üçün Cəbrailin həzrət Peyğəmbərə dediyi sözü nəql edir.

2 Allahın açıq-aydın ayələrini eşidib onlara nəzirə gətirməkdən aciz qalan inkarçılar öz maddi və dünyəvi qazancları ilə qürrələnməyə başladılar. Bu ayə onların bu səthi düşüncələrinə işarə edir.

77. Ayələrimizi inkar edib "Əlbəttə, mənə mal-mülk və övlad veriləcək" deyəni gördünmü?[1]
78. Qeybi görüb, yoxsa Rəhmandan bir söz alıb?
79. Xeyr! (İş onun dediyi kimi deyil). Biz onun söylədiklərini yazacağıq və əzabını artırdıqca artıracağıq.
80. Onun (axirətdə sahib olacağını) söylədiyi şeylərə biz varis olacağıq və o bizim hüzurumuza tək başına gələcək.
81. Onlar özləri üçün güc və şərəf (qaynağı) olsunlar deyə Allahdan başqa ilahlar qəbul etdilər.
82. Xeyr! İlahları onların ibadətlərini inkar edəcək və onlara düşmən olacaqlar.[2]
83. Kafirlərin üstünə onları dayanmadan (günaha və azğınlığa) sövq edən şeytanları göndərdiyimizi görmədinmi?
84. Ey Muhammәd! Elə isə onların əzaba düçar olmalarını istəməkdə tələsmə. Biz onlar üçün ancaq (təqdir etdiyimiz) günləri sayırıq.
85, 86. Allaha qarşı gəlməkdən çəkinənləri Rəhmanın hüzurunda bir elçi heyəti kimi toplayacağımız, günahkarları isə suya tərəf qaçan susuz dəvələr kimi cəhənnəmə sövq edəcəyimiz günü düşün!
87. Rəhmanın dərgahından söz alanlardan başqa heç kim şəfaət haqqına sahib olmayacaq.
88. Onlar: "Rəhman övlad götürdü", – dedilər.
89. And olsun, siz çox çirkin bir şey iddia etdiniz.
90, 91. Rəhmana övlad isnad etdikləri üçün az qaldı ki, göylər parçalansın, yer yarılsın, dağlar yıxılıb çöksün.
92. Halbuki bir övlad götürmək Rəhmana yaraşmaz.
93. Göylərdəki və yerdəki hər kəs Rəhmanın hüzuruna qul kimi gələcək.
94. And olsun, Allah onları elmi ilə əhatə etmiş və onları tək-tək saymışdır.
95. Onlar(ın hər biri) qiyamət günü Onun hüzuruna tək başına gələcək.
96. İman edib saleh işlər görənlər üçün Rəhman (ürəklərə) bir sevgi qoyacaq.
97. (Ey Muhammәd!) Biz Qur`anı sənin dilinlə (endirib) asanlaşdırdıq ki, onunla Allaha qarşı gəlməkdən çəkinənləri müjdələyəsən, inadkar bir qövmü də xəbərdar edəsən.
98. Biz onlardan əvvəl neçə-neçə nəsilləri həlak etdik. Heç onlardan birini hiss edir, yaxud onlardan bir səs-səmir eşidirsənmi?

---

1 77-78-ci ayələr məkkəli müşriklərdən As ibn Vail haqqında nazil olmuşdur. Rəvayətə görə əshabdan Həbbab ibn Ərət As ibn Vaildən borcunu istəmiş, o isə: "Siz öldükdən sonra dirildiləcəyinizi, cənnətdə qızılların, gümüşlərin olduğunu iddia edirsiniz. Mən də sənə borcumu orada ödəyəcəyəm. Çünki orada mənə mal-mülk və övlad veriləcək", – demişdi.

2 Bütlərin müşrikləri təkzib etmələri ilə əlaqəli olaraq baxın: Yunus, 10/28.

# 20. TAHA SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 135 ayədən ibarətdir. Surə birinci ayədə keçən hərflərə görə belə adlandırılmışdır. Surədə Allahın peyğəmbərlər vasitəsilə insanlara göstərdiyi doğru yolun əsl həqiqətlərinə işarə edilir, həzrət Peyğəmbər təsəlli edilərək onun peyğəmbərlik vəzifəsini ən gözəl şəkildə yerinə yetirəcəyi müjdələnir, ona qarşı çıxanların üzləşəcəyi aqibət izah edilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Ta Hə.[1]

**2, 3.** (Ey Muhamməd!) Biz Qur`anı sənə məşəqqət çəkəsən deyə deyil, ancaq (Allahın əzabından) qorxanlara (bir xəbərdarlıq) olsun deyə nazil etdik.[2]

**4.** (O,) yeri və uca göyləri yaradanın dərgahından hissə-hissə endirilmişdir.

**5.** Rəhman Ərşin[3] üzərində bərqərar olmuşdur.

**6.** Göylərdəki, yerdəki, bu ikisi arasındakı və torpağın altındakı hər şey yalnız Onundur.

**7.** Sən sözü aşkara söyləsən də, gizləsən də Allah üçün birdir. Çünki O, gizlini də bilir, ondan daha gizli olanı da.

**8.** Allah ondan başqa heç bir ilah olmayandır. Ən gözəl isimlər Onundur.

**9.** Musanın xəbəri sənə gəlib çatdımı?

**10.** Bir vaxt o, bir alov görüb öz ailəsinə: “Siz burada qalın, mən bir alov gördüm (oraya gedirəm). Ola bilsin ki, ondan sizə bir od parçası gətirərəm və yaxud alovun yanında bir yol göstərən taparam”, – demişdi.[4]

**11.** Alovun yanına çatdıqda ona belə nida olundu: “Ey Musa!”

**12.** “Həqiqətən, mən sənin Rəbbinəm. Dərhal ayaqqabılarını çıxar. Çünki sən müqəddəs Tuva vadisindəsən”.

**13.** “Mən səni (peyğəmbər olaraq) seçdim. İndi vəhy olunanı dinlə”.

**14.** “Həqiqətən, mən Allaham. Məndən başqa heç bir ilah yoxdur. Elə isə mənə ibadət et və məni yad etmək üçün namaz qıl”.

**15.** “Qiyamət mütləq gələcək. Hər kəs etdiyi əməllərin qarşılığını görsün deyə az qalmışdı ki, onu gizləyim (gələcəyindən heç xəbər verməyim)”.

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Rəvayətə görə, həzrət Peyğəmbərin çox ibadət etdiyini görən Qüreyş müşrikləri: “Allah bu Qur`anı Muhamməda əziyyət çəksin deyə endirdi”, – dedikləri üçün bu ayə nazil olmuşdur.

3 Ərş qüdrət və hakimiyyət taxtı, sonsuz qüdrət məqamı deməkdir.

4 Misirdə Fironun himayəsi altında yetişən həzrət Musa orada istəmədən bir adamı öldürdükdən sonra Mədyənə qaçmaq məcburiyyətində qalmış, orada həzrət Şüeyb ilə qarşılaşmış və ona səkkiz il –istədiyi təqdirdə on il – çobanlıq etməsi qarşılığında qızlarından biri ilə evlənmişdi. Bu müddəti başa vuran həzrət Musa bir qış gecəsi doğulub boya-başa çatdığı Misirə tərəf gedərkən yolunu itirmişdi. Bu ayələrdə sadəcə bir qismi diqqətə çatdırılan və həzrət Musanın Misirdə, Mədyəndə və yenidən Misirdə yaşadığı hadisələr zəncirinə Qəsəs surəsində (3-42-ci ayələr) ətraflı yer verilmişdir.

16. “Buna inanmayan və nəfsinin istəklərinə uyan kimsələr səni ondan (o gün üçün hazırlıq görməkdən) yayındırmasın, yoxsa sonra həlak olarsan!”

17. “O sağ əlindəki nədir, ey Musa?”

18. Musa: “O, mənim əsamdır. Ona söykənir, onunla qoyunlarıma yarpaq çırpıram. Onunla başqa işlərimi də görürəm”, – dedi.

19. Allah: “Onu yerə at, ey Musa!” – dedi.

20. Musa onu yerə atdı. Bir də gördü ki, o, sürətlə sürünən bir ilan olub.

21. Allah belə dedi: “Tut onu. Qorxma! Biz onu yenə əvvəlki şəklinə qaytaracağıq”.

22, 23. Sənə böyük möcüzələrdən daha birini göstərməyimiz üçün əlini qoynuna sal ki, bir başqa möcüzə olaraq bir xəstəlik səbəbi olmadan ağappaq bir halda çıxsın.[1]

24. “Fironun yanına get, çünki o azğınlaşıb həddi aşmışdır”.

25. Musa dedi: “Rəbbim! Könlümü açıb genişlət”.

26. “İşimi asanlaşdır”.

27, 28. “Dilimdəki düyünü aç ki, sözümü anlasınlar”.

29. “Mənə ailəmdən bir köməkçi ver”

30. “Qardaşım Harunu”.

31. “Onunla gücümü artır”.

32. “Onu işimə ortaq et”.

33. “Səni çox təsbih edək deyə”

34. “Səni çox zikr edək deyə”

35. “Çünki sən bizi haqqı ilə görənsən”.

36. Allah belə dedi: “İstədiyin sənə verildi, ey Musa!”

37. “And olsun, biz sənə bir dəfə də ehsan etmişdik”.

38. “Bir vaxt anana ilham edilməli olanları ilham etmişdik:”

39. “Onu (körpə Musanı) sandığın içinə qoy və dənizə (Nilə) at ki, dəniz onu sahilə atsın, həm mənə, həm də ona düşmən olan biri (Firon) onu götürsün. Ey Musa, seviləsən və himayəm altında yetişdiriləsən deyə öz tərəfimdən sənin üçün bir məhəbbət yaratmışdım”.

40. O vaxt bacın (Firon ailəsinin yanına) gedib: “Ona baxa biləcək birini sizə göstərimmi?” – deyirdi. Beləliklə, gözü aydın olsun, kədərlənməsin deyə səni öz anana qaytardıq.[2] (Sənə baxdı, böyüdün) və (təsadüfən, istəmədən) bir adam öldürdün. Biz səni kədərdən qurtardıq, səni ciddi sınaqlardan keçirdik (və qaçıb Mədyənə

1 Bu möcüzə ilə əlaqəli olaraq baxın: Nəml, 27/12.

2 Təfsir alimlərinin bildirdiyinə görə, Firon ailəsi körpə Musanı tapıb götürdükdən sonra uşaq heç bir qadından süd əmməməyə başladı. Ona süd əmizdirəcək bir qadın axtardıqları əsnada böyük bacısı Məryəm Firon ailəsinə: “Sizə ona baxıb əmizdirəcək birini göstərimmi?” – dedikdə bu təklif qəbul olundu. Gedib Musanın anasını gətirdilər və körpə onun südünü qəbul etdi. Beləliklə, Musa yenidən anasına qayıtmış oldu.

getdin). Mədyən xalqı arasında illərlə qaldın. Sonra (peyğəmbər olmağın üçün) təqdir olunmuş bir zamanda (Tura) gəldin, ey Musa!"

41. "Mən səni özüm üçün seçdim".
42. "Sən və qardaşın möcüzələrimlə (dəstəklənmiş olaraq) gedin və məni zikr etməkdə səhlənkarlıq etməyin".
43. "Fironun yanına gedin. Çünki o, azğınlaşıb həddi aşmışdır".
44. "Ona yumşaq söz söyləyin. Bəlkə öyüd-nəsihət götürər, yaxud qorxar".
45. Musa və Harun belə dedilər: "Ey Rəbbimiz! Əslində, biz onun bizə qarşı həddindən artıq sərt münasibət göstərməyindən, yaxud azğınlaşmağından qorxuruq".
46. Allah belə dedi: "Qorxmayın, çünki mən sizinləyəm. Eşidirəm və görürəm".
47. Onun yanına gedin və belə deyin: "Şübhəsiz, biz Rəbbinin elçiləriyik. İsrail oğullarını (azad et və) bizimlə göndər. Onlara işgəncə vermə. Sənə Rəbbinin qatından bir möcüzə gətirmişik. Salam olsun hidayət yolunu tutanlara".
48. "Həqiqətən, əzabın inkar edən və üz döndərənlərin üzərinə olacağı bizə vəhy olundu".
49. Firon: "Sizin Rəbbiniz kimdir, ey Musa?" – dedi.
50. Musa: "Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra onlara yol göstərəndir", – dedi.
51. Firon: "Bəs keçmiş nəsillərin halı nə olacaq?" – dedi.
52. Musa belə dedi: "Onlar haqqındakı bilik Rəbbimin qatında bir kitabda (Lövhi-məhfuzda yazılı)dır. Rəbbim yanılmaz və unutmaz".
53. "Rəbbim sizin üçün yer üzünü beşik kimi yaradan, orada sizin üçün yollar açan və sizə göydən yağmur endirəndir". Beləliklə, onunla sizin üçün yerdən növbənöv birkilərdən cüt-cüt çıxardıq.
54. Yeyin və heyvanlarınızı otarın. Şübhəsiz, bunda ağıl sahibləri üçün (Allahın varlığını və birliyini göstərən) dəlillər var.
55. (Ey insanlar!) Sizi torpaqdan yaratdıq, (öldükdən sonra) sizi oraya qaytaracağıq və sizi bir dəfə də çıxardacağıq.
56. And olsun, biz ona (Firona) bütün möcüzələrimizi göstərdik, o bunları yalan saydı və rədd etdi.
57. Belə dedi: "Ey Musa! Sehrin ilə bizi yurdumuzdan çıxarmaq üçün gəlmisən?"
58. Biz də mütləq sənə qarşı onun kimi bir sehr göstərəcəyik. Bunun üçün səninlə bizim aramızda nə sənin, nə də bizim yayınacağımız bir görüş vaxtı və münasib bir yer təyin et.
59. Musa: "Görüş vaxtımız bayram günü insanların toplandığı səhər vaxtıdır", – dedi.
60. Firon dönüb getdi, hiylələrini (hiylə quran sehrbazları) topladı, sonra gəldi.
61. Musa onlara belə dedi: "Vay sizin halınıza! Allaha qarşı yalan uydurmayın, yoxsa sizi əzab ilə yox edər. Allaha qarşı yalan uyduran mütləq ziyana uğrayar".
62. Sehrbazlar öz aralarında işlərini müzakirə etdilər və gizli-gizli danışdılar.

63. Belə dedilər: “Əslində, bu ikisi öz sehrləri ilə sizi yurdunuzdan çıxarmaq və ən üstün olan dininizi aradan qaldırmaq istəyən sehrbazlardır”.

64. “Elə isə hiylələrinizi cəmləşdirin (bir-birinizə dəstək olun) sonra sıra ilə gəlin. Bu gün üstün gələn mütləq uğur qazanmışdır”.

65. Sehrbazlar: “Ey Musa! Ya əvvəlcə sən at, ya da ilk atan biz olarıq”, – dedilər.

66. Musa: “Xeyr, (əvvəlcə) siz atın”, – dedi. (Onlar sehrlərini göstərməyə başlayan kimi) Ona elə gəldi ki, etdikləri sehrdən dolayı onların ipləri və dəyənəkləri hərəkətə gəlib sürətlə sürünür.

67. Musa içində bir qorxu hiss etdi.

68. (Biz ona) Belə dedik: “Qorxma (ey Musa!) Çünki ən üstün olan sənsən”.

69. “Sağ əlindəkini (əsanı) at ki, onların etdiklərini udsun. Şübhəsiz, etdikləri bir sehrbaz hiyləsidir. Sehrbaz isə haraya getsə, qurtuluşa nail olmaz”.

70. (Musanın əsası sehrbazların iplərini və dəyənəklərini udduqda) sehrbazlar dərhal səcdəyə qapandılar və: “Harunun və Musanın Rəbbinə iman etdik”, – dedilər.

71. Firon: “Deməli mən sizə izin verməzdən əvvəl ona (Musaya) iman etdiniz (eləmi?). Şübhə yoxdur ki, o sizə sehri öyrədən böyüyünüzdür. And olsun, indi sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsəcəyəm və mütləq sizi xurma ağacının budaqlarından asacağam. Hansımızın əzabının daha şiddətli və daha qalıcı olduğunu mütləq biləcəksiniz”.

72. Sehrbazlar dedilər: “Biz əsla səni bizə gələn açıq-aydın dəlillərdən və bizi yaradandan üstün tutmayacağıq. Artıq sən verəcəyin hökmü ver. Sən ancaq bu dünya həyatında hökm verərsən”.

73. “Şübhəsiz ki, biz Rəbbimizə iman etdik ki, günahlarımızı və sənin bizə məcburən etdirdiyin sehri bağışlasın. Allahın verəcəyi mükafat daha xeyirli və daha qalıcıdır”.

74. Şübhəsiz, kim Rəbbinin hüzuruna günahkar olaraq gələrsə, mütləq onun üçün cəhənnəm var. Orada nə ölər, nə də (gözəl bir həyat) yaşayar.

75, 76. Kim də Onun hüzuruna saleh əməllər işləmiş bir mömin olaraq gələrsə, onlar üçün ən yüksək dərəcələr, içindən çaylar axan, içində əbədi qalacaqları Ədn cənnətləri var. Bu, günahlardan təmizlənənlərin mükafatıdır.

77. (Firon iman etmədikdə) Musaya: “Qullarımı (İsrail oğullarını) gecə vaxtı (Misirdən) yola çıxar. Ələ keçirilməkdən qorxmadan, əndişə etmədən onlara dənizdə quru bir yol aç”, – deyə vəhy etdik.

78. Firon əsgərləri ilə birlikdə onların arxasınca düşdü, dəniz onları görülməmiş bir şəkildə bürüyüb qərq etdi.

79. Firon öz qövmünü sapdırdı, onlara doğru yolu göstərmədi.

80. (Allah belə dedi:) “Ey İsrail oğulları! Sizi düşməninizdən xilas etdik, sizə Turun sağ tərəfini vəd etdik və sizə qüdrət halvası ilə bildirçin endirdik”.

81. “Sizə ruzi olaraq verdiklərimizin təmiz və halal olanlarından yeyin. Bunda həddi

aşmayın, yoxsa üzərinizə qəzəbim enər. Qəzəbim də kimin üzərinə enərsə, şübhəsiz, o, həlak olmuşdur".

82. "Şübhə yoxdur ki, mən tövbə edib inanan və saleh işlər görən, sonra da doğru yolda getməyə davam edən kimsəyə qarşı son dərəcə bağışlayıcıyam".

83. (Musa Tur dağına yetişdikdə:) "Səni tələm-tələsik qövmündən uzaqlaşmağa vadar edən nədir, ey Musa?" (– dedik.)[1]

84. Musa belə dedi: "Onlar arxamdadırlar. Rəbbim! Sən razı qalasan deyə tələsərək sənin hüzuruna gəldim".

85. Allah: "Şübhəsiz, biz səndən sonra qövmünü sınağa çəkdik. Samiri onları sapdırdı", – dedi.

86. Musa qəzəbli və məyus halda qövmünün yanına qayıtdı. "Ey qövmüm! Rəbbiniz sizə gözəl bir vəd vermədimi? (Mən ayrıldıqdan sonra) uzun zaman keçdi, yoxsa üzərinizə Rəbbinizdən bir qəzəb enməsini istədiniz ki, mənə verdiyiniz sözə əməl etmədiniz (və buzova tapındınız)?" – dedi.

87. Belə dedilər: "Sənə verdiyimiz sözdən öz istəyimizlə boyun qaçırmadıq. Lakin biz Misir xalqının zinətlərindən ağır bir yük götürmüşdük. Onları oda atdıq. Eyni şəkildə Samiri də atdı".

88. Beləliklə, (Samiri) onlar üçün böyürən bir buzov heykəli düzəldib ortaya çıxardı. (Samiri və onun adamları:) "Bu, sizin də ilahınızdır, Musanın da ilahıdır. Musa (ilahını burada) unutdu (onu Turda axtarmağa getdi)", – dedilər.[2]

89. Məgər onlar bu heykəlin onların sözlərinə cavab vermədiyini, onlardan heç bir zərəri dəf edə bilməyəcəyini və onlara heç bir xeyir verə bilməyəcəyini görmürlərmi?

90. And olsun, Harun daha əvvəl onlara belə demişdi: "Ey qövmüm! Siz bununla yalnız imtahana çəkildiniz. Həqiqətən, sizin Rəbbiniz ancaq Rəhmandır. Elə isə mənə tabe olun və əmrimə itaət edin".

91. Onlar isə: "Musa yanımıza qayıdana qədər buzova ibadət etməyə davam edəcəyik", – dedilər.

92, 93. Musa (Tur dağından qayıtdıqda) belə dedi: "Ey Harun! Sapdıqlarını gördüyün zaman mənə tabe olmağına nə mane oldu? Yoxsa əmrimə qarşı gəldin?"

94. Harun: "Ey anam oğlu! Saçımı, saqqalımı çəkmə. Doğrusu, mən sənin "İsrail oğullarını bir-birindən ayırdın, sözümə baxmadın!" – deyəcəyindən qorxdum", – dedi.

95. Musa: "Bəs sənin məqsədin nə idi, ey Samiri?" – dedi.

96. Samiri belə dedi: "Mən onların görmədiyini gördüm. Rəsulun izindən bir ovuc ovucladım və onu atdım. Belə etməyi nəfsim mənə gözəl göstərdi".

1 Təfsir alimlərinin bildirdiyinə görə, həzrət Musa Tur dağına gedərkən xalqından seçdiyi bəzi təmsilçiləri də özü ilə aparmışdı. Yol gedərkən Rəbbi ilə danışmaq arzusu ilə tələsmiş və onları geridə qoymuşdu. Ayədə ifadə edilən uzaqlaşma məhz budur.

2 Rəvayətə görə, İsrail oğulları Misirdən çıxacaqları gecə: "Sabah bizim bayramımızdır", – deyərək yerli xalqdan borc olaraq zinət və bəzək əşyaları almışdılar. Musanın Tur dağına getməsindən sonra Samiri onları razı salaraq qızılları odda əritmiş, qəlibə tökərək bir buzov heykəli düzəltmişdi.

97. Musa: "Çıx get! Artıq sən həyatın boyunca (xəstə olub): "Mənə toxunmaq olmaz!" – deyəcəksən.[1]" Sənin üçün əsla qaçıb qurtula bilməyəcəyin bir cəza da var. Durmadan tapındığın ilahına bir bax! Biz onu, əlbəttə, yandıracağıq və onu dənizə sovuracağıq.

98. Sizin ilahınız ondan başqa heç bir ilah olmayan Allahdır. O, elmi ilə hər şeyi əhatə etmişdir.

99. (Ey Muhamməd!) Keçmişin xəbərlərinin bir qismini sənə belə danışırıq. Şübhə yoxdur ki, sənə öz qatımızdan bir zikr (Qur`an) verdik.

100. Kim ondan üz döndərsə, şübhəsiz ki, o, qiyamət günündə ağır bir günah yükü yüklənəcək.

101. Onlar o günahın cəzası içində əbədi qalacaqlar. Qiyamət günü onların yükləndiyi yük necə də pisdir!

102. Sura üfürüləcəyi gün[2] günahkarları (gözləri qorxudan) göm-göy göyərmiş bir halda həşr edəcəyik.

103, 104. Onlar öz aralarında bir-biriləri ilə: "(Dünyada) sadəcə on (gün) qaldınız", – deyə gizli-gizli danışacaqlar. –Onların nə haqqında danışdıqlarını biz daha yaxşı bilirik. – O zaman aralarından ən ağlı başında olanı: "Siz sadəcə bir gün qaldınız", – deyəcək.

105. (Ey Muhamməd!) Səndən dağların (qiyamət günündəki) halını soruşurlar. De ki: "Rəbbim onları toz edib sovuracaq".

106. "Onların yerini bomboş bir düzənlik halına salacaq".

107. "Orada nə bir çuxur, nə də bir təpə görməyəcəksən".

108. O gün insanlar qaçılması mümkün olmayan dəvətçiyə (İsrafilə) tabe olarlar. Rəhmanın əzəməti qarşısında səslər qısılar. Artıq sadəcə pıçıltı eşidə bilərsən.

109. O gün Rəhmanın izin verdiyi və sözündən razı qaldığı kəsdən başqa heç kimin şəfaəti fayda verməz.

110. O, onların önlərindəkini də, arxalarındakını da (dünyadakı və axirətdəki hallarını) bilir. Onların biliyi isə Rəhmanı əhatə edə bilməz.

111. Bütün üzlər diri, yaratdıqlarına hakim olan və onları qoruyub nəzarətində saxlayan Allaha boyun əymişdir. Zülm yüklənən mütləq ziyana uğrayar.

112. Kim də mömin olaraq saleh işlər görərsə, o nə zülmə uğramaqdan qorxar, nə də məhrum qalmaqdan.

113. Beləliklə, biz onu ərəbcə bir Qur`an olaraq endirdik və onda təhdidləri bir-bir açıqladıq ki, Allaha qarşı gəlməkdən çəkinsinlər, yaxud (o Qur`an) onlara bir öyüd-nəsihət versin.

---

1 Təfsir alimlərinin bildirdiyinə görə yoluxucu bir xəstəliyə tutulan Samiri bu xəstəliyi səbəbi ilə heç kimə toxuna bilmir, heç kim də ona toxuna bilmirdi. Biri ona toxunanda: "Toxunmaq olmaz", – deyirdi. Ayə "Artıq sən həyatın boyunca "Mənə toxunmaq olmaz! (hər kəs mənimlə əlaqəsini kəsdi) – deyəcəksən. (Həyatın boyunca yalnız yaşayacaqsan)" şəklində də tərcümə oluna bilər.

2 "Sur" üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bizə məlum olmayan bir boru deməkdir.

114. Həqiqi hökmdar olan Allah ucadır. Sənə vəhy edilməsi tamamlanmadan əvvəl Qur`anı oxumağa tələsmə. “Rəbbim! Elmimi artır”, – de.

115. And olsun, bundan əvvəl biz Adəmə (cənnətdəki ağacın meyvəsindən yeməməyi) əmr etdik. O isə bunu unutdu. Biz onda bir əzmkarlıq görmədik.

116. Bir vaxt mələklərə: “Adəm üçün ehtiramla baş əyin”, – demişdik, İblisdən başqa mələklər dərhal ehtiramla baş əymişdilər. İblis bundan boyun qaçırmışdı.

117. Biz də belə dedik: “Ey Adəm! Şübhəsiz, bu (İblis) sənin üçün və zövcən üçün bir düşməndir. Əsla sizi cənnətdən çıxarmasın, yoxsa bədbəxt olarsan”.

118. “Həqiqətən, sən orada ac da qalmazsan, çılpaq da..”.

119. “Orada nə susuzluq çəkərsən, nə də günəş altında qalarsan”.

120. Nəhayət, şeytan ona vəsvəsə verib belə dedi: “Sənə əbədiyyət ağacını və yox olmayacaq bir səltənəti göstərimmi?”

121. Onlar (Adəm və zövcəsi Həvva) o ağacın meyvəsindən yedilər. Bu səbəblə ayıb yerləri özlərinə göründü və cənnət yarpağı ilə üstlərini örtməyə başladılar. Adəm Rəbbinə üsyan etdi və yolunu azdı.

122. Sonra Rəbbi onu seçdi, tövbəsini qəbul etdi və ona doğru yolu göstərdi.

123. Allah belə dedi: “Bir-birinizə düşmən olaraq[1] hamınız oradan enin. Tərəfimdən sizə bir hidayət (kitab) gəldiyi zaman kim mənim hidayətimə tabe olarsa, artıq nə (dünyada) zəlalətə düşər, nə də (axirətdə) əziyyət çəkər”.

124. “Kim də mənim zikrimdən (Qur`andan) üz çevirərsə, onun güzaranı çətin olar və biz onu qiyamət günündə kor olaraq həşr edərik”.[2]

125. O isə belə deyər: “Rəbbim! Dünyada görən bir kimsə olduğum halda nə üçün məni kor olaraq həşr etdin?”

126. Allah: “Bəli, elədir. Ayələrimiz sənə gəldiyi zaman sən onları unutdun. Eləcə də bu gün sən unudulursan”, – deyər.

127. Həddi aşan və Rəbbinin ayələrinə inanmayanları belə cəzalandırarıq. Şübhəsiz, axirət əzabı daha şiddətli və daha qalıcıdır.

128. Onlardan əvvəl neçə-neçə nəsilləri həlak etməyimiz –hansı ki, siz onların yurdlarında gəzib dolaşırsınız – onları doğru yola yönəltmədimi? Şübhəsiz, bunda ağıl sahibləri üçün ibrətlər var.

129. Əgər Rəbbin tərəfindən daha əvvəl söylənmiş bir hökm və müəyyən olunmuş bir müddət olmasaydı, onlar da dərhal cəzalandırılardılar.

---

1 Burada bəhs olunan düşmənçilik həzrət Adəm ilə Həvva arasında deyil, onların soyundan gələcək insanlar arasında meydana çıxacaq düşmənçilikdir. Ayədən belə başa düşülür ki, dostluq və qardaşlıq münasibətləri kimi düşmənçilik və çəkişmələr də dünya həyatı üçün bir imtahan olaraq təqdir edilmişdir. Azad iradəsi ilə Allahın göstərdiyi istiqamətdə gedən, nəflsinə deyil, vəhyə və vicdanın səsinə qulaq asanlar zülm və haqsızlıqdan, düşmənçilik və çəkişmələrdən uzaq duranlar bu imtahanı qazanacaq.

2 Qur`an bu ayə və ardından gələn 125-ci ayədə peyğəmbərlərin təbliğ etdiyi tövhid həqiqətini görüb qəbul etmək və başqalarına çatdırmaq vəzifəsi qarşısında kor, kar və lal olanların qiyamət günündə kor, kar və lal olaraq həşr ediləcəklərini xəbər verir. (Mövzu ilə əlaqəli olaraq baxın: İsra, 17/72, 92.)

130. O halda onların söylədiklərinə səbir et və günəşin doğmasından və batmasından əvvəl Rəbbini həmd ilə təsbih et. Gecə vaxtlarında və gündüzün uclarında da təsbih et ki, razı qalasan.

131. Onları sınamaq üçün onlardan bəzilərinə dünya həyatının zinəti olaraq verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin ruzisi daha xeyirli və daha qalıcıdır.

132. Ailənə namazı əmr et və özün də ona davam et. Səndən ruzi istəmirik. Sənə də ruzini biz veririk. Gözəl aqibət Allaha qarşı gəlməkdən çəkinənlərindir.

133. İnanmayanlar: "Doğru söylədiyinə dair bizə Rəbbindən açıq bir dəlil (bir möcüzə) gətirsin görək", – dedilər. Əvvəlki kitablarda olanların açıq-aydın dəlili (olan Qur`an) onlara gəlmədimi?

134. Əgər biz onları o Qur`andan əvvəl bir əzab ilə həlak etsəydik, onlar mütləq: "Ey Rəbbimiz! Kaş ki, bizə bir peyğəmbər göndərəydin, zəlil və rəzil olmadan əvvəl sənin ayələrinə tabe olaydıq", – deyərdilər.

135. Ey Muhammməd, de ki: "Hər kəs gözləyir, siz də gözləyin. Yaxında kimin doğru yolun sahibləri olduğunu, kimin doğru yolu tapdığını biləcəksiniz!"

## 21. ƏNBİYA SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 112 ayədən ibarətdir. "Ənbiya" peyğəmbərlər deməkdir. Surə peyğəmbərlərdən, onların tövhid uğrunda apardıqları mübarizələrdən bəhs etdiyi üçün belə adlandırılmışdır.

***Bismillahir-Rahmənir-Rahim.***

1. İnsanlar üçün haqq-hesab vaxtı yaxınlaşdı. Halbuki onlar qəflət içində üz döndərirlər.

2, 3. Rəblərindən onlara elə bir yeni öyüd (bir xəbərdarlıq) gəlməz ki, onlar onu məsxərəyə qoyaraq, qəlbləri də qəflətdə olaraq dinləməsinlər. O zülm edənlər gizli-gizli belə pıçıldaşdılar: "Bu da ancaq sizin kimi bir insandır. İndi siz göz görəgörə sehrə qapılacaqsınız?"

4. Peyğəmbər onlara dedi ki: "Rəbbim yerdəki və göydəki hər sözü bilir. O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir".

5. Onlar: "Xeyr, bunlar qarmaqarışıq yalançı yuxulardır. Xeyr, onu özü uydurdu. Xeyr, o bir şairdir. Əgər belə deyilsə, əvvəlki peyğəmbərlərin (möcüzələrlə) göndərildikləri kimi o da bizə bir möcüzə gətirsin", – dedilər.

6. Onlardan əvvəl həlak etdiyimiz heç bir məmləkətin xalqı iman etmədi. İndi bunlarmı iman edəcəklər?

7. Səndən əvvəl də ancaq vəhy etdiyimiz bəzi kişiləri peyğəmbər olaraq göndərdik. Əgər bilmirsinizsə, elm əhlindən soruşun.

8. Biz onları yemək yeməyən bir bədən olaraq yaratmadıq. Onlar ölümsüz də deyildilər.

9. Sonra onlara verdiyimiz sözü yerinə yetirdik. Onlara və istədiyimiz kəslərə nicat verdik. Həddi aşanları isə həlak etdik.

10. And olsun, sizə elə bir kitab endirdik ki, sizin bütün şərəf və şanınız ondadır. Hələ də düşünməyəcəksinizmi?

11. Biz zülmkar olan neçə-neçə məmləkəti məhv etdik və onlardan sonra başqa-başqa qövmlər ərsəyə gətirdik.

12. Onlar əzabımızı hiss etdikləri zaman dərhal oradan sürətlə qaçırdılar.

13. Onlara: "Qaçmayın, içində səfa sürdüyünüz o bolluğa və yurdlarınıza qayıdın. Çünki sorğu-sual olunacaqsınız", – deyildi.

14. "Vay halımıza! Biz, həqiqətən, zalım kimsələr idik", – dedilər.

15. Biz onları biçilmiş əkin, sönmüş ocaq kimi edənə qədər onların bu fəryadları davam etdi.

16. Biz yeri, göyü və arasındakıları oyun-oyuncaq olsun deyə yaratmadıq.

17. Əgər bir əyləncə götürmək istəsəydik, onu öz qatımızdan götürərdik. Etsəydik, belə edərdik.

18. Xeyr, biz haqqı batilin üstünə atarıq, batilin beynini parçalayar. Bir də görərsən ki, yox olub gedib. Allaha yaraşdırdığınız vəsflərə görə vay sizin halınıza!

19. Göylərdə və yerdə kim varsa, Onundur. Onun dərgahındakılar Ona ibadət etməkdən nə kibrlənib boyun qaçırar, nə də yorğunluq (və usanma) hiss edərlər.

20. Heç fasilə vermədən gecə-gündüz təsbih edərlər.

21. Yoxsa yerdən ölüləri dirildə biləcək bəzi ilahlar qəbul etdilər?

22. Əgər yerdə və göydə Allahdan başqa ilahlar olsaydı, mütləq ikisi də fəsada uğrayardı. Ərşin Rəbbi olan Allah onların isnad etdikləri vəsflərdən uzaqdır, ucadır.

23. O, etdiyinə görə sorğu-sual olunmaz, ancaq onlar sorğu-sual olunar.

24. Yoxsa Ondan başqa ilahlar qəbul etdilər? De ki: "Gətirin dəlilinizi! Bu, mənimlə birlikdə olanların kitabı və bu da məndən əvvəlkilərin kitabı (Heç birində birdən artıq ilah olduğuna dair heç bir dəlil yoxdur). Şübhəsiz, onların çoxu haqqı bilməzlər, bu səbəblə də üz döndərərlər".[1]

25. Səndən əvvəl göndərdiyimiz bütün peyğəmbərlərə: "Şübhəsiz, məndən başqa heç bir ilah yoxdur. Elə isə mənə ibadət edin", – deyə vəhy etmişik.

26. (Belə olduğu halda) "Rəhman övlad götürdü", – dedilər. O, belə şeylərdən uzaqdır, ucadır. Xeyr, (övlad deyə nəzərdə tutduqları) o mələklər kərəm edilmiş qullardır.[2]

27. Onlar Allahdan əvvəl söz söyləməzlər, onun əmri ilə iş görərlər.

---

1 22-ci ayədə Allahın birliyi əqli baxımdan, bu ayədə isə nəqli baxımdan isbat edilmişdir.

2 Şirk inancında "Allahın oğlu" və "Allahın qızı" kimi fikirlərə rast gəlmək mümkündür. Belə ki, bütpərəst ərəblər də bu fikir var idi. Onlar mələklərin Allahın qızları olduqlarına inanırdılar. Baxın: Yunus, 10/68; Nəhl, 16/57.

28. Allah onların önlərindəkini də, arxalarındakını da (etdiklərini və edəcəklərini) bilir. Onlar onun razı olduğu kəsdən başqasına şəfaət etməzlər və hamısı onun qorxusu ilə titrəyərlər.

29. Aralarından hər kim: "Allahdan başqa, şübhəsiz, mən də bir ilaham", – desə, belə-sini cəhənnəmlə cəzalandırarıq. Biz zalımları belə cəzalandırırıq.

30. Küfr edənlər görmədilərmi ki, göylərlə yer bitişik ikən biz onları ayırdıq və canlı olan hər şeyi sudan yaratdıq? Hələ də inanmayacaqlarmı?

31. Onları silkələməsin deyə yerə də sabit dağlar yerləşdirdik və (gedəcəkləri yerə) yol tapa bilsinlər deyə orada keçidlər, yollar meydana gətirdik.

32. Göyü isə qorunmuş bir tavan olaraq yaratdıq. Onlar isə oradakı (Allahın varlığını göstərən) dəlillərdən üz çevirirlər.

33. O, gecəni, gündüzü, günəşi və ayı yaradandır. Hər biri bir məcrada üzüb gedər.

34. Biz səndən əvvəl də heç bir bəşərə ölümsüzlük vermədik. İndi sən ölsən, onlar əbədi qalacaqlar?

35. Hər nəfs ölümü dadacaqdır. Sizi bir imtahan olaraq şər ilə də xeyir ilə də sınağa çəkirik. Ancaq bizə qaytarılacaqsınız.

36. İnkar edənlər səni gördükləri zaman ancaq məsxərəyə qoyarlar. "Budurmu sizin ilahlarınızı dilinə dolayan?" – deyərlər. Halbuki özləri Rəhmanın kitabını inkar edirlər.

37. İnsan çox tələskən yaradılmışdır. Sizə ayələrimi tezliklə göstərəcəyəm.[1] İndi hələ tələsməyin.

38. "Əgər doğru söyləyənlərsinizsə, (təhdid etdiyiniz) bu vəd nə zamandır?" – deyir-lər.

39. İnkar edənlər üzlərindən və kürəklərindən cəhənnəm odunu dəf edə bilməyəcək-ləri və heç bir yardım da görməyəcəkləri vaxtı, kaş ki, biləydilər.

40. Şübhəsiz, o (təhdid edildikləri əzab) onlara qəflətən gələcək, onları çaşqın vəziy-yətə salacaq. Artıq onu nə geri qaytara biləcəklər, nə də onlara möhlət veriləcək.

41. And olsun, səndən əvvəl də bir çox peyğəmbərlərə istehza edildi. Onlardan isteh-za edənləri istehza etdikləri o şey haqladı.

42. (Ey Muhamməd!) De ki: "(Sizə əzab gəlsə,) gecə və gündüz Rəhmanın əzabından sizi kim qoruyacaq?" Amma onlar Rəblərinin zikrindən üz çevirirlər.

43. Yoxsa bizdən başqa onları qoruyacaq ilahları var? O ilah qəbul etdikləri şeylər heç özlərinə belə yardım edə bilməzlər. Onlar bizdən də yardım görməzlər.

44. Bəli, biz onlara da, onların atalarına da yaxşı gün-güzəran verdik. Belə ki, uzun müddət yaşadılar. Ancaq onlar daha görmürlərmi ki, biz yerə gəlib onu ətrafından əskildirik. O halda onlarmı qalib gələcəklər?

1 Buradakı ayələr sözü ilə İslamı inkar edənlərin yaxın gələcəkdə görəcəkləri cəzalar və ya Allahın varlığını və birliyini göstərən və zaman keçdikcə ortaya çıxacaq açıq-aşkar dəlillər nəzərdə tutulur.

45. De ki: "Mən sizi ancaq vəhylə xəbərdar edirəm". Amma karlar xəbərdar edildikləri zaman çağırışı eşitməzlər.

46. And olsun, əgər Rəbbinin əzabından onlara xəfif bir yel toxunsa, mütləq: "Vay halımıza! Həqiqətən, biz zalım kəslər olmuşuq", – deyəcəklər.

47. Qiyamət günü üçün ədalət tərəziləri quracağıq. Heç kimə zərrə qədər zülm edilməyəcək. (Edilən iş) bir xardal dənəsi qədər belə olsa, onu gətirib ortaya qoyacağıq. Haqq-hesaba çəkən olaraq biz yetərik.

48. And olsun, biz Musa ilə Haruna o Furqanı[1] (Tövratı) Allaha qarşı gəlməkdən çəkinənlər üçün bir işıq və bir öyüd olaraq verdik.

49. Onlar görmədikləri halda Rəblərindən qorxarlar. Onlar qiyamət günündən də qorxarlar.

50. Bu (Qur`an) da bizim endirdiyimiz mübarək bir öyüddür. İndi siz bunu inkar edirsiniz?

51. And olsun, daha əvvəl də İbrahimə doğrunu yanlışdan ayırmaq qabiliyyəti vermişdik. Biz onu zatən tanıyırdıq.

52. Bir vaxt o, atasına və qövmünə: "Nədir tapınıb durduğunuz bu heykəllər?" – demişdi.

53. "Biz atalarımızı bunlara ibadət edər görmüşük", – dedilər.

54. İbrahim: "And olsun, siz də, atalarınız da açıq-aşkar bir sapqınlıq içindəsiniz", – dedi.

55. "Bizə haqqı gətirdin, yoxsa bizi ələ salırsan?" – dedilər.

56. İbrahim dedi ki: "Xeyr, Rəbbiniz göylərin və yerin Rəbbidir. O, bunları yaradandır və mən də buna şahidlik edənlərdənəm".

57. Allaha and içirəm ki, siz arxanızı dönüb getdikdən sonra mən sizin bütlərinizə mütləq bir hiylə quracağam.

58. (İbrahim) onları (bütləri) parça-parça edib aralarından yalnız bir böyüyünü saxladı ki, bəlkə qayıdıb ona baş çəkərlər.[2]

59. Onlar: "Bunu tanrılarımıza kim etdi! Həqiqətən, o, zalımlardan biridir", – dedilər.

60. (Aralarından bəziləri:) "İbrahim deyilən bir gəncin onları dilinə doladığını eşitdik", – dedilər.

61. (Bəziləri isə:) "Elə isə onu insanların gözü önünə gətirin. Bəlkə (bu barədə) şahidlik edərlər", – dedilər.

62. (İbrahim gəldikdə:) "Bunu ilahlarımıza sənmi etdin, ey İbrahim?" – dedilər.

---

1 Furqan haqq ilə batili bir-birindən ayıran deməkdir.

2 İbrahim bütün bütləri baltayla qırdıqdan sonra baltanı qırmadığı böyük bütün çiynindən asmışdı. Bir bayram şənliyinə gedən camaat qayıtdıqları zaman bütlərin qırıldığını gördü. Bütün təhlükəni gözə alaraq bütləri qırmaqda İbrahimin məqsədi camaata özlərini belə qorumağa qadir olmayan bütlərin onlara tapınanlara heç bir xeyir verməyəcəyini əyani olaraq göstərmək idi.

63. Dedi ki: "Xeyr! Bunu onların bu böyüyü etmişdir. Danışa bilirlərsə, onların özlərindən soruşun, görək!"

64. Belə olduqda onlar bir-birilərinə tərəf dönüb: "Heç şübhəsiz, əsl zalımlar sizsiniz", – dedilər.

65. Sonra yenə köhnə etiqadlarına və inadlarına qayıdaraq: "And olsun, bunların danışmayacağını sən də bilirsən", – dedilər.

66. İbrahim belə dedi: "Elə isə siz (hələ də) Allahı buraxıb sizə heç bir xeyir, heç bir zərər verə bilməyən şeylərə tapınacaqsınız?"

67. "Ar olsun sizə də, sizin Allahdan başqa tapındıqlarınıza da! Hələ də düşünmürsünüzmü?"

68. (Aralarından bəziləri:) "Əgər (bir şey) edəcəksinizsə, onu yandırın və ilahlarınıza yardım edin", – dedilər.

69. "Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol", – dedik.

70. Ona belə bir hiylə qurmaq istədilər. Lakin biz onları daha çox ziyana uğrayanlardan etdik.

71. Onu Lut ilə birlikdə qurtarıb aləmlər üçün mübarək yaratdığımız yerə yetişdirdik.[1]

72. Ona İshaqı, üstəlik də Yaqubu bağışladıq və hər birini saleh kimsələr etdik.

73. Onları bizim əmrimizlə doğru yolu göstərən imamlar etdik və onlara xeyirli işlər görməyi, namazı etina ilə qılmağı və zəkat verməyi əmr etdik. Onlar yalnız bizə ibadət edən kimsələr idi.

74. Biz Luta da bir hikmət və bir elm verdik və onu çirkin işlər görən məmləkətdən qurtardıq. Həqiqətən, onlar pis bir qövm idilər, fasiq (Allahın əmrindən çıxan kimsələr) idilər.

75. Onu rəhmətimizə daxil etdik. Çünki o, həqiqətən, salehlərdən idi.

76. (Ey Muhamməd!) Nuhu da yada sal! O, daha öncə dua etmişdi, biz isə onun duasını qəbul edərək onu və ailəsini o böyük müsibətdən (tufandan) xilas etmişdik.

77. Ayələrimizi yalan sayanlara qarşı ona yardım etmişdik. Şübhəsiz, onlar pis bir qövm idilər. Bu səbəblə biz də onların hamısını suda boğduq.

78. Davud ilə Süleymanı da xatırla! Bir dəfə onlar bir əkin tarlası haqqında hökm verirdilər. Çünki bir tayfanın qoyunları həmin əkin yerinə girmişdi. Biz də onların hökmünə şahid olmuşduq.[2]

79. Biz hökm verməyi Süleymana anlatmışdıq. Hər birinə hökmranlıq və elm vermiş-

---

1 Təfsir alimlərinin bildirdiyinə görə, bu iki peyğəmbər Şamdan yola çıxmış, İbrahim Fələstində, Lut isə bir günlük məsafədə yerləşən Mütəfikədə məskən tutmuşdu.

2 Təfsir mənbələrinin bildirdiyinə görə, bu hadisədə həzrət Davud dəymiş zərərin qarşılığında qoyunların əkin yerinin sahibinə verilməsinə hökm vermiş, həzrət Süleyman isə qoyunlardan gələn gəlirlə dəymiş zərərin ödənilməsinin hər iki tərəf üçün də münasib olacağı yönündə hökm çıxarmışdır.

dik. Davud ilə birlikdə Allahı təsbih etsinlər deyə dağları və quşları onun əmrinə ram etdik. Bunları edən biz idik.[1]

**80.** Bir də savaşda sizi qorusun deyə Davuda sizin üçün zireh düzəltmək sənətini öyrətdik. İndi siz şükür edirsinizmi?

**81.** Şiddətlə əsən küləyi də Süleymanın xidmətinə verdik. Külək onun əmri ilə içində bərəkətlər yaratdığımız yerə doğru əsib gedərdi. Biz hər şeyi haqqı ilə bilənik.

**82.** Şeytanlardan Süleyman üçün dalğıclıq edən və bundan başqa işlər də görənləri onun əmrinə verdik. Onları nəzaratdə saxlayan biz idik.

**83.** Əyyubu da xatırla. Bir vaxt o, Rəbbinə: "Şübhəsiz ki, mən bəlaya düşdüm, sən isə mərhəmətlilərin ən mərhəmətlisisən", – deyə dua edib yalvarmışdı.

**84.** Biz də onun duasını qəbul edib nə dərdi varsa, sovuşdurmuşduq. Tərəfimizdən bir rəhmət və abidlər üçün də bir ibrət olaraq ona ailəsini və onlarla birlikdə bir o qədərini də vermişdik.

**85.** İsmaili, İdrisi və Zülkifli də yad et. Onların hamısı səbir edənlərdən idilər.

**86.** Onları da rəhmətimizə daxil etdik. Həqiqətən, onlar salehlərdən idilər.

**87.** Zünnunu da xatırla.[2] Bir vaxt qəzəblənərək (qövmündən ayrılıb) getmiş, onu sıxıntıya salmayacağımızı zənn etmişdi. Amma sonra qaranlıqlar içində: "Səndən başqa heç bir ilah yoxdur. Səni nöqsanlardan uzaq tuturam. Mən, həqiqətən, (nəfsimə) zülm edənlərdən oldum", – deyə dua etdi.

**88.** Biz də onun duasını qəbul etdik və onu kədərdən qurtardıq. Biz möminlərə belə nicat veririk.

**89.** Zəkəriyyanı da yad et. Bir vaxt o, Rəbbinə: "Rəbbim! Məni yalnız qoyma. Sən varislərin ən xeyirlisisən", – deyə dua etmişdi.

**90.** Biz də onun duasını qəbul etdik və ona Yəhyanı bağışladıq. Onun üçün zövcəsini də (doğmağa) qabil etdik. Onlar, həqiqətən, xeyir işlərdə yarışır, (rəhmətimizə) ümid edərək və (əzabımızdan) qorxaraq bizə dua edərdilər. Onlar bizə qarşı dərin ehtiram duyan kimsələr idilər.

**91.** İsmətini qoruyan qadını da (Məryəmi də) yada sal. Ona öz ruhumuzdan üfürmüşdük. Özünü də, oğlunu da aləmlərə (qüdrətimizi göstərən) bir dəlil olaraq var etmişdik.

**92.** Şübhəsiz, bu (İslam) tək ümmət (din) olaraq sizin ümmətiniz (dininiz)dir. Mən də sizin Rəbbinizəm. Ona görə də yalnız mənə ibadət edin.

**93.** (İnsanlar) işlərini öz aralarında parça-parça etdilər. Onların hamısı yalnız bizim hüzurumuza qayıdacaqlar.

---

1 Qur`ani-Kərimdə hər şeyin insanın xidmətinə verildiyini ifadə edən çox sayda ayə var. Bununla əlaqəli olaraq baxın: Rə`d, 13/2; İbrahim, 14/32, 33; Nəhl, 16/12, 14; Həcc, 22/65; Sad, 38/18, 36.

2 Zünnun balıq sahibi deməkdir. Burada həzrət Yunus nəzərdə tutulur. Yunus peyğəmbər olaraq göndərildiyi qövmünün yola gəlmədiyini gördükdə Allah-Təalanın izni olmadan qövmünü tərk edərək onlardan ayrıldı və bir gəmiyə mindi. Gəminin üzə bilməməsi və ya batma təhlükəsi kimi bir səbəbdən ötrü gəmidəkilərdən birinin suya atılması lazım gəldi. Püşk atdılar, Yunus çıxdı və dənizə atıldı. Dənizdə onu bir balıq uddu. Bir müddət balığın qarnında Allaha dua edən Yunusu balıq sahilə atdı.

94. Bu halda kim mömin olaraq saleh bir əməl işlərsə, onun zəhməti əsla inkar edilməz. Şübhəsiz, biz onu yazırıq.

95. Həlak etdiyimiz hər hansı bir məmləkət əhlinin bizim hüzurumuza qayıtmaması mümkün deyil.

96. Nəhayət, Yəcuc və Məcucun önü açıldığı zaman hər təpədən axın edərlər.[1]

97. Gerçək vəd (qiyamətin qopması) yaxınlaşır. Bir də görərsən ki, inkar edənlərin gözləri bərələ qalmışdır. "Vay halımıza! Doğrusu, biz bundan qafil idik. Hətta biz zalım kəslərmişik", – deyərlər.

98. Heç şübhəsiz, siz və Allahdan başqa tapındıqlarınız cəhənnəmin odunusunuz. Siz oraya varid olacaqsınız.

99. Əgər onlar ilah olsaydılar, oraya varid olmazdılar. Halbuki onların hamısı orada əbədi qalacaqlar.

100. Onlar üçün orada acı bir inilti var. Onlar orada heç bir şey eşitməzlər.

101. Şübhəsiz, özləri üçün tərəfimizdən ən gözəl mükafat hazırlanmış olanlar ki var, onlar cəhənnəmdən uzaqlaşdırılmışdırlar.

102. Onlar cəhənnəmin hənirtisini belə eşitməzlər. Ürəkləri istəyən kimi nemətlər içində əbədi qalacaqlar.

103. Ən böyük qorxu belə onları hüznləndirməz və mələklər onları: "Bu, sizə vəd edilən (bəxtəvər) gününüzdür", – deyərək qarşılayarlar.

104. Göyü yazılı kağız dəstələrinin bükülməsi kimi bükəcəyimiz günü düşün. Başlanğıcda ilk yaradılmanı necə etmişdiksə, – üzərimizə götürdüyümüz bir vəd olaraq – onu yenə edəcəyik. Biz bunu mütləq edəcəyik.

105. And olsun, biz Zikrdən (Tövratdan) sonra Zəburda[2] da: "Yer üzünə mənim saleh qullarım varis olacaqdır", – yazmışdıq.

106. Şübhəsiz, bunda Allaha qulluq edən bir toplum üçün yetərli bir mesaj var.

107. (Ey Muhamməd!) Səni aləmlərə ancaq rəhmət olaraq göndərdik.

108. De ki: "Mənə yalnız, ilahınızın tək bir ilah olduğu vəhy olunur. Artıq müsəlman olursunuzmu?"

109. Əgər üz çevirsələr, de ki: "(Mənə əmr olunanı, ayrıseçkilik etmədən) sizə eyni ölçüdə bildirdim. Təhdid olunduğunuz şeyin yaxın, yoxsa uzaq olduğunu bilmirəm".

110. "Şübhəsiz, Allah aşkara deyilən sözü də bilir, sizin gizlədiklərinizi də".

---

1 Qur`ani-Kərimdə Yəcüc və Məcücün kimlər olduğuna, nə zaman və harada yaşadıqlarına dair bir məlumat yoxdur. Bu barədə həzrət Peyğəmbərdən bəzi rəvayətlər nəql edilmişdir. Ancaq bu rəvayətlər Yəcüc və Məcücün kim olduqları haqqında deyil, onların əməlləri haqqındadır. Tarixçilər Yəcüc və Məcücün həzrət Nuhun oğullarından Yafəsin soyundan gələn iki xalq olduğunu bildirmişlər. Bəzi alimlər isə Yəcüc və Məcücü öz dövrlərindəki savaşqan və təxribatçı xalqlarla əlaqələndirməyə çalışmışlar ki, bunların da elmi əsası yoxdur.

2 Zəbur həzrət Davuda endirilən ilahi kitab və yaxud peyğəmbərlərə endirilən ilahi kitabların ümumi adıdır.

**111.** "Bilmirəm! Bəlkə də bu (möhlət) sizin üçün bir imtahan və müəyyən bir vaxta qədər faydalanmadır".

**112.** (Peyğəmbər:) "Ey Rəbbim! Haqq ilə hökm ver. Bizim Rəbbimiz sizin yaraşdırdığınız vəsflərə qarşı yardım istəniləcək olan Rəhmandır", – dedi.

## 22. HƏCC SURƏSİ

Ayələrin çoxu Məkkə dövründə, bir qismi isə Mədinə dövründə nazil olmuşdur. 78 ayədən ibarətdir. Həcc ibadətindən bəhs etdiyi üçün belə adlandırılmışdır. Bundan başqa surədə qiyamət gününün dəhşətindən, qiyamət günündə insanların qarşılaşacağı səhnələrdən, cihaddan və həlak edilən keçmiş qövmlərdən söz açılır.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Ey insanlar! Rəbbinizə qarşı gəlməkdən çəkinin. Çünki qiyamət gününün sarsıntısı çox böyük bir şeydir.

**2.** Onu görəcəyiniz gün hər əmzikli qadın əmizdirdiyi uşağını unudar və hər hamilə qadın da qarnındakı uşağı düşürər. İnsanları sərxoş görərsən, habuki onlar sərxoş deyillər. Lakin Allahın əzabı çox şiddətlidir.

**3.** İnsanlardan eləsi var ki, heç bir biliyi olmadığı halda Allah haqqında mubahisə edər və hər azğın şeytanın[1] ardınca düşər.

**4.** Şeytan haqqında: "Kim onu dost tutarsa, onu mütləq sapdırar və onu cəhənnəm əzabına sürükləyər", – deyə yazılmışdır.

**5.** Ey insanlar! Əgər siz ölümdən sonrakı diriliş barəsində bir şübhə içindəsinizsə, (düşünün ki,) əslində biz sizi torpaqdan, sonra azacıq sudan (mənidən), sonra bir ələqədən,[2] sonra da tam şəklə salınmamış bir mudğadan[3] yaratdıq ki, sizə (qüdrətimizi) açıq-aydın bəyan edək. İstədiyimizi müəyyən bir müddətə qədər rəhimlərdə saxlayırıq. Sonra sizi bir uşaq olaraq çıxarır, sonra isə (ağıl və qüvvət baxımından) tam yetkinliyə çatmağınız üçün (sizi kamala yetiririk). Aranızdan ölənlər olur. Yenə aranızdan bir qismi də ömrün ən aciz çağına çatdırılır ki, bildiyini bilməz olsun. Yer üzünü də ölü, qupquru görərsən. Biz onun üzərinə yağmur endirdiyimiz zaman hərəkətə gələr, qabarar və növbənöv ürəkaçan cüt-cüt bitkilər bitirər.

**6.** Bu belədir. Çünki Allah haqqın özüdür. Şübhəsiz, O, ölüləri dirildər və O, hər şeyə haqqı ilə qadirdir.

1 Təfsir alimləri Ən`am, 6/112 və Nas, 114/4-6 ayələrindən çıxış edərək buradakı şeytan sözünün cinlərdən olan şeytanla yanaşı şeytan xasiyyətli insanları da ehtiva edə biləcəyini bildirmişlər.

2 Ələqə kişinin sperması ilə mayalanmış dişi yumurtadan bir həftə ərzində yaranan hüceyrə topluluğunun rəhmin divarından asılıb yapışmış şəkli deməkdir.

3 Mudğa rüşeymin hələ üzvləri formalaşmamış şəkli deməkdir. Rüşeymin ana bətnində keçdiyi mərhələlərlə əlaqəli olaraq baxın: Mu`minun, 23/12-14.

7. Çünki qiyamət mütləq gələcəkdir. Onda heç bir şübhə yoxdur və şübhəsiz, Allah qəbirdəkiləri dirildəcəkdir.

8, 9. İnsanlardan eləsi də var ki, nə bir biliyi, nə bir yol göstərəni, nə də aydınladıcı bir kitabı olmadan kibrlənərək insanları Allahın yolundan azdırmaq üçün Allah barəsində mübahisə edər. Onun üçün dünyada bir rüsvayçılıq var. Qiyamət günü isə ona cəhənnəm odunun əzabını daddıracağıq.

10. (Ona:) “Bu, sənin öz əllərinin etdikləri səbəbi ilədir. Allah əsla qullara qarşı zülmkar deyil”, (– deyilər.)

11. İnsanlardan eləsi də var ki, Allaha yarımçıq ibadət edər. Əgər ona bir xeyir toxunsa, könlü onunla xoşnud olar. Əgər başına bir müsibət gəlsə, (küfrə) geri dönər. O, dünyanı da əldən verib, axirəti də. Açıq-aşkar ziyan budur.

12. O, Allahı qoyub, özünə nə zərər verən, nə də xeyri dəyən şeylərə tapınar. Bu, dərin zəlalətdir!

13. Zərəri faydasından daha yaxın olana tapınar. O, (tapındığı şey) nə pis yardımçı, nə pis yoldaşdır.

14. Şübhəsiz ki, Allah iman edib saleh işlər görənləri içindən çaylar axan cənnətlərə daxil edəcək. Şübhəsiz, Allah istədiyin edər.

15. Hər kim Allahın ona (Muhammədə) dünyada və axirətdə əsla yardım etməyəcəyini zənn edirsə, tavana bir ip çəksin, sonra özünü assın, görsün onun hiyləsi qəzəbləndiyi şeyi aradan qaldıracaqmı?[1]

16. Beləliklə, biz Qur`anı açıq-aydın ayələr halında nazil etdik. Şübhəsiz, Allah istədiyini doğru yola yönəldər.

17. Şübhəsiz, iman edənlər, yəhudilər, sabiilər, xristianlar, məcusilər və Allaha şərik qoşanlar ki var, Allah qiyamət günü onlar arasında mütləq hökm verəcək. Çünki Allah hər şeyə şahiddir.

18. Görmədinmi ki, göydə və yerdə olanlar, günəş, ay, ulduzlar, dağlar, ağaclar, heyvanlar və insanların bir çoxu Allaha səcdə etməkdədir?! Bir çoxuna da əzab haqq olmuşdur. Allahın alçaltdığı kimsəni heç kim hörmətli edə bilməz. Şübhəsiz, Allah istədiyini edər.

19. Bu iki düşmən tərəf Rəbləri haqqında mübahisəyə girişmişlər. Bunlardan inkar edənlər üçün oddan paltarlar biçilmişdir. Başlarının üstündən də qaynar su tökülər.

20. O su ilə qarınlarının içindəkilər və dəriləri əridilər.

21. Onlar üçün bir də dəmirdən toppuzlar var.

22. Nə zaman cəhənnəmdən, o iztirabdan çıxmaq istəsələr, oraya geri qaytarılar və onlara: “Dadın atəşin əzabını”, – deyilər.

23. Şübhəsiz, Allah iman edib saleh işlər görənləri içlərindən çaylar axan cənnətlərə

1 Ayə bu şəkildə də tərcümə oluna bilər: “Kim Allahın ona (Muhammdə) dünyada və axirətdə əsla yardım etməyəcəyini zənn edirsə, göyə bir ip uzatsın (bir nərdivan qursun) və onunla (yuxarı) çıxsın. Beləliklə, görsün, onun bu üsulu, qəzəbləndiyi şeyi aradan qaldıracaqmı?”

daxil edəcək. Onlar orada qızıl bilərziklər və incilərlə bəzənəcəklər. Oradakı libasları isə ipəkdir.

24. Onlar həm gözəl sözə, həm də tərifəlayiq Allahın yoluna hidayət olunmuşlar.

25. İnkar edənlər və (insanları) Allah yolundan və Məscidi-Haramdan –hansı ki, onun daxilində yerli olsun, gəlmə olsun bütün insanları bərabər tutmuşuq – döndərənlər (əzaba layiq olmuşdur.) Kim də orada zülm edərək haqdan sapmaq istərsə, biz ona ağrılı-acılı əzabdan daddıracağıq.

26. Bir vaxt biz İbrahimə: "Mənə heç bir şeyi şərik qoşma, təvaf edənlər, namaz qılanlar, rüku və səcdə edənlər üçün evimi təmizlə", – deyərək Kəbənin yerini bildirmişdik.

27. İnsanlar arasında həcci xəbər sal ki, istər piyada, istərsə də uzaq yollardan gələn yorğun dəvələr üzərində sənə gəlsinlər.

28. Gəlsinlər ki, özlərinə aid bəzi mənfəətlərə şahid olsunlar və Allahın onlara ruzi olaraq verdiyi (qurbanlıq) heyvanlar üzərinə məlum günlərdə[1] (onları qurban edərək) Allahın adını zikr etsinlər. Onlardan özünüz də yeyin, biçarə yoxsula da yedirin.

29. Sonra kirlərini atsınlar, nəzirlərini yerinə yetirsinlər və Beyti-Ətiqi (Kəbəni) təvaf etsinlər.

30. Bu belədir. Kim Allahın hökmlərinə ehtiram göstərərsə, bu, Rəbbi qatında onun üçün bir xeyirdir. Haramlığı sizə oxunanlar (bildirilənlər) xaricində[2] bütün heyvanlar sizə halal buyurulmuşdur. Artıq bütlərə tapınmaq pisliyindən çəkinin, yalan sözdən uzaq durun.

31. Allaha yönələn, ona şərik qoşmayan kimsələr (olun). Allaha şərik qoşan kimsə sanki göydən düşürmüş, quşlar onu qapmağa çalışırmış və ya külək onu uzaq bir yerə sürükləyib aparırmış kimidir.

32. Bu belədir. Kim də Allahın nişanələrini (qurbanlıqları) uca tutarsa, şübhəsiz ki, bu, qəlblərin təqvasındandır.

33. Onlarda sizin üçün müəyyən bir vaxta qədər bəzi mənfəətlər var. Sonra da qurbanlıq olaraq gedəcəkləri yer Beyti-Ətiq (Kəbə)dir.

34. Allahın onlara ruzi olaraq verdiyi heyvanlar üzərinə Onun ismini zikr etsinlər deyə hər bir ümmət üçün qurban kəsməyi müəyyən etdik. Sizin ilahınız tək bir ilahdır. O halda yalnız Ona təslim olun. Səmimi, itəatkar olanları müjdələ!

35. Onlar Allahın adı çəkildiyi zaman qəlbləri ürpənən, başlarına gələn müsibətlər qarşısında səbir edən, namazı etina ilə qılan və onlara ruzi olaraq verdiklərimizdən Allah yolunda xərcləyən kimsələrdir.

36. Qurbanlıq böyük baş heyvanları da sizin üçün Allahın dininin nişanələri olaraq yaratdıq. Onlarda sizin üçün xeyir var. Onlar sıra-sıra düzülmüşkən (qurban edə-

---

1 İslam alimlərinin əksəriyyətinə görə, bu məlum günlər Zilhiccə ayının ilk on günüdür. Onuncu günü isə Qurban bayramının ilk günüdür.

2 Ətinin yeyilməsi qadağan olan heyvanlar haqqında baxın: Maidə, 5/3.

cəyiniz zaman) üzərilərinə Allahın adını zikr edin. Yan üstə düşüb canları çıxdığı zaman onlardan siz də yeyin, əl açıb istəməyən yoxsula da, istəmək məcburiyyətində qalan yoxsula da yedirin. Şükür edəsiniz deyə onları sizin xidmətinizə verdik.

37. Onların ətləri və qanları əsla Allaha çatmaz. Lakin Ona sizin təqvanız çatar. Beləliklə, onları sizin xidmətinizə verdi ki, sizə doğru yolu göstərdiyi üçün Allahı böyük tutasınız. Yaxşılıq edənləri müjdələ.

38. Şübhəsiz, Allah iman edənləri qoruyar. Doğrusu Allah heç bir xaini, nankoru sevməz.

39. Özlərinə qarşı savaş açılan müsəlmanlara zülmə məruz qalmaları səbəbi ilə cihad izni verildi. Şübhə yoxdur ki, Allah onlara yardım etməyə qadirdir.

40. Onlar sadəcə "Rəbbimiz Allahdır" dedikləri üçün haqsız yerə yurdlarından çıxarılmış kimsələrdir. Əgər Allah insanların bir qismini digər bir qismi ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan monastırlar, kilsələr, sinaqoqlar və məscidlər heç şübhəsiz, yerlə yeksan edilərdi. Şübhəsiz ki, Allah öz dininə yardım edənə mütləq yardım edər. Əqiqətən, Allah çox qüvvətlidir, mütləq güc sahibidir.

41. Onlar elə kəslərdir ki, əgər onlara yer üzündə imkan və iqtidar versək, namazı etina ilə qılar, zəkatı verər, yaxşılığı əmr edər və pisliyi də qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir.

42. Ey Muhamməd! Əgər səni yalançılıqda ittiham edərlərsə, bil ki, onlardan əvvəl Nuh, Ad və Səmud qövmləri də (öz peyğəmbərlərini) təkzib etmişdilər.

43, 44. İbrahimin qövmü, Lutun qövmü və Mədyən əhli də (inkar etmişdi). Musa da yalançılıqda ittiham olundu və nəhayət, o inkarçılara möhlət verdim, sonra da onları yaxaladım. Məni inkar etməyin axırı necə olurmuş (gördülər).

45. Əhalisi zülm etməklə məşğul ikən həlak etdiyimiz, beləliklə, divarları çökmüş tavanların üzərinə yıxılmış neçə-neçə məmləkətlər, neçə-neçə istifadəsiz qalmış quyular və neçə-neçə möhtəşəm saraylar var.

46. Yez üzündə gəzib dolaşmadılarmı ki, düşünən qəlbləri, eşidən qulaqları olsun?! (Gəzib dolaşdılar, amma ibrət almadılar.) Çünki əslində kor olan gözlər deyil, sinələrdəki qəlblərdir (qəlb gözləridir).

47. Bir də əzabın tez gəlməsini səndən istəyirlər. Halbuki Allah əsla öz vədinə xilaf çıxmaz. Şübhəsiz, Rəbbinin nəzdindən bir gün sizin saydığınız (hesab üzrə) min il kimidir.

48. Zalım olduqları halda möhlət verdiyim, sonra isə əzabımla yaxaladığım neçə-neçə məmləkət var. Qayıdış yalnız mənədir.

49. De ki: "Ey insanlar! Mən sizin üçün ancaq açıq-aşkar bir xəbərdar edənəm".

50. İman edib saleh işlər görənlər ki var, onlar üçün bir məğfirət və gözəl bir nemət (cənnət) var.

51. Ayələrimizi aciz (təsirsiz) qoymaq üçün səy göstərənlər ki var, onlar cəhənnəmlikdirlər.

52. Səndən əvvəl elə bir rəsul və nəbi göndərmədik ki, o bir şey təmənna etdiyi zaman

şeytan onun bu təmənnasına dair vəsvəsə verməmiş olsun. Amma Allah şeytanın vəsvəsəsini yox edər. Sonra isə Allah öz ayələrini möhkəm edər. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.[1]

53. Allah bunu ona görə edir ki, şeytanın verdiyi bu vəsvəsəni qəlblərində xəstəlik olanlar və qəlbləri qatı olanlar üçün bir imtahan vəsiləsi etsin. Heç şübhəsiz ki, o zalımlar dərin bir təfriqə içindədirlər.

54. (Allah həmçinin ona görə belə edir ki,) elm verilənlər onun Rəbbindən gələn haqq olduğunu bilsinlər, beləliklə, ona iman etsinlər və qəlbləri ona ehtiram duysun. Heç şübhə yoxdur ki, Allah iman edənləri doğru yola yönəldər.

55. İnkar edənlər qiyamət onlara qəflətən yetişənədək və ya qısır bir günün[2] əzabı gəlib onlara çatanadək o Qur`an barəsində bir şübhə içində qalarlar.

56. O gün mülk (hökmranlıq) Allahındır. O, insanlar arasında hökm verər. İman edib saleh işlər görənlər Nəim cənnətlərindədirlər.

57. İnkar edib ayələrimizi yalan sayanlara gəlincə, onlar üçün rüsvayedici bir əzab var.

58. Allah yolunda hicrət edib sonra öldürülmüş və ya ölmüş olanlara gəlincə, heç şübhəsiz, Allah onlara gözəl bir ruzi verəcək. Şübhə yoxdur ki, Allah ruzi verənlərin ən xeyirlisidir.

59. Əlbəttə, onları xoşnud olacaqları bir yerə daxil edəcək. Şübhəsiz, Allah haqqı ilə biləndir, həlimdir (dərhal cəzalandırmaz, möhlət verər).

60. Bu belədir. Kim özünə edilən əziyyətin əvəzini misli ilə çıxar, sonra yenə zülmə məruz qalarsa, əlbəttə, Allah ona yardım edər. Heç şübhəsiz, Allah çox əfv edəndir, çox bağışlayandır.

61. Bu belədir. Çünki Allah gecəni gündüzə, gündüzü də gecəyə qatar. Həqiqətən, Allah haqqı ilə eşidəndir, haqqı ilə görəndir.

62. Bu belədir. Çünki Allah haqqın məhz özüdür. Onu buraxıb tapındıqları şeylər isə batilin məhz özüdür. Şübhəsiz ki, Allah ucadır, böyükdür.

63. Allahın göydən yağmur endirdiyini, beləliklə, yer üzünün yamyaşıl olduğunu görmədinmi? Şübhəsiz, Allah çox lütfkardır, haqqı ilə xəbərdardır.

64. Göylərdəki hər şey, yerdəki hər şey Onundur. Həqiqətən, Allah çox zəngindir, tərifə layiqdir.

65. Görmürsənmi ki, Allah bütün yerdəkiləri və əmri ilə dənizdə üzən gəmiləri sizin xidmətinizə vermişdir. İzni olmadan yerə düşməsin deyə səmanı O tutub saxlayır. Şübhəsiz ki, Allah insanlara qarşı çox şəfqətli, çox mərhəmətlidir.

---

1 Bütün peyğəmbərlərin, xüsusilə də həzrət Peyğəmbərin təmənnası tövhid etiqadının bərqərar olması və insanların ilahi əmr və qadağalara bağlı qalmasını təmin etməkdir. Ayədə həzrət Peyğəmbər aldığı vəhyi insanlara təbliğ etdikcə şeytanın onlara “Muhamməd şairdir”, “məcnundur”, “yalançıdır”, “hökmdarlıq etmək istəyir” kimi vəsvəsələr verərək onun peyğəmbərlik vəzifəsini yerinə yetirməsinə mane olmağa çalışdığı vurgulanır. Yoxsa şeytanın birbaşa peyğəmbərə, vəhyə təsir edəcək bir vəsvəsə verməsi mümkün deyil.

2 Bəzi təfsir alimləri bu qısır günün müşriklərin ağır bir məğlubiyyətə uğradıqları Bədr savaşı günü olduğunu ifadə etmişlər.

66. O, sizə həyat verən, sonra sizi öldürəcək, daha sonra isə dirildəcək olandır. Həqiqətən, insan çox nankordur.

67. Biz hər bir ümmət üçün izləyəcəkləri bir ibadət yolu təyin etdik. Elə isə din işində səninlə əsla mübahisə etməsinlər. Sən onları dəvət et. Çünki sən heç şübhəsiz, haqqa aparan doğru bir yoldasan.

68. Əgər səninlə mücadilə edərlərsə, de ki: "Allah sizin etdiyiniz əməlləri daha yaxşı bilir".

69. Barəsində ixtilafa düşdüyünüz şeylər haqqında qiyamət günü Allah aranızda hökm verəcək.

70. Bilmirsənmi ki, Allah göydə və yerdə nə varsa hamısını bilir. Şübhəsiz, bunların hamısı bir kitabda (Lövhi-məhfuzda)dır. Həqiqətən, bu, Allah üçün çox asandır.

71. Onlar Allahı buraxıb haqqında Allahın heç bir dəlil endirmədiyi, özlərinin də heç bir biliyə sahib olmadıqları şeylərə qulluq edirlər. Zalımların heç bir yardımçısı yoxdur.

72. Ayələrimiz onlara açıq-aydın oxunduğu zaman o kafirlərin üz ifadələrindən onların inkar içində olduqlarını anlayarsan. Onlar özlərinə ayələrimizi oxuyanlara az qalır ki, hücum çəksinlər. De ki: "İndi sizə bundan[1] daha betərini xəbər verimmi? –Atəş! Allah onu kafirlərə vəd etmişdir. O nə pis mənzildir!"

73. Ey insanlar! Sizə bir misal çəkildi. İndi ona yaxşı qulaq asın. Sizin Allahdan başqa tapındıqlarınız bir milçək belə yarada bilməzlər. Hamısı bunun üçün toplansalar belə... Əgər milçək onlardan bir şey alıb aparsa, bunu ondan geri ala bilməzlər. İstəyən də aciz, istənilən də.

74. Allahın qədrini lazımınca bilmədilər. Şübhəsiz, Allah qüvvətlidir, mütləq güc sahibidir.

75. Allah mələklərdən də rəsullar seçər, insanlardan da. Şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə görəndir.

76. Onların önlərindəkini də (etdiklərini də), arxalarındakını da (edəcəklərini də) bilir. Bütün işlər Allaha qaytarılar.

77. Ey iman edənlər, rüku edin, səcdə edin, Rəbbinizə qulluq edin və xeyir işlər görün ki, nicat tapasınız.

78. Allah uğrunda haqqı ilə cihad edin. O, sizi seçdi və dində sizə heç bir çətinlik yükləmədi. Atanız İbrahimin dininə tabe olun. Allah sizi həm daha əvvəl, həm də bu Qur`anda müsəlman adlandırdı ki, Peyğəmbər sizə şahid (və nümunə) olsun, siz də insanlara şahid (və nümunə) olasınız.[2] Namazı etina ilə qılın, zəkatı verin və Allaha sarılın. O, sizin sahibinizdir. O nə gözəl sahib, nə gözəl yardımçıdır!

---

1 Qarşılarında ayələrin oxunması səbəbi ilə onların yaşadığı sıxıntı və qəzəbli hal nəzərdə tutulur.

2 Bu ayədə bütün ilahi dinlərin bir qaynaqdan gəldiyi, ortaq adlarının isə İslam olduğu vurgulanır. Qur`anın bir çox ayəsində həzrət İbrahim "müsəlman" deyə tanıdılır.

# 23. MU`MİNUN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 118 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-mu`minun" kəlməsindən götürülmüşdür. "əl-Mu`minun" möminlər deməkdir. Müşriklərə son bir xəbərdarlıq kimi nazil olan bu surədə möminlərin zəfər əldə edəcəkləri və pis insanların cəzalandırılacağı ilə bağlı mövzular yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Möminlər, həqiqətən, qurtuluşa nail olmuşdur.
2. O möminlər ki, namazlarında dərin bir ehtiram duyarlar.
3. Faydasız işlərdən və boş sözlərdən üz çevirərlər.
4. Zəkatı ödəyərlər.
5. İsmətlərini qoruyarlar.
6. Ancaq zövcələri və əllərinin altında olan cariyələri istisna olmaqla. Onlarla münasibətlərindən ötrü qınanmazlar.
7. Kim bundan artığını istərsə, onlar həddi aşanlardır.
8. Yenə o kəslər ki, əmanətlərinə və verdikləri sözlərə riayət edərlər.
9. O kəslər ki, namazlarını qılmağa davam edərlər.
10. Məhz bu kəslər varislərdir.
11. Onlar Firdovs cənnətlərinə varis olarlar. Onlar orada əbədi qalacaqlar.
12. And olsun, biz insanı palçıqdan (süzülmüş) bir əsldən yaratdıq.
13. Sonra onu azacıq su (məni) halında möhkəm bir yerə (ana rəhminə) yerləşdirdik.
14. Sonra bu az suyu ələqə[1] halına gətirdik. Ələqəni isə mudğa[2] etdik. Bu mudğanı da sümüklərə çevirdik və bu sümükləri isə ətlə örtdük. Nəhayət, onu bambaşqa bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allahın şanı nə ucadır!
15. Sonra (ey insanlar) siz bundan sonra mütləq öləcəksiniz.
16. Sonra qiyamət günü mütləq (yenidən) dirildiləcəksiniz.
17. And olsun, biz sizin üstünüzdə yeddi yol yaratdıq.[3] Biz yaratdıqlarımızdan xəbərsiz deyilik.
18. Biz göydən qədərincə su endirdik, (istifadə etməyiniz üçün) onu yer üzündə saxladıq. Biz, əlbəttə ki, onu tamamilə yox etməyə də qadirik.

---

1 Ələqə kişinin sperması ilə mayalanmış yumurtadan bir həftə ərzində yaranan hüceyrə topluluğunun rəhmin divarından asılıb yapışmış şəkli deməkdir.

2 Mudğa rüşeymin hələ üzvləri formalaşmamış şəkli deməkdir. Rüşeymin ana bətnində keçdiyi mərhələlərlə əlaqəli olaraq baxın: Həcc, 22/5.

3 Yeddi yol ifadəsi ilə günəş sistemində yer alan dünya xaricindəki yeddi planetin orbitlərinə işarə edilmiş ola bilər. Bu ifadə "göydəki yeddi ulduz sistemi", "göyün yeddi təbəqəsi" kimi də izah olunmuşdur.

19. Onunla sizin üçün xurma bağçaları və üzüm bağları ərsəyə gətirdik. Bu bağ və bağçalarda sizin üçün çoxlu meyvələr var və siz onlardan yeyirsiniz.

20. Yenə həmin su ilə Sina dağında bitən bir ağac (zeytun ağacı) yaratdıq ki, həm yağ verir, həm də yeyənlər üçün yavanlıq olur.

21. Heyvanlarda sizin üçün, əlbəttə, bir ibrət var. Onların qarınlarındakı süddən sizə içirdirik. Onlarda sizin üçün daha bir çox faydalar var və siz həm də onlardan yeyirsiniz.

22. Onların üstündə və gəmilərdə daşınırsınız.

23. And olsun, biz Nuhu öz qövmünə peyğəmbər olaraq göndərdik. "Ey qövmüm! Allaha qulluq edin. Sizin Ondan başqa heç bir ilahınız yoxdur. Hələ də Allaha qarşı gəlməkdən çəkinmirsinizmi?" – dedi.

24. Qövmünün inkarçı başçıları belə dedilər: "Bu, ancaq sizin kimi bir bəşərdir, sizə qarşı üstünlük əldə etmək istəyir. Əgər Allah istəsəydi, bir mələk göndərərdi. Biz əvvəlki ata-babalarımızdan belə bir şey eşitməmişik".

25. "Bu, sadəcə dəli bir adamdır. Onu bir müddət gözünüzdən qoymayın".

26. Nuh: "Rəbbim! Onların məni təkzib etmələrinə qarşı mənə yardım et!" – dedi.

27. Nəhayət Nuha: "Bizim nəzarətimizdə və vəhyimiz üzrə o gəmini düzəlt", – deyə vəhy etdik. Bizim əmrimiz gəlib təndir qaynamağa başladıqda (sular aşıb-daşdığı zaman Nuha) dedik ki: "Hər canlıdan (erkək və dişi olmaqla) bir cüt, bir də əleyhində daha əvvəl hökm verilənlər xaric, ailəni gəmiyə mindir və zülm edənlər barəsində mənə yalvarma! Şübhəsiz, onlar suda boğulacaqlar".[1]

28. Sən və səninlə birlikdə olanlar gəmiyə mindiyiniz zaman: "Bizi zalım qövmün əlindən qurtaran Allaha həmd olsun", – de.

29. Yenə de ki: "Ey Rəbbim! Məni bərəkətli bir mənzilə çatdır. Sən mənzilə çatdıranların ən xeyirlisisən".

30. Şübhəsiz, bunda ibrətlər var. Biz, həqiqətən, (qullarımızı) imtahana çəkirik.

31. Sonra onların (Nuh qövmünün) ardınca başqa bir nəsil yaratdıq.

32. Onlara öz aralarından: "Allaha qulluq edin, sizin Ondan başqa heç bir ilahınız yoxdur. Ona qarşı gəlməkdən çəkinmirsinizmi?" – deyə öyüd verən bir peyğəmbər göndərdik.

33. O peyğəmbərin qövmündən Allahı inkar edən, axirəti yalan sayan və dünya həyatında bol-bol nemət verdiyimiz öndərlər belə dedilər: "O da ancaq sizin kimi bir insandır. Sizin yediklərinizdən yeyir, içdiklərinizdən içir".

34. "And olsun, əgər sizin kimi bir bəşərə itaət etsəniz, mütləq ziyana uğrayarsınız".

35. "O, sizə ölüb torpaq və sümük halına düşdüyünüz zaman mütləq yenidən (dirildilib) çıxaralıcağınızı vəd edir?"

36. "Halbuki, bu sizə vəd olunan şey nə qədər də uzaqdır!"

1 Həmin hadisə ilə əlaqəli olaraq baxın: Hud, 11/40.

37. "Həyat bu dünya həyatından ibarətdir. Ölərik və yaşayarıq. Biz yenidən dirildiləcək deyilik".

38. "Bu, yalnız yalan yerə Allaha iftira yaxan bir adamdır. Biz ona iman edən deyilik".

39. O peyğəmbər: "Ey Rəbbim! Onların məni yalançı saymalarına qarşı mənə yardım et!" – dedi.

40. Allah: "Yaxın zamanda onlar mütləq peşman olacaqlar!" – dedi.

41. (Çox keçmədən) o qorxunc səs onları haqq olaraq yaxaladı. Biz onları çör-çöp yığını halına saldıq. Zalımlar qövmü Allahın rəhmətindən uzaq olsun!

42. Sonra bunların ardından başqa nəsillər yaratdıq.

43. Heç bir ümmət öz əcəlini nə tezləşdirə bilər, nə də gecikdirə bilər.

44. Sonra ard-arda peyğəmbərlərimizi göndərdik. Hər ümmətə öz peyğəmbəri gəldikcə onu təkzib etdilər. Biz də onları bir-biri ardınca həlak etdik və onların hər birini bir ibrət hekayəsi etdik. Artıq inanmayan bir qövm Allahın rəhmətindən uzaq olsun!

45, 46. Sonra Musa və qardaşı Harunu möcüzələrimizlə və açıq-aydın bir dəlillə Firona və onun əyanlarına göndərdik. Onlar təkəbbür göstərdilər və özlərini böyük görüb qürrələnən bir topluluq oldular.

47. Bu səbəblə də: "Qövmləri bizə qul-kölə olduğu halda bizim kimi iki insana iman edəcəyik?" – dedilər.

48. Beləliklə, ikisini də yalançı saydılar, bu səbəblə də həlak edilənlərdən oldular.

49. And olsun, hidayətə çatsınlar deyə Musaya Kitabı (Tövratı) verdik.

50. Məryəm oğlu İsanı və onun anasını böyük bir möcüzə etdik və hər ikisini də yaşamağa əlverişli, axar sulu yüksək bir yerə yerləşdirdik.

51. Ey peyğəmbərlər! Təmiz şeylərdən yeyin və saleh əməllər işləyin. Doğrusu, mən sizin işlədiyiniz əməlləri bilirəm.

52. Şübhəsiz, bu (İslam) tək bir din olaraq sizin dininizdir. Mən də Rəbbinizəm. Elə isə mənə qarşı gəlməkdən çəkinin.

53. (İnsanlar isə din) işlərini öz aralarında parçalayıb firqə-firqə etdilər. Hər firqə özündə olana sevinir.

54. Ey Muhammməd! Qoy onlar bəlli bir vaxta qədər öz qəflətləri və çaşqınlıqları ilə baş-başa qalsınlar.

55, 56. Məgər onlara verdiyimiz mal-mülk və övladlarla onların yaxşılığına can atdığımızı zənn edirlər? Xeyr, onlar fərqində deyillər.

57. Rəblərinin əzəmətindən qorxub titrəyənlər,

58. Rəblərinin ayələrinə iman edənlər,

59. Rəblərinə şərik qoşmayanlar,

60. Rəblərinin hüzuruna qayıdacaqları üçün verdiklərini qəlbləri titrəyərək verənlər (ki var,)

61. Onlar xeyir işlər görməyə can atarlar və bu işdə öndə gedərlər.

62. Biz heç kimə gücünün yetdiyindən artıq yük yükləmərik. Bizim qatımızda haqqı söyləyən bir kitab var. Onlara zülm və haqsızlıq olunmaz.

63. Ancaq kafirlərin qəlbləri bu Qur`ana qarşı bir qəflət içindədir. Onların bundan başqa işlədikləri bəzi (çirkin) əməlləri də var.

64. Nəhayət, onların rifah və bolluq içində yaşayanlarını əzabla yaxaladığımız zaman görərsən ki, fəryad edib dururlar.

65. Bu gün əbəs yerə yalvarıb-yaxarmayın. Çünki bizdən yardım görməyəcəksiniz.

66, 67. Çünki ayələrimiz sizə oxunurdu, siz isə buna qarşı təkəbbür göstərərək üz döndərib gecə vaxtı toplaşır, cəfəng sözlər danışırdınız.

68. Onlar bu sözü (Qur`anı) heç düşünmədilərmi? Yoxsa onlara keçmiş ata-babalarına gəlməyən bir şey gəldi?

69. Yaxud onlar hələ öz peyğəmbərlərini tanımadıqları üçün onu inkar edirlər?

70. Yoxsa: "O dəlidir", – deyirlər? Xeyir o, onlara haqqı gətirdi. Halbuki onların əksəriyyəti haqqı xoşlamırlar.

71. Əgər haqq onların arzularına uysaydı, göylər, yer və onlarda olanlar, əlbəttə, korlanıb gedərdi. Xeyr, biz onlara şərəflərini (Qur`anı) gətirdik. Onlar isə bu şərəflərindən üz çevirirlər.

72. Ey Muhamməd! Yoxsa sən onlardan bir vergi istəyirsən (ki, sənə inanmırlar)? Rəbbinin vergisi daha xeyirlidir. O, ruzi verənlərin ən xeyirlisidir.

73. Şübhəsiz, sən onları doğru bir yola çağırırsan.

74. Lakin axirətə inanmayanlar israrla bu yoldan çıxırlar.

75. Biz onlara mərhəmət edib başlarına gələn zərəri aradan qaldırsaydıq, yenə də azğınlıqları içində çırpınıb qalardılar.

76. And olsun, biz onları əzab ilə qəfil yaxaladıq, yenə Rəblərinə boyun əymədilər və Ona yalvarıb yaxarmadılar.

77. Nəhayət, onların üzünə şiddətli bir əzab qapısı açdığımız zaman görərsən ki, onun içində ümidsizliyə düşərlər.

78. Halbuki O, sizin üçün qulaqları, gözləri və qəlbləri yaradandır. Nə qədər də az şükür edirsiniz?

79. O, sizi yer üzündə yaradıb törədəndir. Sadəcə onun hüzurunda toplanacaqsınız.

80. O, dirildəndir və öldürəndir. Gecə ilə gündüzün bir-birini izləməsi də Ona aiddir. Hələ də düşünmürsünüzmü?

81. Xeyr, onlar əvvəlkilərin dediyi kimi dedilər.

82. Dedilər ki: "Həqiqətən, biz ölüb torpaq və sümük yığını halına gəldikdən sonra yenidən dirildiləcəyik?"

83. And olsun, biz də, bizdən əvvəl ata-babalarımız da bununla təhdid edilmişdik. Bu, əvvəlkilərin uydurduğu nağıllardan başqa bir şey deyil.

84. De ki: "Əgər bilirsinizsə, deyin, yer və yerdə olanlar kimə aiddir?"
85. "Allahındır", – deyəcəklər. "Elə isə heç düşünüb öyüd götürmürsünüzmü?" – de.
86. De ki: "Yeddi qat göylərin Rəbbi, böyük Ərşin Rəbbi kimdir?"
87. "Allahındır", – deyəcəklər. "Elə isə ona qarşı gəlməkdən çəkinmirsinizmi?" – de.
88. De ki: "Əgər bilirsinizsə, deyin, hər şeyin hökmranlığı əlində olan, qoruyan, ondan qorunmaq mümkün olmayan kimdir?"
89. "Allahındır", – deyəcəklər. "Elə isə necə aldanırsınız?" – de.
90. Xeyr, biz onlara haqqı gətirdik. Lakin onlar, həqiqətən, yalançıdırlar.
91, 92. Allah heç bir övlad götürməmişdir. Onunla yanaşı heç bir ilah yoxdur. Elə olsaydı, hər ilah öz yaratdığını götürüb aparar və mütləq bir-birilərinə üstün gəlməyə çalışardılar. Qeybi də, görünən aləmi də bilən Allah onların isnad etdikləri vəsflərdən uzaqdır. Onların qoşduqları şəriklərdən çox ucadır.
93, 94. De ki: "Ey Rəbbim! Əgər onlara yönəldilən təhdidləri mənə mütləq göstərəcəksənsə, məni o zalım millətin içində saxlama".
95. Bizim onlara yönəltdiyimiz təhdidləri sənə də göstərməyə, əlbəttə, qadirik.
96. Pisliyi ən gözəl olanla dəf et. Biz onların isnad etdikləri sifətləri daha yaxşı bilirik.
97. De ki: "Ey Rəbbim! Şeytanların vəsvəsələrindən sənə sığınıram".
98. "Ey Rəbbim! Onların mənim yanımda olmalarından da sənə sığınıram".
99, 100. Nəhayət, onlardan birinə ölüm yetişdiyi zaman: "Rəbbim! Məni dünyaya geri göndərin ki, tərk etdiyim dünyada saleh bir iş görüm", – deyər. Xeyr! Bu, sadəcə onun söylədiyi (əbəs) bir sözdür. Onların arxasında yenidən diriləcəkləri günə qədər (davam edən, geri qayıtmalarına əngəl olan) bir pərdə (bərzəx) var.
101. Sura[1] üfürüldüyü zaman o gün nə aralarında nəsəb yaxınlığı qalacaq, nə də bir-birilərini soraqlayacaqlar.
102. Artıq kimin tərəziləri ağır gələrsə, nicat tapanlar məhz onlardır.
103. Kimlərin də tərəziləri yüngül gələrsə, özlərini ziyana salanlar da məhz onlardır. Onlar cəhənnəmdə əbədi qalacaqlar.
104. Cəhənnəm odu onların üzlərini yalayar və onlar orada dişləri ağarmış vəziyyətdə qalarlar.
105. Allah: "Ayələrim sizə oxunurdu, siz də onları yalan sayırdınız, eləmi?" – deyər.
106. Onlar isə belə deyərlər: "Ey Rəbbimiz! Biz azğınlığımıza məğlub olduq və sapqın bir toplum olduq".
107. "Ey Rəbbimiz! Bizi buradan çıxar. Əgər (yenidən günaha) qayıtsaq, həqiqətən, özümüzə zülm etmiş olarıq".
108. Allah: "Zəlillik içində qalın orada, artıq mənimlə də danışmayın!" – deyər.
109. Qullarımdan "Ey Rəbbimiz! Biz inandıq, bizi bağışla, bizə rəhm et, sən rəhm edənlərin ən xeyirlisisən" deyən bir dəstə var idi.

1 Sur üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bilinməyən bir növ boru deməkdir.

110. Siz isə onları məsxərəyə qoyurdunuz. Onlar (ilə məşğul olmaq) sizə məni zikr etməyi unutdurdu. Onlara hey gülürdünüz.

111. Səbir etdikləri üçün bu gün mən onları mükafatlandırdım. Həqiqətən, onlar uğur tapanlardır.

112. Allah (inkarçılara): "Yer üzündə neçə il qaldınız?" – deyə sual edər.

113. Onlar: "Bir gün ya da bir gündən də az qaldıq. Hesab tutanlardan soruş", – deyərlər.

114. Allah belə deyər: "Çox az müddət qaldınız. Kaş ki, bunu (daha əvvəl) biləydiniz".

115. "Sizi əbəs yerə yaratdığımızı və yenidən bizim hüzurumuza qaytarılmayacağınızı hesab etdiniz?"

116. Həqiqi hökmdar olan Allah ucadır. Ondan başqa ilah yoxdur. O, şərəfli və uca Ərşin Rəbbidir.

117. Haqqında heç bir dəlili olmadığı halda kim Allah ilə yanaşı başqa bir ilaha tapınarsa, onun hesabı ancaq Rəbbinin qatındadır. Şübhəsiz, kafirlər əsla nicat tapmazlar.

118. De ki: "Rəbbim! Bağışla, mərhəmət et. Çünki sən mərhəmət edənlərin ən xeyirlisisən".

## 24. NUR SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 64 ayədən ibarətdir. Surənin adı 35-ci ayədə keçən "nur" sözündən götürülmüşdür. Surədə əsasən fərdi və ictimai həyatla əlaqəli hökmlər və prinsiplər, xüsusilə də ailə həyatı ilə bağlı başlıca mövzular yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Bu, bizim endirdiyimiz və (hökmlərini) fərz buyurduğumuz bir surədir. Düşünüb öyüd götürəsiniz deyə onda açıq-aydın ayələr nazil etdik.

2. Zina edən qadın və zina edən kişidən hər birinə yüz çubuq vurun. Allaha və axirət gününə inanırsınızsa, Allahın dini (nin qoyduğu hökmü tətbiq etmək) barəsində onlara qarşı ürəyiyumşaq olmayın. Möminlərdən bir dəstə də onların cəzalandırılmasına şahid olsun.

3. Zina edən kişi ancaq zina edən və ya Allaha şərik qoşan bir qadınla evlənər. Zina edən bir qadınla da ancaq zina edən və ya Allaha şərik qoşan bir kişi evlənər. Bu, möminlərə haram buyurulmuşdur.

4. İsmətli qadınları zinakarlıqda ittiham edib sonra da dörd şahid gətirməyənlərə səksən çubuq vurun. Onların şahidliyini əsla qəbul etməyin. Onlar məhz fasiqlərdir.

5. Ancaq bundan sonra tövbə edib islah olanlar istisnadır. Çünki Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

6, 7. Zövcələrinə zina isnad edib özlərindən başqa da şahidləri olmayanlara gəlincə onların hər birinin şahidliyi özünün doğru söyləyənlərdən olduğuna dair dörd dəfə Allaha and içərək şahidlik etməsi, beşinci dəfə isə əgər yalan söyləyənlərdəndirsə, Allahın lənətinin öz üzərinə olmasını ifadə etməsi ilə olur.

8, 9. Ərinin yalan söyləyənlərdən olduğuna dair Allahı dörd dəfə şahid gətirməsi (Allahın adı ilə and içməsi), beşinci dəfə isə əgər əri yalan söyləyənlərdəndirsə, Allahın qəzəbinin öz üzərinə olmasını diləməsi qadından cəzanı dəf edər.

10. Allahın sizə lütfü və mərhəməti olmasaydı və Allah tövbələri qəbul edən, hökm və hikmət sahibi olmasaydı, halınız necə olardı?

11. O ağır iftiranı uyduranlar aranızdan bir dəstədir. Bu iftiranı özünüz üçün pis bir şey hesab etməyin. Əksinə o sizin üçün bir xeyirdir. Onlardan hər biri üçün işlədikləri günahın cəzası var. Aralarından (başı çəkərək) o günahın böyüyünü öz üstünə götürən kimsə üçün isə ağır bir əzab var.[1]

12. Bu iftiranı eşitdiyiniz zaman iman edən kişi və qadınlar öz (din qardaş)ları haqqında hüsni-zənn bəsləyib: “Bu, açıq-aydın bir iftiradır”, – desəydilər olmazdımı?

13. Onlar (iftiraçılar) bu iddialarına dair dörd şahid gətirməliydilər. Madam ki, şahid gətirmədilər, onlar Allah qatında məhz yalançılardır.

14. Əgər dünya və axirətdə sizə Allahın lütfü və mərhəməti olmasaydı, içinə daldığınız bu iftiradan ötrü sizə mütləq böyük bir əzab toxunardı.

15. O iftiranı dildən dilə dolaşdırır, haqqında heç bir şey bilmədiyiniz şeyləri ağzınıza alıb danışır və bunu önəmsiz bir iş olara görürdünüz. Halbuki bu, Allah qatında böyük bir günahdır.

16. Bu iftiranı eşitdiyiniz zaman: “Belə sözləri dilimizə gətirmək bizə yaraşmaz. Səni nöqsanlardan uzaq tuturuq, Allahım! Bu, çox böyük bir iftiradır”, – desəydiniz olmazdımı?

17. Əgər inanırsınızsa, bu kimi şeylərə bir daha qətiyyən qayıtmamağınız üçün Allah sizə öyüd verir.

18. Allah sizə ayələri açıqlayır. Allah hər şeyi haqqı ilə bilәndir, hökm və hikmət sahibidir.

19. İnananlar arasında əxlaqsızlığın yayılmasını arzu edənlər ki var, onlar üçün dünya və axirətdə ağrılı-acılı bir əzab var. Allah bilir, siz bilməzsiniz.

20. Allahın sizə qarşı lütfü və mərhəməti olmasaydı və Allah çox şəfqətli və çox mərhəmətli olmasaydı, halınız necə olardı?

---

1 Bu ayə və bundan sonrakı doqquz ayədə İslam tarixində ifq (iftira) hadisəsi olaraq adlandırılan hadisədən bəhs edilir. Həzrət Peyğəmbər Bəni-Müstəliq qəzvəsindən qayıdarkən yanında olan həzrət Aişə qısa müddətə qafilədən uzaqlaşmışdı. Bu əsnada itirdiyi boyunbağısını axtarmaqla məşğul ikən qafilə hərəkət etmiş, o isə arxada qalmışdı. Qafilənin təhlükəsizliyini qorumaq üçün geridən gələn Səfvan ibn əs-Süləmi həzrət Aişəni öz dəvəsinə mindirərək heyvanı yedəyinə alıb Mədinəyə gətirdi. Aralarında münafiqlərin başçısı olan Abdullah ibn Übəyy ilə bəzi möminlərin də olduğu bir dəstə adam bu hadisəyə əsasən həzrət Aişə ilə Səfvan arasında bir yaxınlıq münasibəti olduğuna dair iftira ortaya atdılar. Ondan sonra həzrət Aişənin günahsız olduğunu açıqlayan bu ayələr nazil oldu.

21. Ey iman edənlər! Şeytanın addımlarına uymayın. Kim şeytanın addımlarına uysa, bilsin ki, o, əxlaqsızlığı və çirkinliyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kim əsla təmizə çıxa bilməzdi. Lakin Allah istədiyini təmizə çıxarar. Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

22. Aranızdan fəzilət və sərvət sahibi olan kimsələr yaxınlara, miskinlərə və Allah yolunda hicrət edənlərə (öz mallarından heç bir şey) verməyəcəklərinə and içməsinlər. Əfv etsinlər, vaz keçib xoş rəftar etsinlər. Allahın sizi bağışlamasını istəməzsinizmi? Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

23, 24. İsmətli və (özləri haqqında uydurulan pisliklərdən) xəbərsiz mömin qadınlara zina isnad edənlər, həqiqətən, dünya və axirətdə lənətlənmişdirlər. İşlədikləri günahdan dolayı dillərinin, əllərinin və ayaqlarının öz əleyhlərində şahidlik edəcəyi gündə onlar üçün çox böyük bir əzab var.

25. O gün Allah onlara haqq olan cəzalarını tam bir şəkildə verəcək və onlar Allahın açıq-aydın bir haqq olduğunu biləcəklər.

26. Pis qadınlar pis kişilərə, pis kişilər də pis qadınlara, təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdir.[1] O təmiz olanlar iftiraçıların söylədikləri şeylərdən uzaqdırlar. Onlar üçün bir məğfirət və bol ruzi var.

27. Ey iman edənlər! Başqalarının evinə (getdiyiniz zaman) gəldiyinizi hiss etdirib (icazə istəyib) ev sahiblərinə salam vermədən daxil olmayın. Bu, sizin üçün daha xeyirlidir. Düşünüb anlayasınız deyə sizə belə öyüd verilir.

28. Əgər evdə heç kəsi tapmasanız, sizə icazə veriləne qədər oraya girməyin. Əgər sizə “Geri dönün” deyilsə, dərhal dönüb gedin. Çünki bu, sizin üçün daha təmiz bir davranışdır. Allah etdiklərinizi haqqı ilə biləndir.

29. İçərisində sizə aid bir əşya olan qeyri-məskun evlərə daxil olmaqda sizə bir günah yoxdur. Allah aşkara vurduqlarınızı da, gizlədiklərinizi də bilir.

30. Mömin kişilərə de ki, gözlərini haramdan çevirsinlər, ismətlərini qorusunlar. Bu, onlar üçün daha təmiz bir davranışdır. Şübhə yoxdur ki, Allah onların etdiklərindən haqqı ilə xəbərdardır.

31. Mömin qadınlara da de ki, gözlərini haramdan çevirsinlər, ismətlərini qorusunlar. (Üz və əl kimi) görünən qismlər istisna olmaqla zinət (yer)lərini göstərməsinlər. Baş örtülərini yaxalarının üzərinə qədər salsınlar. Zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud oğullarından, yaxud ögey oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud müsəlman qadınlardan, yaxud sahib olduqları kölələrdən, yaxud kişiliyini itirmiş xidmətçilərdən, yaxud da hələ qadınların məhrəm yerlərini anlamayan oğlan uşaqlarından başqalarına göstərməsinlər. Gizlədikləri zinətlər bilinsin deyə ayaqlarını yerə vurmasınlar. Ey möminlər, hamınız birlikdə tövbə edin ki, nicat tapasınız!

---

1 Ayənin bu hissəsi belə də tərcümə edilə bilər: “Pis şeylər və pis sözlər pis kimsələrə, pis kimsələr də pis şeylərə və pis sözlərə layiqdir. Yaxşı şeylər və yaxşı sözlər yaxşı kimsələrə, yaxşı kimsələr də yaxşı şeylərə və yaxşı sözlərə layiqdir”. Mövzu ilə əlaqəli olaraq bu surənin 3-cu ayəsinə baxın.

32. Sizdən subay olanları, kölələrinizdən və cariyələrinizdən evlənməyə münasib olanları evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah onları öz lütfü ilə zənginləşdirər. Allah lütfü geniş olandır, haqqı ilə biləndir.

33. Evlənməyə imkanı çatmayanlar isə Allah onları öz lütfü ilə imkan sahibi edənə qədər iffətlərini qorusunlar. Sahib olduğunuz kölələrdən mükatəbə etmək istəyənlərə gəlincə əgər onlarda bir xeyir görsəniz, onlarla mükatəbə edin.[1] Allahın sizə verdiyi maldan onlara verin. Dünya həyatının fani mənfəətlərini əldə etmək məqsədilə namuslu qalmaq istəyən cariyələrinizi əxlaqsızlığa məcbur etməyin. Kim onları buna məcbur edərsə, bilsin ki, şübhəsiz, onların məcburiyyət qarşısında qalmasından sonra Allah (onları) çox bağışlayandır, çox mərhəmətlidir.

34. And olsun, biz sizə açıqlayıcı ayələr, sizdən əvvəl gəlib keçənlərdən bir misal və Allaha qarşı gəlməkdən çəkinənlər üçün bir öyüd nazil etdik.

35. Allah göylərin və yerin nurudur. Onun nuru buna bənzər: divarda bir oyuq, içində bir qəndil, qəndil isə bir şüşənin içindədir. Şüşə sanki inci kimi parıldayan bir ulduzdur. Mübarək bir ağacdan, nə şərqə, nə də qərbə aid olan zeytun ağacından yandırılır. Bu ağacın yağı ona od toxunmasa belə az qala işıq saç(acaq qədər bərraqd)ır. Nur üstünə nur. Allah istədiyini öz nuruna yönəldər. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi haqqı ilə biləndir.[2]

36, 37. Tikilib ucaldılmasına və içərisində öz adının zikr edilməsinə Allahın izin verdiyi evlərdə heç bir ticarətin və heç bir alış-verişin onları Allahın zikrindən, namazı qılmaqdan, zəkatı verməkdən yayındırmadığı bəzi adamlar orada səhər-axşam Onu təsbih edərlər. Onlar qəlblərin və gözlərin (dəhşətə düşərək) haldan hala düşəcəyi bir gündən qorxarlar.

38. (Bütün bunları ona görə edərlər ki,) Allah onları işlədikləri əməllərin ən gözəli ilə mükafatlandırsın və onlara öz lütfündən daha da artığını versin. Allah istədiyinə saysız-hesabsız ruzi verər.

39. İnkar edənlərə gəlincə, onların əməlləri ucsuz-bucaqsız bir səhradakı sərab kimidir. Susamış kimsə onu su sanar. Yanına gəldiyi zaman heç bir şey tapa bilməz. (Eynilə bunun kimi kafir də haqq-hesab günü əməllərindən heç bir şey tapa bilməz.) Ancaq yanında Allahı tapar, Allah onu əskiksiz hesaba çəkər. Allah tez hesaba çəkəndir.

40. Yaxud (inkarçıların küfr içindəki halları) dərin bir dənizdəki qaranlıqlar kimidir. (Elə bir dənizdir ki,) onu dalğa üstünə dalğa bürüyür, üstündə də buludlar var.

---

1 İslam hüququnda "mükatəbə" kölənin müəyyən bir məbləğ ödədikdən sonra azad ediləcəyinə dair kölə ilə sahibi arasındakı bir müqavilədir. Bu müqavilədən sonra kölə nəzərdə tutulan məbləği qazanmaq üçün sərbəst çalışmaq haqqına sahib olur.

2 Bu ayədə keçən "Allah göylərin və yerin nurudur" ifadəsi Allahın yaratmaq və idarə etmək baxımından qüdrətini təmsil edir. Qaranlıq bir otağın divarındakı oyuqdakı bir işıq mənbəyinin dəfələrlə gücləndirildiyi zaman yaradacağı işıq sütununun qaranlığı aydılatmaq gücü Allahın kainat üzərindəki qüdrətini xatırladır.

Qaranlıqlar üstünə qaranlıqlar. İnsan əlini çıxarsa, az qala onu belə görə bilməz. Allah kimə nur verməzsə, onun nuru olmaz.[1]

41. Göylərdə və yer üzündə olan kimsələr ilə sıra-sıra (qanad çırparaq uçan) quşların Allahı təsbih etdiyini görmürsənmi? Hər biri duasını və təsbihini bilir. Allah onların etdiklərini haqqı ilə biləndir.

42. Göylərin və yerin hökmranlığı Allahındır. Qayıdış da yalnız Allahadır.

43. Görmürsənmi ki, Allah buludları sürükləyir. Sonra onları birləşdirib üst-üstə yığır. Nəhayət, onların arasından yağmurun yağdığını görərsən. O, göydən, oradakı dağ (kimi bulud)lardan dolu endirər. Onu istədiyinə tuş gətirər, istədiyindən də sovuşdurar. Bu buludların şimşəyinin parıltısı az qalır ki, gözləri kor etsin.

44. Allah gecəni (gündüzə), gündüzü (gecəyə) çevirər. Şübhəsiz, bəsirət sahibi olanlar üçün bunda bir ibrət var.

45. Allah bütün canlıları sudan yaratdı. Bunlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstə yeriyir, bəzisi də dörd ayaq üstə yeriyir. Allah istədiyini yaradar. Çünki Allah hər şeyə haqqı ilə qadirdir.

46. And olsun, biz açıqlayıcı ayələr nazil etdik. Allah istədiyi kimsəni doğru yola yönəldər.

47. (Münafiqlər:) "Allaha və peyğəmbərə inandıq və itaət etdik", – deyirlər. Sonra da onların bir qismi bunun ardından üz döndərirlər. Halbuki onlar inanmış deyillər.

48. Aralarında hökm verməsi üçün Allaha (Qur`ana) və peyğəmbərə çağırıldıqları zaman görərsən ki, onlardan bir dəstə üz çevirər.

49. Ancaq həqiqət (verilən hökm) öz leyhlərinədirsə, boyun əyərək ona gələrlər.

50. Qəlblərində bir xəstəlik var, yaxud şübhə və tərəddüdə düşüblər? Yaxud Allahın və Rəsulunun onlara qarşı zülm və haqsızlıq edəcəyindən qorxurlar? Xeyr, məhz onlar əsl zalımlardır.

51. Aralarında hökm vermək üçün Allaha (Qur`ana) və Rəsuluna çağırıldıqları zaman möminlərin söyləyəcəyi söz ancaq "Eşitdik və iman etdik" demələridir. Qurtuluşa nail olanlar da məhz onlardır.

52. Kim Allaha və Rəsuluna itaət edər, Allahdan qorxar və Ona qarşı gəlməkdən çəkinərsə, əsl uğura nail olanlar məhz onlardır.

53. Münafiqlər sən onlara əmr etdiyin təqdirdə mütləq savaşa çıxacaqları haqda ən ağır şəkildə Allaha and içdilər. De ki: "And içməyin. Sizdən istənilən gözəl bir şəkildə itaət etməkdir. Şübhəsiz, Allah etdiklərinizdən haqqı ilə xəbərdardır".

54. De ki: "Allaha itaət edin, Peyğəmbərə itaət edin". Əgər üz çevirsəniz, bilin ki, onun məsuliyyəti ancaq ona aiddir, sizin məsuliyyətiniz isə yalnız sizə aiddir. Əgər ona itaət etsəniz, hidayət taparsınız. Peyğəmbərin öhdəsinə düşən isə ancaq açıq-aşkar təbliğdir.

55. Allah sizdən iman edib saleh işlər görənlərə, özlərindən əvvəlkilərə hökmranlıq

1 Bu ayədə küfr zülmətə bənzədilir. İnsan necə işıq olmadan bir yerə gedə bilməz, təhlükələrlə qarşı-qarşıya qalarsa, eləcə də küfr qaranlığındakı bir kimsə də həqiqəti tapa bilməz, çaşbaş qalar.

verdiyi kimi onlara da yer üzündə mütləq hökmranlıq verəcəyinə, onlar üçün xoşnud və razı olduğu dinlərini bərqərar edəcəyinə, yaşadıqları qorxularının ardından mütləq onları əmin-amanlığa çıxaracağına dair vəd etmişdir. Onlar mənə qulluq edər və mənə heç bir şeyi şərik qoşmazlar. Artıq bundan sonra kim inkar edərsə, onlar məhz fasiqlərdir.

56. Namazı doğru qılın, zəkatı verin, Rəsula itaət edin ki, sizə mərhəmət edilsin.

57. İnkar edənlərin (Allahı) yer üzündə aciz qoyacaqlarını sanma! Onların gedəcəyi yer cəhənnəmdir. Ora necə də pis mənzildir!

58. Ey iman edənlər! Əlinizin altında olanlar (kölələriniz) və sizdən hələ həddi-büluğa çatmayanlar gündə üç dəfə, sübh namazından əvvəl, günorta paltarınızı çıxardığınız zaman və işa namazından sonra (yanınıza daxil olmaq istədikləri zaman) sizdən icazə istəsinlər. Bu üç vaxt sizin paltarsız olduğunuz vaxtlardır. Bu vaxtlar xaricində (icazəsiz daxil olmaqda) nə sizə, nə də onlara günah yoxdur. Bir-birinizin yanına girib-çıxa bilərsiniz. Allah ayələrini sizə belə açıqlayır. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

59. Uşaqlarınız həddi-büluğa çatdığı zaman onlardan əvvəlkilərin izin istədiyi kimi izin istəsinlər. Allah ayələrini sizə belə açıqlayır. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

60. Artıq evlənməyə ümid bəsləməyən, heyzdən və doğuşdan kəsilən yaşlı qadınların zinətlərini göstərmədən üst paltarlarını çıxarmalarında onlar üçün bir günah yoxdur. Amma yenə də çəkinmələri onlar üçün daha xeyirlidir. Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

61. Kora çətinlik yoxdur, topala çətinlik yoxdur, xəstəyə də çətinlik yoxdur.[1] Öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları əlinizdə olan evlərdə, yaxud da dostlarınızın evlərində yemək yemənizdə də bir günah yoxdur. Bir yerdə və ya ayrı-ayrı yemək yemənizdə də bir günah yoxdur. Evlərə daxil olduğunuz zaman bir-birinizə Allah qatından mübarək və xoş bir xeyir-dua olaraq salam verin. Düşünəsiniz deyə Allah ayələri sizə belə açıqlayır.

62. Möminlər ancaq Allaha və peyğəmbərinə inanan, onunla (peyğəmbərlə) birlikdə ümumi bir işlə məşğulkən ondan izin almadan çıxıb getməyən kimsələrdir. Səndən izin istəyənlər ki var, onlar Allaha və Rəsuluna iman edən kimsələrdir. O halda əgər bəzi işlərini görmək üçün səndən izin istəsələr, onlardan istədiyinə izin ver və onlar üçün Allahdan bağışlanma dilə. Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

63. (Ey inananlar!) Peyğəmbərin (sizi) çağırmasını öz aranızda bir-birinizi çağırmanızla bir tutmayın. Aranızdan bir-birini sipər tutaraq sovuşub aradan çıxanları

1 Müsəlmanlar savaşa çıxdıqları zaman evlərini savaşa gedə bilməyən kor, topal və xəstələrə əmanət edərdilər. Onlar isə mühafizə etdikləri evlərdə yeyib içməkdən çəkinərdilər. Ayə bunda bir günah olmadığını ifadə edir.

Allah, həqiqətən, bilir. Artıq onun əmrinə qarşı çıxanlar başlarına bir bəlanın gəlməsindən və ya ağrılı-acılı bir əzaba düçar olmaqdan çəkinsinlər!

64. Bilin ki, şübhəsiz, göylərdəki hər şey, yerdəki hər şey Allahındır. O, sizin nə halda olduğunuzu, həqiqətən, bilir. Allahın hüzuruna qaytarılacaqları və etdiklərini Allahın onlara xəbər verəcəyi günü xatırla. Allah hər şeyi haqqı ilə biləndir.

## 25. FURQAN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 68-70-ci ayələrin Mədinə dövründə nazil olduğunu bildirən bir rəvayət də var. 77 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-furqan" kəlməsindən götürülmüşdür. Furqan "haqq ilə batili bir-birindən ayırd edən" deməkdir. Həmçinin Furqan Qur`anın adlarından biridir. Surədə başlıca olaraq keçmiş ümmətlərin həyatlarından bəzi nümunələr də verilməklə həzrət Peyğəmbərin bəşəriyyətə göndərilməsi, onun İslamı təbliğ edərkən qarşılaşdığı çətinliklər və şirkin yox olacağı kimi mövzular yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Aləmlərə bir xəbərdar edən olması üçün quluna Furqanı endirən Allahın şanı ucadır.

2. Göylərin və yer üzünün mülkü (hökmranlığı) Ona aiddir. Övlad götürməmişdir. Mülkündə heç bir ortağı da yoxdur. O, hər şeyi yaratmış və yaratdığı o şeyləri bir ölçüyə görə təqdir buyurmuşdur.

3. (İnkar edənlər) Allahı buraxıb heç bir şey yaratmayan, özləri də yaradılmış olan, üstəlik onlara faydası və zərəri toxunmayan, öldürməyə, yaşatmağa və ölüləri dirildib qəbirdən çıxartmağa gücləri yetməyən ilahlar tutdular.

4. İnkar edənlər: "Bu Qur`an Muhammədin uydurduğu bir yalandan başqa bir şey deyil. Başqa bir tayfa da bu barədə ona yardım etmişdir", – dedilər. Beləliklə, onlar haqsız və əsilsiz bir söz uydurdular.

5. "(Bu Qur`an Muhammədin başqalarından) yazıb götürdüyü əvvəlkilərə aid əfsanələrdir", – dedilər.

6. (Ey Muhamməd!) De ki: "O kitabı göylərin və yerin sirrini bilən nazil etmişdir. Şübhəsiz, O, bağışlayandır, çox mərhəmət edəndir".

7. Dedilər ki: "Bu, necə peyğəmbərdir ki, yemək yeyir, bazarlarda gəzib dolaşır. Ona bir mələk endirilməli deyildimi ki, onunla birlikdə bir xəbərdar edən olsun?"

8. "Yaxud ona bir xəzinə veriləydi və ya məhsulundan yeyəcəyi bir bağı olaydı!" Zalımlar (iman edənlərə): "Siz ancaq ovsunlanmış bir adama tabe olursunuz", – dedilər.

9. (Ey Muhamməd!) Gör sənin haqqında necə də misallar çəkib (haqq yoldan) azdılar. Daha onlar doğru yolu tapa bilməzlər.

10. Əgər istərsə, sənə bundan daha xeyirlisini, içindən çaylar axan cənnətləri verə bilən, sənin üçün qəsrlər yarada bilən Allahın şanı ucadır.

11. Xeyr, onlar qiyaməti də yalan saydılar. Biz isə qiyaməti yalan sayanlar üçün çılğın bir cəhənnəm atəşi hazırlamışıq.

12. Bu atəş onları uzaqdan görüncə onun dəhşətli qaynamasını və uğultusunu eşidərlər.

13. Əlləri boyunlarına bağlanmış halda cəhənnəmin dar bir yerinə atıldıqları zaman orada yox olub getmək istəyərlər.

14. (Onlara:) "Bu gün bir dəfə yox olmağı istəməyin, dəfələrlə yox olmağı istəyin!" (– deyilər.)

15. De ki: "Bu, daha xeyirlidir, yoxsa Allaha qarşı gəlməkdən çəkinənlərə vəd olunan əbədi cənnət?" Ora onlar üçün bir mükafat və gediləcək bir mənzildir.

16. Əbədi olaraq qalacaqları o yerdə onlar üçün istədikləri hər şey var. Bu, Rəbbinin öz öhdəsinə götürdüyü, (yerinə yetirilməsi) istənilən bir vədidir.

17. Rəbbinin onları və onların Allahı buraxıb tapındıqları şeyləri bir yerə toplayacağı və (tapındıqları o şeylərə:) "Mənim bu qullarımı siz sapdırdınız, yoxsa onlar özləri yoldan çıxdılar?" – deyəcəyi günü xatırla.

18. Onlar: "Biz səni nöqsanlardan uzaq tuturuq. Səni buraxıb başqa dostlar tutmaq bizə yaraşmaz. Lakin sən onlara və onların atalarına o qədər bol nemət verdin ki, axırda səni zikr etməyi unutdular və məhvə yuvarlanan bir qövm oldular", – deyərlər.

19. (İlah qəbul etdikləriniz) dedikləriniz barəsində sizi təkzib etdilər. Artıq özünüzdən əzabı sovuşdurmağa gücünüz yetməyəcək və özünüzə yardım da edə bilməyəcəksiniz. Sizdən kim zülm və haqsızlıq edərsə, ona böyük bir əzab daddırarıq.

20. Səndən əvvəl göndərdiyimiz bütün peyğəmbərlər də şübhəsiz, yemək yeyər, bazarlarda gəzib dolaşardılar. (Ey insanlar!) Sizi bir-biriniz üçün sınaq vasitəsi etdik. (Görək) səbir edəcəksinizmi? Rəbbin haqqı ilə görəndir.

21. Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: "Gərək bizə bir mələk endiriləydi, yaxud Rəbbimizi görəydik", – dedilər. And olsun, onlar öz nəfslərində kibrə qapıldılar və böyük bir azğınlığa düşdülər.

22. Amma mələkləri görəcəkləri gün, məhz o gün günahkarlar üçün heç bir müjdə yoxdur. "Biz Allahın rəhmətindən tamamilə uzaqlaşdırılmışıq"[1] – deyəcəklər.

23. Onların etdikləri bütün əməllərinə yönəldik və onları dağınıq zərrələrə çevirdik.

24. O gün cənnətliklərin qalacaqları yer daha xeyirli, istirahət edəcəkləri yer daha gözəldir.

25. O gün səma buludlarla yarılıb parçalanacaq və mələklər bölük-bölük endiriləcək.

26. O gün əsl hökmranlıq Rəhmanındır və kafirlər üçün çətin bir gün olacaq.

27. O gün zalım kimsə (biçarə halda): "Kaş ki, mən də peyğəmbərlə birlikdə eyni yolu tutaydım!"

---

1 Ayənin son hissəsi "Mələklər də onlara: "Bu gün sizə heç bir sevindirici xəbər yoxdur", – deyəcəklər" şəklində də tərcümə oluna bilər.

28. "Vay halıma! Kaş, filankəsi dost tutmayaydım".
29. "And olsun, Qur`an mənə gəldikdən sonra məni ondan o sapdırdı".
30. Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Qur`anı tərk edilmiş bir hala saldı", – dedi.
31. Beləliklə, biz hər peyğəmbər üçün günahkarlardan bir düşmən yaratdıq. Yol göstərən və yardımçı olaraq Rəbbin yetər.
32. İnkar edənlər: "Gərək Qur`an ona toplu olaraq birdəfəyə endiriləydi", – dedilər. Biz Qur`anla sənin qəlbini qüvvətləndirmək üçün onu belə hissə-hissə nazil etdik və onu ağır-ağır oxuduq.[1]
33. Onlar sənə elə bir məsəl gətirməzlər ki, (bunun əvəzində) sənə haqqı və ən gözəl təfsiri gətirməmiş olaq.
34. Üzü üstə cəhənnəmə sürüklənəcək olanlar ki var, onlar durduqları mövqe etibarilə daha pis, tutduqları yol etibarilə daha sapqındırlar.
35. And olsun, biz Musaya Kitabı (Tövratı) verdik və qardaşı Harunu da ona köməkçi etdik.
36. Onlara: "Ayələrimizi təkzib edən qövmə gedin", – dedik. Nəhayət, o qövmü yerlə yeksan etdik.
37. Nuh qövmünü də peyğəmbərləri təkzib etdikləri zaman suda boğduq. Onları insanlar üçün bir ibrət etdik və zalımlar üçün ağrılı-acılı bir əzab hazırladıq.
38. Ad və Səmud qövmlərini, Rəss əhlini[2] və bunların arasında olan bir çox nəsilləri də həlak etdik.
39. Onların hər birinə misallar gətirdik, (öyüd götürmədikləri üçün) hamısını darmadağın etdik.
40. And olsun, sənin qövmünün bəla yağmuruna tuş gələrək yox edilən bir şəhərə yolları düşmüşdü. Yoxsa onu görmürdülərmi (ki, ibrət götürmürdürlər)? Xeyr! (Görürdülər, lakin) yenidən dirilməyə ümid etmirdilər.[3]
41, 42. Onlar səni gördükləri zaman ancaq məsxərəyə qoyurlar. "Allahın peyğəmbər olaraq göndərdiyi adam budurmu? Biz ilahlarımızdan bərk yapışmasaydıq, az qala bizi ilahlarımızdan uzaqlaşdıracaqdı", (– deyərlər.) Onlar tezliklə əzabı gördükləri zaman kimin yolunun daha sapqın olduğunu biləcəklər.
43. Öz nəfsinin arzusunu özünə tanrı tutanı gördünmü? Ona sənmi vəkil olacaqsan?[4]

1 Ayənin son hissəsi "Biz Qur`anı sənin qəlbinə yerləşdirmək üçün onu hissə-hissə endirdik və onu ağır-ağır oxuduq" şəklində də tərcümə oluna bilər.

2 Ad qövmü ilə əlaqəli olaraq Ə`raf surəsinin 65-ci ayəsinin istinadına, Səmud qövmü ilə əlaqəli olaraq da həmin surənin 73-cü ayəsinin istinadına baxın.

"Rəss" daşla hörülmüş quyu deməkdir. Rəss əhli də daşlarla hörülmüş quyuların ətrafında məskən tutan camaat deməkdir. Bu bölgənin hara olduğu barəsində müxtəlif rəvayətlər mövcuddur. Misal üçün, tabiundan Qətadəyə aid bir rəvayətə görə Rəss (digər adı ilə Fəlc) Ərəbistan yarımadasının orta bölgələrində yerləşən Yəmamədəki bir məskunlaşma yeri idi. Burada yaşayan xalq Səmud qövmünün soyundan gəlirdi.

3 Bu ayə və ardından gələn üç ayədə həzrət Peyğəmbəri (s.ə.s.) gördükləri zaman ona istehza edib "İlahlarımıza sıx bağlanmasaydıq, bu, az qala bizi onlardan uzaqlaşdıracaqdı" deyən müşriklər nəzərdə tutulur.

4 Ayədə bəhs olunan şəxsin Əbu Cəhl olduğu rəvayət edilmişdir.

44. Yoxsa sən onların çoxunun söz eşidəcəklərini və ya düşünəcəklərini hesab edirsən? Onlar heyvanlar kimidir, tutduqları yol etibarilə bəlkə onlardan daha sapqındırlar.

45. Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi? İstəsəydi, onu sabit edərdi. Sonra biz günəşi kölgəyə bir dəlil etdik.

46. Sonra onu yavaş-yavaş özümüzə tərəf çəkdik.

47. O, gecəni sizin üçün bir örtük, yuxunu istirahət vaxtı və gündüzü də hərəkət və çalışma vaxtı olaraq yaradandır.

48, 49. O, külələri rəhmətinin önündə müjdəçi olaraq göndərəndir. Biz göydən tərtəmiz bir su endirdik ki, onunla ölü torpağı canlandıraq və yaratdıqlarımızdan bir çox heyvanlara və insanlara su içirdək.

50. And olsun, düşünüb öyüd götürsənlər deyə biz bunu insanlar arasında təkrar-təkrar açıqladıq. Ancaq insanların çoxu nankorluqda israr etdi.

51. Əgər istəsəydik, hər məmləkətə bir xəbərdar edən göndərərdik.

52. Elə isə kafirlərə itaət etmə, bu Qur`anla onlara qarşı böyük bir cihad et.

53. O, birinin suyu ləzzətli və şirin, digərininki duzlu və acı olan iki dənizi qovuşdurub aralarına görünməz bir pərdə və qarışmaqlarına mane olan bir sədd qoyandır.

54. O, sudan bir insan yaradıb ondan nəsil və qohumluq meydana gətirəndir. Rəbbin hər şeyə haqqı ilə qadirdir.

55. Onlar Allahı buraxıb özlərinə nə xeyri nə də zərəri toxunan şeylərə qulluq edirlər. Kafir Rəbbinə qarşı (şeytana) arxa durandır.

56. Biz səni ancaq bir müjdəçi və bir xəbərdar edən olaraq göndərdik.

57. De ki: "Mən bunun əvəzində sizdən, istəyən kimsənin Rəbbinə tərəf yol tutmasından başqa bir muzd istəmirəm".

58. Sən o ölməz və daim diri olana (Allaha) təvəkkül et. Onu həmd ilə təsbih et. Qullarının günahlarından haqqı ilə xəbərdar olaraq O yetər!

59. Göyləri və yer üzünü və ikisi arasındakıları altı gündə (altı mərhələdə) yaradan, sonra isə Ərşin[1] üzərində bərqərar olan Rəhmandır. Sən bunu xəbərdar olandan soruş!

60. Onlara: "Rəhmana səcdə edin", – deyildikdə, "Rəhman nədir? Sənin bizə əmr etdiyinə səcdə edək?" – deyərlər və bu, onların nifrətini artırar.

61. Göyə bürclər yerləşdirən, orada bir işıq mənbəyi (günəş) və nur saçan bir ay yaradanın şanı çox ucadır.

62. O, öyüd götürmək istəyən və çox şükür edən bir kimsə olmaq istəyənlər üçün gecəni və gündüzü ard-arda gətirəndir.

63. Rəhmanın qulları yer üzündə vüqarlı və təvəzökar bir şəkildə yeriyənlədir. Cahillər onlara söz atdıqları zaman "Salam!" deyərlər.

64. Onlar Rəbləri üçün gecəni səcdə edərək və qiyamda duraraq keçirənlərdir.

1 Ərş qüdrət və hakimiyyət taxtı, sonsuz qüdrət mərtəbəsi deməkdir.

65. Onlar belə deyənlərdir: “Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaqlaşdır, həqiqətən, onun əzabı daimi bir həlakdır!”
66. “Həqiqətən, ora nə pis mənzil və nə pis məqamdır”.
67. Onlar elə kəslərdir ki, xərclədikləri zaman nə israf edərlər, nə də xəsislik edərlər, bu ikisinin arasında orta bir yol tutarlar.
68. Onlar Allahla yanaşı başqa bir ilaha qulluq etməyən, Allahın haram buyurduğu cana haqsız yerə qıymayan və zina etməyən kimsələrdir. Kim bunları etsə, ağır bir əzaba düçar olar.
69. Qiyamət günü onun əzabı qat-qat artırılar və həqir bir vəziyyətdə əbədi olaraq orada qalar.
70. Amma tövbə edib iman edən və saleh əməl işləyənlər istisnadır. Allah onların pisliklərini yaxşılıqlara çevirər. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.
71. Kim də tövbə edər və saleh əməl işlərsə, o, Allaha tövbəsi qəbul edilmiş olaraq dönər.
72. Onlar yalana şahidlik etməyən, faydasız, boş bir şeylə qarşılaşdıqları zaman vüqarla və xoşgörü ilə keçib gedənlərdir.
73. Onlar Rəblərinin ayələri  xatırladıldığı zaman (həqiqəti görmək və eşitmək barəsində) onlara qarşı kar və kor olmazlar.
74. Onlar “Ey Rəbbimiz! Zövcələrimizi və övladlarımızı bizim üçün göz aydınlığı et və bizi Allaha qarşı gəlməkdən çəkinənlərə öndər elə” deyənlərdir.
75. Onlar səbir etmələrinin əvəzində cənnətin yüksək məqamları ilə mükafatlandırılacaqlar və orada xeyir-dua və salamla qarşılanacaqlar.
76. Orada əbədi qalarlar. Ora nə gözəl bir mənzil və nə gözəl bir məqamdır!
77. (Ey Muhamməd!) De ki: “Duanız olmasa, Rəbbim sizə nə dəyər versin! Siz təkzib etdiniz. Elə isə əzab yaxanızdan əl çəkməyəcək”.

## 26. ŞUƏRA SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 227 ayədən ibarətdir. Surənin adı 224-cü ayədə keçən “əş-şuəra” kəlməsindən götürülmüşdür. Şuəra şairlər deməkdir. Surədə başlıca olaraq Musa, İbrahim, Nuh, Hud, Salih və Şüeyb peyğəmbərlərin qissələrinə yer verilir, Qur`anın qeyri-ilahi bir qaynağa əsaslanması ilə bağlı müşriklərin iddialarına cavab olaraq onun qaynağının vəhy olduğu vurğulanır, nəzərdə tutulan qeyri-ilahi qaynaqların Qur`ana hər hansı bir təsirinin mümkün olmadığı bildirilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ta Sin Mim.[1]
2. Bunlar açıq-aydın Kitabın ayələridir.

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

3. Ey Muhamməd! İnanmırlar deyə az qala özünü həlak edəcəksən!
4. Biz istəsək, göydən onlara bir möcüzə endirərik, ona boyun əymək məcburiyyətində qalarlar.
5. Onlara Rəhmandan gələn hər yeni öyüddən mütləq üz döndərərlər.
6. Onlar (Allahın ayələrini) yalan saydılar, amma istehza etdikləri şeylərin xəbərləri gəlib onlara çatacaq.
7. Məgər onlar yer üzünə baxmırlarmı? Biz orada neçə-neçə gözəl və faydalı bitkilər bitirdik.
8. Şübhəsiz, bunlarda (Allahın varlığına) bir dəlil var, amma onların çoxu inanmırlar.
9. Şübhəsiz, sənin Rəbbin mütləq güc sahibidir, çox mərhəmətlidir.
10, 11. Bir vaxt Rəbbin Musaya: "Zalımlar qövmünə – Firon qövmünə get! Başlarına gələcək (müsibətlər)dən hələ də qorxub çəkinmirlərmi?" – deyə səslənmişdi.
12. Musa belə dedi: "Ey Rəbbim! Həqiqətən, mən onların məni təkzib edəcəklərindən qorxuram".
13. "Qəlbim daralar. Səlis danışa bilmərəm. Buna görə Haruna da peyğəmbərlik ver (və onu mənə köməkçi et)".[1]
14. "Üstəlik mən onlar qarşısında suçlu vəziyyətdəyəm. Bu səbəblə onların məni öldürməsindən qorxuram".
15. Allah dedi ki: "Xeyr, qorxma! Möcüzələrimizlə gedin. Çünki biz sizinləyik, (hər şeyi) eşidirik".
16. Fironun yanına gedin və deyin: "Şübhəsiz, biz aləmlərin Rəbbinin elçisiyik".
17. "İsrail oğullarını bizimlə göndər".
18. Firon belə dedi: "Biz səni kiçik bir uşaqkən götürüb aramızda böyütmədikmi? Sən ömrünün neçə ilini aramızda keçirdin".
19. "Amma sən etdiyini etdin (adam öldürdün). Sən nankorlardansan".
20. Musa belə dedi: "Mən onu o vaxt özümü itirmiş bir halda ikən (istəmədən) etdim".
21. "Sizdən qorxduğum üçün də dərhal aranızdan qaçıb getdim. Sonra Rəbbim mənə hökm və hikmət bəxş etdi, məni peyğəmbərlərdən etdi".[2]
22. "Mənə minnət qoyduğun bu nemət (əslində) İsrail oğullarını kölələşdirmən(in nəticəsi)dir".[3]

---

1 Həzrət Musanın Firona göndərilməsi ilə əlaqəli olaraq baxın: Taha, 20/24-98, Qəsəs, 28/32-40.

2 Həzrət Musanın istəmədən adam öldürməsi ilə əlaqəli olaraq baxın: Qəsəs, 28/15-16.

3 Firon İsrail oğullarının oğlan uşaqlarının öldürülməsini əmr etmiş, həzrət Musanın anası isə oğlunu ölümdən qurtarmaq üçün onu bir səbətin içinə qoyub Nil çayına atmışdı. Fironun ailəsi onu tapıb saraya gətirmiş və Musa orada Fironun himayəsində yetişmişdi. (Baxın: Bəqərə, 2/49, Qəsəs, 28/7-12.) Əgər Firon İsrailoğullarını kölələşdirərək onların oğlan uşaqlarını öldürməsəydi, Musa da Fironun himayəsinə daxil olmayacaq və "nemət" olaraq ifadə edilən bu vəziyyət yaranmayacaqdı. Qısacası, Firon Musaya nemət verməmiş, əslində ona zülm etmişdir.

23. Firon: “Aləmlərin Rəbbi nədir?” – dedi.
24. Musa: “O, göylərin və yerin və ikisi arasında olan hər şeyin Rəbbidir. Əgər, həqiqətən, inanırsınızsa, bu belədir”, – dedi.
25. Firon ətrafındakılara (istehza ilə): “Eşitmirsinizmi?” – dedi.
26. Musa: “O, sizin də Rəbbinizdir, keçmiş atalarınızın da Rəbbidir”, – dedi.
27. Firon: “Sizə göndərilən peyğəmbəriniz şübhəsiz, dəlidir”, – dedi.
28. Musa: “O, şərqin, qərbin və ikisi arasındakı hər şeyin Rəbbidir. Əgər düşünürsünüzsə, bu belədir”, – dedi.
29. Firon: “Əgər məndən başqa bir tanrı qəbul etsən, and olsun səni zindana atılanlardan edərəm”, – dedi.
30. Musa: “Sənə açıq-aydın bir dəlil gətirsəm necə?” – dedi.
31. Firon: “Doğru söyləyənlərdənsənsə, gətir onu”, – dedi.
32. Musa əsasını atan kimi əsa açıq-aşkar bir ilan oldu.
33. Əlini qoynundan çıxaran kimi əli baxanların nəzərində ağappaq göründü.[1]
34. Firon ətrafındakı əyanlara: “Şübhəsiz, bu, bilikli bir sehrbazdır”, – dedi.
35. “O, öz sehri ilə sizi yurdunuzdan çıxarmaq istəyir. Nə deyirsiniz?”
36. Dedilər ki: “Onu və qardaşını tutub saxla. Şəhərlərə də yığıb toplayan adamlar göndər”.
37. “Bütün usta sehrbazları sənin yanına gətirsinlər”.
38. Beləliklə, sehrbazlar bəlli bir günün müəyyən bir vaxtında toplandılar.
39. İnsanlara da: “Siz də toplanırsınızmı?” – deyildi.
40. “Əgər üstün gəlsələr, bəlkə biz sehrbazlara tabe olarıq”, (– dedilər.)
41. Sehrbazlar gəldikdə Firona: “Əgər biz üstün gəlsək, həqiqətən, bizə bir mükafat varmı?” – dedilər.
42. Firon: “Bəli, o təqdirdə həmçinin mənə yaxın kimsələrdən olacaqsınız”, – dedi.
43. Musa onlara: “Atacağınızı atın”, – dedi.
44. Onlar iplərini və dəyənəklərini atdılar və: “Fironun gücü ilə, əlbəttə, biz üstün gələcəyik”, – dedilər.
45. Musa da əsasını atdı. Bir də gördülər ki, əsa onların düzüb qoşduqlarını udur.
46. Sehrbazlar dərhal səcdəyə qapandılar.
47. “Aləmlərin Rəbbinə iman etdik”, – dedilər.
48. “Musanın və Harunun Rəbbinə”
49. Firon: “Mən sizə izin vermədən ona inandınız? Əslində o, sizə sehri öyrədən böyüyünüzdür. Tezliklə biləcəksiniz. And olsun, əllərinizi və ayaqlarınızı çarpaz kəsəcəyəm və hamınızı asacağam”, – dedi.
50. Sehrbazlar belə dedilər: “Zərəri yoxdur, mütləq Rəbbimizə dönəcəyik”.

---

1 Bu möcüzə ilə əlaqəli olaraq baxın: Ə`raf, 7/108, Qəsəs, 28/32.

51. “(Burada) ilk inananlar bizlər olduğumuz üçün şübhəsiz, Rəbbimizin xətalarımızı bağışlayacağına ümid edirik”.
52. Biz Musaya: “Qullarımı gecə vaxtı yola çıxar. Şübhəsiz ki, təqib ediləcəksiniz”, – deyə vəhy etdik.
53. Firon isə şəhərlərə (əsgər) toplayanlar göndərdi.
54. Dedi ki: “Bunlar çox az və önəmsiz bir dəstədir”.
55. “Şübhəsiz, onlar bizə qəzəb duyurlar”.
56. “Biz isə ayıq-sayıq və tədbirli bir camaatıq”.
57, 58. Biz də Fironun qövmünü bağlardan, bulaqlardan, sərvətlərdən və gözəl bir məqamdan çıxardıq.
59. Belə etdik və İsrail oğullarını onlara varis etdik.
60. Firon və adamları gün çıxarkən onların arxasınca düşdülər.
61. İki dəstə bir-birini görəndə Musanın yoldaşları: “Yaxalandıq”, – dedilər.
62. Musa: “Xeyr! Rəbbim, şübhəsiz, mənimlədir, mənə yol göstərəcək”, – dedi.
63. Bu zaman Musaya: “Əsan ilə dənizə vur”, – deyə vəhy etdik. Dəniz dərhal yarıldı. Hər hissəsi böyük bir dağ kimi idi.
64. O biriləri də oraya yaxınlaşdırdıq.
65. Musanı və onunla birlikdə olanların hamısını xilas etdik.
66. Sonra o biriləri suda boğduq.
67. Bunda, şübhəsiz, bir ibrət var. Amma onların əksəriyyəti iman etməmişdi.
68. Şübhəsiz, sənin Rəbbin mütləq güc sahibidir, çox mərhəmətlidir.
69. Ey Muhamməd! Onlara İbrahimin xəbərini də oxu.
70. Bir vaxt o, atasına və qövmünə: “Nəyə tapınırsınız?” – demişdi.
71. “Bütlərə tapınırıq və onlara tapınmağa davam edəcəyik”, – demişdilər.
72. İbrahim dedi ki: “Siz onlara yalvardıqda onlar sizi eşidirlərmi?”
73. “Yaxud sizə fayda və zərərləri toxunurmu?”
74. “Xeyr, amma biz atalarımızın belə etdiklərini görmüşük”, – dedilər.
75, 76. İbrahim belə dedi: “Sizin və keçmiş ata-babalarınızın tapındığı gördünüzmü?”
77. “Şübhəsiz, onlar mənim düşmənimdir. Ancaq aləmlərin Rəbbi olan Allah dostumdur”.
78. “O, məni yaradan və mənə doğru yolu göstərəndir”.
79. “O, məni yedirən və içirəndir”.
80. “Xəstələndiyim zaman O, mənə şəfa verir”.
81. “O, məni öldürəcək və sonra dirildəcək olandır”.
82. “O, haqq-hesab günündə xətalarımı bağışlayacağına ümid etdiyimdir”.
83. “Ey Rəbbim! Mənə bir hikmət bəxş et və məni salehlərin arasına qat”.

84. “Sonra gələnlər arasında məni doğruluqla yad edilənlərdən et”.
85. “Məni Nəim cənnətlərinin varislərindən et”.
86. “Atamı da bağışla. Çünki o, həqiqətən, yolunu azanlardandır”.
87. “(Qulların) dirildiləcəkləri gün məni utandırma!”
88. “O gün ki, nə mal-mülk fayda verər, nə də oğullar!”
89. “Amma Allahın hüzuruna arınmış bir qəlb ilə gələn istisnadır”.
90. Cənnət Allaha qarşı gəlməkdən çəkinənlərə yaxınlaşdırılacaq.
91, 92, 93. Cəhənnəm isə azğınlara göstəriləcək və onlara: “Allahı buraxıb tapındıqlarınız haradadır? Sizə yardım edirlərmi və ya özlərini qurtara bilirlərmi?” – deyiləcək.
94, 95. Artıq onlar və o azğınlar ilə İblisin əsgərləri hamısı birdən oraya atılarlar.
96. Onlar orada tapındıqları ilə mübahisə edərək belə deyərlər:
97. “Allaha and olsun! Biz, həqiqətən, açıq-aşkar zəlalət içindəymişik”.
98. “Çünki sizi aləmlərin Rəbbi ilə bir tuturduq”.
99. “Bizi ancaq (öndərlərimiz olan) günahkarlar sapdırdı”.
100. “Bu səbəblə bizim şəfaətçilərimiz yoxdur”.
101. “Səmimi bir dostumuz da yoxdur”.
102. “Kaş, (dünyaya) bir də dönsək, inananlardan olsaq”.
103. Həqiqətən, bunda bir ibrət var. Onların çoxu iman etməmişdilər.
104. Şübhəsiz, sənin Rəbbin mütləq güc sahibi, mərhəmət sahibidir.
105. Nuhun qövmü də peyğəmbərləri təkzib etdi.
106. Qardaşları Nuh onlara belə demişdi: “Allaha qarşı gəlməkdən çəkinmirsinizmi?”
107. “Həqiqətən, mən sizə göndərilmiş güvənilәsi bir peyğəmbərəm”.
108. “Artıq Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin”.
109. “Bunun əvəzində sizən heç bir mükafat istəmirəm. Mənim mükafatım yalnız aləmlərin Rəbbi olan Allaha aiddir”.
110. “O halda Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin!”
111. Dedilər ki: “Sənə ən rəzil kimsələr tabe olmuşkən, biz heç sənə iman gətirərik?”
112. Nuh belə dedi: “Onların nə etdiyi ilə bağlı mənim bir bilgim yoxdur”.
113. “Onları haqq-hesaba çəkmək yalnız Rəbbimə aiddir. Bir anlaya bilsəydiniz!”
114. “Mən inananları qovan deyiləm”.
115. “Mən yalnız açıq-aydın xəbərdar edənəm”.
116. Dedilər ki: “Ey Nuh! (Bu işdən) əl çəkməsən, mütləq daşlananlardan olacaqsan!”
117. Nuh belə dedi: “Ey Rəbbim! Qövmüm məni təkzib etdi”.
118. “Artıq onlarla mənim aramda sən hökm ver. Məni və mənimlə birlikdə olan möminləri qurtar”.

119. Biz onu və onunla birlikdə olanları yüklü gəminin içində (daşıyıb) xilas etdik.
120. Sonra da arxada qalanları suda boğduq.
121. Şübhəsiz, bunda bir ibrət var. Onların çoxu isə iman etməmişdi.
122. Həqiqətən, sənin Rəbbin mütləq güc sahibi, mərhəmət sahibidir.
123. Ad qövmü də peyğəmbərləri təkzib etdi.
124. Qardaşları Hud onlara belə demişdi: "Allaha qarşı gəlməkdən çəkinmirsinizmi?"
125. "Həqiqətən, mən sizə göndərilmiş güvənilәsi bir peyğəmbərəm".
126. "Elə isə Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin".
127. "Bunun əvəzində sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım yalnız aləmlərin Rəbbi olan Allaha aiddir".
128. "Siz hər yüksək yerə bir əlamət bina tikib boş şeylərlə əylənirsiniz?"
129. "İçində əbədi yaşamaq ümidi ilə möhkəm binalarmı tikirsiniz?"
130. "Tutub yaxaladığınız zaman zalımcasına yaxalayırsınız".
131. "Artıq Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin".
132, 133, 134. "Bildiyiniz hər şeyi sizə verən, sizə heyvanlar, oğullar, bağlar və bulaqlar verən Allaha qarşı gəlməkdən çəkinin".
135. "Çünki mən sizə üz verəcək böyük bir günün əzabından qorxuram".
136. Dedilər ki: "Sən öyüd versən də, verməsən də bizim üçün eynidir".
137. "Bu, əvvəlkilərin adətlərindən başqa bir şey deyil".
138. "Biz əzaba düçar olacaq da deyilik".
139. Beləliklə, onlar Hudu təkzib etdilər. Biz də bu səbəblə onları həlak etdik. Həqiqətən, bunda bir ibrət var. Onların çoxu isə iman etməmişdi.
140. Şübhəsiz, sənin Rəbbin mütləq güc sahibi, mərhəmət sahibidir.
141. Səmud qövmü də peyğəmbərləri təkzib etdi.
142. Qardaşları Salih onlara belə demişdi: "Allaha qarşı gəlməkdən çəkinmirsinizmi?"
143. "Mən sizə göndərilmiş güvənilәsi bir peyğəmbərəm".
144. "Elə isə Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin".
145. "Bunun əvəzində sizən heç bir mükafat istəmirəm. Mənim mükafatım yalnız aləmlərin Rəbbi olan Allaha aiddir".
146, 147, 148. "(Məgər sizə elə gəlir ki,) Siz buradakı bağlar, bulaqlar, əkinlər və meyvələri dəymiş xurmalıqlarda əmin-amanlıq içində buraxılacaqsınız?"
149. "Və dağlardan məharətlə evlər yonub düzəldirsiniz".
150. "Artıq Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin".
151, 152. Yer üzündə xeyir işlər görməyə çalışmayıb fəsad törədən müsriflərin (həddi aşanların) əmrinə itaət etməyin.
153. Dedilər ki: "Sən ancaq ovsunlanmışlardansan".

154. "Sən də sadəcə bizim kimi bir bəşərsən. Əgər doğru söyləyənlərdənsənsə, bizə bir möcüzə gətir".
155. Salih belə dedi: "Bu, dişi bir dəvədir! Onun (bəlli bir gün) su içmək haqq var, sizin də bəlli bir gün su içmək haqqınız var".
156. "Ona bir pislik etməyin. Yoxsa böyük bir günün əzabı sizi yaxalayar".
157. Ancaq onlar onu kəsdilər, lakin peşman oldular.
158. Beləliklə, onları əzab yaxaladı. Şübhəsiz, bunda bir ibrət var. Onların çoxu isə etməmişdi.
159. Şübhəsiz, sənin Rəbbin mütləq güc sahibi, mərhəmət sahibidir.
160. Lutun qövmü də peyğəmbərləri təkzib etdi.
161. Qardaşları Lut onlara belə demişdi: "Allaha qarşı gəlməkdən çəkinmirsinizmi?"
162. "Həqiqətən, mən sizə göndərilmiş güvəniləsi bir peyğəmbərəm".
163. "Artıq Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin".
164. "Bunun əvəzində sizən heç bir mükafat istəmirəm. Mənim mükafatım yalnız aləmlərin Rəbbi olan Allaha aiddir".
165, 166. "Rəbbinizin sizin üçün yaratdığı zövcələrinizi buraxıb kişilərə yanaşırsınız? Siz, həqiqətən, həddi aşan bir qövmsünüz".
167. Dedilər ki: "Ey Lut! (İşimizə qarışmaqdan) vaz keçməsən, mütləq (şəhərdən) çıxarılanlardan olacaqsan!"
168. Lut belə dedi: "Həqiqətən, mən sizin işlədiyiniz bu çirkin əmələ qəzəblənənlərdənəm".
169. "Ey Rəbbim! Məni və ailəmi onların işlədikləri çirkin işdən qurtar".
170, 171. Biz də onu və geri qalanlar arasındakı yaşlı bir qadın xaric, bütün ailəsini qurtardıq.
172. Sonra digərlərini həlak etdik.
173. Onların üzərinə yağmur (kimi daş) yağdırdıq. (Başlarına gələcək müsibətlər barəsində) xəbərdar olunanların yağmuru necə də pis idi![1]
174. Həqiqətən, bunda bir ibrət var. Onların çoxu isə iman etməmişdi.
175. Şübhəsiz, sənin Rəbbin mütləq güc sahibi, mərhəmət sahibidir.
176. Əykə əhli də peyğəmbərləri təkzib etdi.
177. Şüeyb onlara belə demişdi: "Allaha qarşı gəlməkdən çəkinmirsinizmi?"
178. "Həqiqətən, mən sizə göndərilmiş güvəniləsi bir peyğəmbərəm".
179. "Artıq Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin".
180. "Bunun əvəzində sizən heç bir mükafat istəmirəm. Mənim mükafatım yalnız aləmlərin Rəbbi olan Allaha aiddir".
181. "Çəkidə dürüst olun. Əskik verənlərdən olmayın".

1 Həmin hadisə ilə əlaqəli olaraq baxın: Nəml, 27/58.

182. "Düz tərəzi ilə çəkin".
183. İnsanların mallarını və haqlarını əskiltməyin. Yer üzündə fitnə-fəsad törədərək hərc-mərclik salmayın.
184. "Sizi və öncəki nəsilləri yaradana qarşı gəlməkdən çəkinin".
185. Onlar belə dedilər: "Sən ancaq ovsunlanmışlardansan".
186. "Sən də sadəcə bizim kimi bir insansan. Biz sənin yalançılardan olduğunu düşünürük".
187. "Əgər doğru söyləyənlərdənsənsə, üstümüzə göydən bir parça düşür".
188. Şüeyb: "Rəbbim etdiklərinizi ən yaxşı billəndir", – dedi.
189. Onlar Şüeybi təkzib etdilər və kölgə gününün əzabı onları yaxaladı. Həqiqətən, o, böyük bir günün əzabı idi.[1]
190. Şübhəsiz, bunda bir ibrət var. Onların çoxu isə iman etməmişdi.
191. Həqiqətən, sənin Rəbbin mütləq güc sahibi, mərhəmət sahibidir.
192. Həqiqətən, bu Qur\`an aləmlərin Rəbbi tərəfindən endirilmişdir.
193, 194, 195. Xəbərdar edənlərdən olasan deyə onu əmin Ruh (Cəbrail) sənin qəlbinə açıq-aydın ərəbcə bir dil ilə endirmişdir.
196. Şübhəsiz, bu (Qur\`anın endiriləcəyi) əvvəlkilərin kitablarında da vardı.
197. İsrail oğulları alimlərinin onu bilməsi onlar (Məkkə müşrikləri) üçün bir dəlil deyilmi?
198, 199. Biz onu ərəbcə bilməyənlərdən birinə nazil etsəydik və o da bunu onlara oxusaydı, yenə buna iman etməzdilər.
200. Beləliklə, biz onu (Qur\`anı) günahkarların qəlbinə saldıq.[2]
201, 202, 203. Özləri də bilmədən qəflətən onlara gələcək ağrılı-acılı əzabı görüb: "Bizə möhlət verilməyəcəkmi?" – demədikcə onlar ona iman gətirməzlər.
204. Əzabımızın tezliklə yetişməsini istəyirlər?
205. Ey Muhamməd! Düşündünmü, biz onlara illərcə (dünya) mənfəətlərini daddırsaq,
206. Sonra da təhdid edildikləri şey onlara gəlsə, (halları necə olardı?)
207. (Dünyada) mənfəət olaraq verilən şeylər onlara fayda verməz.
208. Biz heç bir məmləkəti xəbərdar edənləri olmadıqca həlak etmədik.
209. Bu bir xatırlatmadır. Biz zalım deyilik.
210. O Qur\`anı şeytanlar nazil etməmişdir.

1 Təfsir alimlərinin bildirdiyinə görə, Şüeyb peyğəmbərin qövmü yeddi gün dözülməz isti ilə üzləşmiş, evlərində nəfəs ala bilməyəcək həddə çatmışdılar. Belə vəziyyətdə göydə qara bir bulud əmələ gəlmiş, onlar da bir az rahat nəfəs almaq üçün buludun kölgəsində toplanmışdılar. Sonra bu bulud od olub onların üstünə enmiş və onları məhv etmişdi.

2 Bu ayədəki "qəlb" Ə\`raf surəsinin 179-cu ayəsində də olduğu kimi düşüncə və idrak mərkəzi mənasındadır. Bu, əsasən Qur\`anın müşriklərin qəlbinə salınması öz dilləri ilə onu anlamalarına imkan yaradılması deməkdir.

211. Bu, onların edəcəyi iş deyil, buna gücləri də yetməz.
212. Çünki onlar (vəhyi) eşitməkdən uzaqlaşdırılmışlar.
213. Elə isə Allah ilə yanaşı başqa bir ilaha yalvarma, yoxsa sonra əzaba düçar edilənlərdən olarsan.
214. (Əvvəlcə) ən yaxın qohum-əqrəbanı xəbərdar et.
215. Möminlərdən sənə tabe olanları qanadlarının altına al.
216. Əgər sənə qarşı gəlsələr: "Şübhəsiz, mən sizin etdiklərinizdən uzağam", – de.
217, 218, 219. Namaza durduğun zaman səni və sənin səcdə edənlər arasında olduğunu görən mütləq güc sahibi, çox mərhəmətli olan Allaha təvəkkül et.
220. Həqiqətən, O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.
221. Şeytanların kimə enəcəyini sizə xəbər verimmi?
222. Onlar hər günahkar yalançıya enərlər.
223. Onlar isə şeytana qulaq asarlar. Onların çoxu yalançıdır.
224. Şairlərə isə həddi aşan azğınlar tabe olarlar.
225, 226. Görmürsənmi ki, onlar hər bir vadidə sərgərdan gəzib dolaşır və etmədikləri şeyləri söyləyirlər.[1]
227. Ancaq iman edib saleh işlər görən, Allahı çox zikr edən və haqsızlığa məruz qaldıqdan sonra intiqamını alanlar başqadır. Zülm edənlər isə hansı aqibətlə qarşılaşacaqlarını görüb biləcəklər.

## 27. NƏML SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 93 ayədən ibarətdir. Surənin adı 18-ci ayədə keçən "ən-nəml" sözündən götürülmüşdür. Nəml qarışqa deməkdir. Surədə başlıca olaraq Süleyman peyğəmbər və Səba məlikəsi, Bəlqis qissəsi ilə Salih və Lut peyğəmbərlərdən söhbət açılır, bununla yanaşı möminlərin qurtuluşa nail olacağı, İslam əlehydarlarının pis aqibəti, öldükdən sonra dirilmək və qiyamət mövzularına yer verilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ta Sin.[2] Bunlar Qur`anın – açıq-aydın bir kitabın ayələridir.
2, 3. Qur`an namazı doğru-düzgün qılan, zəkatı verən və axirətə də yəqinliklə inanan möminlər üçün bir hidayət mənbəyi və bir müjdədir.
4. Şübhəsiz, biz axirət həyatına inanmayanların əməllərini özlərinə gözəl göstərdik. O səbəblə çaşqın vəziyyətdə qalıblar.

1 Bu ayədə həcv üslubunda şeirlər yazaraq Qur`anı və İslamı gözdən salmağa çalışan müşrik şairlər, növbəti ayədə isə onların bu qarayaxmalarına yenə şeirlə cavab verən müsəlman şairlər nəzərdə tutulur.

2 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

5. Onlar ən pis əzaba düçar olacaq kimsələrdir. Onlar axirətdə ən çox ziyana uğrayanlardır.

6. Şübhəsiz, bu Qur`an hökm və hikmət sahibi, haqqı ilə bilən Allah tərəfindən sənə verilir.

7. Bir vaxt Musa öz ailəsinə: "Mən bir atəş gördüm. Ondan sizə bir xəbər və ya qızınmağınız üçün bir köz gətirəcəyəm"[1] – dedi.

8. (Musa) atəşin yanına çatdıqda ona belə nida olundu: "Atəşin başında olan da, ətrafında olanlar da mübarək olsun! Aləmlərin Rəbbi olan Allah nöqsanlardan uzaqdır".

9. "Ey Musa! Həqiqət budur ki, mən mütləq güc sahibi, hökm və hikmət sahibi olan Allaham".

10. "Əsanı at". (Musa əsasını atdı.) Onun ilan kimi hərəkət etdiyini gördükdə dönüb arxasına baxmadan qaçdı. (Allah belə dedi:) "Ey Musa, qorxma! Peyğəmbərlər mənim hüzurumda qorxmazlar".

11. "Ancaq kim zülm edər, sonra (etdiyi) pisliyin əvəzinə yaxşılıq edərsə, bilsin ki, həqiqətən, mən çox bağışlayanam, çox mərhəmət edənəm".

12. "Əlini qoynuna sal, Firona və onun qövmünə göndərilən doqquz möcüzədən biri olaraq ağappaq çıxsın. Çünki onlar fasiq bir qövmdürlər".[2]

13. Nəhayət, ayələrimiz həqiqəti göstərəcək şəkildə onlara gəldikdə: "Bu, açıq-aşkar bir sehrdir", – dedilər.

14. Özləri də bunların haqq olduğunu əminliklə bildikləri halda sırf zalımlıqları və kibrləri üzündən onları inkar etdilər. Bir gör fitnə-fəsad törədənlərin aqibəti necə oldu!

15. And olsun, biz Davuda və Süleymana elm verdik. Onlar: "Bizi mömin qullarının bir çoxundan üstün tutan Allaha həmd olsun", – dedilər.

16. Süleyman Davuda varis oldu və: "Ey insanlar! Bizə quş dili öyrədildi və bizə hər şey verildi. Həqiqətən, bu, açıq-aşkar bir lütfdür", – dedi.

17. Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət orduları onun önündə toplandı. Onlar birlikdə nizam-intizamla idarə olunurdular.

18. Nəhayət, onlar qarışqa vadisinə çatdıqları zaman bir qarışqa: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və onun ordusu özləri də bilmədən sizi əzməsinlər", – dedi.

19. Süleyman onun bu sözünə gülümsəyərək dedi: "Ey Rəbbim! Mənə və ata-anama bəxş etdiyin nemətlərə şükür etmək və razı qalacağın saleh işlər görmək üçün qəlbimə ilham sal və öz rəhmətinlə məni saleh qullarının arasına daxil et!"

20. Süleyman nəzər yetirib quşları yoxladı və belə dedi: "Hüdhüdü niyə görmürəm? Yoxsa yoxa çıxıb?"

---

1 Musa peyğəmbərin bu səfəri üçün əlavə olaraq baxın: Taha, 20/10 və davamı.

2 Həzrət Musanın bu möcüzəsi ilə bağlı əlavə olaraq baxın: Taha, 20/22-23.

21. "Mənə açıq-aydın bir dəlil (üzürlü bir səbəb) gətirmədikcə, mütləq ya onu ağır bir şəkildə cəzalandıracağam, ya da boğazını üzəcəyəm".

22. Çox keçmədən Hüdhüd özünü yetirdi və (Süleymana) belə dedi: "Sənin bilmədiyin bir şey öyrəndim və sənə Səbadan dəqiq bir xəbər gətirdim".

23. "Mən onlara (Səba əhlinə) hökmdarlıq edən bir qadın gördüm. Ona hər şey bol-bol verilmişdir və onun böyük bir taxtı var".

24. "Mən onun və qövmünün Allahı buraxıb günəşə sitayiş etdiklərini gördüm. Şeytan onlara əməllərini süslü göstərmiş və beləliklə, onları doğru yoldan çıxarmışdır. Buna görə də onlar doğru yolu tapa bilmirlər".

25. "Göylərdə və yerdə gizli olanı aşkara çıxaran, gizlədiklərinizi və aşkara vurduqlarınızı bilən Allaha səcdə etməsinlər deyə (şeytan onları yoldan çıxarmışdır.)"

26. Allah ondan başqa heç bir ilah olmayandır. Böyük Ərşin Rəbbidir.

27. Süleyman Hüdhüdə belə dedi: "Doğru söyləyirsən, yoxsa yalançılardansan, görəcəyik".

28. "Mənim bu məktubumu apar onlara at, sonra da onlardan yayınıb bir kənara çəkil və bax gör nə nəticəyə gələcəklər".

29. Səba məlikəsi Bəlqis dedi: "Ey öndə gələnlər! Mənə çox önəmli bir məktub atıldı".

30, 31. "Məktub Süleymandandır. O, "Bismilləhir-Rahmənir-Rahim" ilə başlayır və içində "Mənə qarşı təkəbbür göstərməyin və təslimiyyət ilə yanıma gəlin", – deyilir".

32. "Ey öndə gələnlər! (Bu) işim barəsində mənə fikrinizi bildirin. Siz yanımda olmadan heç bir iş barəsində son qərarımı verməRəm".

33. Onlar dedilər: "Biz güc, qüvvət sahibiyik və mahir döyüşçülərik. Hökm sənindir. Nə əmr edəcəyini düşün".

34. (Bəlqis) belə dedi: "Hökmdarlar bir ölkəyə girdikləri zaman oranı viran edər və xalqının öndə gələn hörmətli insanlarını zəlil hala salarlar. Onlar məhz belə edərlər".

35. "Mən onlara bir hədiyyə göndərəcəyəm, sonra baxacağam görüm, elçilər nə xəbərlə qayıdacaqlar".

36. (Elçilərin təmsilçisi) Süleymanın hüzuruna gəldikdə Süleyman ona belə dedi: "Siz mənə mal-dövlət ilə yardım etmək (və beləliklə, məni təsir altına almaq) istəyirsiniz? Halbuki Allahın mənə verdiyi sizə verdiyindən daha xeyirlidir. Lakin hədiyyənizlə ancaq siz sevinirsiniz".

37. "Sən onların yanına qayıt. And olsun, biz onlara qarşı dura bilməyəcəkləri bir ordu ilə gələr və onları zəlil və alçaldılmış halda oradan çıxardarıq".

38. Süleyman: "Ey öndə gələnlər! Onlar mənə təslim olmazdan əvvəl hansınız mənə onun (məlikənin) taxtını gətirə bilər?"

39. Cinlərdən bir ifrit[1]: "Sən yerindən qalxmadan mən onu sənə gətirərəm və həqiqətən, mən buna gücü yetən etibarlı biriyəm", – dedi.

1 İfrit şeytani xüsusiyyətlər baxımından ustalaşmış, güclü, bacarıqlı deməkdir. Bu ifadə həm insanlar üçün,

40. Kitabdan biliyi olan biri: "Gözünü yumub açıncaya qədər (bir göz qırpımında) mən onu sənə gətirərəm", – dedi. Süleyman taxtı yanında (hazır) görüncə dedi: "Bu, Rəbbimin mənə bir lütfüdür. (Bu lütf Onun) Məni sınağa çəkməsi üçündür ki, (görsün) şükür edəcəyəm, yoxsa nankorluq edəcəyəm. Kim şükür edərsə, ancaq özü üçün şükür edər. Kim də nankorluq edərsə, (bilsin ki,) Rəbbim hər baxımdan sonsuz zəngindir, səxavətlidir".

41. Süleyman: "Onun taxtını tanınmaz hala salın. Görək, tanıyacaq, yoxsa tanımayanlardan olacaq?" – dedi.

42. Bəlqis gəldikdə: "Sənin taxtın belədirmi?" – deyildi. O isə: "Sanki odur. Lakin daha əvvəl bizə bilik verilmişdi və biz təslimiyyət göstərmişdik", – dedi.

43. Daha əvvəl Allahdan başqa ibadət etdiyi şeylər ona mane olmuşdu. Çünki o inkar edən bir qövmdən idi.

44. Ona: "Köşkə daxil ol", – deyildi. Köşkü gördükdə onu (zəminini) dərin bir su zənn etdi və ətəklərini topladı. Süleyman ona: "Bu (zəmini) büllurdan döşənmiş bir köşkdür", – dedi. Bəlqis: "Ey Rəbbim! Həqiqətən, mən öz nəfsimə zülm etdim. İndi isə Süleyman ilə birlikdə aləmlərin Rəbbi olan Allaha təslim oldum", – dedi.

45. And olsun, biz "Allaha qulluq edin", – deyə (xəbərdar etməsi üçün) Səmud qövmünə qardaşları Salihi peyğəmbər olaraq göndərdik. Bir də gördü ki, onlar bir-biri ilə çəkişən iki firqə olmuşlar.

46. Salih onlara: "Ey qövmüm! Niyə yaxşılıqdan əvvəl pisliyin tez gəlməsini istəyirsiniz? Bəlkə rəhm olunarsınız deyə Allahdan bağışlanma diləsəniz olmazmı?"

47. Onlar: "Sən və səninlə birlikdə olanlar ucbatından uğursuzluğa düçar olduq", – dedilər. Salih: "Sizin uğursuzluğunuzun səbəbi Allah qatında (yazılı)dır. Əslində siz sınağa çəkilməkdə olan bir qövmsünüz", – dedi.

48. Şəhərdə doqquz kişilik bir dəstə var idi. Onlar yer üzündə fitnə-fəsad törədir və saleh işlər görməyə çalışmırdılar.

49. Öz aralarında Allaha and içərək belə dedilər: "Onu və ailəsini gecə vaxtı mütləq öldürəcəyik, sonra isə onun vəlisinə: "Biz onun ailəsinin öldürülməsinə şahid olmadıq. Biz, həqiqətən, doğru söyləyənlərik", – deyəcəyik".

50. Onlar bir tədbir gördülər. Onlar fərqində deyilkən biz də bir tədbir gördük.[1]

51. Bir gör onların hiylələrinin axırı necə oldu: Biz onları və qövmlərini hamılıqla həlak etdik.

52. Bu, onların zülm etdikləri üçün xarabazara dönmüş evləridir. Şübhəsiz, bilən bir qövm üçün bunda bir ibrət var.

53. İman edib Allaha qarşı gəlməkdən çəkinənləri isə xilas etdik.

54. Lutu da (peyğəmbər olaraq göndərdik.) O, öz qövmünə belə dedi: "Göz görə-görə o çirkin əməli işləyirsiniz?"

---

həm də cinlər üçün işlədilir.

1 Ayədəki "Allahın tədbir görməsi" inkar edənlərə möhlət verib sonra onları qəfil yaxalaması və inkar edənləri cəzalandırması kimi mənalara gəlir.

55. “Siz qadınları buraxıb şəhvətlə kişilərə yanaşırsınız? Həqiqətən, siz nə etdiyini bilməyən bir qövmsünüz”.

56. Qövmünün cavabı isə sadəcə “Lutun ailəsini məmləkətinizdən çıxarın. (Guya) onlar təmiz qalmaq istəyən insanlardır” demək oldu.

57. Biz də övrəti xaric onu və ailəsini xilas etdik. Onun arxada qalıb həlak olmasını təqdir etdik.

58. Onların üzərinə bir yağmur (kimi daş) yağdırdıq. (Başlarına gələcək müsibət barəsində) xəbərdar edilənlərin yağmuru nə pis idi![1]

59. (Ey Muhamməd!) De ki: “Həmd Allaha məxsusdur. Onun seçdiyi qullarına salam olsun. Allah daha xeyirlidir, yoxsa onların şərik qoşduqları?”

60. Yaxud göyləri və yeri yaradan və sizə göydən yağmur endirib onunla ürək açan bağçalar yetişdirən? Halbuki siz onun bir ağacını belə yetişdirə bilməzdiniz. Allah ilə yanaşı başqa bir ilahmı var? Xeyr, onlar (Allaha) şərik qoşan bir qövmdür.[2]

61. Yaxud yer üzünü qərar tutma yeri olaraq yaradan, içində çaylar axıdan, onun üçün sabit dağlar yaradan və iki dənizin arasına bir maneə qoyan? Allah ilə yanaşı başqa bir ilahmı var? Xeyr, onların çoxu bilmir.

62. Yaxud Ona dua etdiyi zaman darda qalanın duasına cavab verən, başa gələn pisliyi sovuşduran, sizi yer üzünün xəlifələri olaraq yaradan? Allah ilə yanaşı başqa ilahmı var? Nə qədər az düşünürsünüz?

63. Yaxud qurunun və dənizin qaranlıqlarında sizə yolunuzu göstərən və rəhmətinin önündə külələri müjdəçi olaraq göndərən? Allah ilə yanaşı başqa ilahmı var? Allah onların şərik qoşduqlarından ucadır.

64. Yaxud öncə yaradan, sonra yaratmağı təkrarlayan və sizə göydən və yerdən ruzi bəxş edən? Allah ilə yanaşı başqa ilahmı var? De ki: “Əgər doğru söyləyənlərsinizsə, dəlilinizi gətirin”.

65. De ki: “Göydəkilər və yerdəkilər qeybi bilməzlər, sadəcə Allah bilər. Onlar öldükdən sonra nə zaman dirildiləcəklərinin də fərqində deyillər”.

66. Axirət (gününün gerçəkləşəcəyi) haqqında elm (peyğəmbərlər vasitəsilə) onlara ard-arda gəlmişdir. Lakin onlar bu barədə şəkk-şübhə içindədirlər. Daha doğrusu onlar axirət barəsində kordurlar.

67. İnkar edənlər dedilər ki: “Biz və atalarımız torpaq olmuşkən, həqiqətən, biz (dirildilib) çıxarılacağıq?”

68. “And olsun, biz də, bizdən əvvəl atalarımız da bununla təhdid olunmuşduq. Bu, əvvəlkilərin nağıllarından başqa bir şey deyil”.

69. De ki: “Yer üzündə gəzib-dolaşın, günahkarların aqibətinin necə olduğunu bir görün”.

70. Onlara görə məyus olma. Qurduqları hiylələrdən ötrü də sıxıntı çəkmə.

---

1 Həmin hadisə ilə əlaqəli olaraq baxın: Şuəra, 26/173.

2 Ayənin son cümləsi “Xeyr, onlar haqdan üz döndərən bir qövmdür” şəklində də tərcümə edilə bilər.

71. Onlar: "Əgər doğru söyləyənlərsinizsə, bu təhdid nə zaman gerçəkləşəcək?" – deyirlər.
72. De ki: "Tezliklə gəlməsini istədiyiniz şeyin bir qismi bəlkə də sizə çatmaq üzrədir".
73. Həqiqətən, sənin Rəbbin insanlara qarşı lütfkardır. Ancaq onların çoxu şükür etməzlər.
74. Şübhəsiz, sənin Rəbbin onların qəlblərinin gizlədiklərini də, aşkara vurduqlarını bilir.
75. Göydə və yerdə gizli heç bir şey yoxdur ki, açıq-aydın kitabda (Lövhi-məhfuzda) olmasın.
76. Həqiqətən, bu Qur`an İsrail oğullarına ixtilafda olduqları şeylərin çoxunu açıqlayır.
77. Həqiqətən, o, möminlər üçün bir hidayət və bir rəhmətdir.
78. Şübhəsiz, sənin Rəbbin onların arasında hökm verəcək. O, mütləq güc sahibidir, haqqı ilə bilәndir.
79. Elə isə Allaha təvəkkül et. Çünki sən açıq-aşkar bir haqq üzərindəsən.
80. Şübhəsiz, sən ölülərə duyura bilməzsən. Dönüb getdikləri zaman karlara da çağırışı eşitdirə bilməzsən.
81. (Həqiqəti görməyən) korları zəlalətlərindən döndərib doğru yola gətirə bilməzsən. Sən sadəcə ayələrimizə inanıb müsəlman olanlara eşitdirə bilərsən.
82. (Qiyamətin qopacağına dair) həmin söz başlarına gəldiyi zaman onlar üçün yerdən bir dabbə (canlı bir məxluq) çıxararıq. O, insanların ayələrimizə yəqinliklə inanmadıqlarını onlara söyləyər.
83. Hər ümmətdən ayələrimizi təkzib edənləri dəstə-dəstə toplayacağımız və onların (toplu olaraq haqq-hesab yerinə) sürüklənəcəkləri günü xatırla.[1]
84. Hesab yerinə gəldikləri zaman Allah belə deyər: "Siz bilmədiyiniz halda mənim ayələrimi təkzib etdiniz, eləmi? Yoxsa nə edirdiniz?"
85. Zülm etdikləri üçün söz verilən əzab onları yaxalayar və artıq danışa bilməzlər.
86. Məgər onlar görmürlərmi ki, biz gecəni onlar istirahət etsinlər deyə, gündüzü isə aydınlıq olaraq yaratdıq. Şübhəsiz, inanan bir toplum üçün bunda (Allahın varlığını göstərən) dəlillər var.
87. Sura üfürüləcəyi və Allahın istədiyi kəslər xaric göylərdəki və yerdəki hər kəsin qorxuya qapılacağı günü xatırla. Hamısı boyun əyərək Onun hüzuruna gələrlər.[2]
88. Dağları görüb onları hərəkətsiz zənn edirsən. Halbuki onlar buludların keçdiyi kimi hərəkət edirlər. Bu, hər şeyi yerli-yerində edən Allahın yaratmasıdır. Şübhəsiz, Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

---

1 Ayə bu şəkildə də tərcümə edilir: "O gün hər ümmətdən ayələrimizi təkzib edənləri bir dəstə halında toplayacağıq. Onlar (toplu olaraq haqq-hesab yerinə) sürüklənəcəklər".

2 Sur üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bilinməyən bir növ boru deməkdir.

89. Kim yaxşı əməllə gəlsə, ona ondan daha xeyirlisi var. Onlar o gün qorxudan əmin olarlar.

90. Kim də pis əməllə gəlsə, üzü üstə oda atılar. (Onlara:) "Sadəcə etdiklərinizin qarşılığını görürsünüz", (– deyilər.)

91, 92. De ki: "Mənə ancaq bu şəhərin (Məkkənin) Rəbbinə ibadət etmək əmr olundu. Hansı ki, o bu şəhəri müqəddəs etmişdir. Hər şey ona aiddir. Həmçinin mənə müsəlmanlardan olmaq və Qur`an oxumaq əmr olundu". Artıq kim doğru yola yönəlsə, ancaq özü üçün yönələr. Kim də doğru yoldan azsa, de ki: "Mən sadəcə xəbərdar edənlərdənəm".

93. De ki: "Həmd Allaha məxsusdur. O, ayələrini sizə göstərəcək və siz də onları tanıyacaqsınız. Rəbbin etdiklərinizdən xəbərsiz deyil".

## 28. QƏSƏS SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 88 ayədən ibarətdir. Surənin adı 25-ci ayədə keçən "əl-qəsəs" sözündən götürülmüşdür. Qissələr mənasına gələn "qəsəs" sözü Qur`anda keçən qissələr və hadisələr üçün işlədilir. Surədə başlıca olaraq həzrət Musanın uşaqlığı, peyğəmbər olması, yəhudiləri Misirdən çıxarması və Firon ilə ordusunun suda boğulmasını ehtiva edən hadisələr zəncirindən söhbət açılır. Həmçinin küfrə batıb maddi sərvət və qüdrətə bel bağlamağın pis aqibətlə nəticələndiyini vurğulamaq üçün Qarun qissəsinə yer verilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ta Sin Mim.[1]

2. Bunlar açıq-aydın Kitabın ayələridir.

3. İman edən bir qövm üçün Musa ilə Fironun xəbərlərindən bir qismini sənə haqq olaraq danışacağıq.

4. Həqiqətən, Firon yer üzündə (öz ölkəsində) təkəbbürə qapılmış və oranın əhalisini zümrələrə bölmüşdü. Onlardan bir qismini əzir, oğullarını boğazlayır, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi.

5. Biz isə istəyirdik ki, yer üzündə zəif düşüb əzilənlərə lütf edək, onları öndərlər və varislər edək.

6. (İstəyirdik ki,) yer üzündə onları qüdrət sahibi edək və onların əli ilə Firona, Hamana və onların ordularına çəkindiləri şeyləri göstərək.

7. Biz Musanın anasına: "Onu əmizdir. Onun başına bir şey gəlməsindən qorxduğun zaman onu dənizə (Nilə) at. Qorxma, məyus olma. Çünki biz onu sənə qaytaracağıq və onu peyğəmbərlərdən edəcəyik", – deyə ilham etdik.

8. Nəhayət, Firon ailəsi özləri üçün bir düşmən və bir üzüntü səbəbi olacaq o uşağı tapıb götürdü. Şübhəsiz, Firon, (vəziri) Haman və onların əsgərləri xəta edirdilər.

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

9. Fironun xanımı belə dedi: "Həm mənim üçün, həm də sənin üçün göz aydınlığı (olan bir uşaq)! Onu öldürməyin. Bəlkə bizə xeyri dəyər və ya onu övladlığa götürərik". Halbuki onlar (olacaq şeylərin) fərqində deyildilər.

10. Musanın anasının qəlbi bomboş qaldı. Əgər biz (övladı ilə bağlı vədimizə) inamını qoruması üçün onun qəlbinə güc verməsəydik, az qala bunu büruzə verəcəkdi.

11. Anası Musanın bacısına: "Onu təqib et", – dedi. O da Musanı onlar hiss etmədən uzaqdan izlədi.

12. Biz daha öncə onun süd analarının südünü əmməsinə imkan vermədik. Bacısı: "Sizə sizin adınızdan ona baxacaq və ona şəfqət göstərəcək bir ailə göstərimmi?" – dedi.

13. Beləliklə, biz anasının gözü aydın olsun və kədərlənməsin, Allahın vədinin haqq olduğunu bilsin deyə onu anasına qaytardıq. Lakin onların çoxu bunu bilməzlər.

14. Musa yetkinləşib kamala çatdıqda biz ona elm və hikmət verdik. Biz yaxşılıq edənləri belə mükafatlandırırıq.

15. Musa əhalinin xəbər tuta bilməyəcəyi bir vaxtda şəhərə daxil oldu. Orada dalaşan iki adam gördü. Onlardan biri öz adamlarından, digəri isə düşmən tərəfin adamlarından idi. Özü tərəfdən olan adam düşmən tərəfdən olana qarşı ondan kömək istədi. Musa bir yumruq vurub onu öldürdü. Musa: "Bu, şeytanın işidir. O, həqiqətən, açıq-aşkar sapdıran bir düşməndir", – dedi.[1]

16. Musa: "Rəbbim! Şübhəsiz, mən nəfsimə zülm etdim. Məni bağışla", – dedi. Allah da onu bağışladı. Həqiqətən, o, çox bağışlayandır, çox mərhəmət edəndir.

17. "Rəbbim! Mənə verdiyin nemətlə əsla günahkarlara dayaq durmayacağam", – dedi.

18. Qorxu içində ətrafına baxaraq səhəri şəhərdə açdı. Bir də gördü ki, dünən ondan yardım istəyən kəs fəryad edərək yenə onu köməyə çağırır. Musa ona: "Bəllidir ki, sən azğın birisən", – dedi.

19. Musa hər ikisinin düşməni olan adamı yaxalamaq istəyəndə adam: "Ey Musa! Dünən birini öldürdüyün kimi, məni də öldürmək istəyirsən? Sən yer üzündə ancaq bir zorba olmaq istəyirsən, araçılardan olmaq istəmirsən", – dedi.

20. Şəhərin o biri ucundan bir adam qaçaraq gəldi. "Ey Musa! Əyan-əşraf toplaşıb səni öldürmək üçün məşvərət edirlər. Elə indi şəhərdən çıx. Həqiqətən, mən sənə məsləhət verənlərdənəm", – dedi.

21. Musa qorxu içində ətrafa baxa-baxa şəhərdən çıxdı və: "Ey Rəbbim! Məni bu zalım qövmdən xilas et", – dedi.

22. (Şəhərdən çıxıb) Mədyənə doğru üz tutduğu zaman: "Bəlkə Rəbbim məni doğru yola yönəldər", – dedi.

23. Mədyən suyuna çatanda suyun başında (heyvanlarını) suvaran bəzi insanlar gördü. Onların yanında isə qoyunlarını suya getməyə qoymayan iki qız gördü. Musa onlara: "(Qoyunlarınızı burada saxlamaqda) məqsədiniz nədir?" – dedi. Onlar:

1 Bu mövzu ilə əlaqəli olaraq baxın: Şuəra, 26/19-20.

"Çobanlar qoyunlarını suvarıb çəkilənə qədər biz qoyunlarımızı suvarmırıq. Atamız isə çox yaşlı bir adamdır", – dedilər.

24. Musa onların qoyunlarını suvardı. Sonra kölgəyə çəkilib: "Rəbbim! Mənə göndərəcəyin hər xeyrə möhtacam", – dedi.

25. Nəhayət, qızlardan biri utana-utana yeriyərək onun yanına gəlib: "Bizim üçün qoyunlarımızı suvarmağının haqqını ödəmək üçün atam səni çağırır", – dedi. Musa onun (Şüeybin) yanına gəlib başına gələnləri ona danışdıqda (Şüeyb): "Qorxma, o zalım qövmdən qurtuldun", – dedi.

26. Qızlardan biri: "Atacan, onu muzdla tut. Bu güclü və etibarlı adam sənin muzdla tutduqlarının ən xeyirlisi olar", – dedi.

27. Şüeyb: "Səkkiz il mənə xidmət etmək müqabilində bu iki qızımdan birini səninlə evləndirmək istəyirəm. Əgər sən bu müddəti on ilə çatdırsan, o da səndən olar. Mən səni çətinə salmaq da istəmirəm. İnşallah mənim salehlərdən olduğumu görəcəksən", – dedi.

28. Musa belə dedi: "Bu mənimlə sənin aranda bir işdir. Bu iki müddətdən hansını tamamlasam, mənə qarşı bir ədavət olmasın. Allah söylədiklərimizə vəkildir".

29. Musa müddəti başa vurub ailəsi ilə yola çıxdıqda Tur tərəfdə bir atəş gördü və ailəsinə: "Siz burada qalın, mən bir atəş gördüm, (oraya gedirəm). Bəlkə oradan sizə bir xəbər və ya qızınmağınız üçün bir köz gətirərəm", – dedi.[1]

30. Musa atəşin yanına gəlib çatdıqda o mübarək yerdəki vadinin sağ tərəfindəki ağacdan belə nida olundu: "Ey Musa! Şübhəsiz ki, mən aləmlərin Rəbbi olan Allaham".

31. "Əsanı (yerə) at". (Musa əsasını atdı.) Onun bir ilan kimi sürətlə hərəkət etdiyini görəndə arxasına baxmadan dönüb qaçdı. (Bu dəfə isə belə nida olundu:) "Ey Musa! Bəri gəl, qorxma. Sən amanda olanlardansan".

32. "Əlini qoynuna sal. Bir xəstəlik səbəbi ilə olmadan ağappaq bir halda çıxsın. Qorxudan açılan qolunu özünə tərəf çək (toparlan). Bunlar Firona və onun öndə gələn adamlarına (göstərməyin üçün) Rəbbin tərəfindən (sənə verilən) iki dəlildir. Çünki onlar fasiq bir qövmdürlər".

33. Musa belə dedi: "Ey Rəbbim! Mən onlardan birini öldürdüm. Qorxuram ki, onlar da məni öldürələr".

34. "Qardaşım Harunun dili mənimkindən daha səlisdir. Onu da mənimlə birlikdə məni təsdiq edən bir yardımçı olaraq göndər. Çünki mən onların məni təkzib edəcəklərindən qorxuram".

35. Allah: "Qardaşınla səni dəstəkləyəcəyik və sizə bir qüdrət verəcəyik ki, ayələrimiz sayəsində onlar sizə (pis bir niyyətlə) yetişə bilməyəcəklər. Siz ikiniz və sizə tabe olanlar qalibləsiniz", – dedi.

36. Musa onlara dəlillərimizi açıq-aşkar gətirdikdə onlar: "Bu, sadəcə uydurulmuş bir sehrdir. Biz keçmiş atalarımızın zamanında belə bir şeyin varlığını eşitmədik", – dedilər.

1 Həzrət Musanın Misir səfəri əsnasında yaşadığı hadisələr haqqında əlavə olaraq baxın: Taha, 20/9-48.

37. Musa: "Öz dərgahından kimin hidayət gətirdiyini və bu yurdun (gözəl) aqibətinin kimə aid olacağını Rəbbim daha yaxşı bilir. Doğrusu, zalımlar qurtuluşa nail olmazlar", – dedi.

38. Firon: "Ey öndə gələnlər! Sizin məndən başqa bir ilahınız olduğunu bilmirəm. Ey Haman! Mənim üçün bir ocaq qalayıb kərpic bişir və mənə bir qüllə tik. Bəlkə çıxıb Musanın ilahını görərəm. Şübhəsiz, mən onun yalançılardan olduğunu zənn edirəm", – dedi.

39. O və əsgərləri yer üzündə haqsız yerə kibrə qapıldılar və bizim hüzurumuza qaytarılmayacaqlarını zənn etdilər.

40. Biz də onu və əsgərlərini yaxaladıq və onları dənizə atdıq (orada boğuldular). Bir gör zalımların aqibəti necə oldu.

41. Biz onları atəşə çağıran öndərlər etdik. Qiyamət günü onlara yardım edilməyəcək.

42. Biz onları bu dünyada lənətə uğratdıq. Qiyamət günü isə onlar iyrənc kimsələrdən olacaqlar.

43. And olsun, ilk nəsilləri həlak etdikdən sonra Musaya – düşünüb ibrət götürsünlər deyə – insanların bəsirətini (qəlb gözünü) açan dəlillər, bir hidayət və bir rəhmət olaraq Kitabı (Tövratı) verdik.

44. Ey Muhamməd! Biz Musaya o əmri verdiyimiz zaman sən (vadinin) qərb tərəfində deyildin. (O hadisəyə) şahid olanlardan da deyildin.[1]

45. Lakin biz (Musadan sonra) bir çox nəsillər ərsəyə gətirdik. Onların üstündən uzun zaman keçdi. Sən Mədyən əhli arasında yaşamırdın, ayələrimizi onlardan oxuyub öyrənmirdin. Lakin biz (bu xəbəri) göndərənik.

46. Biz (Musaya) səsləndiyimiz zaman sən Turun yan tərəfində də deyildin. Lakin Rəbbindən bir rəhmət olaraq səndən əvvəl heç bir xəbərdar edən gəlməyən bir qövmü xəbərdar etmən üçün (o xəbərləri) sənə bildiririk ki, bəlkə onlar düşünüb öyüd götürələr.

47. Öz əməlləri ucbatından başlarına bir müsibət gəldikdə: "Ey Rəbbimiz! Gərək bizə bir peyğəmbər göndərəydin ki, sənin ayələrinə tabe olaydıq və möminlərdən olaydıq", – deyəcək olmasaydılar, səni peyğəmbər olaraq göndərməzdik.

48. Onlara dərgahımızdan haqq gəldikdə: "Gərək Musaya verilən (möcüzə)lərin bənzəri ona da veriləydi", – dedilər. Onlar daha əvvəl Musaya verilən (möcüzə)ləri inkar etməmişdilərmi? Onlar: "İki sehrbaz bir-birinə arxa durur", – dedilər. "Biz hamısını inkar edirik", – dedilər.

49. De ki: "Əgər doğru söyləyənlərsinizsə, Allah qatından, doğru yola bu ikisindən (Tövrat və Qur`andan) daha yaxşı hidayət edən bir kitab gətirin, mən də ona tabe olum".

50. Əgər (bu barədə) sənə cavab verə bilməsələr, bil ki, onlar sadəcə nəfslərinin arzularına uyurlar. Allahdan bir hidayət olmadan öz nəfsinin arzusuna uyandan daha sapqın kim ola bilər? Şübhəsiz, Allah zalımlar qövmünü doğru yola yönəltməz.

1 Ayədə keçən əmr sözü üçün baxın: Naziat, 79/16-19.

51. And olsun, biz o sözü (Qur`an ayələrini) onlara ard-arda çatdırdıq ki, bəlkə düşünüb öyüd götürələr.

52. Bu Qur`andan əvvəl kitab verdiklərimiz ki var, onlar ona da iman edirlər.

53. Onlara Qur`an oxunduğu zaman onlar: "Ona iman etdik, həqiqətən, o, Rəbbimizdən gələn haqdır. Şübhəsiz, biz ondan əvvəl də müsəlman idik", – deyərlər.

54. Səbir edib pisliyi yaxşılıqla dəf etdikləri və ruzi olaraq onlara verdiklərimizdən Allah yolunda xərclədikləri üçün onlara mükafatları iki dəfə veriləcək.

55. Boş sözü eşitdikləri zaman ondan üz çevirərlər və: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə. Salam olsun sizə (Bizdən sizə zərər gəlməz). Biz cahilləri istəmirik", – deyərlər.

56. Doğrusu, sən sevdiyin kimsəni doğru yola yönəldə bilməzsən. Lakin Allah istədiyini doğru yola yönəldər. O, doğru yolu tutacaq kimsələri daha yaxşı bilir.

57. Onlar: "Əgər sizinlə birlikdə doğru yolu tutsaq, öz yurdumuzdan didərgin salınarıq", – dedilər. Məgər biz onları –tərəfimizdən bir ruzi olaraq – cürbəcür meyvə və məhsulların toplandığı müqəddəs və əmin bir yerə yerləşdirmədikmi? Lakin onların çoxu bilməzlər.

58. Biz bolluq və firavanlıq içində azğınlaşan neçə-neçə məmləkət əhlini həlak etdik. Bu da onların özlərindən sonra çox az məskən tutulmuş yurdları! O yurdlara biz varis olduq.

59. Sənin Rəbbin ölkələrin böyük şəhərlərinə onlara ayələrimizi oxuyan bir peyğəmbər göndərmədikcə məmləkətləri həlak edən deyil. Zatən biz, əhalisi zalım olmadıqca məmləkətləri həlak etmərik.

60. (Dünyalıq olaraq) Sizə verilən hər şey dünya həyatının mənfəəti və zinətidir. Allahın qatındakı isə daha xeyirli və daha qalıcıdır. Hələ də düşünmürsünüzmü?

61. Gözəl bir vəd verdiyimiz və o vəd olunan şeyə qovuşacaq kimsə dünya həyatının müvəqqəti mənfəətini nəsib etdiyimiz sonra isə qiyamət günü (haqq-hesaba çəkilmək üçün) hüzura gətiriləcək kimsə ilə eyni ola olarmı?

62. Allahın onlara səslənərək: "Hanı sizin var olduğunu iddia etdiyiniz şəriklərim?" – deyəcəyi günü xatırla.

63. Barələrində əzab hökmü gerçəkləşənlər: "Ey Rəbbimiz! Bunlar bizim azdırdıqlarımızdır. Özümüz azdığımız kimi onları da azdırdıq. İndi isə onlardan uzaqlaşıb sənə döndük. Zatən (əslində) onlar bizə ibadət etmirdilər", – deyəcəklər.

64. Onlara: "Şəriklərinizi çağırın!" – deyilər. Onlar da çağırarlar, lakin şərikləri onlara cavab verə bilməzlər. Əzabı görərlər. Kaş onlar (dünyada ikən) doğru yolu tutaydılar.

65. Allahın onlara səslənərək: "Peyğəmbərlərə nə cavab verdiniz?" – deyəcəyi günü xatırla.

66. O gün bütün xəbərlər onlara qapalı olar. Daha bir-birilərindən də soruşa bilməzlər.

67. Amma tövbə edib saleh əməl işləyən kimsə nicat tapanlardan ola bilər.

68. Rəbbin istədiyini yaradar və seçər. Onların isə seçim haqqı yoxdur.[1] Allah onların şərik qoşduqlarından uzaqdır və ucadır.

69. Sənin Rəbbin onların qəlblərinin gizlədiklərini də, aşkara vurduqlarını da bilir.

70. O Allahdır. Ondan başqa heç bir ilah yoxdur. Dünyada da, axirətdə də həmd Ona məxsusdur. Hökm yalnız Onundur. Mütləq Onun hüzuruna qaytarılacaqsınız.

71. De ki: "Deyin görək, əgər Allah sizin üzərinizə gecəni qiyamətə qədər daim etsəydi, Allahdan başqa hansı ilah sizə bir aydınlıq gətirərdi? Hələ də eşitmirsinizmi?"

72. De ki: "Deyin görək, əgər Allah sizin üzərinizə gündüzü qiyamətə qədər daim etsəydi, Allahdan başqa hansı ilah sizə içində dincələcəyiniz bir gecə gətirə bilərdi? Hələ də görmürsünüzmü?"

73. Allah rəhməti səbəbi ilə gecəni dincələsiniz, gündüzü isə lütfündən payınıza düşəni arayasınız və şükür edəsiniz deyə sizin üçün yaratdı.

74. Allahın onlara səslənərək: "Hanı sizin var olduğunu iddia etdiyiniz şəriklərim?" – deyəcəyi günü xatırla.

75. Hər ümmətdən bir şahid çıxararıq və (kafirlərə): "Dəlilinizi gətirin", – deyərik. Onlar da həqiqətin Allaha aid olduğunu bilərlər və (Allaha şərik olaraq) uydurduqları şeylər onları darda qoyub qeyb olarlar.

76. Şübhəsiz, Qarun[2] Musanın qövmündən idi. Onlara qarşı azğınlıq etdi. Biz ona, (sadəcə) açarlarını (belə) güclü bir dəstənin çətinliklə daşıyacağı xəzinələr verdik. Qövmü ona belə dedi: "Qürrələnmə! Çünki Allah təkəbbür göstərərək qürrələnənləri sevməz".

77. "Allahın sənə verdiklərində axirət yurdunu ara. Dünyadan nəsibinə düşəni də unutma. Allahın sənə yaxşılıq etdiyi kimi sən də yaxşılıq et və yer üzündə fitnə-fəsad istəmə. Çünki Allah fitnə-fəsad törədənləri sevməz".

78. Qarun: "Bunlar mənə biliyim və bacarığım sayəsində verilmişdir", – dedi. O, Allahın ondan əvvəlki nəsillərdən, ondan daha güclü və daha çox mal yığmış kimsələri həlak etdiyini bilmirdimi? Günahkarlar günahları barəsində sorğu-sual olunmaz (Çünki Allah hamısını bilir).

79. Qarun öz zinəti və ehtişamı içərisində qövmünün qarşısına çıxdı. Dünya həyatını arzu edənlər: "Kaş Qaruna verilən (sərvət) kimi bizim də (sərvətimiz) olaydı. Həqiqətən, o, böyük bir sərvət sahibidir", – dedilər.

80. Elm verilmiş kimsələr isə: "Vay halınıza! İman edib saleh işlər görənlərə Allahın

---

1 "Onların isə seçim haqqı yoxdur" cümləsi özündən əvvəlki "Rəbbin istədiyini yaradar və seçər" cümləsi ilə birlikdə yuxarıda (62-64-cü ayələrdə) bəhs olunan müşriklərin ilah olaraq seçib ibadət etdikləri şeylərlə əlaqəlidir. Buna görə "Onların isə seçim haqqı yoxdur" cümləsi "İbadət ediləcək varlıq barəsində Allahdan başqasını seçmə haqları yoxdur" mənasına gəlir. Bundan başqa ayə "Mütləq yaratma və seçmə Allaha məxsusdur. Yaradılanların isə mütləq mənada seçmə səlahiyyətləri yoxdur" şəklində və başqa şəkillərdə də izah olunmuşdur.

2 Zənginliyin və mal-dövlətlə kibirlənməyin və qürurlanmağın simvolu olan Qarun həzrət Musa və həzrət Harunun Allahdan alıb insanlara çatdırdığı əmrlərə qarşı çıxan, bu peyğəmbərlərə qarşı üsyan edən şəxsdir. Qarun haqqında İsrailiyyat mənşəli bir çox rəvayət var. Qarun ilə əlaqəli olaraq baxın: Ənkəbut, 29/39; Mömin, 40/23-24.

verəcəyi mükafat daha xeyirlidir. Ona isə ancaq səbir edənlər qovuşdurular", – dedilər.

81. Nəhayət, onu da, sarayını da yerin dibinə batırdıq. Allaha qarşı ona kömək edə biləcək adamları da yox idi. Özünü qoruyub xilas edə bilənlərdən də deyildi.

82. Dünən onun yerində olmağı arzu edənlər: "Vay! Sən demə, Allah qullarından istədiyinin ruzisini bol verər və (istədiyininkini də) azaldarmış. Əgər Allah bizə lütf etməsəydi, bizi də yerin dibinə batırardı. Sən demə, kafirlər qurtuluşa çatmayacaqlarmış", – deməyə başladılar.

83. Bu, axirət yurdudur. Biz onu yer üzündə böyüklənməyənlər və fitnə-fəsad törətməyənlərə nəsib edirik. (Gözəl) aqibət Allaha qarşı gəlməkdən çəkinənlərindir.

84. Kim yaxşı əməllə gələrsə, ona bundan daha xeyirlisi var. Kim də pis əməllə gələrsə, bilsin ki, pislik edənlərə sadəcə etdiklərinin cəzası verilər.

85. Qur`anı sənə vacib buyuran Allah, şübhəsiz, səni qayıdılacaq bir yerə qaytaracaqdır. De ki: "Rəbbim hidayətlə gələni və açıq-aşkar zəlalət içində olanı daha yaxşı bilir".[1]

86. Sən bu kitabın sənə veriləcəyinə ümid etmirdin. Ancaq o, Rəbbindən bir rəhmət olaraq sənə verildi. Elə isə əsla kafirlərə arxa durma.

87. Allahın ayələri sənə endiriləndən sonra əsla səni onlardan yayındırmasınlar. Sən Rəbbinə çağır və əsla Allaha şərik qoşanlardan olma.

88. Sən Allah ilə yanaşı başqa bir ilaha tapınma. Ondan başqa heç bir ilah yoxdur. Ondan başqa hər şey yox olacaqdır. Hökm yalnız Onundur və siz mütləq Onun hüzuruna qaytarılacaqsınız.

## 29. ƏNKƏBUT SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 69 ayədən ibarətdir. Surənin adı 41-ci ayədə keçən "əl-ənkəbut" sözündən götürülmüşdür. Ənkəbut hörümçək deməkdir. Surədə başlıca olaraq Allahın birliyi, peyğəmbərlik, ölümdən sonrakı diriliş kimi etiqadi mövzulara, həmçinin Nuh, İbrahim, Lut və Şüeyb kimi peyğəmbərlərin ibrətamiz qissələrinə yer verilir. Bununla yanaşı Ad və Səmud kimi qövmlər və Qarun və Haman kimi tarixdəki azğın liderlərin başlarına gələn müsibətlərə diqqət çəkilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Əlif Ləm Mim.[2]

2. Məgər insanlar "İnandıq" deməklə buraxılacaqlarını və imtahan olunmayacaqlarınımı zənn edirlər?

---

1 Bu ayənin hicrət əsnasında Məkkə ilə Mədinə arasında nazil olduğu rəvayət olunmuşdur. Bununla həzrət Peyğəmbərə müşriklər tərəfindən çıxarıldığı Məkkəyə yenidən qayıdacağı bildirilmişdir. "Qayıdılacaq yer" ifadəsi "axirətdə ən yüksək məqam" şəklində də izah edilmişdir.

2 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

3. And olsun biz onlardan əvvəlkiləri də imtahan etmişdik. Allah doğru söyləyənləri də, yalançıları da şübhəsiz ki, bilir.

4. Pis əməllər işləyənlər yoxsa qaçıb bizdən qurtulacaqlarını zənn etdilər? Necə də pis mühakimə yürüdürlər.

5. Kim Allaha qovuşmağı ümid edirsə, bilsin ki, Allahın təyin etdiyi o vaxt mütləq gələcək. Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

6. Kim cihad edərsə, ancaq özü üçün cihad edər. Şübhəsiz, Allah aləmlərə möhtac deyil.

7. İman edib saleh işlər görənlərin pisliklərini, əlbəttə, örtəcəyik. Onları etdikləri əməllərdən daha gözəli ilə mükafatlandıracağıq.

8. Biz insana ata-anasına yaxşılıq etməyi əmr etdik. Əgər onlar, barəsində heç bir biliyin olmayan bir şeyi mənə şərik qoşmaq üçün səni məcbur edərlərsə, o təqdirdə onlara itaət etmə. Qayıdışınız ancaq mənədir və mən etdiklərinizi sizə xəbər verəcəyəm.

9. İman edib saleh işlər görənlər ki var, biz onları mütləq salehlər arasına daxil edəcəyik.

10. Elə insanlar var ki, "Allaha iman etdik", – deyirlər. Amma Allah uğrunda bir əziyyətə düçar edildikdə isə insanların fitnəsini Allahın əzabı kimi qəbul edərlər. And olsun, əgər Rəbbindən bir yardım gəlsə, mütləq: "Biz səninlə idik", – deyərlər. Allah hər kəsin qəlbində olanı ən yaxşı bilən deyilmi?

11. Allah iman edənləri də, münafiqləri də şübhəsiz ki, bilir.

12. İnkar edənlər iman edənlərə: "Bizim yolumuza tabe olun ki, sizin günahlarınızı yüklənək", – deyirlər. Halbuki onların günahlarından heç birini yüklənən deyillər. Şübhəsiz, onlar yalançılardır.

13. And olsun, onlar mütləq öz yüklərini və öz yükləri ilə yanaşı neçə-neçə ağır yüklər də yüklənəcəklər. Qiyamət günü onlar uydurduqları şeylər barəsində mütləq sorğu-sual olunacaqlar.[1]

14. And olsun, biz Nuhu öz qövmünə peyğəmbər olaraq göndərdik. O, onların arasında doqquz yüz əlli il qaldı. Nəhayət, zülmkarlıqlarına davam edərkən onları tufan yaxaladı.

15. Biz də onu (Nuhu) və gəmidə olanları xilas etdik və bunu aləmlərə bir ibrət etdik.

16. İbrahimi də peyğəmbər olaraq göndərdik. O, öz qövmünə belə dedi: "Allaha qulluq edin, Ona qarşı gəlməkdən çəkinin. Əgər bilsəniz, bu, sizin üçün daha xeyirldir".

17. "Siz Allahı buraxaraq ancaq bütlərə tapınırsınız və yalan uydurursunuz. Allahı buraxaraq tapındıqlarınızın sizə bir ruzi verməyə gücləri yetməz. Elə isə ruzini

1 12-ci ayədə inkarçıların möminlərin/başqalarının günah yükünü yüklənərək onları məsuliyyətdən qurtarmadıqları kimi bu sözlərində səmimi olmadıqları ifadə edilir. 13-cü ayədə isə öz günahları ilə birlikdə yoldan çıxardıqları kimsələrin də günahlarına ortaq olacaqlarına işarə edilir.

Allahın qatında axtarın. Ona qulluq edin və Ona şükür edin. Siz yalnız Ona qaytarılacaqsınız".

18. "Əgər təkzib etsəniz, bilin ki, sizdən əvvəl gəlib keçmiş bəzi ümmətlər də təkzib etmişdilər. Peyğəmbərin öhdəsinə düşən sadəcə açıq-aşkar təbliğdir".

19. Məgər onlar Allahın yaratmanı necə başlatdığını sonra onu necə təkrarladığını görmürlərmi? Şübhəsiz, bu, Allah üçün asandır.[1]

20. De ki: "Yer üzündə gəzib dolaşın, Allahın yaratmanı necə başlatdığını görün. Sonra Allah onu təkrar edəcək. (Qiyamətdən sonra hər şeyi yenidən yaradacaq.) Həqiqətən, Allah hər şeyə haqqı ilə qadirdir".

21. O, istədiyinə əzab verər, istədiyinə də mərhəmət edər. Ancaq Ona qaytarılacaqsınız.

22. Siz nə yerdə, nə də göydə (Allahı) aciz qoya bilməzsiniz. Sizin Allahdan başqa nə bir dostunuz, nə də bir yardımçınız var.

23. Allahın ayələrini və Ona qovuşmağı inkar edənlər ki var, onlar mənim rəhmətimdən ümidlərini kəsmişlər. Onlar üçün ağrılı-acılı bir əzab var.

24. (İbrahimin) qövmünün cavabı isə ancaq "Onu öldürün və ya yandırın!" deməkdən ibarət oldu. Amma Allah onu oddan xilas etdi. Həqiqətən, iman edən bir toplum üçün bunda ibrətlər var.

25. İbrahim onlara dedi: "Sırf aranızda dünya həyatına məxsus bir sevgi (və mənfəət) olduğu üçün Allahı buraxıb bütləri tutdunuz. Sonra qiyamət günündə bir-birinizi inkar edib tanımayacaq, bir-birinizə lənət edəcəksiniz. Sığınacağınız cəhənnəm olacaq. Yardımçılarınız da olmayacaq".

26. Belə olduqda Lut[2] ona (İbrahimə) iman etdi. İbrahim: "Mən Rəbbim(in getməyimi istədiyi yer)ə hicrət edəcəyəm.[3] Şübhəsiz, O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir", – dedi.

27. Ona (İbrahimə) İshaqı və Yaqubu bəxş etdik.[4] Onun soyundan gələnlərə peyğəmbərlik və kitab verdik. Ona dünyada mükafatını verdik. Şübhəsiz, o, axirətdə də salehlərdəndir.

28. Lutu da peyğəmbər olaraq göndərdik. O, öz qövmünə belə dedi: "Həqiqətən, siz sizdən əvvəl dünyada heç bir toplumun etmədiyi çirkin bir əməli edirsiniz".

---

1 Ayədə kainatda yaradılmanın fasiləsiz davam etdiyi vurğulanır, Allahın yaratma qüdrətinə diqqət çəkilir. Bir canlı yox olduqda yerini başqa bir canlı tutur. Bu qanun ictimai sahədə də keçərlidir. Millətlərdən biri yox olarkən yerinə başqa bir millət gəlir. Növbəti ayədə isə məsələnin bu yönü vurğulanmışdır. Nəticə etibarilə bu ayələrdə ölümdən sonra yenidən dirilmənin gerçəkləşəcəyinə işarə edilmişdir.

2 Lut həzrət İbrahimin qardaşının oğludur. Əmisi İbrahimin peyğəmbərliyinə iman etmiş və daha sonra özünə də peyğəmbərlik verilmişdir. Əlavə olaraq baxın: Hud, 11/69-73.

3 Təfsir mənbələrinə görə Lut (ə.s.) Kufə kəndlərindən biri olan Qusadan Harrana, daha sonra oradan da Fələstinə hicrət etmişdir. Bu səbəblə "Hər peyğəmbərin bir hicrəti, İbrahimin (ə.s.) iki hicrəti var" deyilmişdir. Bu səyahətində həzrət İbrahimin yanında zövcəsi Sara ilə qardaşı oğlu Lut (ə.s.) var idi.

4 İshaq və Yaqub həzrət İbrahimin İsmaildən sonra dünyaya gələn oğullarıdır. Yaqubun ikinci adı İsraildir. (Baxın: Məryəm, 19/58) Onun soyundan gələnlərə "İsrail oğulları" deyilir. Qur`anda 42 yerdə İsrail oğullarının adı çəkilir.

29. "Siz hələ də kişilərə yaxınlaşır, (cinsi ehtiyacı qarşılamaq üçün məşru) yolu bağlayır[1] və məclislərinizdə ədəbsizlik edirsiniz?" Qövmünün cavabı isə ancaq "Əgər doğru söyləyənlərdənsənsə, bizə Allahın əzabını gətir!" deməkdən ibarət oldu.

30. (Lut:) "Ey Rəbbim! Bu müfsid qövmə qarşı mənə yardım et", – dedi.

31. Elçilərimiz (mələklər) İbrahimə müjdə gətirdikləri zaman: "Biz bu məmləkət əhlini həlak edəcəyik. Çünki oranın əhalisi zalımlardır", – dedilər.

32. İbrahim: "Amma orada Lut da var", – dedi. Onlar: "Orada kimin olduğunu biz daha yaxşı bilirik. Biz onu və ailəsini, əlbəttə, qurtaracağıq. Amma onun övrəti istisnadır. O, arxada qalıb həlak edilənlərdən olacaq", – dedilər.

33. Elçilərimiz Lutun yanına gəldikləri zaman Lut onlara görə kədərləndi və onlar barəsində məyus oldu. Elçilər ona: "Qorxma, məyus olma. Biz səni və ailəni xilas edəcəyik. Amma övtərin istisnadır. O, arxada qalıb həlak edilənlərdən olacaq", – dedilər.

34. "Şübhəsiz, biz etdikləri fasiq əməllərə görə bu məmləkət əhlinin üzərinə göydən bir əzab endirəcəyik".

35. And olsun, biz düşünən bir qövm üçün o məmləkətdən açıq-aşkar ibrətlik bir dəlil qoyduq.[2]

36. Mədyənə də qardaşları Şüeybi peyğəmbər olaraq göndərdik. Şüeyb: "Ey qövmüm! Allaha qulluq edin. Axirət gününə ümid edin və yer üzündə fitnə-fəsad törədərək hərc-mərclik salmayın", – dedi.

37. Onu təkzib etdilər. Ona görə də onları o məlum sarsıntı yaxaladı, yurdlarında diz üstə çöküb qaldılar.

38. Ad və Səmud qövmlərini də həlak etdik. Bu onların (xarabazara çevrilən) yurdlarından sizə bəlli olmuşdur. Şeytan onlara öz əməllərini süslü göstərmiş və onları doğru yoldan yayındırmışdı. Halbuki onlar gözüaçıq kimsələr idilər.

39. Qarunu, Firon və Hamanı da həlak etdik. And olsun, Musa onlara açıq-aşkar möcüzələr gətirmişdi. Onlar isə yer üzündə təkəbbür göstərdilər. Halbuki bizdən sovuşub (əzabımızdan) qurtula bilməzdilər.[3]

40. Biz onların hər birini öz günahları səbəbi ilə yaxaladıq. Onlardan eləsi var ki, üstünə daş yağdırdıq, eləsi var ki, onu o qorxunc səs yaxaladı, eləsi var ki, yerin dibinə batırdıq, eləsi də var ki, suda boğduq. Allah onlara zülm etmirdi, lakin onlar özləri özlərinə zülm edirdilər.

41. Allahdan başqalarını dost tutanların halı özünə bir ev (yuva) qurmuş hörümçəyin halı kimidir. Evlərin ən zəifi isə şübhəsiz, hörümçək yuvasıdır. Kaş biləydilər.

---

1 Ayə "Siz hələ də kişilərə yaxınlaşacaq, yol kəsəcək və məclislərinizdə ədəbsizlik edəcəksiniz?" şəklində də başa düşülə bilər.

2 Lut (ə.s.) ilə əlaqəli olaraq Ənam surəsinin 86-cı ayəsinin istinadına baxın.

3 Haman Fironun vəziri idi. Bu şəxsin adı Qəsəs surəsinin 6, 8 və 38-ci, Mömin surəsinin 24 və 36-cı ayələrində keçir. Qarunla əlaqəli olaraq Qəsəs surəsinin 76-cı ayəsinin istinadına baxın.

42. Şübhəsiz, Allah onların Onu buraxıb nələrə tapındıqlarını bilir. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

43. Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları ancaq elm sahibləri düşünüb anlayar.

44. Allah göyləri və yeri haqq və hikmətə uyğun olaraq yaratmışdır. İman edənlər üçün bunda bir ibrət var.

45. (Ey Muhamməd!) Kitabdan sənə vəhy olunanı oxu, namaz qıl. Çünki namaz insanı həyasızlıqdan və pislikdən çəkindirir. Allahı zikr etmək (olan namaz), əlbəttə, ən böyük ibadətdir. Allah etdiklərinizi bilir.

46. Onlardan zülm edənlər istisna olmaqla, Kitab əhli ilə ancaq ən gözəl yolla mücadilə edin və (onlara) belə deyin: "Biz bizə endirilənə də, sizə endirilənə də iman etdik. Bizim ilahımız və sizin ilahınız birdir (eyni ilahdır). Biz sadəcə Ona təslim olanlarıq".

47. Beləliklə, biz sənə kitabı nazil etdik. Kitab verdiklərimiz ona inanırlar. Onlardan (Kitab əhlindən səninlə çağdaş olanlardan) da ona inananlar var. Bizim ayələrimizi ancaq kafirlər inkar edərlər.

48. Sən bu Qur`andan əvvəl nə bir kitab oxuyur, nə də onu sağ əlinlə yazırdın. (Oxuyub yazsaydın,) o təqdirdə batilin ardınca gedənlər şübhəyə düşərdilər.

49. Xeyr, o, elm verilənlərin qəlblərindəki açıq-aydın ayələrdir. Bizim ayələrimizi ancaq zalımlar inkar edər.

50. Dedilər ki: "Gərək Rəbbindən ona möcüzələr endiriləydi". De ki: "Möcüzələr ancaq Allah qatındadır və mən isə sadəcə açıq-aşkar xəbərdar edənəm".

51. Onlara oxunan kitabı sənə nazil etməyimiz onlara kafi gəlmədimi?[1] Həqiqətən, inanan bir qövm üçün bunda bir rəhmət və bir öyüd var.

52. De ki: "Mənimlə sizin aranızda şahid olaraq Allah yetər. O, göylərdə və yerdə olanları bilir. Batilə inanıb Allahı inkar edənlər ki var, onlar əsl ziyana uğrayanlardır".

53. Səndən əzabın tezliklə gəlməsini istəyirlər. (Hikmətə uyğun olaraq) əgər müəyyən olunmuş bir vaxt olmasaydı, əzab onlara mütləq gələrdi. Əlbəttə, onlar fərqində deyilkən onlara (əzab) qəflətən gələcək.

54, 55. Səndən əzabın tezliklə gəlməsini istəyirlər. Halbuki əzab kafirləri üstlərindən və ayaqlarının altından saracağı gün şübhəsiz, cəhənnəm onları mütləq bürüyəcək. Allah onlara: "Etdiklərinizin cəzasını dadın!" – deyəcək.

56. Ey iman edən qullarım! Həqiqətən, mənim ərzim (yer üzü) genişdir. Elə isə sadəcə mənə ibadət edin.[2]

1 Həzrət Peyğəmbərdən möcüzə istəyənlərə qarşı bu ayədə "Onlara oxunan kitabı sənə endirməyimiz onlara kafi gəlmədimi?" şəklində cavab verilərək, əslində, Qur`anın daimi bir möcüzə olduğuna diqqət çəkilmişdir.

2 Bu ayə Məkkədə dinlərini yaşamaqdan məhrum qalan müsəlmanlar haqqında nazil olmuş və onların dinlərini yaşaya biləcəkləri yerə hicrət edə biləcəklərini vurğulamışdır. Ayədə hər hansı bir yerdə dinlərini yaşaya bilməyən müsəlmanların başqa yerlərə hicrət edə biləcəkləri ilə bağlı mesaj verilir.

57. Hər can ölümü dadacaq. Sonra bizim hüzurumuza qaytarılacaqsınız.[1]

58. İman edib saleh işlər görənlər ki var, onları içindən çaylar axan və orada əbədi qalacaqları cənnət köşklərinə yerləşdirəcəyik. Çalışanların mükafatı nə gözəldir!

59. Onlar səbir edən və yalnız Rəblərinə təvəkkül edən kəslərdir.

60. Neçə-neçə canlılar var ki, ruzilərini daşımazlar (azuqə tədarükü görməzlər). Onlara da, sizə də Allah ruzi verir. O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

61. And olsun, əgər onlardan: "Göyləri və yeri kim yaratdı, günəşi və ayı sizin xidmətinizə kim verdi?" – deyə soruşsan, onlar mütləq: "Allah", – deyəcəklər. Elə isə onlar necə (haqdan) döndərilirlər?

62. Allah qullarından istədiyinin ruzisini artırar və (istədiyinin ruzisini də) azaldar. Şübhəsiz, Allah hər şeyi haqqı ilə biləndir.

63. And olsun, əgər onlardan: "Göydən yağmur endirib onunla yer üzünü ölümündən sonra dirildən kimdir?" – deyə soruşsan, onlar mütləq: "Allah", – deyəcəklər. De ki: "Həmd Allaha məxsusdur". Lakin onların çoxu düşünməzlər.

64. Bu dünya həyatı sadəcə bir əyləncə və oyundan ibarətdir. Axirət yurduna gəlincə, əsl həyat odur. Kaş biləydilər.

65. Gəmiyə mindikləri zaman dini Allaha xas tutaraq Ona dua edərlər. Onları qurtarıb quruya çıxardıqda isə bir də görərsən ki, Allaha şərik qoşurlar.

66. Qoy onlara verdiyimiz nemətlərə nankorluq etsinlər və bir müddət daha faydalansınlar etsinlər. Onlar biləcəklər.

67. Ətraflarındakı insanlar tutulub aparılarkən, bizim onların yurdlarını əmin bir yer etdiyimizi görmədilərmi? Onlar hələ də batilə inanır və Allahın nemətini inkar edirlər?

68. Allaha qarşı yalan uyduran yaxud haqq ona gəldiyi zaman onu təkzib edəndən daha zalım kim ola bilər? Cəhənnəmdə kafirlər üçün yermi yoxdur?

69. Bizim uğrumuzda cihad edənlər ki var, biz onları mütləq öz yollarımıza hidayət edəcəyik. Şübhəsiz, Allah yaxşılıq edənlərlədir.

---

1 Ayə qohumlarından ayrılmamaq və dolanışıq sıxıntısına düşməmək üçün Mədinəyə hicrət etməkdə tərəddüd edən bəzi müsəlmanlar haqqında nazil olmuşdur. Bu ifadə ilə "Hər kəs səfərdədir. Dünyada çox da qalsa, az da qalsa nəticədə hər kəs dünyadan, sevdiklərindən, yurdundan ayrılacaq. Elə isə iman uğrunda bəzi çətinliklərə, sıxıntılara qatlanmaq sizə çətin gəlməsin" mesajı verilir.

# 30. RUM SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 60 ayədən ibarətdir. Surənin adı ikinci ayədə keçən "ər-Rum" sözündən götürülmüşdür. Surədə başlıca olaraq qiyamət, Allahın qüdrətinə və birliyinə dəlalət edən məsələlər, həmçinin Qüreyş qəbiləsinin İslama qarşı mənfi münasibəti kimi mövzular yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Əlif Ləm Mim.[1]

**2, 3, 4, 5.** Rumlar yaxın bir yerdə məğlub oldular. Onlar məğlubiyyətlərindən sonra bir neçə il içində qalib gələcəklər. Əvvəl də, sonra da əmr Allahındır. O gün Allahın (Rumlara) zəfər verməsi ilə möminlər sevinəcəklər. Allah istədiyinə yardım edər. O, mütləq güc sahibidir, çox mərhəmətlidir.[2]

**6.** Allah (onlara zəfər barəsində) bir vəd vermişdir. Allah öz vədinə xilaf çıxmaz. Lakin insanların çoxu bilməzlər.

**7.** Onlar dünya həyatının sadəcə zahirini bilirlər. Axirət barəsində isə tamamilə qafildirlər.

**8.** Onlar öz nəfsləri(nin yaradılışındakı incəliklər) haqqında heç düşünmədilərmi? Allah göyləri, yeri və ikisi arasındakıları ancaq haqq və hikmətə uyğun olaraq və müəyyən bir müddət üçün yaratmışdır. Həqiqətən, insanların bir çoxu Rəblərinə qovuşacaqlarını inkar edirlər.

**9.** Onlar yer üzündə gəzib özlərindən əvvəlkilərin aqibətinin necə olduğuna baxmadılarmı? Onlar bunlardan daha qüvvətli idilər. Onlar yer üzünü əkib becərmiş və oranı bunların abad etdiyindən daha çox abad etmişdilər. Onlara da peyğəmbərləri açıq-aydın dəlillər gətirmişdi. Allah onlara əsla zülm etmirdi. Lakin onlar özləri özlərinə zülm edirdilər.

**10.** Sonra Allahın ayələrini təkzib etdikləri və onlara istehza etdikləri üçün pislik edənlərin aqibəti daha da pis oldu.

**11.** Allah yaratmanı başladar, sonra isə onu təkrarlayar. Sonra da yalnız Onun hüzuruna qaytarılarsınız.

**12.** Qiyamət qopacağı gün günahkarlar məyus olub ümidsizliyə düşəcəklər.

**13.** Allaha qoşduqları şəriklərdən onlar üçün şəfaətçilər də olmayacaq. Onlar şərik qoşduqları şeyləri də inkar edərlər.

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Həzrət Peyğəmbərə peyğəmbərlik verildiyi vaxtlarda dövrün iki böyük gücü olan iranlılar ilə rumlar (Bizans) qarşı-qarşıya gəlmiş və iranlılar döyüşdə qələbə qazanmışdılar. Özləri kimi bütpərəst olan iranlıların qalib gəlməsinə sevinən məkkəli müşriklər özlərinin də müsəlmanlara qalib gələcəklərini iddia etmişdilər. Bu ayələr həmin hadisəyə və daha sonra Bizansın iranlılara qalib gələcəyinə işarə edir. Həqiqətən də, bir neçə il sonra müsəlmanlar Bədrdə qələbə qazandıqları gün Bizansın da iranlılara qalib gəldiyi xəbərini almış, həm öz zəfərlərinə, həm də kitab əhli olan Bizansın zəfərinə sevinmişdilər.

14. Qiyamət qopacağı gün – həmin gün möminlər və kafirlər bir-birindən ayrılacaqlar.

15. İman edib saleh işlər görənlərə gəlincə, onlar cənnət bağçalarında sevindiriləcəklər.

16. İnkar edib ayələrimizi və axirətə qovuşmağı yalan sayanlar isə əzaba atılacaqlar.

17. Elə isə axşama çatdığınız zaman, səhərə çıxdığınız zaman Allahı təsbih edin.[1]

18. Göylərdə və yerdə həmd Ona məxsusdur. Gündüzün sonunda və günorta vaxtına çatdıqda Allahı təsbih edin.

19. Allah ölüdən diri çıxarır, diridən də ölü çıxarır. Ölümündən sonra yer üzünü dirildir. Siz də (məzarlarınızdan) belə çıxarılacaqsınız.

20. Sizi torpaqdan yaratması Onun (varlığının və qüdrətinin) dəlillərindəndir. Sonra bir də gördünüz ki, siz bəşər olmub (çoxalıb) yayılırsınız.

21. Onlarla hüzur tapasınız deyə sizin üçün öz cinsinizdən zövcələr yaratması və aranızda bir sevgi və mərhəmət yaratması da Onun (varlığının və qüdrətinin) dəlillərindəndir. Həqiqətən, bunda düşünən bir toplum üçün ibrətlər var.

22. Göylərin və yerin yaradılması, dillərinizin və rənglərinizin fərqli olması da Onun (varlığının və qüdrətinin) dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətlər var.

23. Gecə vaxtı yatmağınız, gündüz vaxtı Onun lütfündən payınıza düşəni aramağınız da Onun (varlığının və qüdrətinin) dəlillərindəndir. Həqiqətən, bunda eşidən bir toplum üçün ibrətlər var.

24. Qorxu və ümid yeri olaraq sizə şimşəyi göstərməsi, göydən yağmur endirib onunla yer üzünü ölümündən sonra diriltməsi Onun (varlığının və qüdrətinin) dəlillərindəndir. Həqiqətən, bunda düşünən bir toplum üçün ibrətlər var.

25. Əmri ilə göyün və yerin (öz nizamları üzrə) durması da Onun (varlığının və qüdrətinin) dəlillərindəndir. Sonra sizi yerdən (qalxmağa) çağıran kimi bir də görərsiniz ki, (dirilərək) çıxırsınız.

26. Göylərdə və yerdə kim varsa, yalnız Ona aiddir. Hamısı Ona boyun əyir.

27. O, yaratmanı başladan, sonra isə onu təkrarlayandır. Bu, Onun üçün (ilk yaratmadan) daha asandır.[2] Göylərdə və yerdə ən uca və bənzərsiz sifətlər Onundur. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

28. Allah sizə sizin özünüzdən belə bir misal gətirdi: Köləlériniz içərisində sizə verdiyimiz ruzilərdə sizinlə bərabər haqlara sahib olan və bir-birinizdən çəkindiyiniz kimi onlardan da çəkindiyiniz şərikləriniz varmı? Biz düşünən bir qövm üçün ayələri belə müfəssəl açıqlayırıq.

---

1 Təfsir alimləri ayədəki təsbih etməyi namaz, axşama çatmağı axşam və işa vaxtları, səhərə çıxmağı isə səhər vaxtı olaraq, 18-ci ayədəki gündüzün sonunu əsr vaxtı, günorta vaxtına çatmağı isə zöhr vaxtı olaraq izah etmişdirlər.

2 Allah üçün çətinlik və ya asanlıq yoxdur. Buradakı ifadə insan məntiqinə görə bir şeyi yoxdan yaratmağın onu təkrarlamaqdan daha çətin olduğunu əks etdirir.

**29.** Amma zülm edənlər nadanlıqla nəfslərinin istəklərinə uydular. Allahın (bu şəkildə) zəlalətə düçar etdiyi kimsələri kim doğru yola yönəldər? Onların heç bir yardımçıları da yoxdur.

**30.** Haqqa yönələn bir kimsə olaraq üzünü dinə çevir. Allahın insanları yaratdığı fitrətə[1] sarıl. Allahın yaratmasında heç bir dəyişdirmə olmaz.[2] Doğru din budur. Lakin insanların çoxu bilməzlər.

**31, 32.** Allaha yönəlmiş kimsələr olaraq üzünüzü haqq dinə çevirin, Ona qarşı gəlməkdən çəkinin, namazı qılın və müşriklərdən – dinlərini parçalayıb firqə-firqə olan kimsələrdən olmayın. (Onlardan) hər bir firqə özününkü (öz etiqadı) ilə sevinib qürrələnər.

**33.** İnsanlara bir zərər toxunduğu zaman Rəblərinə yönələrək ona dua edərlər. Sonra Allah öz qatından onlara bir rəhmət daddıran kimi onlardan bir dəstə Rəblərinə şərik qoşarlar.

**34.** Qoy (hələ) onlara verdiyimiz nemətləri inkar etsinlər. (Hələlik) faydalanın, amma yaxında biləcəksiniz.

**35.** Yoxsa biz onlara bir dəlilmi endirimişik ki, o, Allaha şərik qoşmaları barəsində (tutarlı olduqlarından) danışır?

**36.** İnsanlara bir rəhmət daddırdığımız zaman ona sevinirlər. Əgər öz əməlləri səbəbi ilə başlarına bir pislik gəlsə, ümidsizliyə düşərlər.

**37.** Onlar görmədilərmi ki, Allah istədiyinin ruzisini bol verir və (istədiyininkini də) azaldır. Həqiqətən, bunda inanan bir toplum üçün ibrətlər var.

**38.** Elə isə qohuma, yoxsula və yolçuya haqqını ver. Bu, Allahın razılığını qazanmaq istəyənlər üçün daha xeyirlidir. Əsl nicat tapanlar onlardır.

**39.** İnsanların malları artsın deyə faizlə hər nə versəniz, o, Allah qatında artmaz. Amma Allahın rizasını istəyərək nə zəkat versəniz, bunu edənlər savablarını qat-qat artıranlardır.

**40.** Allah sizi yaradan, sonra sizə ruzi verən, sonra sizi öldürən və daha sonra isə diriləndir. Allaha qoşduğunuz şəriklərdən bunlardan hər hansı birini edə bilən varmı? O, onların şərik qoşduqlarından uzaqdır, ucadır.

**41.** İnsanların etdikləri (pisliklər) səbəbi ilə quruda və dənizdə fəsad meydana gəldi.

1 Fitrət insanların yaradılışında mövcud olan tövhidə yönəlmə xüsusiyyəti deməkdir.

2 Məalda "Allahın yaratmasında heç bir dəyişdirmə olmaz" şəklindəki hökm ifadəsini "Allahın yaratdığını pozmağa, dəyişdirməyə çalışmaq doğru deyil" mənasında anlamaq mümkün olduğu kimi "Allahın yaratmasında heç bir dəyişiklik edilə bilməz" şəklində də anlamaq mümkündür.

Buna əsasən ilk mənada fitrətə zidd hərəkət etməyin, bu fitrəti pozmağa çağışmağın əsla doğru bir iş olmayacağı, belə hal və hərəkətlərin acı nəticələr doğuracağı, ikinci mənada isə Allahın təbiətə yerləşdirdiyi bir sıra dəyişməz qanunlar kimi insan fitrətinə də dəyişməz bəzi qanunlar yerləşdirdiyi, bunu heç kimin dəyişdirə bilməyəcəyi, fitrəti pozulmamış hər insanda bu qanunların özünü hiss etdirəcəyi vurğulanmışdır.

Etdiklərinin bəzi (pis) nəticələrini Allah onlara (dünyada) daddıracaq ki, bəlkə onlar (yanlış yoldan) dönələr.[1]

42. De ki: “Yer üzündə gəzib-dolaşın, əvvəlki millətlərin aqibətinin necə olduğunu bir görün”. Onların çoxu Allaha şərik qoşan kimsələr idi.

43. Allah tərəfindən geri dönüşü olmayan gün gəlmədən öncə üzünü doğru dinə çevir. O gün insanlar bölük-bölük ayrılacaqlar.

44. Kim inkar edərsə, inkarı öz əleyhinədir. Kim də saleh bir əməl işlərsə, ancaq özləri üçün (cənnətdə yer) hazırlamış olarlar.

45. Bu hazırlığı Allahın iman edib saleh işlər görənləri öz lütfündən mükafatlandırması üçün edərlər. Həqiqətən, O, inkar edənləri sevməz.

46. Küləkəri yağmurun müjdəçisi olaraq göndərməsi Allahın (varlığının və qüdrətinin) dəlillərindəndir. O, bunu sizə öz rəhmətindən daddırmaq, əmri ilə gəmilərin üzməsi, Onun lütfündən nəsibinizi aramanız və şükür etməniz üçün edər.

47. And olsun biz səndən əvvəl neçə-neçə peyğəmbərləri öz qövmlərinə göndərdik. Peyğəmbərlər onlara açıq-aşkar möcüzələr gətirdilər. Biz də günah işləyənlərdən intiqam aldıq. Möminlərə yardım etmək isə üzərimizdə bir haqdır.

48. Allah küləkləri göndərəndir. Onlar isə buludları hərəkətə gətirir. Allah onları göy üzündə istədiyi kimi (bəzən) yayır və (bəzən də) sıxlaşdırır. Nəhayət, sən onların arasından yağmurun çıxdığını görərsən. Onu istədiyi qullarına tuş gətirdiyi zaman onlar sevinərlər.

49. Halbuki onlar daha öncə üstlərinə yağmur yağdırılmazdan əvvəl ümidsizliyə qapılmışdılar.

50. Sən Allahın rəhmətinin əsərlərinə bax ki, yer üzünü ölümündən sonra necə dirildir. Şübhə yoxdur ki, O, ölüləri də mütləq dirildəcəkdir. O, hər şeyə haqqı ilə qadirdir.

51. And olsun, əgər biz (onların əkinlərinə zərərli) bir külək göndərsək və o əkinin saralıb-solduğunu görsələr, bundan sonra mütləq nankorluq etməyə başlayarlar.

52. Şübhəsiz, sən ölülərə eşitdirə bilməzsən. Dönüb getdikləri zaman sən çağırışı karlara da eşitdirə bilməzsən.

53. Sən korları da öz zəlalətlərindən ayırıb doğru yola yönəldə bilməzsən. Sən çağırışı sadəcə ayələrimizə inanıb müsəlman olan kimsələrə eşitdirə bilərsən.

54. Allah sizi zəif olaraq yaradan, sonra zəifliyin ardından bir qüvvət verən, sonra qü-

1 Yer üzü, üstündəki saysız nemətlər və gözəlliklərlə insana əmanət edilmişdir. Bu əmanətə, ancaq onun təbii nizamını qoruyaraq riayət etmək mümkündür. Halbuki insan əli ilə yer üzünün təbii nizamı pozulmağa başlamışdır. Texnoloji yeniliklərin yaratdığı ətraf mühit problemləri, sənaye tullantıları ekoloji tarazlığı pozur. Bunun nəticəsində torpaq, su və hava kirlənir və zəhərlənir, çox sayda heyvan və bitki növlərinin nəsli tükənir. Hətta bu pozulmanın genetik pozğunluğa da gətirib çıxarması mümkün görünür. Bununla yanaşı ictimai fəsadı nəzərə aldıqda insanın Allahın qoyduğu dəyərləri diqqətə almamasının acı nəticələri ortaya çıxır.

Ayədə yer üzünün bu şəkildə fəsada uğramasına səbəb olan insanın bunun acı nəticələrinin bir qismini dünyada dadacağına, əsl cəzanın isə axirətdə olacağına işarə edilir. İnsanların işlədikləri əməllər nəticəsində quruda və dənizlərdə meydana gələn bu fəsada əsrlər əvvəl işarə edilməsi maraqlı deyilmi?

vvətin ardından bir zəiflik və yaşlılıq verəndir. O, istədiyini yaradar. O, haqqı ilə biləndir, haqqı ilə güc yetirəndir.

55. Qiyamətin qopacağı gün günahkarlar (dünyada) bir andan artıq qalmadıqlarına and içərlər. Onlar (dünyada haqdan) belə döndərilirdilər.

56. Elm və iman verilənlər isə onlara belə deyəcəklər: "And olsun, siz Allahın yazısına görə yenidən dirilmə gününə qədər qaldınız. Bu, yenidən dirilmə günüdür. Lakin siz bilmirdiniz".

57. O gün zülm edənlərə üzrləri fayda verməz, Allahı razı edəcək əməllər işləmə istəkləri də qəbul olunmaz.

58. And olsun, biz bu Qur`anda insanlar üçün hər cür misal çəkdik. And olsun, əgər sən onlara bir ayə gətirsən, inkar edənlər mütləq: "Siz sadəcə batil şeylər uyduranlarsınız", – deyərlər.

59. Allah bilməyənlərin qəlblərini belə möhürləyir.

60. Sən səbir et. Həqiqətən, Allahın vədi haqdır. Yəqinliklə iman etməyənlər səni etinasızlığa (və əndişəyə) sövq etməsinlər.

# 31. LOĞMAN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 34 ayədən ibarətdir. Surənin adı 12-ci və 13-cü ayələrdə keçən həzrət Loğmanın adından götürülmüşdür. Surədə başlıca olaraq həzrət Loğmanın oğluna nəsihətləri, tövhid, peyğəmbərlik, ölümdən sonra dirilmə və həşr mövzuları yer alır, həmçinin insanlara qiyamət günü üçün əvvəlcədən hazırlıq görmələri tövsiyə olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Əlif Ləm Mim.[1]

2, 3. Bunlar yaxşılıq edənlərə bir hidayət və rəhmət olaraq endirilmiş hikmət dolu Kitabın ayələridir.

4. Onlar namaz qılan, zəkat verən kimsələrdir. Onlar axirətə də yəqinliklə inanırlar.

5. Onlar Rəblərindən gələn bir hidayət üzrədirlər və nicat tapanlar da məhz onlardır.

6. İnsanlardan eləsi var ki, nadanlıqla Allahın yolundan azdırmaq və o yolu məsxərəyə qoymaq üçün boş və faydasız sözləri satın alır. Onlar üçün alçaldıcı bir əzab var.

7. Ona ayələrimiz oxunduğu zaman onları heç eşitməmiş, qulağında bir ağırlıq varmış kimi kibrlənərək üz döndərər. Onu ağrılı-acılı bir əzab ilə müjdələ.[2]

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Təfsir mənbələrinin bildirdiyinə görə, 6-cı və 7-ci ayələr müşriklərdən Nəzr ibn Haris haqqında nazil olmuşdur. Nəzr ticarət məqsədilə Hirəyə getdiyi zaman əcəm nağıllarından ibarət kitablar satın alır və qayıtdığı zaman məkkəlilərə: "Muhamməd sizə Ad və Səmud qövmlərinin hekayələrini danışır, mən də Fars və Bizans hekayələrini danışacağam", – deyər və gətirdiklərini oxuyar, bununla insanları Qur`an dinləməkdən yayındırmağa çalışardı.

8, 9. Şübhəsiz, iman edib saleh işlər görənlər üçün içində əbədi qalacaqları Nəim cənnətləri var. Allah (bu barədə) gerçək bir vəd vermişdir. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

10. Allah göyləri görə biləcəyiniz dirəklər olmadan yaratdı. Yer üzünə də sizi silkələməsin deyə möhkəm dağlar yerləşdirdi və orada hər cür canlı yaydı. Göydən yağış endirib orada cürbəcür gözəl və faydalı bitki bitirdik.

11. Bu, Allahın yaratdıqlarıdır. Siz də mənə Allahı buraxıb tapındıqlarınızın yaratdıqlarını göstərin. Xeyr, zalımlar açıq-aşkar bir zəlalət içindədirlər.

12. And olsun, biz Loğmana: "Allaha şükür et", – deyə hikmət verdik. Kim şükür etsə, özü üçün şükür edər. Kim də nankorluq etsə, bilsin ki, Allah hər baxımdan sonsuz zəngindir, tərifə layiqdir.

13. Loğman oğluna öyüd verərək belə demişdi: "Oğlum! Allaha şərik qoşma. Çünki şərik qoşmaq, əlbəttə, böyük bir zülmdür".

14. Biz insana ata-anasına qarşı xoş davranmağı əmr etdik. Anası onu günbəgün zəif düşərək bətnində daşımışdır. Onun süddən kəsilməsi isə iki il çəkir.[1] (Ona görə də) biz insana belə əmr etdik: "Mənə və ata-anana şükür et. Dönüş mənədir".

15. "Əgər (valideynlərin), haqqında heç nə bilmədiyin bir şeyi mənə şərik qoşman üçün sənə təzyiq göstərsələr, onlara itaət etmə. Lakin dünyada onlarla gözəl rəftar et. Mənə yönələnlərin yoluna tabe ol. Sonra dönüşünüz ancaq mənədir. Mən də sizə etdiklərinizi xəbər verəcəyəm".

16. (Loğman nəsihət verməyə davam edərək belə dedi:) "Oğlum! Şübhəsiz, edilən iş bir xardal dənəsi ağırlığında da olsa, bir qayanın içində, yaxud göylərdə və ya yerin içində də olsa, Allah onu çıxarıb gətirər. Çünki Allah ən gizli şeyləri biləndir, (hər şeydən) haqqı ilə xəbərdar olandır".

17. "Oğlum! Namazı doğru-düzgün qıl. Yaxşılığı əmr et. Pislikdən çəkindir. Başına gələn müsibətlər qarşısında səbirli ol. Çünki bunlar qəti şəkildə əmr edilmiş işlərdəndir".

18. "Xor görərək insanlardan üz çevirmə və yer üzündə lovğa-lovğa gəzmə. Çünki Allah heç bir kibrlənəni və qürrələnəni sevməz".

19. "Yerişində təbii ol. Səsini alçalt. Çünki səslərin ən çirkini şübhəsiz, uzunqulaqların səsidir!"

20. Allahın göylərdə və yerdə nə varsa hamısını sizin xidmətinizə verdiyini və açıq yaxud gizli olaraq sizə olan nemətini tamamladığını görmədinizmi? Yenə də insanlar arasında heç bir biliyi, yol göstərəni və aydınladan bir kitabı olmadan Allah barəsində mübahisə edənlər var.

21. Onlara: "Allahın endirdiyinə tabe olun", – deyildikdə: "Xeyr, biz atalarımızdan nə görmüşüksə, ona tabe olarıq", – deyərlər. Bəs əgər şeytan onları cəhənnəm əzabına çağırırsa necə?

1 Uşağın süd əmmə müddəti ilə əlaqəli olaraq baxın: Bəqərə, 2/233.

22. Kim yaxşılıq edərək özünü Allaha təslim edərsə, şübhəsiz, ən sağlam qulpdan tutmuş olar. İşlərin sonu ancaq Allaha gedib çıxır.

23. Kim inkar edərsə, onun inkarı səni üzməsin. Onların dönüşləri ancaq bizədir. Biz də onlara etdiklərini xəbər verərik. Allah qəlblərdə olanı haqqı ilə biləndir.

24. Biz onlara (dünyada) bir qədər dolanışıq imkanı verərik. Sonra da onları ağır bir əzaba sürükləyərik.

25. And olsun, əgər sən onlardan: "Göyləri və yeri kim yaratdı?" – deyə soruşsan, onlar mütləq: "Allah", – deyərlər. De ki: "Həmd Allaha məxsusdur". Lakin onların çoxu bilməzlər.

26. Göylərdə və yerdə nə varsa, Allahındır. Həqiqətən, Allah hər baxımdan sonsuz zəngin olan, tərifə layiq olandır.

27. Əgər yer üzündəki ağaclar qələm, dəniz də mürəkkəb olsa, ardından ona yeddi dəniz qatılsa, Allahın sözləri (yazmaqla) yenə də tükənməz. Şübhəsiz, Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

28. (Ey insanlar!) Sizin yaradılmanız və öldükdən sonra yenidən dirildilməniz ancaq bir tək insanı yaratmaq və diriltmək kimidir. Şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə görəndir.

29. Görmədinmi ki, Allah gecəni gündüzün içinə və gündüzü də gecənin içinə qatır. Günəşi və ayı da qoyduğu qanunlara ram etmişdir. Hər biri (öz məcrasında) müəyyən bir zamanadək axıb gedir. Həqiqətən, Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

30. Bu belədir. Çünki Allah haqdır, Onu buraxıb tapındıqları isə batildir. Həqiqətən, Allah ucadır, böyükdür.

31. Görmədinmi ki, gəmilər Allahın neməti ilə dənizdə axıb gedir. Allah bunu ayələrindən bir qismini sizə göstərmək üçün edir. Şübhəsiz ki, bunda haqqı ilə səbir edən, haqqı ilə şükür edən hər kəs üçün ibrətlər var.

32. Bir dalğa (dənizdə) onları kölgəliklər kimi bürüdüyü zaman dini Allaha xas edərək Ona yalvarırlar. Allah onları xilas edib quruya çıxardıqda onlardan bir qismi orta yol tutar. Bizim ayələrimizi isə ancaq çox xain, çox nankor olanlar inkar edər.

33. Ey insanlar! Rəbbinizə qarşı gəlməkdən çəkinin. Heç bir atanın övladına bir fayda verə bilməyəcəyi, heç bir övladın da atasına bir fayda verə bilməyəcəyi gündən qorxun. Həqiqətən, Allahın vədi haqdır. Dünya həyatı sizi aldatmasın. O aldadıcı şeytan da Allah haqqında sizi aldatmasın.

34. Qiyamətin nə zaman qopacağına dair bilik sadəcə Allah qatındadır. O, yağışı endirir, bətnlərdəkini bilir. Heç kim sabah nə qazanacağını bilə bilməz. Heç kim harada öləcəyini də bilə bilməz. Şübhəsiz, Allah haqqı ilə biləndir, (hər şeydən) haqqı ilə xəbərdar olandır.

# 32. SƏCDƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 30 ayədən ibarətdir. Surənin adı möminlərin Allaha səcdə etmələrindən bəhs edən 15-ci ayədən götürülmüşdür. Surədə Allahın qüdrətindən, axirət günündən, kitablardan, peyğəmbərlərdən və insanın yaradılmasından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Əlif Ləm Mim.[1]

2. Haqqında heç bir şübhə olmayan bu Kitabın endirilməsi aləmlərin Rəbbi tərəfindəndir.

3. Yoxsa: "Onu Muhamməd uydurdu", – deyirlər? Xeyr, o, səndən əvvəl heç bir xəbərdar edən gəlməmiş bir qövmü xəbərdar etməyin üçün doğru yola yönəlsinlər deyə Rəbbin tərəfindən endirilən haqdır.

4. Allah göyləri, yeri və ikisi arasındakıları altı gündə (altı mərhələdə) yaradan, sonra da Ərşə[2] istiva edəndir. Sizin üçün Ondan başqa heç bir dost, heç bir şəfaətçi yoxdur. Hələ də düşünüb öyüd götürməyəcəksinizmi?

5. Göydən yerə qədər bütün işləri Allah idarə edir. Sonra bu işlər müddəti sizin hesabınızla min il olan bir gündə ona yüksəlir.

6. Allah qeybi də, görünən aləmi də biləndir, mütləq güc sahibidir, çox mərhəmətlidir.

7. O ki yaratdığı hər şeyi gözəl yaratdı. İnsanı yaratmağa da palçıqdan başladı.

8. Sonra onun nəslini xalis bir sudan, dəyərsiz bir sudan yaratdı.

9. Sonra ona surət verib ruhundan ona üfürdü. Sizin üçün eşitmə, görmə və idrak duyğularını yaratdı. Nə qədər də az şükür edirsiniz!

10. (Kafirlər dedilər ki:) "Torpaqda yox olduqdan sonra bizmi yenidən yaradılacağıq?" Xeyr, onlar Rəblərinə qovuşacaqlarını inkar edirlər.

11. De ki: "Sizin üçün vəzifələndirilmiş ölüm mələyi canınızı alacaq, sonra Rəbbinizin hüzuruna qaytarılacaqsınız".

12. Günahkarlar Rəblərinin hüzurunda boyunlarını büküb: "Rəbbimiz! (Həqiqəti) gördük və eşitdik. İndi bizi (dünyaya) qaytar ki, saleh əməl işləyək. Artıq biz yəqinliklə inanırıq", – dedikləri zaman kaş (onları) bir görəydin!

13. Əgər istəsəydik, hər kəsə hidayətini verərdik. Lakin mənim "And olsun, cəhənnəmi həm cinlərlə, həm də insanlarla dolduracağam" sözüm gerçəkləşəcəkdir.[3]

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Ərş qüdrət və hakimiyyət taxtı, sonsuz qüdrət mərtəbəsi deməkdir.

3 Allah istəsəydi, yaxşını və pisi seçməyi insanların ixtiyarına buraxmaz, hər kəsi imana və yaxşılığa sövq edərdi. Bu təqdirdə dünya həyatı axirəti qazanmaq yeri olmaqdan çıxar, insanlar mələklər kimi olar, insanların azad bir şəkildə öz iradələri ilə yaxşılığı və pisliyi seçmək və axirətdə bunun nəticəsinə görə əməllərinin qarşılığını görmək şəklində sınanmalarının bir mənası qalmazdı. Ayənin ilk cümləsində bu məqam

14. (Onlara belə deyiləcək:) “O halda bu gününüzə qovuşmağı unutduğunuz üçün əzabı dadın. Biz də sizi unutduq. Etdiklərinizə görə əbədi əzabı dadın”.

15. Bizim ayələrimizə ancaq bu ayələrlə özlərinə öyüd verildiyi zaman səcdəyə qapanan, kibrlənmədən Rəblərinə həmd edərək təsbih edənlər inanarlar.

16. Onlar qorxaraq və ümid edərək Rəblərinə ibadət etmək üçün yataqlarından qalxarlar. Onlara ruzi olaraq verdiklərimizdən Allah üçün xərcləyərlər.

17. Etdikləri əməllərin qarşılığı olaraq onlar üçün gizlənib saxlanılan göz aydınlığını heç kəs bilməz.

18. Heç mömin də fasiq kimi olarmı? Onlar (əlbəttə,) eyni olmazlar.

19. İman edib saleh əməl işləyənlərə gəlincə onlar üçün etdiklərinin əvəzi bir mükafat olaraq Mə`va cənnətləri var.

20. Fasiqlik edənlərə gəlincə onların sığınacağı yer cəhənnəm odudur. Onlar hər dəfə oradan çıxmaq istədikdə oraya qaytarılar və onlara: “Yalan saydığınız atəşin əzabını dadın!” – deyilər.

21. And olsun, Biz onlara (axirətdəki) ən böyük əzabdan əvvəl (dünyadakı) yaxın əzabı daddıracağıq ki, bəlkə (doğru yola) dönələr.

22. Rəbbinin ayələri xatırladıldıqdan sonra onlardan üz döndərən kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, Biz günahkarlardan intiqam alanıq.

23. And olsun, Biz Musaya Kitabı (Tövratı) verdik. Sən də kitaba (Qur`ana) qovuşmaq barəsində şübhədə olma. Onu İsrail oğullarına yol göstərən təyin etdik.

24. Səbir edib ayələrimizə yəqinliklə inandıqları zaman onların arasından əmrimizlə doğru yola yönəldən öndərlər çıxardıq.

25. Şübhəsiz, Rəbbin qiyamət günü ixtilaf edib təfriqəyə düşdükləri şeylər barəsində onlar arasında hökm verəcəkdir.

26. Məgər yurdlarında gəzib dolaşdıqları neçə-neçə nəsilləri həlak etməyimiz onlar üçün bir hidayət vəsiləsi olmadımı? Həqiqətən, bunda ibrətlər var. Hələ də eşitmirlərmi?

27. Görmədilərmi ki, Biz yağmuru qupquru yerə göndərib onunla heyvanlarının və özlərinin yeyəcəyi əkinlər çıxarırıq. Hələ də görmürlərmi?

28. “Əgər doğru söyləyənlərsinizsə, o fəth nə zamandır?” – deyirlər.

29. De ki: “Fəth (qiyamət) günü inkar edənlərə iman etmələri fayda verməyəcək. Onlara möhlət də verilməyəcək”.

30. İndi sən onlardan üz çevir və gözlə. Şübhəsiz, onlar da gözləyirlər.

---

vurğulanır. Ayənin ikinci cümləsində isə pisi seçənlərin ilahi ədalət qarşısında üzləşəcəkləri aqibət açıqlanır.

# 33. ƏHZAB SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 73 ayədən ibarətdir. Surənin adı 20-ci və 22-ci ayələrdə keçən "əl-əhzab" kəlməsindən götürülmüşdür. Əhzab qruplar deməkdir. Surədə başlıca olaraq Xəndək və Bəni Qüreyzə savaşları və ailə həyatına dair bəzi hökmlər yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey Peyğəmbər! Allaha qarşı gəlməkdən çəkin. Kafirlərə və münafiqlərə itaət etmə. Şübhəsiz, Allah haqqı ilə billəndir, hökm və hikmət sahibidir.
2. Rəbbindən sənə vəhy olunana tabe ol. Şübhəsiz, Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.
3. Allaha təvəkkül et. Vəkil olaraq Allah yetər.
4. Allah heç bir adamın sinəsində iki qəlb yaratmamışdır. Zihar[1] etdiyiniz zövcələrinizi də analarınız olaraq yaratmamışdır. Həmçinin övladlıqlarınızı[2] da doğma övladlarınız (kimi) etməmişdir. Bu, sizin ağızlarınızla söylədiyiniz (lakin həqiqi olmayan) sözünüzdür. Allah isə haqqı söyləyər və doğru yola yönəldər.
5. Onları atalarına nisbət edərək çağırın. Bu, Allah qatında daha (doğru və) ədalətlidir. Əgər atalarını bilmirsinizsə, onlar sizin din qardaşlarınız və dostlarınızdır. Xəta ilə etdiyiniz bir işə görə sizə heç bir günah yoxdur. Lakin qəsdən etdiyiniz şeylərə görə sizə günah var. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.
6. Peyğəmbər möminlərə öz canlarından daha yaxındır. Onun zövcələri də möminlərin analarıdır. Aralarında qohumluq əlaqəsi olanlar Allahın kitabına görə (miras barəsində) bir-birilərinə (digər) möminlərdən və mühacirlərdən daha yaxındırlar.[3] Ancaq dostlarınıza bir yaxşılıq etməyiniz istisnadır. Bu, (hökm) Kitabda yazılıdır.
7. Xatırla ki, Biz peyğəmbərlərdən möhkəm söz almışdıq. Səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da. Bəli, Biz onlardan möhkəm bir söz almışdıq.
8. (Allah bunu) doğru kimsələri doğruluqlarından hesaba çəkmək üçün (etmişdir.) Kafirlərə də ağrılı-acılı bir əzab hazırlamışdır.
9. Ey iman edənlər! Allahın sizə olan nemətini xatırlayın. Bir vaxt (düşmən) ordular üstünüzə gəlmişdi, Biz də onların üzərinə bir külək və görmədiyiniz ordular göndərmişdik. Allah etdiklərinizi haqqı ilə görür.[4]

---

1 Zihar bir kişinin həyat yoldaşına "Sən mənə anamın kürəyi kimisən" deməklə onu özünə haram etməsi deməkdir. Cahiliyyə dövründə zihar etmək qadını kişiyə əbədi olaraq haram edərdi. İslam isə kəffarə ilə bu haramlığın aradan qaldırılması hökmünü gətirdi. Kəffarə Mücadələ surəsinin 2-4-cü ayələrində açıqlanır.

2 Cahiliyyə ərəbləri övladlıqlarını öz övladları kimi qəbul edərdilər. Övladlıq əsl atasının adı ilə deyil, övlad götürənin adı ilə çağırılar və onun mirasından öz övladı kimi pay alardı. Ayələr bu adəti ləğv etmişdir.

3 Hicrətdən sonra müsəlmanlar din qardaşları kimi bir-birilərinə varis olurdular. Bu ayədə varislik səbəbinin qohumluq olduğu, din qardaşlığının varislik səbəbi olmaqdan çıxarıldığı bildirilir.

4 Bu və bundan sonra gələn ayələrdə Xəndək döyüşündən bəhs olunur. Qüreyş qəbiləsi və müttəfiqləri Mə-

**10.** Bir vaxt onlar sizə həm yuxarı tərəfinizdən, həm də aşağı tərəfinizdən gəlmişdilər. Gözlər bərəlmiş, ürəklər ağızlara gəlmişdi. Siz də Allah barəsində müxtəlif zənlərə qapılırdınız.

**11.** Məhz orada möminlər sınandılar və şiddətli bir şəkildə sarsıldılar.

**12.** Münafiqlər və qəlblərində xəstəlik olanlar: "Allah və rəsulu bizə sadəcə aldatmaq üçün vəd etmişlər", – deyirdilər.

**13.** O zaman onlardan bir dəstə: "Ey Yəsrib (Mədinə) əhli! Sizin burada durmaq imkanınız yoxdur. Geri qayıdın", – demişdi. Onlardan başqa bir dəstə isə: "Evlərimiz açıqdır (mühafizə olunmur)", – deyərək peyğəmbərdən izin istəyirdilər. Halbuki evləri açıq (mühafizəsiz) deyildi. Onlar sadəcə qaçmaq istəyirdilər.

**14.** Əgər Mədinənin hər tərəfindən onların üstünə gəlib orada fitnə törətmələri istənilsəydi, onu mütləq edərdilər. O barədə çox yubanmazdılar.[1]

**15.** And olsun, onlar daha əvvəl geri dönüb qaçmayacaqlarına dair Allaha söz vermişdilər. Allaha verilən sözün isə bir məsuliyyəti var.

**16.** De ki: "Əgər siz ölümdən və öldürülməkdən qaçırsınızsa, qaçmaq sizə əsla xeyir verməyəcək. O təqdirdə belə, (həyatın zövqlərindən) çox az faydalandırılarsınız".

**17.** De ki: "Əgər Allah sizə bir yamanlıq diləsə, sizi Allahdan kim qoruyar? Yaxud sizə bir rəhmət diləsə, buna kim mane olar?" Onlar özlərinə Allahdan başqa heç bir dost və heç bir yardımçı tapa bilməzlər.

**18, 19.** Şübhəsiz, Allah aranızdan savaşdan yayındıranları və qardaşlarına: "Bizə gəlin", – deyənləri bilir. Sizə qatılmaqda xəsis davranaraq savaşa çox az gələrlər. Qorxu gəldikdə üstünə ölüm halsızlığı çökmüş kimsə kimi gözləri dönərək sənə baxdıqlarını görərsən. Qorxu getdikdə isə qənimətə qarşı hədsiz hərislik göstərərək acı dillərlə sizi incidərlər. Onlar iman etmədilər. Allah da onların əməllərini puça çıxardı. Bu, Allah üçün asandır.

**20.** Düşmən birliklərinin getmədiyini zənn edirlər. Düşmən birlikləri (bir daha) gələsi olsa, istəyərlər ki, (səhrada) bədəvilərin arasında olsunlar, sizə dair xəbərləri (gəlib gedənlərdən) soruşsunlar. Aranızda olsaydılar da, çox az savaşardılar.

**21.** And olsun, Allahın rəsulunda sizin üçün; Allaha və axirət gününə qovuşmağa ümid bəsləyən, Allahı çox zikr edən kimsələr üçün gözəl bir örnək var.

**22.** Möminlər düşmən birliklərini gördükdə: "Bu, Allahın və Rəsulunun bizə vəd etdiyi şeydir. Allah və Rəsulu doğru söyləmişlər", – dedilər. Bu, ancaq onların imanlarını və təslimiyyətlərini artırdı.

**23.** Möminlərdən elə adamlar var ki, Allaha verdikləri sözə sadiq qaldılar. Onlardan bir qismi verdikləri sözü yerinə yetirmişdir (şəhid olmuşdur). Bir qismi isə (şəhid olmağı) gözləyir. Verdikləri sözü əsla dəyişdirməmişlər.

---

dinəni mühasirəyə almış, müsəlmanlar isə müdafiə məqsədilə şəhərin strateji yerində xəndək qazmışdılar. Nəhayət, bir gecə şiddətlə əsən fırtına nəticəsində düşmən dağılaraq çəkilmək məcburiyyətində qalmışdı.

1 Ayədə Xəndək (Əhzab) savaşı boyunca həzrət Peyğəmbər tərəfindən savaşa çağırıldıqları zaman bəhanə gətirib döyüşdən geri qalmaq istəyənlər düşmən tərəfindən fitnə-fəsad törətməyə çağrılsaydılar, dərhal buna əl atardılar deyilərək üzrxahlıq bildirmələrində səmimi olmadıqlarına işarə edilir.

24. Bunun belə olması Allahın doğruları doğruluqları səbəbi ilə mükafatlandırması, istəsə münafiqlərə əzab verməsi yaxud onların tövbəsini qəbul etməsi üçündür. Həqiqətən, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

25. Allah inkar edənləri heç bir xeyrə nail olmadan kin və qəzəbləri ilə geri çevirdi. Allah savaşda möminlərə kifayət etdi. Allah qüvvətlidir, mütləq güc sahibidir.

26. Allah kitab əhlindən olub müşriklərə yardım edənləri qalalarından endirdi və qəlblərinə böyük bir qorxu saldı. Siz onların bir qismini öldürür, bir qismini isə əsir edirsiniz.

27. Allah sizi onların torpaqlarına, yurdlarına, mallarına və hələ ayaq basmadığınız torpaqlara varis etdi. Allah hər şeyə haqqı ilə qadirdir.

28. Ey Peyğəmbər! Xanımlarına de ki: "Əgər dünya həyatını və onun bəzəyini istəyirsinizsə, gəlin sizə mütə[1] verim və sizi gözəl bir şəkildə buraxım".

29. "Əgər Allahı, Rəsulunu və axirət yurdunu istəyirsinizsə, bilin ki, Allah sizdən yaxşılıq edənlərə böyük bir mükafat hazırlamışdır".

30. Ey Peyğəmbərin xanımları! Sizdən kim açıq-aşkar çirkin bir iş görsə, onun cəzası ikiqat verilər. Bu, Allaha görə asandır.

31. Sizdən kim Allaha və Rəsuluna itaət edər və saleh bir əməl işlərsə, ona mükafatını ikiqat verərik. Biz onun üçün bərəkətli bir ruzi hazırlamışıq.

32. Ey Peyğəmbərin xanımları! Siz qadınlardan hər hansı biri kimi deyilsiniz. Əgər Allaha qarşı gəlməkdən çəkinirsinizsə, (kişilərlə danışarkən) sözü yumşaq bir əda ilə söyləməyin ki, qəlbində xəstəlik (pis niyyət) olan kimsə ümidə qapılmasın. Gözəl (və doğru) söz söyləyin.

33. Evlərinizdə oturun. Əvvəlki cahiliyyə dövrü qadınlarının açıq-saçıqlığı kimi siz də açıq-saçıq olmayın. Namazı qılın, zəkatı verin. Allaha və Rəsuluna itaət edin. Ey Peyğəmbərin ev əhli! Allah sizdən günah kirini silib aparmaq və sizi tərtəmiz etmək istəyir.

34. Siz evlərinizdə oxunan Allahın ayələrini və hikməti xatırlayın. Şübhəsiz, Allah ən gizli şeyi biləndir, haqqı ilə xəbərdardır.

35. Həqiqətən, müsəlman kişilərlə müsəlman qadınlar, mömin kişilərlə mömin qadınlar, itaətkar kişilərlə itaətkar qadınlar, doğru kişilərlə doğru qadınlar, səbir edən kişilərlə səbir edən qadınlar, Allaha dərindən ehtiram bəsləyən kişilərlə Allaha dərindən ehtiram bəsləyən qadınlar, sədəqə verən kişilərlə sədəqə verən qadınlar, oruc tutan kişilərlə oruc tutan qadınlar, namuslarını qoruyan kişilərlə namuslarını qoruyan qadınlar və Allahı çox zikr edən kişilərlə çox zikr edən qadınlar ki var, Allah məhz onlar üçün bağışlanma və böyük bir mükafat hazırlamışdır.

36. Allah və Rəsulu bir iş haqqında hökm verdikləri zaman heç bir mömin kişi və heç bir mömin qadın üçün öz işləri barəsində öz ixtiyarları ilə başqa bir yol tutmaq haqları yoxdur. Kim Allaha və Rəsuluna qarşı gəlsə, şübhəsiz ki, o, açıq-aşkar zəlalətə düçar olmuşdur.

---

1 Mütə ərin boşadığı arvadına verdiyi pul və ya maldır. Mövzu ilə əlaqəli olaraq bu surənin 49-cu ayəsinə baxın.

37. Xatırla ki, sən Allahın nemət verdiyi, sənin də (azad etməklə) yaxşılıq etdiyin kimsəyə: "Zövcəni nikahında saxla (onu boşama) və Allahdan çəkin", – deyirdin. Allahın aşkar edəcəyi bir şeyi içində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki Allah çəkinmənə daha layiq idi. Zeyd zövcəsinə istədiyini etdikdə (onu boşadıqda) onu səninlə evləndirdik ki, zövcələrinə istədiklərini etdikləri zaman (onları boşadıqları zaman) övladlıqlarının zövcələri ilə evlənmələri barəsində möminlərə bir çətinlik olmasın.[1]

38. Allahın vacib buyurduğu şeyləri yerinə yetirməsində peyğəmbərə bir günah yoxdur. Daha əvvəl gəlib keçən peyğəmbərlər haqqında da Allahın qanunu belədir. Allahın əmri mütləq yerinə yetəcəkdir.

39. Daha əvvəl gəlib keçən o peyğəmbərlər Allahın vəhylərini təbliğ edən, Allahdan başqa heç kəsdən qorxmayan kimsələrdir. Hesaba çəkən olaraq Allah yetər.

40. Muhamməd aranızdakı kişilərdən hər hansı birinin atası deyil. Lakin o, Allahın Rəsulu və nəbilərin sonuncusudur. Allah hər şeyi haqqı ilə biləndir.

41. Ey iman edənlər! Allahı çox zikr edin.

42. Onu səhər-axşam təsbih edin.

43. O, sizi qaranlıqlardan aydınlığa çıxarmaq üçün sizə mərhəmət edən, mələkləri də sizin üçün bağışlanma diləyəndir. Allah möminlərə çox mərhəmət edəndir.

44. Allaha qovuşacaqları gün onların xeyir-duaları "salam"dır. Allah onlara bol mükafat hazırlamışdır.

45, 46. Ey Peyğəmbər! Biz səni bir şahid, bir müjdəçi, bir xəbərdar edən, Allahın izni ilə Onun yoluna çağıran bir dəvətçi və nur saçan bir çıraq olaraq göndərdik.

47. Möminləri müjdələ ki, Allahdan onlar üçün böyük bir lütf var.

48. Kafirlərə və münafiqlərə itaət etmə! Onların əziyyət vermələrinə məhəl qoyma və Allaha təvəkkül et. Vəkil olaraq Allah yetər.

49. Ey iman edənlər! Mömin qadınlarla nikah bağlayıb sonra onlara toxunmadan (cinsi əlaqədə olmadan) onları boşadığınız zaman onlar üzərində sizin hesablayacağınız bir iddət haqqınız yoxdur. Bu halda onlara mütə[2] verin və onları gözəl bir şəkildə buraxın.

50. Ey Peyğəmbər! Biz sənə mehrlərini verdiyin zövcələrini, Allahın sənə qənimət olaraq verdiklərindən əlinin altında olan qadınları, səninlə birlikdə hicrət edən əmin qızlarını, bibilərinin qızlarını, dayın qızlarını və xalalarının qızlarını sənə halal etdik. Bir də digər möminlərə deyil, sadəcə sənə xas olmaq üzrə, mehrsiz olaraq

1 Bu ayədə adı çəkilən Zeyd həzrət Peyğəmbərin köləlikdən azad edərək övladlığa götürdüyü Zeyd ibn Harisədir. Həzrət Peyğəmbər onu xalasının qızı Zeynəb ilə evləndirmişdi. Ancaq aralarındakı anlaşmazlıq səbəbi ilə Zeyd həzrət Peyğəmbərin yanına gələrək həyat yoldaşını boşamaq istədiyini deyirdi. Həzrət Peyğəmbər bu boşamanın uyğun olacağını düşünməklə yanaşı dedi-qodu çıxmasından çəkindiyi üçün Zeydə boşanmamağı tövsiyə edirdi. Ancaq daha sonra Zeyd yoldaşını boşadı. Bu boşanmadan sonra Allah Zeynəbi həzrət Peyğəmbərlə evləndirdi. O vaxta qədər ərəblər övladlığı öz övladları ilə bir tutur, onların boşadıqları qadınla evlənmirdilər. Bu ayə ərəblərin həmin adətini ləğv etmişdir.

2 Mütə ərin boşadığı arvadına verdiyi pul və ya maldır. Mövzu ilə əlaqəli olaraq bu surənin 28-ci ayəsinə baxın.

özünü Peyğəmbərə bağışlayan, Peyğəmbərin də onunla nikah bağlamaq istədiyi hər hansı bir mömin qadını da (sənə halal etdik.) Zövcələri və malik olduqları cariyələr haqqında möminlərə vacib buyurduğumuz şeyləri, əlbəttə, bilirik. Bütün bunlar sənə bir çətinlik olmaması üçündür. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

51. Ey Muhamməd! Bunlardan (xanımlarından) istədiyini buraxarsan, istədiyini də yanına alarsan. Uzaq durduqlarından istədiklərini yanına almaqda da sənə bir günah yoxdur. Bu, onların gözlərinin aydın olması, məyus olmamaları və sənin onların hər birinə verdiyindən razı olmaları üçün daha münasibdir. Allah qəlblərinizi bilir. Allah haqqı ilə biləndir, həlimdir (dərhal cəzalandırmaz, möhlət verər).

52. Bundan sonra gözəllikləri xoşuna gəlsə belə, başqa qadınlarla evlənmək, zövcələrini boşayıb başqa zövcələr almaq sənə halal deyil. Ancaq sahib olduğun cariyələr istisnadır. Şübhəsiz, Allah hər şeyə nəzarət edəndir.

53. Ey iman edənlər! Yeməyə dəvət olunmadan və yeməyin bişməsini gözləmədən (vaxtlı-vaxtsız) Peyğəmbərin evlərinə girməyin, dəvət olunduğunuz zaman girin. Yeməyi yeyən kimi də dağılın. Söhbət üçün gözləməyin. Çünki bu davranışınız Peyğəmbəri narahat edir, lakin o, sizdən həya edir. Allah isə haqqı söyləməkdən həya etməz. Peyğəmbərin xanımlarından bir şey istədiyiniz zaman pərdə arxasından istəyin. Belə davranmanız həm sizin qəlbləriniz, həm də onların qəlbləri üçün daha təmizdir. Allahın rəsuluna əziyyət vermək və ondan sonra xanımları ilə evlənmək əbədiyyən sizə yaraşmaz. Çünki bu, Allah qatında böyük bir günahdır.

54. Siz bir şeyi aşkara vursanız da, gizləsəniz də, bilin ki, Allah hər şeyi haqqı ilə biləndir.

55. Peyğəmbərin xanımlarına atalarından, oğullarından, qardaşlarından, qardaşlarının oğullarından, bacılarının oğullarından, mömin qadınlardan və sahib olduqları cariyələrdən ötrü heç bir günah yoxdur. Ey Peyğəmbər xanımları! Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allah hər şeyə haqqı ilə şahiddir.

56. Həqiqətən, Allah və mələkləri Peyğəmbərə salavat gətirirlər.[1] Ey iman edənlər! Siz də Ona salavat gətirin, salam edin.

57. Şübhəsiz, Allah və Rəsulunu incidənlərə Allah dünya və axirətdə lənət etmiş və onlara alçaldıcı bir əzab hazırlamışdır.[2]

58. Mömin kişiləri və mömin qadınları işləmədikləri əməllərdən ötrü incidənlər bir böhtan və açıq-aydın bir günah yüklənmişlər.

59. Ey Peyğəmbər! Xanımlarına, qızlarına və möminlərin xanımlarına de ki, bədənlərini örtəcək libaslarını geyinsinlər. Bu, onların tanınıb incidilməmələri üçün daha münasibdir. Həqiqətən, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

60, 61. And olsun, əgər münafiqlər, qəlblərində bir xəstəlik olanlar və Mədinədə çirkin

---

1 Peyğəmbərə Allahın salavat gətirməsi rəhmət etməsi; mələklərin salavat gətirməsi şanının uca tutulmasını diləmələri; möminlərin salavat gətirməsi isə dua etmələri mənasındadır.

2 Allahı incitmək ifadəsi məcazi mənadadır. Bu ifadənin əsl mənası Allahın razı olmayacağı işlər görmək, Allaha layiq olmadığı vəsfləri isnad etməkdir.

xəbərlər yayıb aranı qarışdıranlar (bu əməllərindən) əl çəkməsələr, əlbəttə, səni onların üzərinə getməyə təşviq edəcəyik. Onlar da (bundan sonra) orada lənətə uğramış kimsələr olaraq səninlə çox az müddət qonşu qalacaqlar. Harada olsalar, yaxalanarlar və pis bir şəkildə öldürülərlər.

62. Daha əvvəl gəlib keçənlər haqqında da Allahın qanunu belədir. Allahın qanununda əsla bir dəyişiklik tapa bilməzsən.

63. İnsanlar səndən qiyamətin vaxtını soruşurlar. De ki: "Onun elmi ancaq Allah qatındadır". Nə bilirsən, bəlkə də qiyamət yaxında gerçəkləşər.

64. Şübhəsiz, Allah kafirlərə lənət etmiş və onlara alovlu bir atəş hazırlamışdır.

65. Onlar orada əbədi qalacaqlar. Heç bir dost, heç bir yardımçı tapa bilməyəcəklər.

66. Üzlərinin atəşdə bir tərəfdən bir tərəfə çevriləcəyi gün: "Kaş Allaha və Rəsuluna itaət edəydik", – deyəcəklər.

67. Həmçinin belə deyəcəklər: "Ey Rəbbimiz! Biz öndərlərimizə və böyüklərimizə itaət etdik, onlar isə bizi yoldan sapdırdılar".

68. "Ey Rəbbimiz! Onlara ikiqat əzab ver və onları böyük bir lənətə düçar et".

69. Ey iman edənlər! Siz Musaya əziyyət edən kimsələr kimi olmayın. Nəhayət, Allah onu onların dediklərindən təmizə çıxardı. Musa Allah qatında etibarlı bir kimsə idi.

70, 71. Ey iman edənlər! Allaha qarşı gəlməkdən çəkinin və doğru söz söyləyin ki, Allah sizin işlərinizi düzəltsin və günahlarınızı bağışlasın. Kim Allaha və Rəsuluna itaət edərsə mütləq böyük bir uğura nail olar.

72. Şübhəsiz, biz əmanəti göylərə, yerə və dağlara təklif etdik, onlar onu yüklənmək istəmədilər, ondan çəkindilər. Onu insan yükləndi. Çünki o, çox zalımdır, çox cahildir.[1]

73. Allah münafiq kişilərə və münafiq qadınlara, Allaha şərik qoşan kişilərə və Allaha şərik qoşan qadınlara əzab etmək, mömin kişilərin və mömin qadınların da tövbələrini qəbul etmək üçün əmanəti insana yükləmişdir. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

1 İnsanın yükləndiyi əmanət ağıl, iradə və bundan irəli gələn məsuliyyətlərdir. İnsan öz iradəsi ilə yaxşı və pis arasında seçim edərkən yaxşını seçmədiyi zaman həm özünə, həm də ətrafındakılara zülm edər və cəhalətə düşər. Bu ayədə insanın bir xüsusiyyətinə diqqət çəkilərək onun adətən əmanətə riayət məsələsində vəfasızlıq etməyə yaxın olduğuna işarə edilir.

# 34. SƏBƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 54 ayədən ibarətdir. Surənin adı 15-ci ayədə keçən "Səbə" sözündən götürülmüşdür. Səbə Yəməndə bir bölgənin və ya bir qəbilənin adıdır. Surədə başlıca olaraq müşriklərin axirəti inkar etmələri, Davud və Süleyman peyğəmbərlərin qissələri və müşriklərin həzrət Muhammədin peyğəmbərliyi haqqındakı bəzi şübhələrindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Həmd göylərdəki və yerdəki hər şeyin sahibi olan Allaha məxsusdur. Həmd axirətdə də Ona məxsusdur. O, hökm və hikmət sahibidir, (hər şeydən) haqqı ilə xəbərdardır.
2. Allah yerə girəni, yerdən çıxanı, göydən enəni və oraya yüksələni bilir. O, çox mərhəmət edəndir, çox bağışlayandır.
3. İnkar edənlər: "Qiyamət bizə gəlməyəcək", – dedilər. De ki: "Xeyr, elə deyil. Qeybi bilən Rəbbimə and olsun ki, qiyamət sizə mütləq gələcəkdir. Nə göylərdə, nə də yerdə zərrə ağırlığında bir şey belə Ondan gizli qalmaz. Bundan daha kiçik və daha böyük nə varsa, hamısı açıq-aydın bir kitabdadır".
4. Allahın iman edib saleh əməl işləyənləri mükafatlandırması üçün (hər şey o kitabda qeyd olunmuşdur). Məhz onlar üçün bir bağışlanma və bərəkətli bir ruzi var.
5. Ayələrimizi etibarsız etmək üçün yarışarcasına cəhd göstərənlər ki var, onlar üçün ağrılı-acılı, çox pis bir əzab var.
6. Elm verilənlər Rəbbindən Sənə endirilən Qur`anın haqq olduğunu və onun mütləq güc sahibi və tərifə layiq Allahın yoluna yönəltdiyini görürlər.
7. Yenə inkar edənlər dedilər: "Çürüyüb ovxalandıqdan sonra sizin yenidən diriləcəyinizi söyləyən bir adamı sizə göstərəkmi?"
8. "Allaha qarşı yalan uydurdu, yoxsa o, dəlidir?" Xeyr, elə deyil! Axirətə inanmayanlar əzab və dərin sapqınlıq içindədirlər.
9. Onlar önlərindəki və arxalarındakı (onları dörd bir tərəfdən əhatə edən) göyə və yerə baxmadılarmı? Əgər istəsək, onları yerə batırar və ya göydən onların üstünə parçalar endirərik. Rəbbinə yönələn hər bir qul üçün bunda bir ibrət var.

10, 11. And olsun, Davuda tərəfimizdən bir lütf verdik. "Ey dağlar və quşlar! Onunla birlikdə təsbih edin", – dedik və (bütün vücudu örtəcək) zirehlər düzəlt, işdə də ölçülü ol deyə dəmiri onun üçün yumşaltdıq. "Saleh əməl işləyin. Çünki Mən sizin etdiklərinizi görürəm", – deyə vəhy etdik.

12. Süleymanın əmrinə də səhər əsməsi bir ay, axşam əsməsi də bir ay(lıq yol) olan küləyi verdik. Ərimiş mis mədənini də onun üçün sel kimi axıtdıq. Cinlərdən də Rəbbinin izni ilə onun önündə çalışanlar var idi. Onlardan kim bizim əmrimizdən çıxarsa, ona alovlu odun əzabını daddırarıq.
13. Cinlər Süleyman üçün istədiyi şəkildə qalalar, heykəllər, hovuz kimi çanaqlar və

sabit qazanlar düzəldirdilər. Ey Davud ailəsi, şükür edin! Qullarımdan şükür edənlər çox azdır.

14. Süleymanın ölümünə hökm verdiyimiz zaman onun ölümünü onlara ancaq əsasını yeyən bir qurd göstərdi. Süleymanın cəsədi yıxıldıqda cinlər anladılar ki, əgər qeybi bilsəydilər, alçaldıcı əzab içində qalmazdılar.

15. And olsun, Səbə[1] xalqı üçün öz yurdlarında bir ibrət var idi: Biri sağda, biri solda iki bağça var idi. Onlara belə deyilmişdi: "Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin. Yurdunuz gözəl bir yurd, Rəbbiniz də çox bağışlayan bir Rəbdir".

16. Lakin onlar üz çevirdilər. Biz də onların üzərinə Ərim[2] selini göndərdik. Onların bağçalarını turş meyvəli, acı yulğun və sidr ağacı olan iki bağçaya çevirdik.

17. Nemətlərə qarşı nankorluq etmələri səbəbi ilə onları belə cəzalandırdıq. Biz (bu şəkildə) ancaq nankorları cəzalandırırıq.

18. Səbə xalqı ilə bərəkətləndirdiyimiz şəhərlər arasında (hər biri digərindən) görünən şəhərlər yaratdıq. Oralarda səyahəti asanlaşdırdıq və onlara da belə dedik: "Oralarda gecə-gündüz əmin-amanlıq içində gəzib dolaşın".

19. Onlar isə: "Ey Rəbbimiz! Səfərlərimizin mənzilləri arasını uzaqlaşdır",[3] – dedilər və özlərinə zülm etdilər. Biz də onları ibrətlik qissələrə çevirdik və onları darmadağın etdik. Şübhəsiz ki, çox səbir edən, çox şükür edən hər kəs üçün bunda ibrətlər var.

20. İblis onlar haqqındakı zənnini doğru çıxardı.[4] İnananlardan bir dəstə xaric hamısı ona uydu.

21. Halbuki şeytanın onlar üzərində heç bir hakimiyyəti yox idi. Ancaq biz axirətə inananları onun barəsində şübhədə olanlardan ayırd edək deyə (ona bu fürsəti verdik). Sənin Rəbbin hər şey üzərində həqiqi bir qoruyucudur.

22. (Ey Muhamməd!) De ki: "Allahdan başqa ilah olduğunu iddia etdiklərinizi çağı-

---

1 Səbə Yəməndəki bir bölgənin qədim adıdır. Məhsuldar torpaqlara sahib olan bu bölgədə yaşayan xalq çox zəngin və firavan həyat yaşayırdı. Gözoxşayan bağları və bağçaları vardı. Yağış suyunu su anbarlarında toplayaraq suvarma istifadə edirdilər. Zaman keçdikcə doğru yoldan sapdılar. Haqq dindən üz çevirdilər. Allah onların üzərinə "Ərim" selini göndərərək onları cəzalandırdı, beləliklə, parçalanaraq zəif və gücsüz halda ətrafa dağıldılar.

2 Təfsir alimlərinə görə, "Ərim" şiddətli yağışdan meydana gələn sel, bir vadi və ya su səddidir.

3 Əvvəlki ayələrdə də işarə edildiyi kimi səbəlilər Allahın bəxş etdiyi nemətlər içərisində rahat bir həyat yaşayır, ticarət və səyahət məqsədilə çıxdıqları səfərlərdə heç bir təhlükə ilə qarşılaşmırdılar. Təfsir mənbələrinə görə, bu təhlükəsizlik müəyyən məsafələrdə yerləşən düşərgə və yaxud məskənlər sayəsində idi. Sahib olduqları nemətlərin dəyərini bilməyib nankorluq edən bu xalq xüsusilə təhlükəsizlik ünsürü olan bu düşərgə və məskənlərin bu funksiyasını görməzdən gəlmiş, "bu məsafələr uzaq olsa da bizə yenə də ziyanı olmaz" anlayışından çıxış edərək Allaha ayədə ifadə edilən istəklərini bildirmişlər. Sanki "Çətinlik nədir, bir az da onu görək" mənasına gələn bir münasibət nümayiş etdirmişlər.

4 Allahın əmrinə qarşı çıxan İblis sapqın hala düşüb Allahın rəhmətindən əbədiyyən uzaqlaşmağa məhkum olduqda Allaha: "Rəbbim! Məni azdırdığına görə and olsun ki, yer üzündə pislikləri onlara gözəl göstərəcəyəm, aralarından ixlaslı qulların xaric onların hamısını azdıracağam", – demişdi (Hicr, 15/39-40). Bu ayədə həmin hadisəyə istinad edilərək İblisin həmin istəyini səbəlilər haqqında həyata keçirdiyinə işarə olunur.

rın. Onlar göylərdə və yerdə zərrə qədər bir şeyə sahib deyillər. Onların yerdə və göydə heç bir ortaqlıqları yoxdur. Allahın onlardan bir yardımçısı da yoxdur".

23. Allah qatında Onun izin verdiyi kimsədən başqasının şəfaəti fayda verməz. (Şəfaət üçün izin verilib) qəlblərindən qorxu çıxarılınca bir-birilərindən: "Rəbbiniz nə söylədi?" – deyə soruşarlar. Onlar isə: "Haqqı", – deyə cavab verərlər. O, ucadır, böyükdür.

24. De ki: "Sizə göylərdən və yerlərdən kim ruzi verir?" De ki: "Allah. Elə isə ya biz hidayət və ya açıq-aşkar bir zəlalət üzrəyik, ya da siz".

25. De ki: "Bizim işlədiyimiz günahlardan siz məsul tutulmazsınız. Sizin işlədiklərinizdən də biz məsul tutulmarıq".

26. De ki: "Rəbbimiz hamımızı qiyamət günü bir yerə toplayacaq, sonra da aramızda haqq ilə hökm verəcək. O, haqqı açıq-aşkar ortaya qoyan,[1] haqqı ilə biləndir".

27. De ki: "Allaha şərik qoşduqlarınızı mənə göstərin! Xeyr! (Heç bir şey Allaha şərik ola bilməz.) Əksinə O, mütləq güc sahibi, hökm və hikmət sahibi Allahdır".

28. Biz səni ancaq bütün insanlara müjdələyən və xəbərdar edən olaraq göndərdik. Lakin insanların çoxu bilməzlər.

29. "Əgər doğru söyləyənlərsinizsə, bu təhdid nə vaxt gerçəkləşəcək?" – deyirlər.

30. De ki: "Sizin üçün müəyyən olunmuş bir gün var ki, ondan nə bir saat geri qalar bilərsiniz, nə də irəli keçə bilərsiniz".

31. İnkar edənlər: "Biz nə bu Qur`ana, nə də ondan əvvəlki kitablara əsla inanmarıq", – dedilər. Zalımlar Rəblərinin hüzurunda dayandıqları zaman sən onların halını bir görəydin! Bir-birilərinə söz qaytarıb durarlar. Zəif və gücsüz görülənlər özlərini üstün tutanlara: "Siz olmasaydınız, şübhəsiz, biz iman edən kimsələr olardıq", – deyərlər.

32. Özlərini üstün tutanlar isə zəif və gücsüz görülənlərə: "Siz hidayətə gəldikdən sonra sizi bizmi ondan yayındırdıq? Xeyr, günahkar siz idiniz", – deyərlər.

33. Zəif və gücsüz görülənlər özlərini üstün tutanlara: "Xeyr, bizi hidayətdən sapdıran sizin gecə və gündüz qurduğunuz hiylələrdir. Çünki siz bizə Allahı inkar etməyi və Ona şəriklər qoşmağı əmr edirdiniz", – deyərlər. Əzabı gördükdə isə için-için peşmanlıq keçirərlər. Biz də inkar edənlərin boynuna dəmir halqalar keçirdərik. Onlar sadəcə etdiklərinin cəzasını görəcəklər.

34. Biz hansı məmləkətə bir xəbərdar edən göndərdiksə, oranın dikbaş zənginləri: "Biz sizinlə göndəriləni inkar edirik", – dedilər.

35. Yenə: "Bizim mallarımız və övladlarımız daha çoxdur. Bizə əzab verilməyəcək", – dedilər.

36. Ey Muhamməd de ki: "Şübhəsiz, Rəbbim istədiyinə ruzini bol verər və (istədiyindən də) azaldar. Lakin insanların çoxu bilməz".

37. Sizi bizim qatımıza daha çox yaxınlaşdıran nə mallarınız, nə də övladlarınızdır. Ancaq iman edib saleh əməl işləyənlər istisnadır. Onlar üçün işlədikləri əməllə-

1 Ayənin bu hissəsi "O, ən adil hökm verəndir" şəklində də tərcümə oluna bilər.

rin qarşılığı olaraq qat-qat mükafat var. Onlar cənnət köşklərində əmin-amanlıq içindədirlər.

38. Ayələrimizi batil çıxarmaq üçün yarışanlar ki var, onlar əzab üçün hazır tutulacaqlar.

39. De ki: "Şübhəsiz, Rəbbim qullarından istədiyinə ruzini bol verər və (istədiyindən də) azaldar. Allah yolunda hər nə xərcləsəniz, Allah onun əvəzinə başqasını verər. O, ruzi verənlərin ən xeyirlisidir".

40. Allahın onların hamısını bir yerə toplayacağı, sonra da mələklərə: "Bunlarmı sizə ibadət edirdilər?" – deyəcəyi günü bir xatırla!

41. (Mələklər): "Səni nöqsanlardan uzaq tuturuq. Onlar deyil, Sən bizim dostumuzsan. Xeyr, onlar cinlərə ibadət edirdilər. Onların çoxu cinlərə inanırdı", – deyərlər.

42. Bu gün bir-birinizə nə xeyir verə bilərsiniz, nə də zərər. Zülm edənlərə: "Yalan saydığınız cəhənnəm əzabını dadın", – deyərik.

43. Ayələrimiz onlara açıq-aşkar oxunduğu zaman: "Bu, sadəcə sizi atalarınızın ibadət etdiyi şeylərdən yayındırmaq istəyən bir adamdır", – dedilər. Bir də: "Bu (Qur`an) uydurulmuş bir yalandır", – dedilər. Yenə haqq onlara gəldiyi zaman onu inkar edənlər: "Bu yalnız açıq-aşkar bir sehrdir", – dedilər.

44. Halbuki biz onlara oxuyub öyrənəcəkləri kitablar vermədik. Onlara səndən öncə heç bir xəbərdar edən də göndərmədik.

45. Onlardan əvvəlkilər də təkzib etmişdilər. Halbuki bunlar onlara verdiyimiz şeylərin onda birinə belə nail olmamışdılar. Elçilərimi yalançı saydılar. Bəs məni inkar etməyin nəticəsi necə oldu!

46. (Ey Muhamməd!) De ki: "Mən sizə ancaq bir öyüd verirəm; Allah üçün iki-iki, bir-bir qalxın, sonra düşünün. Yoldaşınız Muhamməddə divanəlikdən bir əsər yoxdur. O, şiddətli bir əzabdan öncə sizin üçün sadəcə bir xəbərdar edəndir".[1]

47. De ki: "Sizdən hər hansı bir muzd istəmişəmsə, o sizin olsun. Mənim mükafatım ancaq Allaha aiddir. O, hər şeyə haqqı ilə şahiddir".

48. De ki: "Şübhəsiz, Rəbbim haqqı meydana çıxarar. O, qeybləri haqqı ilə biləndir".

49. De ki: "Haqq gəldi. Artıq batil nə ortaya yeni bir şey çıxara bilər, nə də keçmişi geri qaytara bilər".

50. De ki: "Əgər mən sapsam, ancaq öz əleyhimə sapmış olaram. Əgər hidayətə nail olmuşamsa, bu da Rəbbimin mənə vəhy etdiyi sayəsindədir. Şübhəsiz, O, haqqı ilə eşidəndir, quluna çox yaxındır".

51. Kaş sən onları dəhşətli bir qorxuya qapıldıqları zaman görəydin. Artıq qaçıb qurtulmağa imkan yoxdur və onlar yaxın bir yerdən yaxalanmışlar.

---

1 Təfsir alimlərinin fikirlərinə əsasən ayə belə izah oluna bilər: Allah üçün riyadan və nəfsin arzusundan uzaq bir şəkildə, səmimiyyətlə bir-bir iki-iki qalxın, hərəkətə keçin, həqiqətə çatmaq üçün bir-birinizdən: "Yoldaşınız Muhamməddə dəlilik varmı" -, deyə soruşun, sonra düşünün, görəcəksiniz ki, onda dəlilikdən əsər yoxdur.

52. (Əzabı gördükdə:) “Ona inandıq”, – deyərlər. Ancaq onlar üçün uzaq bir yerdən (dünyadan)[1] iman əldə etmək necə mümkün ola bilər?

53. Halbuki daha əvvəl onu inkar etmişdilər və uzaq bir yerdən qeyb haqqında bilmədiklərini danışırdılar.

54. Eynilə daha əvvəl onların bənzərlərinə edildiyi kimi, onlarla arzu etdikləri arasına bir əngəl qoyulmuşdur. Çünki onlar dərin bir şübhə içində idilər.

## 35. FATİR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 45 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən “fatir” sözündən götürülmüşdür. Fatir yaradan, yoxdan var edən deməkdir. Bu surəyə yenə ilk ayədə keçən “əl-məlaikə” sözündən ötrü “Məlaikə surəsi” də deyilmişdir. Surədə başlıca olaraq Allahın varlığına və birliyinə dəlalət edən kainat hadisələri, öldükdən sonra dirilmə, Allahın nemətləri və möminlə kafir arasındakı fərq kimi mövzulardan bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Həmd göyləri və yeri yaradan, mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allaha məxsusdur. O, yaratmada istədiyini artırar. Şübhəsiz, Allahın gücü hər şeyə haqqı ilə yetər.

2. Allahın insanlara bəxş etdiyi rəhmətə heç kim mane ola bilməz. O, nəyi də tutub saxlasa, bundan sonra onu heç kim göndərə bilməz. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

3. Ey insanlar! Allahın sizə olan nemətini xatırlayın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir yaradıcı varmı? Ondan başqa heç bir ilah yoxdur. O halda necə olur ki, haqdan döndərilirsiniz?

4. (Ey Muhamməd!) Əgər səni yalançı sayırlarsa, bil ki, səndən əvvəl də neçə-neçə peyğəmbərlər yalançı sayılmışdır. Bütün işlər ancaq Allaha döndərilir.

5. Ey insanlar! Həqiqətən, Allahın vədi haqdır. Dünya həyatı sizi aldatmasın. Çox aldadıcı (Şeytan) sizi Allah haqqında aldatmasın.

6. Həqiqətən, şeytan sizin üçün bir düşməndir. Elə isə (siz də) onu düşmən bilin. O, öz tərəfdarlarını cəhənnəm əhlindən olmağa çağırır.

7. İnkar edənlər üçün çətin bir əzab var. İman edib saleh əməllər işləyənlər üçün isə bir bağışlanma və böyük bir mükafat var.

8. Pis əməli özünə süslü göstərilib onu gözəl görən kimsə əməli yaxşı olan kimsə kimi olacaq? Şübhəsiz, Allah istədiyini sapdırar, istədiyini hidayətə çatdırar. (Ey Muhamməd!) Onlar üçün çəkdiyin üzüntülərlə özünü həlak etmə! Şübhəsiz ki, Allah onların etdiklərini haqqı ilə biləndir.

9. Allah küləkləri göndərəndir. Onlar da buludları hərəkət etdirir. Biz də buludları

1 İman etməyin lazımlı və keçərli olduğu yer dünya həyatıdır. Ayədə imansız olaraq ölən bir kimsənin yenidən dünya həyatına qayıdaraq iman etməsinin mümkün olmadığı vurğulanır.

ölü bir torpağa tərəf sürükləyər və onunla ölümündən sonra yer üzünü dirildərik. Ölümdən sonra diriliş də belədir.

10. Hər kim şan və şərəf istəyirsə, bilsin ki, şan və şərəf tamamilə Allaha aiddir. Gözəl sözlər ancaq Ona yüksəlir. Saleh əməli də gözəl sözlər yüksəldir.[1] Hiyləgərcəsinə pis əməllər törədənlər ki var, onlar üçün çətin bir əzab var. Onların hiyləsi boşa çıxar.

11. Allah sizi əvvəlcə torpaqdan, sonra da azacıq sudan (mənidən) yaratdı. Sonra sizi (erkəkli-dişili) zövcələr etdi. Allahın elmi xaricində nə bir dişi hamilə qala bilər, nə də doğa bilər. Ömrü uzadılan, yaxud ömrü qısaldılan elə bir kəs yoxdur ki, bir kitabda (Lövhi-məhfuzda yazılı) olmasın. Şübhəsiz, bu, Allah üçün asandır.

12. İki dəniz eyni olmaz. Bu şirindir, susuzluğu aparır, içilməsi rahatdır. Bu isə duzludur, acıdır. Bununla belə onların hər birindən təzə ət yeyirsiniz və taxacağınız zinət əşyaları çıxarırsınız. Allahın lütfündən istəməniz və şükür etməniz üçün gəmilərin orada suyu yara-yara getdiyini görürsən.

13. Allah gecəni gündüzün içinə qatar, gündüzü də gecənin içinə qatar. Günəşi və Ayı da qoyduğu qanunlara ram etmişdir. Hər biri müəyyən bir vaxta qədər axıb gedirlər. Bu, Allahdır, sizin Rəbbinizdir. Mülk yalnız Onundur. Allahı buraxıb tapındıqlarınız bir çəyirdək qabığına belə hökm edə bilməzlər.

14. Əgər onları çağırsanız, çağırışınızı eşitməzlər. Eşitsələr belə çağırışınıza cavab verə bilməzlər. Qiyamət günü də sizin (onları) şərik qoşduğunuzu inkar edərlər. Bunları sənə heç kim haqqı ilə xəbərdar olan (Allah) kimi xəbər verə bilməz.

15. Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə hər baxımdan sonsuz zəngin olandır, haqqı ilə tərifə layiq olandır.

16. Əgər Allah istəsə, sizi yox edər və yeni bir xalq gətirər.

17. Bu, Allaha görə çətin bir iş deyil.

18. Heç bir günahkar başqa bir günahkarın yükünü yüklənməz. Günah yükü ağır olan bir kimsə günahını yüklənmək üçün (bir başqasını) çağırsa, çağırdığı kimsə yaxını olsa belə, o yükdən heç bir şey yüklənilməz. Sən ancaq görmədikləri halda Rəblərindən qorxanları və namaz qılanları xəbərdar edə bilərsən. Kim təmizlənsə, ancaq özü üçün təmizlənmiş olar. Dönüş ancaq Allahadır.

19. Kor ilə görən bir olmaz.

20. Qaranlıqlar ilə aydınlıq bir olmaz.

21. Kölgə ilə isti bir olmaz.

22. Dirilər ilə ölülər də bir olmaz. Allah istədiyinə eşitdirər. Sən qəbirdə olanlara eşitdirə bilməzsən.

23. Sən ancaq bir xəbərdar edənsən.

24. Şübhəsiz, Biz səni müjdələyən və xəbərdar edən olaraq haqq ilə göndərdik. Elə bir ümmət yoxdur ki, aralarından bir xəbərdar edən gəlib-keçməsin.

---

1 "Gözəl sözlər" kəlmeyi-tövhid və kəlmeyi-şəhadətdir.

25. (Ey Muhamməd!) Əgər səni yalançı sayırlarsa, bil ki, onlardan əvvəlkilər də peyğəmbərlərini yalançı saymışdılar. Halbuki peyğəmbərləri onlara açıq-aydın dəlilləri, səhifələri və aydınladan kitabı gətirmişdilər.

26. Sonra Mən inkar edənləri yaxaladım. Məni inkar etməyin axırı (gör) necə oldu!

27. Görmürsənmi ki, Allah göydən su endirdi? Biz onunla növbənöv məhsullar çıxardıq. Dağlardan isə ağ, qırmızı (bir-birindən fərqli) müxtəlif rənglərdə yollar (təbəqələr) var, qapqara daşlar da var.

28. İnsanlardan (yer üzündə) hərəkət edən (digər) canlılardan və heyvanlardan bu cür müxtəlif rənglərdə olanlar var. Allaha qarşı ancaq qulları arasından alim olanlar dərin ehtiram duyarlar. Şübhəsiz, Allah mütləq güc sahibidir, çox bağışlayandır.

29. Şübhəsiz, Allahın kitabını oxuyanlar, namazı qılanlar və onlara ruzi olaraq verdiklərimizdən Allah yolunda gizli və aşkar xərcləyənlər əsla zərərə uğramayacaq bir ticarət uma bilərlər.

30. Allah onlara mükafatlarını tam olaraq versin və öz lütfündən daha da artırsın deyə (belə edərlər). Həqiqətən, O, çox bağışlayandır, şükrün qarşılığını verəndir.

31. (Ey Muhamməd!) Sənə vəhy etdiyimiz kitab (Qur`an) özündən öncəkini təsdiq edən[1] haqq kitabdır. Şübhəsiz, Allah qullarından haqqı ilə xəbərdardır. Onları haqqı ilə görür.

32. Sonra biz o kitabı qullarımızdan seçdiyimiz kimsələrə (Muhammədin ümmətinə) miras olaraq verdik. Onlardan özünə zülm edənlər var. Onlardan ortada olanlar var. Yenə onlardan Allahın izni ilə xeyirli işlərdə önə keçənlər var. Bu, böyük lütfdür.

33. Onlar Ədn cənnətlərinə daxil olarlar. Orada qızıl bilərziklər və incilərlə bəzənərlər. Oradakı libasları isə ipəkdir.

34. Onlar belə deyərlər: "Həmd bizdən hüznü uzaq edən Allaha məxsusdur. Şübhəsiz, Rəbbimiz çox bağışlayandır, şükrün qarşılığını verəndir".

35. "O, öz lütfü ilə bizi qalacağımız yurda yerləşdirəndir. Biz orada nə yorularıq, nə də usanarıq".

36. İnkar edənlər üçün isə cəhənnəm atəşi var. Öldürülməzlər ki, ölsünlər. Onlardan cəhənnəm əzabı da yüngülləşdirilməz. Biz hər bir nankoru belə cəzalandırırıq.

37. Onlar cəhənnəmdə: "Ey Rəbbimiz! Bizi buradan çıxar ki, dünyada ikən işlədiyimiz əməllərdən başqa saleh əməllər işləyək", – deyə fəryad edərlər. (Onlara belə deyilər:) "Sizi düşünüb öyüd götürəcək kimsənin düşünüb öyüd götürə biləcəyi qədər yaşatmadıqmı? Sizə xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı. Çünki zalımlar üçün heç bir yardımçı yoxdur".

38. Şübhəsiz, Allah göylərin və yerin qeybini biləndir. Şübhəsiz, O, qəlblərdə olanı haqqı ilə biləndir.

39. O, sizi yer üzündə xəlifələr edəndir. Artıq kim inkar edərsə, inkarı öz əleyhinədir.

1 Qur`anın özündən əvvəlki kitabları (Tövrat və İncili) təsdiq etməsi bu kitabların əslləri, orijinalları ilə əlaqəlidir.

İnkarçıların inkarı Rəbləri qatında ancaq düçar olacaqları əzabı artırar. İnkarçıların inkarı ancaq ziyanlarını artırar.

40. De ki: "Allahı buraxıb tapındığınız şəriklərinizi gördünüzmü? Göstərin görüm, onlar yerdən nə yaradıblar?" Yoxsa onların göylərdə bir şərikləri var? Yoxsa onlara bir kitab vermişik, o kitabdan açıq bir dəlilə sahibdirlər? Xeyr, zalımlar bir-birilərini aldatmaqdan başqa heç bir şey vəd etməzlər.

41. Şübhəsiz, Allah göyləri və yeri yox olub getməsinlər deyə (qurduğu nizamda) tutub saxlayır. And olsun, əgər onlar (mehvərlərindən çıxıb) yox olub getsələr, Ondan başqa heç kim onları tutub saxlaya bilməz. Şübhəsiz, O, həlimdir (dərhal cəzalandırmaz, möhlət verər), çox bağışlayandır.

42. Müşriklər əgər özlərinə bir xəbərdar edən gəlsə, başqa ümmətlərdən daha çox doğru yolda olacaqlarına dair ən güclü şəkildə Allaha and vermişdilər. Lakin onlara bir xəbərdar edən gəldikdə bu, ancaq onların nifrətlərini artırdı.

43. Yer üzündə təkəbbür göstərmək və məkrli əməl törətmək üçün (belə edirdilər). Halbuki məkrli əməl ancaq öz sahibini yaxalayar. Onlar ancaq əvvəlkilərin başına gələn adəti gözləyirlər. Sən Allahın adətində heç bir dəyişiklik görə bilməzsən. Sən Allahın adətində heç bir pozulma da görə bilməzsən.

44. Yer üzündə dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğuna nəzər yetirmədilərmi? Halbuki onlar bunlardan daha qüvvətli idilər. Nə göylərdə, nə yerdə Allahı aciz buraxacaq heç bir şey yoxdur. Şübhəsiz, O, haqqı ilə biləndir, haqqı ilə qüdrət sahibidir.

45. Əgər Allah insanları qazandıqları səbəbi ilə dərhal cəzalandırsaydı, yer üzündə heç bir canlını (sağ) buraxmazdı. Lakin onları müəyyən bir vaxta qədər gecikdirir. Nəhayət, onların vaxtı yetişdikdə (hər kəsə öz əməlinin qarşılığını verər). Çünki Allah qullarını haqqı ilə görür.

## 36. YASİN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 83 ayədən ibarətdir. Surənin adı ilk ayədəki "Yə-Sin" hərflərindən götürülmüşdür. Surədə başlıca olaraq insanın əxlaqi öhdəlikləri, vəhy, həzrət Peyğəmbəri inkar edən Qüreyş qəbiləsi, Antakiya xalqına göndərilən peyğəmbərlər, Allahın birliyini və qüdrətini göstərən dəlillər, öldükdən sonra dirilmə, hesab və cəza kimi mövzular yer alır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Yə Sin.[1]

2, 3, 4. (Ey Muhamməd!) Hikmət dolu Qur`ana and olsun ki, sən, həqiqətən, doğru yol üzrə (peyğəmbər) göndərilənlərdənsən.

5, 6. Qur`an ataları xəbərdar olunmamış, bu səbəblə də qəflət içində olan bir qövmü

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

xəbərdar edəsən deyə mütləq güc sahibi, çox mərhəmətli olan Allah tərəfindən nazil edilmişdir.

7. And olsun, onların çoxuna o söz (əzab) haqq olmuşdur. Artıq onlar iman etməzlər.

8. Onların boyunlarına dəmir halqalar keçirdik, o halqalar onların çənələrinə dirənmişdir. Bu səbəblə başları yuxarı qalxmış haldadır.

9. Biz onların önlərinə bir sədd, arxalarına da bir sədd qoyub gözlərinə pərdə çəkdik. Artıq görməzlər.

10. Sən onları xəbərdar etsən də, etməsən də onlar üçün birdir, inanmazlar.

11. Sən ancaq Zikrə (Qur`ana) tabe olanı və görmədiyi halda Rəhmandan qorxan kimsəni xəbərdar edə bilərsən. Sən onu bir bağışlanma və gözəl bir mükafatla müjdələ.

12. Şübhəsiz, Biz ölüləri mütləq dirildərik. Onların etdiklərini və qoyub getdikləri əsərlərini yazarıq. Biz hər şeyi açıq-aydın bir kitabda (Lövhi-məhfuzda) bir-bir qeyd etmişik.

13. (Ey Muhamməd!) Onlara o məmləkət əhlini misal çək. Bir vaxt onlara elçilər gəlmişdi.

14. Biz onlara iki elçi göndərmişdik, onları yalançı saymışdılar. Biz də onları üçüncü bir elçi ilə dəstəkləmişdik. Onlar: “Həqiqətən, biz sizə göndərilən elçilərik”, – dedilər.

15. Onlar belə dedilər: “Siz də sadəcə bizim kimi insansınız. Rəhman heç bir şey endirməmişdir. Siz sadəcə yalan danışırsınız”.

16. (Elçilər isə) belə dedilər: “Rəbbimiz, həqiqətən, bizim sizə göndərilən elçilər olduğumuzu bilir”.

17. “Bizim öhdəmizə düşən sadəcə açıq-aşkar təbliğdir”.

18. Dedilər ki: “Həqiqətən, biz sizin ucbatınızdan uğursuzluğa düçar olduq. Əgər vaz keçməsəniz, sizi mütləq daşqalaq edəcəyik və tərəfimizdən sizə ağrılı-acılı bir əzab toxunacaq”.

19. Elçilər isə: “Uğursuzluğunuz sizin özünüzdəndir. Sizə öyüd-nəsihət verildiyi üçün (uğursuzluğa düçar olursunuz?). Xeyr, siz həddi aşan bir qövmsünüz”, – dedilər.

20. Şəhərin o biri ucundan bir adam qaçaraq gəldi və belə dedi: “Ey qövmüm! Bu elçilərə tabe olun”.

21. “Sizdən heç bir qarşılıq istəməyən kimsələrə tabe olun, onlar doğru yolda olan kimsələrdir”.

22. “Məni yaradana mən niyə ibadət etməyim? Halbuki siz də yalnız Ona döndəriləcəksiniz”.

23. “Onu buraxıb başqa ilahlar qəbul edim? Əgər Rəhman mənə bir zərər vermək istəsə, onların şəfaəti mənə heç bir fayda verməz və məni xilas edə bilməzlər”.

24. “O təqdirdə mən mütləq açıq-aşkar bir zəlalət içində olaram”.

25. "Həqiqətən, mən sizin Rəbbinizə inandım. Gəlin məni eşidin!"
26, 27. (Qövmü onu öldürdükdə ona) belə deyildi: "Cənnətə daxil ol!" O isə: "Kaş ki, qövmüm Rəbbimin məni bağışladığını və hörmətli kəslərdən etdiyini biləydi!" – dedi.
28. Ondan sonra qövmünün üstünə (onları cəzalandırmaq üçün) göydən heç bir ordu göndərmədik. Göndərəsi də deyildik.
29. Sadəcə qorxunc bir səs oldu. Bir anda sönüb getdilər.
30. Vay o qulların halına! Onlara elə bir peyğəmbər gəlməzdi ki, ona istehza etməsinlər.
31. Onlardan əvvəl neçə-neçə nəsilləri həlak etdiyimizi, o nəsillərin də artıq onların yanına qayıtmayacaqlarını görmədilərmi?
32. Onların hamısı mütləq toplanıb (sorğu-sual üçün) hüzurumuza çıxarılacaqlar.
33. Ölü torpaq onlar üçün bir dəlildir. Biz onu dirildir və ondan dənələr çıxarırıq, onlar da ondan yeyirlər.
34, 35. Meyvələrindən yesinlər deyə biz orada xurma və üzüm bağları var etdik və içlərində bulaqlar qaynatdıq. Bunları onların əlləri etməyib. Hələ də şükür etməyəcəklərmi?[1]
36. Yerin yetişdirdiklərindən, insanların özlərindən və bilmədikləri (neçə-neçə) şeylərdən bütün cütləri yaradanın şanı ucadır.
37. Gecə də onlar üçün bir dəlildir. Gündüzü ondan çıxarırıq, onlar qaranlıq içində qalırlar.
38. Günəş də öz məcrasında axıb gedir. Bu, mütləq güc sahibi, haqqı ilə bilən Allahın təqdiridir.
39. Ay üçün də mənzillər təyin etdik. Nəhayət, o, əyilmiş quru xurma budağı kimi olur.
40. Nə günəş aya yetişə bilir, nə də gecə gündüzü keçə bilir. Hər biri bir məcra üzrə üzür.
41. Onların zürriyyətlərini dolu gəmidə daşımağımız da onlar üçün bir dəlildir.
42. Biz onlar üçün o gəmi kimi neçə-neçə minik vasitəsi yaratdıq.
43. Biz istəsək, onları suda boğarıq, onlar üçün nə köməyə çağıran tapılar, nə də qurtularlar.
44. Ancaq tərəfimizdən bir rəhmət olaraq və müəyyən bir vaxta qədər yaşasınlar deyə xilas edilərlər.
45. Onlara: "Önünüzdə və arxanızda olanlardan (dünya və axirətdə görəcəyiniz əzablardan) çəkinin ki, sizə mərhəmət olunsun", – deyildiyi zaman üz döndərirlər.
46. Onlara Rəblərinin ayələrindən elə bir ayə gəlməz ki, ondan üz döndərməsinlər.
47. Onlara: "Allahın sizə ruzi olaraq verdiyi şeylərdən Allah yolunda xərcləyin", – de-

1 Ayə belə də tərcümə oluna bilər: "Meyvələrindən və öz əllərinin düzəltdiklərindən yesinlər deyə biz orada xurma və üzüm bağları var etdik və içlərində bulaqlar qaynatdıq. Hələ də şükür etməyəcəklərmi?"

yildikdə inkar edənlər iman edənlərə: "Biz Allahın istədiyi təqdirdə doyura bilə-
cəyi kimsələri yedirəcəyik? Siz ancaq açıq-aşkar bir zəlalət içindəsiniz", – deyərlər.

48. "Əgər doğru söyləyənlərsinizsə, bu vəd nə zaman gerçəkləşəcək?" – deyirlər.

49. Onlar ancaq bir-biriləri ilə çəkişib durarkən özlərini yaxalayacaq qorxunc bir səsi gözləyirlər.

50. Artıq nə bir-birilərinə öyüd-nəsihət verə bilərlər, nə də ailələrinin yanına qayıda bilərlər.

51. Sura[1] üfürülən kimi qəbirlərindən çıxıb Rəblərinə doğru axın-axın gedərlər.

52. Belə deyərlər: "Vay halımıza! Kim bizi dirildib məzarımızdan çıxardı? Bu, Rəhmanın vəd etdiyi şeydir. Peyğəmbərlər doğru söyləmişlər".

53. Sadəcə qorxunc bir səs olar. Bir də görərsən ki, onların hamısı birdən toplanıb hüzurumuza çıxarılıblar.

54. O gün heç kimə heç bir zülm edilməz. Sizə ancaq etdiklərinizin qarşılığı verilər.

55. Şübhəsiz, cənnətliklər o gün nemətlərlə məşğuldurlar, səfa sürərlər.

56. Onlar və zövcələri kölgəliklərdə taxtlara söykənərlər.

57. Onlar üçün orada meyvələr var. Onlar üçün arzu etdikləri hər şey var.

58. Çox mərhəmətli olan Rəbdən bir söz olaraq (onlara) "Salam" (var).

59. (Allah belə deyər:) "Ey günahkarlar! Ayrılın bu gün!"

60, 61. Ey Adəm oğulları! Mən sizə: "Şeytana qulluq etməyin. Çünki o sizin üçün açıq-aşkar bir düşməndir. Mənə qulluq edin. Doğru yol budur", – deyə əmr etmədimmi?

62. "And olsun, o sizdən çox-çox nəsli yoldan azdırmışdı. Heç düşünmürdünüzmü?"

63. "Bu, təhdid olunduğunuz cəhənnəmdir".

64. "İnkar etdiyiniz üçün bu gün girin oraya!"

65. O gün biz onların ağızlarını möhürləyərik. Əlləri bizə danışar, ayaqları da qazandıqlarına şahidlik edər.

66. Əgər istəsəydik, onların gözlərini tamamilə kor edərdik, (bu halda) yola düşmək üçün didişərdilər. Amma necə görəcəklər ki?

67. Həmçinin əgər istəsəydik, onları olduqları yerdə başqa məxluqlara döndərərdik, nə irəli gedə bilərdilər, nə də geri dönə bilərdilər.

68. Kimə uzun ömür versək, onu yaradılış etibarı ilə tərsinə çeviririk (gücünü azaldırıq). Hələ də düşünməyəcəklərmi?

69. Biz o peyğəmbərə şeir öyrətmədik. Bu, heç ona yaraşmaz da. O(na verdiyimiz) ancaq bir öyüd və açıq-aydın bir Qur`andır.

70. (Əqli və fikri baxımdan) diri olanları xəbərdar etməsi və kafirlər haqqındakı o sözün (əzabın) gerçəkləşməsi üçün Qur`anı endirdik.

---

1 Sur üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bilinməyən bir növ boru deməkdir.

71. Görmədilərmi ki, biz onlar üçün əllərimizin (qüdrətimizin) əsəri olan heyvanlar yaratdıq, onlar bu heyvanlara sahib olurlar.

72. Biz o heyvanları onlara ram etdik. Onlardan bir qismi minikləridir, bir qismini də yeyirlər.

73. Onlar üçün bu heyvanlarda (bir çox) mənfəətlər və içəcəklər var. Hələ də şükür etməyəcəklərmi?

74. Bəlkə onlara yardım edilər deyə Allahı buraxıb ilahlar qəbul etdilər.

75. Onlar ilahlar üçün (xidmətə) hazır əsgərlər olduqları halda ilahlar onlara yardım edə bilməzlər.

76. (Ey Muhamməd!) Artıq onların sözü səni üzməsin. Çünki biz onların gizlədiklərini də, aşkara vurduqlarını da bilirik.

77. Məgər insan bizim onu azacıq sudan (mənidən) yaratdığımızı görmədimi ki, açıq-aşkar bir düşmən kəsilmişdir.

78. Bir də öz yaradılışını unudaraq bizə bir misal gətirdi. Dedi ki: "Çürümüş olduqları halda sümükləri kim diriləcək?"

79. De ki: "Onu ilk dəfə var edən dirildəcəkdir. O, hər yaradılanı haqqı ilə biləndir".

80. O, sizin üçün yaşıl ağacdan od yaradandır. İndi siz ondan yandırırsınız.[1]

81. Göyləri və yeri yaradan Allahın onların bənzərini yaratmağa gücü yetməzmi? Bəli, yetər. O, haqqı ilə yaradandır, haqqı ilə biləndir.

82. O, bir şeyi istədiyi zaman əmri ona sadəcə "Ol!" deməkdir. O da dərhal olar.

83. Hər şeyin hökmranlığı əlində olan Allahın şanı ucadır! Siz yalnız Ona döndəriləcəksiniz.

# 37. SAFFAT SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 182 ayədən ibarətdir. Surənin adı ilk ayədə keçən "əs-saffat" sözündən götürülmüşdür. Saffat sıra halında düzülənlər, səf-səf duranlar deməkdir. Surədə başlıca olaraq mələklərdən, cinlərdən, qiyamət və axirət hadisələrindən bəhs olunur. Nuh, İbrahim, İsmail, İshaq, Musa, Harun, İlyas, Lut və Yunus peyğəmbərin qissələrinə yer verilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2, 3, 4. Səf bağlayıb duranlara, hayqıraraq sövq edənlərə və zikri (Allahın kəlamını) oxuyanlara and olsun ki, sizin ilahınız, həqiqətən, bir tək ilahdır.[2]

5. O, göylərin, yerin və ikisi arasındakıların Rəbbidir. Şərqlərin də (qərblərin də) Rəbbidir.[3]

---

1 Bu ayədə ərəblərin "mərh" və "afar" adlandırdıqları iki növ ağacı yaş halda ikən bir-birinə sürtərək od əldə etmələrinə işarə olunur.

2 Təfsir alimlərinə görə, ayələrdə bildirilən işləri mələklər, yaxud möminlər, xüsusilə, alimlər etmişdir.

3 Mövsümlərə görə günəş üfüqdə hər gün müxtəlif nöqtələrdə doğub batır. Buna görə bir illik müddət ər-

6. Biz ən yaxın göyü zinətlərlə, ulduzlarla bəzədik.
7. Onu itaətdən çıxan hər şeytandan qoruduq.
8, 9. Onlar uca topluluğu (böyük mələklər topluluğunu) dinləyə bilməzlər. Qovulmaları üçün hər tərəfdən daşa tutularlar. Onlar üçün daimi bir əzab da var.
10. Ancaq onlardan söz oğurlayan olar. Onu da dəlib keçən bir alov təqib edər (və yox edər).
11. (Ey Muhamməd!) İndi sən onlardan soruş: “Onları yaratmaq daha çətindir, yoxsa yaratdığımız digər şeyləri yaratmaq?”[1] Şübhəsiz, biz onları yapışqan bir palçıqdan yaratdıq.
12. Xeyr, sən (onların halına) təəccüb etdin, onlar isə məsxərəyə qoyurlar.
13. Onlara öyüd verildikdə öyüd götürmürlər.
14. Bir möcüzə gördükdə onu məsxərəyə qoyurlar.
15. (Dedilər ki:) “Bu, sadəcə açıq-aşkar bir sehrdir”.
16. “Həqiqətən, biz ölüb torpaq və sümük yığını olduqdan sonra yenidən dirildiləcəyik?”
17. “Keçmiş ata-babalarımız da?”
18. De ki: “Bəli, üstəlik siz zəlil kimsələr olaraq (dirildiləcəksiniz)”.
19. O, sadəcə şiddətli bir səsdən ibarətdir.[2] Bir də görərsən ki, onlar (dirildilib hazır) gözləyirlər.
20. Belə deyəcəklər: “Vay halımıza! Bu, gözlənilən cəza günüdür”.
21. Onlara: “Bax bu, inkar etdiyiniz hökm və ayırd etmə günüdür”, – deyilər.
22, 23, 24. Allah mələklərə belə əmr edər: “Zülm edənləri, tərəfdarlarını və Allahı buraxıb tapındıqlarını toplayın, onları cəhənnəm yoluna qoyun və onları yaxalayın. Çünki onlar sorğu-sual olunacaqlar”.
25. Onlara: “Nə üçün köməkləşmirsiniz?” – deyilər.
26. Xeyr, onlar bu gün təslim olmuş kimsələrdir.
27. Bir-birilərindən soruşarlar (mübahisə edərlər).
28. Belə deyərlər: “Siz bizə sağ tərəfdən gələrdiniz (Bizə haqdan yana görünərdiniz)”.
29. Digərləri isə onlara belə deyərlər: “Xeyr, siz onsuz da mömin kəslər deyildiniz”.
30. “Bizim sizin üzərinizdə heç bir hakimiyyətimiz yox idi. Hətta siz azğın bir qövm idiniz”.
31. “Artıq Rəbbimizin sözü (əzab) bizim haqqımızda gerçəkləşdi. Biz onu mütləq dadacağıq”.

---

zində çox sayda şərq və qərb meydana gəlir. Mövzu ilə əlaqəli olaraq Rəhman surəsinin 17-ci ayəsi və istinadına baxın.

1 Ayə öldükdən sonra yenidən dirilməyi inkar edənlərə cavabdır. Çətin bir işi bacaranın asan işi də bacaracağı vurğulanaraq öldükdən sonra dirilməyin gerçəkləşə biləcəyi göstərilir.

2 Buradakı şiddətli səs ilə Surun ikinci dəfə üfürülməsi nəzərdə tutulur.

32. "Bəli, biz sizi sapdırdıq. Çünki biz də sapqın kimsələr idik".
33. Artıq onlar o gün əzabda ortaqdırlar.
34. Biz günahkarlara məhz belə edərik.
35. Çünki onlara: "Allahdan başqa heç bir ilah yoxdur", – deyildikdə onlar inanmayıb təkəbbür göstərirdilər.
36. "Biz dəli bir şair üçün ilahlarımızımı tərk edəcəyik?" – deyirdilər.
37. Xeyr, elə deyil. O, haqqı gətirmiş, (əvvəlki) peyğəmbərləri də təsdiq etmişdir.
38. Şübhəsiz, siz mütləq ağrılı-acılı bir əzabı dadacaqsınız.
39. Siz sadəcə etdiklərinizin əvəzi ilə cəzalandırılarsınız.
40. Ancaq Allahın xalis qulları istisnadır.
41, 42. Onlar üçün müəyyən bir ruzi, meyvələr var. Onlara hörmət olunacaq.
43. Onlar Nəim cənnətlərindədirlər.
44. Taxtlar üzərində qarşılıqlı oturarlar.
45, 46. Onların yanında cənnət bulağından doldurulmuş, şəffaf və içənlərə ləzzət verən qədəhlər dolandırılar.
47. O, süstlük verməz. Onlar onu içməklə sərxoş olmazlar.
48. Yanlarında baxışlarını sadəcə onlara çevirən iri gözlü zövcələr var.
49. Sanki onlar (bəyazlıqları ilə) gizli qalmış (gün üzü görməmiş) yumurtalardır.
50. O vaxt bir-birilərinə üz tutub soruşarlar.
51. Aralarından biri deyər ki: "Mənim bir yoldaşım var idi".
52. "Sən də yenidən dirilməyi təsdiq edənlərdənsən?" – deyərdi.
53. "Həqiqətən, biz ölüb torpaq və sümük yığını halına düşdükdən sonra hesaba çəkiləcəyik?"
54. Danışan o kəs yanındakılara: "Onun nə halda olduğunu görürsünüzmü?" – deyər.
55. O da baxar və onu cəhənnəmin ortasında görər.
56. Ona belə deyər: "Allaha and olsun, az qala məni də həlak edəcəkdin".
57. "Rəbbimin neməti olmasaydı mütləq mən də cəhənnəmə atılanlardan olardım".
58, 59. "İlk ölümümüzdən başqa ölüm görməyəcəyik?[1] Bizə əzab edilməyəcək?"
60. Şübhəsiz, bu, (cənnətdəki nemətlərə nail olmaq) böyük bir uğurdur.
61. Çalışanlar beləsi üçün çalışsınlar.
62. Ziyafət olaraq bu daha xeyirlidir, yoxsa zəqqum ağacı?

1 Buradakı ilk ölüm ifadəsi ikinci bir ölümün olacağını bildirmir. Müşriklər ölüb yox olacaqlarını, bir daha dirilməyəcəklərini iddia edirdilər. Onlar üçün ən böyük kədər və iztirab mənbəyi ölüm idi. Qısaca, onların gözündə ölüm kədər, iztirab və əzabın simvolu idi. Buna görə də "Öldükdən sonra yox olub gedəcəyik. Bir daha dirilmək və Muhammədin iddia etdiyi kimi əzab çəkmək yoxdur" mənasında "İlk ölümümüzdən başqa ölüm yoxdur" deyirdilər.

63. Şübhəsiz, biz onu zalımlar üçün imtahan vəsiləsi etdik.[1]
64. O, cəhənnəmin dibində bitən bir ağacdır.
65. Onun meyvələri sanki şeytanların başlarıdır.[2]
66. Cəhənnəmliklər ondan yeyəcəklər və onunla qarınlarını dolduracaqlar.
67. Sonra onlar üçün bunun üstündən qaynar sudan qarışıq bir içki var.
68. Sonra onların qayıdışları mütləq cəhənnəmədir.
69. Çünki onlar ata-babalarını sapqın kimsələr olaraq gördülər.
70. Özləri də qaça-qaça onların izindən gedirlər.
71. And olsun, onlardan öncə əvvəlkilərin çoxu da sapmışdı.
72. And olsun, biz onlara da xəbərdar edənlər göndərmişdik.
73. Gör, xəbərdar edilənlərin axırı necə oldu!
74. Ancaq Allahın ixlaslı qulları istisnadır.
75. And olsun, Nuh bizə dua edib səslənmişdi. Biz nə gözəl cavab verənik!
76. Onu və ailəsini o böyük sıxıntıdan xilas etdik.
77. Onun nəslini yer üzündə daim etdik.
78. Sonradan gələnlər arasında ona gözəl bir ad qoyduq.
79. Aləmlər içində Nuha salam olsun!
80. Biz yaxşılıq edənləri bax belə mükafatlandırırıq.
81. Çünki o, bizim mömin qullarımızdan idi.
82. Sonra biz digərlərini suda boğduq.
83. Şübhəsiz, İbrahim də onun tərəfdarlarından idi.
84. Bir vaxt o, Rəbbinə təmiz bir qəlblə gəlmişdi.
85. Atasına və qövmünə belə demişdi: "Siz nəyə tapınırsınız?"
86. "Allahı buraxıb bəzi uydurma ilahlar istəyirsiniz?"
87. "O halda aləmlərin Rəbbi haqqında fikriniz nədir?"
88, 89. İbrahim ulduzlara baxdı və: "Mən xəstəyəm", – dedi.
90. Bunun ardından arxalarını çevirib ondan uzaqlaşdılar.[3]

---

1 Müşriklər cəhənnəmdə Zəqqum adlanan bir ağacın olduğunu eşitdikdə: "Ataş ağacı yandırar. Belə bir ağac olmaz", – deyərək bunu inkar etdilər. Allahın atəşdə yanmayan bir ağac yarada biləcəyini düşünmürdülər. Beləliklə, Zəqqum ağacı iman edib-etməmək baxımından müşriklər üçün bir imtahan vəsiləsi olmuşdu.

2 Şeytanların nə cür varlıqlar olduqları insanlar tərəfindən bilinməsə də, onların çirkin və zərərli olduqları düşüncələrə yerləşmişdir. Zəqqum meyvəsinin də çirkin və zərərli olduğunu ifadə etmək baxımından belə bir bənzətməyə yer verilmişdir.

3 İbrahim atasının və qövmünün tapındığı bütləri pislədikdə bu bütlərin fayda və zərər verməyəcəklərini göstərmək üçün yalnız qalıb bütləri sındırmaq istəyirdi. Qövmü şənlik yerinə gedərkən İbrahimi də çağırdıqda o, ulduzlara baxaraq: "Mən xəstəyəm", – dedi. İbrahim belə edərək ulduzlardan hökm çıxaran qövmünə guya özünün də bu məlumatı ulduzlardan aldığını bildirmək istəyirdi. Qövmü isə xəstəliyə yoluxmamaq üçün onu buraxıb getdikdə İbrahim yalnız qalmaq fürsəti əldə etdi.

91. İbrahim gizlicə onların bütlərinə tərəf getdi və belə dedi: “Yemirsiniz?”
92. “Nə üçün danışmırsınız?”
93. O anda üzərilərinə yeriyib onlara güclü bir zərbə endirdi.
94. Qövmü (təlaş içində) qaçaraq ona tərəf gəldi.
95. İbrahim belə dedi: “Yonduğunuz bütlərə tapınırsınız?”
96. “Halbuki Allah sizi də, etdiklərinizi də yaratmışdır”.
97. Qövmü: “Onun üçün bir bina tikin, (içində tonqal qalayın) və onu atəşə atın”, – dedi.
98. Beləliklə, ona bir hiylə qurmaq istədilər. Biz də onları ən səfil vəziyyətə saldıq.
99. İbrahim belə dedi: “Mən Rəbbimə (Onun əmr etdiyi yerə) gedəcəyəm. O, mənə yol göstərəcək”.
100. “Ey Rəbbim! Mənə salehlərdən olacaq bir övlad bağışla”.
101. Biz də ona həlim bir oğlan müjdələdik.
102. Uşaq onunla birlikdə qaçıb yeriyəcək yaşa çatdıqda İbrahim ona: “Oğlum, mən yuxumda səni qurban kəsdiyimi gördüm. Bax gör nə düşünürsən?” – dedi. O da: “Atacan, sənə əmr olunanı et. İnşallah, məni səbir edənlərdən görəcəksən”, – dedi.
103, 104. Nəhayət, hər ikisi (Allahın əmrinə) boyun əyib, İbrahim də onu (qurban kəsmək üçün) üzü üstə yerə yatırdıqda ona belə səsləndik: “Ey İbrahim!”
105. “Gördüyün yuxunun hökmünü yerinə yetirdin. Şübhəsiz, biz yaxşılıq edənləri belə mükafatlandırırıq”.
106. “Şübhəsiz, bu, açıq-aşkar bir imtahandır”.
107. Biz (İbrahimə) böyük bir qurbanlıq verərək onu (İsmaili) xilas etdik.
108. Sonradan gələnlər arasında ona gözəl bir ad qoyduq.
109. İbrahimə salam olsun!
110. Yaxşılıq edənləri bax belə mükafatlandırırıq.
111. Çünki o, mömin qullarımızdan idi.
112. Biz onu salehlərdən bir peyğəmbər olaraq İshaq ilə də müjdələdik.
113. Onu da, İshaqı da uğurlu etdik. Hər ikisinin nəsillərindən yaxşılıq edənlər də vardı, özünə açıq-aydın zülm edənlər də.
114. And olsun, biz Musaya və Haruna da lütf etdik.
115. Onları və qövmlərini o böyük sıxıntıdan xilas etdik.
116. Onlara kömək etdik, onlar qalib gələnlərdən oldular.
117. Biz onlara (hökmlərimizi) açıqlayan Kitabı (Tövratı) verdik.
118. Onları doğru yola yönəltdik.
119. Sonradan gələnlər arasında onlara gözəl bir ad qoyduq.
120. Musaya və Haruna salam olsun!
121. Şübhəsiz, biz yaxşılıq edənləri belə mükafatlandırırıq.

122. Çünki onlar mömin qullarımızdan idilər.
123. Şübhəsiz, İlyas da peyğəmbərlərdən idi.
124. Bir vaxt o, qövmünə belə demişdi: "Allaha qarşı gəlməkdən çəkinmirsinizmi?"
125, 126. "Yaradanların ən gözəlini, sizin və keçmiş atalarınızın Rəbbi olan Allahı buraxıb Bə`lə tapınırsınız?"[1]
127. Onu təkzib etdilər. Bu səbəblə onlar (cəhənnəmə) atılacaqlar.
128. Ancaq Allahın ixlaslı qulları istisnadır.
129. Sonradan gələnlər arasında ona gözəl bir ad qoyduq.
130. İlyasa salam olsun!
131. Şübhəsiz, biz yaxşılıq edənləri belə mükafatlandırırıq.
132. Çünki o, bizim mömin qullarımızdan idi.
133. Şübhəsiz, Lut da peyğəmbərlərdən idi.
134, 135. Biz onu və geridə qalanlar arasındakı yaşlı bir qadın (kafir olan zövcəsi) xaricində bütün ailəsini xilas etdik.
136. Sonra da digərlərini yox etdik.
137, 138. Şübhəsiz, siz (səyahətlərinizdə) səhər-axşam onların (xaraba qalmış) yurdlarının yanından keçirsiniz. Hələ də düşünməyəcəksinizmi?
139. Şübhəsiz, Yunus da peyğəmbərlərdən idi.
140. Bir vaxt o, qaçıb yüklü gəmiyə minmişdi.
141. Gəmidəkilərlə püşk atmış və uduzanlardan olmuşdu.[2]
142. Beləliklə, Yunus özünü qınayarkən balıq onu uddu.
143, 144. Əgər o, Allahı təsbih edib ucaldanlardan olmasaydı mütləq insanların diriləcəyi günə qədər balığın qarnında qalardı.
145. O anda biz onu xəstə bir halda sahilə atdıq.
146. Üzərində geniş yarpaqlı bir ağac bitirdik.
147. Biz onu yüz min yaxud daha çox insana peyğəmbər göndərdik.
148. Nəhayət, onlar iman etdilər. Biz də onlara bir müddət dolanışıq verdik.
149. Ey Muhamməd! Onlardan soruş: "Qız uşaqları Rəbbinin, oğlan uşaqları onlarındır?"
150. Yoxsa biz mələkləri dişi yaratmışıq, onlar şahid olublar?
151, 152. Yaxşı bilin ki, onlar öz uydurmaları olaraq: "Allah övlad sahibi oldu", – deyirlər. Onlar, əlbəttə, yalan danışırlar.
153. Yoxsa Allah qızları oğlanlardan üstün tutdu?

---

1 Bə`l o dövrdə Şamın Bəkk nahiyəsində tapınılan bir bütün adıdır.

2 Təfsir mənbələrinə görə, Yunus peyğəmbər qövmünün təzyiqlərinə dözə bilməyib onlardan qaçaraq bir gəmiyə minmişdi. Gəmidəki yolçulardan bir qisminin gəmidən atılması lazım gəldi. Püşkatma nəticəsində Yunus da atılanlar arasında yer aldı.

154. Sizə nə olub? Necə hökm verirsiniz?

155. Heç düşünmürsünüzmü?

156. Yoxsa açıq-aşkar bir dəliliniz var?

157. Əgər doğru söyləyənlərsinizsə, gətirin (bu dəlili göstərən) kitabınızı!

158. Allah ilə cinlər arasında da qohumluq əlaqəsi qurdular. Halbuki cinlər də özlərinin Allahın hüzuruna gətiriləcəklərini bilirlər.

159. Allah onların vəsf etdiklərindən uzaqdır, ucadır.

160. Ancaq Allahın ixlaslı qulları bunlar kimi deyil.

161, 162, 163. (Ey müşriklər!) Nə siz, nə də tapındıqlarınız cəhənnəmə girəcəklərdən başqasını aldadıb Allahın yolundan sapdıra bilərsiniz.

164. (Mələklər deyərlər ki:) "Bizim hər birimizin məlum bir məqamı var".

165. "Şübhəsiz, biz (orada) səf tutanlarıq".

166. "Şübhəsiz, biz (Allahı) təsbih edib ucaldanlarıq".

167, 168, 169. (Müşriklər) bunu da deyirdilər: "Əgər yanımızda əvvəlkilərə verilən kitablardan bir kitab olsaydı, əlbəttə, biz ixlaslı qullar olardıq".

170. Ancaq (kitab gəldikdə) onu inkar etdilər. Yaxın zamanda (aqibətlərinin necə olacağını) biləcəklər.

171. And olsun, peyğəmbər olaraq göndərilən qullarımız haqqında daha öncə belə demişdik:

172. "Onlara mütləq kömək ediləcək".

173. "Şübhəsiz, ordularımız qalib gələcək".

174. O halda bir müddət onlardan üz çevir.

175. Onları izlə, yaxın zamanda onlar da görəcəklər.

176. Yoxsa onlar əzabımızın tez gəlməsini istəyirlər?

177. Ancaq əzabımız onların yurdlarına endikdə o xəbərdar edilənlərin sabahı nə pis olar!

178. Ey Muhammməd! Bir müddət onlardan üz çevir.

179. (Gözlə və) gör. Onlar da yaxın zamanda görəcəklər.

180. Sənin Rəbbin, qüdrət və şərəf sahibi olan Rəbb onların vəsf etdiklərindən uzaqdır, ucadır.

181. Peyğəmbərlərə salam olsun!

182. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

# 38. SAD SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 88 ayədən ibarətdir. Surənin adı ilk ayədə keçən "sad" hərfindən götürülmüşdür. Surədə başlıca olaraq Allahın birliyi, müşriklərin inkarları və sapqınlıqları səbəbi ilə əzaba düçar olmaları, Davud, Süleyman, Əyyub, İbrahim, İshaq, İsmail, Əlyəsə və Zülkifl peyğəmbərlərin qissələri, Davud peyğəmbərin hakimliyi və həzrət Peyğəmbərin əsas vəzifəsindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Sad.[1] O, şanlı, şərəfli Qur`ana and olsun (ki, o, Allah kəlamıdır).

**2.** Lakin inkar edənlər təkəbbür və təfriqə içindədirlər.

**3.** Biz onlardan əvvəl bir çox nəsilləri həlak etdik. Onlar da fəryad etdilər, amma artıq qurtuluş vaxtı deyil.

**4.** Kafirlər özlərinə aralarından bir xəbərdar edənin gəlməsinə təəccüb etdilər və belə dedilər: "Bu, yalançı bir sehrbazdır".

**5.** "İlahları bir tək ilah etdi? Həqiqətən, bu, çox qəribə bir şeydir!"

**6, 7, 8.** Onlardan öndə gələnlər: "Gedin ilahlarınıza tapınmağa davam edin. İstənilən bax budur. Biz bunu son dində (ən son dini inanclarda) eşitmədik. Bu, ancaq bir uydurmadır. O zikr (Qur`an) aramızdan onamı endirildi?" – deyərək qalxıb getdilər. Xeyr, onlar mənim Zikrimdən (Qur`andan) şübhə içindədirlər. Xeyr, hələ əzabımı dadmayıblar.

**9.** Yoxsa mütləq güc sahibi və çox bağışlayan Rəbbinin rəhmət xəzinələri onların yanındadır?

**10.** Yoxsa göylərin, yerin və ikisi arasındakıların hökmranlığı onlarındır? Elə isə səbəblərdən yapışıb yüksəlsinlər (görək!)

**11.** Onlar müxtəlif firqələrdən ibarət olan burada məğlubiyyətə uğrayacaq bir ordudurlar.

**12, 13.** Onlardan əvvəl də Nuh qövmü, Ad qövmü, dirəklər sahibi[2] Firon, Səmud qövmü, Lut qövmü və Eykə xalqı da peyğəmbərləri inkar etmişdilər. Onlar da (belə) firqələrdən idi.

**14.** (O firqələrin) hər biri peyğəmbərləri təkzib etdi, onları cəzalandırmağım haqq oldu.

**15.** Bunlar da (müşriklər də) ancaq (vaxtı gəldikdə) əsla gecikməyəcək qorxunc bir səs gözləyirlər.

**16.** Müşriklər (istehza edərək) belə dedilər: "Ey Rəbbimiz! Hesab günündən əvvəl payımızı dərhal ver!"

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Dirəklər sahibi ifadəsi üçün Fəcr surəsinin 10-cu ayəsinin istinadına baxın.

17. Ey Muhamməd! Onların dediklərinə səbir et. Güclü qulumuz Davudu xatırla. O, Allaha çox yönələn bir kimsə idi.

18, 19. Dağları və toplanıb gələn quşları Davudun əmrinə verdik ki, onunla birlikdə səhər-axşam təsbih etsinlər. Onların hər biri Allaha yönələnlərdir.

20. Biz Davudun mülkünü gücləndirdik, ona hikmət və haqla batili ayırd edən söz (hökm vermə) qabiliyyəti verdik.

21. Davaçıların xəbəri sənə gəldib çatdımı? Onlar divarı aşaraq məbədə girmişdilər.

22. Onlar Davudun yanına girdikdə Davud onlardan qorxdu. Onlar: "Qorxma! Biz iki davaçı dəstəyik. Birimiz digərinə haqsızlıq edib. Aramızda ədalətlə hökm ver. Zülm etmə və bizi doğru yola yönəlt", – dedilər.

23. Aralarından biri belə dedi: "Bu, mənim qardaşımdır. Onun doxsan doqquz qoyunu var. Mənim isə bir qoyunum var. Bu halda: "Onu da mənə ver", – dedi və mübahisədə mənə üstün gəldi".

24. Davud dedi ki: "And olsun, sənin qoyununu öz qoyunlarına qatmaq istəyərək sənə zülm etmişdir. Adətən, şəriklərin bir çoxu bir-birilərinə haqsızlıq edərlər. Ancaq iman edib saleh əməllər işləyənlər istisnadır. Onlar da çox azdır". Davud bizim onu imtahan etdiyimizi anladı. Rəbbindən bağışlanma dilədi, əyilərək səcdəyə qapandı və Allaha yönəldi.

25. Biz də bunu ona bağışladıq. Şübhəsiz, qatımızda onun üçün bir yaxınlıq və dönüb gələcəyi gözəl bir yer var.

26. Ona dedik ki: "Ey Davud! Həqiqətən, biz səni yer üzündə xəlifə etdik. İnsanlar arasında haqq ilə hökm ver. Nəfsin arzusuna uyma, yoxsa səni Allahın yolundan sapdırar. Allahın yolundan sapanlar üçün hesab gününü unutmaları səbəbi ilə şiddətli bir əzab var".

27. Biz göyü, yeri və ikisi arasındakıları əbəs yerə yaratmadıq. Bu, (yaradılanların əbəs yerə yaradıldığı iddiası) inkar edənlərin zənnidir. Cəhənnəm atəşinə görə vay inkar edənlərin halına!

28. Yoxsa biz iman edib saleh əməllər işləyənləri yer üzündə fitnə-fəsad törədənlərlə bir tutacağıq? Yoxsa Allaha qarşı gəlməkdən çəkinənləri yoldan çıxan günahkarlara bir tutacağıq?

29. Bu Qur`an, ayələrini düşünsünlər və ağıl sahibləri öyüd götürsünlər deyə sənə endirdiyimiz mübarək bir kitabdır.

30. Davuda Süleymanı bağışladıq. O nə gözəl bir qul idi! Şübhəsiz, o, Allaha çox yönələn bir kimsə idi.

31. Bir vaxt ona axşam üstü bir ayağını dırnağı üstünə qoyub üç ayağının üstündə duran vüqarlı və soylu atlar ərz olundu.

32, 33. Süleyman: "Həqiqətən, mən mal-mülkü Rəbbimi xatırlatdığı üçün sevirəm", – dedi. Nəhayət, gözdən itib getdikləri zaman:[1] "Onları mənə geri gətirin", – dedi. (Atlar gəldikdə) ayaqlarını və boyunlarını tumarlamağa başladı.

1 Ayənin bu qismi "Nəhayət, günəş pərdə arxasına çəkildikdə (batdıqda)" şəklində də tərcümə edilə bilər.

34. And olsun, biz Süleymanı imtahan etdik. Taxtının üstünə bir cəsəd qoyduq.[1] Sonra tövbə edib bizə yönəldi.

35. Süleyman: "Ey Rəbbim! Məni bağışla. Mənə məndən sonra heç kimə layiq olmayacaq bir mülk (hökmranlıq) bəxş et! Şübhəsiz, sən çox bəxş edənsən", – dedi.

36. Biz də küləyi onun əmrinə verdik. Külək onun əmri ilə istədiyi yerə xəfif əsərdi.

37, 38. Bənna və dalğıc şeytanların hər birini, digərlərini də buxovlu olaraq onun əmrinə verdik.

39. "Bax bu, bizim lütfümüzdür. Artıq sən də (istədiyinə) hesabsız ver, yaxud vermə", – dedik.

40. Şübhəsiz, qatımızda onun üçün bir yaxınlıq və dönüb gələcəyi gözəl bir yer var.

41. (Ey Muhamməd!) Qulumuz Əyyubu da xatırla. Bir vaxt o, Rəbbinə: "Şeytan mənə bir yorğunluq və əzab toxundurdu", – deyə səslənmişdi.

42. Biz də ona: "Ayağını yerə vur! Budur yuyunmaq və içmək üçün soyuq su!" – dedik.

43. Biz ona tərəfimizdən bir rəhmət və ağıl sahiblərinə bir öyüd olaraq ailəsini və onlarla birlikdə bir o qədərini də bəxş etdik.

44. Belə dedik: "Əlinə bir dəstə çubuq al və onunla vur, andını pozma".[2] Həqiqətən, biz Əyyubu səbir edən bir kimsə olaraq gördük. O nə gözəl bir qul idi! O, Allaha çox yönələn bir kimsə idi.

45. (Ey Muhamməd!) Güclü və bəsirətli qullarımız İbrahimi, İshaqı və Yaqubu da xatırla.

46. Şübhəsiz, biz onları axirət yurdunu düşünən ixlaslı kimsələr etdik.

47. Şübhəsiz, onlar bizim qatımızda xeyirli, seçkin kimsələrdəndir.

48. (Ey Muhamməd!) İsmail, Əlyəsə və Zülkifli də xatırla. Onların hər biri yaxşı kimsələr idi.

49, 50. Bu bir öyüddür. Allaha qarşı gəlməkdən çəkinənlər üçün, əlbəttə, gözəl bir qayıdış yeri, qapıları üzlərinə açılmış Ədn cənnətləri var.

51. Onlar orada taxtlara söykənərək bir çox meyvə və içkilər istəyərlər.

52. Yanlarında gözlərini onlardan ayırmayan yaşıd zövcələr var.

53. Bax bunlar hesab günü sizə vəd olunanlardır.

54. Bax bu, bizim verdiyimiz ruzidir. O, əsla tükənməz.

55, 56. Bax belə. Şübhəsiz, azğınlar üçün, əlbəttə, pis bir qayıdış yeri, cəhənnəm var. Onlar oraya girərlər. Ora nə pis bir yataqdır!

57. Budur (əzab), onu dadsınlar. Bir qaynar su və bir irin.

58. O əzaba bənzər müxtəlif başqa əzablar da var.

---

1 Təfsir alimlərinə görə, ayədə keçən cəsəd məcazi olaraq bir vaxtlar fiziki gücünü və ya siyasi hakimiyyətini itirən Süleyman peyğəmbəri təmsil edir.

2 Təfsir mənbələrinə görə Əyyub peyğəmbər bir məsələ ilə bağlı arvadına yüz çubuq vuracağına and içmiş, ayədəki ona məxsus həll yolu ona öyrədilmişdir.

59. (Öz aralarında belə deyərlər:) "Budur sizinlə birlikdə cəhənnəmə doldurulacaq bir dəstə. Onlara rahatlıq və hüzur olmasın! Şübhəsiz, onlar cəhənnəmə girəcəklər".

60. O dəstə isə: "Xeyr, sizə rahatlıq və hüzur olmasın! Bu cəhənnəmi bizim önümüzə siz çıxardınız. Ora nə pis qərar yeridir!" – deyər.

61. Belə deyərlər: "Ey Rəbbimiz! Bunu bizim önümüzə kim çıxardısa, cəhənnəmdə onun əzabını bir qat da artır".

62. Yenə belə deyərlər: "Dünyada pis hesab etdiyimiz insanları nə üçün görə bilmirik?"

63. "(Cəhənnəmlik olmadıqları halda) biz onları məsxərəyə qoymuşuq, yoxsa (buradadırlar) gözlərimizdən qaçıblar?"

64. Şübhəsiz, bu, cəhənnəmliklərin bir-biriləri ilə çəkişməsi qəti həqiqətdir.

65. (Ey Muhamməd!) De ki: "Mən ancaq bir xəbərdar edənəm. Hər şey üzərində mütləq hakimiyyəti olan bir Allahdan başqa heç bir ilah yoxdur".

66. "O, göylərin, yerin və ikisi arasındakıların Rəbbidir. Mütləq güc sahibidir, çox bağışlayandır".

67. De ki: "Bu Qur`an böyük bir xəbərdir".

68. "Siz isə ondan üz döndərirsiniz".

69. "Aralarında mübahisə edərkən uca topluluğa (öndə gələn mələklər topluluğuna) dair mənim heç bir məlumatım yox idi".

70. "Mənə ancaq mənim sadəcə bir xəbərdar edən olduğum vəhy edilir".

71. Bir vaxt Rəbbin mələklərə belə demişdi: "Mən mütləq palçıqdan bir insan yaradacağam".

72. "Ona surət verib içinə ruhumdan üfürdüyüm zaman onun üçün ehtiramla əyilin".

73. O anda bütün mələklər toplu halda ehtiramla əyildilər.

74 Ancaq İblis əyilmədi. O, təkəbbür göstərdi və kafirlərdən oldu.

75. Allah: "Ey İblis! Əllərimlə yaratdığıma ehtiramla əyilmənə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa üstünlərdən oldun?" – dedi.

76. İblis: "Mən ondan daha xeyirliyəm. Məni atəşdən yaratdın, onu isə palçıqdan yaratdın", – dedi.

77. Allah belə dedi: "Elə isə çıx oradan (cənnətdən), çünki sən qovuldun".

78. "Şübhəsiz, mənim lənətim hesab və cəza gününə qədər sənin üzərindədir".

79. İblis: "Ey Rəbbim! Elə isə mənə insanların dirildiləcəkləri günə qədər möhlət ver", – dedi.

80, 81. Allah belə dedi: "Sən o məlum vaxta (qiyamət gününə) qədər möhlət verilənlərdənsən".

82, 83. İblis: "Sənin şərəfinə and olsun ki, ixlaslı qulların xaric, əlbəttə, onların hamısını azdıracağam", – dedi.

84. Allah belə dedi: "Bax bu doğrudur. Mən də doğrunu deyirəm:"

**85.** “And olsun, cəhənnəmi səninlə və onlardan sənə uyanların hamısı ilə dolduracağam”.
**86.** (Ey Muhamməd!) De ki: “Bundan (təbliğ vəzifəmdən) ötrü sizdən heç bir qarşılıq istəmirəm. Mən özü məsuliyyət altına girənlərdən deyiləm”.
**87.** “Bu Qur`an aləmlər üçün ancaq bir öyüddür”.
**88.** “Onun xəbərlərinin doğruluğunu bir müddət sonra mütləq öyrənəcəksiniz”.

## 39. ZÜMƏR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 75 ayədən ibarətdir. Surənin adı 71-ci və 73-cü ayələrdə keçən “zümər” sözündən götürülmüşdür. Zümər zümrələr, qruplar deməkdir. Surədə başlıca olaraq göylərdə və yerdə Allahın birliyini göstərən dəlillər, möminlərin cənnətə, kafirlərin cəhənnəmə göndəriləcəyindən bəhs olunur. İnsanlar ölüm gəlib çatmazdan əvvəl Allaha yönəlməyə çağırılırlar.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Kitabın endirilməsi mütləq güc sahibi, hökm və hikmət sahibi Allah tərəfindədir.
**2.** (Ey Muhamməd!) Şübhəsiz, biz o kitabı sənə haqq olaraq endirdik. Elə isə sən də dini Allaha məxsus edərək ona ibadət et.
**3.** Yaxşı bilin ki, xalis din sadəcə Allahındır. Onu buraxıb başqa dostlar tutanlar: “Biz onlara sadəcə bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik”, – deyirlər. Şübhəsiz, Allah ixtilafa düşdükləri şeylər barəsində aralarında hökm verəcək. Şübhəsiz, Allah yalançı və nankor olanları doğru yola yönəltməz.
**4.** Əgər Allah bir övlad götürmək istəsəydi, yaratdıqlarından istədiyini seçərdi. O, bundan uzaqdır, ucadır. O, tək və hər şey üzərində mütləq hakimiyyət sahibi olan Allahdır.
**5.** Göyləri və yeri haqq və hikmətə uyğun olaraq yaratmışdır. Gecəni gündüzün üzərinə örtür, gündüzü də gecənin üzərinə örtür. Günəşi və ayı qoyduğu qanunlara ram etmişdir. Bunların hər biri müəyyən bir vaxta qədər axıb gedir. Yaxşı bilin ki, o, mütləq güc sahibidir, çox bağışlayandır.
**6.** O, sizi bir tək nəfsdən yaratdı. Sonra ondan[1] həmtayını yaratdı. Sizin üçün heyvanlardan (erkək və dişi olmaqla) səkkiz cüt yaratdı.[2] Sizi analarınızın qarnında bir yaradılışdan digərinə keçirərək üç (qat) qaranlıq içində ərsəyə gətirir. Rəbbiniz olan Allah bax budur. Mülk (mütləq hakimiyyət) yalnız Onundur. Ondan başqa heç bir ilah yoxdur. O halda necə olur ki, haqdan döndərilirsiniz?
**7.** Əgər inkar etsəniz, şübhəsiz ki, Allah sizin iman etmənizə möhtac deyil. Amma qullarının inkar etməsinə razı olmaz. Əgər şükür etsəniz, sizin üçün buna razı

1 Buradakı “ondan” ifadəsini “onun cinsindən” şəklində də başa düşmək mümkündür.

2 Ayədə bəhs olunan heyvanlar haqqında məlumat üçün Ən`am surəsinin 143-144-cü ayələrinə baxın.

olar. Heç bir günahkar başqa bir günahkarın yükünü yüklənməz. Sonra qayıdışınız ancaq Rəbbinizədir. O da sizə etdiklərinizi xəbər verər. Çünki O, qəlblərdə olanı haqqı ilə bilər.

8. İnsana bir zərər toxunduğu zaman Rəbbinə üz tutaraq Ona yalvarar. Sonra öz tərəfindən ona bir nemət verdiyi zaman daha əvvəl Ona yalvardığını unudar və Allahın yolundan sapdırmaq üçün Ona şəriklər qoşar. De ki: “Küfrünlə bir az da səfa sür! Şübhəsiz, sən cəhənnəmliklərdənsən”.

9. (Belə bir kimsə Allah qatından məqbuldur) yoxsa gecə vaxtlarında, səcdədə və qiyamda, axirətdən qorxaraq və Rəbbinin rəhmətinə ümid edərək itaət və ibadət edən? De ki: “Heç bilənlərlə bilməyənlər bir olarmı?” Ancaq ağıl sahibləri öyüd götürərlər.

10. (Ey Muhamməd! Bizim adımızdan) de ki: “Ey iman edən qullarım! Rəbbinizə qarşı gəlməkdən çəkinin. Bu dünyada yaxşılıq edənlər üçün (axirətdə) bir yaxşılıq var. Allahın ərzi genişdir. Səbir edənlərə mükafatları, əlbəttə, hesabsız verilər”.

11. De ki: “Şübhəsiz, mənə dini Allaha məxsus edərək Ona ibadət etməyim əmr edildi”.

12. “Mənə müsəlmanların ilki olmağım da əmr edildi”.

13. De ki: “Əgər mən Rəbbimə üsyan etsəm, şübhəsiz, böyük bir günün əzabından qorxaram”.

14. De ki: “Mən dinimi Allaha məxsus edərək sadəcə ona ibadət edirəm”.

15. “Siz də Allahdan başqa istədiyiniz şeylərə ibadət edin!” De ki: “Şübhəsiz, ziyana uğrayanlar qiyamət günü özlərini və ailələrini ziyana salanlardır. Yaxşı bilin ki, açıq-aşkar ziyan budur”.

16. Onlar üçün üstlərinə atəşdən sipərlər, altlarında (atəşdən) sipərlər var. Allah qullarını bununla qorxudur. Ey qullarım! Mənə qarşı gəlməkdən çəkinin.

17. Tağutdan,[1] ona qulluq etməkdən çəkinən və ixlasla Allaha yönələnlər üçün müjdə var. O halda qullarımı müjdələ!

18. Sözü dinləyib onun ən gözəlinə uyanlar ki var, onlar Allahın hidayətə qovuşdurduğu kimsələrdir. Ağıl sahibləri məhz onlardır.

19. Haqqında əzab sözü (hökmü) gerçəkləşənlər heç onlar kimi olarmı? Cəhənnəmlikləri sən qurtaracaqsan?

20. Ancaq Rəbbinə qarşı gəlməkdən çəkinənlər üçün (cənnətdə) üst-üstə tikilmiş və altlarından çaylar axan köşklər var. Allah gerçək bir vəd vermişdir. Allah vədindən dönməz.

21. Görmədinmi ki, Allah göydən su endirdi, onu yer üzündəki qaynaqlara axıtdı. Sonra onunla müxtəlif rəngli əkinlər çıxarır. Sonra əkinlər quruyur, onların saraldığını görürsən. Sonra da Allah onları qurumuş çör-çöp halına gətirər. Şübhəsiz, bunda ağıl sahibləri üçün bir öyüd var.

22. Allahın, qəlbini İslama açtığı, beləliklə, Rəbbindən bir nur üzrə olan kimsə qəlbi

1 Tağut haqqında məlumat üçün Bəqərə surəsinin 256-cı ayəsinin istinadına baxın.

imana qapalı kimsə kimi olarmı? Allahın zikrinə qarşı qəlbləri qatı olanların vay halına! Onlar açıq bir zəlalət içindədirlər.

23. Allah sözün ən gözəlini ayələri, (gözəllikdə) bir-birinə bənzəyən və (hökmləri, öyüdləri, qissələri) təkrarlanan bir kitab olaraq endirmişdir. Rəblərindən qorxanların dəriləri (vücudları) ondan ötrü gərginləşər. Sonra dəriləri də (vücudları da), qəlbləri də Allahın zikrinə qarşı yumşalar. Bax bu Qur`an Allahın hidayət rəhbəridir. Onunla istədiyini doğru yola yönəldər. Allah kimi sapdırarsa, artıq onun üçün heç bir yol göstərən tapılmaz.

24. Qiyamət günü şiddətli əzabdan üzü ilə qorunan kimsə[1] (o gün) əzabdan əmin olan kimsə kimi ola bilərmi? Zalımlara: "Qazandıqlarınızı dadın", – deyilər.

25. Onlardan əvvəlkilər də təkzib etdilər və əzab onlara fərqində olmadıqları bir yerdən gəldi.

26. Beləliklə, Allah dünya həyatında onlara zilləti daddırdı. Əlbəttə, axirət əzabı daha böyükdür. Kaş biləydilər!

27. And olsun, öyüd götürsünlər deyə biz bu Qur`anda insanlar üçün hər cür misal çəkdik.

28. Biz onu Allaha qarşı gəlməkdən çəkinsinlər deyə heç bir nöqsanı olmayan ərəbcə bir Qur`an olaraq endirdik.

29. Allah bir-biri ilə çəkişən müştərək sahibləri olan bir (kölə) adam ilə sadəcə bir nəfərə aid olan bir (kölə) adamı misal çəkdi. Bu iki adamın halı heç eyni olarmı?[2] Həmd Allaha məxsusdur. Xeyr, onların çoxu bilmirlər.

30. (Ey Muhamməd!) Şübhəsiz, sən öləcəksən və şübhəsiz, onlar da öləcəklər.

31. Sonra şübhəsiz, siz qiyamət günü Rəbbinizin hüzurunda mühakimə ediləcəksiniz.

32. Allaha qarşı yalan uyduran və özünə gəldikdə doğrunu (Qur`anı) yalan sayandan daha zalım kim ola bilər? Cəhənnəmdə kafirlər üçün qalacaq yermi yoxdur?

33. Doğrunu (Qur`anı) gətirənlə onu təsdiq edənlər ki var, onlar Allaha qarşı gəlməkdən çəkinənlərdir.

34. Onlar üçün Rəbləri qatında istədikləri hər şey var. Bax bu, yaxşılıq edənlərin mükafatıdır.

35. Allah onların etdiklərinin ən pisini örtmək və onlara etdiklərinin ən gözəli ilə qarşılıq vermək üçün (onları belə mükafatlandırdı).

---

1 Ayədə əzaba düçar olanların əzabdan qorunmaq üçün çarələrinin qalmadığı bildirilir. Bir təhlükə ilə qarşılaşan insan əvvəlcə üzünü qoruyar. Üzünü qoruya bilməyəcək vəziyyətə düşən insanın çarəsi qalmamışdır. Axirətdə əzaba düçar olan kimsənin üzünü qoruma vasitəsi etməsi onun bütün çarələrinin tükəndiyini göstərir.

2 Ayədə Allahın birliyi müşrik ərəblərin gündəlik həyatından bir misalla sübut edilir. Belə ki, kölənin şəriklərindən hər biri ona bir iş tapşırdıqda kölə bunlardan heç birini etməyəcək və işlər qarışacaq. Halbuki, tək sahibi olan kölə ona başqa əmr verən olmadığı üçün işini görüb bitirər. Eynilə bunun kimi Allah birdən çox olsaydı, kainatın nizamı pozulardı. Bu gerçək "Əgər yerdə və göydə Allahdan başqa ilahlar olsaydı, mütləq ikisi də fəsada uğrayardı..". (Ənbiya, 21/22.) ayəsində açıq ifadə edilmişdir.

36. Allah quluna yetməzmi? Səni Ondan (Allahdan) başqaları ilə qorxutmağa çalışırlar. Allah kimi sapdırarsa, artıq onun üçün bir yol göstərən tapılmaz.

37. Allah kimi də doğru yola yönəldərsə, artıq onu sapdıracaq heç kim yoxdur. Allah mütləq güc sahibi, intiqam sahibi deyilmi?

38. And olsun, əgər onlardan: "Göyləri və yeri kim yaratdı?" – deyə soruşsan, əlbəttə: "Allah", – deyərlər. De ki: "Deyin görək, Allahı buraxıb ibadət etdikləriniz ki var, əgər Allah mənə bir zərər vermək istəsə, onlar Allahın toxundurduğu zərəri aradan qaldıra bilərlərmi? Yaxud Allah mənə bir rəhmət diləsə, onlar Onun rəhmətinə mane ola bilərlərmi?" De ki: "Allah mənə yetər. Təvəkkül edənlər sadəcə Ona təvəkkül edərlər".

39, 40. De ki: "Ey qövmüm! Əlinizdən gələni edin. Mən də edəcəyəm. İnsanı rəzil edən əzabın kimə gələcəyini və daimi əzabın kimin başına enəcəyini yaxında biləcəksiniz!"

41. (Ey Muhamməd!) Biz sənə Kitabı (Qur`anı) insanlar üçün haqq olaraq endirdik. Kim doğru yola girərsə, özü üçün girmiş olar. Kim də doğru yoldan saparsa, sadəcə öz əleyhinə sapar. Sən onlara vəkil deyilsən.

42. Allah (ölən) insanların ruhlarını ödükləri zaman, ölməyənlərinkini isə yuxularında alar. Ölümünə hökm verdiklərinin ruhlarını tutar, digərlərini isə müəyyən bir vaxta (ömürlərinin sonuna) qədər buraxar. Şübhəsiz, bunda düşünən bir toplum üçün, əlbəttə, ibrətlər var.

43. Yoxsa Allahdan başqa şəfaətçilər tutdular? De ki: "Onların heç bir şeyə gücləri çatmadığı və düşünə bilmədikləri halda (yenə də onları şəfaətçi tuturlar)?"

44. De ki: "Şəfaət bütünlüklə Allaha aiddir. Göylərin və yerin hökmranlığı Onundur. Sonra yalnız Ona qaytarılacaqsınız".

45. Allah bir tək (ilah) olaraq anıldığı zaman axirətə inanmayanların qəlbləri sıxılar. Allahdan başqaları (ilahları) anıldığı zaman sevinərlər.

46. De ki: "Ey göylərin və yerin yaradıcısı olan, qeybi də, görünən aləmi də bilən Allahım! İxtilafa düşdükləri şeylər barəsində qulların arasından sən hökm verərsən".

47. Əgər yer üzündə olanların hamısı və onunla bərabər bir o qədəri də zülm edənlərin olsaydı, qiyamət günü şiddətli əzabdan qurtulmaq üçün, əlbəttə, onları verərdilər. Artıq heç gözləmədikləri şeylər Allah tərəfindən qarşılarına çıxmışdır.

48. (Dünyada) qazandıqları şeylərin pislikləri qarşılarına çıxmış, istehza etdikləri şey onları bürümüşdür.

49. İnsana bir zərər toxunduğu zaman bizə yalvarar. Sonra ona tərəfimizdən bir nemət verdiyimiz zaman: "Bu, mənə ancaq biliyim sayəsində verilmişdir", – deyər. Xeyr, o bir imtahandır. Ancaq onların çoxu bilməzlər.

50. Bunu onlardan əvvəlkilər də demişdi, amma qazandıqları şeylər onlara heç bir fayda verməmişdi.

51. Nəhayət, qazandıqları şeylərin pislikləri onları yaxalamışdı. Onlardan zülm edən-

lər ki var, qazandıqları şeylərin pislikləri onları yaxalayacaqdır. Onlar Allahı aciz buraxan deyillər.

52. Bilmədilərmi ki, Allah ruzini istədiyinə bol verər və (istədiyinə) az verər. Şübhəsiz, bunda inanan bir toplum üçün, əlbəttə, ibrətlər var.

53. De ki: "Ey öz əleyhinə həddini aşan qullarım! Allahın rəhmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah bütün günahları bağışlayar. Çünki o, çox bağışlayandır, çox mərhəmət edəndir".

54. Əzab sizə gəlməzdən əvvəl Rəbbinizə dönün və ona təslim olun. Sonra sizə yardım edilməz.

55, 56. Siz fərqində olmadan əzab sizə qəflətən gəlməzdən əvvəl Rəbbinizdən sizə endirilənin ən gözəlinə tabe olun ki, insan: "Allahın yanında, işlədiyim qüsurlardan ötrü vay halıma! Həqiqətən, mən istehza edənlərdən idim", – deməsin.

57. Yaxud: "Allah məni doğru yola yönəltsəydi, əlbəttə, Ona qarşı gəlməkdən çəkinənlərdən olardım", – deməsin.

58. Yaxud əzabı gördüyü zaman: "Kaş mənim üçün dünyaya bir qayıdış ola, yaxşılıq edənlərdən olam", – deməsin.

59. (Allah belə deyəcək:) "Xeyr, elə deyil! Ayələrim sənə gəldi, sən onları təkzib etdin, təkəbbür göstərdin və inkar edənlərdən oldun".

60. Qiyamət günü Allaha qarşı yalan söyləyənləri görərsən, üzləri qapqara olmuşdur. Təkəbbür göstərənlər üçün cəhənnəmdə yermi yoxdur!?

61. Allah özünə qarşı gəlməkdən çəkinənləri uğurları səbəbi ilə xilas edər. Onlara pislik toxunmaz. Onlar məhzun olmazlar.

62. Allah hər şeyin yaradıcısıdır. O, hər şeyə vəkildir.

63. Göylərin və yerin açarları Onundur. Allahın ayələrini inkar edənlər ki var, onlar məhz ziyana uğrayanlardır.

64. De ki: "Ey cahillər! Siz mənə Allahdan başqasına ibadət etməyimi əmr edirsiniz?"

65. And olsun, sənə və səndən əvvəlki peyğəmbərlərə belə vəhy olundu: "Əgər Allaha şərik qoşsan, əlbəttə, əməlin puça çıxar və əlbəttə, ziyana uğrayanlardan olarsan".

66. Xeyr, sadəcə Allaha ibadət et və şükür edənlərdən ol.

67. Allahın qədrini layiqincə bilmədilər. Yer üzü qiyamət günü bütünlüklə Onun əlindədir. Göylər də Onun qüdrəti ilə bükülmüşdür. O, onların şərik qoşduqlarından uzaqdır, ucadır.

68. Sura[1] üfürülər və Allahın istədiyi kimsələr xaric göylərdəki hər kəs və yerdəki hər kəs ölər. Sonra ona bir daha üfürülər, bir də görərsən ki, onlar qalxıb gözləyirlər.

69. Yer üzü Rəbbinin nuru ilə aydınlanar. Kitab (əməl dəftərləri) ortaya qoyular. Peyğəmbərlər və şahidlər gətirilər və haqsızlığa məruz qalmadan aralarında ədalətlə hökm verilər.

1 Sur üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bilinməyən bir növ boru deməkdir.

70. Hər kəsə əməlinin qarşılığı tam olaraq verilər. Allah onların etdiklərini ən yaxşı biləndir.

71. İnkar edənlər dəstə-dəstə cəhənnəmə sövq edilərlər. Cəhənnəmə çatdıqları zaman oranın qapıları açılar və cəhənnəm gözətçiləri onlara belə deyərlər: "Sizə aranızdan Rəbbinizin ayələrini sizə oxuyan və bu gününüzə qovuşacağınıza dair sizi xəbərdar edən peyğəmbərlər gəlmədimi?" Onlar isə: "Bəli, gəldi", – deyərlər. Lakin inkar edənlər haqqında əzab sözü gerçəkləşmişdir.

72. Onlara belə deyilər: "İçində əbədi qalmaq üzrə cəhənnəmin qapılarından girin. Təkəbbür göstərənlərin qalacağı yer nə pisdir!"

73. Rəblərinə qarşı gəlməkdən çəkinənlər isə dəstə-dəstə cənnətə sövq edilərlər. Cənnətə çatdıqları zaman oranın qapıları açılar və cənnət gözətçiləri onlara belə deyər: "Salam olsun sizə! Tərtəmiz oldunuz. Əbədi qalmaq üzrə girin buraya!"

74. Onlar belə deyərlər: "Həmd bizə olan vədini gerçəkləşdirən və bizi cənnətdən istədiyimiz yerə qoyulmaq üçün bu yurda varis edən Allaha məxsusdur. Saleh əməl işləyənlərin mükafatı nə gözəl imiş!"

75. Mələkləri də Rəblərini həmd ilə təsbih edib ucaldaraq Ərşin ətrafını əhatə edən halda görərsən. Artıq qulların arasında ədalətlə hökm verilmiş və: "Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur", – deyilmişdir.

## 40. MÖMİN SURƏSİ

56 və 57-ci ayələr xaric Məkkə dövründə nazil olmuşdur. 85 ayədən ibarətdir. Surənin adı 28-ci ayədə keçən "mömin" sözündən götürülmüşdür. Mömin inanan deməkdir. Ayədə bəhs olunan mömin Firon ailəsinin gizlicə iman edən və ətrafındakıları haqqa yönəltməyə çalışan bir fərdidir. Bundan başqa surə Allahın sifətlərindən biri olan və 3-cü ayədə keçən "ğafir" sözündən ötrü "Ğafir" surəsi olaraq da adlanır. Ğafir bağışlayan deməkdir. Surədə başlıca olaraq Allahın birliyini göstərən bəzi dəlillər qeyd edilərək qiyamətlə bağlı təsvirlərə yer verilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ha Mim.[1]

2, 3. Bu kitabın endirilməsi mütləq güc sahibi, haqqı ilə bilən, günahı bağışlayan, tövbəni qəbul edən, əzabı ağır olan, lütf sahibi Allah tərəfindəndir. Ondan başqa ilah yoxdur. Qayıdış ancaq Onadır.

4. Allahın ayələri haqqında inkar edənlərdən başqası mübahisəyə girməz. Onların şəhərlərdə gəzib dolaşmaları səni aldatmasın.

5. Onlardan əvvəl Nuhun qövmü və onlardan sonra gələn qövmlər də təkzib etmişdi. Hər ümmət öz peyğəmbərini yaxalayıb cəzalandırmağa çalışmışdı. Haqqı yox etmək üçün batil şeylər irəli sürərək mübahisə etmişdilər. Bu səbəblə onları yaxaladım. Mənim cəzalandırmağım necə imiş (gördülər)!

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

6. Beləliklə, Rəbbinin inkar edənlər haqqındakı: "Onlar cəhənnəmliklərdir" sözü gerçəkləşdi.

7. Ərşi daşıyanlar və onun ətrafında duranlar (mələklər) Rəblərini həmd edərək təsbih edərlər, Ona inanarlar və inananlar üçün (belə deyərək) əfv diləyərlər: "Ey Rəbbimiz! Sənin rəhmətin və elmin hər şeyi əhatə etmişdir. O halda tövbə edən və sənin yoluna uyanları bağışla və onları cəhənnəm əzabından qoru".

8. "Ey Rəbbimiz! Onları da, onların atalarından, zövcələrindən və nəsillərindən yaxşı olanları da onlara vəd etdiyin Ədn cənnətlərinə qoy. Şübhəsiz, sən mütləq güc sahibisən, hökm və hikmət sahibisən".

9. "Onları pisliklərdən qoru. Sən o gün kimi pisliklərdən qorusan, ona rəhmət etmiş olarsan. Bax bu, böyük uğurdur".

10. İnkar edənlər ki var, mütləq onlara: "Allahın (sizə) qəzəbi sizin özünüzə olan qəzəbinizdən daha böyükdür. Çünki siz imana çağırıldığınız zaman inkar edərdiniz", – deyə səslənilər.

11. Onlar da belə deyərlər: "Ey Rəbbimiz! Bizi iki dəfə öldürdün, iki dəfə də diriltdin.[1] Günahlarımızı qəbul edirik. İndi (bu atəşdən) bir çıxış yolu varmı?"

12. (Onlara belə deyilər:) "Bu, tək olan Allaha çağırıldığınız zaman inkar etməniz, Ona şərik qoşulduğu zaman isə inanmanız səbəbi ilədir. Artıq hökm uca və böyük Allaha aiddir".

13. O, sizə ayələrini göstərən, sizin üçün göydən ruzi endirəndir. Sadəcə Ona yönələn düşünüb ibrət götürər.

14. O halda kafirlərin xoşuna gəlməsə də siz dini Allaha məxsus edərək Ona ibadət edin.

15. O, dərəcələri haqqı ilə yüksəldəndir, Ərşin sahibidir. Görüş günü haqqında (insanları) xəbərdar etmək üçün iradəsi ilə bağlı vəhyi qullarından istədiyinə özü endirər.

16. O gün onlar ortaya çıxarlar. Onların heç bir şeyi Allahdan gizli qalmaz. Bu gün mülk (hökmranlıq) kimindir? Tək olan, hər şeyi qüdrət və hakimiyyəti altında tutan Allahındır.

17. Bu gün hər kəsə qazandığının qarşılığı verilər. Bu gün əsla zülm yoxdur. Şübhəsiz, Allah tez hesaba çəkəndir.

---

1 Ayədə qeyd edilən iki diriltmədən birincisi ilə dünyaya diri olaraq gətirilmə, ikincisi ilə isə öldükdən sonra diriltmə nəzərdə tutulur. İki ölümdən birincisi dünya həyatından axirət həyatına keçiş olan ölüm, ikincisi isə kafirlərin cəhənnəmdə dadacaqları məcazi ölümdür. Kafirlər cəhənnəmdə ölüb yox olmağı arzulayacaq əbədi bir əzab çəkəcəklər. Onlara ölüb yox olmağı arzu etdirən bu əzab "İlk ölümümüzdən başqa ölüm görməyəcəyik? Bizə əzab edilməyəcək?" (Saffat, 37/58-59.) ayələrinin də işarə etdiyi kimi ölüm adlandırılır. Bu cür bir ölüm sadəcə kafirlərə aiddir. Möminlər isə heç bir şəkildə dünyadakı ölümdən başqa ölüm dadmayacaqlar. "Orada ilk ölümdən başqa heç bir ölüm dadmazlar..". Duxan surəsinin 56-cı ayəsi bunu açıq-aydın göstərir. Ayədə keçən ikinci ölümün qəbir sorğu-sualından sonrakı bir ölüm olduğu ifadə edilsə də, bu yanaşma səhih deyil. Çünki bu anlayışa görə möminlər də ikinci dəfə öləcəklər. Halbuki bu, yuxarıda qeyd edilən Duxan surəsinin 56-cı ayəsinə ziddir. Ayədə keçən iki ölümdən birincisinin dünyaya gəlməzdən əvvəlki yoxluq olduğu da bildirilmişdir.

18. Yaxınlaşan gün haqqında onları xəbərdar et. O gün ürəklər qəm-qüssə ilə doludur, (sanki) qırtlağa qədər dolmuşdur. Zalımların nə yaxın bir dostu, nə də sözü eşidilən bir şəfaətçisi var.

19. Allah gözlərin xain baxışını və qəlblərin nə gizlədiyini bilər.

20. Allah haqq və ədalətlə hökm edər. Allahdan başqa tapındıqları isə heç bir hökm verə bilməzlər. Şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə görəndir.

21. Onlar yer üzündə gəzib özlərindən əvvəlkilərin aqibətlərinin necə olduğuna baxmadılarmı? Onlar özlərindən daha güclü və yer üzündəki əsərləri daha üstün idi. Buna rəğmən Allah günahları səbəbi ilə onları yaxaladı. Onları Allahın əzabından qoruyan olmadı.

22. Bunun səbəbi bu idi: Peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirirdilər, onlar isə inkar edirdilər. Bu səbəblə Allah onları yaxaladı. Şübhəsiz, O, güclüdür, cəzası da çox şiddətlidir.

23, 24. And olsun ki, biz Musanı möcüzələrimizlə və açıq-aşkar bir dəlillə Firona, Hamana və Qaruna[1] göndərdik. Onlar isə: “Bu, çox yalançı bir sehrbazdır”, – dedilər.

25. Musa onlara tərəfimizdən haqqı gətirdiyi zaman: “Onunla birlikdə iman edənlərin oğullarını öldürün, qadınlarını sağ buraxın”, – dedilər. Kafirlərin hiyləsi ancaq boşa çıxar.

26. Firon dedi ki: “Buraxın məni, Musanı öldürüm. (Faydası olacaqsa,) Rəbbini köməyə çağırsın! Çünki mən onun dininizi dəyişdirəcəyindən, yaxud yer üzündə fitnə-fəsad çıxaracağından qorxuram”.

27. Musa: “Mən hesab gününə inanmayan hər bir təkəbbür sahibindən mənim də, sizin də Rəbbiniz olan Allaha sığınıram”, – dedi.

28. Firon ailəsindən imanını gizləyən mömin bir adam belə dedi: “Rəbbim Allahdır, dediyi üçün bir insanı öldürəcəksiniz? Halbuki o, sizə Rəbbinizdən açıq-aşkar möcüzələr gətirdi. Əgər yalançıdırsa, yalanı öz əleyhinədir. Əgər doğru deyirsə, sizi qorxutduğu şeylərin bir qismi başınıza gələcək. Şübhəsiz, Allah həddi aşan, yalançı kimsəni doğru yola yönəltməz”.

29. “Ey qövmüm! Bu gün yer üzünə hakim kimsələr olaraq iqtidar və səltənət sizindir. Ancaq Allahın əzabı başımıza gəldiyi zaman bizi (ondan) kim xilas edər?” Firon: “Mən sizə ancaq öz fikrimi bildirirəm və sizi ancaq doğru yola yönəldirəm”.

30, 31. İman edən adam dedi ki: “Ey qövmüm! Şübhəsiz, mən Nuh qövmü, Ad qövmü, Səmud qövmü və onlardan sonra gələn qövmlərin başına gələn müsibətlərin sizin də başınıza gəlməsindən qorxuram. Allah qullarına əsla zülm etmək istəməz”.

32, 33. “Ey qövmüm! Həqiqətən, sizin üçün sıxıntı içində bir-birinizi çağıracağınız gündən, dönüb qaçmağa çalışacağınız gündən qorxuram. (O gün) sizi Allah(ın əzabın)dan xilas edəcək heç kim yoxdur. Allah kimi sapdırsa, onu doğru yola yönəldən tapılmaz”.[2]

---

1 Haman Fironun baş vəziridir. Qarun isə İsrail oğullarından haqq-hüquq tanımayan azğın bir zəngin idi.

2 “Allahın sapdırması” ifadəsi ilə əlaqəli olaraq Bəqərə surəsinin 26-cı ayəsi və onun istinadına baxın.

34. And olsun, daha əvvəl Yusuf da sizə açıq-aşkar dəlillər gətirmişdi. Onun sizə gətirdikləri haqqında şübhə etmişdiniz. Daha sonra o öldükdə: "Allah ondan sonra əsla peyğəmbər göndərməz", – demişdiniz. Allah həddi aşan şübhəçiləri bax belə sapdırar.

35. Onlar özlərinə gələn heç bir dəlil olmadan Allahın ayələri haqqında mübahisə edən kimsələrdir. Bu isə Allah qatında və iman edənlər qatında böyük qəzəbə səbəb olar. Allah hər bir təkəbbürlü zorbanın qəlbini bax belə möhürləyər.

36, 37. Firon dedi ki: "Ey Haman! Mənə yüksək bir qüllə tik, bəlkə yollara, göylərin yollarına çataram, Musanın ilahını görərəm (!) Çünki mən onun yalançı olduğuna inanıram". Beləliklə, Firona etdiyi pis əməl süslü göstərildi və doğru yoldan azdırıldı. Fironun hiyləsi tamamilə nəticəsiz qaldı.

38. O inanan kimsə dedi ki: "Ey qövmüm! Mənə tabe olun ki, sizi doğru yola yönəldim".

39. "Ey qövmüm! Şübhəsiz, bu dünya həyatı sadəcə (müvəqqəti) bir faydalanmadır. Axirət isə əbədi qalınacaq yerdir".

40. "Kim bir pislik edərsə, sadəcə o qədər cəza alar. Qadın və ya kişi kim mömin olaraq saleh bir əməl işləsə, onlar cənnətə girəcək və onlara orada saysız-hesabsız ruzi veriləcək".

41. "Ey qövmüm! Bu nə işdir? Mən sizi qurtuluşa çağırıram, siz isə məni atəşə çağırırsınız".

42. "Siz məni Allahı inkar etməyə və haqqında biliyim olmayan şeyləri Ona şərik qoşmağa çağırırsınız. Mən isə sizi mütləq güc sahibinə, çox bağışlayana (Allaha) çağırıram".

43. "Şübhəsiz, sizin məni tapınmağa çağırdığınız şeyin nə dünya, nə də axirət haqqında heç bir çağırışı yoxdur. Şübhəsiz, qayıdışımız Allahadır. Şübhəsiz, həddi aşanlar cəhənnəmliklərdir".

44. "Sizə dediklərimi xatırlayacaqsınız. Mən işimi Allaha həvalə edirəm. Şübhəsiz, Allah qullarını haqqı ilə görəndir".

45. Allah onu onların hiylələrinin pisliklərindən qorudu. Firon ailəsini əzabın ən pisi bürüdü.

46. (Elə bir) atəşdir ki, onlar səhər-axşam ona ərz olunarlar. Qiyamətin qopacağı gün: "Firon ailəsini əzabın ən şiddətlisinə atın", – deyiləcək.

47. Atəşin içində bir-biriləri ilə mübahisə edərkən zəif olanlar təkəbbür göstərənlərə: "Biz sizə tabe olan kimsələr idik. İndi bu atəşin bir qismini üstümüzdən götürə bilərsiniz?" – deyərlər.

48. Təkəbbür göstərənlər isə belə deyərlər: "Biz hamımız atəşin içindəyik. Şübhəsiz, Allah qullar arasında (belə) hökm vermişdir".

49. Atəşdə olanlar cəhənnəm gözətçilərinə: "Rəbbinizə yalvarın, (heç olmasa) bir gün bizdən əzabı yüngülləşdirsin", – deyərlər.

50. (Cəhənnəm gözətçiləri) deyərlər ki: "Sizə peyğəmbərləriniz açıq-aşkar möcüzələr

gətirmədimi?" Onlar: "Bəli gətirdi", – deyərlər. (Gözətçilər:) "Elə isə özünüz yalvarın", – deyərlər. Şübhəsiz, kafirlərin duası hədər olar.

51. Şübhəsiz, peyğəmbərlərimizə və iman edənlərə dünya həyatında və şahidlərin şahidlik edəcəkləri gündə kömək edərik.

52. O gün zalımlara bəhanələri fayda verməz. Lənət də onlaradır, pis yurd da onlaradır.

53, 54. And olsun, biz Musaya hidayət verdik. İsrail oğullarına da ağıl sahibləri üçün öyüd və doğruluq rəhbəri olaraq o kitabı (Tövratı) miras qoyduq.

55. (Ey Muhammәd!) Səbir et. Allahın vədi şübhəsiz, gerçəkdir. Günahının bağışlanmasını istə. Axşam-səhər Rəbbini həmd edərək təsbih et.

56. Allahın ayələri haqqında özlərinə gələn bir dəlilləri olmadan mübahisə edənlər ki var, onların qəlblərində sadəcə təkəbbür var. Onlar göstərdikləri təkəbbürə əsla çatmazlar. Sən Allaha sığın. Şübhəsiz, O, haqqı ilə eşidəndir, haqqı ilə görəndir.

57. Əlbəttə, göylərin və yerin yaradılması insanların yaradılmasından daha böyükdür. Ancaq insanların çoxu bilməzlər.

58. Kor ilə görən, iman edib saleh əməllər işləyənlər ilə pislik edən bir deyildir. Siz çox az düşünürsünüz.

59. Qiyamət günü mütləq gələcək, bunda heç bir şübhə yoxdur. Ancaq insanların çoxu buna inanmazlar.

60. Rəbbiniz belə dedi: "Mənə dua edin, duanıza cavab verim. Mənə qulluq etməyi özünə sığışdırmayanlar zəlil halda cəhənnəmə girəcəklər".

61. Allah, içində rahat olasınız deyə gecəni və (hər şeyi) göstərən (aydınlıq) gündüzü yaradandır. Şübhəsiz, Allah insanlara qarşı çox lütfkardır, ancaq insanların çoxu şükür etməzlər.

62. Bax budur hər şeyin yaradanı olan Rəbbiniz Allah! Ondan başqa heç bir ilah yoxdur. Bu halda necə olur ki, (haqdan) döndərilirsiniz?

63. Allahın ayələrini inkar edənlər bax belə döndərilərlər.

64. Allah yer üzünü sizin üçün qərar tutma yeri, göyü isə tavan olaraq yaradan, sizə surət verib surətlərinizi gözəlləşdirən və sizə təmiz ruzilər verəndir. Bax budur Rəbbiniz Allah. Aləmlərin Rəbbi olan Allah nə ucadır.

65. O, diridir. Ondan başqa heç bir ilah yoxdur. O halda sadəcə Allaha itaət edərək (səmimiyyətlə) Ona ibadət edin. Həmd aləmlərin Rəbbinə məxsusdur.

66. De ki: "Rəbbimdən mənə açıq-aşkar dəlillər gəldikdə Allahı buraxıb tapındıqlarınıza tapınmağım mənə qadağan edildi və mənə aləmlərin Rəbbinə təslim olmağım əmr edildi".

67. O, sizi (əvvəlcə) torpaqdan, sonra az bir sudan (mənidən), sonra ələqədən[1] yaradan, sonra sizi (ana rəhmindən) uşaq olaraq çıxaran, sonra yetkinlik çağına çatma-

1 Ələqə kişinin sperması ilə mayalanmış dişi yumurtadan bir həftə ərzində yaranan hüceyrə topluluğunun rəhmin divarından asılıb yapışmış şəkli deməkdir. İnsanın yaradılış mərhələləri haqqında baxın: Həcc, 22/5, Mu`minun, 23/14, Ələq, 96/2.

nız, sonra da ixtiyarlıq çağına çatasınız deyə sizi yaşadandır. Aranızdan daha əvvəl ölənlər də var. Allah bunları müəyyən bir vaxta çatasınız və düşünəsiniz deyə edər.

68. O, yaşadan və öldürəndir. Bir şeyə qərar verdikdə ona sadəcə "Ol!" deyər, o da dərhal olar.

69. Allahın ayələri haqqında mübahisə edənləri görmədinmi? Necə də döndərilirlər?

70. Onlar kitabı (Qur`anı) və elçilərimizə göndərdiklərimizi təkzib etdilər. Onlar biləcəklər.

71, 72. O zaman onlar boyunlarında dəmir halqalar və zəncirlərlə qaynar suda sürüklənəcəklər, sonra da atəşdə yandırılacaqlar.

73, 74. Sonra onlara: "Allahı buraxıb şərik qoşduqlarınız haradadır?" – deyilər. Onlar isə: "(Üzü üstə buraxıb) bizdən uzaqlaşdılar. Xeyr, sən demə, biz əvvəllər heç bir şeyə tapınmırmışıq (tapındıqlarımız heç imiş)", – deyərlər. Allah inkar edənləri bax belə sapdırar.

75. Bu, sizin yer üzündə haqsız yerə sevinməniz və təkəbbürlənmənizə görədir.

76. Onlara: "Əbədi qalmaq üzrə cəhənnəm qapılarından girin. Təkəbbür göstərənlərin yeri nə pisdir!" (– deyilər.)

77. Sən səbir et. Şübhəsiz, Allahın verdiyi söz gerçəkdir. Onlara vəd etdiyimiz əzabın bir qismini sənə göstərsək də (ya da göstərməzdən əvvəl), səni vəfat etdirsək də sonda onlar bizə qaytarılacaqlar.

78. And olsun, səndən əvvəl də peyğəmbərlər göndərdik. Onlardan sənə danışdıqlarımız da var, danışmadıqlarımız da var. Heç bir peyğəmbər Allahın izni olmadan bir möcüzə gətirə bilməz. Allahın əmri gəldikdə isə haqq yerinə gətirilər. Bax o zaman bunu batil sayanlar ziyana uğrayarlar.

79. Allah, bəzisini minəsiniz, bəzisini isə yeyəsiniz deyə sizin üçün heyvanları yaradandır.

80. Onlarda sizin üçün daha bir çox mənfəət var. Ürəklərinizdən keçən ehtiyaclara onlar vasitəsilə çatasınız deyə onları yaratmışdır. Onlarla və gəmilərlə daşınırsınız.

81. Allah sizə ayələrini göstərir. Allahın hansı ayələrini inkar edirsiniz?

82. Onlar yer üzündə gəzib özlərindən əvvəl gələnlərin aqibətlərinin necə olduğuna baxmadılarmı? Onlar özlərindən daha çox, daha güclü və yer üzündəki əsərləri daha üstün idi. Ancaq qazandıqları onlara fayda vermədi.

83. Peyğəmbərləri onlara açıq-aşkar dəlillər gətirdikdə öz bilikləri ilə qürrələndilər (və onları məsxərəyə qoydular). İstehza etdikləri şey sonda onları yaxaladı.

84. Əzabımızı gördükləri zaman: "Sadəcə Allaha inandıq, Ona şərik qoşduqlarımızı inkar etdik", – dedilər.

85. Ancaq əzabımızı gördükləri zaman inanmaları onlara fayda vermədi. Bu, Allahın, qulları haqqında əvvəldən bəri qoyduğu qanunudur. Bax orada inkar edənlər ziyana uğradılar.

# 41. FUSSİLƏT SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 54 ayədən ibarətdir. Surənin adı 3-cü ayədə keçən və Qur`an ayələrini vəsf edən "fussilət" sözündən götürülmüşdür. Fussilət "müfəssəl izah olundu" deməkdir. Bu surə "Ha Mim əs-Səcdə" olaraq da adlandırılır. Surədə başlıca olaraq haqqa dəvət, batildə təkid edənlərin xəbərdar olunması, vəhyin insanlar üzərindəki əxlaqi və mənəvi təsirlərindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ha Mim.[1]
2. Bu Qur`an Rəhman və Rəhim olan Allahdan endirilmişdir.
3. Bu, bilən bir toplum üçün ərəbcə bir Qur`an olaraq ayələri müfəssəl açıqlanmış bir kitabdır.
4. Müjdələyən və xəbərdar edən olaraq göndərilmişdir. Ancaq onların çoxu üz döndərmişdir. Artıq onlar eşitməzlər.
5. Dedilər ki: "(Ey Muhamməd!) Bizi çağırdığın şeyə qarşı qəlblərimiz örtüklər içindədir. Qulaqlarımızda bir ağırlıq, səninlə bizim aramızda isə bir pərdə var. O halda sən (istədiyini) et, şübhəsiz, biz də (istədiyimizi) edəcəyik".[2]
6. De ki: "Mən də sadəcə sizin kimi bir insanam. Ancaq mənə ilahınızın bir tək ilah olduğu vəhy edilir. Artıq Ona üz tutun və Ondan bağışlanma diləyin. Allaha şərik qoşanların vay halına!"
7. Onlar zəkatı verməyən kimsələrdir. Onlar axirəti də inkar edərlər.
8. Şübhəsiz, iman edib saleh əməllər işləyənlər üçün isə daimi bir mükafat var.
9. De ki: "Siz yeri iki gündə (iki mərhələdə) yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O, aləmlərin Rəbbidir".
10. O, dörd gündə (dörd mərhələdə) yer üzündə ucalan sabit dağlar yaratdı, orada bolluq və bərəkət meydana gətirdi və orada ruzi axtaranların ehtiyaclarına uyğun olaraq ruzilər təqdir etdi.
11. Sonra duman halında olan göyə yönəldi, ona və yer üzünə: "İstəyərək və ya istəməyərək gəlin", – dedi. İkisi də: "İstəyərək gəldik", – dedilər.
12. Beləliklə, onları iki gündə (iki mərhələdə) yeddi göy olaraq yaratdı və hər göyə öz işini bildirdi. Ən yaxın göyü qəndillərlə bəzədik və onu qoruduq. Bax bu, mütləq güc sahibi və haqqı ilə bilən Allahın təqdiridir.
13. Əgər üz döndərsələr, onlara de ki: "Mən sizi Ad və Səmud qövmlərini vuran ildırım kimi bir ildırımla xəbərdar etdim".

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Müşriklərin qəlblərinin örtüklər içində olması, qulaqlarında ağırlıq və onlarla Peyğəmbər arasında bir pərdənin olması məcazi ifadələr olub onların inkarda inadkar olmalarını bildirir.

14. Bir vaxt onlara peyğəmbərlər önlərindən və arxalarından[1] gəlmiş: "Allahdan başqasına ibadət etməyin", – demişdilər, onlar isə: "Əgər Rəbbimiz istəsəydi, (peyğəmbər olaraq) mələklər endirərdi. Bu səbəblə biz sizinlə göndərilənləri inkar edirik", – demişdilər.

15. Ad qövmü isə yer üzündə haqsız yerə təkəbbür göstərmiş: "Bizdən daha güclü kim var?" – demişdilər. Onlar özlərini yaradan Allahın onlardan daha güclü olduğunu görmədilərmi? Onlar bizim ayələrimizi inkar edirdilər.

16. Biz də onlara dünya həyatında zillət əzabını daddırmaq üçün o bədbəxt qara günlərdə üstlərinə dondurucu bir külək göndərdik. Axirət əzabı, əlbəttə, daha rüsvayedicidir. Onlara kömək edilməz.

17. Səmud qövmünə gəlincə, biz onlara doğru yolu göstərmişdik. Amma onlar korluğu hidayətdən üstün tutmuş və etdiklərinin qarşılığı olaraq alçaldıcı əzab ildırımı onları vurmuşdu.

18. İnananları və Allaha qarşı gəlməkdən çəkinənləri xilas etdik.

19. Allahın düşmənlərinin toplanıb dəstə-dəstə cəhənnəmə atılacağı günü xatırla!

20. Nəhayət, cəhənnəmə çatdıqları zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər haqqında özləri əleyhinə şahidlik edərlər.

21. Onlar dərilərinə: "Nə üçün əleyhimizə şahidlik etdiniz?" – deyərlər. Dəriləri isə deyər ki: "Bizi hər şeyi danışdıran Allah danışdırdı. İlk dəfə sizi O yaratmışdı və yenə yalnız Ona qaytarılırsınız".

22. "Siz (günah işlərkən) qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şahidlik etməsindən çəkinmirdiniz. Etdiklərinizin çoxunu Allahın bilmədiyini zənn edirdiniz".

23. "Bax bu, sizin Rəbbiniz haqqında zənn etdiyiniz zənninizdir. O, sizi məhv etdi, ziyana uğrayanlardan oldunuz".

24. İndi əgər dözə bilsələr, cəhənnəm onların yeridir! Əgər Allahın razılığını qazandıracaq əməlləri işləməyə izin istəsələr, onlara izin verilməz.

25. Biz onlara bəzi dostlar qoşduq, bu dostlar onlara keçmişlərini və gələcəklərini süslü göstərdilər. Beləliklə, onlardan əvvəl gəlib keçən cin və insan toplulukları haqqındakı o söz (əzab) onlar haqqında da gerçəkləşdi. Çünki onlar ziyana uğrayanlar idi.

26. İnkar edənlər dedilər ki: "Bu Qur`anı dinləməyin. Üstün gəlmək üçün o oxunarkən səs-küy salın".

27. İnkar edənlərə mütləq şiddətli bir əzabı daddıracağıq və onları etdiklərinin ən pisi ilə cəzalandıracağıq.

28. Bax belə, Allahın düşmənlərinin cəzası atəşdir. Ayələrimizi inkar etmələrinin cəzası olaraq orada onlar üçün əbədilik yurdu var.

29. (Atəşə girən) inkar edənlər belə deyərlər: "Rəbbimiz! Cinlərdən və insanlardan

1 Önlərindən və arxalarından peyğəmbərlərin gəlməsi ifadəsi ilə nəzərdə tutulan onların hər cür şəraitdən istifadə edərək həqiqəti təbliğ etmələridir.

bizi sapdıranları bizə göstər, onları ayaqlarımızın altına salaq ki, ən səfillərdən olsunlar".

30. Şübhəsiz, "Rəbbimiz Allahdır" deyib sonra doğru olanlar ki var, onların üstünə axın-axın mələklər enər və deyərlər ki: "Qorxmayın, hüznlənməyin, sizə (dünyada) vəd edilən cənnətlə sevinin!"

31, 32. "Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Çox bağışlayan və çox mərhəmətli olan Allahdan bir lütf olaraq orada ürəklərinizin istədiyi hər şey var, istədiyiniz hər şey orada sizin üçün var".

33. Allaha çağıran, saleh əməl işləyən və "Şübhəsiz, mən müsəlmanlardanam" deyəndən daha gözəl sözlü kimdir?

34. Yaxşılıqla pislik bir olmaz. Pisliyi ən gözəl şəkildə dəf et. Bir də görərsən ki, səninlə arasında düşmənlik olan kimsə sanki yaxın bir dost olub.

35. Bu gözəl davranışa sadəcə səbir edənlər qovuşdurular. Buna sadəcə (xeyir və kamillikdən) böyük payı olanlar qovuşdurular.

36. Əgər şeytandan gələn pis bir düşüncə sənə vəsvəsə versə, dərhal Allaha sığın. Çünki O, haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

37. Gecə, gündüz, günəş və ay Allahın varlığının dəlillərindəndir. Günəşə və aya səcdə etməyin. Əgər, həqiqətən, Allaha qulluq edirsinizsə, onları yaradan Allaha səcdə edin.[1]

38. Əgər onlar təkəbbür göstərsələr, bilsinlər ki, Rəbbinin yanında olanlar (mələklər) gecə-gündüz heç usanmadan Onu təsbih edirlər.

39. Allahın varlığının dəlillərindən biri də budur: Sən yer üzünü boynu bükük (qupquru) görürsən. Onun üstünə yağışı endirdiyimiz zaman hərəkətə gəlib qabarar. Şübhəsiz, onu dirildən, əlbəttə, ölüləri də diriİdər. Şübhəsiz, O, hər şeyə haqqı ilə gücü yetəndir.

40. Ayələrimiz barəsində (təkzib etmək məqsədilə) doğruluqdan ayrılanlar bizə gizli qalmaz. O halda qiyamət günü atəşə atılan daha xeyirlidir, yoxsa əmin-amanlıq içində gələn? İstədiyinizi edin. Şübhəsiz, O, etdiklərinizi haqqı ilə görür.

41. Qur`an gəldiyi zaman onu inkar edənlər mütləq cəzalarını çəkəcəklər. Şübhəsiz, o çox dəyərli və möhkəm bir kitabdır.

42. Ona nə önündən, nə də arxasından batil gələ bilməz. O, hökm və hikmət sahibi, tərifə layiq olan Allah tərəfindən endirilmişdir.

43. Sənə sadəcə səndən əvvəlki peyğəmbərlərə deyilənlər deyilir. Şübhəsiz, sənin Rəbbin həm məğfirət sahibi, həm də ağrılı-acılı bir əzab sahibidir.

44. Əgər biz onu başqa dildə bir Qur`an etsəydik, onlar, mütləq: "Onun ayələri müfəssəl açıqlanmalı deyildimi? Başqa dildə bir kitab və ərəb bir peyğəmbərmi?" –

1 Ayədən müşriklərin bir qisminin günəşə və aya tapındıqları anlaşılır. "Biz onlara sadəcə bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik". (Zümər, 39/3.) şəklindəki sözlərindən belə görünür ki, müşriklər günəşə, aya və bütlərə ibadət etməklə əslində Allaha ibadət etdiklərini iddia edirdilər. Bu ayə onların bu məsələdə təzad içində olduqlarını, əgər həqiqətən, Allaha ibadət edirlərsə, səcdəni də ona etməli olduqlarını bildirir.

deyərdilər. De ki: "O, inananlar üçün bir hidayət və şəfadır. İnanmayanların qulaqlarında bir ağırlıq var və Qur`an onlara qapalı və anlaşılmaz gəlir. (Sanki) onlara uzaq bir yerdən səslənilir (amma anlamırlar)".

45. And olsun! Biz Musaya Kitabı (Tövratı) vermişdik, onda ixtilafa düşmüşdülər. Əgər (əzabın gecikdirilməsi haqqında əzəldə) Rəbbindən bir söz olmasaydı, aralarında dərhal hökm verilərdi. Şübhəsiz, onlar Qur`an haqqında dərin bir şübhə içindədirlər.

46. Kim yaxşı bir iş görərsə, öz lehinədir. Kim də pis iş görərsə, öz əleyhinədir. Rəbbin qullara (zərrə qədər) zülm edən deyil.

47. Qiyamətin nə zaman qopacağını bilmək yalnız Ona aiddir. Meyvələrin tumurcuqlarından çıxması, dişinin hamilə qalması və doğması ancaq Onun elmi ilədir. Allah onlara: "Mənə şərik qoşduqlarınız haradadır?" – deyə səsləndiyi gün belə deyərlər: "Sənə ərz edirik ki, bizdən onları görən heç kim yoxdur".

48. Daha əvvəl yalvardıqları tanrılar onları darda qoyub uzaqlaşmışdır. Qaçacaq bir yerləri olmadığını anlamışdılar.

49. İnsan xeyir (mal, mülk, bolluq) istəməkdən usanmaz. Ancaq başına bir pis iş gəldiyi zaman ümidsizliyə düşər, yıxılar.

50. And olsun! Başına gələn bir müsibətdən sonra ona tərəfimizdən bir rəhmət daddırsaq, mütləq: "Bu mənim haqqımdır, qiyamətin qopacağını da güman etmirəm. And olsun, Rəbbimə qaytarılsam, şübhəsiz, Onun yanında mənim üçün daha yaxşı şeylər var", – deyər. And olsun, biz inkar edənlərə etdiklərini mütləq xəbər verəcəyik və and olsun, onlara mütləq ağır əzabdan daddıracağıq.

51. İnsana nemət verdiyimiz zaman üz döndərər və boyun qaçırar. Başına bir müsibət gəldikdə isə yalvarmağa başlayar.

52. De ki: "Nə düşünürsünüz? Əgər o (Qur`an), Allah qatından olduğu halda siz də onu inkar etmisinizsə, o zaman dərin bir ixtilaf içində olan kimsədən daha sapqın kim ola bilər? "

53. Varlığımızın dəlillərini həm (kainatdakı ucsuz-bucaqsız) üfüqlərdə, həm də öz nəfslərində onlara göstərəcəyik ki, o Qur`anın haqq olduğu onlara tam aydın olsun. Rəbbinin hər şeyə şahid olduğu yetməzmi?

54. Yaxşı bilin ki, onlar Rəblərinə qovuşmaq barəsində şübhə içindədirlər. Yaxşı bilin ki, O, hər şeyi əhatə edəndir.

# 42. ŞURA SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 53 ayədən ibarətdir. Surənin adı 38-ci ayədə keçən "Şura" sözündən götürülmüşdür. Şura məşvərət deməkdir. Surədə başlıca olaraq müsəlmanların işlərini məşvərət yolu ilə həll etmələrindən, kainatda Allahın birliyini göstərən dəlillərdən və qiyamət gününün hallarından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ha Mim.
2. Ayn Sin Qaf.[1]
3. (Ey Muhamməd!) Mütləq güc sahibi, hökm və hikmət sahibi olan Allah sənə və səndən əvvəlkilərə bax belə vəhy edir.
4. Göylərdə və yerdə nə varsa, hamısı Onundur. O, ucadır, böyükdür.
5. Az qala göylər (onun əzəmətindən) üstlərindən çatlayacaqlar. Mələklər isə Rəblərini həmd ilə təsbih edərlər və yer üzündəkilər üçün bağışlanma diləyərlər. Yaxşı bilin ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.
6. Allahdan başqa dostlar tutanlara gəlincə, Allah onları daima izləyir. Sən onlara vəkil deyilsən.
7. Beləliklə, biz sənə ərəbcə bir Qur`an vəhy etdik ki, şəhərlərin anası olan Məkkədə və ətrafında olanları xəbərdar edəsən. Haqqında əsla şübhə olmayan toplanma günü ilə onları xəbərdar edəsən. Bir zümrə cənnətdə, bir zümrə isə cəhənnəmdədir.
8. Allah istəsəydi, onları (eyni dinə mənsub) tək bir ümmət edərdi. Lakin O, istədiyini rəhmətinə qovuşdurar. Zalımların isə bir dost və yardımçısı yoxdur.
9. Yoxsa onlar Allahdan başqa dostlar tutdular. Halbuki həqiqi dost Allahdır. O, ölüləri dirildər. O, hər şeyə haqqı ilə gücü yetəndir.
10. İxtilaf etdiyiniz hər şeyin hökmü Allaha aiddir. Bax bu, Rəbbim Allahdır. Yalnız Ona təvəkkül etdim və sadəcə Ona üz tuturam.
11. O, göyləri və yeri yaradandır. Sizə özünüzdən[2] zövcələr, heyvanlardan da cütlər yaratmışdır. Bu şəkildə sizi çoxaldır. Onun bənzəri heç bir şey yoxdur. O, haqqı ilə eşidəndir, haqqı ilə görəndir.
12. Göylərin və yerin açarları Onundur. İstədiyinə ruzini bol verər və (istədiyindən) azaldar. Şübhəsiz, O, hər şeyi haqqı ilə biləndir.
13. "Dini doğru-dürüst tutun və onda ayrılığa düşməyin!" – deyə Nuha əmr etdiyini, sənə vəhy etdiyini, İbrahimə, Musaya və İsaya əmr etdiyini sizə də din olaraq buyurdu. Ancaq sənin onları dəvət etdiyin şey (İslam dini) Allaha şərik qoşanlara ağır gəldi. Allah ona istədiyini seçər. İxlasla ona yönələnləri də o qovuşdurar.

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Ayənin bu qismi "Öz cinsinizdən" şəklində də tərcümə edilə bilər.

14. Onlar özlərinə elm gəldikdən sonra aralarındakı qısqanclıq səbəbi ilə ayrılığa düşdülər. Əgər (əzabın) müəyyən bir müddətə qədər (gecikdirilməsi ilə bağlı olaraq) daha əvvəl Rəbbindən bir söz olmasaydı, aralarında dərhal hökm verilərdi. Onlardan sonra Kitaba varis edilənlər də onun haqqında dərin bir şübhə içindədirlər.

15. (Ey Muhamməd!) Buna görə sən dəvətə davam et və əmr olunduğun kimi doğru ol. Onların arzu və istəklərinə uyma və belə de: "Mən Allahın endirdiyi hər kitaba inandım və aranızda ədaləti bərqərar etməklə əmr olundum. Allah bizim də Rəbbimiz, sizin də Rəbbinizdir. Bizim etdiklərimiz bizə, sizin etdikləriniz sizədir. (Artıq) Bizimlə sizin aranızda heç bir mübahisə yoxdur. Allah hamımızı bir yerə toplayacaq. Qayıdış ancaq Onadır".

16. Allahın dəvəti qəbul olunduqdan sonra Onun haqqında mübahisə edənlərin dəlilləri Rəbləri qatında batildir. Onlara qəzəb var. Onlar üçün şiddətli bir əzab var.

17. Allah haqq olaraq Kitabı və mizanı[1] endirəndir. Sən haradan biləcəksən, bəlkə də, o saat (qiyamət) yaxındır.

18. Qiyamətə inanmayanlar onun tez gəlməsini istəyərlər. İnananlar isə ondan qorxarlar və onun haqq olduğunu bilirlər. Yaxşı bilin ki, qiyamət günü haqqında mübahisə edənlər dərin bir zəlalətdədirlər.

19. Allah qullarına çox lütfkardır, istədiyinə ruzi verər. O, güclüdür, mütləq güc sahibidir.

20. Kim axirət qazancını istəsə, onun qazancını artırarıq. Kim də dünya qazancını istəsə, ona da istədiyindən verərik, lakin onun axirətdə heç bir payı yoxdur.

21. Yoxsa Allahın izin vermədiyi bir dini onlara din olaraq buyuran şərikləri var? Əgər (cəzaların gecikdirilməsi haqqında) qəti hökmü olmasaydı, dərhal aralarında hökm verilərdi. Şübhəsiz, zalımlar üçün ağrılı-acılı bir əzab var.

22. Zalımların etdikləri şeylər başlarına gələrkən qorxu ilə titrədiklərini görəcəksən. İman edib faydalı işlər görənlər isə cənnət bağçalarındadırlar. Onlar üçün Rəbləri qatında istədikləri hər şey var. Bax bu, böyük lütfdür.

23. Bax bu, Allahın iman edib saleh işlər görən qullarına müjdələdiyi şeydir. De ki: "Mən bunun (təbliğ vəzifəsinin) əvəzində sizdən yaxınlıq və dostluqdan doğan sevgidən başqa bir qarşılıq istəmirəm". Kim gözəl bir iş görərsə, onun yaxşılığını artırarıq. Şübhəsiz, Allah çox bağışlayandır, şükrün qarşılığını verəndir.

24. Yoxsa: "Yalan uydurub Allaha iftira atdı", – deyirlər? Əgər Allah istəsə, sənin qəlbini möhürləyər. Allah batili yox edər, haqqı sözləri ilə gerçəkləşdirər. Şübhəsiz, o, qəlblərdə olanları haqqı ilə biləndir.

25. O, qullarından tövbəni qəbul edən, pislikləri bağışlayan və etdiklərinizi biləndir.

26. Allah iman edib saleh işlər görənlərin dualarına cavab verər, lütfündən onlara daha artığını da verər. Kafirlər üçün isə şiddətli əzab var.

27. Allah qullarına (hamısına birdən) ruzini bol-bol versəydi, yer üzündə mütləq az-

1 Mizan ölçü deməkdir. Burada bu kəlmə ilə həyatımızın əsas ölçüsü olan İslam nəzərdə tutulur.

ğınlıq edərdilər. Lakin O, ruzini istədiyi ölçüdə endirir. Şübhəsiz, O, qullarından haqqı ilə xəbərdardır və onları haqqı ilə görəndir.

28. O, insanlar ümidlərini kəsdikdən sonra yağmuru endirən, rəhmətini hər tərəfə yayandır. O, dost olandır, tərifə layiq olandır.

29. Göyləri, yeri və bu ikisi içində yaydığı canlıları yaratması Onun varlığının dəlillərindədir. O, istədiyi zaman onları bir yerə toplamağa da gücü yetəndir.

30. Başınıza nə müsibət gəlsə, öz etdikləriniz ucbatındandır. O, yenə də çoxunu bağışlayar.

31. Yer üzündə Onu aciz qoya bilməzsiniz. Sizin üçün Allahdan başqa heç bir dost və yardımçı yoxdur.

32. Dənizdə dağlar kimi üzən gəmilər Onun varlığının dəlillərindəndir.

33. O istəsə, küləyi dayandırar, onlar dənizin üstündə qalarlar. Əlbəttə, çox səbir edən, çox şükür edən hər kəs üçün bunda ibrətlər var.

34. Yaxud (aralarındakıların) etdiklərindən ötrü onları həlak edər, bir çoxunu isə bağışlayar.

35. (Allah belə edir ki,) ayələrimiz haqqında mübahisə edənlər onlar üçün qaçacaq bir yer olmadığını bilsinlər.

36, 37, 38, 39. (Dünyada) sizə verilən hər şey bu dünya həyatının mənfəətidir. Allahın yanında olanlar isə daha xeyirli və əbədidir. Bu mükafat iman edənlər və Rəblərinə təvəkkül edənlər, böyük günahlardan və çirkin əməllərdən çəkinənlər, qəzəbləndikləri zaman bağışlayanlar, Rəblərinin dəvətinə cavab verənlər və namazı doğru-düzgün qılanlar, işləri aralarında şura (məşvərət) ilə olanlar, onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyənlər, bir hücuma məruz qaldıqda aralarında köməkləşənlər üçündür.

40. Bir pisliyin qarşılığı onun kimi bir pislikdir (ona uyğun bir cəzadır). Ancaq kim bağışlayar və aranı düzəldərsə, onun mükafatı Allaha aiddir. Şübhəsiz, O, zalımları sevməz.

41. Zülmə məruz qaldıqdan sonra özünü müdafiə edib haqqını alan kimsəyə (cəza vermək üçün) bir yol yoxdur.

42. Cəza yolu sadəcə insanlara zülm edənlər və yer üzündə haqsız yerə həddi aşanlar üçündür. Məhz onlar üçün ağrılı-acılı bir əzab var.

43. Kim də səbir edər və bağışlayarsa, bax bu, əlbəttə, əzm göstərilən işlərdəndir.

44. Allah kimi sapdırarsa, bundan sonra onun üçün heç bir dost yoxdur. Əzabı gördükləri zaman zalımların "Dünyaya qayıtmaq üçün bir yol varmı?" dediklərini görərsən.

45. Atəşə ərz olunduqları zaman onların zillətdən başlarını əyərək göz ucu ilə gizli-gizli baxdıqlarını görərsən. İnsanlar isə: "Əsl ziyana uğrayanlar qiyamət günü özlərini və ailələrini ziyana salanlardır", – deyəcəklər. Yaxşı bilin ki, zalımlar daimi bir əzab içindədirlər.

46. Allahdan başqa onlara yardım edəcək dostları da yoxdur. Allah kimi sapdırarsa, onun üçün heç bir çıxış yolu yoxdur.

47. Geri qaytarılması mümkün olmayan bir gün Allahdan gəlməzdən əvvəl Rəbbinizin dəvətinə uyun. O gün sizin üçün nə sığınacaq bir yer var, nə də (günahlarınızı) inkar edə bilərsiniz!

48. Əgər üz döndərsələr, (bil ki,) biz səni onlara gözətçi göndərmədik. Sənin vəzifən sadəcə təbliğdir. Həqiqətən, biz insana qatımızdan bir rəhmət daddırdığımız zaman ona sevinər, lakin əlləri ilə etdikləri işlərdən ötrü onlara bir pislik toxunarsa, o zaman da insan çox nankordur.

49. Göylərin və yerin mülkü (hökmranlığı) Allahındır. O, istədiyini yaradar. İstədiyinə qız övladlar, istədiyinə oğlan övladlar verər.

50. Yaxud o övladları oğlanlar və qızlar olmaqla cüt verər, istədiyi kimsəni də sonsuz edər. Şübhəsiz, O, hər şeyi haqqı ilə biləndir, haqqı ilə gücü yetəndir.

51. Allah bir insanla sadəcə vəhy yolu ilə, yaxud pərdə arxasından danışar. Yaxud bir elçi göndərib izni ilə ona istədiyini vəhy edər. Şübhəsiz, O, ucadır, hökm və hikmət sahibidir.

52, 53. Beləliklə sənə də əmrimizlə bir ruh (qəlbləri dirildən bir kitab) vəhy etdik. Sən kitab nədir, iman nədir bilməzdin. Lakin biz onu qullarımızdan istədiyimizi onunla doğru yola yönəldəcəyimiz bir nur etdik. Şübhəsiz, sən doğru bir yola yönəldirsən, göylərdəki və yerdəki hər şeyin sahibi olan Allahın yoluna. Yaxşı bilin ki, bütün işlər sonda Allaha qayıdar.

## 43. ZUXRUF SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 89 ayədən ibarətdir. Surənin adı 35-ci ayədə keçən "Zuxruf" sözündən götürülmüşdür. Zuxruf yaldız, ləl-cəvahirat, dünya həyatının müvəqqəti mənfəəti mənalarına gəlir. Surədə başlıca olaraq tövhid, iman və vəhyin gətirdiyi həqiqətlər ilə insanların bu həqiqətlərə zidd olaraq müvəqqəti dünya mənfəətlərinə aludə olub düşdükləri ziddiyyət vurğulanır, batilə qarşı çıxan və haqq yolda olan İbrahim, Musa və İsa peyğəmbərlərdən bəhs edilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ha Mim.[1]

2, 3. Açıq-aşkar Kitaba and olsun ki, yaxşı anlayasınız deyə biz onu ərəbcə bir Qur`an etdik.

4. Şübhəsiz, o qatımızdakı ana kitabda (Lövhi-məhfuzda) mövcuddur, çox ucadır, hikmətlərlə doludur.

5. Həddi aşan topluluq oldunuz deyə Zikrlə (Qur`anla) sizi xəbərdar etməkdən əl çəkək?

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

6. Halbuki əvvəlki toplumlara da neçə-neçə peyğəmbərlər göndərmişdik.

7. (Onlar da) özlərinə gələn hər peyğəmbərə mütləq istehza edirdilər.

8. Biz onlardan daha çətinlərini də həlak etdik. Əvvəlkilərin misalı keçdi!

9. And olsun, onlardan: "Göyləri və yeri kim yaratdı?" – deyə soruşsan, mütləq: "Onları mütləq güc sahibi, haqqı ilə bilən (Allah) yaratdı", – deyəcəklər.

10. O, yer üzünü sizə beşik edən və gedəcəyiniz yerə çatasınız deyə sizin üçün orada yollar var edəndir.

11. O, göydən miqdarınca yağmur endirəndir. Biz onunla ölü ərazini canlandırdıq. Siz də bax belə dirildiləcəksiniz.

12, 13, 14. O, bütün cütləri yaradan, üstündə oturasınız, sonra da oturduqda Rəbbinizin nemətini xatırlayasınız və: "Bunu bizim xidmətimizə verən Allahın şanı ucadır. Bunlara bizim gücümüz çatmazdı. Şübhəsiz, biz Rəbbimizə qayıdacağıq", – deyəsiniz deyə sizin üçün mindiyiniz gəmiləri və heyvanları yaradandır.

15. Bu halda ("mələklər Allahın qızlarıdır" deyərək) qullarından bir qismini onun parçası saydılar. Şübhəsiz, insan açıq-aşkar nankordur.

16. Yoxsa Allah yaratdıqlarından özünə qızlar götürüb oğlanları sizin üçün seçdi?

17. Onlardan biri Rəhmana misal çəkdiyi (isnad etdiyi qız övladı) ilə müjdələndiyi zaman qəzəbindən üzü qapqara olar.

18. Zinət içində (zərif bir şəkildə) yetişdirilən və mübahisədə (dəlilini kişilər kimi) açıqlaya bilməyəni Allaha isnad edirlər?

19. Onlar Rəhmanın qulları olan mələkləri də dişi saydılar. Onların yaradılmasına şahid oldular? Onların (yalan) şahidlikləri yazılacaq və sorğu-sual olunacaq.

20. "Əgər Rəhman istəsəydi, biz onlara tapınmazdıq", – dedilər. Bu haqda heç bir şey bilmirlər. Onlar sadəcə yalan danışırlar.

21. Yoxsa bundan əvvəl onlara bir kitab verdik, ona sarılırlar?

22. Xeyr! Onlar sadəcə: "Şübhəsiz, biz atalarımızı bir din üzərində gördük və biz onların izlərindən gedirik", – dedilər.

23. Beləliklə, biz səndən əvvəl heç bir məmləkətə bir xəbərdar edən göndərmədik ki, oranın dikbaş zənginləri: "Şübhəsiz, biz atalarımızı bir din üzərində gördük. Biz də, əlbəttə, onların izlərindən gedirik", – deməmiş olsunlar.

24. (Göndərilən elçi:) "Mən sizə atalarınızı üzərində gördüyünüz dindən daha doğrusunu gətirsəm necə?" – dedi. Onlar: "Biz sizinlə göndərilən şeyi inkar edirik", – dedilər.

25. Biz də onlardan intiqam aldıq. İnkar edənlərin aqibəti gör necə oldu!

26. Bir vaxt İbrahim atasına və qövmünə belə demişdi: "Şübhəsiz, mən sizin tapındıqlarınızdan uzağam".

27. "Mən ancaq məni yaradana tapınaram. Şübhəsiz, O, məni doğru yola yönəldəcək".

28. Bəlkə dönərlər deyə İbrahim bunu ardından gələnlər arasında qalıcı bir söz etdi.

29. Doğrusu, onları (Məkkə müşriklərini) və atalarını haqq olan Qur`an və onu açıqlayan bir peyğəmbər gələnə qədər (dünya nemətlərindən) faydalandıraram.

30. Lakin onlara Haqq gəldikdə: "Bu, bir sehrdir, biz onu qəti şəkildə inkar edirik", – dedilər.

31. "Bu Qur`an iki şəhərin birindən böyük bir adama endirilməli deyildimi!?" – dedilər.[1]

32. Rəbbinin rəhmətini onlar bölüşdürürlər? Dünya həyatında onların dolanacaqlarını aralarında biz bölüşdürdük. Bir-birilərinə iş gördürmələri üçün (müxtəlif sahələrdə) bəzilərini bəzilərindən dərəcə baxımından üstün tutduq. Rəbbinin rəhməti onların yığdıqları (dünya malı) şeylərdən daha xeyirlidir.

33. Əgər bütün insanlar (kafirlərə verdiyimiz nemətlərə baxıb küfrdə birləşən) bir tək ümmət olacaq olmasaydılar, Rəhmanı inkar edənlərin evlərinə gümüş tavanlar və üstünə çıxacaqları nərdivanlar qurardıq.

34, 35. Evlərinə (gümüşdən) qapılar, üstünə söykənəcəkləri taxtlar qurar və qızıla bəzəyərdik. Bütün bunlar sadəcə dünya həyatının mənfəətidir. Rəbbinin qatında axirət isə Ona qarşı gəlməkdən çəkinənlərindir.

36. Kim Rəhmanın Zikrini görməzdən gələrsə, biz onun başına bir şeytan urcah edərik. Artıq o onun ayrılmaz dostudur.

37. Şübhəsiz, bu şeytanlar onları doğru yoldan sapdırarlar. Onlar isə doğru yolda olduqlarını zənn edərlər.

38. Nəhayət, bizə gəldikdə yoldaşına: "Kaş, mənimlə sənin aranda qərblə şərq arası qədər uzaqlıq olaydı! Sən nə pis yoldaş imişsən!" – deyər.

39. Onlara: "(Bu arzunuz) bu gün sizə əsla fayda verməz. Çünki zülm etdiniz. Hamınız əzaba şəriksiniz", – deyilər.

40. (Həqiqəti eşitməyən) karlara sənmi eşitdirəcəksən, yaxud (həqiqəti görməyən) korları və açıq-aşkar sapqınlıq içində olanları sənmi doğru yola yönəldəcəksən?

41. Ya biz səni (bu dünyadan) alıb apararıq, onlardan intiqam alarıq.

42. Ya da onlara etdiyimiz təhdidi sənə göstərərik ki, bizim onlara gücümüz çatar.

43. Elə isə sənə vəhy edilənə sarıl. Şübhəsiz, sən doğru yoldasan.

44. Şübhəsiz, bu Qur`an sənə və qövmünə bir öyüd və bir şərəfdir, ondan hesaba çəkiləcəksiniz.

45. Səndən əvvəl göndərdiyimiz elçilərimizdən soruş: "Rəhmandan başqa ibadət edilməyə layiq ilahlar yaratmışıqmı?"

46. And olsun, biz Musanı möcüzələrimizlə Firona və onun əyan-əşrafına göndərmişdik, o: "Şübhəsiz, mən aləmlərin Rəbbinin elçisiyəm", – demişdi.

47. (Musa) möcüzələrimizi onlara gətirdikdə, bir də görərsən, o möcüzələrə gülürlər.

---

1 Ayədə keçən iki şəhər Məkkə və Taif şəhərləridir. Müşriklər peyğəmbərliyi çox sadə və təvazökar həyat yaşayan həzrət Peyğəmbərə yaraşdırmır, Qur`anın zadəgan sinfinə mənsub məkkəli Vəlid ibn Müğirəyə, yaxud taifli Ürvə ibn Məsud əs-Səqəfiyə enməli olduğunu iddia edirdilər.

48. Onlara göstərdiyimiz hər bir möcüzə əvvəlki bənzərindən daha böyük idi. Doğru yola qayıtsınlar deyə onları əzaba düçar etdik.

49. (Onlar əzabı gördükdə:) "Ey sehrbaz! Sənə verdiyi sözə arxalanaraq bizim üçün Rəbbinə dua et. Çünki biz artıq doğru yola girəcəyik", – dedilər.

50. Lakin biz onlardan əzabı qaldırdıqda, bir də görərsən, sözlərindən dönürlər.

51. Firon qövmünə səslənərək dedi ki: "Ey qövmüm! Misir mülkü və altımdan axıb gedən çaylar mənim deyilmi? Hələ də görmürsünüzmü?"

52. "Yoxsa mən bu zavallı, az qala sözünü belə deyə bilməyən bu adamdan daha xeyirli deyiləmmi?"

53. "(Əgər doğru deyirsə,) ona qızıl bilərziklər atılmalı, yaxud onunla birlikdə olmaq üçün mələklər gəlməli deyildimi?"

54. Firon qövmünü alçaltdı (əzdi). Onlar da ona itaət etdilər. Çünki onlar yoldan çıxmış bir toplum idi.

55. Onlar bizi qəzəbləndirdikdə biz də onlardan intiqam aldıq, hamısını suda boğduq.

56. Onları sonradan gələcək inkarçılara keçmiş bir ibrət və bir məsəl etdik.

57. Məryəm oğlu İsa məsəl olaraq çəkildikdə, bir də görərsən ki, sənin qövmün (səni susduracaq bir dəlil tapdıqlarını zənn edərək) dərhal lağ etməyə başlayarlar.

58. "Bizim tanrılarımız xeyirlidir, yoxsa İsa?" – dedilər. Bunu sadəcə səninlə mübahisə etmək üçün ortaya atdılar. Şübhəsiz, onlar höcətləşən bir qövmdür.

59. İsa sadəcə nemət verdiyimiz və İsrail oğullarına nümunə göstərdiyimiz bir quldur.

60. Əgər istəsəydik, aranızdan yer üzündə sizin yerinizə keçəcək mələklər yaradardıq.

61. Şübhəsiz, o, qiyamətin (qopacağının) elmidir. Artıq onun haqqında əsla şübhə etməyin, mənə tabe olun, bu, doğru bir yoldur.

62. Əsla şeytan sizi yoldan çıxarmasın. Çünki, o sizə açıq-aşkar düşməndir.

63. İsa açıq-aşkar möcüzələri gətirdiyi zaman belə demişdi: "Mən sizə hikməti gətirdim və haqqında ixtilafa düşdüyünüz şeylərdən bir qismini sizə bəyan etmək üçün gəldim. Elə isə Allaha qarşı gəlməkdən çəkinin və mənə itaət edin".

64. Şübhəsiz, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona qulluq edin. Bax bu, doğru bir yoldur.

65. Lakin aralarından çıxan firqələr ixtilafa düşdülər. Ağrılı-acılı bir günün əzabından ötrü vay o zülm edənlərin halına!

66. Onlar (bu davranışları ilə) ancaq qiyamət gününün onlara anidən gəlməsini gözləyirlər, halbuki bunun fərqində deyillər.

67. O gün Allaha qarşı gəlməkdən çəkinənlər xaricində dostlar bir-birilərinə düşmən olarlar.

68, 69. (Allah belə deyər:) "Ey ayələrimizə iman edən və müsəlman olan qullarım! Bu gün sizə qorxu yoxdur, siz məhzun da olmayacaqsınız".

70. “Siz və zövcələriniz sevinc və xoşbəxtlik içində cənnətə daxil olun”.
71. Onlar üçün qızıl sinilər və qədəhlər gəzdirilər. Ürəklərinin istədiyi və gözlərinin xoşladığı hər şey oradadır. Siz orada əbədi qalacaqsınız.
72. Bax bu, etdiklərinizin əvəzində sizə miras verilən cənnətdir.
73. Orada sizin üçün bol-bol meyvə var, onlardan yeyərsiniz.
74. Şübhəsiz, günahkarlar cəhənnəm əzabında əbədi qalacaqlar.
75. Əzabları yüngülləşdirilməyəcək. Onlar əzab içində ümidsizdirlər.
76. Biz onlara zülm etmədik. Lakin onlar özləri zalım idilər.
77. (Vəzifəli mələyə belə səslənərlər:) “Ey Malik! Rəbbin bizim işimizi bitirsin”. O isə: “Siz həmişə belə qalacaqsınız”, – deyər.
78. And olsun, sizə haqqı gətirdik. Lakin çoxunuz haqdan xoşlanmayanlarsınız.
79. Yoxsa (haqqı qəbul etməməkdə) bir işə qəti qərar verdilər? Şübhəsiz, biz də (onları cəzalandırmaqda) qərarlıyıq.
80. Yoxsa onların sirlərini və gizli söhbətlərini eşitmədiyimizi zənn edirlər? Xeyr, elə deyil, yanlarındakı elçilərimiz (mələklər) yazırlar.
81. (Ey Muhamməd!) De ki: “Əgər Rəhmanın bir övladı olsaydı, ona qulluq edənlərin ilki mən olardım”.
82. Göylərin və yerin Rəbbi, Ərşin də Rəbbi olan Allah onların isnad etdikləri vəfslərdən uzaqdır.
83. Qoy onlar vəd olunduqları günə qovuşana qədər (batil inanclarına) qərq olsunlar və (dünya həyatlarında) oynayıb əylənsinlər.
84. O, göydə də ilah olandır, yerdə də ilah olandır. O, hökm və hikmət sahibidir, haqqı ilə biləndir.
85. Göylərin, yerin və ikisi arasındakı hər şeyin hökmranlığı özünə aid olan Allah ucadır. Qiyamətin elmi də yalnız Onun qatındadır və sadəcə Ona qaytarılacaqsınız.
86. Onu buraxıb tapındıqları şeylər şəfaət edə bilməzlər. Sadəcə bilərək haqqa şahidlik edənlər şəfaət edə bilərlər.
87. And olsun, onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: “Allah”, – deyərlər. O halda necə döndərilirlər?
88. Onun (Muhamməddin) “Ey Rəbbim!” deməsinə and olsun ki, şübhəsiz, bunlar iman etməyən bir qövmdür.
89. Hələlik sən onlarla yaxşı keçin və “Sizə salam olsun!” de. Yaxında biləcəklər.

# 44. DUXAN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 59 ayədən ibarətdir. Surənin adı 10-cu ayədə keçən "Duxan" sözündən götürülmüşdür. Duxan duman deməkdir. Surədə başlıca olaraq Qur`anın endirilməsi, müşriklərin ona qarşı münasibəti, Firon və xalqının başına gələn əzablar, Qüreyşin həzrət Peyğəmbəri inkar etməsi, yaxşıların və pislərin qarşılaşacaqları aqibətdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Ha Mim.[1]

**2, 3.** Açıq-aşkar olan Kitaba and olsun ki, biz onu mübarək bir gecədə[2] endirdik. Şübhəsiz, biz insanları xəbərdar edirik.

**4, 5, 6, 7.** Qatımızdan bir əmrlə hər hikmətli iş o gecədə ayırd edilər. Əgər yəqinliklə inanırsınızsa, Rəbbindən, göylərin, yerin və bu ikisi arasındakıların Rəbbindən bir rəhmət olaraq biz peyğəmbərlər göndəririk. O, haqqı ilə eşidəndir, haqqı ilə bilədir.

**8.** Ondan başqa heç bir ilah yoxdur. Yaşadar və öldürər. O, sizin də Rəbbiniz, əvvəlki atalarınızın da Rəbbidir.

**9.** Lakin onlar şübhə içində əylənirlər.

**10.** Göyün açıq bir duman[3] gətirəcəyi günü gözlə.

**11.** (O duman) insanları bürüyər. Bu, ağrılı-acılı bir əzabdır.

**12.** İnsanlar: "Rəbbimiz! Bu əzabı bizdən qaldır, çünki biz artıq inanırıq", – deyərlər.

**13.** Onlar hara, öyüd götürmək hara?! Halbuki onlara (həqiqəti) açıqlayan bir peyğəmbər gəlmişdi.

**14.** Sonra ondan üz döndərdilər və: "Bu, bir öyrədilmiş, bu bir dəli!" – dedilər.

**15.** Biz bu əzabı qısa bir müddət qaldıracağıq, siz də yenə əvvəlki halınıza qayıdacaqsınız.

**16.** Onları şiddətlə yaxalayacağımız günü xatırla. Şübhəsiz, biz intiqamımızı alarıq.

**17.** And olsun, onlardan əvvəl Firon qövmünü sınamışdıq. Onlara dəyərli bir peyğəmbər (Musa) gəlmişdi.

**18.** O, belə demişdi: "Allahın qullarını (əsarət altındakı İsrail oğullarını) mənə təslim edin. Çünki mən güvənilәsi bir peyğəmbərəm".

**19.** "Allaha qarşı təkəbbür göstərməyin. Çünki mən sizə açıq-aşkar bir dəlil (möcüzə) gətirirəm".

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 İslam alimlərinin əksəriyyətinə görə, ayədəki mübarək gecə Qədr gecəsidir. Çünki Qur`ani-Kərimin endirilməyə başladığı gecənin Qədr gecəsi olduğuna Bəqərə surəsinin 185-ci ayəsində işarə edilmiş və Qədr surəsinin 1-ci ayəsində açıq şəkildə bildirilmişdir.

3 Təfsir alimlərinin çoxu bu dumanın qiyamətin əlamətlərindən biri olaraq göyü örtəcək duman olduğunu bildirmişlər.

20. “Şübhəsiz, mən məni daşlamanızdan, mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha sığındım”.

21. “Mənə inanmadınızsa, məndən uzaq durun”.

22. Sonra Musa Rəbbinə: “Bunlar günahkar bir qövmdür”, – deyə səsləndi.

23. Allah da belə dedi: “O halda qullarımı gecə vaxtı yola çıxar, çünki təqib ediləcəksiniz”.

24. “Dənizi açıq burax”.[1] Çünki onlar boğulacaq bir ordudur.

25. Onlar geridə neçə-neçə bağçalar, neçə-neçə bulaqlar qoydular.

26. Neçə-neçə tarlalar, neçə-neçə gözəl köşklər!

27. Zövqünü və səfasını sürdükləri neçə-neçə nemətlər!

28. Bax belə! Onları başqa bir qövmə miras qoyduq.

29. Göy və yer onların ardından ağlamadı, onlara möhlət də verilmədi.

30, 31. And olsun, İsrail oğullarını o alçaldıcı əzabdan – Firondan xilas etdik. Çünki o, həddi aşanlardan bir zorba idi.

32. And olsun, onları bir bilgiyə görə (öz dövrlərində) aləmlərdən üstün tutduq.

33. Onlara içində açıq-aşkar bir imtahan olan möcüzələr verdik.

34, 35. Bunlar (müşriklər) deyirlər ki: “İlk ölümümüzdən başqa bir ölüm yoxdur. Biz dirildilməyəcəyik”.

36. “Əgər doğru söyləyənlərsinizsə, atalarımızı gətirin”.

37. Bunlar daha xeyirlidir, yoxsa Tübba[2] qövmü ilə onlardan əvvəlkilər? Onları həlak etdik. Çünki onlar günahkar kimsələr idi.

38. Biz göyləri, yeri və bunlar arasında olanları əylənmək üçün yaratmadıq.

39. Biz onları ancaq haqq və hikmətə uyğun yaratdıq. Lakin onların çoxu bilmirlər.

40. Şübhəsiz, hökm günü onların hamısının bir yerdə toplanacağı vaxtdır.

41. O gün dostun dosta heç bir faydası olmaz. Özlərinə də kömək edilməz.

42. Sadəcə Allahın kömək etdiyi kimsələr istisnadır. Şübhəsiz, O, mütləq güc sahibidir, çox mərhəmət edəndir.

43, 44. Şübhəsiz, zəqqum ağacı günahkarların yeməyidir.

45, 46. O, ərimiş mis kimidir. Qaynar suyun qaynaması kimi qarınlarda qaynayar.

47. (Allah vəzifəli mələklərə belə deyər:) “Tutun onu, cəhənnəmin ortasına sürüyün”.

48. “Sonra başının üstünə qaynar su əzabından tökün”.

49. (Deyin ki:) “Dad görək! Sən ki, güclü idin, şərəfli idin!?”

---

1 Şuəra surəsinin 63-cü və Taha surəsinin 77-ci ayələrində bildirildiyi kimi həzrət Musa Allahın əmri ilə əsasını dənizə vurmuş və beləliklə, keçmək üçün münasib bir yol açılmışdı. Bu ayədə həzrət Musaya qarşıya keçdikdən sonra açılan bu yolu bağlamaması əmr edilir. Çünki onları təqib edən Firon və yoldaşları bu yola girəcək və dənizin qapanması ilə boğulacaqlar.

2 Tübba Yəmən hökmdarlarına verilən addır.

50. "Bax bu, şübhələndiyiniz şeydir!"
51. Allaha qarşı gəlməkdən çəkinənlər isə əmin bir yerdədirlər.
52. Bağçalarda və bulaq başındadırlar.
53. İncə ipəkdən və parlaq atlasdan libaslar geyərək qarşı-qarşıya oturarlar.
54. Bax belə. Onları iri qara gözlü hurilərlə evləndirmişik.
55. Orada əminlik içində hər cür meyvəni istəyərlər.
56. Orada ilk ölümdən başqa bir ölüm dadmazlar. Allah onları cəhənnəm əzabından qorumuşdur.
57. Bunlar Rəbbindən bir lütf olaraq verilmişdir. Bax bu, böyük uğurdur.
58. (Ey Muhamməd!) Biz onu (Qur`anı) sənin dilinlə asanlaşdırdıq ki, düşünüb öyüd götürsünlər.
59. Artıq sən (onların başına gələcək müsibətləri) gözlə, onlar da gözləyirlər.

## 45. CASİYƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 37 ayədən ibarətdir. Surənin adı 28-ci ayədə keçən "Casiyə" sözündən götürülmüşdür. Casiyə diz üstə çökən deməkdir. Surədə başlıca olaraq Qur`anın endirilməsi, aləmdə Allahın varlığını və birliyini göstərən dəlillər, Allahın qullarına bəxş etdiyi nemətlər, İsrail oğullarının onlara verilən nemətləri inkar və üsyanla qarşılamalarından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ha Mim.[1]
2. Kitabın endirilməsi mütləq güc sahibi, hökm və hikmət sahibi Allah tərəfindəndir.
3. Şübhəsiz, göylərdə və yerdə insanlar üçün (Allahın varlığını və birliyini göstərən) neçə-neçə dəlillər var.
4. Sizin yaradılışınızda və Allahın (yer üzünə) yaydığı hər bir canlıda da yəqinliklə inanan bir qövm üçün, əlbəttə, neçə-neçə dəlillər var.
5. Gecə ilə gündüzün bir-biri ardınca gəlməsində, Allahın göydən ruzi (səbəbi olaraq yağmur) endirib onunla yer üzünü ölümündən sonra diriltməsində, külәkləri əsdirib çevirməsində düşünən bir qövm üçün dəlillər var.
6. Bax bunlar Allahın ayələridir. Onları sənə haqq olaraq oxuyuruq. Artıq Allahdan və onun ayələrindən sonra hansı sözə inanacaqlar?
7. Hər bir günahkar yalançının vay halına!
8. Özünə Allahın ayələrinin oxunduğunu eşidir, sonra təkəbbür göstərərək sanki onları heç eşitmirmiş kimi inad edir. Onu ağrılı-acılı bir əzabla müjdələ!

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

9. Ayələrimizdən bir şey öyrəndikdə onu lağa qoyar. Onlar üçün alçaldıcı bir əzab var.

10. Arxalarında da cəhənnəm var. Dünyada qazandıqları və Allahdan başqa tutduqları dostlar onlara heç bir fayda verməz. Onlar üçün, əlbəttə, böyük bir əzab var.

11. Bax bu (Qur`an) bir hidayətdir. Rəblərinin ayələrini inkar edənlərə isə ağrılı-acılı çox pis bir əzab var.

12. Allah, əmri ilə içində gəmilərin üzüb getməsi, onun lütfünü axtarmanız və şükür etməniz üçün dənizi sizə ram edəndir.

13. Göylərdəki və yerdəki hər şeyi öz qatından (bir nemət olaraq) sizə ram edəndir. Əlbəttə, düşünən bir qövm üçün bunda dəlillər var.

14. İman edənlərə de ki, Allahın (cəza) günlərinin gələcəyini ummayanları (hələlik) bağışlasınlar ki, Allah hər hansı bir qövmə (öz) qazandığının qarşılığını versin.

15. Kim yaxşı bir iş görərsə, öz lehinə görmüş olar. Kim də pislik edərsə, öz əleyhinə etmiş olar. Sonra Rəbbinizə qaytarılacaqsınız.

16. And olsun, biz İsrail oğullarına kitab, hökmranlıq və peyğəmbərlik verdik. Onları gözəl və təmiz qidalarla ruziləndirdik və onları (öz dövrlərində) aləmlərdən üstün tutduq.

17. Onlara din işləri barəsində açıq-aşkar dəlillər verdik. Lakin onlar özlərinə elm gəldikdən sonra aralarındakı həsəd səbəbi ilə ixtilafa düşdülər. Şübhəsiz, Rəbbin haqqında ixtilafa düşdükləri şey barəsində qiyamət günü aralarında hökm verəcək.

18. Sonra isə səni din işi barəsində açıq-aşkar bir yola qoyduq. Sən ona tabe ol, bilməyənlərin arzu və istəklərinə uyma.

19. Çünki onlar Allaha qarşı sənə əsla bir xeyir verə bilməzlər. Şübhəsiz, zalımlar bir-birilərinin dostlarıdır. Allah isə özünə qarşı gəlməkdən çəkinənlərin dostudur.

20. Bu Qur`an insanlar üçün qəlb gözləri (kimi bir nur), yəqinliklə iman edən bir qövm üçün isə bir hidayət və bir rəhmətdir.

21. Yoxsa pislik edənlər onları iman edib yaxşı iş görənlərlə bir tutacağımızı, həyatlarının və ölümlərinin bir olacağını zənn edirlər? Nə pis hökm verirlər!

22. Allah göyləri və yeri haqq və hikmətə uyğun olaraq hər kəsə qazandığının qarşılığı verilsin deyə yaratmışdır. Onlara zülm edilməz.

23. Nəfsinin arzusunu ilahlaşdıran, Allahın (halını) bildiyi üçün sapdırdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə isə pərdə çəkdiyi kimsəni gördünmü? İndi Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Hələ də düşünüb ibrət götürməyəcəksinizmi?[1]

24. Dedilər ki: "Dünya həyatımızdan başqa həyat yoxdur. Ölərik və yaşayarıq. Bizi sa-

1 İnsan Allahın qulu olaraq Onu tanımaq və Onun əmr və iradəsinə görə yaşamalıdır. Allaha inanmayan insan isə halal-haram bilmədən, qayda-qanun tanımadan nəfsinə qulluq edərcəsinə həyatına onun arzularına görə davam etdirir, onun hər istəyini yerinə yetirir. Bu ayənin sonrakı ayə ilə əlaqəsi nəzərə alındıqda "nəfsini ilahlaşdıran"ın bir şəxs deyil, axirətə inanmayıb həyatı bu dünyadan ibarət sayan bir zümrə olduğu başa düşülür.

dəcə zaman yox edər". Bu barədə onların heç bir bilgisi yoxdur. Onlar sadəcə zənn edirlər.

25. Onlara ayələrimiz açıq-aydın oxunduğu zaman onların dəlilləri sadəcə "Doğru söyləyənlərsinizsə, atalarımızı gətirin" demək oldu.

26. De ki: "Allah sizi yaşadır. Sonra sizi öldürəcək, sonra isə barəsində heç bir şübhə olmayan qiyamət günü sizi bir yerə toplayacaq, lakin insanların çoxu bilməzlər".

27. Göylərin və yerin hökmranlığı Allahındır. Qiyamətin qopacağı gün, bax o gün batilə sapanlar ziyana uğrayacaqlar.

28. O gün hər ümməti diz çökmüş görərsən. Hər ümmət öz kitabına çağırılar. (Onlara belə deyilər:) "Bu gün (sadəcə) etdiklərinizin qarşılığı veriləcək".

29. Budur kitabımız, sizə qarşı həqiqəti deyir. Çünki biz etdiklərinizi yazırdıq.

30. İman edib saleh işlər görənlərə gəlincə Rəbləri onları rəhmətinə daxil edəcək. Bax bu, açıq-aydın uğurdur.

31. İnkar edənlərə gəlincə onlara belə deyilər: "Ayələrim sizə oxunmuşdu, siz isə təkəbbür göstərmiş və günahkar bir qövm olmamışdınızmı?"

32. "Şübhəsiz, Allahın vədi haqdır, qiyamət haqqında heç bir şübhə yoxdur", – deyildiyi zaman isə: "Qiyamətin nə olduğunu bilmirik, sadəcə zənn edirik. Biz bu barədə əmin deyilik", – demişdiniz.

33. Etdikləri əməllərin pislikləri qarşılarına qoyulmuş və istehza etdikləri şey onları bürümüşdür.

34. Onlara belə deyilər: "Bu günə qovuşacağınızı unutduğunuz kimi biz də bu gün sizi unuduruq. Sizin sığınacağınız atəşdir. Sizə yardım edən də yoxdur".

35. "Bunun səbəbi Allahın ayələrini lağa qoymağınız və dünya həyatının sizi aldatmasıdır". Artıq bu gün atəşdən çıxarılmaz və Allahın razılığını qazandıracaq əməllər işləməklə bağlı istəkləri qəbul edilməz.

36. Həmd göylərin Rəbbi, yerin Rəbbi və aləmlərin Rəbbi olan Allaha məxsusdur.

37. Göylərdə və yerdə ucalıq Ona aiddir. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

## 46. ƏHQAF SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 35 ayədən ibarətdir. Surənin adı 21-ci ayədə keçən "Əhqaf" sözündən götürülmüşdür. Əhqaf Yəməndə Ad qövmünün yaşadığı bir bölgənin adı olub uzun və qıvrımlı qum təpələri deməkdir. Bu surə mövzusu etibarilə əvvəlki surənin davamı mahiyyətindədir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ha Mim.[1]

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2. Kitabın endirilməsi mütləq güc sahibi, hökm və hikmət sahibi Allah tərəfindəndir.

3. Biz göyləri, yeri və ikisi arasında olanları haqq və hikmətə uyğun olaraq və müəyyən bir müddət üçün yaratdıq. İnkar edənlər isə xəbərdar edildikləri şeylərdən üz döndərirlər.

4. De ki: "Allahı buraxıb tapındıqlarınızı gördünüzmü? Mənə göstərin, yer üzündə nəyi yaratmışlar? Yoxsa göylərin yaradılmasında onların bir şəriki var? Əgər doğru söyləyənlərsinizsə, bundan əvvəlki bir kitab yaxud bir bilgi qırıntısı olsa da, gətirin mənə!"

5. Allahı buraxıb qiyamət gününə qədər ona cavab verə bilməyəcək şeylərə tapınandan daha sapqın kim ola bilər? Halbuki onlar bunların tapınmalarından xəbərsizdirlər.

6. İnsanlar (qiyamət günü) toplandıqları zaman o tapındıqları özlərinə düşmən olar, onların ibadətlərini də inkar edərlər.

7. Ayələrimiz onlara açıq-aydın oxunduğu zaman o küfr edənlər Haqq (kitab Qur`an) onlara gəldikdə onun haqqında düşünmədən: "Bu, açıq-aşkar bir sehrdir", – dedilər.

8. Yoxsa: "Onu uydurdu", – deyirlər? De ki: "Əgər mən onu uydurmuşamsa, Allahdan gələcək olana (cəzaya) qarşı siz mənim üçün heç bir şey edə bilməzsiniz. O, sizin haqqında (düşüncəsizcə) hay-küy saldığınız şeyi daha yaxşı bilir. Mənimlə sizin aranızda şahid olaraq O yetər! O, çox bağışlayandır, çox mərhəmət edəndir".

9. De ki: "Mən törəmə bir peyğəmbər deyiləm.[1] Mənə və sizə nə olacağını da bilmirəm. Mən sadəcə mənə vəhy olunana tabe oluram. Mən sadəcə açıq-aşkar bir xəbərdar edənəm".

10. De ki: "Nə düşünürsünüz? Əgər bu, Allah qatındandırsa və siz onu inkar etmisinizsə, İsrail oğullarından bir şahid də bunun bənzərinə (Tövratda görərək) şahidlik edib inandığı halda siz yenə də təkəbbür göstərmisinizsə (haqsızlıq etmiş olmazsınızmı?). Şübhəsiz, Allah zalımlar güruhunu doğru yola yönəltməz".

11. İnkar edənlər iman edənlər haqqında: "Əgər o Qur`an yaxşı bir şey olsaydı, onlar onu qəbul etməkdə bizi keçə bilməzdilər", – dedilər. Onunla doğru yolu tapa bilmədikləri üçün: "Bu, köhnə bir uydurmadır", – deyəcəklər.

12. Bundan əvvəl bir rəhbər və bir rəhmət olaraq Musanın kitabı da vardı. Bu isə onu təsdiqləyən və zülm edənləri xəbərdar etmək, yaxşılıq edənlərə müjdə olmaq üzrə ərəbcə endirilmiş bir kitabdır.

13. "Şübhəsiz, Rəbbimiz Allahdır", – deyib sonra da doğru olanlara heç bir qorxu yoxdur, onlar məhzun olmayacaqlar.

14. Onlar cənnətlikdirlər. Etdikilərinin qarşılığı olaraq orada əbədi qalacaqlar.

15. Biz insana ata-anası ilə yaxşı rəftar etməyi əmr etdik. Anası onu nə zəhmətlə qar-

---

1 Ayənin bu hissəsi həzrət Peyğəmbərin peyğəmbərlik iddia edən ilk insan olmadığını, daha əvvəlki peyğəmbərlərin yolunu izlədiyini bildirir. Mövzu haqqında digər ayələr üçün baxın: Ali-İmran, 3/144; Yunus, 10/47; Hicr, 15/10; Nəhl, 16/43; Mömin, 40/78.

nında daşıdı və nə zəhmətlə doğdu! Onun (ana bətnində) daşınması və süddən kəsilmə müddəti (cəmi) otuz aydır. Nəhayət, yetkinlik dövrünə çatıb qırx yaşına yetişdikdə belə deyər: "Mənə və ata-anama verdiyin nemətlərə şükür etməyimi, sənin razı qalacağın saleh əməl işləməyimi mənə ilham et. Nəslimi də saleh kimsələr et. Şübhəsiz, mən sənə yönəldim. Həqiqətən, mən sənə təslim olanlardanam".

16. Etdikləri əməllərin yaxşısını qəbul edəcəyimiz və günahlarını bağışlayacağımız bu kimsələr cənnətliklər arasındadırlar. Bu, onlara verilən doğru bir vəddir.

17. Ata-anasına: "Of sizə! Məndən əvvəl neçə-neçə nəsillər gəlib keçdiyi halda məni yenidən dirildilməklə təhdid edirsiniz?" deyən kimsəyə onlar Allaha sığınaraq: "Vay halına! İman et, Allahın vədi haqdır", – deyirlər, o da: "Bu, əvvəlkilərin nağıllarından başqa bir şey deyil", – deyirdi.

18. Bax, onlar özlərindən əvvəl cinlərdən və insanlardan gəlib-keçmiş topluluqlar içində haqlarında o sözün (əzabın) gerçəkləşdiyi kimsələrdir. Şübhəsiz, onlar ziyana uğrayanlardır.

19. Hər kəsin etdiklərinə görə dərəcələri var. (Bu isə) Allahın onlara etdiklərinin qarşılığını tam verməsi üçündür. Əsla onlara haqsızlıq edilməz.

20. İnkar edənlər atəşə ərz olunduqları gün (onlara belə deyilər:) "Dünya həyatınızda nemətlərinizi tükətdiniz, onların səfasını sürdünüz. Bu gün isə yer üzündə haqsız yerə təkəbbür göstərməniz və yoldan çıxmanız səbəbi ilə alçaldıcı bir əzabla cəzalandırılacaqsınız".

21. Ondan əvvəl və sonra xəbərdar edənlərin gəlib-keçdiyi Ad qövmünün qardaşını (Hudu) xatırla. Bir vaxtlar Əhqafdakı qövmünü: "Sadəcə Allaha ibadət edin, çünki mən sizin adınıza böyük bir günün əzabından qorxuram", – deyə xəbərdar etmişdi.

22. Onlar isə: "Sən bizi ilahlarımızdan uzaqlaşdırmaq üçün gəlmisən? Doğru danışanlardansansa, bizi qorxutduğun şeyi başımıza gətir", – dedilər.

23. Hud: "(Bu mövzudakı) bilgi sadəcə Allah qatındadır. Mən sizə mənimlə göndəriləni təbliğ edirəm. Lakin mən sizi cahillik edən bir qövm olaraq görürəm", – dedi.

24. O əzabı vadilərə tərəf yayılan bir bulud olaraq gördükləri zaman: "Bu, bizə yağmur gətirən bir buluddur", – dedilər. Hud: "Xeyr, o sizin tezliklə gəlməsini istədiyiniz şeydir. İçində ağrılı-acılı əzab olan bir küləkdir", – dedi.

25. "O, Rəbbimin əmri ilə hər şeyi yerlə bir edər". O anda evlərindən başqa hər şeyləri görünməz hala düşdü. Biz günahkar qövmü, bax belə cəzalandırarıq.

26. And olsun, sizə vermədiyimiz imkan və iqtidarı onlara vermişdik. Onlara qulaqlar, gözlər və qəlblər vermişdik. Lakin qulaqları, gözləri və qəlbləri onlara bir fayda vermədi. Çünki Allahın ayələrini inkar edirdilər. İstehza etdikləri şey onları bürüdü.

27. And olsun, biz ətrafınızdakı məmləkətləri də yox etdik. (Doğru yola) qayıtsınlar deyə ayələri təkrar-təkrar açıqladıq.

**28.** Allahı buraxıb Ona yaxınlıq qurmaq üçün tutduqları ilahlar onlara yardım etməli deyildimi!? Əksinə onları üzü üstə buraxaraq uzaqlaşıb getdilər. Bu, onların yalanı və uydurduqları şeydir.

**29.** Bir vaxt, Qur`anı dinləmək üçün cinlərdən bir dəstəni sənə yönəltmişdik. Onlar onun hüzuruna gəldikdə[1] bir-birilərinə: "Susun!" – dedilər. Qur`anın oxunması bitdikdə isə xəbərdar edən olaraq qövmlərinə qayıtdılar.

**30.** Dedilər ki: "Ey qövmümüz! Şübhəsiz, biz Musadan sonra endirilən, özündən əvvəlki kitabları təsdiqləyən, haqqa və doğru yola yönəldən bir kitab dinlədik".

**31.** "Ey qövmümüz! Allahın dəvətçisinə uyun, ona iman edin ki, günahlarınızı bağışlasın və sizi ağrılı-acılı bir əzabdan qurtarsın".

**32.** Kim Allahın dəvətçisinə uymasa, yer üzündə Allahı aciz buraxan deyil. Onun üçün Allahdan başqa dostlar da tapılmaz. Onlar açıq-aşkar zəlalət içindədirlər.

**33.** Göyləri və yeri yaradan və onları yaratmaqdan yorulmayan Allahın ölüləri diriltməyə gücünün yetəcəyini görmədilərmi? Bəli, şübhəsiz, O, hər şeyə haqqı ilə gücü yetəndir.

**34.** Atəşə ərz olunduqları gün inkar edənlərə: "Bu, gerçək deyilmi?" – deyilər. Onlar: "Bəli, Rəbbimizə and olsun ki, gerçək imiş", – deyərlər. Allah: "Elə isə inkar etdiyiniz üçün əzabı dadın!" – deyər.

**35.** (Ey MuhammƏd!) O halda əzm sahibi peyğəmbərlərin səbir etdiyi kimi səbir et. Onlar üçün tələsmə. Onlar özlərinə vəd olunan əzabı gördükləri gün gündüzün ancaq bir saatı qədər dünyada qaldıqlarını zənn edərlər. Bu, bir təbliğdir. Sadəcə yoldan çıxan qövm həlak edilər.

## 47. MUHAMMƏD SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 38 ayədən ibarətdir. Surənin adı Peyğəmbərimizin ikinci ayədə keçən adından götürülmüşdür. Surə 20-ci ayədə keçən "əl-Qital" sözünə görə Qital surəsi də adlandırılır. Surədə, əsasən, mövzu cihad olmaqla yanaşı müharibə, əsirlər, qənimətlər və münafiqlərdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** İnkar edənlər və Allah yolundan yayındıranlar ki var, Allah onların bütün əməllərini hədər etmişdir.

**2.** İman edib saleh əməllər işləyənlərin və Muhammədə endirilənə – ki, o, Rəblərindən gələn haqdır – inananların isə Allah günahlarını örtmüş və onların vəziyyətini yaxşılaşdırmışdır.

**3.** Bu, inkar edənlərin batilə uymaları və inananların Rəblərindən gələn haqqa uymaları səbəbi ilədir. Allah onları insanlara belə misal çəkir.

1 "Onun hüzuruna" ifadəsindəki "o" əvəzliyi oxunan Qur`an və ya həzrət Muhamməd şəklində başa düşülə bilər.

4. (Döyüşdə) inkar edənlərlə qarşılaşdığınız zaman boyunlarını vurun.[1] Nəhayət, onları məğlub edib ələ keçirdikdə bağı sıx bağlayın (sağ qalanları əsir alın). Artıq bundan sonra (əsirləri) ya təmənnasız ya da fidyə qarşılığında sərbəst buraxın. Savaş sona çatana qədər hökm budur.[2] Əgər Allah istəsəydi, onlardan intiqam alardı. Lakin sizi bir-birinizlə sınamaq üçün belə edir. Allah yolunda öldürülənlərə gəlincə Allah onların əməllərini əsla hədər etməyəcək.

5. Onları doğru yola yönəldəcək və vəziyyətlərini yaxşılaşdıracaq.

6. Onları (daha əvvəl) özlərinə tanıtdığı cənnətə daxil edəcək.

7. Ey iman edənlər! Əgər siz Allaha yardım etsəniz (əmrinə itaət edib dininə uysanız), O da sizə yardım edər və sizi sabitqədəm edər.

8. İnkar edənlərə gəlincə, məhv olsunlar! Allah onların əməllərini hədər etmişdir.

9. Bu, ona görədir ki, onlar Allahın endirdiyini bəyənmədilər və bu səbəblə də Allah onların əməllərini boşa çıxardı.

10. Onlar yer üzündə gəzib özlərindən əvvəlkilərin aqibətlərinin necə olduğuna baxmadılarmı? Allah onları yerlə bir etmişdir. İnkar edənlər üçün də buna bənzər bir aqibət var.

11. Çünki Allah iman edənlərin yardımçısıdır, inkar edənlərin isə heç bir yardımçısı yoxdur.

12. Şübhəsiz, Allah iman edib saleh əməllər işləyənləri içindən çaylar axan cənnətlərə qoyacaq. İnkar edənlər isə (dünya zövqlərindən) faydalanarlar və heyvanların yediyi kimi yeyərlər. Onların qalacaqları yer atəşdir.

13. (Ey Muhamməd!) Səni çıxaran öz məmləkət xalqından daha güclü neçə-neçə məmləkət xalqları var ki, biz onları həlak etdik. Onların heç bir yardımçısı da olmadı.

14. Rəbbinin qatından açıq bir dəlili olan kimsə pis əməlləri özünə yaxşı göstərilən və nəfslərinin arzularına uyan kimsələr kimi ola bilərmi?

15. Allaha qarşı gəlməkdən çəkinənlərə vəd olunan cənnət belədir. Orada qoxmayan su çayları, dadı dəyişməyən süd çayları, içənlərə zövq verən şərab çayları[3] və süzmə

---

1 İslamda əsl olan savaş deyil, sülhdür. Bu prinsip "İslam" sözünün sülh mənasını ifadə etməsində də özünü göstərir. Qur`ana, müsəlmanlara hücum edilmədikcə və ya bağlanan andlaşmalara xilaf çıxılmadıqca başqa xalqlarla müharibə edilməz. Qur`anda yer alan savaş ilə əlaqəli ayələr kontekstləri və tarixi arxaplanları nəzərə alınalar araşdırıldıqda bu həqiqət aydın şəkildə görülür.

2 Savaşın sona çatması dedikdə, müəyyən bir savaşın sona çatması nəzərdə tutula biləcəyi kimi, yer üzündə savaşın sona çatması, aradan qalxması da nəzərdə tutula bilər.

3 Axirətdə möminlərə vəd edilən cənnətin xüsusiyyətlərini dünya həyatına aid söz və məfhumlarla birbaşa ifadə etmək insan zehni baxımından mümkün deyil. Çünki həzrət Peyğəmbərin dediyi kimi "Orada heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi" saysız-hesabsız nemət var. Lakin insanları təşviq etmək üçün müəyyən şəkildə cənnətin təsvir edilməsi lazımdır. Bu səbəblə Qur`anda cənnət və cənnət nemətləri mümkün olduğu qədər insanların bilib yaşadığı şəraitə, işlətdiyi söz və məfhumlara bənzədilərək ifadə edilmişdir. Beləliklə, bilinməlidir ki, ayədə bəhs olunan süd, bal və şərab dünyadakılardan fərqlidir. Ayədə keçən süd, bal və şərab sözlərini bu cəhətdən anlamaq lazımdır. Necə ki, bəhs olunan şərabın sərxoşluq verən bir şərab olmadığı Qur`anda aydın şəkildə bildirilmişdir. Baxın: Saffat, 37/47; Vaqiə, 56/19.

bal çayları var. Orada onlar üçün hər növ meyvə var. Rəblərindən isə bağışlanma var. Bu cənnətliklərin halı atəşdə əbədi qalacaq və bağırsaqlarını parça-parça edəcək qaynar su içirilən kimsələrin halı kimi olarmı?

16. Onlardan səni dinləyənlər var. Lakin sənin yanından ayrıldıqları zaman (istehza edərək) özlərinə elm verilənlərə: "Az əvvəl nə dedi?" – deyərlər. Bax bunlar qəlblərini Allahın möhürlədiyi və nəfslərinin arzularına uyan kimsələrdir.

17. Hidayət tapanlara gəlincə, Allah onların hidayətini artırar. Bu, onları Allaha qarşı gəlməkdən çəkindirər.

18. Onlar qiyamətin özlərinə anidən gəlməsindən başqa bir şey gözləmirlər. Şübhəsiz, onun əlamətləri gəlmişdir (lakin öyüd götürmürlər). Qiyamət onlara gəlib çatdıqda öyüd götürmələri onlara nə fayda verəcək?

19. Bil ki, Allahdan başqa heç bir ilah yoxdur. Həm özünün, həm də iman edən kişi və qadınların günahlarının bağışlanmasını dilə! Allah gəzib-dolaşdığınız yeri də, içində qalacağınız yeri də bilir.

20. İman edənlər: "Kaş ki, bir surə endiriləydi!" – deyərlər. Ancaq hökmü açıq-aşkar olan bir surə endirilib, onda savaşdan bəhs olunduqda qəlblərində xəstəlik olanların ölüm qorxusundan bayılmış kimsənin baxması kimi sənə baxdıqlarını görərsən. O isə onlara çox yaxındır.

21. İtaət və gözəl bir söz onlar üçün daha xeyirlidir. İş ciddiləşdikdə Allaha verdikləri sözə bağlı qalsaydılar, əlbəttə, onlar üçün daha yaxşı olardı.

22. Deməli, üz çevirdiyiniz zaman[1] yer üzündə fitnə-fəsad çıxaracaq və qohumluq əlaqələrini kəsəcəksiniz, eləmi?

23. Bax bunlar Allahın lənətləyib qulaqlarını kar, gözlərini kor etdiyi kimsələrdir.[2]

24. Onlar Qur`anı düşünmürlərmi? Yoxsa qəlblərin üzərində kilidləri var?

25. Onlara hidayət yolu bəlli olduqdan sonra geri dönənləri şeytan aldadıb ardınca aparmış və onları xam xəyallara salmışdır.

26. Bu, Allahın endirdiyini bəyənməyən kimsələrə münafiqlərin "Bəzi işlərdə sizə itaət edəcəyik" demələri səbəbi ilədir. Allah onların gizli danışıqlarını bilir.

27. Mələklər onların üzlərinə və kürəklərinə vuraraq canlarını aldıqları zaman halları necə olacaq?

28. Bu, Allahı qəzəbləndirən şeylərə uymaları və Onun sevdiyi şeyləri bəyənməmələri səbəbi ilədir. Allah da onların əməllərini boşa çıxarmışdır.

---

1 Ayənin əvvəli "Deməli başa keçdiyiniz zaman" şəklində də tərcümə oluna bilər.

2 Həqiqət qarşısında bəzi kimsələri Allahın "kar və kor" etməsi onların bu istiqamətdə seçim etmələri və Allahın da bu seçimin nəticəsini yaratması mənasındadır.

Allahın birliyini və ondan irəli gələn digər həqiqətləri görməyən, eşitməyən kimsələrin "kor" və "kar" olaraq səciyyələndirilməsi məcazi bir ifadə üslubudur. Qur`ana görə əsl korluq "göz" adlanan orqanın funksiyasını itirməsi deyil, qəlbin funksiyasını itirməsi (Baxın: Həcc, 22/46), yəni insanın ağıl və vicdan əlaqəsi sayəsində əldə etdiyi bəsirətini itirməsidir.

**29.** Yoxsa qəlblərində xəstəlik olanlar elə güman etdilər ki, Allah onların kinlərini meydana çıxarmayacaq?

**30.** Biz istəsəydik, onları sənə göstərərdik, sən onları üzlərindən tanıyardın. And olsun, sən onları danışıq tərzlərindən da tanıyarsan. Allah etdiklərinizi bilir.

**31.** And olsun, sizdən cihad edənləri və səbir edənləri müəyyən edənə və hallarınızı aşkarlayana qədər sizi sınayacağıq.

**32.** İnkar edənlər, Allah yolundan yayındıranlar və özlərinə hidayət yolu bəlli olduqdan sonra peyğəmbərə qarşı çıxanlar heç bir şəkildə Allaha zərər verə bilməzlər. Allah onların əməllərini boşa çıxaracaq.

**33.** Ey iman edənlər! Allaha itaət edin, peyğəmbərə itaət edin. Əməllərinizi hədər etməyin.

**34.** İnkar edən, Allah yolundan yayındıran, sonra isə inkarçılar olaraq ölənlər ki var, Allah onları əsla bağışlamayacaq.

**35.** Əsla zəiflik göstərməyin. Üstün olduğunuz halda sülhə çağırmayın. Allah sizinlədir. Sizin əməllərinizi əsla əskiltməyəcək.

**36.** Şübhəsiz, dünya həyatı sadəcə bir oyun və əyləncədir. Əgər iman edər və Allaha qarşı gəlməkdən çəkinərsinizsə, O, sizə mükafatınızı verər və sizdən mallarınızı (tamamilə xərcləməyinizi) istəməz.

**37.** Əgər onları sizdən istəyib sizi məcbur etsəydi, xəsislik edərdiniz, O isə kinlərinizi meydana çıxarardı.

**38.** Siz Allah yolunda xərcləməyə çağırılırsınız. Lakin sizdən xəsislik edənlər var. Kim xəsislik edərsə, sadəcə öz zərərinə xəsislik etmiş olar. Allah hər baxımdan sonsuz zəngindir, siz isə yoxsulsunuz. Əgər ondan üz çevirsəniz, yerinizə başqa bir qövm gətirər, onlar da sizin kimi olmazlar.

## 48. FƏTH SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 29 ayədən ibarətdir. Surənin adı 1, 18 və 27-ci ayələrdə keçən "fəth" sözündən götürülmüşdür. Surədə başlıca olaraq hicrətin 6-cı ilində həzrət Peyğəmbərlə məkkəli müşriklər arasında bağlanan Hüdeybiyyə andlaşması, cihad, savaşdan geri qalan münafiqlər və Məkkənin fəth olunacağı müjdəsindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Şübhəsiz, biz sənə açıq-aşkar bir fəth verdik.[1]

**2, 3.** (Ki,) Allah sənin keçmiş və gələcək günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni doğru yola yönəltsin və Allah sənə şanlı bir zəfərlə yardım etsin.

1 Ayədə keçən "fəth" sözü ilə Məkkənin fəthi nəzərdə tutulur. Bundan başqa surənin nazil olmasından əvvəl baş tutan və Məkkənin fəthinə zəmin hazırlayan Hüdeybiyyə sülhünün nəzərdə tutulması da mümkündür.

4. O, iman edənlərin imanlarını qat-qat artırmaları üçün qəlblərinə hüzur və arxayınlıq endirəndir. Göylərin və yerin orduları Allahındır. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

5. Bütün bunlar Allahın iman edən kişi və qadınları içindən çaylar axan, içində əbədi qalacaqları cənnətlərə qoyması və onların pisliklərini örtməsi üçündür. Bax bu, Allah qatında böyük bir uğurdur.

6. Bir də Allah haqqında sui-zənn bəsləyən münafiq kişilərə və münafiq qadınlara, Allaha şərik qoşan kişilərə və Allaha şərik qoşan qadınlara Allahın əzab etməsi üçündür. Pislik girdabı onların başına olsun! Allah onlara qəzəb etmiş, onları lənətləmiş və onlara cəhənnəmi hazırlamışdır. Ora nə pis mənzildir!

7. Göylərin və yerin orduları Allahındır. Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

8. (Ey Muhamməd!) Şübhəsiz, biz səni bir şahid, bir müjdəçi və bir xəbərdar edən olaraq göndərdik.

9. Ey insanlar! Allaha və peyğəmbərinə inanasınız, ona yardım edəsiniz, ona təzim edəsiniz və səhər-axşam Allahı təsbih edəsiniz deyə (peyğəmbəri göndərdik).

10. Sənə beyət edənlər sadəcə Allaha beyət etmiş olarlar.[1] Allahın əli onların əllərinin üzərindədir. Verdiyi sözdən dönən öz əleyhinə dönmüş olar. Allaha verdiyi sözü tutana Allah böyük bir mükafat verəcək.

11. (Savaşdan) geri qalan bədəvilər sənə: "Bizə mallarımız və ailələrimiz mane oldu, Allahdan bizim üçün əfv dilə", – deyəcəklər. Onlar qəlblərində olmayanı dilləri ilə deyirlər. De ki: "Allah sizə bir zərər vermək istəsə, yaxud bir fayda əldə etmənizi istəsə, Ona qarşı kimin bir şeyə gücü çatar? Xeyr, Allah etdiklərinizdən xəbərdardır".

12. (Ey münafiqlər!) Əslində siz peyğəmbərin və iman edənlərin bir daha ailələrinə qayıtmayacaqlarını zənn etmişdiniz. Bu sizin qəlblərinizə gözəl göstərildi, sui-zənn etdiniz və məhvə məhkum bir qövm oldunuz.

13. Kim Allaha və peyğəmbərə inanmazsa, bilsin ki, şübhəsiz, biz inkar edənlər üçün alovlu bir atəş hazırladıq.

14. Göylərin və yerin hökmranlığı Allahındır. O, istədiyini bağışlayar, istədiyinə cəza verər. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

15. Siz qənimətləri almağa gedərkən savaşdan geri qalanlar: "Qoyun, biz də sizinlə gələk", – deyəcəklər. Onlar Allahın sözünü dəyişdirmək istəyirlər. De ki: "Siz bizimlə əsla gəlməyəcəksiniz. Allah əvvəldən belə buyurmuşdur". Onlar: "Bizi qısqanırsınız", – deyəcəklər. Xeyr, onlar çox az anlayırlar.

16. (Savaşdan) geri qalan bədəvilərə de ki: "Siz güclü qüvvətli bir qövmə qarşı təslim olana qədər savaşmağa çağırılacaqsınız. Əgər itaət etsəniz, Allah sizə gözəl bir mü-

1 Beyət əl tutuşub söz verməkdir. Ayədə Hüdeybiyyədə müsəlmanların həzrət Peyğəmbərə bağlı qalacaqlarına, yeri gəldikdə onunla birgə savaşacaqlarına dair söz vermələri nəzərdə tutulur. Bu hadisə İslam tarixində Beyətur-rizvan adlanır.

kafat verər. Lakin daha əvvəl döndüyünüz kimi yenə dönsəniz, Allah sizi ağrılı-acılı bir əzaba düçar edər".

17. Kora çətinlik yoxdur, topala çətinlik yoxdur, xəstəyə də çətinlik yoxdur. (Bunlar savaşa qatılmaq məcburiyyətində deyillər.) Kim Allaha və peyğəmbərinə itaət edərsə, Allah onu içlərindən çaylar axan cənnətlərə qoyar. Kim də üz döndərərsə, onu ağrılı-acılı bir əzaba düçar edər.

18, 19. Şübhəsiz, ağac altında sənə beyət etdikləri zaman Allah iman edənlərdən razı olmuşdur. Qəlblərində olanı bilmiş, onlara hüzur, güvən duyğusu vermiş və onlara yaxın bir fəth[1] və əldə edəcəkləri bir çox qənimətlər nəsib etmişdir. Allah mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

20. Allah sizə əldə edəcəyiniz bir çox qənimətlər vəd etmişdir. Hələlik bunu sizə dərhal vermiş və insanların əllərini sizdən çəkmişdir. (Allah belə etdi) ki, bunlar möminlər üçün bir dəlil olsun, sizi də doğru bir yola yönəltsin.

21. Hələ əldə edə bilmədiyiniz, lakin Allahın elmi ilə əhatə etdiyi başqa (qazanclar) da var. Allah hər şeyə haqqı ilə gücü yetəndir.

22. İnkar edənlər sizinlə savaşsaydılar, arxalarını dönüb qaçar, sonra nə bir dost, nə də bir yardımçı tapa bilərdilər.

23. Allahın əvvəldən bəri işləyən qanunu (budur). Allahın qanununda əsla bir dəyişiklik tapa bilməzsən.

24. O, Məkkənin göbəyində onlara qarşı sizə zəfər verdikdən sonra onların əllərini sizdən, sizin əllərinizi də onlardan çəkəndir. Allah etdiklərinizi haqqı ilə görür.

25. Onlar inkar edənlər və Məscidi-Haramı ziyarət etməkdə və (ibadət məqsədilə) saxlanan qurbanlıqları yerlərinə çatdırmaqda sizə mane olanlardır. Əgər oradakı hələ tanımadığınız mömin kişilərlə, mömin qadınları bilmədən əzmə və beləliklə, sizə bir əziyyət gəlmə ehtimalı olmasaydı, (Allah Məkkəyə girmək üçün sizə icazə verərdi). Allah istədiyini öz rəhmətinə qovuşdurmaq üçün belə etmişdir. Əgər iman edənlərlə inkar edənlər bir-birilərindən ayrılmış olsaydılar, onlardan inkar edənləri ağrılı-acılı bir əzaba düçar edərdik.

26. Xatırla ki, inkar edənlər öz qəlblərinə təəssübü, cahiliyyə təəssübünü yerləşdirmişdilər. Allah isə peyğəmbərinə və iman edənlərə öz dərgahından hüzur və aramlıq endirmiş və onları təqva (Allaha qarşı gəlməkdən çəkinmə) sözünə bağlı etmişdi. Onların buna haqqı var idi və buna layiq idilər. Allah hər şeyi haqqı ilə bilir.

27. And olsun, Allah peyğəmbərinin röyasını doğru çıxardı. Allah istəsə, siz əmin-amanlıqla, başlarınızı qırxmış və ya saçlarınızı qısaltmış halda, qorxmadan Məscidi-Harama daxil olacaqsınız. Allah sizin bilmədiyinizi bildi və sizə bundan başqa yaxın bir fəth də verdi.[2]

1 Ayədəki fəth Hüdeybiyyə sülhündən sonra gerçəkləşən Xeybərin fəthi hadisəsidir. Daha sonrakı ayələrdə bəhs olunan qənimətlər də burada əldə olunan qənimətlərdir.

2 Ayədəki yaxın fəth Məkkənin fəthindən əvvəl gerçəkləşən Xeybərin fəthi və ya Hüdeybiyyə andlaşmasıdır. Hüdeybiyyə andlaşmasının fəth olaraq adlandırılması müsəlmanlara bir çox cəhətdən üstünlüklər qazandırması ilə əlaqəlidir.

28. O, peyğəmbərini hidayət və haqq din ilə göndərəndir. (Allah) o haqq dini bütün dinlərdən üstün tutmaq üçün (belə etdi). Şahid olaraq Allah yetər.

29. Muhamməd Allahın rəsuludur. Onunla birlikdə olanlar inkar edənlərə qarşı şiddətli, bir-birilərinə qarşı isə mərhəmətlidirlər. Onların rüku və səcdə halında Allahdan lütf və razılıq istədiklərini görərsən. Onların səcdə izi olan əlamətləri üzlərindədir. Bax bu, onların Tövratda və İncildə keçən vəsfləridir: Onlar cücərtisini üzə çıxarmış, onu gücləndirmiş, qalınlaşmış, gövdəsi üzərində qalxmış, əkinçilərin xoşuna gələn bir əkin kimidirlər. Allah inkar edənləri onlarla qəzəbləndirmək üçün onları bu şəkildə sağlam və dözümlü edər. Allah onlardan iman edib saleh əməl işləyənlərə bir bağışlanma və böyük bir mükafat vəd etmişdir.

## 49. HUCURAT SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 18 ayədən ibarətdir. Surənin adı 4-cü ayədə keçən “Hucurat” sözündən götürülmüşdür. Hucurat otaqlar deməkdir. Burada həzrət Peyğəmbərin ailə üzvləri ilə birlikdə yaşadığı otaqlar nəzərdə tutulur. Surədə başlıca olaraq möminlərin həm həzrət Peyğəmbərə qarşı, həm də öz aralarında riayət etməli olduqları bəzi ədəb və əxlaq qaydalarından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey iman edənlər! Allahdan və peyğəmbərindən önə keçməyin. Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

2. Ey iman edənlər! Səslərinizi Peyğəmbərin səsindən yuxarı qaldırmayın. Bir-birinizə bağırdığınız kimi Peyğəmbərə yüksək səslə bağırmayın, yoxsa siz fərqində olmadan əməlləriniz boşa gedər.

3. Allahın elçisinin hüzurunda səslərini qısanlar ki var, Allah onların qəlblərini təqva sınağından keçirmişdir. Onlar üçün bir bağışlanma və böyük bir mükafat var.

4. (Ey Muhamməd!) Otaqların arxasından sənə bağıranlar ki var, onların çoxu düşünməyən kimsələrdir.[1]

5. Əgər onlar sən yanlarına çıxıncaya qədər səbir etsəydilər, əlbəttə, onlar üçün daha yaxşı olardı. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

6. Ey iman edənlər! Bir fasiq sizə bir xəbər gətirərsə, bilmədən bir topluluğa zərər verib etdiyinizdən peşman olmamaq üçün o xəbərin doğruluğunu araşdırın.

7. Bilin ki, aranızda Allahın elçisi var. Əgər o, bir çox işdə sizə uysaydı, çətinliyə düşərdiniz. Lakin Allah sizə imanı sevdirmiş və onu qəlblərinizə gözəl göstərmiş, inkarı, fasiqliyi və (İslamın əmrlərinə) qarşı çıxmağı da çirkin göstərmişdir. Bunlar məhz doğru yolda olanlardır.

1 Üyeynə ibn Hüseyn və Əqrə ibn Habis Təmim oğullarından yetmiş nəfərlik bir heyətlə həzrət Peyğəmbərin istirahət etdiyi bir günorta vaxtı otaqların arxasına gələrək: “Ey Muhamməd! Yanımıza gəl”, – deyə səslənmişdilər. Ayədə onların bu kobud davranışı qınanır.

8. Allah öz qatından bir lütf və nemət olaraq belə etdi. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

9. Əgər iman edənlərdən iki dəstə bir-biriləri ilə savaşsalar, aralarını düzəldin. Əgər biri digərinə qarşı həddi aşarsa, Allahın əmrinə dönənə qədər həddi aşan tərəfə qarşı savaşın. Əgər (Allahın əmrinə) dönərsə, artıq aralarını ədalətlə düzəldin və (onlara qarşı) ədalətli davranın. Çünki Allah ədalətli davrananları sevər.

10. Möminlər ancaq qardaşdırlar. Elə isə qardaşlarınızın arasını düzəldin. Allaha qarşı gəlməkdən çəkinin ki, sizə mərhəmət edilsin.

11. Ey iman edənlər! Bir topluluq digər bir topluluğu məsxərəyə qoymasın. Bəlkə də, onlar özlərindən daha yaxşıdırlar. Qadınlar da başqa qadınları məsxərəyə qoymasın. Bəlkə də, onlar özlərindən daha yaxşıdırlar. Bir-birinizi qaralamayın, bir-birinizi (pis) ləqəblərlə çağırmayın. İmandan sonra fasiqlik nə pis bir addır! Kim tövbə etməzsə, onlar məhz zalımlardır.

12. Ey iman edənlər! Zənnin çoxundan çəkinin. Çünki zənnin bir qismi günahdır. Bir-birinizin qüsurlarını və məhrəm sirlərini araşdırmayın. Bir-birinizin qeybətini etməyin. Hər hansı birinizin ölü qardaşının ətini yeməkdən xoşu gələrmi? Bax bundan diksindiniz! Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allah tövbəni çox qəbul edəndir, çox mərhəmət edəndir.

13. Ey insanlar! Şübhəsiz, biz sizi bir erkək və bir dişidən yaratdıq və bir-birinizi tanıyasınız deyə sizi boylara və qəbilələrə ayırdıq. Allah qatında ən dəyərli olanınız Ona qarşı gəlməkdən ən çox çəkinəninizdir. Şübhəsiz, Allah haqqı ilə biləndir, haqqı ilə xəbərdar olandır.

14. Bədəvilər: "İman etdik", – dedilər. De ki: "İman etmədiniz. (Elə isə "İman etdik" deməyin.) "Sadəcə boyun əydik", – deyin.[1] Hələ iman qəlblərinizə girməyib. Əgər Allaha və peyğəmbərinə itaət etsəniz, etdiklərinizdən heç bir şeyi əskiltməz. Allah çox bağışlayandır, çox mərhəmət edəndir".

15. İman edənlər sadəcə Allaha və peyğəmbərinə inanan, sonra şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir. Onlar doğru kimsələrdir.

16. (Ey Muhamməd!) De ki: "Siz Allaha dininizi öyrədirsiniz? Halbuki Allah göylərdəki və yerdəki hər şeyi bilir. Allah hər şeyi haqqı ilə biləndir".

17. Müsəlman olmalarını minnət qoyarcasına sənə xatırladırlar. De ki: "Müsəlman olduğunuzu mənə minnət qoymayın. Əksinə əgər (sözünüzdə) doğrusunuzsa, sizi imana qovuşdurduğu üçün Allah sizə lütf etmiş olur".

18. Şübhəsiz, Allah göylərin və yerin qeybini bilir. Allah etdiklərinizi haqqı ilə görəndir.

1 Bu cümlə "Lakin "İslama girdik", – deyin" şəklində də tərcümə edilə bilər.

# 50. QAF SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 45 ayədən ibarətdir. Surənin adı əvvəlində gələn "Qaf" hərfindən götürülmüşdür. Surədə başlıca olaraq İslam inancının əsasları çərçivəsində Allahın birliyinin dəlilləri, peyğəmbərlik, öldükdən sonra dirilmə və keçmişdəki inkarçı millətlərin başlarına gələn fəlakətlərdən, düçar olduqları əzablardan bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1, 2.** Qaf.[1] Şərəfli Qur`ana and olsun ki, kafirlər öz aralarından bir xəbərdar edənin gəlməsinə təəccüb etdilər və belə dedilər: "Bu, qəribə bir şeydir!"

**3.** "Öldüyümüz və torpaq olduğumuz zaman (dirildiləcəyik)? Bu, ağlasığmaz (imkansız) bir qayıdışdır!"

**4.** Şübhəsiz, biz torpağın onlardan nələr apardığını bilirik. Yanımızda (o bilgiləri) qoruyan bir kitab var.

**5.** Hətta haqq onlara gəldikdə onu inkar etdilər. Artıq onlar qərarsız bir haldadırlar.

**6.** Üstlərindəki göyə baxmırlarmı? Onu necə bina etdik, necə bəzədik! Onda heç bir nizamsızlıq və nöqsan yoxdur.

**7.** Yer üzünü də yaydıq və orada sabit dağlar yerləşdirdik. Orada növbənöv gözəl cüt bitkilər bitirdik.

**8.** Bütün bunlar ixlasla Allaha yönələn hər qulun qəlb gözünü açmaq və ona öyüd və ibrət vermək üçündür.

**9, 10, 11.** Göydən də bərəkətli bir su endirib onunla qullar üçün ruzi olaraq bağçalar və biçinlik dənlər (əkinlər), bir-birinə girmiş qat-qat tumurcuqları olan hündür xurma ağacları bitirdik və beləliklə, onunla ölü bir torpağa həyat verdik. (Dirilib qəbirlərdən) çıxış da bax belədir.

**12, 13, 14.** Onlardan əvvəl Nuh qövmü, Rəss xalqı və Səmud qövmü, Ad, Firon, Lutun qardaşları, Əykəlilər və Tübbanın[2] qövmü də inkar etmişdi. Bütün bunlar (onlara göndərilən) peyğəmbərləri inkar etdilər, beləliklə, onları xəbərdar etdiyim şey gerçəkləşdi.

**15.** İlk yaratmada acizlik göstərdikmi ki, (yenidən yaratmayaq)? Doğrusu, onlar yenidən yaratma barəsində şübhə içindədirlər.

**16.** And olsun, insanı biz yaratdıq və nəfsinin ona verdiyi vəsvəsəni də biz bilirik. Çünki biz ona şah damarından daha yaxınıq.

**17.** Üstəlik, biri insanın sağ tərəfində, biri sol tərəfində oturan iki mələk də (onun etdiklərini) alıb qeyd edir.

**18.** İnsan elə bir söz söyləməz ki, onun yanında (etdiklərini) görən (və qeyd edən) hazır bir mələk olmasın.

---

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Tübba Yəmən hökmdarlarına verilən addır.

19. Ölüm sərxoşluğu bir haqq olaraq insana gələr, ona: "Bax bu, sənin əvvəldən bəri qaçdığın şeydir", – deyilər.
20. (İnsanlar öldükdən sonra yenidən dirilmələri üçün) Sura[1] üfürüləcək. Bax bu, vədin gerçəkləşəcəyi gündür.
21. Hər bir kəs yanında bir sövq edən, bir də şahidlik edən (mələk) ilə gələr.
22. (Ona:) "And olsun, sən bundan qəflətdə idin. İndi qəflət pərdəni açdıq, artıq bu gün gözün kəskindir", – (deyilər).
23. Yanındakı (mələk) belə deyər: "Bu yanımdakı hazırdır!"
24, 25. (Allah belə deyər:) "Atın cəhənnəmə, (haqqa qarşı) inadkar, xeyrə mane olan, həddi aşan, şübhəçi hər kafiri!"
26. "Allah ilə yanaşı başqa bir ilah tutan o kimsəni atın şiddətli əzabın içinə!"
27. Yoldaşı (olan şeytan) deyər ki: "Ey Rəbbimiz! Onu mən sapdırmadım, lakin özü dərin bir sapqınlıq içində idi".
28. Allah belə deyər: "Mənim hüzurumda mübahisə etməyin. Çünki mən bu (barədə) xəbərdarlığı sizə əvvəlcədən etdim".
29. "Mənim qatımda söz dəyişdirilməz və mən qullara zülm edən deyiləm".
30. O gün cəhənnəmə: "Doldunmu?" – deyərik. O da: "Yenə varmı?" – deyər.
31. Cənnət Allaha qarşı gəlməkdən çəkinənlərə uzaq olmayacaq şəkildə yaxınlaşdırılacaq.
32, 33. (Onlara belə deyilər:) "Bax bu, sizə (dünyada) vəd edilən şeydir. O, hər bir tövbə edən, Onun əmrinə boyun əyən, görmədiyi halda Rəhmandan qorxan və Ona yönəlmiş bir qəlb ilə gələn kimsələr üçündür".
34. "Oraya sağ-salamat girin. Bax bu, əbədiyyət günüdür".
35. Orada onların istədikləri hər şey var. Qatımızda daha artığı da var.
36. Biz onlardan əvvəl özlərindən daha qüvvətli neçə-neçə nəsilləri həlak etdik, diyar-diyar gəzib qaçacaq yer axtardılar. Qaçacaq yermi var?
37. Şübhəsiz, bunda ağlı olan, yaxud hazır durub qulaq asan kimsələr üçün bir öyüd var.
38. And olsun, biz göyləri, yeri və ikisi arasında olanları altı gündə (altı mərhələdə) yaratdıq. Bizə yorğunluq da toxunmadı.
39. O halda onların dediklərinə səbir et və günəşin doğmasından əvvəl də, batmasından əvvəl də Rəbbini həmd edərək təsbih et.[2]
40. Gecənin bir qismində və səcdələrin ardından da Onu təsbih et.
41. (Ey Muhamməd!) Çağıranın yaxın bir yerdən səslənəcəyi gün (o səsə) qulaq ver.

1 Sur üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bilinməyən bir növ boru deməkdir.

2 Bu ayədə sübh, zöhr və əsr namazlarının vaxtlarına, bundan sonrakı 40-cı ayədə isə axşam və işa namazlarının vaxtlarına işarə edilir.

**42.** O gün insanlar haqqa çağıran o qorxunc səsi eşidəcəklər. Bax bu, (qəbirlərdən) çıxış günüdür.

**43.** Şübhəsiz, biz dirildər və öldürərik. Qayıdış da yalnız bizədir.

**44.** O gün yer onların üstündən sürətlə yarılıb açılar. Bu, (hesab üçün) bir toplamadır, bizim üçün asandır.

**45.** Biz onların nə dediklərini çox yaxşı bilirik. Sən onlara qarşı bir zorba deyilsən. O halda sən mənim vədimdən qorxan kimsələrə Qur`an ilə öyüd ver.

## 51. ZARİYAT SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 60 ayədən ibarətdir. Surənin adı ilk ayədə keçən "əz-Zariyat" sözündən götürülmüşdür. Zariyat əsib sovuran küləklər deməkdir. Surədə başlıca olaraq öldükdən sonra hesab üçün toplanma, inkar edənlərin axirətdə qarşılaşacaqları əzab, möminlərə veriləcək mükafatlar, kainatda Allahın varlığını və birliyini göstərən dəlillərdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1, 2, 3, 4, 5, 6.** Toz qoparıb sovuranlara, ağırlıq daşıyanlara, asanlıqla axanlara, iş bölüşdürənlərə and olsun ki, sizə vəd olunan, əlbəttə, doğrudur. Hesab və cəza mütləq gerçəkləşəcəkdir.[1]

**7, 8.** Yollara (ulduzların məcrasına) sahib olan göyə and olsun ki, mütləq siz (peyğəmbər haqqında) ziddiyyətli sözlər deyirsiniz.

**9.** Ondan (peyğəmbərdən) dönən dönmüş olar.

**10, 11.** Cəhalət içində qəflətə dalan (və "Muhamməd şairdir, dəlidir" deyən) yalançılar məhv olsun!

**12.** "Cəza günü nə vaxtdır?" – deyə soruşurlar.

**13, 14.** Atəş üzərində əzab olunduqları gün (vəzifəli mələklər onlara belə deyər:) "Əzabınızı dadın! Tez gəlməsini istədiyiniz şey budur".

**15, 16.** Şübhəsiz, Allaha qarşı gəlməkdən çəkinənlər Rəblərinin onlara verdiyi şeyləri alaraq cənnətlərdə və bulaq başlarında olarlar. Şübhəsiz, onlar bundan əvvəl yaxşılıq edən kimsələr idi.

**17.** Gecələri çox az yatardılar.

**18.** Gündüzləri bağışlanma diləyərdilər.

**19.** Mallarında (yardım) istəyən və (həya edərək istəməyib) məhrum qalanlar üçün bir haqq var.

1 Ayələrdə külək, buludlar, yağış və bunlar kimi hər cür hərəkət halında olan və daşıma gücünə sahib bütün varlıq və təbiət hadisələrinin kainat nizamındakı əhəmiyyətinə və varlıqlar aləmindəki davamlı hərəkətlilik və yaradılışa diqqət çəkilir, bütün bunların ilahi qüdrət tərəfindən idarə edildiyi vurğulanır.

20, 21. Yəqinliklə iman edənlər üçün yer üzündə və öz nəfslərinizdə bir çox əlamətlər var. Hələ də görmürsünüzmü?

22. Göydə ruziniz və sizə vəd olunan şeylər var.

23. Göyün və yerin Rəbbinə and olsun ki, o (sizə vəd olunanlar) sizin danışığınız kimi gerçəkdir.

24. (Ey Muhammədi!) İbrahimin hörmətli qonaqlarının xəbəri sənə gəlib çatdımı?

25. Bir vaxt onlar İbrahimin yanına gəlmiş və: "Salam olsun sənə!" – demişdilər. O da: "Sizə də salam olsun!" – demiş, "Bunlar yad kimsələrdir" (deyə düşünmüşdü).

26. Diqqət çəkmədən ailəsinin yanına gedib (bişirilmiş) kök bir buzov gətirdi.

27. Onu önlərinə qoydu. "Yemirsiniz?" – dedi.

28. (Yemədiklərini gördükdə) İbrahimin içinə onlardan bir qorxu düşdü. Onlar: "Qorxma", – dedilər və onu çox bilikli bir oğul ilə müjdələdilər.

29. Bundan sonra zövcəsi haray qopararaq əlini üzünə vurdu, "Mən qısır bir qarıyam (necə övladım ola bilər?)" – dedi.

30. Onlar dedilər ki: "Rəbbin belə buyurdu. Şübhəsiz, O, hökm və hikmət sahibidir, haqqı ilə biləndir".

31. İbrahim onlara: "O halda əsl işiniz nədir, ey elçilər?" – dedi.

32, 33, 34. Onlar belə dedilər: "Biz günahkar bir qövmə (Lutun qövmünə) üstlərinə palçıqdan, bişirilmiş və Rəbbinin qatında həddi aşanlar üçün təyin edilmiş daşlar yağdırmaq üçün göndərildik".

35. Orada (Lutun ətrafında) olan möminləri çıxardıq.

36. Onsuz da orada bir ev əhlindən başqa müsəlman tapa bilmədik.

37. Orada ağrılı-acılı əzabdan qorxacaq kimsələr üçün bir ibrət qoyduq.

38. Musa qissəsində də ibrət var. Bir vaxtlar biz onu açıq-aşkar bir dəlil ilə Firona göndərmişdik.

39. O isə gücünə arxalanaraq üz döndərdi və: "Bu, bir sehrbaz və ya dəlidir", – dedi.

40. Bundan sonra biz də onu və ordularını yaxalayıb dənizə atdıq. O isə (peşman olub) özünü qınayırdı.

41. Ad qövmündə də ibrətlər var. Bir vaxt onların üstünə köklərini kəsən küləyi göndərmişdik.

42. Qarşısına çıxan heç bir şeyi buraxmır, mütləq onu kül edirdi.

43. Səmud qövmündə də ibrətlər var. Bir vaxt onlara: "Bir müddət faydalanın, görək", – deyilmişdi.

44. Sonra Rəblərinin əmrindən uzaqlaşıb azdılar. Bu səbəblə baxıb durduqları halda onları ildırım vurdu.

45. Artıq nə yerlərindən qalxmağa gücləri çatdı, nə də başqasından yardım ala bildilər.

46. Bunlardan əvvəl də Nuh qövmünü həlak etmişdik. Çünki onlar fasiq bir qövm idilər.

47. Göyü qüdrətimizlə biz qurduq və şübhəsiz, bizim (hər şeyə) gücümüz çatar.[1]
48. Yeri də biz döşədik. Biz nə gözəl döşəyənik.
49. Düşünüb ibrət götürsünlər deyə hər şeydən (erkək-dişi olmaqla) iki cüt yaratdıq.
50. O halda Allaha tərəf qaçın. Şübhəsiz, mən sizə Onun qatından göndərilmiş açıq-aşkar bir xəbərdar edənəm.
51. Allah ilə yanaşı başqa bir ilah tutmayın. Həqiqətən, mən sizə Allah tərəfindən göndərilmiş açıq-aşkar bir xəbərdar edənəm.
52. Bax belə! Onlardan əvvəlkilərə elə bir peyğəmbər gəlmədi ki: "O, bir sehrbazdır" yaxud "Bir dəlidir", – deməsinlər.
53. Onlar bunu bir-birilərinə tövsiyəmi etdilər (ki, eyni şeyləri deyirlər)? Xeyr, onlar azğın bir qövmdür.
54. Buna görə də üz döndər. Artıq qınanmazsan.
55. Sən yenə də öyüd ver. Çünki öyüd möminlərə fayda verər.
56. Mən cinləri və insanları sadəcə mənə ibadət etsinlər deyə yaratdım.
57. Mən onlardan bir ruzi istəmirəm. Məni yedirtmələrini də istəmirəm.
58. Şübhəsiz, Allah ruzi verəndir, güclüdür, çox qüvvətlidir.
59. Şübhəsiz, zülm edənlər üçün (əvvəlki müşrik) yoldaşlarının əzab payı kimi payları var. Artıq əzabımı tələsik istəməsinlər.
60. Vəd olunduqları günlərindən ötrü vay o inkar edənlərin halına!

## 52. TUR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 49 ayədən ibarətdir. Surənin adı ilk ayədə keçən "ət-Tur" sözündən götürülmüşdür. Tur dağ deməkdir. Burada həzrət Musaya ilk vəhyin gəldiyi Sina yarımadasının cənubundakı Sina dağı nəzərdə tutulur. Surədə başlıca olaraq axirət halları, kafirlərin qarşılaşacaqları cəza, möminlərin mükafatlarından bəhs olunur və müşriklərin həzrət Peyğəmbər haqqındakı batil iddiaları rədd edilir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2, 3, 4, 5, 6, 7. Tura, yayılmış incə dəri səhifələrə nizamla yazılmış kitaba, Beyti-Məmura,[2] yüksəldilmiş tavana (göyə), qabaran dənizə and olsun ki, şübhəsiz, Rəbbinin əzabı mütləq gerçəkləşəcək.
8. Onu geri qaytaracaq heç bir şey yoxdur.
9. O gün göy şiddətlə silkələnib çalxalanar.

1 Bu ayə "Göyü qüdrətimizlə biz qurduq və biz onu genişləndiririk" şəklində də tərcümə edilə bilər. Ayənin bu şəkildə tərcüməsi kainatın davamlı genişləndiyi görüşünü dəstəkləyir.

2 Beyti-Məmur sözü ilə göyün yeddinci qatında mələklərin ziyarətgahı olan bir məqam yaxud Kəbə nəzərdə tutulur.

10. Dağlar yeridikcə yeriyər.
11, 12. Bax o gün daldıqları dünya zövqü içində əylənib ovunan inkarçıların vay halına!
13, 14. Cəhənnəm atəşinə atılacaqları gün onlara: "Bax bu, inkar etdiyiniz atəşdir", – deyilər.
15. "Bu Qur`an bir sehr idi yoxsa siz (həqiqəti) görə bilmirdiniz?"
16. "Girin oraya. İstər dözün, istərsə dözməyin, sizin üçün birdir. Sizə ancaq etdiklərinizin qarşılığı verilir".
17, 18. Şübhəsiz, Allaha qarşı gəlməkdən çəkinənlər Rəblərinin onlara verdiyi şeylərlə zövq və xoşbəxtlik duyaraq cənnətlərdə və nemətlər içində olarlar. Rəbləri onları cəhənnəm əzabından qorumuşdur.
19, 20. Onlara: "Dünyada etdiklərinizin qarşılığında sıra-sıra düzülmüş taxtlara söykənərək nuşcanlıqla yeyin-için", – deyilər. Biz onlara iri gözlü gözəl huriləri zövcə olaraq vermişik.
21. İman edənlər və nəsilləri də iman barəsində onların yoluna uyanlar ki var, biz onların nəsillərini özlərinə qatdıq. Bununla birlikdə onların əməllərindən heç bir şey əskiltmərik. Hər kəs qazandığı qarşılığında girovdur.
22. Onlara ürəklərinin istədiyi meyvə və ətdən bol-bol verdik.
23. Orada (içdikdə) boş söz söylətməyən, günah işlətməyən dolu bir qədəhi əldən-ələ ötürərlər.
24. Onların xidmətinə verilmiş, qabığında gizli mirvari kimi gənclər ətraflarında dolanarlar.
25. Bir-birilərinə üz tutub ("Nə yaxşılıq etdiniz ki, bu nemətlərə çatdınız?" – deyə) soruşarlar.
26. Deyərlər ki: "Şübhəsiz, daha əvvəl biz ailəmiz içində yaşarkən (Allaha üsyan etməkdən) qorxardıq".
27. "Allah da bizə lütf etdi və bizi iliklərə işləyən cəhənnəm əzabından qorudu".
28. "Həqiqətən, biz bundan əvvəl Ona yalvarırdıq. Şübhəsiz, O, yaxşılıq edəndir, çox mərhəmətlidir".
29. (Ey Muhamməd!) O halda sən öyüd ver. Rəbbinin neməti sayəsində sən nə bir kahinsən, nə də bir dəli.
30. Yoxsa onlar: "O, zəmanənin müsibətlərinə düçar olacağını gözlədiyimiz bir şairdir", – deyirlər?
31. Onlara de ki: "Gözləyin. Mən də sizinlə birlikdə gözləyənlərdənəm".
32. Bunu onlara ağılları əmr edir, yoxsa onlar azğın bir topluluqdur?
33. Yoxsa: "O, Qur`anı özü uydurub söylədi", – deyirlər? Xeyr, (inadla) iman etmirlər.
34. Əgər doğru söyləyənlərdirlərsə, qoy onun kimi bir söz gətirsinlər!
35. Onlar hər hansı bir yaradan olmadan yaradıldılar? Yoxsa özləri yaradandırlar?

36. Yoxsa göyləri və yeri onlar yaratdılar? Xeyr, onlar qətiyyən inanmırlar.
37. Yoxsa Rəbbinin xəzinələri onların yanındadır? Yaxud hər şeyə hakim olan onlardır?
38. Yoxsa onların nərdivanlarımı var ki, onunla (ilahi vəhyi) dinləsinlər? (Əgər varsa,) dinləyənlər açıq bir dəlil gətirsin!
39. Yoxsa qızlar Onun (Allahın), oğullar sizindir?
40. Yoxsa sən onlardan (təbliğ vəzifəsi qarşılığında) bir muzd istəyirsən, onlar ağır bir borc yükü altında qalıblar?
41. Yoxsa qeyb elmi onların yanındadır, ondan yazırlar?
42. Yoxsa bir tələ qurmaq istəyirlər? Əksinə, inkar edənlərin özləri tələyə düşəcək olanlardır.[1]
43. Yoxsa onların Allahdan başqa bir ilahı var? Allah onların şərik qoşduqlarından uzaqdır.
44. Göydən düşən parçalar görsələr: "Bunlar üst-üstə yığılmış buludlardır", – deyərlər.
45. Artıq çarpılacaqları günlərinə qədər onları özbaşlarına burax.[2]
46. O gün hiylələri onlara heç bir fayda verməyəcək və onlara kömək də edilməyəcək.
47. Şübhəsiz, zülm edənlərə bundan başqa bir əzab da var.[3] Lakin onların çoxu bilməzlər.
48. Rəbbinin hökmünə səbir et. Çünki sən gözlərimizin önündəsən, qalxdığın zaman Rəbbini həmd ilə təsbih et.
49. Gecənin bir qismində və ulduzların batışı əsnasında Onu təsbih et.

## 53. NƏCM SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 62 ayədən ibarətdir. Surənin adı ilk ayədəki "ən-Nəcm" sözündən götürülmüşdür. Nəcm ulduz deməkdir. Surədə başlıca olaraq Qur`anın vəhy olduğu vurğulanır, hər kəsin öz əməllərinin qarşılığını görəcəyindən və Allahın qüdrətinin dəlillərindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Batdığı zaman ulduza and olsun ki, yoldaşınız (Muhamməd haqdan) sapmadı və azmadı.
3. O, nəfsin arzusu ilə danışmaz.

1 Müşriklər Darun-nədvədə toplanıb Əbu Cəhlin gətirdiyi təkliflə tələ quraraq həzrət Peyğəmbəri öldürməyi planlaşdırırdılar. Ayədə bu məkrli plana işarə edilir. Bu mövzu ilə əlaqəli olaraq Ənfal surəsinin 30-cu ayəsinin istinadına baxın.

2 "Çarpılacaqları gün" ifadəsi ilə öləcəkləri gün və ya birinci Surun üfürüləcəyi gün nəzərdə tutulur.

3 Təfsir alimləri axirətdəki əzab xaricində var olduğu bildirilən bu əzabın qəbir əzabı, yaxud Bədrdə müşriklərin məğlubiyyəti olduğunu bildirmişdirlər.

4. (Sizə oxuduğu) Qur`an ancaq ona bildirilən bir vəhydir.
5, 6, 7. (Qur`anı) ona üstün güclərə sahib, möhtəşəm görünüşlü (Cəbrail) öyrətdi. O, ən yüksək üfüqdə olarkən (əsl surətinə girib) doğruldu.
8. Sonra (ona) yaxınlaşdı, süzülüb daha da yaxın oldu.
9. (Peyğəmbərlə olan məsafəsi) iki yay arası qədər, yaxud daha az oldu.
10. Beləliklə, Allah quluna vəhy edəcəyini vəhy etdi.
11. Qəlb (gözün) gördüyünü inkar etmədi.
12. (İndi siz) gördüyü şey haqqında onunla mübahisə edirsiniz?
13. And olsun ki, o, Cəbraili başqa bir enişdə də (əsl surəti ilə) görmüşdü.
14. Sidreyi-müntəhanın yanında.
15. Mə`va cənnəti onun (Sidrənin) yanındadır.
16. O zaman Sidrəni bürüyən bürümüşdü.
17. Göz (gördüyündən) yayınmadı və (onu) aşmadı.[1]
18. And olsun, o, Rəbbinin ən böyük əlamətlərindən bir qismini gördü.
19, 20. Lat, Üzza və digər üçüncüsü Mənat haqqında nə deyirsiniz?[2]
21. Erkək sizin, dişi də Onundur?[3]
22. Elə isə bu, çox insafsız bir bölgüdür.
23. Onlar sadəcə sizin və atalarınızın (ilah tutduğunuz şeylərə) qoyduğunuz isimlərdir. Allah onlar haqqında heç bir dəlil endirməmişdir. Onlar (bütpərəstlər) yalnız zənnə və nəfslərin arzusuna tabe olurlar. And olsun ki, onlara Rəbləri qatından yol göstərən gəlmişdir.
24. Yoxsa insan hər istədiyini (qeyd-şərtsiz) əldə edəcək?![4]
25. Halbuki axirət də, dünya da Allahındır.
26. Göylərdə neçə-neçə mələklər var ki, onların şəfaətləri yalnız Allahın izni ilə istədiyi və razı qaldığı kimsələrə fayda verər.
27. Şübhəsiz, axirətə iman etməyənlər mələklərə dişi adları verirlər.
28. Halbuki onların bu barədə heç bir bilgiləri yoxdur. Onlar sadəcə zənnə uyurlar. Şübhəsiz ki, zənn həqiqət adına heç bir şey ifadə etməz.
29. Elə isə sən də bizim zikrimizdən (Qur`andan) üz döndərən və dünya həyatından başqa bir şey istəməyən kimsələrdən üz çevir.

---

1 Ayədə həzrət Peyğəmbərin Cəbraili gördüyü anda baxışlarının ona zilləndiyi, başqa bir şeyə baxa bilmədiyi ifadə olunur.

2 Lat, Üzza və Mənat müşriklərin tapındıqları bütlərdən bəziləridir.

3 Ayədə müşriklərin "Mələklər Allahın qızlarıdır" şəklindəki inancları (baxın: 27-ci ayə) qınanır, Allaha layiq olmadığı şeyləri isnad etməyin şirk və bir növ bütpərəstlik olduğu ifadə edilir.

4 Ayədə müşriklərin bütlərin şəfaətini istəmək kimi yersiz ümidlərindən çıxış edərək insanın hər arzusunu əldə edə bilməyəcəyi vurğulanır.

30. Bu da onların elm baxımından çatdıqları mərtəbə! Şübhəsiz, sənin Rəbbin yolundan sapanı daha yaxşı bilir. O, hidayət tapanı da daha yaxşı bilir.

31. Göylərdəki hər şey, yerdəki hər şey Allahındır. (Bu,) pislik edənləri etdikləri ilə cəzalandırması, yaxşılıq edənləri də daha gözəli ilə mükafatlandırması üçündür.

32. Onlar kiçik qüsurlar xaricində böyük günahlardan və çirkin işlərdən uzaq duran kimsələrdir. Şübhəsiz, Rəbbin bağışlaması çox geniş olandır. Sizi torpaqdan yaradanda da, analarınızın qarnında rüşeymlər olanda da ən yaxşı biləndir. Odur ki, özünüzü təmizə çıxarmayın. Çünki O, Allaha qarşı gəlməkdən çəkinənləri ən yaxşı biləndir.

33, 34. İndi üz çevirəni, çox az verib xəsislik edəni gördünmü?

35. Məgər qeybin elmi onun yanındadır, gerçəyi görür?

36, 37. Yoxsa Musanın və Allahın əmrlərini nöqsansız yerinə yetirən İbrahimin səhifələrindəki bu həqiqətlər ona xəbər verilmədi?

38. Heç bir günahkar başqasının günah yükünü yüklənməz.

39. İnsan üçün sadəcə çalışdığı var.

40. Şübhəsiz, onun çalışması görüləcək.

41. Sonra çalışmasının qarşılığı ona tam veriləcək.

42. Şübhəsiz, ən son dönüş Rəbbinədir.

43. Şübhəsiz, O güldürər və ağladar.

44. Şübhəsiz, O öldürər və dirildər.

45, 46. Şübhəsiz, O, iki cütü; kişini və qadını (rəhmə) atıldığı zaman az bir sudan (mənidən) yaratmışdır.

47. Şübhəsiz, yenidən diriltmək də Ona aiddir.

48. Şübhəsiz, O, başqalarına möhtac olmaqdan qurtardı və mal-mülk sahibi etdi.

49. Şübhəsiz, O, Şi`ranın[1] Rəbbidir.

50, 51. Şübhəsiz, O, əvvəlki Ad qövmünü və Səmud qövmünü həlak etdi və heç kimi buraxmadı.

52. Daha əvvəl də Nuhun qövmünü həlak etmişdi. Şübhəsiz, onlar daha zalım və daha azğın kimsələr idi.

53, 54. O, Mötəfikəni[2] də qaldırıb yerə vurmuş və onların üstünə əzab örtüyü örtmüşdü.

55. O halda Rəbbinin nemətlərinin hansından şübhə edirsən (ey insan!).

56. Bu da əvvəlki xəbərdar edənlərdən bir xəbərdar edəndir.

57. Yaxınlaşan (qiyamət) yaxınlaşdı.

58. Onu Allahdan başqa açacaq kimsə yoxdur.

---

1 Şi`ra Himyər və Xüzaə qəbilələrinin tapındığı ulduzun adıdır. Bu ayə ilə Allahın kainatın yaradıcısı və hakimi olduğu vurğulanır.

2 Mö`təfikə alt-üst olmuş deməkdir. Burada Lut qövmü ilə birlikdə məhv edilən şəhərlər üçün xüsusi isim kimi istifadə olunmuşdur.

59, 60, 61. İndi siz qəflət içində əylənərək bu sözə (Qur`ana) təəccüb edirsiniz, gülürsünüz, heç ağlamırsınız?

62. Allaha səcdə edin və Ona qulluq edin.

## 54. QƏMƏR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 55 ayədən ibarətdir. Surənin adı ilk ayədə keçən "əl-Qəmər" sözündən götürülmüşdür. Qəmər ay deməkdir. Surədə başlıca olaraq Qur`anı inkar edənlər müxtəlif əzab və həlak nümunələri misal verilməklə xəbərdar olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Qiyamət yaxınlaşdı və ay yarıldı.[1]
2. Onlar bir möcüzə görsələr, üz çevirərlər və: "Keçmişdən bəri davam edən bir sehrdir", – deyərlər.
3. Peyğəmbəri təkzib etdilər, nəfslərinin istəklərinə tabe oldular. Halbuki hər iş (Allah necə təqdir etmişsə, eləcə) gerçəkləşəcək (dəyişməyəcək).
4. And olsun, onlara çəkindirici təhdidlərlə dolu xəbərlər gəldi.
5. Bu xəbərlərin hər biri zirvəyə çatmış bir hikmətdir! Lakin xəbərdarlıqlar fayda vermir!

6, 7. O halda sən də onlardan üz çevir. Onlar o dəvətçinin (İsrafilin misli görünməmiş) bilinməyən (qorxunc) bir şeyə çağırdığı gün gözləri dönmüş halda dağılmış çəyirtkələr kimi qəbirlərdən çıxarlar.

8. Kafirlər dəvətçiyə tərəf qaçarkən: "Bu çətin bir gündür", – deyərlər.
9. Onlardan əvvəl Nuhun qövmü də inkar etmişdi. Onlar qulumuzu təkzib edib: "Bu bir dəlidir", – dedilər və qulumuza (təbliğ vəzifəsini yerinə yetirməkdə) əngəl törədildi.
10. O da Rəbbinə: "Ey Rəbbim! Mən məğlub oldum, yardım et", – deyə dua etdi.
11. Biz də göyün qapılarını sel kimi tökülən bir yağmurla açdıq.
12. Yer üzündə bulaqlar qaynatdıq. O anda sular təqdir edilmiş bir iş üçün birləşdi.
13. Biz Nuhu mismarlarla bərkidilmiş lövhələrdən bir gəmiyə mindirdik.
14. Gəmi inkar edilən kəsə (Nuha) bir mükafat olaraq nəzarətimiz altında üzürdü.
15. And olsun, biz onu (tufan hadisəsini) bir ibrət kimi saxladıq. Düşünüb öyüd götürən varmı?
16. Mənim əzabım və xəbərdarlıqlarım necə imiş (gördülər)!

---

1 Hədis rəvayətlərinə görə, ayın yarılması həzrət Peyğəmbərin göstərdiyi möcüzələrdən biridir. Müşriklərin bir möcüzə istəmələrinin ardından həzrət Peyğəmbər barmağı ilə aya işarə etmiş və ay iki yerə bölünmüşdü. Bəzi müfəssirlərə görə isə ayın yarılması hadisəsi qiyamət yaxınlaşdığı zaman meydana gələcək.

17. And olsun, biz Qur`anı düşünüb öyüd götürmək üçün asanlaşdırdıq. Düşünüb öyüd götürən varmı?

18. Ad qövmü də (Hudu) inkar etdi. Mənim əzabım və xəbərdarlıqlarım necə imiş (gördülər)!

19. Uğursuzluğu daim olan bir gündə biz onların üstünə uğultulu və dondurucu bir külək göndərdik.

20. İnsanları köklərindən sökülmüş xurma kötükləri kimi qaldırıb atırdı.

21. Mənim əzabım və xəbərdarlıqlarım necə imiş (gördülər)!

22. And olsun, düşünüb öyüd götürmək üçün biz Qur`anı asanlaşdırdıq. Düşünüb öyüd götürən varmı?

23, 24. Səmud qövmü də xəbərdar edənləri inkar etmiş və belə demişdilər: "Bizdən bir insanamı tabe olacağıq? (Əslində) biz o təqdirdə açıq-aşkar bir zəlalət və dəlilik içinə düşərik".

25. Vəhy bizim aramızdan onamı verildi? Xeyr, o, yalançı lovğanın biridir.

26. Kimin yalançı lovğa olduğunu onlar sabah biləcəklər!

27. (Salihə belə demişdik:) "Şübhəsiz, biz onlara o dişi dəvəni imtahan olaraq göndərəcəyik. İndi onları izlə və səbir et".

28. "Suyun dəvə ilə özləri arasında (növbəli) bölüşdürüldüyünü onlara bildir. Hər su növbəsində sahibi hazır olsun".

29. O anda (qövmün ən azğını olan) yoldaşlarını çağırdılar. O da işə başladı və dəvəni kəsdi.

30. Lakin mənim əzabım və xəbərdarlıqlarım necə imiş (gördülər)!

31. Şübhəsiz, biz onların üstünə bir tək qorxunc səs göndərdik, onlar ağıldakı heyvanların tapdalayıb əzdikləri quru çöplər kimi oldular.

32. And olsun, düşünüb öyüd götürmək üçün biz Qur`anı asanlaşdırdıq. Düşünüb öyüd götürən varmı?

33. Lut qövmü də xəbərdar edənləri inkar etdi.

34, 35. Şübhəsiz, biz də Lutun ailəsi xaric onların üstlərinə daşlar sovuran bir külək göndərdik. Qatımızdan bir nemət olaraq səhər vaxtı onları xilas etdik. Şükür edənləri bax belə mükafatlandırırıq.

36. And olsun, Lut onları bizim şiddətli əzabımız barəsində xəbərdar etdi. Lakin onlar bu xəbərdarlıqları şübhə ilə qarşıladılar.

37. And olsun, onlar onun (mələklərdən olan) qonaqlarından nəfslərindəki pis arzuları tətmin etmək istədilər. Biz də onların gözlərini kor etdik. "Əzabımı və xəbərdarlıqlarımı dadın!" – dedik.

38. And olsun, onlara sübh tezdən qalıcı bir əzab gəldi.

39. "Əzabımı və xəbərdarlıqlarımı dadın!" – dedik.

40. And olsun, düşünüb öyüd götürmək üçün biz Qur`anı asanlaşdırdıq. Düşünüb öyüd götürən varmı?

41. And olsun, Firon ailəsinə də xəbərdar edənlər gəlmişdi.
42. Bütün ayələrimizi inkar etdilər. Biz də onları mütləq güc və qüdrət sahibinin yaxalaması kimi yaxaladıq.
43. (Ey məkkəlilər!) Sizin kafirləriniz onlardan daha xeyirlidir? Yoxsa sizin üçün kitablarda bir bəraət var?
44. Yoxsa onlar: "Biz köməkləşən (güclü) bir topluluğuq", – deyirlər?
45. O topluluq yaxın zamanda (Bədrdə) məğlub olacaq və arxa çevirib qaçacaqlar.
46. Xeyr, qiyamət onların (görəcəkləri əsl əzabın) vaxtıdır. Qiyamət (əzabı) isə daha dəhşətli və daha acıdır.
47. Şübhəsiz, günahkarlar (müşriklər) zəlalət və atəşlər içindədirlər.
48. Üzü üstə atəşə sürükləndikləri gün onlara: "Dadın cəhənnəm təmasını", – deyiləcək.
49. Həqiqətən, biz hər şeyi ölçülü yaratdıq.
50. Əmrimiz ancaq göz qırpımı kimi bir tək əmrdir (Bir anda olar).
51. And olsun, biz sizin kimiləri həlak etdik. Düşünüb öyüd götürən varmı?
52. Etdikləri hər şey kitablardadır.
53. Kiçik-böyük hər şey sətir-sətir yazılmışdır.
54. Şübhəsiz, Allaha qarşı gəlməkdən çəkinənlər cənnətlərdə, bulaq başlarındadır.
55. Qüdrətli bir hökmdarın yanında doğruluq məclisindədirlər.

## 55. RƏHMAN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 78 ayədən ibarətdir. Surənin adı ilk ayədə keçən və Allahın sifətlərindən biri olan "ər-Rəhman" sözündən götürülmüşdür. Surədə başlıca olaraq Allahın nemətləri, Onun birliyini və qüdrətini göstərən kainat dəlilləri və günahkarların qiyamətdə qarşılaşacaqları qorxu və şiddət kimi mövzulardan bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Rəhman Qur`anı öyrətdi.
3. İnsanı yaratdı.
4. Ona bəyanı (düşünüb ifadə etməyi) öyrətdi.
5. Günəş və ay bir hesaba görə hərəkət edirlər.
6. Otlar və ağaclar (Allaha) boyun əyirlər.
7. O, göyü yüksəltdi və ölçünü qoydu.
8. Ölçüdə həddi aşmayın.
9. Çəkidə ədalətli olun, tərəzini əskik tutmayın.
10. Allah yeri məxluqat üçün var etdi.

11. Orada meyvə(lər) və salxımlı xurma ağacları var.
12. Yarpaqlı dənələr, xoş ətirli bitkilər var.
13. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
14. Allah insanı bişmiş kimi quru bir palçıqdan yaratdı.
15. Cini isə xalis bir oddan yaratdı.
16. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
17. O, iki şərqin və iki qərbin Rəbbidir.[1]
18. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
19. (Suları acı və şirin olan) iki dənizi sərbəst buraxmış, bir-birinə qovuşurlar.[2]
20. (Lakin) aralarında bir əngəl var, bir-birinə qarışmırlar.
21. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
22. O dənizlərin hər ikisindən inci və mərcan çıxar.
23. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
24. Dənizdə axıb gedən dağlar kimi hündür gəmilər də Onundur.
25. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
26. Yer üzündə olan hər canlı yox olub gedəcəkdir.
27. Ancaq əzəmət və kərəm sahibi Rəbbinin zatı əbədi qalacaqdır.
28. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
29. Göylərdə və yerdə olanlar (hər şeyi) Ondan istəyirlər. O, hər an yeni bir ilahi işdədir.
30. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
31. Yaxında sizi də hesaba çəkəcəyik, ey cinlər və insanlar!
32. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
33. Ey cin və insan güruhu! Göylərin və yerin ətraflarından keçib getməyə gücünüz yetirsə, keçib gedin. Böyük bir güc olmadıqca keçib gedə bilməzsiniz.
34. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
35. Üstünüzə atəşdən xalis bir alovla qıpqırmızı bir duman göndərilər, özünüzü qoruya bilməzsiniz.
36. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
37. Göy yarılıb yanıb qızaran yağ kimi qırmızı gül halına gəldiyi zaman (halınız necə olar?)

1 Günəş dünyanın hər hansı bir nöqtəsində batarkən eyni zamanda oranın müqabili olan başqa bir yerdə yenidən doğur. Başqa ifadə ilə günəş bir yerdə doğarkən eyni zamanda başqa bir yerdə batır. Buna əsasən günəşin tam bir gün ərzində iki doğuşu və iki batışı olur. Mövsümlərə görə günəşin üfüqdə doğub batdığı fərqli nöqtələr nəzərə alındıqda bir çox "Şərq"dən və bir çox "Qərb"dən danışmaq mümkün olur. (Bax: Saffat, 37/5 və həmin ayənin istinadı.)

2 Bənzər ifadələr üçün bax: Furqan, 25/53.

38. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
39. O gün nə insan, nə də cin günahından sorğu-sual olunmayacaq.[1]
40. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
41. Günahkarlar simalarından tanınarlar, kəkillərindən və ayaqlarından yaxalanarlar.
42. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
43. Bax bu, günahkarların yalan saydıqları cəhənnəmdir.
44. Onlar cəhənnəm atəşi ilə qaynar su arasında gedib-gələrlər.
45. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
46. Rəbbinin hüzurunda (hesab vermək üçün) duracağından qorxan kimsəyə iki cənnət var.
47. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
48. İki cənnət də (ağaclar, meyvələr, rəngarəng bitkilər kimi) müxtəlif gözəlliklərlə bəzənmişdir.
49. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
50. İçlərində axan iki bulaq var.
51. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
52. İkisində də hər meyvədən cüt-cüt var.
53. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
54. Onlar astarları qalın ipəkdən olan döşəklərə söykənərlər. Bu iki cənnətin meyvələri (zəhmət çəkmədən əldə olunacaq qədər) yaxındır.
55. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
56. Oralarda baxışlarını sadəcə öz ərlərinə çevirmiş qadınlar var. Onlara öz ərlərindən əvvəl nə bir insan, nə bir cin toxunmuşdur.
57. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
58. Onlar sanki yaqut və mərcandır.
59. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
60. Yaxşılığın qarşılığı yalnız yaxşılıqdır.
61. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
62. Bu iki cənnətdən başqa iki cənnət də var.
63. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
64. O iki cənnət tünd yaşıl rəngdədir.
65. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
66. İçlərində qaynayan iki bulaq var.
67. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
68. İçlərində növbənöv meyvə, xurma və nar var.

---

1 Çünki hər şey qeyd olunmuşdur.

69. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
70. Onların içərisində gözəl xasiyyətli, gözəl üzlü qadınlar var.
71. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
72. Onlar çadırlara qapanmış hurilərdir.
73. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
74. Onlara öz ərlərindən əvvəl nə bir insan, nə bir cin toxunmuşdur.
75. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
76. Onlar yaşıl yastıqlara və gözəl xalılara söykənərlər.
77. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
78. Əzəmət və kərəm sahibi Rəbbinin adı ucadır.

## 56. VAQİƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 96 ayədən ibarətdir. Surənin adı ilk ayədə keçən "əl-Vaqiə" sözündən götürülmüşdür. Vaqiə gerçəkləşən, meydana gələn hadisə deməkdir. Burada qiyamət mənasına gəlir. Surədə başlıca olaraq qiyamətin qopmasından əvvəlki və sonrakı dəhşətli hallar və insanların əməllərinə görə aid olduqları firqələrdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Qəti gerçəkləşəcək (olan Qiyamət) qopduğu zaman onun qopmasını inkar edən kimsə olmayacaq.

3, 4, 5, 6, 7. Yer üzü şiddətlə sarsıldığı, dağlar parça-parça dağılıb səpilmiş toz olduğu və siz də üç sinif olduğunuz zaman O, (bəzisini) yüksəldər, (bəzisini) alçaldar.

8. Axirət səadətinə nail olanlar ki var, onlar nə xoşbəxt kimsələrdir![1]

9. Pisliyə qərq olanlara gəlincə, onlar nə bədbəxt kimsələrdir![2]

10, 11. (İman və əməl baxımından) önə keçənlər isə (axirətdə də) önə keçənlərdir. Onlar (Allaha) yaxınlaşdırılmış kimsələrdir.

12. Onlar Nəim cənnətlərindədirlər.

13, 14. Onların çoxu əvvəlkilərdən, azı da sonrakılardandır.

15, 16. Onlar qarşılıqlı söykənmiş vəziyyətdə ləl-cəvahiratla bəzənmiş taxtlar üstündədirlər.

17, 18, 19, 20, 21. Əbədi gənc qalan xidmətçilər içməklə başlarının dönməyəcəyi və sərxoş olmayacaqları, cənnət bulağından doldurulmuş sürahiləri, kuzələri və qədəhləri, xoşladıqları meyvələri və arzu etdikləri quş ətlərini onların ətrafında dolandırırlar.

1 Bu ayə "dəftərləri sağ tərəfindən verilənlər ki var, nə xoşbəxt kimsələrdir əməl dəftərləri sağ tərəfindən verilənlər!" şəklində də tərcümə edilə bilər.

2 Bu ayə "əməl dəftərləri soldan verilənlər ki var, nə bədbəxt kimsələrdir əməl dəftərləri soldan verilənlər!" şəklində də tərcümə edilə bilər.

22, 23. Onlar üçün gizli incilər kimi iri gözlü hurilər də var.
24. (Bütün bunlar) işlədikləri əməllərin qarşılığında bir mükafat olaraq (verilər).
25. Orada nə boş bir söz, nə də günaha sövq edən bir şey eşidərlər.
26. Sadəcə "Salam!", "Salam!" sözünü eşidərlər.
27. Axirət səadətinə çatanlar nə xoşbəxt kimsələrdir![1]
28, 29, 30, 31, 32, 33, 34. (Onlar) tikansız sidr ağacları[2] və meyvələri topa-topa düzülmüş banan ağacları altında, geniş, çəkilməyən bir kölgədə, çağlayan bir su başında, tükənməyən və qadağan edilməyən müxtəlif meyvələr içində və yüksək döşəklər üstündədirlər.
35. Biz onları (huriləri) yeni bir yaradılışla yaratdıq.
36, 37, 38. Onları axirət səadətinə nail olanlar üçün həmyaşıd, ərlərini çox sevən, gözəl bakirələr etdik.
39, 40. Bunların bir çoxu əvvəlkilərdən, bir çoxu da sonrakılardandır.
41. Pisliyə qərq olanlar isə nə bədbəxt kimsələrdir!
42, 43, 44. Onlar iliklərə işləyən bir atəş və bir qaynar su içindədirlər. Nə sərin, nə də faydalı olan zülmət bir kölgə içində!...
45. Çünki onlar bundan əvvəl (dünyada zənginlik içində) naz-nemətə dalmış və azğın kimsələr idi.
46. Böyük günahda israr edirdilər.
47. Deyirdilər ki: "Biz öldükdən, torpaq və sümük yığını halına gəldikdən sonra yenidən dirildiləcəyik?"
48. "Əvvəlki atalarımız da?"
49, 50. De ki: "Şübhəsiz, əvvəlkilər və sonrakılar mütləq müəyyən bir günün müəyyən bir vaxtında toplanacaqlar".
51, 52. Sonra siz, ey haqdan sapan inkarçılar! Mütləq, (cəhənnəmdə) bir ağacdan, zəqqumdan yeyəcəksiniz.
53. Qarınlarınızı onunla dolduracaqsınız.
54. Üstündən də o qaynar sudan içəcəksiniz.
55. Doymaq bilməz susuz dəvələrin suya hücum etməsi kimi içəcəksiniz.
56. Bax bu, hesab və cəza günü onların ziyafətləridir.
57. Sizi biz yaratdıq. Hələ də təsdiq etməyəcəksiniz?
58. Bəs axıtdığınız o məniyə nə deyirsiniz?!
59. Onu siz yaradırsınız, yoxsa yaradan bizik?
60, 61. Sizin yerinizə bənzərlərinizi gətirmək və sizi bilə bilməyəcəyiniz şəkildə yenidən

1 Bu ayə "əməl dəftərləri sağdan verilənlər ki var, əməl dəftərləri sağdan verilənlər nə xoşbəxt kimsələrdir!" şəklində də tərcümə edilə bilər.

2 "Sidr" Ərəbistan gilası kimi tanınan tikanlı bir meyvə ağacıdır. Qur`an cənnətdəki sidr ağacının tikanlı olmadığını bildirir.

yaratmaq üçün aranızda ölümü biz təqdir etdik. (Bu barədə) bizim önümüzə keçilməz.
62. And olsun, birinci yaradılışı(nızı) bilirsiniz. O halda kaş düşünəsiniz.
63. Əkdiyiniz toxuma nə deyirsiniz?!
64. Onu siz bitirirsiniz, yoxsa bitirən bizik?
65. İstəsəydik, onu quru bir çöp edərdik, təəccüblə belə deyərdiniz:
66. "Həqiqətən, biz çox ziyandayıq!"
67. "Daha doğrusu, tamamilə məhrumuq!"
68. İçdiyiniz suya nə deyirsiniz?!
69. Onu buluddan siz endirdiniz, yoxsa endirən bizik?
70. İstəsəydik, onu acı bir su edərdik. Elə isə heç şükür etmirsinizmi?
71. Yandırdığınız atəşə nə deyirsiniz?!
72. Onun ağacını siz yaratdınız, yoxsa yaradan bizik?
73. Biz onu bir ibrət və çöldə yaşayanlar üçün bir fayda mənbəyi olaraq yaratdıq.
74. O halda, o uca Rəbbinin adını təsbih et (ucalt).
75, 76. Ulduzların mənzillərinə and içirəm ki, – kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz –
77. O, əlbəttə, dəyərli bir Qur`andır.
78. Qorunmuş bir kitabdadır.
79. Ona sadəcə pak olanlar toxuna bilər.
80. Aləmlərin Rəbbindən endirilmədir.
81, 82. İndi siz bu sözəmi məhəl qoymursunuz və Allahın verdiyi ruziyə Onu inkar edərək şükür edirsiniz?
83. Can boğaza gəldikdə onu geri qaytarın görək!
84. Halbuki siz o zaman baxıb durursunuz.
85. Biz isə ona sizdən daha yaxınıq. Lakin siz görə bilməzsiniz.
86, 87. Əgər hesaba çəkilməyəcəksinizsə və doğru söyləyənlərsinizsə, onu geri qaytarın görək!
88, 89. Lakin (ölən adam) Allaha yaxındırsa, onun üçün rahatlıq, gözəl ruzi və Nəim cənnəti var.
90, 91. Əgər axirət səadətinə nail olanlardandırsa, ona: "Axirət səadətinə nail olanlardan sənə salam!" – deyilər.
92, 93. Amma haqdan sapan yalançılardandırsa, bax onun üçün də qaynar sudan bir ziyafət var.
94. Bir də cəhənnəmə atılmaq var.
95. Şübhəsiz, bu, mütləq həqiqətdir.
96. Elə isə uca Rəbbinin adını təsbih et!

# 57. HƏDİD SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 29 ayədən ibarətdir. Surənin adı 25-ci ayədə keçən "əl-Hədid" sözündən götürülmüşdür. Hədid dəmir deməkdir. Surədə başlıca olaraq bütün kainatın Allaha aid olduğu və kainatı istədiyi kimi idarə edəcəyi, Allahın dinini ucaltmaq üçün can və mal ilə mübarizə aparmağın vacibliyi, dünya həyatının fani və aldadıcı olduğundan bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Göylərdəki və yerdəki hər şey Allahı təsbih edir. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.
2. Göylərin və yerin hökmranlığı yalnız Onundur. Dirildər, öldürər. O, hər şeyə haqqı ilə gücü çatandır.
3. O, ilk və sondur. Zahir və Batindir.[1] O, hər şeyi haqqı ilə biləndir.
4. O, göyləri və yeri altı gündə (altı mərhələdə) yaradan, sonra Ərşin[2] üzərində bərqərar olandır. Yerə girəni, ondan çıxanı, göydən enəni, oraya yüksələni bilir. Harada olsanız, O sizinlə bərabərdir. Allah bütün etdiklərinizi haqqı ilə görəndir.
5. Göylərin və yerin hökmranlığı Onundur. Bütün işlər ancaq Ona döndərilər.
6. Gecəni gündüzə qatar, gündüzü də gecəyə qatar. O, sinələrin özünü (qəlblərdə olanı) haqqı ilə biləndir.
7. Allaha və Rəsuluna iman edin və sizə verdiyi maldan (Allah yolunda) xərcləyin. Sizdən iman edib (Allah yolunda) xərcləyənlər ki var, onlar üçün böyük bir mükafat var.[3]
8. Peyğəmbər sizi Rəbbinizə iman etməyə dəvət etdiyi halda nə üçün Allaha iman etmirsiniz? Halbuki, (Allah əzəldə) sizdən möhkəm söz də almışdı. Əgər inanacaq kimsələrsinizsə, (bu dəvəti qəbul edin).
9. O, sizi zülmətlərdən aydınlığa çıxarmaq üçün qulu Muhamməda açıq-aydın ayələr endirəndir. Şübhəsiz, Allah sizə qarşı çox şəfqətli, çox mərhəmətlidir.
10. Sizə nə olub ki, Allah yolunda xərcləmirsiniz? Halbuki, göylərin və yerin mirası Allahındır. Sizdən fəthdən (Məkkə fəthindən) əvvəl xərcləyənlər və savaşanlar, (digərləri ilə) bir deyildir. Onların dərəcəsi sonradan xərcləyən və savaşanlardan daha yüksəkdir. Bununla birlikdə, Allah onların hamısına ən gözəl olanı (cənnəti) vəd etmişdir. Allah bütün etdiklərinizdən haqqı ilə xəbərdardır.

1 Allahın ilk və son olması varlığının bir başlanğıcı və sonu olmaması deməkdir. Allahın Zahir və Batin olması isə Onun varlığının varlığına dəlalət edən dəlillərlə açıq olması, bununla yanaşı, gözlə görülə bilməməsi və ağlın Onun mahiyyətini qavraya bilməməsi deməkdir.

2 Ərş qüdrət və hakimiyyət taxtı, sonsuz qüdrət mərtəbəsi deməkdir.

3 İslama görə insanın sahib olduğu hər şey Allahın insana əmanətidir. Ayədə bu ümumi islami anlayış çərçivəsində malın da, əslində, Allahın olduğu xatırladılır və yerli-yerində istifadə olunması istənilir.

11. Kim Allaha gözəl bir borc verər ki, Allah da onu özünə qat-qat ödəsin. Onun üçün çox dəyərli bir mükafat da var.

12. Mömin kişilərlə mömin qadınların nurlarının önlərində və sağlarında qaçdığını görəcəyin gün onlara belə deyilər: "Bu gün sizə müjdələnən şey içlərindən çaylar axan, əbədi qalacağınız cənnətlərdir". Bax bu, böyük uğurdur.

13. Münafiq kişilərlə münafiq qadınların iman edənlərə: "Bizə baxın ki, sizin işığınızdan biz də aydınlanaq"[1] – deyəcəkləri gün onlara: "Arxanıza (dünyaya) dönün, bir işıq axtarın", – deyiləcək. O anda aralarına qapısı olan bir sədd çəkilər. Onun iç tərəfində rəhmət, onlar (münafiqlər) tərəfindəki çölündə isə əzab var.

14. (Münafiqlər) möminlərə belə səslənərlər: "Biz də (dünyada) sizinlə birlikdə deyildikmi?" (Möminlər isə) deyərlər ki: "Bəli, lakin siz özünüzü yandırdınız. Başınıza müsibətlər gəlməsini gözlədiniz, şübhə etdiniz. Allahın əmri gələnə qədər xam xəyallar sizi aldatdı. O çox aldadıcı (şeytan) Allah haqqında da sizi aldatdı".

15. Bu gün artıq nə sizdən, nə də inkar edənlərdən bir fidyə alınar. Sığınacağınız atəşdir. Sizə yaraşan odur. Gediləcək nə pis yerdir ora!

16. İman edənlərin Allahı zikr etmək və enən haqq səbəbi ilə qəlblərinin ehtiramla ürpərməsinin vaxtı gəlmədimi? Daha əvvəl özlərinə kitab verilib, üstündən uzun zaman keçən, beləliklə, qəlbləri qatılaşanlar kimi olmasınlar. Onlardan bir çoxu fasiq kimsələrdir.

17. Bilin ki, Allah yer üzünü ölümündən sonra dirildir. Düşünəsiniz deyə, həqiqətən, sizə ayələri açıqladıq.

18. Şübhəsiz ki, sədəqə verən kişilərlə sədəqə verən qadınlar və Allaha gözəl bir borc verənlər ki var, (verdikləri) onlara qat-qat ödənər. Üstəlik onlar üçün çox dəyərli bir mükafat da var.

19. Allaha və peyğəmbərlərinə iman edənlər ki var, onlar siddiqlər (özü-sözü doğru kimsələr) və Allah qatında şahidlərdir. Onların mükafatları və nurları var. İnkar edib ayələrimizi təkzib edənlərə gəlincə, onlar cəhənnəmliklərdir.

20. Bilin ki, dünya həyatı sadəcə bir oyun, bir əyləncə, bir süs, aranızda qarşılıqlı bir öyünmə, çox mal və övlad sahibi olmaq yarışından ibarətdir. (Nəhayət, hamısı yox olub gedər.) Eynilə belə: Bir yağmur ki, bitirdiyi bitki əkinçilərin xoşuna gələr, sonra quruma başlayar, sən onu saralmış görərsən. Sonra da çör-çöp olar. Axirətdə isə (dünyadakı əmələ görə ya) şiddətli bir əzab və (ya) Allahın məğfirət və rizası var. Dünya həyatı aldadıcı mənfəətdən başqa bir şey deyil.

21. Rəbbinizdən bir bağışlanmaya və eni göylə yerin genişliyi qədər olan, Allaha və Rəsuluna inananlar üçün hazırlanan cənnətə yarışarcasına tələsin. Bax bu, Allahın lütfüdür. Onu istədiyinə verər. Allah böyük lütf sahibidir.

22. Yer üzündə və öz nəfslərinizdə başınıza gələn elə bir müsibət yoxdur ki, biz onu yaratmadan əvvəl bir kitabda (Lövhi-məhfuzda) yazılmasın. Şübhəsiz, bu, Allah üçün asandır.

---

1 Ayənin bu qismi "Bizi gözləyin ki, sizin işığınızdan biz də aydınlanaq" şəklində də tərcümə edilə bilər.

23. Əlinizdən çıxana məyus olmayasınız və Allahın sizə verdiyi nemətlərlə qürrələnməyəsiniz deyə (belə etdik). Çünki Allah özünü bəyənib öyünən heç bir kəsi sevməz.

24. Onlar xəsislik edib insanlara da xəsisliyi əmr edən kimsələrdir. Kim üz döndərsə, bilsin ki, şübhəsiz, Allah ehtiyacsızdır, zəngindir, tərifə layiqdir.

25. And olsun, biz elçilərimizi açıq möcüzələrlə göndərdik və onlarla birlikdə kitabı və mizanı (ölçünü) endirdik ki, insanlar ədaləti yerinə yetirsinlər. Çox möhkəm və insanlar üçün çox faydaları olan dəmiri yaratdıq (ki, insanlar ondan faydalansınlar). Allah da özünə və rəsullarına qeybə inanaraq yardım edəcək kimsələri bilsin. Şübhəsiz, Allah qüvvətlidir, mütləq güc sahibidir.

26. And olsun, biz Nuhu və İbrahimi peyğəmbər olaraq göndərdik. Peyğəmbərliyi və kitabı onların nəsillərinə də verdik. Onlardan bəzisi hidayət tapmışdır, ancaq bir çoxu da fasiq kimsələrdir.

27. Sonra onların ardından ard-arda peyğəmbərlərimizi göndərdik. Onların ardından da Məryəm oğlu İsanı göndərdik, ona İncili verdik və ona tabe olanların qəlblərinə şəfqət və mərhəmət duyğusu yerləşdirdik. (Özlərindən) icad etdikləri rahibliyə[1] gəlincə, biz onu onlara vacib buyurmamışdıq. Allahın razılığını qazanmaq üçün onu özləri icad etmişdilər. Lakin ona da lazımınca riayət etmədilər. Biz də onlardan iman edənlərə mükafatlarını verdik. Lakin onlardan bir çoxu da fasiq kimsələrdir.

28. Ey iman edənlər! Allaha qarşı gəlməkdən çəkinin və Peyğəmbərinə iman edin ki, sizə rəhmətindən iki qat pay versin, sizə onunla yeriyəcəyiniz bir nur versin və sizi bağışlasın. Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

29. Bunları açıqladıq ki, kitab əhli Allahın lütfündən heç bir şeyi özlərinə aid etməyə güclərinin çatmayacağını və lütfün Allahın əlində olduğunu, onu istədiyi kimsəyə verəcəyini bilsinlər. Allah böyük lütf sahibidir.

1 Rahiblik insanlardan uzaqlaşıb riyazətə çəkilərək dünya zövqlərini tərk etmək və özünü ifrat şəkildə ibadətə vermək deməkdir. Əvvəldən bəri haqq dinlər belə bir ifratçılığı qəbul etmir. Rahibliyi xristianlar icad etmişdirlər. Həzrət İsadan sonra qarşılaşdıqları təzyiq və zülm səbəbi ilə bəzi xristianlar ictimai həyatdan təcrid olunaraq xüsusi məkanlara çəkilmiş və özlərini ibadətə həsr etmişdilər. Zaman keçdikcə bir həyat tərzi olaraq xristianlıq içərisində özünə yer tutan bu fəaliyyətə rahiblik, bunu edənlərə isə rahib deyilmişdir.

# 58. MÜCADƏLƏ SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 22 ayədən ibarətdir. Surənin adı ilk ayədə bəhs olunan hadisədən götürülmüşdür. Mücadələ münaqişə etmək və mübahisə etmək deməkdir. Bir adamın zihar etdiyi arvadı həzrət Peyğəmbərin yanına gələrək ondan şikayət etmiş və həzrət Peyğəmbərlə də bu barədə mübahisə etmişdi. Surədə başlıca olaraq zihar, zihar kəffarəsi kimi bəzi dini hökmlər, əxlaq qaydaları və möminlərin inanmayanlara qarşı münasibətindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitmişdir. Allah sizin söhbətinizi (onsuz da) eşidirdi. Şübhəsiz, Allah haqqı ilə eşidəndir, haqqı ilə biləndir.

2. Sizdən qadınlarına zihar[1] edənlər bilsinlər ki, o qadınlar onların anaları deyil. Onların anaları sadəcə onları doğan qadınlardır. Şübhəsiz, onlar (zihar etdikləri zaman) yaxşı qarşılanmayan və yalan bir söz söyləyirlər. Şübhəsiz, Allah çox əfv edəndir, çox bağışlayandır.

3. Zihar edərək qadınlarından ayrılıb sonra isə söylədiklərindən dönənlər zövcələri ilə yaxınlıq etməzdən əvvəl bir kölə azad etməlidirlər. Bu hökm ilə sizə öyüd verilir. Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

4. Kim (kölə azad etmə imkanı) tapa bilməsə, zövcəsi ilə yaxınlıq etməzdən əvvəl ard-arda iki ay oruc tutmalıdır. Kimin də buna gücü çatmasa, altmış yoxsulu doyurmalıdır. Bunlar Allaha və Rəsuluna haqqı ilə iman etməniz üçündür. Bunlar Allahın hədləridir. Kafirlər üçün ağrılı-acılı bir əzab var.

5. Allaha və Rəsuluna düşmənlik edənlər özlərindən əvvəlkilərin alçaldıldığı kimi alçaldılacaqlar. Halbuki, biz açıq-aydın ayələr endirdik. Kafirlər üçün alçaldıcı bir əzab var.

6. Allahın onların hamısını birdən dirildib etdiklərini onlara xəbər verəcəyi günü xatırla. Allah onları sayıb qeyd etmişdir, onlar isə bunları unutmuşlar. Allah hər şeyə şahiddir.

7. Göylərdəki və yerdəki hər şeyi Allahın bildiyini görmürsənmi? Gizlicə danışan üç nəfər yoxdur ki, dördüncüsü O olmasın. Gizlicə danışan beş nəfər yoxdur ki, altıncısı O olmasın. Bundan daha az yaxud daha çox da olsalar, harada olurlarsa, olsunlar O mütləq onlarla birlikdədir. Sonra onlara etdiklərini qiyamət günü xəbər verəcək. Allah hər şeyi haqqı ilə bilir.

8. Məgər gizlicə danışmaq qadağan edildikdən sonra qadağan olunduqları şeyi işləyən və günah, düşmənçilik və Peyğəmbərə üsyandan danışanları görmədinmi? Sənin yanına gəldikləri zaman Allahın səni salamladığı salamla salamlayırlar.

1 Zihar bir kişinin həyat yoldaşına “Sən mənə anamın kürəyi kimisən” deməklə onu özünə haram etməsi deməkdir. Cahiliyyə dövründə zihar etmək qadını kişiyə əbədi olaraq haram edərdi. İslam isə kəffarə ilə bu haramlığın aradan qaldırılması hökmünü gətirdi. Kəffarə bu surənin 3-4-cü ayələrində açıqlanır.

Ürəklərində: "Söylədiklərimizdən ötrü Allah bizə əzab etsin görək!" – deyirlər. Cəhənnəm onlara yetər! Oraya girəcəklər. Ora nə pis mənzildir![1]

9. Ey iman edənlər! Siz baş-başa gizlicə danışdığınız zaman günah, düşmənçilik və Peyğəmbərə üsyandan danışmayın. Yaxşılıq və təqvadan danışın və hüzuruna toplanacağınız Allaha qarşı gəlməkdən çəkinin.

10. O mənfur pıçıldaşmalar iman edənləri üzmək üçün ancaq şeytandan qaynaqlanır. Halbuki şeytan Allah izni olmadıqca möminlərə heç bir zərər verə bilən deyil. Elə isə möminlər sadəcə Allaha təvəkkül etsinlər.

11. Ey iman edənlər! Sizə: "Məclislərdə yer açın", – deyildiyi zaman yer açın ki, Allah da sizə genişlik versin. Sizə: "Qalxın", – deyildiyi zaman da qalxın ki, Allah sizdən inananların və elm verilənlərin dərəcələrini yüksəltsin. Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

12. Ey iman edənlər! Peyğəmbər ilə baş-başa danışacağınız zaman baş-başa danışmazdan əvvəl bir sədəqə verin. Bu, sizin üçün daha xeyirli və daha təmizdir. Əgər (sədəqə verməyə bir şey) tapa bilməsəniz, bilin ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

13. Baş-başa danışmanızdan əvvəl sədəqələr verməkdən çəkindinizmi? Bunu etmədiyinizə və Allah da sizi əfv etdiyinə görə artıq namazı qılın, zəkatı verin, Allaha və Rəsuluna itaət edin. Allah bütün etdiklərinizdən haqqı ilə xəbərdardır.

14. Allahın qəzəb etdiyi bir topluluğu dost tutanları görmürsənmi? Onlar nə sizdəndirlər, nə də onlardan. Onlar bilə-bilə yalan yerə and içirlər.

15. Allah onlar üçün şiddətli bir əzab hazırlamışdır. Həqiqətən, onların etdikləri nə pisdir!

16. Onlar andlarını sipər edib (insanları) Allahın dinindən yayındırdılar. Buna görə də onlar üçün alçaldıcı bir əzab var.

17. Onların malları da, övladları da Allaha qarşı onlara bir fayda verməyəcək. Onlar cəhənnəmliklərdir. Onlar orada əbədi qalacaqlar.

18. Allahın onların hamısını birdən dirildəcəyi, onların da (özlərini xilas edəcək) bir iş gördüklərini zənn edərək sizə and verdikləri kimi Allaha and verəcəkləri günü düşün! Yaxşı bilin ki, onlar məhz yalançılardır.

19. Şeytan onları hakimiyyəti altına alıb, onlara Allahı zikr etməyi unutdurmuşdur. Onlar şeytanın tərəfində olanlardır. Yaxşı bilin ki, şeytanın tərəfində olanlar məhz ziyana uğrayanlardır.

20. Allaha və Peyğəmbərinə düşmən olanlar ki var, onlar ən zəlil kimsələrin arasındadırlar.

21. Allah: "Şübhəsiz, mən və peyğəmbərlərim qalib gələcəyik", – deyə yazmışdır. Şübhə yoxdur ki, Allah çox qüvvətlidir, mütləq güc sahibidir.

---

1 Yəhudilərlə münafiqlər öz aralarında pıçıldaşıb müsəlmanlara baxıb qaş-göz işarələri edir, onları məsxərəyə qoyurdular. Həzrət Peyğəmbər onlara bu davranışı qadağan etmiş, ancaq onlar bundan əl çəkməmişdilər. Üstəlik münafiqlər həzrət Peyğəmbərə salam verdikləri zaman "əs-Səlamu əleykə" əvəzinə "Sənə ölüm olsun" mənasına gələn "əs-Samu əleykə" deyirdilər. Ayə onların bu çirkin davranışlarını qınayır.

22. Allaha və axirət gününə iman edən heç bir topluluğun – ataları, oğulları, qardaşları yaxud öz tayfaları olsalar belə – Allaha və Peyğəmbərinə düşmən olan kimsələrə sevgi bəslədiyini görə bilməzsən. Allah onların qəlblərinə imanı yazmış və onları öz qatından bir ruh ilə dəstəkləmişdir. Onları içlərindən çaylar axan və içlərində əbədi qalacaqları cənnətlərə qoyacaqdır. Allah onlardan razı olmuş, onlar da Allahdan razı olmuşdurlar. Onlar Allahın tərəfində olanlardır. Yaxşı bilin ki, Allahın tərəfində olanlar məhz nicat tapanlardır.

## 59. HƏŞR SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 24 ayədən ibarətdir. Surənin adı 2-ci ayədə keçən "əl-Həşr" sözündən götürülmüşdür. Həşr toplamaq deməkdir. Surədə başlıca olaraq Mədinədə yaşayan və həzrət Peyğəmbərlə bağladıqları sülhə xəyanət edərək İslam cəmiyyətini aradan qaldırmaq üçün məkkəli müşriklərlə əlbir olan Nəzir oğullarının Mədinədən toplu şəkildə sürgün edilməsi hadisəsi və yəhudilərlə əlbir olan münafiqlərdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Göylərdəki və yerdəki hər şey Allahı təsbih edir. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

2. O, kitab əhlindən inkar edənləri ilk toplu sürgündə yurdlarından çıxarandır. Siz onların çıxacaqlarını güman etməmişdiniz. Onlar da qalalarının onları Allahdan qoruyacağını zənn etmişdilər. Ancaq Allahın əmri onlara ummadıqları yerdən gəldi. O, ürəklərinə qorxu saldı. Belə ki, evlərini həm öz əlləri ilə, həm də möminlərin əlləri ilə yıxırdılar. Ey bəsirət sahibləri, ibrət götürün![1]

3. Əgər Allah onlar haqqında sürgün hökmü verməsəydi mütləq onlara dünyada əzab edərdi. Axirətdə isə onlar üçün cəhənnəm əzabı var.

4. Bu, onların Allaha və Rəsuluna qarşı gəlmələri səbəbi ilədir. Kim Allaha qarşı gələrsə, bilsin ki, Allahın əzabı şiddətlidir.

5. (Savaş səbəbi ilə) xurma ağaclarından hansını kəsdiniz yaxud (kəsməyib) kökləri üzərində dik buraxdınızsa, hamısı Allahın izni ilədir. Bu da fasiqləri rüsvay etməsi üçündür.[2]

---

1 Həzrət Peyğəmbər Mədinəyə hicrət etdikdə yəhudilərdən Nəzir oğulları ilə bitərəf qalmaq barədə razılığa gəlmişdilər. Onlar Bədr zəfərindən sonra həzrət Peyğəmbəri nəzərdə tutaraq: "Bu adam Tövratda gələcəyi xəbər verilən peyğəmbərdir", – demələrinə rəğmən, Uhud savaşından sonra bağladıqları əhdə xilaf çıxdılar. Başçıları Kəb ibn Əşrəf 40 atlı ilə birlikdə Məkkəyə gedərək müsəlmanlara qarşı Əbu Süfyan ilə ittifaq bağladı. Bunu öyrənən həzrət Peyğəmbər Muhamməd ibn Məsləməyə tapşırıq verərək Kəbi öldürdü. Bununla da kifayətlənməyib Nəzir oğullarının yerləşdiyi bölgəni mühasirəyə aldı. Başqa yerə çıxıb getmələrini istədi. Nəzir oğullarının münafiqlərdən gözlədikləri kömək gəlib çıxmadı. Nəhayət, yaşadıqları yerdən köçüb getməyə razı oldular. Bundan sonra mühasirə qaldırıldı. Köçərkən geridə qalan əşyalarını məhv edib evlərini də dağıtdılar. Ayədə bu hadisəyə işarə edilir.

2 Nəzir oğulları mühasirəyə alındıqda bəzi müsəlmanlar mühasirə səbəbi ilə onlara aid xurma ağaclarını kəsmişdilər. Ağacları kəsilən yəhudilər həzrət Peyğəmbərdən: "Ey Muhamməd! Bəs sən yer üzündə fəsad törətməməyi əmr edirdin. İndi bu fəsad nədir?" – deyə soruşmuşdular. Bu ayə görülən işlərin, əslində,

6. Onların mallarından Allahın öz Peyğəmbərinə savaşmadan qazandırdığı mallar üçün siz at və ya dəvə sürməmisiniz. Lakin Allah Peyğəmbərlərini istədiyi kəslərin üzərinə salıb onlardan üstün edər. Allahın hər şeyə haqqı ilə gücü yetər.[1]

7. (Fəth olunan) məmləkətlərin əhalisindən Allahın öz Peyğəmbərinə savaşmadan qazandırdığı mallar Allaha, Peyğəmbərə, onun yaxınlarına, yetimlərə, yoxsullara və yolda qalanlara aiddir. O mallar sizdən sadəcə zənginlər arasında dolaşan bir sərvət (və güc) olmasın deyə (Allah belə hökm vermişdir). Peyğəmbər sizə nə verdisə, onu alın, nəyi də sizə qadağan etdisə, ondan əl çəkin. Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allahın əzabı şiddətlidir.

8. Bu mallar, xüsusilə, Allahdan bir lütf və razılıq istəyərkən, Allahın dininə və Peyğəmbərinə yardım edərkən yurdlarından və mallarından uzaqlaşdırılan yoxsul mühacirlərindir. Bax onlar məhz doğru kimsələrdir.

9. Onlardan (mühacirlərdən) əvvəl o yurda (Mədinəyə) yerləşmiş və imanı da qəlblərinə yerləşdirmiş olanlar hicrət edənləri sevərlər. Onlara verilənlərdən ötrü ürəklərində bir narahatlıq hiss etməzlər. Özləri çox ehtiyac içində olsalar belə onları özlərindən üstün tutarlar. Kim nəfsinin xəsisliyindən, hərisliyindən qorunarsa, onlar məhz nicat tapanlardır.

10. Onlardan sonra gələnlər isə belə deyərlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman edən qardaşlarımızı bağışla. Qəlblərimizdə iman edənlərə qarşı heç bir kin saxlama! Ey Rəbbimiz! Şübhəsiz, sən çox şəfqətli, çox mərhəmətlisən”.[2]

11. Kitab əhlindən o inkar edən qardaşlarına “And içirik ki, siz (Mədinədən) çıxarılsanız mütləq biz də sizinlə birlikdə çıxarıq. Sizin haqqınızda əsla heç kimə boyun əymərik. Əgər sizə qarşı savaş açılsa, sizə mütləq kömək edərik” deyərək münafiqlik edənləri görmürsənmi? Halbuki Allah onların əsl yalançı olduqlarına şahidlik edər.

12. And olsun, əgər (qardaşları Mədinədən) çıxarılsa, onlarla birlikdə çıxmazlar. Onlara qarşı savaş açılsa, onlara kömək etməzlər. Kömək edəsi olsalar belə, and olsun mütləq arxalarını dönüb qaçarlar, sonra onlara da kömək edilməz.

13. Onların qəlblərində sizə qarşı hiss etdikləri qorxu Allaha qarşı hiss etdikləri qorxudan daha çoxdur. Bu, onların anlamaz bir qövm olmaları səbəbi ilədir.

14. Onlar möhkəm qalalar içində və ya divarlar arxasında olmadan sizinlə toplu halda savaşa bilməzlər. Öz aralarındakı ixtilafları şiddətlidir. Sən onları birlik hesab edirsən. Halbuki qəlbləri pərən-pərəndir. Bu, onların dərrakəsiz bir qövm olmaları səbəbi ilədir.

---

Allahın izni ilə gerçəkləşdiyini vurğulayır. Məlum olduğu kimi, bu kimi hərbi zərurətlər xaricində düşmənə aid ağacların və məhsulların məhv edilməsi həzrət Peyğəmbər tərəfindən qadağan olunmuşdur.

1 Savaşmadan əldə edilən qənimətlər müsəlmanlar arasında bölüşdürülməyib “fey” adı ilə “Beytülmal”a qalar. Bu ayə Nəzir oğullarının sürgün edilməsi əsnasında müsəlmanlar döyüşmədikləri üçün onlara qənimətdən pay olmadığına işarə edir. Sonrakı ayədə də bu cür qənimətlərin Allah və Rəsuluna, yəni “Beytülmal”a aid olduğu ifadə edilərək bu hökm açıq şəkildə bildirilir.

2 Mühacirlərin və ənsarın ardından gələnlər qiyamətə qədər gəlib keçən möminlərdir. Bu ayədə səhabələri xeyirlə yad etməyin, onlara pis söz deməməyin və kin bəsləməməyin vacibliyinə işarə edilir.

15. Onların halı özlərindən əvvəlkilərin (məkkəli müşriklərin) halı kimidir. Onlar (Bədrdə) etdiklərinin cəzasını dadıblar. Onlara (axirətdə də) ağrılı-acılı bir əzab var.

16. Münafiqlərin halı isə eynilə şeytanın halı kimidir. Çünki şeytan insana: "İnkar et", – deyər, insan inkar etdikdə isə: "Şübhəsiz, mən səndən uzağam. Çünki mən aləmlərin Rəbbi olan Allahdan qorxuram", – deyər.

17. Nəhayət, ikisinin də (azdıranın da, azanın da) aqibəti əbədi olaraq atəşdə qalmalarıdır. Bax zalımların cəzası budur.

18. Ey iman edənlər! Allaha qarşı gəlməkdən çəkinin və hər kəs sabah üçün əvvəlcədən nə göndərdiyinə baxsın. Allaha qarşı gəlməkdən çəkinin. Şübhəsiz, Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

19. Allahı unudan və bu səbəblə Allahın da onları özlərinə unutdurduğu kəslər kimi olmayın. Onlar məhz fasiqlərdir.

20. Cəhənnəmliklərlə cənnətliklər bir olmaz. Cənnətliklər məhz nicat tapanlardır.

21. Əgər biz bu Qur`anı bir dağa endirsəydik, əlbəttə, sən onun Allah qorxusundan başını əyərək parça-parça olduğunu görərdin. Budur misallar! Biz onları insanlara düşünsünlər deyə çəkirik.

22. O, özündən başqa heç bir ilah olmayan Allahdır. Qeybi[1] də, görünən aləmi də biləndir. O Rəhmandır, Rəhimdir[2].

23. O, özündən başqa heç bir ilah olmayan Allahdır. O, mülkün əsl sahibi, müqəddəs (hər cür nöqsandan uzaq), sülh və əmin-amanlıq mənbəyi, əminlik verən, qoruyan, mütləq güc sahibi, islah edən, istədiyini etdirən və böyüklükdə misilsiz olan Allahdır. Allah onların şərik qoşduqlarından uzaqdır.

24. O, yaradan, yoxdan var edən, surət verən Allahdır. Gözəl isimlər Onundur. Göylərdəki və yerdəki hər şey Onu təsbih edir. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

## 60. MÜMTƏHİNƏ SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 13 ayədən ibarətdir. Onuncu ayədə Hüdeybiyyə sülhündən sonra müşriklər arasından çıxıb Mədinəyə gələn və müsəlman olduqlarını söyləyən qadınların imtahan edilmələri əmr olunduğu üçün surəyə məcazi olaraq "imtahan edən" mənasında "mümtəhinə" deyilmişdir. Surədə başlıca olaraq Allah üçün sevmək, Allah üçün nifrət etmək və müsəlmanlarla kafirlər arasındakı münasibətlərə dair bəzi xəbərdarlıqlardan bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey iman edənlər! Mənim də düşmənim, sizin də düşməniniz olanları dost tut-

1 Qeyb sözünün mənası üçün Bəqərə surəsinin 3-cü ayəsi və onun istinadına baxın.

2 Rəhman və Rəhim sifətlərinin mənası üçün Fatihə surəsinin 2-ci ayəsi və onun istinadına baxın.

mayın. Siz onlara sevgi göstərirsiniz. Halbuki onlar sizə gələn haqqı inkar etdilər. Rəbbiniz olan Allaha inandınız deyə Rəsulu və sizi yurdunuzdan çıxarırlar. Əgər razılığımı qazanmaq üzrə mənim yolumda cihad etmək üçün çıxdınızsa, (belə etməyin). Onlara gizlicə sevgi bəsləyirsiniz.[1] Halbuki mən sizin gizlədiyinizi də, aşkara vurduğunuzu da bilirəm. Sizdən kim bunu edərsə, mütləq doğru yoldan sapmışdır.

2. Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən olarlar, sizə əllərini və dillərini pisliklə uzadarlar və inkar etməyinizi arzu edərlər.

3. Yaxınlarınız və övladlarınız sizə əsla fayda verməyəcək. Qiyamət günü Allah aranızı ayıracaq. Allah etdiklərinizi haqqı ilə görəndir.

4. İbrahimdə və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə var. Bir vaxt onlar öz qövmlərinə: "Biz sizdən və Allahı buraxıb tapındıqlarınızdan uzağıq. Sizi tanımırıq. Siz bir tək Allaha inanıncaya qədər sizinlə bizim aramızda davamlı bir düşmənlik və nifrət yaranmışdır", – demişdilər. Yalnız İbrahimin atasına "Sənin üçün mütləq bağışlanma diləyəcəyəm. Lakin Allahdan sənə gələcək hər hansı bir şeyə mane olmağa gücüm çatmaz" sözü istisnadır. Onlar belə dedilər: "Ey Rəbbimiz! Yalnız sənə arxalandıq, səmimiyyətlə yalnız sənə yönəldik. Qayıdış da yalnız sənədir".[2]

5. "Ey Rəbbimiz! Bizi inkar edənlərin zülmünə məruz qoyma. Bizi bağışla. Ey Rəbbimiz! Şübhəsiz, sən mütləq güc sahibisən, hökm və hikmət sahibisən".

6. And olsun, onlarda (İbrahim və onunla birlikdə olanlarda) sizin üçün, Allahı və axirət gününü arzu edənlər üçün gözəl bir nümunə var. Kim üz döndərsə, bilsin ki, Allah hər baxımdan sonsuz zəngindir, tərifə layiqdir.

7. Ola bilsin ki, Allah sizinlə onlardan düşmən olduğunuz kimsələr arasına bir sevgi (və yaxınlıq) qoyar. Allah haqqı ilə gücü yetəndir. Allah çox bağışlayandır, çox mərhəmətlidir.

8. Allah din barəsində sizinlə savaşmamış, sizi yurdlarınızdan çıxarmamış kimsələrə yaxşılıq etməyi, onlara ədalətli davranmağı sizə qadağan etməz. Şübhəsiz, Allah ədalətli davrananları sevər.

9. Allah sizə sadəcə sizinlə din barəsində savaşan, sizi yurdlarınızdan çıxaran və çıxarılmağınız üçün dəstək verənləri dost tutmağı qadağan edər. Kim onları dost tutarsa, onlar məhz zalımlardır.

10. Ey iman edənlər! Mömin qadınlar mühacir olaraq sizin yanınıza gəldikləri zaman onları imtahan edin. Allah onların imanlarını daha yaxşı bilir. Əgər siz onların inanmış qadınlar olduqlarını anlasanız, onları kafirlərə geri göndərməyin. Çünki müsəlman xanımlar kafirlərə halal deyildirlər. Kafirlər də müsəlmanlar xanımlara halal olmazlar. Mehr olaraq xərclədiklərini onlara (ərlərinə geri) verin. Mehrlərini

1 Bu cümlə "Sevgi səbəbi ilə onlara sirr verirsiniz" şəklində də tərcümə edilə bilər.

2 Müşriklər üçün bağışlanma diləmək caiz olmadığı halda həzrət İbrahimin iman etməyən atası üçün bağışlanma diləməsi onun iman edəcəyini ümid etməsi səbəbi ilə idi. Mövzu ilə əlaqəli olaraq baxın: Tövbə, 9/114.

verdiyiniz təqdirdə bu qadınlarla evlənməyinizdə sizə bir günah yoxdur. Müşrik zövcələrinizi nikahlarınızda saxlamayın. (Çünki bu nikahlar ləğv olunmuşdur.) Onlara xərclədiyiniz mehri (evləndikləri kafir ərlərindən) istəyin. Kafirlər də (İslamı qəbul edən və sizinlə evlənən keçmiş zövcələrinə) xərclədikləri mehri (sizdən) istəsinlər. Bu, Allahın hökmüdür. O, aranızda hökm verir. Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.[1]

11. Əgər zövcələrinizdən biri kafirlərə qaçar[2] və siz də onlarla vuruşub qənimət alarsınızsa, zövcələri gedənlərə xərclədikləri (mehr) qədər verin və inandığınız Allaha qarşı gəlməkdən çəkinin.

12. Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şeyi şərik qoşmamaq, oğurluq etməmək, zina etməmək, övladlarını öldürməmək, əlləri ilə ayaqları arasında bir iftira uydurub gətirməmək,[3] heç bir yaxşı işdə sənə qarşı gəlməmək barəsində sənə beyət etmək üçün sənin yanına gəldikləri zaman beyətlərini qəbul et və onlar üçün Allahdan bağışlanma dilə. Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

13. Ey iman edənlər! Allahın qəzəb etdiyi, qəbirlərdəki kafirlərin ümid kəsdikləri kimi tamamilə axirətdən ümidlərini kəsmiş[4] bir toplumu dost tutmayın.

# 61. SƏFF SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 14 ayədən ibarətdir. Surənin adı 4-cü ayədə keçən "səff" sözündən götürülmüşdür. Səff sıra, cərgə deməkdir. Surədə başlıca olaraq Allah yolunda cihadın fəzilətindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Göylərdəki və yerdəki hər şey Allahı təsbih edir. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

2. Ey iman edənlər! Etməyəcəyiniz şeyləri nə üçün söyləyirsiniz?

3. Etməyəcəyiniz şeyləri söyləməniz Allah qatında böyük qəzəbə səbəb olan bir işdir.

1 Hüdeybiyyə sülhü nəticəsində yaranan vəziyyəti tənzimləyən bu ayəyə görə müsəlmanlara sığınan mömin qadınlar Məkkəyə (müşriklərə) qaytarılmayacaq, onlara ayədə bildirilən hökmlər tətbiq olunacaq. Çünki Hüdeybiyyə sülhünə görə müşriklərdən qaçıb gələn mömin kişilər və qadınlar onlara qaytarılmalıydı. Buna görə ayə qaytarılmalı olanların sadəcə mömin kişilər olduğunu, mömin qadınların isə kafirlərin nikahında qala bilməyəcəkləri üçün razılaşmanın onlara şamil olunmayacağını açıqlayır.

2 Ayənin bu qismi "Əgər zövcələriniz səbəbi ilə bir şey (verdiyiniz mehrlər) kafirlərə keçər...". şəklində də tərcümə edilə bilər.

3 Bu ifadə ilə zinadan doğulan uşağın ərə isnad edilməməsi nəzərdə tutula biləcəyi kimi, ümumiyyətlə, iftira atılmaması (yalan danışılmaması və saxtakarlıq edilməməsi) da nəzərdə tutulmuş ola bilər.

4 Ayənin son cümləsi belə də tərcümə edilə bilər: "Kafirlərin qəbirdəkilərdən ümid kəsdikləri kimi axirətdən ümid kəsmişlər".

4. Heç şübhə yoxdur ki, Allah öz yolunda divarları bir-birinə bərkidilmiş bir bina kimi səf bağlayaraq döyüşənləri sevər.

5. Bir vaxt Musa öz qövmünə: "Ey qövmüm! Allahın sizə göndərdiyi peyğəmbəri olduğumu bildiyiniz halda nə üçün mənə əziyyət edirsiniz?" – demişdi. Onlar yoldan sapdıqda Allah da qəlblərini (doğru yoldan) sapdırdı. Allah fasiqlər qövmünə hidayət etməz.

6. Bir vaxt Məryəm oğlu İsa: "Ey İsrail oğulları! Şübhəsiz, mən Allahın sizə məndən əvvəl gələn Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adında bir peyğəmbəri müjdələyən (olaraq göndərdiyi) peyğəmbəriyəm", – demişdi. Lakin (İsa) onlara açıq-aydın möcüzələri gətirdikdə: "Bu, açıq-aşkar bir sehrdir", – dedilər.[1]

7. İslama dəvət olunduğu halda Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər? Allah zalımlar qövmünə hidayət etməz.

8. Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Halbuki kafirlər istəməsələr də, Allah nurunu tamamlayacaq.

9. O, özünə şərik qoşanların xoşuna gəlməsə də, dinini bütün dinlərdən üstün etmək üçün peyğəmbərini hidayət və haqq din ilə göndərəndir.

10. Ey iman edənlər! Sizi ağrılı-acılı bir əzabdan qurtaracaq bir ticarət göstərimmi sizə?

11. Allaha və peyğəmbərinə inanar, mallarınızla və canlarınızla Allah yolunda cihad edərsiniz. Əgər bilsəniz, bu sizin üçün çox xeyirlidir.

12. (Bunu edin ki,) Allah günahlarınızı bağışlasın, sizi içindən çaylar axan cənnətlərə və Ədn cənnətlərindəki gözəl məskənlərə qoysun. Bax bu, böyük uğurdur.

13. Sevəcəyiniz başqa bir qazanc da var: Allahdan bir yardım və yaxın bir fəth (Məkkənin fəthi). (Ey Muhamməd!) Möminləri müjdələ!

14. Ey iman edənlər! Allahın yardımçıları olun.[2] Necə ki Məryəm oğlu İsa da həvarilərə: "Allaha gedən yolda mənim yardımçılarım kimdir?" – demişdi. Həvarilər isə: "Biz Allahın yardımçılarıyıq", – demişdilər. Bundan sonra İsrail oğullarından bir qismi inanmış, bir qismi də inkar etmişdi. Nəhayət, biz inananları düşmənlərinə qarşı dəstəklədik. Beləliklə, üstün gəldilər.[3]

---

1 Bu ayə belə də tərcümə edilə bilər: "Lakin İsanın müjdələdiyi peyğəmbər onlara açıq-aydın ayələri gətirdikdə: "Bu, açıq-aşkar bir sehrdir", – dedilər".

2 Allaha yardım ifadəsi Allahın əmrlərinə və qadağalarına riayət etmək, dininə dəstək olmaq deməkdir.

3 Həvarilər həzrət İsaya hər kəsdən əvvəl inanan və kömək edən, onun Allahın qulu və peyğəmbəri olduğunu təsdiq edənlərdir.

# 62. CÜMƏ SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 11 ayədən ibarətdir. Surənin adı 9-cu ayədə keçən "əl-Cumuə" sözündən götürülmüşdür. Surədə başlıca olaraq həzrət Muhammədin peyğəmbər olaraq göndərilməsi, yəhudilərin Allahın dinindən uzaqlaşmaları və Cümə namazı ilə bağlı bəzi hökmlərdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Göylərdəki və yerdəki hər şey mülkün sahibi, müqəddəs, mütləq güc sahibi, hökm və hikmət sahibi olan Allahı təsbih edir.
2. O, ümmilərə[1] aralarından onlara ayələrini oxuyan, onları təmizləyən, onlara kitabı və hikməti öyrədən bir peyğəmbər göndərəndir. Halbuki onlar bundan əvvəl açıq-aşkar bir zəlalət içində idilər.
3. (Allah o peyğəmbəri) hələ onlara qoşulmayan başqalarına da göndərmişdir. O, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.[2]
4. Bax bu, Allahın lütfüdür. Onu istədiyinə verər. Allah böyük lütf sahibidir.
5. Tövratdan məsul tutulub onunla əməl etməyənlərin halı cildlərlə kitab daşıyan eşşəyin halı kimidir. Allahın ayələrini inkar edən qövmün halı nə pisdir. Allah zalımlar qövmünə hidayət etməz.
6. De ki: "Ey Yəhudi əqidəsini mənimsəyənlər! Əgər bütün insanlar deyil, yalnız özünüzün Allahın dostları olduğunuzu iddia edirsinizsə, (bunda da) səmimisinizsə, onda ölümü istəyin!"
7. Amma onlar daha əvvəl etdikləri əməllər səbəbi ilə əsla ölümü istəməzlər. Allah zalımları haqqı ilə bilir.
8. De ki: "Sizin qaçdığınız ölüm ki var, o, mütləq sizi yaxalayacaq. Sonra qeybi də, görünən aləmi də bilən Allaha qaytarılacaqsınız, O, sizə etdiklərinizi xəbər verəcək".
9. Ey iman edənlər! Cümə günü namaza çağırıldığı zaman dərhal Allahın zikrinə tələsin və alış-verişi buraxın. Əgər bilsəniz, bu, sizin üçün daha xeyirlidir.[3]
10. Namaz qılındıqdan sonra yer üzünə dağılın və Allahın lütfündən nəsibinizi axtarın. Allahı çox zikr edin ki, nicat tapasınız.
11. (Belə olan halda) onlar bir ticarət və ya oyun-əyləncə gördükləri zaman dərhal

1 Ümmi anasından doğulduğu kimi oxuma-yazma bilməyən, təhsil almamış kimsə deməkdir. Qur`an endirilməzdən əvvəl ərəblər oxuma-yazma bilmədikləri və elm sahibi olmadıqları yaxud daha əvvəl onlara aid vəhy edilmiş kitabları olmayan bir xalq olduqları üçün ümmilər adlandırılmışdır.

2 Bu ayədə keçən "başqaları" sözünə Peyğəmbərimizdən sonra gəlmiş və qiyamətə qədər də gələcək bütün insanlar daxildir. Yəni ayədə İslam dininin ümumbəşəriliyi vurğulanır.

3 Ayədəki çağırış ilə azan, Allahın zikri ilə də Cümə namazı nəzərdə tutulur.

dağılıb ona tələsdilər və səni ayaq üstə buraxdılar.[1] De ki: “Allahın yanında olan əyləncə və ticarətdən daha xeyirlidir. Allah ruzi verənlərin ən xeyirlisidir”.

## 63. MÜNAFİQUN SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 11 ayədən ibarətdir. Surə münafiqlərin ümumi xüsusiyyətlərindən bəhs etdiyi üçün belə adlandırılmışdır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. (Ey Muhamməd!) Münafiqlər sənin yanına gəldikləri zaman: “Biz, əlbəttə, sənin Allahın peyğəmbəri olduğuna şahidlik edirik”, – deyirlər. Allah sənin, əlbəttə, onun peyğəmbəri olduğunu bilir. (Lakin) Allah o münafiqlərin, heç şübhəsiz, yalançılar olduqlarına, əlbəttə, şahidlik edir.
2. Andlarını sipər etdilər, insanları Allahın yolundan yayındırdılar. Həqiqətən, onların etdikləri şey nə pisdir!
3. Bu, onların əvvəlcə iman edib sonra inkar etmələri, buna görə də qəlblərinə möhür vurulması səbəbi ilədir. Artıq onlar anlamazlar.
4. Onları gördüyün zaman cüssələri xoşuna gələr. Danışsalar, sözlərinə qulaq asarsan. Onlar sanki libas geyindirilmiş odun kimidirlər. Hər qüvvətli səsi öz əleyhlərinə sanırlar. Onlar düşməndir, onlardan uzaq dur! Allah onları məhv etsin! Necə də (haqdan) döndərilirlər!
5. O münafiqlərə: “Gəlin Allahın Rəsulu sizin üçün bağışlanma diləsin”, – deyildikdə başlarını çevirərlər və sən onların təkəbbür göstərərək uzaqlaşdıqlarını görərsən.
6. Onlara bağışlanma diləsən də, diləməsən də onlar üçün birdir. Allah onları əsla bağışlamayacaq. Çünki Allah fasiqlər qövmünü doğru yola yönəltməz.
7. Onlar “Allah Rəsulunun yanında olanlara (mühacirlərə) heç bir şey verməyin ki, dağılıb getsinlər” deyənlərdir. Halbuki göylərin və yerin xəzinələri Allahındır. Lakin münafiqlər (bunu) anlamazlar.
8. Onlar: “And olsun, əgər Mədinəyə qayıtsaq, üstün olan zəif olanı oradan mütləq çıxaracaq”, – deyirdilər. Halbuki əsl üstünlük ancaq Allahın, Peyğəmbərinin və möminlərindir. Lakin münafiqlər (bunu) bilməzlər.[2]

---

1 Həzrət Peyğəmbər bir cümə günü xütbə oxuyarkən azuqə yüklü bir karvan gəlmişdi. Karvanın gəldiyini xəbər verən davul səsini eşidən səhabələr dağılıb karvanın yanına qaçdılar. Rəsulullahın yanında sadəcə on və ya on iki nəfər qaldı. Ayə bu hadisəyə işarə edir. Ayədə bəhs olunan “əyləncə” ilə həmin davul səsi nəzərdə tutulur.

2 Bir səfər əsnasında ənsardan bir şəxs ilə mühacirlərdən biri su üstündə dava etmiş və ənsardan olan yaralanmışdı. Hadisədən xəbərdar olan münafiqlərin başçısı Abdullah ibn Übeyy mühacirlərə yardım edilməməsini istəmiş və: “Mədinəyə qayıtsaq, üstün olan aşağı olanı oradan çıxaracaq”, – demişdi. 7-ci və 8-ci ayələr həmin hadisəyə işarə edir.

9. Ey iman edənlər! Mallarınız və övladlarınız sizi Allahı zikr etməkdən yayındırmasın. Kim bunu etsə, onlar məhz ziyana uğrayanlardır.

10. Hər hansı birinizə ölüm yetişib "Ey Rəbbim! Mənə yaxın bir zamana qədər möhlət ver, sədəqə verib salehlərdən olum!" demədən əvvəl sizə ruzi olaraq verdiyimiz şeylərdən Allah yolunda xərcləyin.

11. Allah əcəli gəldikdə heç bir kimsəyə əsla möhlət verməz. Allah bütün etdiklərinizdən xəbərdardır.

## 64. TƏĞABUN SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 18 ayədən ibarətdir. Surənin adı 9-cu ayədə keçən "ət-Təğabun" sözündən götürülmüşdür. Təğabun aldanma deməkdir. İnanmayanların aldanması qiyamət günü açıq şəkildə meydana çıxacağı üçün bu günə "Yəumut-Təğabun (aldanma günü)" deyilmişdir. Surədə başlıca olaraq istər mömin, istərsə də kafir olsun hər kəsin nöqsan və qüsurlarının qiyamət günü meydana çıxacağından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Göylərdəki və yerdəki hər şey Allahı təsbih edir. Mülk yalnız Onundur, həmd də Ona məxsusdur. O, hər şeyə haqqı ilə gücü yetəndir.

2. O, sizi yaradandır. Belə olduğu halda kiminiz kafir, kiminiz mömindir. Allah etdiklərinizi haqqı ilə görəndir.

3. Göyləri və yeri haqq və hikmətə uyğun olaraq yaratdı. Sizə surət verdi və surətlərinizi də gözəl etdi. Qayıdış yalnız Onadır.

4. Göylərdəki və yerdəki hər şeyi bilir. Gizlədiklərinizi də, aşkara vurduqlarınızı da bilir. Allah sinələrin özünü (qəlblərdə olanı) haqqı ilə biləndir.

5. Bundan əvvəl inkar edib inkarlarının cəzasını dadanların xəbəri sizə gəlmədimi? Onlar üçün ağrılı-acılı bir əzab da var.

6. Bu, peyğəmbərlərinin onlara açıq-aşkar möcüzə gətirmələri və onların da: "(Bizim kimi) insanlarmı bizi doğru yola yönəldəcək?" – deyib inkar etmələri və üz çevirmələri səbəbi ilədir. Allah da heç bir şeyə möhtac olmadığını göstərmişdir. Allah hər baxımdan sonsuz zəngindir, tərifə layiqdir.

7. İnkar edənlər öldükdən sonra əsla dirildilməyəcəklərini iddia etdilər. De ki: "Heç də elə deyil, Rəbbimə and olsun, mütləq dirildiləcəksiniz, sonra da etdikləriniz sizə, əlbəttə, xəbər veriləcək. Bu, Allah üçün asandır".

8. Artıq siz Allaha, Peyğəmbərinə və endirdiyimiz nura (Qur`ana) iman edin. Allah etdiklərinizdən haqqı ilə xəbərdardır.

9. Toplanma vaxtı üçün Allahın sizi toplayacağı günü düşün. O gün aldanma günüdür. Kim Allaha inanar və saleh əməl işlərsə, Allah onun pisliklərini örtər və onu içindən çaylar axan, əbədi qalacaqları cənnətlərə qoyar. Bax bu, böyük uğurdur.

10. İnkar edən və ayələrimizi yalan sayanlara gəlincə, onlar cəhənnəmliklərdir, orada əbədi qalacaqlar. Nə pis mənzildir ora!

11. Allahın izni olmadan heç bir müsibət baş verməz. Kim Allaha inanarsa, Allah onun qəlbini doğruya yönəldər. Allah hər şeyi haqqı ilə biləndir.

12. Allaha itaət edin, Peyğəmbərə də itaət edin. Əgər üz çevirsəniz, bilin ki, elçimizin öhdəsinə düşən sadəcə açıq-aşkar bir təbliğdir.

13. Allah ondan başqa heç bir ilah olmayandır. Möminlər yalnız Allaha təvəkkül etsinlər.

14. Ey iman edənlər! Zövcələrinizdən və övladlarınızdan sizə düşmən ola biləcək kəslər var. Onlardan ehtiyatlı olun! Ancaq əfv edər, (təqsirlərindən) keçər və bağışlayarsınızsa, şübhə yoxdur ki, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

15. Mallarınız və övladlarınızın hər biri bir imtahandır. Allah qatında isə böyük bir mükafat var.

16. O halda bacardığınız qədər Allaha qarşı gəlməkdən çəkinin. Dinləyin, itaət edin, öz yaxşılığınız üçün xərcləyin. Kim nəfsinin xəsisliyindən qorunsa, onlar məhz nicat tapanlardır.

17. Əgər siz Allaha gözəl bir borc versəniz, Allah onu sizə qat-qat ödəyər və sizi bağışlayar. Allah şükrün qarşılığını verəndir, həlimdir (dərhal cəzalandırmaz, möhlət verər).

18. O, qeybi də, görünən aləmi də biləndir, mütləq güc sahibidir, hökm və hikmət sahibidir.

## 65. TALAQ SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 12 ayədən ibarətdir. Surənin adı mövzusundan götürülmüşdür. Talaq boşamaq deməkdir. Surədə talaq ilə bağlı bəzi hökmlərdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey Peyğəmbər! Qadınları boşamaq istədiyiniz zaman onları iddətlərini nəzərə alaraq (təmizlik halında) boşayın və iddəti sayın.[1] Rəbbiniz olan Allaha qarşı gəlməkdən çəkinin. Aşkar həyasızlıq etmələri xaricində onları (gözləmə müddəti boyunca) evlərindən çıxarmayın, özləri də çıxmasınlar. Bunlar Allahın hədləridir. Kim Allahın hədlərini aşarsa, şübhəsiz, özünə zülm etmiş olar. Bilə bilməzsiniz, ola bilər ki, Allah bundan sonra yeni bir vəziyyət yaradar.

2. Boşanan qadınlar iddətlərinin sonuna çatdıqda onları ya yaxşılıqla saxlayın, yaxud onlardan yaxşılıqla ayrılın. Aranızdan iki ədalətli şahid tutun. Şahidliyi Allah üçün doğru-düzgün yerinə yetirin. Bax bununla Allaha və axirət gününə inanan

1 İddət boşanan qadının əri ilə əlaqəsinin tamamilə kəsilməsi üçün dini baxımdan gözləməli olduğu müddətdir.

kimsələrə öyüd verilir. Kim Allaha qarşı gəlməkdən çəkinərsə, Allah ona bir çıxış yolu açar.

3. Ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül edərsə, O, ona yetər. Şübhəsiz, Allah əmrini yerinə yetirəndir. Allah hər şeyə bir ölçü qoymuşdur. Qadınlarınızdan adətdən kəsilənlərlə hələ adət görməyənlər barəsində tərəddüd etsəniz, onların gözləmə müddəti üç aydır. Hamilə olanların gözləmə müddəti isə doğumla başa çatar. Kim Allaha qarşı gəlməkdən çəkinərsə, Allah ona işində bir asanlıq verər.

5. Bax bu, Allahın sizə endirdiyi əmridir. Kim Allaha qarşı gəlməkdən çəkinərsə, Allah onların pisliklərini örtər və onun mükafatını böyüdər.

6. Onları (iddətləri müddətincə) bacardığınız qədər yaşadığınız yerin bir bölümündə saxlayın. Onları çətinliyə salmaq məqsədilə onlara zərər verməyin. Əgər hamilədirlərsə, doğana qədər nəfəqələrini verin. Sizin üçün (uşağı) əmizdirərlərsə, (əmizdirmə) haqlarını da verin və aranızda münasib bir şəkildə razılaşın. Əgər razılaşmasanız, uşağı atanın hesabına başqa bir qadın əmizdirəcək.

7. İmkanlı olan imkanı nisbətincə nəfəqə versin. Ruzisi az olan isə Allahın ona verdiyindən (o nisbətdə) xərcləsin. Allah bir kimsəni ancaq ona verdiyi ilə məsul tutar. Allah bir çətinlikdən sonra bir asanlıq yaradacaq.

8. Neçə-neçə şəhərlərin xalqı Rəblərinin və onun elçilərinin əmrindən uzaqlaşıb azdılar. Bu səbəblə onları çətin bir hesaba çəkdik və görülməmiş bir əzaba düçar etdik.

9. Beləliklə, etdiklərinin cəzasını daddılar və işlərinin sonu tam bir ziyan oldu.

10. Allah axirətdə onlara şiddətli bir əzab hazırlamışdır. O halda, ey iman edən ağıl sahibləri, Allaha qarşı gəlməkdən çəkinin! Allah sizə bir zikr (Qur`an) endirdi.

11. İman edib saleh əməl işləyənləri qaranlıqlardan aydınlığa çıxarmaq üçün sizə Allahın açıq-aydın ayələrini oxuyan bir peyğəmbər göndərdi. Kim Allaha inanar və saleh bir əməl işlərsə, Allah onu içindən çaylar axan, içində əbədi qalacaqları cənnətlərə qoyar. Allah, həqiqətən, ona gözəl bir ruzi vermişdir.

12. Allah yeddi göyü və yerdən də bir o qədərini yaradandır. Allahın əmri bunlar arasından enir ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz.

# 66. TƏHRİM SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 12 ayədən ibarətdir. Surənin adı həzrət Peyğəmbərin halal olan bir şeyi özünə haram etməsindən bəhs edən və "Təhrim ayəsi" olaraq adlandırılan birinci ayədən götürülmüşdür. Təhrim haram etmək deməkdir. Surədə başlıca olaraq həzrət Peyğəmbərin zövcələri ilə bəzi münasibətləri və xoşbəxt bir ailə qurmağın əsas prinsiplərindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey Peyğəmbər! Zövcələrini razı salmaq üçün niyə Allahın sənə halal buyurduğu şeyi sən özünə haram edirsən? Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

2. Allah (lazım gəldikdə) andlarınızı pozmaq (və kəffarə ödəmək) barəsində sizə izin vermişdir. Allah sizin yardımçınızdır. O, haqqı ilə biləndir, hökm və hikmət sahibidir.

3. Bir vaxt Peyğəmbər zövcələrindən birinə gizli bir söz dedi. Lakin zövcəsi o sözü (başqasına) xəbər verib Allah da bunu Peyğəmbərə bildirdikdə Peyğəmbər bunun bir qismini bildirmiş, bir qismindən isə vaz keçmişdi. Peyğəmbər bunu ona (sirri faş edən zövcəsinə) xəbər verdikdə o: "Bunu sənə kim bildirdi?" – dedi. Peyğəmbər: "Bunu mənə haqqı ilə bilən və haqqı ilə xəbərdar olan Allah xəbər verdi", – dedi.

4. (Ey Peyğəmbərin zövcələri!) Əgər siz ikiniz Allaha tövbə etsəniz, nə yaxşı. Çünki qəlbləriniz əyildi. Əgər Peyğəmbərə qarşı bir-birinizə arxa çıxsanız, bilin ki, Allah onun yardımçısıdır, Cəbrail də, saleh möminlər də. Bunlardan sonra mələklər də ona arxa çıxarlar.

5. Əgər o, sizi boşasa, Rəbbi ona sizdən daha xeyirli, müsəlman, inanan, itaət edən, tövbə edən, ibadət edən, oruc tutan, dul və bakirə zövcələr verə bilər.

6. Ey iman edənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan atəşdən qoruyun. O atəşin başında çox qatı, sərt, Allahın onlara verdiyi əmrlərə qarşı gəlməyən və onlara əmr ediləni yerinə yetirən mələklər var.

7. Ey inkar edənlər! Bu gün üzrxahlıq etməyin! Siz ancaq etdiklərinizin qarşılığını görürsünüz.

8. Ey iman edənlər! Allaha səmimiyyətlə tövbə edin. Bəlkə, Rəbbiniz sizin pisliklərinizi örtər, Peyğəmbəri və onunla birlikdə iman edənləri utandırmayacağı gündə Allah sizi içlərindən çaylar axan cənnətlərə qoyar. Onların nurları önlərindən və sağlarından işıq saçar, gedər. "Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla, çünki sənin gücün hər şeyə haqqı ilə yetər", – deyərlər.

9. Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı cihad et, onlara qarşı sərt davran. Onların gedəcəyi yer cəhənnəmdir. Nə pis mənzildir ora!

10. Allah inkar edənlərə Nuhun arvadı ilə Lutun arvadını misal çəkdi. Bu ikisi qullarımızdan iki saleh adamın nikahında idilər. Onlara xəyanət etdilər, ərləri Allahın

əzabından heç bir şeyi onlardan sovuşdura bilmədi. Onlara: "Atəşə girənlərlə bərabər siz də girin!" – deyildi.

11. Allah iman edənlərə isə Fironun arvadını misal çəkdi. Bir vaxt o: "Rəbbim! Mənə qatında, cənnətdə bir ev tik. Məni Firondan və onun etdiyi işlərdən qoru və məni zalımlar qövmündən xilas et!" – demişdi.

12. Allah namusunu möhkəm qoruyan və bizim də ona ruhumuzdan üfürdüyümüz, Rəbbinin kəlmələrini və kitablarını təsdiq edən İmran qızı Məryəmi də (inananlara) misal çəkdi. O, itaət edənlərdən idi.

# 67. MÜLK SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 30 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Mülk" sözündən götürülmüşdür. Surədə başlıca olaraq Allahın əzəməti, Allahın birliyinin dəlilləri və öldükdən sonra dirilməyi inkar edənlərin aqibətindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Hökmranlıq əlində olan Allah ucadır. O, hər şeyə haqqı ilə gücü yetəndir.

2. O, hansınızın daha gözəl əməl işləyəcəyini sınamaq üçün ölümü və həyatı yaradandır. O, mütləq güc sahibidir, çox bağışlayandır.

3. O, yeddi göyü qat-qat yaradandır. Rəhmanın yaratmasında heç bir uyğunsuzluq görə bilməzsən. Bir dəfə də bax! Bir çatlaq (və nizamsızlıq) görürsənmi?

4. Sonra təkrar-təkrar bax, baxışların (axtardığı çatlağı və nizamsızlığı tapa bilməyib) aciz və yorğun halda sənə qayıdacaq.

5. And olsun, biz ən yaxın göyü qəndillərlə bəzədik. Onları şeytanlara atılan daşlar etdik və (axirətdə də) onlara alovlu atəş əzabını hazırladıq.[1]

6. Rəblərini inkar edənlər üçün cəhənnəm əzabı var. Nə pis mənzildir ora!

7. Oraya atıldıqları zaman onun qaynayarkən çıxardığı qorxunc uğultulu səsi eşidərlər.

8. Az qala cəhənnəm qəzəbdən çatlayacaq! Hər bir topluluq oraya atıldıqca oranın gözətçiləri onlardan: "Sizə bir xəbərdar edən gəlməmişdimi?" – deyə soruşarlar.

9. Onlar isə belə deyərlər: "Bəli, bizə bir xəbərdar edən gəlmişdi. Lakin biz onu inkar etmiş və: "Allah heç nə endirməmişdir. Siz ancaq böyük bir zəlalət içindəsiniz", – demişdik".

10. Yenə belə deyərlər: "Əgər qulaq assaydıq və ya düşünsəydik, bu alovlu atəşdəkilərdən olmazdıq".

---

1 Ulduzların şeytanlara atılan daşlar edilməsi ilə ya mahiyyətini yalnız Allahın bildiyi bir şəkildə şeytanların daşlanması nəzərdə tutulur ya da insanlardan şeytani xislətlərə sahib olan və ulduzlara baxıb qeybdən xəbər verirmiş kimi insanları bəzi yalanlarla aldatmağa çalışan falçıların və kahinlərin əsassız danışmalarına işarə edilir. Əlavə olaraq baxın: Hicr, 15/15-18, Saffat, 37/6-10.

11. Beləliklə, günahlarını etiraf edərlər. Artıq alovlu atəşdəkilər Allahın rəhmətindən uzaq olsun!
12. Görmədikləri halda Rəblərindən qorxanlar üçün bir bağışlanma və böyük bir mükafat var.
13. Sözünüzü istər gizləyin, istər onu aşkara vurun (fərqi yoxdur). Şübhəsiz, Allah sinələrin özünü (qəlblərdə olanı) haqqı ilə bilir.
14. Yaradan bilməzmi? O, ən gizli şeyləri bilər, (hər şeydən) haqqı ilə xəbərdardır.
15. O, yer üzünü sizin ayaqlarınızın altına sərəndir. Onun üstündə gəzin və Allahın ruzisindən yeyin. Qayıdış yalnız Onadır.
16. Göydəkinin sizi yerə batırmayacağından əmin oldunuz? (O zaman) bir də görərsiniz yer üzü şiddətlə çalxalanır.
17. Yaxud göydəkinin üstünüzə daş yağdıran külək göndərməyəcəyindən əmin oldunuz? O zaman xəbərdarlığım necə imiş biləcəksiniz!
18. And olsun, onlardan əvvəlkilər də inkar etmişdi. Məni inkar etməyin axırı necə oldu?!
19. Üstlərində qanad çırparaq uçan quşlara baxmırlarmı? Onları (havada) ancaq Rəhman saxlayır. Şübhəsiz, O, hər şeyi haqqı ilə görəndir.
20. Yaxud Rəhmandan başqa sizə yardım edəcək bu ordunuz (tərəfdarlarınız) kimlərdir? İnkarçılar sadəcə bir aldanma içindədirlər.
21. Bəs Allah ruzisini kəssə, kim sizə ruzi verər? Xeyr, onlar azğınlıq və nifrətdə inad edirlər.
22. Üzü üstə düşüb qalxaraq yeriyən daha doğru gedər, yoxsa düz bir yolda dik yeriyən?
23. De ki: “O, sizi yaradan və sizə qulaqlar, gözlər və qəlblər verəndir. Nə qədər də az şükür edirsiniz!”
24. De ki: “O, sizi yer üzündə yaradıb çoxaldandır. Yalnız Onun hüzurunda toplanacaqsınız”.
25. “Əgər doğru söyləyənlərsinizsə, bu vəd nə zaman gerçəkləşəcək?” – deyirlər.
26. De ki: “O bilgi Allah qatındadır. Mən isə sadəcə açıq-aşkar bir xəbərdar edənəm”.
27. Onu (əzabı) yaxından gördükləri zaman inkar edənlərin üzləri pisləşər və onlara: “Bax bu, (istehza edərək) istədiyiniz şeydir”, – deyilər.
28. De ki: “Deyin görək, tutaq ki, Allah məni və mənimlə birlikdə olanları həlak etdi yaxud bizə rəhm etdi. Bəs inkarçıları ağrılı-acılı əzabdan kim qoruyacaq?”
29. De ki: “O Rəhmandır. Ona iman etdik, yalnız Ona təvəkkül etdik. Siz kimin açıq-aşkar zəlalət içində olduğunu yaxında öyrənəcəksiniz!”
30. De ki: “Deyin görək, suyunuz çəkilsə, sizə kim təmiz bir axar su gətirər?”

# 68. QƏLƏM SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 52 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Qələm" sözündən götürülmüşdür. "Nun" surəsi olaraq da adlandırılır. Surədə başlıca olaraq həzrət Muhammədin peyğəmbərliyinin isbatı və möminlər ilə kafirlərin aqibətlərindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Nun.[1] (Ey Muhamməd!) And olsun qələmə və sətir-sətir yazdıqlarına ki, sən Rəbbinin neməti sayəsində bir dəli deyilsən.

3. Şübhəsiz, sənə tükənməz bir mükafat var.

4. Sən, əlbəttə, böyük bir əxlaq üzrəsən.

5, 6. Hansınızın dəli olduğunu yaxında sən də görəcəksən, onlar da görəcəklər.

7. Şübhəsiz, sənin Rəbbin öz yolundan sapanı daha yaxşı bilər. O, hidayətə çatanları da daha yaxşı bilər.

8. Elə isə inkar edənlərə boyun əymə!

9. İstədilər ki, mülayim davranasan, beləliklə, onlar da mülayim davransınlar.[2]

10, 11, 12, 13, 14. And içib duran, alçaq, daima qüsur axtarıb qınayan, dayanmadan söz daşıyan, həmişə yaxşılığa mane olan, təcavüzkar, günaha dadanmış, qaba, üstəlik bir də soysuz olan kimsəyə mal və oğulları var deyə əsla boyun əymə.

15. Ayələrimiz ona oxunduğu zaman: "Əvvəlkilərin nağılları!" – deyər.

16. Yaxında biz onun burnunu damğalayacağıq.

17. Şübhəsiz, biz vaxtilə bağça sahiblərinə bəla verdiyimiz kimi onlara (məkkəli kafirlərə) da bəla verdik. O bağça sahibləri sübh tezdən (yoxsullar gəlmədən) bağçanın məhsullarını toplamağa and içmişdilər.

18. (Bunu düşünərkən) istisna da etmirdilər. ("İnşallah" demirdilər.)

19. Nəhayət, onlar yuxuda ikən Rəbbindən bir fəlakət (atəş) bağçanı bürüdü.

20. Beləliklə, bağça (kövşəni) yandırılmış torpağa döndü.

21, 22. Sübh vaxtı bir-birilərinə: "Əgər məhsulunuzu yığacaqsınızsa, erkən gedin", – deyə səsləndilər.

23, 24. Bundan sonra: "Əsla bu gün orada heç bir yoxsul yanınıza girməsin", – deyə pıçıldaşaraq yola düşdülər.

25. (Yoxsullara yardım etməyə) gücləri çatdığı halda (belə deyərək) erkən yola çıxdılar.

1 Bu hərflərlə əlaqəli olaraq Bəqərə surəsinin ilk ayəsinin istinadına baxın.

2 Ayədə müşriklərin Rəsulullahdan tövhid mücadiləsində güzəştə getməsi, batil inanclarını, haqsızlıqlarını, bəzi mənfur niyyətlərini qəbul edib tənqid etməməsi ilə bağlı istəklərinə işarə edilir. Rəsulullahın onlara qarşı güzəştə gedəcəyi təqdirdə onların da ona qarşı mülayim davranacaqlarına diqqət çəkilir.

26. Lakin o bağçanı o halda gördükləri zaman: "Biz, həqiqətən, yoldan azmış kimsələrik", – dedilər.
27. (Gerçəyi anladıqda isə:) "Xeyr, biz məhrum olmuşuq", – dedilər.
28. Onların ən ağıllısı: "Mən sizə Rəbbinizi təsbih etməlisiniz demədimmi?" – dedi.
29. Onlar: "Rəbbimizi təsbih edərik (ucaldarıq). Şübhəsiz, biz zalım kimsələr imişik", – dedilər.
30. Bundan sonra bir-birilərini qınamağa başladılar.
31. Belə dedilər: "Vay halımıza! Həqiqətən, biz azğın kimsələr imişik!"
32. "Bəlkə, Rəbbimiz bizə bunun yerinə daha yaxşısını verər. Çünki biz artıq Rəbbimizi arzulayanlarıq".
33. Bax belədir əzab! Axirət əzabı isə, əlbəttə, daha böyükdür, kaş biləydilər.
34. Şübhəsiz, Allaha qarşı gəlməkdən çəkinənlər üçün Rəbləri qatında Nəim cənnətləri var.
35. Biz müsəlmanları günahkarlarla bir tutarıqmı?
36. Sizə nə olub, necə hökm verirsiniz?
37. Yoxsa sizə aid bir kitabınız var, (bu batil hökmləri) ondan oxuyursunuz?
38. Orada: "Seçib bəyəndiyiniz hər şey mütləq sizindir", ( – deyə yazılıb?)
39. Yaxud nə hökm versəniz, mütləq elə olacağına dair bizdən Qiyamətə qədər davam edəcək qəti sözlər aldınız?
40. Onlardan soruş: "Onların hansı bu (iddialarının doğruluğu)na zamindir?"
41. Yoxsa onların şərikləri var? Doğru söyləyənlərdirlərsə, şəriklərini gətirsinlər!
42, 43. İşlərin çətinləşəcəyi və kafirlərin səcdəyə çağırılıb gözləri zəlil şəkildə yerə dikilmiş halda buna taqət yetirə bilməyəcəkləri günü (Qiyamət gününü) düşün. Halbuki onlar sağ ikən səcdə etməyə çağırılır (və buna yanaşmır)dılar.
44. (Ey Muhamməd!) Bu sözü (Qur`anı) inkar edənləri mənə burax! Biz onları bilməyəcəkləri şəkildə addım-addım həlaka yaxınlaşdıracağıq.
45. Onlara möhlət verirəm. Şübhəsiz, mənim tələm möhkəmdir.
46. Yoxsa sən onlardan bir muzd istəyirsən, onlar ağır bir borc yükü altında qalıblar?
47. Yaxud qeyb (Lövhi-məhfuz) onların yanındadır, onlar (bundan nəql edib) yazırlar?
48. Sən Rəbbinin hökmünə səbir et. Balıq sahibi (Yunus) kimi olma! Bir vaxt o, (balığın qarnında) kədərli bir halda Rəbbinə yalvarmışdı.[1]
49. Əgər Rəbbindən ona bir nemət yetişməsəydi, o mütləq qınanmış bir halda tənha bir yerə atılacaqdı.
50. (Lakin belə olmadı.) Rəbbi onu (peyğəmbər olaraq) seçdi və salehlərdən etdi.

---

1 Yunus peyğəmbərin bu duası üçün Ənbiya surəsinin 87-ci ayəsinə və Saffat surəsinin 139-148-ci ayələrinə baxın.

51. Şübhəsiz, inkar edənlər Zikri (Qur`anı) eşitdikləri zaman az qalır ki, gözləri ilə səni yıxsınlar. (Sənin haqqında:) "Heç şübhə yoxdur ki, o, bir dəlidir", – deyirlər.
52. Halbuki o (Qur`an) aləmlər üçün sadəcə bir öyüddür.

# 69. HAQQƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 52 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Haqqə" sözündən götürülmüşdür. "Haqqə" mütləq baş tutacaq qiyamət deməkdir. Surədə başlıca olaraq Qiyaməti inkar edənlərin çəkəcəkləri cəzalar və möminlər ilə kafirlərin dəhşətli Qiyamət günündəki hallarından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Haqq olan qiyamət!
2. Nədir o haqq olan qiyamət?
3. Haqq olan qiyamətin nə olduğunu sən nə biləsən?[1]
4. Səmud və Ad qövmləri ürəklərinə qorxu salacaq olan böyük fəlakəti (Qiyaməti) inkar etdilər.
5. Səmud qövmü qorxunc bir sarsıntı ilə həlak edildi.
6. Ad qövmünə gəlincə onlar da uğultulu və dondurucu şiddətli bir küləklə həlak edildi.
7. Allah onu fasiləsiz olaraq yeddi gecə səkkiz gün onların üzərinə saldı. Belə ki, (əgər orada olsaydın,) o qövmü içi boş xurma kötükləri kimi orada yerə sərilmiş halda görərdin.
8. İndi onlardan geri qalan bir şey görürsənmi?
9. Firon, ondan əvvəlkilər və yerlə bir olan şəhərlər (xalqı olan Lut qövmü) o günahı işlədilər.
10. Belə ki, Rəblərinin elçilərinə qarşı gəldilər. Allah da onları get-gedə artan bir əzabla yaxaladı.
11, 12. Şübhəsiz, (Nuh dövründə) su basdığı zaman sizi gəmidə biz daşıdıq ki, bu hadisəni sizin üçün bir xəbərdarlıq edək və yadda saxlayacaq qulaqlar onu yadda saxlasın.
13, 14, 15. Sura[2] bir dəfə üfürüldükdə, yer üzü və dağlar qaldırılıb bir-birinə bir dəfə vurulduqda, bax o gün olacaq olmuş (Qiyamət qopmuş)dur.
16. Göy yarılmış və artıq o gün o da çökməyə başlamışdır.
17. Mələklər onun ətrafındadır. O gün Rəbbinin Ərşini bunların da üstündə səkkiz daşıyıcı daşıyar.

1 Bu ayədə qiyamətdə baş verəcək dəhşətli halın gözlə görülmədikcə Peyğəmbər tərəfindən belə tam olaraq bilinib anlaşılmayacağına işarə edilir.

2 Sur üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bilinməyən bir növ boru deməkdir.

18. O gün (hesab üçün Allaha) ərz olunarsınız. Heç bir sirriniz gizli qalmaz.
19. O vaxt kitabı sağından verilən kimsə deyər ki: “Gəlin, kitabımı oxuyun!”
20. “Çünki mən hesabımla qarşılaşacağımı onsuz da bilirdim”.
21. Artıq o, xoş güzəran içindədir.
22. Yüksək bir cənnətdədir.
23. Onun meyvələri sallanar (asanlıqla dərilər).
24. (Onlara belə deyilər:) “Keçmiş günlərdə etdiklərinizin qarşılığı olaraq nuşcanlıqla yeyin, için”.
25. Kitabı solundan verilən isə belə deyər: “Kaş ki, kitabım mənə verilməyəydi”.
26. “Hesabımın nə olduğunu da bilməyəydim”.
27. “Kaş ölüm hər şeyi bitirəydi”.
28. “Var-dövlətim mənə heç bir fayda vermədi”.
29. “Səltənətim də yox olub getdi”.
30. (Allah belə deyər:) “Onu yaxalayıb bağlayın”.
31. “Sonra onu cəhənnəmə atın”.
32. “Sonra onu uzunluğu yetmiş arşın olan zəncirə vurun”.
33. “Çünki o, əzəmət sahibi Allaha iman etmirdi”.
34. “Yoxsulu doyurmağa təşviq etmirdi”.
35. “Bu səbəblə bu gün burada onun səmimi bir dostu yoxdur”.
36. “Qanlı irindən başqa bir yeyəcəyi də yoxdur”.
37. “Onu günahkarlardan başqası yeməz”.
38, 39, 40. Görə bildiklərinizə və görə bilmədiklərinizə and içirəm ki, o (Qur`an) heç şübhəsiz, çox şərəfli bir elçinin (Allahdan alıb təbliğ etdiyi) sözüdür.
41. O, bir şairin sözü deyildir. Nə az inanırsınız!
42. Bir kahinin sözü də deyil. Nə az düşünürsünüz!
43. O, aləmlərin Rəbbi tərəfindən endirilmədir.
44, 45. Əgər (Peyğəmbər) bizim adımızdan bəzi sözlər uydursaydı, mütləq onu qüdrətimizlə yaxalayardıq.
46. Sonra da onun şah damarını mütləq kəsərdik.
47. Heç biriniz bu cəzanı ondan sovuşdura bilməzdi.
48. Şübhəsiz, Qur`an Allaha qarşı gəlməkdən çəkinənlərə bir öyüddür.
49. Şübhəsiz, biz sizdən inkar edənlərin olduğunu, əlbəttə, bilirik.
50. Şübhəsiz, Qur`an kafirlər üçün mütləq bir peşmanlıq səbəbidir.
51. Şübhəsiz, Qur`an gerçək qəti bilgidir.
52. O halda sən uca Rəbbinin adı ilə təsbih et.

# 70. MƏARİC SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 44 ayədən ibarətdir. Surənin adı üçüncü ayədə keçən "əl-Məaric" sözündən götürülmüşdür. "Məaric" yüksəlmə yolları deməkdir. Surədə başlıca olaraq Məkkə müşriklərinin inkar, inad və azğınlıqları, insan təbiətinin bəzi cəhətləri və ölümdən sonrakı həyatın gerçəkliyindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1, 2, 3.** Soruşan yüksəlmə yollarının sahibi[1] Allah tərəfindən kafirlərə mütləq enəcək olan və heç kimin uzaqlaşdıra bilməyəcəyi əzabı soruşdu.[2]

**4.** Mələklər və Ruh (Cəbrail) müddəti əlli min il olan bir gündə Ona yüksələr.

**5.** (Ey Muhamməd!) Sən gözəl bir şəkildə səbir et!

**6.** Şübhəsiz, onlar o əzabı uzaq görürlər.

**7.** Biz isə onu yaxın görürük.

**8, 9.** Göyün ərimiş mis kimi və dağların atılmış rəngli yun kimi olacağı günü xatırla!

**10.** (O gün) heç bir səmimi dost dostunu soruşmaz.

**11, 12, 13, 14.** Bir-birilərinə göstərilərlər. Günahkar kimsə istəyər ki, o günün əzabından qurtulmaq üçün oğullarını, zövcəsini, qardaşını, onu qoruyub himayə edən bütün ailəsini və yer üzündə olanların hamısını fidyə olaraq versin, özünü xilas etsin.

**15, 16.** Xeyr (mümkün deyil)! Şübhəsiz, cəhənnəm dəriləri qovurub çıxaran alovlu atəşdir.

**17, 18.** O, (haqqa) arxa çevirəni və (imandan) üz döndərəni; sərvət toplayıb yığanı özünə çağırar.

**19.** Şübhəsiz, insan çox həris və səbirsiz olaraq yaradılmışdır.

**20.** Ona pislik toxunduğu zaman deyinər.

**21.** Ona bir xeyir toxunduqda isə xəsis olar.

**22.** Ancaq namaz qılanlar başqadır.

**23.** Onlar namazlarına davam edən kəslərdir.

**24, 25.** Onlar mallarında istəyənlər və (istəməyib) məhrum qalanlar üçün müəyyən bir haqq olan kimsələrdir.

**26.** Onlar cəza gününü təsdiq edən kəslərdir.

**27.** Onlar Rəblərinin əzabından qorxan kimsələrdir.

1 "Allahın sahib olduğu yüksəlmə yolları" ifadəsi ilə mələklərin ona yüksəldiyi xüsusi yollar nəzərdə tutulmuş ola biləcəyi kimi, 37-47-ci ayələrdə ifadə olunan və qulları ucaldıb Allaha yaxınlaşdıran yollar mərtəbəsindəki ibadət və gözəl davranışlar da nəzərdə tutulmuş ola bilər.

2 Qüreyş qəbiləsinin öndə gələn müşriklərindən Nəzr bin Haris və bənzərləri həzrət Peyğəmbərin xəbərdarlıqları və Qur`anla istehza edərək: "Ey Allah! Əgər bu Qur`an sənin qatından enmiş haqq bir kitabdırsa, elə indi üzərimizə göydən daş yağdır və ya ağrılı-acılı bir əzab gətir" (Ənfal, 8/32) deməlırindən sonra bu ayə nazil olmuşdur.

28. Çünki Rəblərinin əzabından arxayın olmaq olmaz.
29. Onlar məhrəm yerlərini qoruyan kimsələrdir.
30. Ancaq zövcələri yaxud sahib olduqları cariyələri istisnadır. Çünki onlar (zövcələri və cariyələri ilə olan münasibətlərindən ötrü) qınanmazlar.
31. Kim bundan artığını istərsə, onlar həddi aşan kimsələrdir.
32. Onlar əmanətlərinə və verdikləri sözə riayət edən kimsələrdir.
33. Onlar doğru şahidlik edən kimsələrdir.
34. Onlar namazlarını etina ilə qoruyan kimsələrdir.
35. Məhz onlar cənnətlərdə ehtiram olunacaq kimsələrdir.
36, 37. İndi inkar edənlərə nə olub ki, boyunlarını uzadaraq (istehza etmək üçün) sağdan-soldan dəstələr halında sənə tərəf qaçırlar?
38. Onlardan hər biri Nəim cənnətinə daxil ediləcəyini güman edir?[1]
39. Xeyr (mümkün deyil)! Şübhəsiz, biz onları bildikləri şeydən (mənidən) yaratdıq.
40, 41. Şərqlərin və qərblərin Rəbbinə and içirəm ki, şübhəsiz, biz onların yerinə daha yaxşılarını gətirməyə qadirik. Bizim önümüzə keçilməz.
42. Sən onları burax, xəbərdar olunduqları günlərinə qovuşana qədər batil inanclarına dalsınlar və oynasınlar.
43, 44. Dik bütlərə axın-axın gedərcəsinə gözləri yerə dikilmiş, özlərini zillət bürümüş bir halda məzarlarından sürətlə çıxacaqları o günü xatırla! Bax o, onlara vəd olunan gündür.

## 71. NUH SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 28 ayədən ibarətdir. Surədə başlıca olaraq Nuh peyğəmbərin mübarizəsi və Nuh Tufanından bəhs olunur. Surənin adı mövzusundan götürülmüşdür.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Şübhəsiz, biz Nuhu öz qövmünə: “Onlara ağrılı-acılı bir əzab gəlmədən öncə qövmünü xəbərdar et!” – deyə peyğəmbər olaraq göndərdik.
2. Nuh belə dedi: “Ey qövmüm! Şübhəsiz, mən sizin üçün acıq-aşkar bir xəbərdar edənəm”.
3, 4. “Allaha ibadət edin. Ona qarşı gəlməkdən çəkinin və mənə itaət edin ki, sizin günahlarınızı bağışlasın və sizə müəyyən bir vaxta qədər möhlət versin. Şübhəsiz, Allahın təyin etdiyi vaxt yetişdikdə təxirə salınmaz. Kaş biləydiniz”.

1 Müşriklər dəstə-dəstə gələrək həzrət Peyğəmbərin ətrafındakılar arasına qarışar, onun sözlərini dinləyib: “Əgər bunlar Muhamməndin dediyi kimi cənnətə gedəcəklərsə, şübhəsiz, biz onlardan əvvəl cənnətə gedərik”, – deyə istehza edirdilər.

5. Nuh belə dedi: "Ey Rəbbim! Həqiqətən, mən qövmümü gecə-gündüz (imana) dəvət etdim".

6. "Lakin mənim dəvətim sadəcə onların qaçışını artırdı".

7. "Şübhəsiz, sən onları bağışlayasan deyə mən hər dəfə onları dəvət edəndə barmaqların qulaqlarına tıxadılar, libaslarına büründülər, inanmamaqda inad etdilər və böyük bir təkəbbür göstərdilər".

8. "Sonra mən onları açıq dəvət etdim".

9. "Sonra onlarla həm açıq, həm də gizli danışdım".

10. "Dedim ki: "Rəbbinizdən bağışlanma diləyin, çünki O, çox bağışlayandır".

11. "(Bağışlanma diləyin ki,) üstünüzə göydən bol-bol yağmur endirsin".

12. "Sizi mallar və oğullarla dəstəkləsin və sizin üçün bağçalar var etsin, sizin üçün çaylar var etsin".

13. "Sizə nə olub ki, Allahın vüqarlı (əzəmətli) olduğuna ümid etmirsiniz?"

14. "Halbuki, O, sizi mərhələlərdən keçirərək yaratmışdır".

15. "Görmədinizmi Allah yeddi göyü təbəqə-təbəqə necə yaratmışdır?"

16. "Onların içində ayı necə bir işıq, günəşi də bir qəndil etmişdir?"

17. "Allah sizi (atanız Adəmi) yerdən (bitki bitirər kimi) bitirdi (yaratdı)".

18. "Sonra sizi yenə oraya qaytaracaq və mütləq, sizi (yenidən) çıxaracaqdır".

19, 20. "Allah yer üzünü sizin üçün döşədi ki, oradakı geniş yollarda yeriyəsiniz".

21. Nuh dedi ki: "Rəbbim! Həqiqətən, onlar mənə qarşı gəldilər, malı və övladı sadəcə öz ziyanını artıran kimsələrə tabe oldular".

22. "Bunlar da çox böyük bir tələ qurdular".

23. "Belə dedilər: "Əsla ilahlarınızı buraxmayın. Vəddi, Süvanı, Yəğusu, Yəuqu və Nəsri isə heç buraxmayın!"[1]

24. "Onlar, həqiqətən, bir çoxlarını sapdırdılar. (Rəbbim!) Sən də bu zalımların sadəcə sapqınlıqlarını artır".

25. Xətaları (küfr və üsyanları) səbəbi ilə suda boğuldular və cəhənnəmə atıldılar, özləri üçün Allahdan başqa yardımçılar tapa bilmədilər.

26. Nuh belə dedi: "Ey Rəbbim! Kafirlərdən heç kimi yer üzündə sağ buraxma!"

27. "Çünki sən onları sağ buraxsan, qullarını sapdırarlar, sadəcə əxlaqsız və kafir kimsələr yetişdirərlər".

28. "Rəbbim! Məni, ata-anamı, mömin olaraq evimə girənləri, iman edən kişiləri və iman edən qadınları bağışla. Zalımlarınsa ancaq həlakını artır!"

---

1 Vədd, Süva, Yəğus, Yəuq və Nəsr Nuh peyğəmbərin qövmünün tapındığı bütlərin adlarıdır.

# 72. CİN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 28 ayədən ibarətdir. Surədə əsasən cinlərdən bəhs edildiyi üçün Cin surəsi adlandırılmışdır. Surədə tövhid, peyğəmbərlik və öldükdən sonra dirilmə kimi məsələlərdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. (Ey Muhamməd!) De ki: "Mənə cinlərdən bir topluluğun (Qur`anı) dinləyib belə dedikləri vəhy olundu: "Şübhəsiz, doğru yola yönəldən heyranedici bir Qur`an dinlədik, ona inandıq. Artıq Rəbbimizə heç kimi əsla şərik qoşmayacağıq".

3. "Doğrusu, Rəbbimizin şanı çox ucadır. Nə bir zövcə götürmüş, nə də bir övlad".

4. "Doğrusu, bizim səfeh olanımız Allah haqqında həqiqətdən uzaq sözlər deyirmiş".

5. "Şübhəsiz, biz insanların və cinlərin Allah haqqında əsla yalan deməyəcəklərini zənn edirdik".

6. "Doğrusu, insanlardan bəziləri cinlərdən bəzilərinə sığınırdılar, cinlər onların azğınlıqlarını artırırdı".

7. "Həqiqətən, onlar da sizin sandığınız kimi Allahın heç kimi öldükdən sonra yenidən diriltməyəcəyini zənn etmişdilər".

8. "Şübhəsiz, biz göyə çatmaq istədik, lakin onu güclü gözətçilərlə və yandırıcı işıqlarla dolu gördük".

9. "Halbuki, biz (daha əvvəl) qeyb xəbərlərini dinləmək üçün göyün bəzi yerlərində otururduq. Lakin indi kim dinləməyə cəhd etsə, onu gözləyən yandırıcı bir işıq görər".

10. "Həqiqətən, biz bilmirik, yer üzündəkilərə pislik istənildi, yoxsa Rəbləri onlara xeyir dilədi?"

11. "Doğrusu, aramızda saleh olanlar da var, olmayanlar da. Ayrı-ayrı yollar tutmuşuq".

12. "Şübhəsiz ki, biz Allahı yer üzündə aciz qoya bilməyəcəyimizi, qaçaraq da Onu aciz qoya bilməyəcəyimizi anladıq".

13. "Həqiqətən, biz hidayət rəhbərini (Qur`anı) eşitdikdə ona inandıq. Kim Rəbbinə inanarsa, artıq nə haqqının əskik verilməsindən, nə də haqsızlığa məruz qalmaqdan qorxar".

14. "Şübhəsiz, aramızda müsəlman olanlar da var, haqq yoldan sapanlar da var. Kim müsəlman olarsa, onlar doğrunu axtarıb tapıblar".

15. "Haqq yoldan sapanlara gəlincə onlar cəhənnəmə odun olmuşlar".

16, 17. Yenə de ki: "Mənə həmçinin belə vəhy edildi: "Əgər yolda doğru olsalar, mütləq onlara bol yağmur yağdırarıq ki, bununla onları imtahan edək. Kim Rəbbinin Zikrindən (Qur`andan) üz döndərsə, Rəbbi onu get-gedə yüksələn bir əzaba düçar edər".

18. "Məscidlər Allaha (ibadət etməyə) məxsusdur. O halda (oralarda) Allaha ibadətlə yanaşı başqa kimsəyə ibadət etməyin".
19. "Allahın qulu (Muhammməd) ona ibadət etmək üçün qalxdığı zaman cinlər az qala (Qur`anı dinləmək üçün qələbəlikdən) onun ətrafında bir-birilərinə dolaşırdılar".
20. De ki: "Şübhəsiz, mən yalnız Rəbbimə ibadət edərəm və ona heç kimi şərik qoşmaram".
21. De ki: "Şübhəsiz, mən sizə nə zərər verə bilər, nə də fayda verə bilərəm".
22. De ki: "Həqiqətən, məni Allahdan heç kim qoruya bilməz və yenə əsla Ondan başqa sığınacaq kimsə də tapa bilmərəm".
23. "Sadəcə Allahdan gələnləri təbliğ edə bilərəm və Onun vəhylərini açıqlaya bilərəm. Kim Allaha və Rəsuluna qarşı gəlsə, şübhəsiz, onlar üçün içində əbədi qalacaqları cəhənnəm atəşi var".
24. Nəhayət, xəbərdar olunduqları şeyi gördükləri zaman kimin yardımçısı daha zəif, kimin sayı daha az imiş biləcəklər.
25. De ki: "Bilmirəm Sizə vəd olunan şey yaxındır, yoxsa Rəbbim ona uzun bir müddət qoyacaq".
26. O, qeybi biləndir. Qeybini heç kimə bildirməz.
27, 28. Ancaq seçdiyi rəsullar istisnadır. (Onlara bildirər.) Lakin O, Rəsulun önündə və arxasında gözətçi (mələk)lər yeridir ki, rəsulların Rəblərinin vəhylərini təbliğ etdiklərini bilsin. Allah onların hər halını əhatə etmiş və hər şeyi tək-tək saymışdır.

## 73. MÜZZƏMMİL SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 20 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Müzzəmmil" sözündən götürülmüşdür. Müzzəmmil örtünüb bürünən deməkdir. Surədə həzrət Peyğəmbərin ibadət həyatından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey örtünüb bürünən (Peyğəmbər)![1]
2, 3. Qalx, bir qismi xaric olmaqla gecəni, yarısını ibadətlə keçir. Yaxud bundan bir az azalt.
4. Yaxud buna bir az əlavə et. Qur`anı ağır-ağır tərtil ilə oxu.
5. Şübhəsiz, biz sənə (məsuliyyəti) ağır bir söz vəhy edəcəyik.
6. Şübhəsiz, gecə ibadətinin təsiri daha çox, (bu ibadətdəki) sözlər (Qur`an və dualar) isə daha düzgün və açıqdır.

1 Həzrət Peyğəmbər Hira mağarasında ibadətlə məşğul olarkən Cəbrail ona ilk vəhyi gətirmişdir. Həzrət Peyğəmbər o əsnada Cəbraili əsl surətində görmüş, çox həyəcanlanmış və qorxuya düşmüşdü. Evinə qayıdaraq zövcəsi həzrət Xədicəyə: "Zəmmiluni-Üstümü örtün", – demiş və bürünüb yatmışdı. Son ayə xaric, bu surə həmin hadisə haqqında nazil olmuşdur.

7. Çünki gündüz vaxtı uzun məşğuliyyətin var.
8. Rəbbinin adını an və bütün mənliyinlə Ona yönəl.
9. O, şərqin də, qərbin də Rəbbidir. Ondan başqa heç bir ilah yoxdur. Elə isə Onu vəkil tut.
10. Onların dediklərinə səbir et və onlardan gözəl bir şəkildə ayrıl.
11. Nemət içində üzən o inkarçıları mənə həvalə et və onlara bir az möhlət ver.
12, 13. Çünki bizim yanımızda (kafirlər üçün) buxovlar var, cəhənnəm var, boğazdan çətin keçən yeyəcəklər var və ağrılı-acılı bir əzab var.
14. Yerin və dağların sarsılacağı və dağların axıb gedən qum yığını olacağı günü (Qiyaməti) xatırla.
15. (Ey məkkəlilər!) Şübhəsiz, biz sizə barənizdə şahidlik edəcək bir peyğəmbər göndərdik. Necə ki, Firona da bir peyğəmbər göndərmişdik.
16. Amma Firon o peyğəmbərə üsyan etdi, biz də onu ağır bir şəkildə yaxaladıq.
17. Belə olduğu halda əgər inkar etsəniz, uşaqları ağ saçlı qocalara çevirəcək bir gündən (Qiyamətdən) necə qorunarsınız?
18. O gün göy (belə) yarılar, Allahın vədi gerçəkləşər.
19. Şübhəsiz, bunlar bir öyüddür. Kim istəsə, Rəbbinə aparan bir yol tutar.
20. (Ey Muhamməd!) Şübhəsiz, Rəbbin sənin gecənin üçdə ikisinə yaxın qismini, yarısını və üçdə birini ibadətlə keçirdiyini bilir. Səninlə birlikdə olanlardan bir dəstə də belə edir. Allah gecə və gündüzü nizamlayıb təqdir edər. Sizin buna (bütün gecə yaxud gecənin çox hissəsində ibadət etməyə) gücünüzün çatmayacağını bildi, sizi bağışladı (yükünüzü azaltdı). Artıq Qur`andan sizə asan gələni oxuyun. Allah aranızda xəstələrin olacağını, bəzilərinizin Allahın lütfündən ruzi axtarmaq üçün yer üzündə dolaşacağını, bəzilərinizin isə Allah yolunda vuruşacağını bilir. O halda Qur`andan sizə asan gələni oxuyun. Namazı qılın, zəkatı verin, Allaha gözəl bir borc verin. Özünüz üçün əvvəldən nə yaxşılıq göndərsəniz, onu Allah qatında üstün bir yaxşılıq və daha böyük mükafat olaraq görərsiniz. Allahdan bağışlanma diləyin. Şübhəsiz, Allah çox bağışlayandır, çox mərhəmət edəndir.

## 74. MÜDDƏSSİR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 56 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Müddəssir" sözündən götürülmüşdür. Müddəssir örtünüb bürünən deməkdir. Surədə başlıca olaraq həzrət Peyğəmbərin təbliğ və dəvətlə vəzifələndirilməsi, müşriklərin ona qarşı çıxması və onların cəhənnəmlə qorxudulmasından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ey örtünüb bürünən (Peyğəmbər)!
2. Qalx, xəbərdar et!

3. Rəbbini ucalt!
4. Nəfsini təmizlə![1]
5. Şirkdən uzaq dur![2]
6. Yaxşılığı, daha artığını gözləyərək (bir qazanc əldə etmək üçün) etmə!
7. Rəbbinin rizasına nail olmaq üçün səbir et!
8, 9. Sura üfürüldüyü zaman, bax o gün çətin bir gündür.
10. Kafirlər üçün heç asan deyil.
11. Məni yaratdığım adamla baş-başa burax!
12, 13. Ona bol sərvət və gözü önündə duran oğullar verdim.
14. Ona çox imkanlar verdim.
15. Sonra da o, hərisliklə daha da artırmağımı istəyər.[3]
16. Xeyr, umduğu kimi olmayacaq. Çünki o, bizim ayələrimizə qarşı inadkardır.
17. Mən onu dik bir yoxuşa sürəcəyəm.
18. Çünki o, düşündü və ölçdü-biçdi.
19. O öləsi necə ölçdü-biçdi!
20. Yenə o öləsi necə ölçdü-biçdi!
21. Sonra (Qur`an haqqında) dərin-dərin düşündü.
22. Sonra üzünü turşutdu, qaşlarını çatdı.
23, 24. Sonra arxasını döndü və təkəbbür göstərib belə dedi: "Bu, ancaq nəql edilən bir sehrdir".
25. "Bu, sadəcə insan sözüdür".
26. Mən onu Səqərə (cəhənnəmə) atacağam.
27. Səqərin nə olduğunu sən nə biləsən?
28. Geridə bir şey qoymaz, buraxmaz.
29. Dəriləri qovurar.
30. Üzərində on doqquz (vəzifəli mələk) var.
31. Biz cəhənnəmə ancaq mələkləri vəzifələndirdik. Onların sayını inkar edənlər üçün bir imtahan vəsiləsi etdik ki, kitab verilənlər yəqinliklə bilsinlər, iman edənlərin imanı artsın, kitab verilənlər və möminlər şübhəyə düşməsin, qəlblərində bir xəstəlik olanlarla kafirlər "Allah bu misalla nəyi murad etdi?" desinlər. Bax belə. Allah istədiyini sapdırar, istədiyini doğru yola yönəldər. Rəbbinin ordularını ancaq özü bilər. Bu, insanlar üçün sadəcə bir xəbərdarlıqdır.
32, 33, 34, 35, 36, 37. Xeyr (öyüd götürməzlər). Aya, çəkilib getdiyi zaman gecəyə, aydın-

1 Bu ayə "Paltarını təmizlə!" şəklində də tərcümə edilə bilər. Zahiri mənası da belədir.

2 Bu ayə "Pisliklərdən və günahdan uzaq dur!" şəklində də tərcümə edilə bilər.

3 Ayənin nüzul səbəbi olaraq öndə gələn müşriklərdən Vəlid ibn Müğirə göstərilir. Ancaq ayənin hökmü ümumidir.

latdığı zaman sübhə and olsun ki, o, (cəhənnəm) insan üçün; sizdən irəli keçmək yaxud geri qalmaq istəyənlər üçün xəbərdarlıq olaraq, əlbəttə, ən böyük şeydir.

38. Hər kəs qazandığı qarşılığında girovdur.

39. Ancaq axirət səadətinə qovuşanlar istisnadır.[1]

40, 41, 42. Onlar cənnətlərdədirlər. Bir-birilərindən günahkarlar haqqında suallar soruşarlar və dönüb onlara belə deyərlər: "Sizi Səqərə (cəhənnəmə) nə saldı?"

43. Onlar belə deyərlər: "Biz namaz qılanlardan deyildik".

44. "Yoxsulu yedirməzdik".

45. "Batilə dalanlarla birlikdə biz də dalardıq".

46. "Cəza gününü də inkar edərdik".

47. "Nəhayət, ölüm gəlib bizə çatdı".

48. Artıq şəfaətçilərin şəfaəti onlara fayda verməz.

49. Belə olduğu halda onlara nə olub ki, öyüddən üz çevirirlər?

50, 51. Onlar sanki aslandan qaçan vəhşi eşşəklərdir.

52. Hətta onlardan hər biri özünə açılmış səhifələr verilməsini istəyir.

53. Xeyr, xeyr! Onlar axirətdən qorxmurlar.

54. Xeyr, düşündükləri kimi deyil! Şübhəsiz, bu, (Qur`an) bir xəbərdarlıqdır.

55. Artıq kim istərsə, ondan öyüd götürər.

56. Bununla yanaşı, Allah istəmədikcə öyüd götürə bilməzlər. O, təqvaya (Özünə qarşı gəlməkdən çəkinilməyə) layiq olandır, bağışlamağa layiq olandır.

## 75. QİYAMƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 40 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Qiyamə" sözündən götürülmüşdür. Surədə başlıca olaraq öldükdən sonra dirilmə və cəza, ölüm əsnasında insanın halı və kafirlərin axirətdə qarşılaşacağı çətinliklərdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Qiyamət gününə and içirəm.

2. (Qüsurları səbəbi ilə özünü) qınayan nəfsə də and içirəm (ki, dirildilib hesaba çəkiləcəksiniz).

3. Məgər insan onun sümüklərini bir yerə toplaya bilməyəcəyimizi hesab edir?

4. Bəli, biz onun barmaq uclarını belə düzəltməyə qadirik.[2]

---

1 Bu ayə "Ancaq əməl dəftərləri sağdan verilənlər istisnadır" şəklində də tərcümə edilə bilər.

2 Digər canlılarla müqayisədə insanın əl və barmaqları daha mükəmməldir. Barmaq izlərinin bütün insanlarda bir-birindən fərqli olduğu nəzərə alındıqda ayədə vurğulanan məqamın əhəmiyyəti daha yaxşı başa düşülər.

5. Lakin insan önünü (gələcəyini, qiyaməti) inkar etmək istəyər.[1]
6. "O qiyamət günü nə zamandır?" – deyə soruşar.
7, 8, 9, 10. Gözlərin qamaşdığı, ayın qaranlığa qərq olduğu, günəş və ayın bir yerə gətirildiyi zaman, o gün insan "Qaçacaq yer haradır?" deyəcək.
11. Xeyr, sığınacaq heç bir yer yoxdur.
12. O gün duracaq yer sadəcə Rəbbinin hüzurudur.
13. O gün insana edib əvvəlcədən göndərdiyi və etməyib geridə qoyduğu şeylər xəbər verilər.
14, 15. Hətta üzrxahlıq etsə də o gün insan öz əleyhinə şahiddir.
16. (Ey Muhamməd!) Onu (vəhyi) tələsik almaq üçün dilini tərpətmə!
17. Şübhəsiz, onu cəm etmək və oxumaq bizə aiddir.
18. O halda, biz onu oxuduğumuz zaman onun oxunuşunu izlə!
19. Sonra onu açıqlamaq da bizə aiddir.
20, 21. Xeyr! Siz dünyanı sevirsiniz və axirəti buraxırsınız.
22. O gün bəzi üzlər parlaqdır.
23. Rəblərinə baxarlar.
24. O gün bəzi üzlər də tutqundur.
25. Bel sümüklərini qıracaq bir fəlakətə düçar olacaqlarını anlayarlar.
26, 27, 28, 29, 30. Xeyr, can boğaza çatanda, "(Bunu) yaxşı edəcək kimdir?" – deyiləndə, (ölüm ayağında olanın) bunun ayrılıq olduğunu biləndə, ayaqlar bir-birinə dolaşanda, bax o gün sövq Rəbbinədir.
31. O (Peyğəmbəri) təsdiq etməmiş, namaz da qılmamışdı.
32. Lakin inkar etmiş və üz çevirmişdi.
33. Sonra isə qürrələnərək ailəsinin yanına getmişdi.
34, 35. "Bu əzab sənə layiqdir, layiq! Bəli, layiqdir sənə, layiq!" – deyiləcək.
36. İnsan özünün başlı-başına buraxılacağını zənn edir?
37. O, tökülən mənidən ibarət az bir su deyildimi?
38. Sonra bu, bir "ələqə"[2] oldu. Sonra onu yaradıb gözəl surət verdi.
39. Nəhayət, ondan da erkək və dişi cütü yaratdı.
40. Elə isə bunları edən Allahın ölüləri diriltməyə gücü çatmazmı?!

1 Ayə "Lakin insan gələcəkdə də pislik etməyə davam etmək istəyər" şəklində də tərcümə edilə bilər.

2 Ələqə kişinin sperması ilə mayalanmış dişi yumurtadan bir həftə ərzində yaranan hüceyrə topluluğunun rəhmin divarından asılıb yapışmış şəkli deməkdir.

# 76. İNSAN SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 31 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "insan" sözündən götürülmüşdür. Həmin ayədə keçən "əd-Dəhr" sözünə görə Dəhr surəsi olaraq da adlandırılır. Dəhr zaman deməkdir. Surədə başlıca olaraq axirət həyatı ilə bağlı məsələlər və xüsusilə, təqva sahiblərinin cənnətdə əldə edəcəkləri növbənöv nemətlərdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. İnsan (hələ) xatırlanmağa layiq bir şey deyilkən (yaradılmazdan əvvəl) üzərindən uzun bir zaman keçdi.[1]
2. Şübhəsiz, biz insanı qarışıq bir sudan (mənidən) yaratdıq və onu imtahan edəcəyik. Bu səbəblə onu eşidən və görən olaraq yaratdıq.
3. Şübhəsiz, biz onu (ömür boyu yeriyəcəyi) yola qoyduq. O, bu yolu ya şükür edərək, ya da nankorluq edərək qət edər.
4. Şübhəsiz, biz kafirlər üçün zəncirlər, dəmir halqalar və alovlu bir atəş hazırladıq.
5. Yaxşılar isə kafur qatılmış içkilər dolusu bir qədəhdən içərlər.
6. Bir bulaq ki, Allahın qulları ondan içər, onu (istədikləri kimi) axıdarlar.
7. O qullar nəzirlərini yerinə yetirərlər. Dəhşəti hər yanı bürüyən bir gündən qorxarlar.
8. Onlar yeyəcəyi yoxsula, yetimə və əsirə sevə-sevə yedirərlər.
9. (Yedirdikləri kimsələrə belə deyərlər:) "Biz sizi sırf Allah rizası üçün yediririk. Sizdən bir qarşılıq və bir təşəkkür gözləmirik".
10. "Çünki biz sərt üzlü, çətin bir gündən (o günün əzabı səbəbi ilə) Rəbbimizdən qorxarıq".
11. Allah da onları o günün dəhşətindən qoruyar və üzlərinə bir aydınlıq və içlərinə bir sevinc verər.
12. Səbir etdiklərinə görə də onları cənnət və ipək (dən libaslar) ilə mükafatlandırar.
13. Orada taxtlar üzərinə söykənərlər. Orada nə günəş (qovurucu istilik) görərlər, nə də dondurucu soyuq.
14. Üstlərinə cənnətin kölgələri düşmüş, cənnətin meyvələri (asanlıqla dəriləcək şəkildə) yaxınlaşdırılaraq hazırlanmışdır.
15. Ətraflarında gümüş qablar, şəffaf qədəhlər gəzdirilər.
16. Gümüşdən büllur qablar ki, onları (ehtiyaca görə) ölçüb düzəltmişlər.[2]
17. Orada onlara zəncəfil qatılmış içki dolusu bir qədəhdən içirilər.

---

1 İnsan kainatın yaradılmasından çox sonra yaradılmışdır. Kainatın yaradılmasından insanın yaradılmasına qədər uzun bir müddət keçmişdir. Bu müddət ərzində insan hələ yox idi, adı-sanı bilinmirdi. Ehtimal ki, ayədə bu gerçəyə işarə edilir.

2 Cənnət həyatı ilə oradakı sonsuz nemətlərin dünya şərtləri və insan zehninin ölçüləri ilə tam olaraq izah edilməsi mümkün deyil. Qur`an cənnət həyatını insan zehninə yaxınlaşdırmaq üçün dünya həyatındakı

18. Orada bir bulaq ki, ona səlsəbil adı verilər.
19. Ətraflarında gördüyün zaman saçılmış incilər sanacağın həmişəlik gənc və gözəl qalacaq xidmətçilər dolanar.
20. Orada haraya baxsan (sonsuz) nemətlər və böyük bir mülk (hökmranlıq) görərsən.
21. Əyinlərində incə və qalın ipəkdən yaşıl libaslar var. Gümüş bilərziklərlə bəzənəcəklər. Rəbləri onlara tərtəmiz bir içki içirəcək.
22. Onlara belə deyiləcək: "Şübhəsiz, bu, sizin üçün bir mükafatdır. Çalışma və səyiniz məqbuldur".
23. Şübhə yoxdur ki, Qur`anı sənə, əlbəttə, biz endirdik, biz!
24. O halda, Rəbbinin hökmünə səbir et! Onlardan heç bir günahkara və heç bir nankora itaət etmə!
25. Səhər-axşam Rəbbinin adını zikr et!
26. Gecənin bir qismində Ona səcdə et, gecə vaxtı Onu uzun-uzun təsbih et!
27. Bunlar (inanmayanlar) dünyanı sevirlər və çətin bir günü isə geriyə atırlar.
28. Onları biz yaratdıq və oynaqlarını (bir-birinə) biz bağladıq. İstədiyimiz zaman (onları yox edər) yerlərinə bənzərlərini gətirərik.
29. Bu, bir öyüddür. İstəyən Rəbbinə aparan bir yol tutar.
30. Allah istəmədikcə siz istəyə bilməzsiniz.[1] Şübhəsiz, Allah haqqı ilə biləndir, hökm və hikmət sahibidir.
31. Dilədiyi kimsəyə rəhmət edər. Zalımlara isə ağrılı-acılı bir əzab hazırlamışdır.

## 77. MÜRSƏLAT SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 50 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Mürsəlat" sözündən götürülmüşdür. Mürsəlat göndərilənlər deməkdir. Surədə başlıca olaraq qiyamət, hesab və əzabın gerçəkləşəcəyindən, Allahın qüdrəti və günahkarların aqibətindən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2, 3, 4, 5, 6, 7. Ard-arda göndərilənlərə, qasırğa kimi əsənlərə, haqqı ilə yayanlara, haqqı ilə ayıranlara, üzrxahlıq ya da xəbərdarlıq olaraq öyüd verənlərə and olsun ki, sizə vəd olunan (qiyamət) mütləq, gerçəkləşəcək.
8. Ulduzların işığı söndürüldüyü zaman,

---

varlıqlardan istifadə edir. İbn Abbas: "Cənnətdəki nemətlərlə dünyadakılar arasında adlarından başqa bir bənzərlik yoxdur", – deyərək bunu ifadə etmək istəmişdir.

1 Allah insana azad iradə verməsəydi, insan bir şey istəyə bilməz, iradə sahibi olmazdı. Lakin Allah insanın azad iradə sahibi olmasını istəmişdir və insan istəyə bilmə xüsusiyyətinə sahibdir.

9. Göy yarıldığı zaman,
10. Dağlar ovxalanıb sovrulduğu zaman,
11. Peyğəmbərlər üçün (ümmətlərinə şahid etmək üzrə) vaxt təyin olunduğu zaman (qiyamət gerçəkləşər).
12. (Bu,) hansı günə təyin olunmuşdur?
13. Hökm və ayırma gününə.
14. Hökm və ayırma gününü sən nə biləsən?
15. O gün vay inkar edənlərin halına!
16. Biz öncəkiləri həlak etmədikmi?
17. Sonra arxadan gələnləri də onların ardınca göndərəcəyik.
18. Biz günahkarlara bax belə edərik!
19. O gün vay inkar edənlərin halına!
20. Biz sizi adi bir sudan (mənidən) yaratmadıqmı?
21, 22. Sonra onu müəyyən bir vaxta qədər möhkəm bir yerdə (ana rəhmində) saxladıq.
23. Sonra da ona ölçülü bir biçim verdik. Biz nə gözəl biçim verənlərik!
24. O gün vay inkar edənlərin halına!
25, 26. Biz yer üzünü diriləri də, ölüləri də toplayan (bir yurd) etmədikmi?
27. Orada sabit uca dağlar yaratmadıqmı, sizə şirin bir su içirmədikmi?
28. O gün vay inkar edənlərin halına!
29. Onlara belə deyiləcək: "İnkar etdiyiniz şeyə (cəhənnəm əzabına) gedin".
30, 31. "Üç qola ayrılmış kölgəyə gedin ki, o nə kölgə salar, nə də alovdan qoruyar".
32. Şübhəsiz, cəhənnəm hər biri saray böyüklüyündə qığılcımlar saçar.
33. Bunlar sanki hər biri bir qırmızı dəvədir.
34. O gün vay inkar edənlərin halına!
35. Bu, danışa bilməyəcəkləri gündür.
36. Onlara izin də verilməz ki, üzr istəsinlər.
37. O gün vay inkar edənlərin halına!
38. Bu, hökm və ayrılma günüdür. Sizi və əvvəlkiləri bir yerə toplamışıq.
39. Əgər bir tələniz varsa, mənə tələ qurun!
40. O gün vay inkar edənlərin halına!
41. Allaha qarşı gəlməkdən çəkinənlər kölgələr içində və bulaq başlarındadırlar.
42. Ürəklərinin istədiyi meyvələr içərisindədirlər.
43. Etdiklərinizin qarşılığı olaraq nuşcanlıqla yeyin, için.
44. Şübhəsiz, biz yaxşılıq edənləri belə mükafatlandırarıq.
45. O gün vay inkar edənlərin halına!

46. Ey inkar edənlər! (Dünyada) yeyin və bir az faydalanın! Şübhəsiz, siz günahkarlarsınız.
47. O gün vay inkar edənlərin halına!
48. Onlara "Rüku edin (namaz qılın)" deyildikdə rüku etməzlər.
49. O gün vay inkar edənlərin halına!
50. Onlar artıq ondan (Qur`andan) sonra hansı sözə inanacaqlar?

## 78. NƏBƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 40 ayədən ibarətdir. Surənin adı 2-ci ayədə keçən "ən-Nəbə" sözündən götürülmüşdür. Nəbə xəbər deməkdir. Surədə ölümdən sonrakı həyatın varlığının isbatı çərçivəsində qiyamət, ölümdən sonra dirilmə və haqq-hesab üçün toplanma kimi mövzulardan bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Bir-birilərindən nəyi soruşurlar?
2, 3. Haqqında ixtilafa düşdükləri böyük xəbərimi?
4. Xeyr, yaxında biləcəklər.
5. Yenə xeyr, yaxında biləcəklər.
6, 7. Biz yer üzünü bir döşək, dağları da bir dirək olaraq yaratmadıqmı?
8. Sizi (kişi-qadın) cütlər olaraq yaratdıq.
9. Yuxunuzu bir dincəlmə (səbəbi) etdik.
10. Gecəni (sizi örtən) bir libas etdik.
11. Gündüzü isə dolanışıq əldə etmə vaxtı etdik.
12. Üstünüzə yeddi möhkəm göy bina etdik.
13. Alov-alov yanan işıq saçan və istilik yayan bir çıraq yaratdıq.
14, 15, 16. Dənlər, bitkilər, sarmaşıq bağlar yetişdirək deyə yağmur dolu buludlardan şırıl-şırıl yağmur yağdırdıq.
17. Şübhəsiz, hökm və ayırma günü müəyyən olunmuş bir vaxtdır.
18. Bu, sura[1] üfürüləcəyi gün gerçəkləşər və siz dəstə-dəstə gələrsiniz.
19. Göy açılar və qapı-qapı olar.
20. Dağlar hərəkət etdirilər, sərab halına gələr.
21, 22, 23. Şübhəsiz, cəhənnəm bir gözətləmə yeridir. Azğınlar üçün içində çağlar boyu qalacaqları bir dönüş yeridir.
24. Orada nə bir sərinlik, nə də içəcək bir şey dadacaqlar.

1 Sur üfürülməsi ilə qiyamətin qopacağı, mahiyyəti bilinməyən bir növ boru deməkdir.

25, 26. Ancaq uyğun bir cəza olaraq qaynar su və irin içəcəklər.

27. Çünki onlar hesaba çəkilməyi ümid etmirdilər.

28. Ayələrimizi də o ki var, inkar etmişdilər.

29. Biz isə hər şeyi bir kitabda (Lövhi-məhfuzda) tamamilə sayıb qeyd etdik.

30. Kafirlərə belə deyilər: "İndi dadın. Artıq bundan sonra yalnız əzabınızı artıracağıq".

31, 32, 33, 34. Şübhəsiz, Allaha qarşı gəlməkdən çəkinənlər üçün bir qurtuluş, bağçalar, üzümlər, özləri ilə həmyaşıd, sinələri çıxmış gənc qızlar və dolu-dolu qədəhlər var.

35. Onlar orada nə bir boş söz eşidərlər, nə də bir yalan.

36, 37, 38. Bunlar onlara Rəbbindən, göylərin, yerin və ikisi arasındakıların Rəbbindən, Rəhmandan bir mükafat, yetərli bir ehsan olaraq verilmişdir. Onlar Ruhun (Cəbrailin) və mələklərin səf duracaqları gün Allaha heç bir söz deyə bilməyəcəklər. Sadəcə Rəhmanın izin verəcəyi və doğrunu deyəcək kimsələr danışa biləcəkdir.

39. Bax bu, haqq olan gündür. Artıq istəyən Rəbbinə doğru bir yol tutar.

40. Şübhəsiz, biz sizi insanın öncədən əlləri ilə etdiklərinə baxacağı və inkarçının: "Kaş torpaq olaydım!" – deyəcəyi gündə baş verəcək yaxın bir əzab haqqında xəbərdar etdik.

## 79. NAZİAT SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 46 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "ən-Naziat" sözündən götürülmüşdür. Naziat burada "ruhları çəkib alan mələklər" deməkdir. Surədə başlıca olaraq tövhid, peyğəmbərlik, öldükdən sonra dirilmək və hesab kimi mövzulardan bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. And olsun, şiddətlə çəkib çıxaranlara.

2. And olsun, asanlıqla çəkib çıxaranlara.

3. And olsun, üzüb gedənlərə.

4. Beləliklə, önə keçənlərə.

5. Nəhayət, işi idarə edənlərə (ki, mütləq yenidən dirildiləcəksiniz).[1]

6, 7. Böyük bir sarsıntının baş verəcəyi o gündə o sarsıntını ardından gələn başqa bir sarsıntı təqib edəcək.

---

1 Səhabə, tabiun və daha sonrakıların əksəriyyətinə görə, bu ayələrdə qeyd olunan işləri görənlərin mələklər olduğu bildirildiyi kimi, ölüm, üfüqdən üfüqə gedən ulduzlar olduqları da bildirilmişdir. Bundan başqa bunların düşmənlə savaşan qazilər yaxud onların atları olduqları şəklində izahlar da var.

Ayələrdə görüldüyü bildirilən işlər isə əsasən insanların canlarını almaq şəklində izah olunmuşdur. Təbəri kimi bu işlərin ayələrin bütünlüyü çərçivəsində başa düşülmələrinin daha uyğun olacağını, uyğun olan hər cür mənanın bunlara aid edilə biləcəyini söyləyənlər də olmuşdur.

8. O gün bəzi qəlblər (əndişə içində) şiddətlə döyünəcək.
9. Onların gözləri (qorxu ilə) aşağı dikiləcək.
10. Belə deyərlər: "Biz, həqiqətən, əvvəlki halımıza qaytarılacağıq?"
11. "Özü də biz çürümüş sümüklərə döndükdən sonra?"
12. "Elə isə bu, ziyanlı bir dönüşdür", – dedilər.
13. Halbuki o, bir hayqırtıdan (Surun üfürülməsindən) ibarətdir.
14. Birdən-birə özlərini məhşərdə görərlər.
15. (Ey Muhamməd!) Musanın xəbəri sənə gəldimi?
16. Bir vaxt Rəbbi ona müqəddəs Tuva vadisində belə səslənmişdi:
17. "Firona get! Çünki o azmışdır".
18. "Ona de ki: "(Küfr və üsyankarlıqdan) təmizlənmək istəyərsənmi?
19. "Səni Rəbbinə yönəldim, Ona qarşı dərin ehtiram duyub qorxasan!"
20. Musa ona ən böyük möcüzəni göstərdi.
21. Lakin o, Musanı inkar etdi və asi oldu.
22. Sonra arxa çevirib tələsik getdi.[1]
23. Dərhal (adamlarını) topladı və onlara səsləndi:
24. "Mən sizin ən uca rəbbinizəm!" – dedi.
25. Allah onu ibrətamiz şəkildə dünya və axirət cəzası ilə cəzalandırdı.
26. Şübhəsiz, Allahdan qorxub çəkinənlər üçün bunda böyük bir ibrət var.
27. (Ey inkar edənlər!) Sizi yaratmaq daha çətindir yoxsa göyü yaratmaq? Allah onu bina etmişdir.
28. Onu yüksəltmiş, ona nizam və ahəng vermişdir.
29. O, göyün gecəsini qaranlıq etdi, işığını da (ortaya) çıxardı.[2]
30. Ardından yeri düzəldib döşədi.
31. Ondan suyunu və otlağını çıxardı.
32. Dağları möhkəm bir şəkildə yerləşdirdi.
33. Bunları həm sizin üçün, həm də heyvanlarınız üçün istifadə mənbəyi etdi.
34, 35. Ən böyük fəlakət (qiyamət) gəldiyi zaman, o gün insan etdiklərini xatırlayar.
36. Cəhənnəm görənlər üçün açıq-aydın göstərilər.
37, 38, 39. Kim azğınlıq edər və dünya həyatını üstün tutarsa, şübhəsiz, cəhənnəm onun sığınacağıdır.
40, 41. Kim də Rəbbinin hüzurunda duracağından qorxar və nəfsini arzularından uzaq tutarsa, şübhəsiz, cənnət onun sığınacağıdır.

---

1 Ayə "Sonra da arxa çevirib qaçaraq getdi" şəklində də tərcümə edilə bilər.

2 Ayədə kainatda qaranlığın əsas, aydınlığın isə günəş və bənzəri işıq mənbələrinə bağlı olan müvəqqəti bir hal olduğuna işarə edilir.

42. Səndən qiyamətin nə zaman qopacağını soruşurlar.
43. Sən hara, onu bilib söyləmək hara?
44. Onun bilgisi sadəcə Rəbbinə aiddir.
45. Sən sadəcə ondan qorxanları xəbərdar edənsən.
46. Qiyaməti gördükləri gün onlar sanki dünyada sadəcə bir axşam, yaxud bir səhər vaxtı qədər qalmış kimidirlər.

## 80. ƏBƏSƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 42 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əbəsə" feilindən götürülmüşdür. Əbəsə "üzünü turşutdu" deməkdir. Surədə başlıca olaraq etiqad, peyğəmbərlik və axirətdən bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Yanına o kor gəldi deyə Peyğəmbər üzünü turşutdu və çevrildi.[1]
3. (Ey Muhamməd!) Nə bilirsən, bəlkə də o təmizlənəcək.
4. Yaxud öyüd götürəcək, bu öyüd ona fayda verəcək.
5. Özünü möhtac hiss etməyənə gəlincə,
6. Sən ona yönəlirsən.
7. (Əgər istəmirsə,) onun təmizlənməsindən sənə nə!
8, 9, 10. Allaha qarşı dərin bir ehtiramla qorxu içində qaçaraq sənin yanına gələni isə buraxıb, onunla maraqlanmırsan.
11. Xeyr, belə etmə! Çünki bu (Qur`an) bir öyüddür.
12. İstəyən ondan öyüd götürər.
13, 14, 15, 16. O, şərəfli və sadiq yazıcı mələklərin əlindəki yüksək, tərtəmiz və çox dəyərli səhifələrdədir.
17. Öləsi (inkarçı) insan! Necə də nankordur o!
18. Allah onu nədən yaratdı?
19. Az bir sudan (mənidən). Onu yaratdı və ona biçim verdi.
20. Sonra ona yolu asanlaşdırdı.
21. Sonra onu öldürdü və qəbrə qoydu.
22. Sonra istədiyi zaman onu dirildər.
23. Xeyr, xeyr, o, Allahın ona əmr etdiyini yerinə yetirmədi. (İman etmədi.)

1 Həzrət Peyğəmbər İslam haqqında məlumat almağa gələn kibirli bəzi müşrik liderlərlə görüşdüyü əsnada səhabələrdən gözləri görməyən Abdullah ibn Ümmi Məktum gələrək: "Ey Allahın rəsulu, mənə öyüd ver", – demişdi. Həzrət Peyğəmbər çox məşğul olduğu üçün üzünü turşudub ondan çevrilmiş, yanındakıları dinləməyə davam etmişdi. Bu surə həmin hadisə ilə əlaqədar nazil olmuşdur.

24. Hər şeydən əvvəl insan yediyi yeməyinə bir baxsın!
25. Həqiqətən, biz yağmuru bol-bol yağdırdıq.
26. Sonra torpağı yaxşıca yardıq.
27, 28, 29, 30, 31, 32. Beləliklə, sizin və heyvanlarınızın faydalanması üçün orada dənlər, üzümlər, yoncalar, zeytunlar, xurmalıqlar, sıx ağaclı bağçalar, meyvələr və otlaqlar ərsəyə gətirdik.
33, 34, 35, 36, 37. İnsanın qardaşından, anasından, atasından, zövcəsindən və övladlarından qaçacağı gün qulaqları kar edərcəsinə şiddətli səs gəldiyi zaman, bax o gün onlardan hər kəsin özünü məşğul edəcək bir işi var.
38. O gün bəzi üzlər var ki, parlayarlar.
39. Gülərlər, sevinərlər.
40. O gün neçə-neçə üzlər də var ki, toz torpaq içindədirlər.
41. Onları bir qaralıq bürüyər.
42. Bax onlar kafirlərdir, günaha batanlardır.

## 81. TƏKVİR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 29 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "kuvvirat" feilinin məsdərindən götürülmüşdür. Təkvir bükmək deməkdir. Surədə başlıca olaraq qiyamət, vəhy və peyğəmbərlik mövzularından bəhs olunur.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Günəş büküldüyü zaman,
2. Ulduzlar bulanıb söndüyü zaman,
3. Dağlar yeridildiyi zaman,
4. Boğaz dəvələr başlı-başına buraxıldığı zaman,[1]
5. (Böyük, kiçik) bütün vəhşi heyvanlar toplandığı zaman,
6. Dənizlər qaynadıldığı zaman,
7. Ruhlar (bədənlərlə) birləşdirildiyi zaman,[2]
8, 9. Diri-diri basdırılan qız uşağının hansı günahdan ötrü öldürüldüyü soruşulduğu zaman,
10. Əməl dəftərləri açıldığı zaman,
11. Göy (yerindən) sıyrılıb qoparıldığı zaman,

---

1 Qur`anın ilk xitab etdiyi cəmiyyətdə boğaz dəvələr ən qiymətli mallar idi və onlara gözləri kimi baxırdılar. Ayədə qiyamət gününün dəhşəti içində insanların ən qiymətli mallarını belə tərk edəcəklərinə işarə olunur.

2 Bu ayə "Nəfslər cütləşdirildiyi (yaxşılar yaxşılarla, pislər pislərlə bir yerə toplandığı) zaman" şəklində də tərcümə edilə bilər.

12. Cəhənnəm alovlandırıldığı zaman,
13. Cənnət yaxınlaşdırıldığı zaman,
14. Hər kəs əvvəldən hazırlayıb gətirdiyi şeyləri biləcək.
15, 16. And olsun, bir görünüb bir gizlənənlərə, axıb gözdən itənlərə,
17. And olsun, yönəldiyi zaman gecəyə,
18. And olsun, aydınlandığı zaman səhərə ki,
19, 20, 21. O (Qur`an), şübhəsiz, dəyərli, güclü və ərşin sahibi qatında etibarlı, orada (mələklər tərəfindən) itaət edilən, güvənilən bir elçinin (Cəbrailin) gətirdiyi sözdür.
22. (Ey qüreyşlilər!) Sizin yoldaşınız (Muhamməd) bir dəli deyil.
23. And olsun ki, o, Cəbraili açıq-aydın üfüqdə gördü.
24. O, qeyb haqqında xəsis deyil.[1]
25. Qur`an qovulmuş şeytanın sözü deyil.
26. (Hal belə ikən) hara gedirsiniz?
27, 28. O, aləmlər üçün, sizdən dürüst olmaq istəyənlər üçün ancaq bir öyüddür.
29. Aləmlərin Rəbbi olan Allah istəmədikcə siz istəyə bilməzsiniz.[2]

## 82. İNFİTAR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 19 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "infətarat" feilinin məsdərindən götürülmüşdür. İnfitar yarılmaq deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Göy yarıldığı zaman,
2. Ulduzlar səpələndiyi zaman,
3. Dənizlər qaynadıldığı zaman,
4. Qəbirlərdəkilər çıxarıldığı zaman,
5. Hər kəs etdiyi və etmədiyi şeyləri biləcək.
6, 7, 8. Ey insan! Səni xəlq edən, sənə surət verib ölçülü edən, səni istədiyi biçimdə yaradan kərəm sahibi Rəbbinə qarşı səni nə aldatdı?
9. Xeyr, xeyr! Siz hesab və cəzanı inkar edirsiniz.
10, 11. Halbuki, üzərinizdə, əlbəttə, gözətçilər, dəyərli yazanlar var.
12. Onlar etdiklərinizi bilirlər.

---

1 Ayədə həzrət Peyğəmbərin vəhy yolu ilə aldığı bilgiləri heç bir şey gizləmədən olduğu kimi təbliğ etdiyi ifadə edilir.

2 Allah insana azad iradə verməsəydi, insan bir şey istəyə bilməz, iradə sahibi olmazdı. Lakin Allah insanın azad iradə sahibi olmasını istəmişdir və insan istəyə bilmə xüsusiyyətinə sahibdir.

13. Şübhəsiz, yaxşılar Nəim cənnətindədirlər.
14. Şübhəsiz, günahkarlar isə cəhənnəmdədirlər.
15. Hesab və cəza günü oraya girəcəklər.
16. Onlar oradan yox olub qurtulacaq deyillər.
17. Hesab və cəza gününün nə olduğunu sən nə biləsən?
18. Bəli, hesab və cəza gününün nə olduğunu sən nə biləsən?
19. O gün heç kəs heç kəsə bir xeyir verə bilməyəcək. O gün əmr sadəcə Allahındır.

## 83. MÜTƏFFİFİN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 36 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Mütəffifin" sözündən götürülmüşdür. Mütəffifin ölçü və çəkidə hiylə edənlər deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Ölçüdə və çəkidə hiylə edənlərin vay halına!
2. Onlar insanlardan (bir şey) ölçüb aldıqları zaman tam ölçərlər.
3. Lakin özləri onlara bir şey ölçüb yaxud çəkib verdikləri zaman əskik ölçərlər.
4, 5, 6. Onlar böyük bir gün, insanların aləmlərin Rəbbinin hüzurunda duracaqları gün üçün diriltiləcəklərini düşünmürlərmi?
7. Xeyr, günahkarların yazısı, şübhəsiz, Siccindədir.
8. Siccinin nə olduğunu sən nə biləsən?
9. O, yazılmış bir kitabdır.
10, 11. O gün inkar edənlərin, hesab və cəza gününü yalan sayanların vay halına!
12. Onu ancaq hər azğın, günahkar kimsə inkar edər.
13. Ona ayələrimiz oxunduqda: "Əvvəlkilərin nağılları", – deyər.
14. Xeyr, xeyr! Doğrusu, onların qazandıqları qəlblərini paslandırmışdır.
15. Xeyr, şübhəsiz, onlar qiyamət günü Rəblərini görməkdən məhrum ediləcəklər.
16. Sonra onlar mütləq cəhənnəmə girəcəklər.
17. Sonra da onlara: "İnkar etdiyiniz bax budur!" – deyiləcək.
18. Xeyr (güman etdikləri kimi deyil!), yaxşıların yazısı İlliyyundadır.
19. İlliyyunun nə olduğunu sən nə biləsən?
20. O, yazılmış bir kitabdır.
21. Ona Allaha yaxın olanlar şahid olarlar.
22. Şübhəsiz, yaxşı kimsələr Nəim cənnətindədirlər.
23. Taxtlar üstündə (ətrafı) seyr edərlər.

24. Onların üzlərində nemətlərin sevincini görərsən.
25. Onlara möhürlü (əl dəyməmiş) saf bir içki içirilər.
26. Onun (içilməsinin) sonu bir müşkdür (ağızda müşk qoxusu buraxır). Yarışanlar bunun üçün yarışsınlar.[1]
27. O içkiyə təsnim qatılmışdır.
28. Bir bulaq ki, Allaha yaxın olanlar ondan içərlər.
29. Şübhəsiz, günahkarlar (dünyada) iman edənlərə gülürdülər.
30. Möminlər yanlarından keçəndə bir-birilərinə qaş-göz edərək onları ələ salırdılar.
31. Ailələrinin yanına qayıdarkən zövq və sevinc içində gülüşərək qayıdırdılar.
32. Möminləri gördükləri zaman: "Şübhəsiz, bunlar sapqın kimsələrdir", – deyirdilər.
33. Halbuki, onlar möminlərin başına gözətçi olaraq göndərilməyib.
34. Bu gün isə möminlər kafirlərə gülərlər.
35. Taxtlar üzərində (ətrafı) seyr edərlər.
36. Necə, kafirlər etdiklərinin qarşılığını gördülərmi?

## 84. İNŞİQAQ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 25 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "inşəqqa" feilinin məsdəri olan "İnşiqaq" sözündən götürülmüşdür. İnşiqaq yarılmaq deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Göy yarıldığı və Rəbbinə boyun əydiyi zaman – ki, ona yaraşan budur – ,
3, 4. Yer uzadılıb dümdüz edildiyi və içindəkiləri atıb boşaldığı zaman,
5. Rəbbini dinlədiyi zaman – ki, ona yaraşan da budur – (insan etdiklərini qarşısında görər!)
6. Ey insan! Şübhəsiz, sən Rəbbinə (qovuşana qədər) çalışıb çapalayacaq və axırda səyinin qarşılığına qovuşacaqsan.
7. Kimə kitabı sağından verilərsə,
8. Hesabı çox asan olacaq.
9. Sevincli halda ailəsinin yanına qayıdacaq.
10. Lakin kimə kitabı arxasından verilərsə,
11, 12. "Həlak!" – deyə bağıracaq və alovlu atəşə girəcək.
13. Çünki o, (dünyada ikən) ailəsi içində sevincli idi.
14. Çünki o, Rəbbinə qayıtmayacağını zənn edirdi.
15. Xeyr! Düşündüyü kimi deyil! Şübhəsiz, Rəbbi onu görürdü.

1 Ayənin ilk cümləsi belə də tərcümə edilə bilər: "Onun möhürü müşkdür"

16. And içirəm şəfəqə,
17. Gecəyə və içində topladıqlarına,
18. Bədirlənmiş aya ki,
19. Şübhəsiz, siz haldan hala düşəcəksiniz.
20. Belə olduğu halda onlara nə olub ki, iman etmirlər.
21. Onlara Qur`an oxunduğu zaman səcdə etmirlər.
22. Daha doğrusu inkar edənlər (Qur`anı) yalan sayırlar.
23. Halbuki, Allah içlərində nə gizlədiklərini çox yaxşı bilir.
24. Elə isə sən onlara ağrılı-acılı bir əzabı müjdələ.
25. Ancaq iman edib saleh əməllər işləyənlər istisnadır. Onlar üçün tükənməz bir mükafat var.

## 85. BURUC SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 22 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Buruc" sözündən götürülmüşdür. Buruc bürclər deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Bürclərlə dolu göyə and olsun,
2. Vəd edilmiş günə (Qiyamətə) and olsun,
3, 4, 5. Şahidlik edənə və şahidlik edilənə and olsun ki, (möminləri yandırmaq üçün) xəndək qazıb (içində) alovlu ataş yandıranlar lənətlənmişdirlər.[1]
6, 7. O zaman ataşin ətrafında oturub möminlərə etdiklərini seyr edirdilər.
8, 9. Onlar möminlərə sadəcə göylərin və yerin hökmranı, mütləq güc sahibi və tərifə layiq olan Allaha iman etdikləri üçün qəzəblənirdilər. Allah hər şeyə şahiddir.
10. Şübhəsiz, mömin kişilərlə mömin qadınlara işgəncə verib, sonra da tövbə etməyənlərə cəhənnəm əzabı və yangın əzabı var.
11. İman edib saleh əməllər işləyənlərə gəlincə, onlar üçün içindən çaylar axan cənnətlər var. Bax bu, böyük uğurdur!
12. Şübhəsiz, Rəbbinin yaxalaması çox şiddətlidir.
13. Şübhəsiz, O, başlanğıcda yaradar, sonra onu təkrarlayar.
14. O, çox bağışlayandır, çox sevəndir.

1 Rəvayətə görə, Nəcran xalqı xristianlığı qəbul etdikdə Himyər kralı yəhudi Zu Nuvas onlara müharibə elan etmiş, dinlərindən dönməyənləri qazdığı xəndəklərdə qaladığı ataşlərə atmışdı. Təfsir mənbələrində bu ayələr başqa hadisələrlə də əlaqələndirilir. Bu ayələr Məkkə müşriklərinin işgəncəsinə məruz qalan müsəlmanlara, keçmişdə də inananların necə təzyiq gördüyünü, ancaq Allahın yardımının onlarla bərabər olduğunu xatırladır.

15. Ərşin sahibidir, şanı uca olandır.
16. İstədiyini mütləq edəndir.
17, 18. Orduların, Firon və Səmudun xəbəri sənə gəldimi?
19. Xeyr, inkar edənlər hələ də təkzib edirlər.
20. Halbuki, Allah onları arxalarından əhatə etmişdir.
21. Xeyr, o (inkar etdikləri kitab) şanı uca bir Qur`andır.
22. O, qorunmuş bir lövhədədir (Lövhi-məhfuzdadır).

## 86. TARİQ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 17 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "ət-Tariq" sözündən götürülmüşdür. Tariq şiddətlə çırpan, vuran, gecə gələn şey deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Göyə və tariqə and olsun!
2. Tariqin nə olduğunu sən nə biləsən?
3. O, (işığı ilə qaranlığı) yaran ulduzdur.
4. Elə bir kimsə yoxdur ki, üzərində qoruyucu olmasın.[1]
5. Elə isə insan nədən yaradıldığına bir baxsın!
6. Fışqırıb çıxan bir sudan yaradıldı.
7. Bu su bel ilə qabırğa sümükləri arasından çıxar.
8. Şübhəsiz, Allah onu öldükdən sonra yenidən diriltməyə də qadirdir.
9. Bütün sirlərin yoxlanacağı günü xatırla!
10. (O gün) insan üçün artıq nə bir qüvvət var, nə də bir yardımçı.
11. Yağmurlu göyə and olsun,
12. Çat-çat olmuş yerə and olsun.
13. Şübhəsiz, o Qur`an haqq ilə batili ayırd edən bir sözdür.
14. O, boş bir söz deyil.
15. Şübhəsiz, onlar bir tələ qurarlar,
16. Mən də bir tədbir görərəm.[2]
17. Artıq sən inkarçılara möhlət ver, onlara bir az vaxt ver!

---

1 Buradakı qoruyucu ifadəsi ilə insanın gördüyü işləri yazıb qeyd edən mələklər nəzərdə tutulur. Bununla əlaqəli olaraq baxın: İnfitar, 82/10-12.

2 "Allahın tədbir görməsi" ifadəsi ilə inkarçıların qurduqları tələləri və planları pozması nəzərdə tutulur.

## 87. Ə`LA SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 19 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən və Allahı vəsf edən "əl-Ə`la" sözündən götürülmüşdür. Ə`la ən uca deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Uca Rəbbinin adını təsbih et!
2. O, yaradıb surət verən, ahəng və nizama salandır.
3. O, (hər şeyi) ölçü ilə edib yönəldəndir.
4, 5. O, yaşıl bitki örtüyünü çıxaran, sonra da onları çürüyüb qaralmış çör-çöpə çevirəndir.
6. Sənə Qur`anı oxudacağıq və sən onu unutmayacaqsan.
7. Ancaq Allahın diləməsi istisnadır. Şübhəsiz, O, açıq olanı da bilir, gizlini də.
8. Biz səni ən asan olana asanlıqla çatdıracağıq.
9. O halda, əgər öyüd fayda verərsə, öyüd ver.
10. Allaha qarşı dərin ehtiram duyaraq Ondan qorxan öyüd götürəcək.
11, 12. Ən böyük atəşə girəcək olan ən bədbəxt kimsə (kafir) isə öyüd götürməkdən qaçar.
13. Sonra orada nə ölər (qurtular), nə də (rahat bir həyat) yaşayar.
14, 15. Təmizlənən və Rəbbinin adını zikr edib namaz qılan kimsə mütləq nicat tapar.
16. Lakin siz dünya həyatını üstün tutursunuz.
17. Halbuki axirət daha xeyirli və daimidir.
18, 19. Şübhəsiz, bu hökmlər ilk səhifələrdə, İbrahim və Musanın səhifələrində də var.

## 88. ĞAŞİYƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 26 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Ğaşiyə" sözündən götürülmüşdür. Ğaşiyə bürüyən deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Dəhşəti hər şeyi bürüyən fəlakətin xəbəri sənə gəlib çatdımı?
2. O gün bəzi üzlər var ki, zillətə bürünmüşlər.
3. Çalışmış, (əbəs yerə) yorulmuşlar.
4. Qızğın atəşə girərlər.
5. Çox qızğın bir bulaqdan içirdilərlər.

6. Onlara acı və pis qoxulu bir tikanlı bitkidən başqa yeyəcək yoxdur.
7. O, nə qidalandırar, nə də aclıqdan qurtarar.
8. O gün bəzi üzlər var ki, nemət içində xoşbəxtdirlər.
9. Etdiklərindən ötrü razıdırlar.
10. Yüksək bir cənnətdədirlər.
11. Orada heç bir boş söz eşitməzlər.
12. Orada axan bir bulaq var.
13, 14, 15, 16. Orada yüksək taxtlar, qoyulmuş qədəhlər, düzülmüş yastıqlar, sərilmiş möhtəşəm xalılar var.
17. Dəvəyə baxmırlarmı, necə yaradılmışdır?!
18. Göyə baxmırlarmı, necə yüksəldilmişdir?!
19. Dağlara baxmırlarmı, necə dikəldilmişlər?!
20. Yer üzünə baxmırlarmı, necə sərilmişdir?!
21. Artıq sən öyüd ver. Sən sadəcə bir öyüd verənsən.
22. Sən onlar üzərində bir zorba deyilsən.
23, 24. Ancaq kim üz döndərər, inkar edərsə, Allah onu ən böyük əzaba düçar edər.
25. Şübhəsiz, onların dönüşü ancaq bizədir.
26. Sonra onların sorğu-sual olunması da sadəcə bizə aiddir.

## 89. FƏCR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 30 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Fəcr" sözündən götürülmüşdür. Fəcr dan yerinin ağarma vaxtı deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Dan yerinin ağarmasına and olsun,
2. On gecəyə and olsun,[1]
3. Cütə və təkə and olsun,
4. Keçib gedən gecəyə and olsun (ki, müşriklər əzaba düçar olacaqlar).
5. Şübhəsiz, bunlar ağıl sahibi bir kimsə üçün and içilməyə dəyər şeylərdir.
6, 7, 8, 9, 10. (Ey Muhamməd!) Rəbbinin (Hudun qövmü) Ada, şəhərlər içində bənzəri qurulmamış, sütunlarla dolu İrəmə, vadidə qayaları oyan (Salihin qövmü) Səmuda, dirəklər sahibi Firona[2] nə etdiyini görmədinmi?

1 Bu ayədə keçən on gecə mötəbər görüşə görə Zilhiccə ayının ilk on gecəsidir.

2 Ayədə bəhs olunan "dirəklər" sözü ilə Fironun ordusundakı çadırların dirəkləri nəzərdə tutulmuş ola bilər. Belə olduqda məcazi olaraq Fironun əsgərlərinin çoxluğu ifadə edilir. Bu dirəklərin insanlara işgəncə vermək üçün istifadə olunan dirəklər olduğu da bildirilmişdir.

11, 12. Bunlar şəhərlərdə azğınlıq edən və oralarda çox fitnə-fəsad törədən kimsələr idi.
13. Bu səbəblə Rəbbin onların üzərinə əzab qamçısı yağdırdı.
14. Şübhəsiz, Rəbbin nəzarət etmə məqamındadır.
15. İnsan isə Rəbbi onu sınayıb ona lütf etdikdə, ona bol nemətlər verdikdə: "Rəbbim mənə lütf etdi", – deyər.
16. Amma onu sınayıb ruzisini azaltdıqda isə: "Rəbbim məni alçaltdı", – deyər.
17. Xeyr, xeyr! Siz yetimə ehtiram göstərmirsiniz.
18. Yoxsulu yedirmək barəsində də bir-birinizi təşviq etmirsiniz.
19. Haram halal demədən mirası yeyirsiniz.
20. Mal-mülkü də çox sevirsiniz.
21. Xeyr, yer üzü (qiyamət sarsıntısı ilə) parça-parça olub dağıldığı zaman,
22, 23. Rəbbinin əmri və səf-səf düzülmüş halda mələklər gəldiyi və o gün cəhənnəm gətirildiyi zaman, bax o gün insan (etdiklərini bir-bir) xatırlayar. Lakin bu xatırlamanın ona necə faydası olacaq?!
24. "Kaş bu həyatım üçün əvvəldən bir şey etsəydim", – deyər.
25. Artıq o gün Allahın verəcəyi əzabı heç kim verə bilməz.
26. Onun bağlayacağı bağı heç kim bağlaya bilməz.
27. (Allah belə deyər:) "Ey hüzur içində olan nəfs!"
28. "Sən Ondan razı, O da səndən razı olaraq Rəbbinə dön!"
29. "(Saleh) qullarımın arasına gir".
30. "Cənnətimə gir".

## 90. BƏLƏD SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 20 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əl-Bələd" sözündən götürülmüşdür. Bələd şəhər, diyar deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2, 3, 4. Sən bu diyarda ikən bu diyara (Məkkəyə), ataya və ondan törəyən övlada and içirəm ki, biz insanı bir sıxıntı və çətinlik içində (olacaq və bunların öhdəsindən gələcək şəkildə) yaratdıq.[1]
5. Məgər insan elə zənn edir ki, ona heç kəsin gücü çatmaz?
6. "Xeyli mal xərclədim", – deyir.
7. Heç kəsin onu görmədiyini zənn edir?

1 Təfsir mənbələrinə görə burada bəhs olunan "ata və oğul" ümumi bir ifadə olub, hər ata və oğlu ifadə edir. Bununla yanaşı bu ifadənin övlad sahibi olmadığı halda sonradan övlad sahibi olan ata ilə övladını, həzrət İbrahim ilə oğlu İsmaili ifadə etdiyi də bildirilmişdir. Üstün fikrin birinci fikir olduğu bildirilmişdir.

**8, 9, 10.** Biz ona iki göz, bir dil, iki dodaq vermədikmi? Biz ona iki yolu (xeyir və şər yollarını) göstərmədikmi?

**11.** Lakin o dik yoxuşa atılmadı.

**12.** Dik yoxuşun nə olduğunu sən nə biləsən?

**13.** O, dustaq bir boynu açmaq (kölə azad etmək)dir.

**14, 15, 16.** Yaxud şiddətli bir aclıq günü özünə yaxın olan bir yetimi, yaxud da yerdə sürünən bir miskini doyurmaqdır.

**17, 18.** Sonra da iman edib bir-birinə səbri tövsiyə edənlər, bir-birinə mərhəməti tövsiyə edənlər ki var, onlar axirət səadətinə nail olanlardır.[1]

**19.** Ayələrimizi inkar edənlər isə pisliyə batmış kimsələrdir.[2]

**20.** Onların üzərində ətrafı möhkəm örtülmüş bir atəş var.

## 91. ŞƏMS SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 15 ayədən ibarətdir. Surənin adı birinci ayədə keçən "əş-Şəms" sözündən götürülmüşdür. Şəms günəş deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Günəşə və onun aydınlığına and olsun,

**2.** Onu izlədiyi zaman Aya and olsun,

**3.** Onu meydana çıxardığı zaman gündüzə and olsun,

**4.** Onu bürüdüyü zaman gecəyə and olsun,

**5.** Göyə və onu bina edənə and olsun,

**6.** Yerə və onu yayıb döşəyənə and olsun,

**7, 8, 9.** Nəfsə və ona biçim verib ona günah duyğusunu və təqvasını (günahdan çəkinmə qabiliyyətini) ilham edənə and olsun ki, nəfsini təmizləyən nicat tapmışdır.

**10.** Onu günaha batırıb kirlədən isə ziyana uğramışdır.

**11.** Səmud qövmü azğınlığı səbəbi ilə inkar etdi.

**12.** Bir vaxt onların ən bədbəxt olanı (fitnə salmaq üçün) önə atılmışdı.

**13.** Allahın rəsulu isə onlara belə demişdi: "Allahın dəvəsini və onun su içmə haqqını qoruyun".[3]

**14.** Lakin onlar onu inkar etdilər və dəvəni kəsdilər. Bundan sonra Rəbləri günahları səbəbi ilə onları həlak etdi və onları yerlə bir etdi.

1 Bu ayənin son cümləsi "Əməl dəftəri sağdan veriləcək kimsələrdir" şəklində də tərcümə edilə bilər.

2 Bu ayə "Ayələrimizi inkar edənlər isə, əməl dəftərləri soldan veriləcək olanlardır" şəklində də tərcümə edilə bilər.

3 Bu mövzu ilə əlaqəli olaraq baxın: Qəmər, 54/28.

15. Allah bunun nəticəsindən çəkinməz!

## 92. LEYL SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 21 ayədən ibarətdir. Leyl gecə deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. (Ətrafı) bürüdüyü zaman gecəyə and olsun,
2. Açılıb aydınlandığı zaman gündüzə and olsun,
3. Erkəyi və dişini yaradana and olsun ki,
4. Həqiqətən, sizin cəhdləriniz müxtəlifdir.

5, 6, 7. Ona görə də kim (əlində olandan) verər, Allaha qarşı gəlməkdən çəkinər və ən gözəl sözü (kəlmeyi-tövhidi) təsdiq edərsə, biz onu ən asan olana asanlıqla çatdırarıq.

8, 9, 10. Lakin kim xəsislik edər, özünü Allaha möhtac görməz və ən gözəl sözü (kəlmeyi-tövhidi) təkzib edərsə, biz də onu ən çətin olana asanlıqla çatdırarıq.

11. Cəhənnəmə yuvarlandığı zaman malı ona fayda verməz.
12. Şübhəsiz, bizə düşən sadəcə doğru yolu göstərməkdir.
13. Şübhəsiz, axirət də, dünya da bizimdir.
14. Sizi alovlar saçan atəş barəsində xəbərdar etdim.

15, 16. O atəşə ancaq inkar edib üz döndərən ən bədbəxt kimsə girər.

17, 18. Təmizlənmək üçün malını xeyir yolunda xərcləyən ən müttəqi (Allaha qarşı gəlməkdən ən çox çəkinən) kimsə o atəşdən uzaq tutulacaq.

19, 20. O heç kimə qarşılıq gözləyərək yaxşılıq etməz. (Etdiyi yaxşılığı) sadəcə uca Rəbbinin razılığını istədiyi üçün (edər).[1]

21. Əlbəttə, özü də razı qalacaq.

## 93. ZUHA SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 11 ayədən ibarətdir. Zuha səhər vaxtı deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Səhər vaxtına and olsun,

1 Rəvayətə görə, həzrət Əbu Bəkr Bilal Həbəşini sahibindən satın alıb azad etdikdə müşriklər: “Əbu Bəkr Bilaldan gördüyü bir yaxşılıq qarşılığında onu azad etdi”, – demişdilər. Bu ayələr həmin hadisə ilə bağlı nazil olmuşdur.

2. Qaranlığı çökdüyü zaman gecəyə and olsun ki,
3. Rəbbin səni tərk etmədi, sənə darılmadı.[1]
4. Şübhəsiz ki, axirət sənin üçün dünyadan daha xeyirlidir.
5. Şübhəsiz, Rəbbin sənə verəcək və sən razı olacaqsan.
6. Səni yetim tapıb himayə etmədimi?
7. Səni yolunu itirmiş halda tapıb yola yönəltmədimi?
8. Səni möhtac halda tapıb zəngin etmədimi?
9. Elə isə əsla yetimi əzmə!
10. Əsla istəyəni danlama!
11. Rəbbinin nemətinə gəlincə ondan danış!

## 94. İNŞİRAH SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 8 ayədən ibarətdir. İnşirah açılmaq, genişlənmək deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. (Ey Muhamməd!) Sənin köksünü açıb genişlətmədikmi?
2, 3. Belini bükən yükünü üzərindən qaldırmadıqmı?
4. Sənin şanını yüksəltmədikmi?
5. Şübhəsiz, çətinliklə yanaşı bir asanlıq var.
6. Həqiqətən, çətinliklə yanaşı bir asanlıq var.
7. Elə isə bir işi bitirdikdə digərinə keç.
8. Sadəcə Rəbbinə yönəl və yalvar.

## 95. TİN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 8 ayədən ibarətdir. Tin əncir deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Tinə və zeytuna and olsun.[2]

---

1 Həzrət Peyğəmbərə vəhyin gəlməsi bir müddət dayandıqda müşriklər: "Rəbbi onu tərk etdi", – dedilər. Bundan sonra bu ayələr nazil oldu.

2 Təfsir alimləri ayədə keçən "Tin" və "Zeytun" sözlərinin əncir və zeytun mənalarında cins isim ola biləcəyi kimi iki müqəddəs məkanın adı ola biləcəyini də bildirmişlər. Bundan sonra gələn "Sina dağı" və "Əmin şəhər (Məkkə)" ifadələri ilə uyğun olması baxımından ikinci görüş daha doğru görünür.

2. Sina dağına and olsun,
3. Bu əmin şəhərə (Məkkəyə) and olsun ki,
4. Biz, həqiqətən, insanı ən gözəl bir biçimdə yaratdıq.
5. Sonra onu aşağıların aşağısına endirdik.
6. Ancaq iman edib saleh əməllər işləyənlər istisnadır. Onlar üçün daimi bir mükafat var.
7. (Ey insan!) Belə olduğu halda hesab və cəzanı inkar etməyə səni nə vadar edir?
8. Allah hökm edənlərin ən yaxşı hökm edəni deyilmi?

## 96. ƏLƏQ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 19 ayədən ibarətdir. Surənin adı ikinci ayədə keçən "ələq" sözündən götürülmüşdür.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Yaradan Rəbbinin adı ilə oxu! O, insanı ələqdən yaratdı.[1]
3. Oxu! Sənin Rəbbin ən səxavətli olandır.
4, 5. O, qələmlə yazmağı öyrədəndir, insana bilmədiyini öyrədəndir.[2]
6, 7. Xeyr, insan özünü yetərli gördüyü üçün mütləq həddi aşar.
8. Şübhəsiz, dönüş ancaq Rəbbinədir.
9, 10. Sən namaz qıldığı zaman qula mane olanı gördünmü?[3]
11, 12. Nə deyirsən, o (namazına mane olunan qul) hidayət üzrədirsə ya da təqvanı (Allaha qarşı gəlməkdən çəkinməyi) əmr edirsə?!
13. Nə deyirsən, o, Peyğəmbəri təkzib etmiş və üz döndərmişsə?!
14. O, Allahın hər şeyi gördüyünü bilmirmi?
15, 16. Xeyr! And olsun, əgər son qoymazsa, mütləq onu kəkilindən, o yalançı günahkar kəkilindən yaxalayarıq.
17. Qoy o, tərəfdarlarını çağırsın.

---

1 Ələq və ya ələqə kişinin sperması ilə mayalanmış dişi yumurtadan bir həftə ərzində yaranan hüceyrə topluluğunun rəhmin divarından asılıb yapışmış şəkli deməkdir. Rüşeymin ana rəhmində keçirdiyi mərhələlərlə əlaqəli olaraq Həcc surəsinin 5-ci və Muminun surəsinin 14-cü ayəsinə baxın.

2 Bu ilk beş ayə Cəbrailin həzrət Peyğəmbərə Hira mağarasında gətirdiyi ilk ayələrdir. Bu ayələrin nazil olmasından sonra bir müddət vəhy kəsilmişdi. Bu müddətə "fətrət dövrü" deyilir. Daha sonra Müddəssir surəsinin nazil olması ilə fətrət dövrü sona çatmışdır.

3 Əbu Cəhl: "And olsun, əgər Muhamməddin namaz qıldığını görsəm, onun boynunu əzəcəyəm", – demiş və bir gün bu dediyini etməyə cəhd göstərmişdi. Lakin həzrət Peyğəmbərin yanına gəldikdə düşündüyünü edə bilmədən titrəyərək qorxu içində qaçmışdı. Ayələr bu hadisəyə və həzrət Peyğəmbərin ilahi qorunma altında olduğuna işarə edir.

18. Biz də zəbaniləri çağıracağıq.
19. Xeyr! Sən əsla ona tabe olma, səcdə et və Rəbbinə yaxınlaş!

## 97. QƏDR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 5 ayədən ibarətdir. Qədr gecəsindən bəhs etdiyi üçün surə belə adlandırılmışdır. Qədr əzəmət və şərəf deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Şübhəsiz, biz onu (Qur`anı) Qədr gecəsində endirdik.
2. Qədr gecəsinin nə olduğunu sən nə biləsən?
3. Qədr gecəsi min aydan daha xeyirlidir.
4. Mələklər və Ruh (Cəbrail) o gecədə Rəblərinin izni ilə hər bir işdən ötrü enərlər.
5. O gecə dan yerinin ağarmasına qədər bir salamatlıqdır.

## 98. BƏYYİNƏ SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 8 ayədən ibarətdir. Bəyyinə açıq-aydın dəlil deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Kitab əhlindən inkar edənlər ilə Allaha şərik qoşanlar özlərinə açıq-aydın dəlil gələnə qədər (küfrdən) ayrılan deyildilər.
2. Bu dəlil tərtəmiz səhifələri oxuyan, Allah tərəfindən göndərilən bir peyğəmbərdir.
3. O səhifələrdə doğru hökmlər var.
4. Kitab verilənlər ancaq özlərinə o açıq-aydın dəlil gəldikdən sonra təfriqəyə düşdülər.
5. Halbuki, onlara sadəcə dini Allaha xas tutaraq, haqqa yönələn kimsələr olaraq Ona qulluq etmələri, namazı qılmaları və zəkatı vermələri əmr edilmişdi. Bax bu, doğru dindir.
6. Şübhəsiz, inkar edən kitab əhli ilə Allaha şərik qoşanlar içində əbədi qalmaq üzrə cəhənnəm atəşindədirlər. Onlar yaradılanların ən pisidirlər.
7. Şübhəsiz, iman edib saleh əməllər işləyənlər ki var, onlar yaradılanların ən xeyirlisidirlər.
8. Rəbləri qatında onların mükafatı içlərindən çaylar axan, içlərində əbədi qalacaqları Ədn cənnətləridir. Allah onlardan razı olmuşdur, onlar da Allahdan razı olmuşlar. Bax bu mükafat Rəblərinə dərin ehtiram duyanlara məxsusdur.

## 99. ZİLZAL SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 8 ayədən ibarətdir. Zilzal sarsıntı, zəlzələ deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1, 2, 3.** Yer üzü özünəməxsus bir sarsıntıya məruz qaldığı, içindəkiləri çıxarıb atdığı və insan: “Ona nə olub?” – dediyi zaman,

**4.** Bax o gün yer öz xəbərlərini danışar.

**5.** Çünki Rəbbin ona (elə) vəhy etmişdir.

**6.** O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün dəstə-dəstə qəbirlərindən çıxacaqlar.

**7.** Artıq kim zərrə qədər bir xeyir işləyərsə, onun mükafatını görəcək.

**8.** Kim də zərrə qədər bir pislik edərsə, onun cəzasını görəcək.

## 100. ADİYAT SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 11 ayədən ibarətdir. Adiyat sürətli qaçan atlar deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1, 2, 3, 4, 5, 6.** Nəfəs-nəfəsə sürətlə qaçan, (qaçarkən ayaqlarını) vuraraq alov saçan, sübh tezdən basqın edən, orada tozanaq qoparan və düşmən topluluğunun ortasına atılan atlara and olsun ki, insan, həqiqətən, Rəbbinə qarşı çox nankordur.

**7.** Şübhəsiz, özü də buna şahiddir.

**8.** Şübhəsiz, o, mal sevgisi səbəbi ilə çox qatıdır.

**9, 10, 11.** Məgər o bilmirmi ki, qəbirlərdəkilər çıxarıldığı və qəlblərdəkilər ifşa olunduğu zaman, bax o gün Rəbləri onların hər halından mütləq xəbərdardır.

## 101. QARİƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 11 ayədən ibarətdir. Qariə vuran, çarpan, qapını döyən, ürəkləri sarsıdan deməkdir. Burada qiyamət günü mənasına gəlir.

***Bismilləhir-Rahmənir-Rahim.***

**1.** Ürəkləri sarsıdan böyük fəlakət!

**2.** Nədir ürəkləri sarsıdan o böyük fəlakət?

3. Ürəkləri sarsıdan böyük fəlakətin nə olduğunu sən nə biləsən?
4. O gün insanlar hər biri bir tərəfə uçuşan kiçik kəpənəklər kimi olacaqlar.
5. Dağlar da atılmış rəngli yunlar kimi olacaqdır.
6. O vaxt kimin tərəziləri ağır gəlmişsə,
7. Artıq o, razı qalacağı bir həyat içində olacaqdır.
8. Amma kimin də tərəziləri yüngül gələrsə,
9. Onun anası (gedəcəyi yer) Haviyədir.
10. Haviyənin nə olduğunu sən nə biləsən?
11. O, qızğın bir atəşdir.

## 102. TƏKASÜR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 8 ayədən ibarətdir. Təkasür, mal, mülk və övladın çoxluğu ilə öyünmək deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. Çoxluqla öyünmək qəbirlərə gedənə (ölənə) qədər sizin başınızı qatdı.[1]
3. Xeyr, siz mütləq biləcəksiniz!
4. Xeyr, xeyr! Mütləq biləcəksiniz!
5. Xeyr, yəqinliklə bir bilsəydiniz...
6. And olsun, o cəhənnəmi mütləq görəcəksiniz.
7. Yenə and olsun, onu gözünüzlə mütləq görəcəksiniz.
8. Sonra o gün nemətlərdən mütləq sorğu-sual olunacaqsınız.

## 103. ƏSR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 3 ayədən ibarətdir. Əsr çağ, əsr vaxtı, uzun zaman deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2. And olsun zamana ki, insan, həqiqətən, ziyan içindədir.
3. Ancaq iman edib saleh əməllər işləyənlər, bir-birilərinə haqqı tövsiyə edənlər, bir-birilərinə səbri tövsiyə edənlər istisnadır (Onlar ziyanda deyillər).

1 Bu ayələr belə də tərcümə edilə bilər: "Çoxluqla öyünmək sizi elə məşğul etdi ki, nəhayət, (ölüləri saymaq üçün) qəbirlərə getdiniz".

## 104. HÜMƏZƏ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 9 ayədən ibarətdir. Hüməzə qeybət edən, qınayan deməkdir.

*Bismilləhir-Rahmənir-Rahim.*

1, 2. Mal toplayan, onu dönə-dönə sayan, insanların qeybətini edən, qaş-göz edərək ələ salan hər insanın vay halına!

3. O, malının onu əbədiləşdirdiyini zənn edir.

4. Xeyr! And olsun ki, o, Hütəməyə atılacaq.

5. Hütəmənin nə olduğunu sən nə biləsən?

6, 7. O, Allahın ürəklərə nüfuz edən yanar atəşidir.

8, 9. Şübhəsiz, uzadılmış dirəklər arasında (bağlı olduqları halda) atəş onların üzərinə örtüləcək.

## 105. FİL SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 5 ayədən ibarətdir. Surə fillərlə təchiz olunmuş ordusu ilə Kəbəni yıxmağa gələn Əbrəhənin həlak edilməsindən bəhs etdiyi üçün belə adlandırılmışdır.

*Bismilləhir-Rahmənir-Rahim.*

1. Rəbbinin fil sahiblərinə (bir fillə dəstəklənmiş orduya) nə etdiyini görmədinmi?

2. Onların hiylələrini boşa çıxarmadımı?

3, 4, 5. Onların üstünə palçıqdan bişirilmiş daşlar atan sürü-sürü quşlar göndərdi. Nəhayət, onları yeyilmiş əkin yarpaqları halına saldı.

## 106. QÜREYŞ SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 4 ayədən ibarətdir. Qüreyş həzrət Peyğəmbərin mənsub olduğu qəbilənin adıdır.

*Bismilləhir-Rahmənir-Rahim.*

1, 2, 3, 4. Qüreyşi isindirib alışdırdığı, onları qışda (Yəmənə) və yayda (Şama) etdikləri səfərlərə isindirib alışdırdığı üçün, Qüreyş də onları bəsləyib aclıqdan qoruyan və onları qorxudan əmin edən bu evin (Kəbənin) Rəbbinə qulluq etsin!

## 107. MAUN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 7 ayədən ibarətdir. Maun yardım və zəkat deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Gördünmü o hesab və cəza gününü təkzib edəni?

2, 3. Bax o, yetimi xor görən, yoxsulu yedirməyi təşviq etməyən kimsədir.

4. Vay halına, o, namaz qılanların ki,

5. Onlar namazlarında səhlənkardırlar.

6. Onlar (namazları ilə) riya edərlər.

7. Kiçik bir yardıma belə mane olarlar.

## 108. KÖVSƏR SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. Mədinə dövründə nazil olduğu da rəvayət olunmuşdur. 3 ayədən ibarətdir. Kövsər çox xeyir, bərəkət deməkdir. Cənnətdə həzrət Peyğəmbərə məxsus bir hovuzun da adıdır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Şübhəsiz, biz sənə Kövsəri verdik.

2. O halda Rəbbin üçün namaz qıl, qurban kəs.

3. Doğrusu, sənə nifrət edənin özü nəsli kəsilmiş olandır.[1]

## 109. KAFİRUN SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 6 ayədən ibarətdir. Kafirun inkar edənlər deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. De ki: "Ey kafirlər!"

2. "Mən sizin qulluq etdiklərinizə qulluq etmərəm".

3. "Siz də mənim qulluq etdiyimə qulluq edən deyilsiniz".

4. "Mən sizin qulluq etdiklərinizə qulluq edən deyiləm".

---

1 Həzrət Peyğəmbərin oğlu Qasım vəfat etdikdə müşriklərdən As ibn Vail həzrət Peyğəmbər haqqında: "Əl çəkin bu nəsli kəsilmiş adamdan, öləndən sonra unudulub gedəcək", – demişdi. Bundan sonra bu surə nazil olmuşdur.

5. “Siz də mənim qulluq etdiyimə qulluq edən deyilsiniz”.
6. “Sizin dininiz sizə, mənim dinim də mənədir”.

## 110. NƏSR SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 3 ayədən ibarətdir. Nəsr yardım deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2, 3. Allahın yardımı və fəth (Məkkənin fəthi) gəldiyi zaman və insanların dəstə-dəstə Allahın dininə girdiyini gördüyün zaman Rəbbini həmd ilə təsbih et və Ondan bağışlanma dilə. Çünki O, tövbələri çox qəbul edəndir.

## 111. TƏBBƏT SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 5 ayədən ibarətdir. Təbbət qurusun, məhv olsun deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. Əbu Ləhəbin əlləri qurusun. Qurudu da.
2. Ona nə malı fayda verdi, nə də qazandığı.
3. O, bir alovlu atəşə girəcək.

4, 5. Boynunda bükülmüş xurma liflərindən bir ip olduğu halda belində odun daşıyaraq arvadı da (o atəşə girəcək).[1]

## 112. İXLAS SURƏSİ

Məkkə dövründə nazil olmuşdur. 4 ayədən ibarətdir. İxlas səmimi olmaq, dinə səmimiyyətlə bağlanmaq deməkdir. Bu surədə bildirildiyi şəkildə Allaha inanan, tövhid inancını tam olaraq mənimsəyən bir kimsənin ixlaslı bir mömin olacağı qəbul edildiyi üçün surə belə adlandırılmışdır.

***Bismilləhir-Rahmənir-Rahim.***

1. De ki: “O Allahdır, təkdir”.
2. “Allah Səməddir. (Hər şey ona möhtacdır, O, heç bir şeyə möhtac deyil.)”

1 Əbu Ləhəb həzrət Peyğəmbərin əmisi olmasına rəğmən ona ən çox düşmənlik edənlərdən idi. Arvadı Ümmü Cəmil də bu düşmənlikdə ərindən geri qalmır, hətta bəzən tikanlı kollar daşıyıb həzrət Peyğəmbərin keçəcəyi yollara tökərdi. Surədə həm onların bu düşmənlikləri, həm də bu səbəblə düçar olacaqları əzabdan bəhs olunur.

3. “Ondan uşaq olmamışdır (Heç kimin atası deyil). Özü də doğulmamışdır (Heç kimin övladı deyil)”.

4. “Heç bir şey Ona tay və bənzər deyil”.

## 113. FƏLƏQ SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 5 ayədən ibarətdir. Fələq sübh aydınlığı deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2, 3, 4, 5. De ki: “Yaratdığı şeylərin şərindən, qaranlığı çökdüyü zaman gecənin şərindən, düyünlərə üfürənlərin şərindən, həsəd etdiyi zaman həsəd edənin şərindən sübh aydınlığının Rəbbinə sığınıram”.

## 114. NAS SURƏSİ

Mədinə dövründə nazil olmuşdur. 6 ayədən ibarətdir. Nas insanlar deməkdir.

***Bismilləhir-Rahmənir-Rahim.***

1, 2, 3, 4, 5, 6. De ki: “Cinlərdən və insanlardan, insanların qəlblərinə vəsvəsə verən hiyləgər vəsvəsə verənin şərindən insanların Rəbbinə, insanların Məlikinə, insanların İlahına sığınıram”.

# QUR`ANDAKI SIRASINA GÖRƏ SURƏLƏRİN İNDEKSİ


| Surə Nömrəsi | Surənin Adı | Ayə Sayı | Səhifə Nömrəsi |
|---|---|---|---|
| 1 | FATİHƏ SURƏSİ | 7 | 4 |
| 2 | BƏQƏRƏ SURƏSİ | 286 | 5 |
| 3 | ALİ-İMRAN SURƏSİ | 200 | 35 |
| 4 | NİSA SURƏSİ | 176 | 51 |
| 5 | MAİDƏ SURƏSİ | 120 | 68 |
| 6 | ƏN`AM SURƏSİ | 165 | 80 |
| 7 | Ə`RAF SURƏSİ | 206 | 96 |
| 8 | ƏNFAL SURƏSİ | 75 | 112 |
| 9 | TÖVBƏ SURƏSİ | 129 | 118 |
| 10 | YUNUS SURƏSİ | 109 | 129 |
| 11 | HUD SURƏSİ | 123 | 137 |
| 12 | YUSUF SURƏSİ | 111 | 147 |
| 13 | RƏ`D SURƏSİ | 43 | 154 |
| 14 | İBRAHİM SURƏSİ | 52 | 158 |
| 15 | HİCR SURƏSİ | 99 | 162 |
| 16 | NƏHL SURƏSİ | 128 | 166 |
| 17 | İSRA SURƏSİ | 111 | 174 |
| 18 | KƏHF SURƏSİ | 110 | 182 |
| 19 | MƏRYƏM SURƏSİ | 98 | 190 |
| 20 | TAHA SURƏSİ | 135 | 196 |
| 21 | ƏNBİYA SURƏSİ | 112 | 203 |
| 22 | HƏCC SURƏSİ | 78 | 210 |
| 23 | MU`MİNUN SURƏSİ | 118 | 216 |
| 24 | NUR SURƏSİ | 64 | 221 |
| 25 | FURQAN SURƏSİ | 77 | 227 |
| 26 | ŞUƏRA SURƏSİ | 227 | 231 |
| 27 | NƏML SURƏSİ | 93 | 239 |
| 28 | QƏSƏS SURƏSİ | 88 | 245 |
| 29 | ƏNKƏBUT SURƏSİ | 69 | 251 |
| 30 | RUM SURƏSİ | 60 | 257 |
| 31 | LOĞMAN SURƏSİ | 34 | 261 |
| 32 | SƏCDƏ SURƏSİ | 30 | 264 |
| 33 | ƏHZAB SURƏSİ | 73 | 266 |
| 34 | SƏBƏ SURƏSİ | 54 | 272 |
| 35 | FATİR SURƏSİ | 45 | 276 |
| 36 | YASİN SURƏSİ | 83 | 279 |
| 37 | SAFFAT SURƏSİ | 182 | 283 |
| 38 | SAD SURƏSİ | 88 | 290 |
| 39 | ZÜMƏR SURƏSİ | 75 | 294 |
| 40 | MÖMİN SURƏSİ | 85 | 299 |
| 41 | FUSSİLƏT SURƏSİ | 54 | 305 |
| 42 | ŞURA SURƏSİ | 53 | 309 |
| 43 | ZUXRUF SURƏSİ | 89 | 312 |
| 44 | DUXAN SURƏSİ | 59 | 317 |
| 45 | CASİYƏ SURƏSİ | 37 | 319 |
| 46 | ƏHQAF SURƏSİ | 35 | 321 |
| 47 | MUHAMMƏD SURƏSİ | 38 | 324 |
| 48 | FƏTH SURƏSİ | 29 | 327 |
| 49 | HUCURAT SURƏSİ | 18 | 330 |
| 50 | QAF SURƏSİ | 45 | 332 |
| 51 | ZARİYAT SURƏSİ | 60 | 334 |
| 52 | TUR SURƏSİ | 49 | 336 |
| 53 | NƏCM SURƏSİ | 62 | 338 |
| 54 | QƏMƏR SURƏSİ | 55 | 341 |
| 55 | RƏHMAN SURƏSİ | 78 | 343 |
| 56 | VAQİƏ SURƏSİ | 96 | 346 |
| 57 | HƏDİD SURƏSİ | 29 | 349 |
| 58 | MÜCADƏLƏ SURƏSİ | 22 | 352 |
| 59 | HƏŞR SURƏSİ | 24 | 354 |
| 60 | MÜMTƏHİNƏ SURƏSİ | 13 | 356 |
| 61 | SƏFF SURƏSİ | 14 | 358 |
| 62 | CÜMƏ SURƏSİ | 11 | 360 |
| 63 | MÜNAFİQUN SURƏSİ | 11 | 361 |
| 64 | TƏĞABUN SURƏSİ | 18 | 362 |
| 65 | TALAQ SURƏSİ | 12 | 363 |
| 66 | TƏHRİM SURƏSİ | 12 | 365 |
| 67 | MÜLK SURƏSİ | 30 | 366 |
| 68 | QƏLƏM SURƏSİ | 52 | 368 |
| 69 | HAQQƏ SURƏSİ | 52 | 370 |
| 70 | MƏARİC SURƏSİ | 44 | 372 |
| 71 | NUH SURƏSİ | 28 | 373 |
| 72 | CİN SURƏSİ | 28 | 375 |
| 73 | MÜZZƏMMİL SURƏSİ | 20 | 376 |
| 74 | MÜDDƏSSİR SURƏSİ | 56 | 377 |
| 75 | QİYAMƏ SURƏSİ | 40 | 379 |
| 76 | İNSAN SURƏSİ | 31 | 381 |
| 77 | MÜRSƏLAT SURƏSİ | 50 | 382 |
| 78 | NƏBƏ SURƏSİ | 40 | 384 |
| 79 | NAZİAT SURƏSİ | 46 | 385 |
| 80 | ƏBƏSƏ SURƏSİ | 42 | 387 |
| 81 | TƏKVİR SURƏSİ | 29 | 388 |
| 82 | İNFİTAR SURƏSİ | 19 | 389 |
| 83 | MÜTƏFFİFİN SURƏSİ | 36 | 390 |
| 84 | İNŞİQAQ SURƏSİ | 25 | 391 |
| 85 | BURUC SURƏSİ | 22 | 392 |
| 86 | TARİQ SURƏSİ | 17 | 393 |
| 87 | Ə`LA SURƏSİ | 19 | 394 |
| 88 | ĞAŞİYƏ SURƏSİ | 26 | 394 |
| 89 | FƏCR SURƏSİ | 30 | 395 |
| 90 | BƏLƏD SURƏSİ | 20 | 396 |
| 91 | ŞƏMS SURƏSİ | 15 | 397 |
| 92 | LEYL SURƏSİ | 21 | 398 |
| 93 | ZUHA SURƏSİ | 11 | 399 |
| 94 | İNŞİRAH SURƏSİ | 8 | 399 |
| 95 | TİN SURƏSİ | 8 | 400 |
| 96 | ƏLƏQ SURƏSİ | 19 | 400 |
| 97 | QƏDR SURƏSİ | 5 | 401 |
| 98 | BƏYYİNƏ SURƏSİ | 8 | 401 |
| 99 | ZİLZAL SURƏSİ | 8 | 402 |
| 100 | ADİYAT SURƏSİ | 11 | 402 |
| 101 | QARİƏ SURƏSİ | 11 | 403 |
| 102 | TƏKASÜR SURƏSİ | 8 | 403 |
| 103 | ƏSR SURƏSİ | 3 | 404 |
| 104 | HÜMƏZƏ SURƏSİ | 9 | 404 |
| 105 | FİL SURƏSİ | 5 | 404 |
| 106 | QÜREYŞ SURƏSİ | 4 | 405 |
| 107 | MAUN SURƏSİ | 7 | 405 |
| 108 | KÖVSƏR SURƏSİ | 3 | 405 |
| 109 | KAFİRUN SURƏSİ | 6 | 406 |
| 110 | NƏSR SURƏSİ | 3 | 406 |
| 111 | TƏBBƏT SURƏSİ | 5 | 406 |
| 112 | İXLAS SURƏSİ | 4 | 407 |
| 113 | FƏLƏQ SURƏSİ | 5 | 407 |
| 114 | NAS SURƏSİ | 6 | 407 |

## ƏLİFBA SIRASINA GÖRƏ SURƏ İNDEKSİ


| Surənin Adı | Surə Nömrəsi | Ayə Sayı | Səhifə Nömrəsi |
|---|---|---|---|
| - A - | | | |
| ADİYAT SURƏSİ | 100. | 11 | 402 |
| ALİ-İMRAN SURƏSİ | 3. | 200 | 35 |
| - B - | | | |
| BURUC SURƏSİ | 85. | 22 | 392 |
| BƏLƏD SURƏSİ | 90. | 20 | 396 |
| BƏQƏRƏ SURƏSİ | 2. | 286 | 5 |
| BƏYYİNƏ SURƏSİ | 98. | 8 | 401 |
| - C - | | | |
| CASİYƏ SURƏSİ | 45. | 37 | 319 |
| CİN SURƏSİ | 72. | 28 | 375 |
| CÜMƏ SURƏSİ | 62. | 11 | 360 |
| - D - | | | |
| DUXAN SURƏSİ | 44. | 59 | 317 |
| - Ə - | | | |
| Ə`LA SURƏSİ | 87. | 19 | 394 |
| Ə`RAF SURƏSİ | 7. | 206 | 96 |
| ƏBƏSƏ SURƏSİ | 80. | 42 | 387 |
| ƏHQAF SURƏSİ | 46. | 35 | 321 |
| ƏHZAB SURƏSİ | 33. | 73 | 266 |
| ƏLƏQ SURƏSİ | 96. | 19 | 400 |
| ƏN`AM SURƏSİ | 6. | 165 | 80 |
| ƏNBİYA SURƏSİ | 21. | 112 | 203 |
| ƏNFAL SURƏSİ | 8. | 75 | 112 |
| ƏNKƏBUT SURƏSİ | 29. | 69 | 251 |
| ƏSR SURƏSİ | 103. | 3 | 404 |
| - F - | | | |
| FATİHƏ SURƏSİ | 1. | 7 | 4 |
| FATİR SURƏSİ | 35. | 45 | 276 |
| FİL SURƏSİ | 105. | 5 | 404 |
| FURQAN SURƏSİ | 25. | 77 | 227 |
| FUSSİLƏT SURƏSİ | 41. | 54 | 305 |
| FƏCR SURƏSİ | 89. | 30 | 395 |
| FƏLƏQ SURƏSİ | 113. | 5 | 407 |
| FƏTH SURƏSİ | 48. | 29 | 327 |
| - Ğ - | | | |
| ĞAŞİYƏ SURƏSİ | 88. | 26 | 394 |

| Surənin Adı | Surə Nömrəsi | Ayə Sayı | Səhifə Nömrəsi |
|---|---|---|---|
| - H - | | | |
| HAQQƏ SURƏSİ | 69. | 52 | 370 |
| HİCR SURƏSİ | 15. | 99 | 162 |
| HUCURAT SURƏSİ | 49. | 18 | 330 |
| HUD SURƏSİ | 11. | 123 | 137 |
| HÜMƏZƏ SURƏSİ | 104. | 9 | 404 |
| HƏCC SURƏSİ | 22. | 78 | 210 |
| HƏDİD SURƏSİ | 57. | 29 | 349 |
| HƏŞR SURƏSİ | 59. | 24 | 354 |
| - İ - | | | |
| İBRAHİM SURƏSİ | 14. | 52 | 158 |
| İNFİTAR SURƏSİ | 82. | 19 | 389 |
| İNSAN SURƏSİ | 76. | 31 | 381 |
| İNŞİQAQ SURƏSİ | 84. | 25 | 391 |
| İNŞİRAH SURƏSİ | 94. | 8 | 399 |
| İSRA SURƏSİ | 17. | 111 | 174 |
| İXLAS SURƏSİ | 112. | 4 | 407 |
| - K - | | | |
| KAFİRUN SURƏSİ | 109. | 6 | 406 |
| KÖVSƏR SURƏSİ | 108. | 3 | 405 |
| KƏHF SURƏSİ | 18. | 110 | 182 |
| - L - | | | |
| LEYL SURƏSİ | 92. | 21 | 398 |
| LOĞMAN SURƏSİ | 31. | 34 | 261 |
| - M - | | | |
| MAİDƏ SURƏSİ | 5. | 120 | 68 |
| MAUN SURƏSİ | 107. | 7 | 405 |
| MU`MİNUN SURƏSİ | 23. | 118 | 216 |
| MUHAMMƏD SURƏSİ | 47. | 38 | 324 |
| MÖMİN SURƏSİ | 40. | 85 | 299 |
| MÜCADƏLƏ SURƏSİ | 58. | 22 | 352 |
| MÜDDƏSSİR SURƏSİ | 74. | 56 | 377 |
| MÜLK SURƏSİ | 67. | 30 | 366 |
| MÜMTƏHİNƏ SURƏSİ | 60. | 13 | 356 |
| MÜNAFİQUN SURƏSİ | 63. | 11 | 361 |
| MÜRSƏLAT SURƏSİ | 77. | 50 | 382 |
| MÜTƏFFİFİN SURƏSİ | 83. | 36 | 390 |

# ƏLİFBA SIRASINA GÖRƏ SURƏ İNDEKSİ


| Surənin Adı | Səhifə Nömrəsi | Ayə Sayı | Səhifə Nömrəsi |
|---|---|---|---|
| MÜZZƏMMİL SURƏSİ | 73. | 20 | 376 |
| MƏARİC SURƏSİ | 70. | 44 | 372 |
| MƏRYƏM SURƏSİ | 19. | 98 | 190 |
| - N - | | | |
| NAS SURƏSİ | 114. | 6 | 407 |
| NAZİAT SURƏSİ | 79. | 46 | 385 |
| NİSA SURƏSİ | 4. | 176 | 51 |
| NUH SURƏSİ | 71. | 28 | 373 |
| NUR SURƏSİ | 24. | 64 | 221 |
| NƏBƏ SURƏSİ | 78. | 40 | 384 |
| NƏCM SURƏSİ | 53. | 62 | 338 |
| NƏHL SURƏSİ | 16. | 128 | 166 |
| NƏML SURƏSİ | 27. | 93 | 239 |
| NƏSR SURƏSİ | 110. | 3 | 406 |
| - Q - | | | |
| QAF SURƏSİ | 50. | 45 | 332 |
| QARİƏ SURƏSİ | 101. | 11 | 403 |
| QİYAMƏ SURƏSİ | 75. | 40 | 379 |
| QÜREYŞ SURƏSİ | 106. | 4 | 405 |
| QƏDR SURƏSİ | 97. | 5 | 401 |
| QƏLƏM SURƏSİ | 68. | 52 | 368 |
| QƏMƏR SURƏSİ | 54. | 55 | 341 |
| QƏSƏS SURƏSİ | 28. | 88 | 245 |
| - R - | | | |
| RUM SURƏSİ | 30. | 60 | 257 |
| RƏ`D SURƏSİ | 13. | 43 | 154 |
| RƏHMAN SURƏSİ | 55. | 78 | 343 |
| - S - | | | |
| SAD SURƏSİ | 38. | 88 | 290 |
| SAFFAT SURƏSİ | 37. | 182 | 283 |
| SƏBƏ SURƏSİ | 34. | 54 | 272 |

| Surənin Adı | Səhifə Nömrəsi | Ayə Sayı | Səhifə Nömrəsi |
|---|---|---|---|
| SƏCDƏ SURƏSİ | 32. | 30 | 264 |
| SƏFF SURƏSİ | 61. | 14 | 358 |
| - Ş - | | | |
| ŞURA SURƏSİ | 42. | 53 | 309 |
| ŞUƏRA SURƏSİ | 26. | 227 | 231 |
| ŞƏMS SURƏSİ | 91. | 15 | 397 |
| - T - | | | |
| TAHA SURƏSİ | 20. | 135 | 196 |
| TALAQ SURƏSİ | 65. | 12 | 363 |
| TARİQ SURƏSİ | 86. | 17 | 393 |
| TİN SURƏSİ | 95. | 8 | 400 |
| TUR SURƏSİ | 52. | 49 | 336 |
| TÖVBƏ SURƏSİ | 9. | 129 | 118 |
| TƏBBƏT SURƏSİ | 111. | 5 | 406 |
| TƏHRİM SURƏSİ | 66. | 12 | 365 |
| TƏKASÜR SURƏSİ | 102. | 8 | 403 |
| TƏKVİR SURƏSİ | 81. | 29 | 388 |
| TƏĞABUN SURƏSİ | 64. | 18 | 362 |
| - V - | | | |
| VAQİƏ SURƏSİ | 56. | 96 | 346 |
| - Y - | | | |
| YASİN SURƏSİ | 36. | 83 | 279 |
| YUNUS SURƏSİ | 10. | 109 | 129 |
| YUSUF SURƏSİ | 12. | 111 | 147 |
| - Z - | | | |
| ZARİYAT SURƏSİ | 51. | 60 | 334 |
| ZİLZAL SURƏSİ | 99. | 8 | 402 |
| ZUHA SURƏSİ | 93. | 11 | 399 |
| ZUXRUF SURƏSİ | 43. | 89 | 312 |
| ZÜMƏR SURƏSİ | 39. | 75 | 294 |

## A. Qur`ani-Kərim

Qur`ani-Kərim Allahın kəlamıdır. Bəşəriyyəti dünya və axirət səadətinə çatdırmaq üçün son peyğəmbər həzrət Muhammədə (s.ə.s.) Ərəb dilində Cəbrail vasitəsilə vəhy olunmuşdur. Həzrət Peyğəmbərdən etibarən nəsildən-nəslətəvatür yolu ilə nəql olunmuşdur. Oxunması ibadət olan bu ilahi kəlam bənzərsizdir. Onun bənzəri yazılmamışdır, yazıla bilməz.

Qur`ani-Kərim ümumbəşəridir. İlahi kitabların sonuncusudur. Qiyamətə qədər bəşəriyyətə yol göstərəcək yeganə ilahi kitabdır. Qur`ani-Kərim məhz Allah tərəfindən qorunmuşdur. Allah daha əvvəl endirdiyi ilahi kitabların hökmünü onunla ləğv etmişdir. Onsuz da Qur`andan əvvəl endirilən ilahi kitablar insanlar tərəfindən təhrif olunmuşdu. Əvvəlki ilahi kitabların təhrif olunması Qur`anda ifadə edilir. (Bəqərə, 2/85; Nisa, 4/46; Maidə, 5/13-14)

Qur`ani-Kərim özündən əvvəlki digər ilahi kitablardakı Allaha, peyğəmbərlərinə, kitablarına, mələklərinə, axirət gününə, hər şeyin Allahın təqdiri və yaratması ilə olduğuna iman etməyi, canın, malın, nəslin, ağlın və dinin qorunması kimi dinin əsaslarını yenidən bildirmiş, onlardakı doğruları təsdiq etmiş, təhrif edilən xüsusları isə düzəltmişdir.

Əsasən peyğəmbərlər tərəfindən insanlara təbliğ edilən dinin əsas prinsiplərində fərqlilik yoxdur. Lakin zaman və məkanın, sosial şərtlərin dəyişməsi ilə birlikdə ibadət formalarında vəbəzi hökmlərdə bəzi dəyişikliklər olmuşdur. Allah bir peyğəmbərin gətirdiyi dində olmayan bəzi hökmləri daha sonrakı bir peyğəmbərin dinində bildirmişdir. Əvvəlki peyğəmbərlərin gətirdiyi bəzi hökmləri sonradan göndərdiyi peyğəmbərlərlə ləğv etmişdir.

Qur`ani-Kərimin ehtiva etdiyi əsas hökmlər və prinsiplər qiyamətə qədər qüvvədədir. Bunlar zaman, məkan və digər şərtlərə bağlı olmadan daimidirlər. Hər bir əsr və cəmiyyətdəki müsəlmanlar üçün istiqamətvericidir və məcburi xarakter daşıyır.

### 1. Qur`ani-Kərimin nazil olması, yazılması, əzbərlənməsi və kitablaşdırılması

Qur`ani-Kərim vəhy yolu ilə son peyğəmbər həzrət Muhammədə (s.ə.s.) təqribən 23 il ərzində nazil olmuşdur. Heç bir ilahi kitaba nəsib olmayan böyük bir qayğı ilə qorunmuşdur. Həzrət Peyğəmbər bir çox vəhy katibi təyin etmiş, ayələr

nazil olduqca vəhy katiblərinə hansı ayə Qur`ani-Kərimin içində hansı surəyə yerləşdiriləcəksə o şəkildə təlimat verərək yazdırmışdır.

Hər bir ayə nazil olduqda vəhy katibləri onu həzrət Peyğəmbərdən dinləyərək yazmış, səhabələrdən bir çoxu da nazil olan ayələri əzbərləmişlər.

Daha sonra gələn hər nəsildə minlərlə müsəlman Qur`anı əzbərləməyi ənənə halına gətirmiş və bunu etina ilə davam etdirmişlər.

Nazil olan ayələr o dövrün yazı materialları ilə yazılır və bunlar xüsusi diqqətlə mühafizə edilirdi.

Həzrət Peyğəmbər həyatda ikən bu şəkildə yazılan Qur`ani-Kərim həzrət Əbu Bəkr dövründə vəhy katiblərindən və ən yaxşı hafizlərdən ibarət olan bir heyət tərəfindən həm yaddaşlara, həm də yazılı mətnlərə müraciət edilərək diqqətli bir şəkildə iki qapaq arasında toplanaraq müshəf halına gətirilmişdir.

Həzrət Əbu Bəkr dövründə iki qapaq arasında toplanan bu müshəf Həzrət Osman dövründə isə çoxaldılaraq o dövrün böyük İslam mərkəzlərinə göndərilmiş, biri isə Xəlifənin yanında saxlanmışdır.

**2. Surələr və ayələr**

Qur`ani-Kərim 114 surədən ibarətdir. Onların birincisi Fatihə, sonuncusu Nas surəsidir.

Surə lüğəvi mənada yüksək məqam, mövqe, şan, şərəf, əlamət, bir şeyi digərindən ayıran maneə kimi mənalara gəlir. Termin olaraq isə surə Qur`anın ən az üç ayədən ibarət olan və xüsusi bir adı olan bölmələrindən, yəni ayə qruplarından hər birinə verilən addır.

Ayə sözü lüğətdə əlamət, nişan, ibrət, möcüzə, açıq dəlil kimi mənalara gəlir. Termin olaraq isə surələrin içində yer alan əvvəli və sonu təyin edilmiş hərf, kəlmə, cümlə və cümlələr qrupuna deyilir. Ayələrin çoxu bir və ya bir neçə cümlədən meydana gəlir. Ancaq tək başına bir cümlə olmayan ayələr də var.

**3. Qur`ani-Kərimin möcüzə olması**

Qur`ani-Kərim son peyğəmbər həzrət Muhamməddin (s.ə.s.) ən böyük möcüzəsidir. O, şeir olmadığı kimi nəsr də deyil. Özünəməxsus üslubu olan ilahi bir nəzmdir. İlk xitab etdiyi cəmiyyətin dilini hər kəsin bilib anladığı sözlərlə elə gözəl bir şəkildə işlətmişdir ki, İslamın ən qatı düşmənləri belə onu dinləməkdən uzaq qala bilməmişlər.

Qur`ani-Kərim nazil olarkən ərəb ədəbiyyatı zirvədə idi. Qur`ani-Kərim o dövrün şairlərinə və ədiblərinə səslənərək belə meydan oxudu:

“Əgər qulumuza (Muhamməda) endirdiyimiz (Qur`an) barəsində şübhədəsinizsə, buyurun, onun bənzəri bir surə gətirin və əgər doğru söyləyənlərsinizsə, Allahdan başqa şahidlərinizi çağırın (və bunu isbat edin).” (Bəqərə, 2/23)

Qur`ani-Kərimin bu meydan oxuması qarşısında ən böyük ərəb şairləri və ədibləri aciz qalmışdırlar. Çünki o, Allah kəlamıdır, bənzərsizdir. Onun ecazkarlığına və bəlağətinə insan gücünün çatması mümkün deyil. Qur`anın bu meydan oxuması qiyamətə qədər davam edəcək.

Qur`ani-Kərimin bənzərsiz olduğunu göstərən bildiyimiz və bilmədiyimiz bir çox xüsusiyyəti var. Nazil olarkən gələcəkdə olacağını bildirdiyi bəzi hadisələrin xəbər verdiyi şəkildə gerçəkləşməsinin tarixi faktlarla üst-üstə düşməsi, bəşəriyyətin haqqında heç bir şey bilmədiyi bəzi mövzularda bilgilər verməsi, insanın yaradılması və bəzi kainat hadisələrinin meydana gəlməsi kimi bəzi elmi həqiqətlərə dair işarə və ifadələrinin elm tərəfindən təsdiq olunması onun Allahın kəlamı olduğunu və bənzərsiz olduğunu göstərir.

**B. Tərcümə və Məal**

Qur`ani-Kərimin dəvəti bütün insanlaradır. İnsana maddi, mənəvi, fərdi və ictimai hər sahədə rəhbərlik edir. Gətirdiyi fərd və cəmiyyət modelinin gerçəkləşməsi üçün prinsiplərinin həyata keçirilməsini, bunun üçün də oxunub dərk edilməyi təkidlə istəyir. Qur`anı oxumağa təşviqin əsas məqsədi insanların ilahi kəlam ilə olan münasibətlərini davamlı və şüurlu hala gətirməkdir. Namazda Qur`andan müəyyən miqdar oxumağın fərz olması da bu məqsədə xidmət edir.

Qur`anın “doğru yola yönəltmə” hədəfinin gerçəkləşməsi üçün onun ərəbdilli olmayan cəmiyyətlər tərəfindən də başa düşülməsini təmin etmək lazımdır. Bunun ən praktik yolu isə ya Qur`anın mövzularını müəyyən başlıqlar altında təqdim edən sistematik kitablar yazmaq, ya da Qur`anı digər dillərə tərcümə və təfsir etməkdir. Keçmişdən bəri əsasən birinci yola yəni kitab yazmaq metoduna müraciət olunmuşdur. Çünki bu yol həm Qur`anın gətirdiyi nizam haqqında insanları maarifləndirmək baxımından daha əlverişli, həm də hər səviyyədən insanın lazımi məlumatları asanlıqla əldə edəcəyi praktik bir yoldur. Bununla yanaşı Qur`anın ehtiva etdiyi mövzularla oxucunun bir-bir qarşılaşması baxımından tərcümə çox mühümdür. İlki dəfə hicri IV əsrdə Fars dilinə tərcümə olunan Qur`anın hal-hazırda müxtəlif dillərdə bir çox tərcüməsi var.

**1. Tərcümə**

Tərcümə bir sözün mənasını başqa bir dildə müvafiq bir sözlə ifadə etməkdir. Halbuki bir dildən başqa bir dilə tərcümə edərkən ifadə və mətnlərin mənalarını və incəliklərini tam şəkildə tərcümə etmək mümkün olmur. Çünki istər dillərin imkan, struktur və ədəbi incəlikləri baxımından bir-biri ilə eyni olmaması, istərsə də tərcüməçinin bacarığının yetəri qədər olmaması mükəmməl bir tərcümənin ərsəyə gəlməsini kifayət qədər çətinləşdirir. Bu çətinlik tərcümə olunan mətnin xarakteri və ədəbi üslubunun üstünlüyü nisbətincə daha da artır. Bu səbəblə tərcümə edilən mətnin sözlərindən və mənalarından ya da hər ikisindən bəzi nüansları fəda etmək qaçılmaz olur. Çünki tərcüməçi və tərcümə dilinin məhdudluğundan yaranan maneələr olmasa belə dillərin və o dillərdə danışan insanların özlərinə xas ifadə formaları və üslubları, duyğu və həyəcanları var ki, bunların başqa dillərdə eyni ilə ifadə olunması mümkün deyil.

Bu baxımdan Qur`ani-Kərim kimi möcüzəvi bir kəlamın başqa bir dilə eyni ilə tərcümə olunması mümkün deyil. Beləliklə, bir Qur`ani-Kərim tərcüməsi nə qədər mükəmməl olursa olsun, yenə də orijinalı baxımından nöqsanlıdır.

**2. Məal**

Məal bir şeyin məğzi, xülasəsi və varacağı nəticə deməkdir Qur`ani-Kərimin heç bir dilə tam bir tərcüməsi mümkün olmadığı üçün onun tərcümələrinə məal deyilir. Yəni məal Qur`an nəzminin nöqsansız bir tərcüməsi deyil, nəticə etibarı ilə tərcüməçinin Qur`an nəzmindən anladığı şeydir. Nə qədər mükəmməl olursa olsun, heç bir məal Qur`an hökmündə deyil. Ona görə də məallar insanlara Qur`anın özü kimi təsir göstərə bilmir.

İlk xitab etdiyi cəmiyyətin danışdığı dilin kəlmələrindən seçilərək heç bir bəşərin gücünün yetməyəcəyi bir ahənglə düzülüb ən gözəl tərənnümlərlə ərsəyə gələn Qur`an nəzminin o insanlara xitab edərkən yaratdığı zehni və hissi əlaqəni məallar əsa yarada bilmir. Belə bir təsir gücünə sahib olmaması bir tərəfə, ümumiyyətlə məallarla ayələrin əhatə etdiyi mənaları düzgün bir şəkildə nəql etmək belə mümkün deyil. Çünki bəzən bir ayəyə hər biri doğru olan bir çox məal vermək mümkündür. Üstəlik Qur`an nəzmində müxtəlif mənalara gələ bilən çox söz var.

Bu mənaların hamısı məalda ifadə ediləsi olduqda, məal təfsirə çevrilir. İfadə edilmədikdə isə məal ayələrin və ayələrdə keçən bəzi kəlmə və məfhumların mənlarını daraltmış olur. Həmçinin məallarda Qur`ani-Kərimin möcüzəviliyi, ədəbi gözəlliyi, səs və üslub xüsusiyyətləri və bəlağəti əks etdirilə bilmir. Buna görə də

ruhları coşduran, ağlı və düşüncəni fəth edən, qəlbləri təsiri altına salan Qur`anın təsirli və canlı üslubu məallarda öz yerini quru bir mətnə buraxır.

Bu səbəblə də Qur`an mesajının insanların zehinlərinə və qəlblərinə təsirli bir şəkildə çatdırılması ancaq mötəbər təfsirlərlə mümkün ola bilər. Çünki ayələrin ehtiva etdiyi bütün mənalar məallara sığmaz. Ona görə də Qur`anı düzgün və daha yaxşı anlamaq istəyənlərin ya Ərəb dilini yaxşı öyrənib təfsir metodologiyasını bilmələri, ya da mötəbər təfsirlərdən istifadə etmələri lazımdır.

Şübhəsiz ki, Qur`ani-Kərim açıq və aydın bir kitabdır. Onun ayələrindən bulaqdan suyun fışqırdığı kimi mənalar fışqırır. Tərcüməçi ondan bir məna anlayar və onu tərcümə edər, lakin onun anladığı mənadan başqa mənalar da ayələrdə özünü büruzə verməyə davam edər. Başqa bir ifadə ilə məallar Qur`an ayələrindən bir və ya iki mənanı çatdırsa da, ayələrdən başa düşülə biləcək daha bir çox mənalar isə qalır. Bu səbəblə oxucu Qur`anı məallarla ölçməməlidir. Qur`an bu məallardan ibarət deyil. Mallar diqqətli və düzgün bir şəkildə edilsə belə Qur`anın mənalarından yalnız bir hissəsini çatdıra bilər. Ayələrin əhatə etdiyi etiqadi, elmi, hüquqi, ictimai, əxlaqi, tarixi və s. neçə-neçə hikmət dolu hökmlərin doğru bir şəkildə dərk edilməsi isə mötəbər təfsirlərə ehtiyac duyur.

Bir məal nə qədər mükəmməl olursa olsun, Qur`an deyil. Bu səbəblə təfsirlərə müfəssirlərin görüşlərinin qarışdığını söyləyərək "təfsirləri kənara qoyub Qur`ani-Kərimi birbaşa məallarından anlamaq lazımdır" şəklindəki iddialar həqiqəti əks etdirmir. Çünki məallar tərcüməçinin Qur`andan anlaya bildiyi bəzi şeyləri çatdırsa da, Qur`anın mesajını haqqı ilə bəyan edə bilməz.

Bu dediklərimizdən Qur`an məallarının lazımsız olduğu ilə bağlı bir nəticə çıxarılmamalıdır. Bütün bu deyilənlər məalların Qur`ani-Kərimin yerinə qoyula bilməyəcəyini ifadə etmək üçündür. Yoxsa əksinə, Qur`ani-Kərimdən faydalanmaq üçün, əlbəttə, məallara ehtiyac var.

Allah tərəfindən son peyğəmbər həzrət Muhammədə (s.ə.s.) ilk xitab etdiyi cəmiyyətin dili olan Ərəbcə ilə nazil olan Qur`ani-Kərimin mesajını öyrənmək, hər müsəlmanın haqqı və vəzifəsidir. Ərəbcə bilməyənlər üçün Qur`ani-Kərim keçmişdən bəri bir çox dilə tərcümə edilmişdir.

Türklər də müsəlman olduqları dövrlərdən etibarən Qur`anı anlamaq üçün tərcümələr ediblər. İlk tərcümələr sözbəsöz (sətir arası) edilən tərcümələrdir. İlk Türkcə tərcümə isə Uyğurcaya tərcümədir. Məal və təfsir fəaliyyətləri Cümhuriyyət dövründə daha da sürətlənmişdir.

Uca Rəbbimizin bütün bəşəriyyətə son kitabı və əbədi xitabı olan Qur`ani-Kərim sadəcə ərəblər və Ərəb dilini bilənlər üçün deyil, bütün insanları zəlalətdən qorumaq, onlara haqqı və həqiqəti öyrətmək, hidayət və əsl səadət yolunu göstərmək üçün endirilmişdir. Bunun gerçəkləşə bilməsi üçün də Qur`ani-Kərimin bildirdiyi ilahi həqiqət və öyüdlərin bütün bəşəriyyətə təbliğ edilməsi, hər kəs tərəfindən öyrənilməsi, başa düşülməsi, barəsində düşünülməsi, dərk edilməsi və qəlblərə yerləşməsi lazımdır.

**C. Qur`an oxumaq**

Müsəlmanlar əvvəldən bəri Qur`ani-Kərimi lazımi şəkildə oxumaq, anlamaq və həyata keçirmək üçün böyük səy göstərmişlər. Bu səylər nəticəsində Qur`anı oxumaqla bağlı olan qiraət elmləri, anlamaqla da bağlı olan təfsir və təfsirlə əlaqəli elmlər meydana gəlmişdir.

Bu fəaliyyətlər əsrlərdən bəri davam edən Qur`an elmlərinə və təfsirə dair daha sonrakı çalışmalara işıq tutmuş və bünövrə rolunu oynamışdır. Bundan sonra da eyni funksiyanı yerinə yetirməyə davam edəcək. Gün keçdikcə Qur`ani-Kərim yeni-yeni işarələr və mesajlar verməyə və daha neçə-neçə həqiqətləri əks etdirməyə davam edəcək.

Qur`anı oxuyarkən bu xüsuslara diqqət edilməlidir:

Qur`ani-Kərimdə ayrı-ayrılıqda başa düşülə bilən çox ayə olmaqla yanaşı bəzi ayələrin mütləq Qur`anın bütünlüyü içində ələ alınması lazımdır. Bir-birini açıqlayan ayələr birlikdə dəyərləndirilmədiyi təqdirdə yanlış və əskik mənalar hasil ola bilər. Bu səbəblə də bir-biri ilə əlaqəli olan ayələr mütləq birlikdə dəyərləndirilməlidir.

İkini olaraq həzrət Peyğəmbərin Qur`anı necə anladığına və necə həyata keçirdiyinə baxmaq lazımdır. Hər hansı bir əyə haqqında ondan səhih bir açıqlama gəlibdirsə, ayə hər şeydən əvvəl bu istiqamətdə başa düşülməlidir. Ayələrə Rəsulullahın anladığına və açıqladığına zidd olan izahlar verilə bilməz. Qur`an-Sünnə bütünlüyü baxımından bu son dərəcə vacibdir. Bəzi ayələrin düzgün başa düşülməsi ancaq həzrət Peyğəmbərin təfsir və tətbiqatları ilə mümkün ola bilər.

Qur`ani-Kərimi doğru və gözəl bir şəkildə anlayıb təfsir edə bilmək üçün İslamın ilk üç nəslinin anlayış və açıqlamalarını da diqqətə almaq lazımdır. Çünki ilk nəsil (Səhabə) Qur`anın nüzuluna və həzrət Peyğəmbərin onu anlayıb həyata keçirməsinə şahid olan nəsildir. İkinci nəsil (Tabiun) isə bu ilk nəsillə iç-içə yaşa-

yan və Rəsulullahın Qur`anı necə anlayıb təfsir etdiyini və necə həyata keçirdiyini onlardan nəql edən nəsildir. Üçüncü nəsil olan Təbei-Tabiin isə ikinci nəslin tələbələridir.

Bu üç nəsil ayələrin nüzul səbəblərini bildikləri üçün ayələrin əsas məzmununu da çox yaxşı anlayırdılar. Ayələrin düzgün başa düşülməsində nüzul səbəblərinin diqqətə alınması isə son dərəcə mühümdür.

Bunlardan əlavə olaraq Ərəb dilini çox yaxşı bilən mötəbər dil alimlərinin fikirlərinə müraciət olunur. Qur`ani-Kərim ayələrinin düzgün başa düşülməsi üçün tətbiq olunan və bütün elm adamları tərəfindən qəbul edilən əsas metod budur. Qur`anın doğru və gözəl bir şəkildə başa düşülməsi üçün bu üsulu tətbiq etmək lazımdır. Əks təqdirdə bəzi yanlış və əskik mənalardan qurtulmaq mümkün olmaz. Bunun üçün də məallarla yanaşı mötəbər təfsirlərə də ehtiyac var.

Məlum olduğu kimi İslamın ana qaynağı Qur`andır. Bu ana qaynaq həzrət Peyğəmbərin sünnəsinin də dinin qaynağı olduğunu bildirir. Ancaq burada mühüm olan məsələ Sünnənin bizə səhih olaraq gəlib çatmasıdır. Bu nöqteyi-nəzərdən həzrət Peyğəmbərin sünnəsi Qur`andan sonra İslam dininin ikinci qaynağıdır. Bundan sonra ümmətin icması və elm adamlarının ictihadları gəlir. Beləliklə, hər hansı bir mövzuda "İslamda bu belədir" deyə hökm verə bilmək üçün müəyyən ölçüdə elmi səviyyəyə sahib olmaq və dini hökmlər barəsində tətbiq olunan üsulu bilmək lazımdır. Bu səbəblə də belə bir elmi səviyyəyə sahib olmayanlar yalnız Qur`ani-Kərimin məallarına baxaraq dini hökmlər çıxarmağa cəhd göstərməməlidirlər.

Qur`ani-Kərim oxumaq Qur`an tilavəti olaraq da ifadə edilir. Qur`an tilavətinin özünə xas üsulu və ədəbi var. Qur`ani-Kərim xüşu içində, tək-tək, kəlmələrin və hərflərin haqqını verərək, düşünüb onun mesajını qavramağa çalışaraq və təcvid qaydalarına uyğun olaraq oxunur. Qur`ani-Kərimin bu şəkildə oxunması məhz Qur`ani-Kərimin əmridir. Bu prinsip çərçivəsində müsəlmanlar Qur`ani-Kərimin qiraətini həzrət Peyğəmbərdən eşitdikləri kimi oxumuş və bu oxunuş tərzini əmanət olaraq nəsildən-nəslə xüsusi diqqətlə nəql etmişdirlər.

Qur`an-Kərimi oxuyan biri onu oxuyarkən son dərəcə ixlaslı olmalı, onun Allah kəlamı olduğunu dərk edərək bütün mənliyi ilə ona yönəlib zehnini başqa düşüncələrdən təmizləməlidir. Qur`anın birbaşa özünə xitab etdiyini düşünərək oxuduğu ayələrdən təsirlənməlidir.

Namazda Qur`anın orijinal nəzminin xaricində tərcüməsi və ya məalı oxunmaz. Çünki yuxarıda da bildirildiyi kimi Qur`anın heç bir məalı Qur`an deyil.

Çünki nazil olduğu ləfzlərin xaricində Ərəbcə olsa belə, başqa sözlərlə ifadə edilən məna Allahın kəlamı deyil, tərcüməçinin ondan anladığıdır. Halbuki, Qur`anın möcüzəviliyi sadəcə mənada deyil. Bu möcüzəvilik xüsusiyyəti Qur`anın ləfzlərində də mövcuddur. Buna görə də Qur`ani-Kərim namazda ancaq orijinal ləfzləri ilə oxunur. Müxtəlif dillərdə danışan bütün müsəlmanların gündəlik ibadətləri olan namazda ortaq bir xüsusiyyət olaraq Qur`anı orijinal şəkli ilə oxumaları, ümumbəşəri bir din olan İslam dininin möminlər arasında meydana çıxardığı ibadət birliyinin bir təzahürü olaraq özünü göstərir.

Bununla birlikdə bir müsəlmanın ən azından namazda oxuduğu ayə və surələrin mənalarını öyrənməyə və bunları anlayaraq və eşidərək oxumağa çalışması məhz Qur`anın istədiyi bir xüsusdur.

Qur`an məalları bilavasitə Qur`an olmamaqla yanaşı Qur`anın mövzularını əks etdirdiyi üçün onları insan sözü olan digər mətnlərlə eyni görməmək lazımdır. Buna görə də Qur`anın tərcümə və məallarına da lazımi ehtiram göstərilməlidir. Çünki Qur`anın əslini oxumaq bir ibadət və qulluq olduğu kimi, məalını oxumaq da savab qazandıran bir işdir.

**Əlinizdəki Məal**

Qur`ani-Kərimi oxumaq, anlamağa çalışmaq və onun nurundan faydalanmaq hər səmimi müsəlmanın ən böyük arzusudur. Bundan əlavə, Qur`anın dəvət və mesajının bütün bəşəriyyətə düzgün bir şəkildə çatdırılması bu işin əhli olan müsəlmanların vəzifəsidir.

Digər bir tərəfdən, Qur`ani-Kərimin müəyyən bir səviyyəyə qədər başa düşülməsi üçün ölkəmizdə, xüsusilə, XX əsrin ikinci yarısından etibarən məallara qarşı maraq və tələb artımışdır. Bu maraq və tələb bir çox məalın ərsəyə gəlməsinə səbəb olmuşdur. Bunların arasında lazımi diqqət göstərilərək hazırlananların faiz nisbətinin aşağı olduğunu qeyd etmək yanlış olmaz. Bəlkə də bu səbəbdən xalqımız haqlı olaraq, yuxarıda qeyd etdiyimiz tələbin Diyanət İşləri Başkanlığı tərəfindən qarşılanmasını arzu etməkdədir.

1930-cu illərdə Elmalılı Muhammməd Hamdi Yazırın “Hak Dini Kur`an Dili” adlı dəyərli əsərini nəşr edərək çox mühüm bir xidməti yerinə yetirən Diyanət İşləri Başqanlığı daha sonra ilk tirajı 1961-ci ildə nəşr olunan “Kur`an-ı Kerim ve Türkçe Anlamı (Meal)” adlı Qur`an məalını nəşr etmişdir. Bir çox dəfə nəşr olunan bu məal 1990-cı illərə qədər Başqanlığın məalı olaraq xidmət etmişdir. Başqanlıq tərəfindən bu məalın nəşrini davam etdirmə imkanı qalmadıqda Diyanət İşləri Başqan-

lığı xalqdan gələn tələbi də nəzərə alaraq yeni bir məal hazırlamağa qərər vermişdir. Din İşləri Yüksək Kurulu tərəfindən hazırlanan əlinizdəki məal Başqanlıq tərəfindənmühüm bir vəzifəni yerinə yetirmək və xalqın bu sahədəki tələbinə cavab verə bilmək ümidi və düşüncəsi ilə meydana gətirilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Başqanlıq bu vəzifəni yerinə yetirməyə çalışarkən daha əvvəl də dəfələrlə bildirildiyi kimi Qur`ani-Kərimin heç bir dilə tam mənası ilə tərcüməsinin mümkün olmayacağı düşüncəsini dərk edərək bu əsəri meydana gətirmişdir.

Əlinizdəki məal mümkün olduğu qədər sadə bir dildə qələmə alınmağa çalışılmışdır. Bəzi ayələrin məalları verilərkən ayələrin daha aydın başa düşülməsi üçün başqa əlaqəli ayələrə istinadlar verilmişdir.

Qur`anda bir çox yerdə keçən feil, termin və isimlərin məallarında birliyi təmin etmək üçün zərurət olmadıqca eyni şəkildə tərcümələr verilməsinə diqqət göstərilmişdir.

Bəzi ayələrə istinadlarda qısa açıqlamalar verilmişdir.

Məlum olduğu kimi bir çox yerdə Qur`ani-Kərimin qısa və yığcam bir ifadə tərzi var. Bu ifadə tərzində sözün uzadılmaması üçün bəzi məqamlar qeyd olunmadan keçilir. Ərəb dilini bilənlər sözün axışından qeyd olunmayan məqamları da anlamaqda çətinlik çəkməzlər. Ayələrin məalı verilərkən bu kimi məqamlar mötərizə içərisində qısa açıqlamalarla verilməyə çalışılmış, ancaq mötərizələrin cümlələrin axıcılığına mane olmayacaq şəkildə olmasına diqqət göstərilmişdir.

Diyanət İşləri Başqanlığının İslam dininin birinci qaynağı olan Qur`ani-Kərimin mənalarının düzgün başa düşülməsi və çatdırılması istiqamətindəki fəaliyyətləri davam edir və davam edəcək. Məal barəsindəki fəaliyyətləri də əlinizdəki bu məalla sona çatmış deyil. Bu məalın daha yaxşı hala gətirilməsi üçün çalışmalar davam edərkən elm adamlarının tənqid və tövsiyyələri şübhəsiz ki, bu məalın təkmilləşməsinə böyük töhfə verəcəkdir.

Məalın Qur`ani-Kərimin düzgün anlaşılmasına töhfə verməsini arzu edirik.

Diyanət İşləri Başqanlığı

Həmd olsun Allaha - aləmlərin Rəbbinə! Gözəl aqibət müttəqilərindir. Ancaq zalimləri zülm gözləyir. Rəsulumuz Muhəmmədə, onun əhli-beytinə və bütün səhabələrinə səlat və salam olsun!

Ey Rəbbimiz, (bu Qur'anın xətmini) bizdən qəbul et, Sən (hər şeyi) eşidənsən, bilənsən. Ey ixtiyar sahibimiz, tövbələrimizi qəbul elə, çünki Sən tövbələri qəbul edənsən, rəhmlisən.

Əzəmətli Qur'anın bərəkəti və aləmlərə rəhmət olaraq göndərdiyin kimsənin xatirinə bizə hidayət et, bizləri haqqa və doğru yola müvəffəq elə. Ey kərəm sahibi, bizi bağışla. Ey rəhmli olan, bizi əfv et. Lütfün və kəræminlə günahlarımızı bağışla, ey ən böyük kərəm sahibi!

Allahım! Bizi Qur'anın zinəti ilə zinətləndir, Qur'anın kəraməti ilə kəramətləndir, Qur'anın şərafəti ilə şərafətləndir, bizi Qur'anın libasına bürü, bizi Qur'anın şəfaəti ilə Cənnətə daxil elə!

Allahım! Qur'anın hörməti xatirinə bizi hər cür dünya və axirət bəlasından qoru. Ey rəhmlilər rəhmlisi, bütün Muhəmməd ümmətinə rəhm et!

Allahım! Lütfün, səxavətin və kəramətinlə Qur'anı bizə dünyada dost, qəbirdə munis, qiyamətdə şəfaətçi, sirat (qıl) körpüsü üzərində nur, Cənnətdə yoldaş, Cəhənnəmdə örtü və pərdə, bütün ne'mətlərə yolgöstərən və rəhbər elə!

Allahım! Ey lütf və ehsan sahibi, Sən Qur'anın hidayəti ilə bizi doğru yola yönəlt, Qur'anın kəraməti ilə bizi oddan-alovdan qoru, Qur'anın fəziləti ilə dərəcələrimizi ucalt, Qur'anı oxumaqla günahlarımızın üstünü ört!

Allahım! Əzəmətli Qur'anın hörmətinə qəlblərimizi pak elə, eyblərimizi gizlət, xəstələrimizə şəfa ver, borclarımızı yox elə, üzümüzü ağ elə, dərəcələrimizi ucalt, atalarımıza rəhm et, analarımızı bağışla, dinimizi və dünyamızı islah et, düşmənlərimizi zəiflət, pərən-pərən sal, ailəmizi, malımızı, ölkəmizi hər cür müsibətdən, xəstəlikdən və bəladan qoru, bizə qüvvət ver, bizi sabitqədəm elə, kafirlər üzərində bizə qələbə çaldır!

Allahım! Bu Qur'andan oxuduğumuzun savabını, tilavət etdiyimizin nurunu ağamız Muhəmmədin (ona Allahın səlatı və salamı olsun!), onun qardaşları olan bütün peyğəmbərlərin və rəsulların (onların hamısına Allahın səlatı və salamı olsun!) ruhlarına, onun əhli-beytinə, ailəsinin, övladlarının, xanımlarının, səhabəsinin, tabiininin və bütün nəslinin (Allah onların hamısından razı olsun!), həmçinin

bizim ata-analarımızın, qardaş-bacılarımızın, ustadlarımızın, şeyxlərimizin, boynumuzda haqqı olanların - istər diri, istər ölü olsun - bütün mö'min kişi və qadınların, müsəlman kişi və qadınların ruhuna yetir!

Ey ehtiyacları yox edən, ey duaları qəbul edən, ey rəhmlilər rəhmlisi, Öz mərhəmətinlə dualarımızı qəbul elə!

Peyğəmbərlərə salam olsun!

Aləmlərin Rəbbi Allaha həmd olsun!

Fatihə!

## MƏALIN AZƏRBAYCAN TÜRKCƏSINƏ TƏRCÜMƏSI HAQQINDA BIR NEÇƏ SÖZ

Bəşəriyyəti doğru yola yönəltmək üçün göndərilən Qur`ani-Kərim 23 il ərzində həzrət Peyğəmbərə hissə-hissə nazil olmuşdur. Peyğəmbər onu insanlara təbliğ etmiş, sosial və dini həyat onun prinsipləri əsasında formalaşmışdır. Qur`an ilk dövrlərdən etibarən İslam cəmiyyətində dinin ən üst qaynağı olaraq qəbul olunmuşdur. Xüsusilə, Peyğəmbərin yaxın çevrəsi Qur`anın ruhuna yaxından bələd idi. Onlar ayələrin nə zaman, harada və nə haqqında nazil olduğunu, şəxs və ya qəbilə adı çəkilməyən ayələrlə kimlərin və nələrin nəzərdə tutulduğunu çətinlik çəkmədən anlayırdılar. Həzrət Peyğəmbərin vəfatından sonra zaman keçdikcə sosial şərtlər dəyişmiş, İslam torpaqları genişlənmiş və ərəbdilli olmayan neçə-neçə millət İslam dinini qəbul etmişdir. Bunlara paralel olaraq bir tərəfdən Qur`ani-Kərimin incəliklərini meydana çıxarmaq üçün çox sayda təfsir əsərləri qələmə alınmış, digər tərəfdən Qur`anın digər dillərə tərcüməsi məsələsi gündəmə gəlmişdir. Uzun müddət İslam alimləri Qur`ani-Kərimin tərcüməsi məsələsinə birmənalı baxmamış, hətta bəzi alimlər onun tərcüməsinin caiz olmadığına hökm vermişlər. Bu yanaşma Qur`anın dərin mənalara və incəliklərə sahib olduğu və tərcümələrin Qur`an haqqında yanlış təsəvvür oyadacağı fikri ilə əsaslandırılmışdır. Ancaq buna baxmayaraq Qur`ani-Kərimin tərcüməsinə duyulan ehtiyac zaman keçdikcə daha da artmış, indiyə qədər dünyanın əksər dillərinə tərcümə olunmuşdur. Xüsusilə bilinməlidir ki, heç bir tərcümə Qur`anın ecazkarlığına yetişə bilməz. Ərəb ədəbiyyatının zirvədə olduğu bir əsrdə nazil olan Qur`an öz bənzərsiz üslubu və ecazkarlığı ilə ədiblərə, şairlərə meydan oxumuşdur. Qur`ani-Kərim dərin məna çalarları və yüksək ədəbi üslubu ilə onu tərcümə edənləri hər dövrdə çətin bir sınaqla qarşı-qarşı qoymuş və onları öz ədəbi xüsusiyyətləri qarşısında təvəzökarlığa məcbur etmişdir.

Qur`an tərcümələri ilə bağlı ən mühüm məqamlardan biri də odur ki, heç bir tərcümə Qur`an ayələrindəki incə məna çalarlarını oxucuya tam olaraq çatdıra bilmir. Ona görə də Qur`anın ədəbi üstünlüyünü qəbul edən heç bir tərcüməçi belə bir iddia ilə çıxış etmir. Tərcümələrdə əsasən Qur`an ayələrinin ümumi mənasını düzgün bir şəkildə çatdırmaq hədəf olaraq qarşıya qoyulur. Eyni zamanda Qur`an tərcümələri onu tərcümə edənlərin Qur`anla bağlı təsəvvürünü və onu necə anladıqlarını göstərir. Bu baxımdan eyni kitabın tərcümələri olmasına baxmayaraq bütün tərcümələr üslub və yanaşma baxımından bir-birindən fərqlənir.

Qur`an tərcümələrində əsasən iki metoddan istifadə olunur: Ləfzi tərcümə və mənəvi tərcümə. Ləfzi tərcümədə tərcüməçi Qur`an ayələrindəki sözləri tərcümə etdiyi dildəki ən yaxın sözlərlə ifadə edir və ümumi olaraq orijinal mətndən kənara çıxmamağa, mətndə olmayan əlavə söz və cümlələrə yer verməməyə çalışır. Mənəvi

tərcümədə isə tərcüməçi Qur`an ayələrindən anladığı ümumi mənanı verməyə çalışır. Bunu edərkən mənanı oxucuya çatdırmaq üçün bəzən mətndə olmayan söz və ifadələrdən istifadə edir, bəzən də mətndə keçən söz və ifadələri bir-bir qeyd etmədən ümumi olaraq tərcümə edir. Ləfzi tərcümənin müsbət cəhəti ondan ibarətdir ki, tərcüməçi burada öz anlayışını oxucuya birbaşa çatdırmaq əvəzinə maksimum dərəcədə oxucunu mətnlə üz-üzə gətirib mətnin oxucu tərəfindən başa düşülməsinə və lazım gəldikdə araşdırmasına, başqa mənbələrə baxmasına imkan yaradır. Ləfzi tərcümənin mənfi cəhəti isə ondan ibarətdir ki, ləfzi tərcümə səbəbilə bəzən anlaşılmaz məqamlar yaranır. Bəzi yerlədə oxucu ilk baxışda ayənin tərcüməsindən nə nəzərdə tutulduğunu anlamaqda çətinlik çəkir. Çünki Qur`anda bəzi ifadə formaları var ki, onları hərfi tərcümə etmək mümkün deyil.

Qur`ani-Kərim dünyanın bir çox dillərinə birbaşa tərcümə olunsa da hər hansı bir məalın başqa bir dilə tərcüməsi təcrübəsi də mövcuddur. Misal üçün, Muhamməd Əsədin İngilis dilində qələmə aldığı "Qur`an mesajı" adlı izahlı məalı Türk dili başda olmaqla bir çox dilə tərcümə olunub. Həmçinin bundan əvvəl başqa bir dildə qələmə alınan məallardan Azərbaycan dilinə tərcümə olunanlar da olmuşdur.

Əlinizdəki məalın Azərbaycan türkcəsinə uyğunlaşdırılması işinə başlarkən qarşımızda duran ən mühüm vəzifələrdən biri Türkcə tərcüməsində keçən mənalara, həmçinin Qur`ani-Kərim ayələrindən çıxan ümumi mənalara xələl gətirmədən məalı Azərbaycan türkcəsinə uyğunlaşdırmaq idi. Çətinlik yaradan ayələri tərcümə edərkən həm Qur`anın ərəbcə orijinalı, həm də məal arasında ən optimal seçimi etmək məcburiyyətində idik. Bəzən Türkcə ifadələrin tərcüməsi çətinlik yaratdığı təqdirdə Qur`anın orijinalını əsas tutaraq ona uyğun məna verməyə çalışdıq. Təbii ki, çox vaxt Qur`an ayələrinə məna vermək üçün təfsir mənbələrinə müraciət etmək qaçılmaz olur. Buna görə də bir çox sözlərin və ayələrin mənalarını verərkən mötəbər təfsir mənbələrinə müraciət etməli olduq. Tərcümə edərkən Türkcə məala və onun ifadə üslubuna maksimum dərəcədə sadiq qalmağa çalışdıq. Bəzi ayələrin və ifadələrin tərcüməsini və ifadə üslubunu tam olaraq mənimsəməsək də, nəticə etibarı ilə məaldakı mənanı və üslubu olduğu kimi saxlamağa çalışdıq.

Son olaraq bir daha qeyd etmək istəyirik ki, heç bir tərcümə ecazkarlıq və məna çalarları baxımından Qur`ani-Kərimin yerini tuta bilməz. Bu anlayışla əlinizdəki məalın Azərbaycan oxucusu üçün xeyirli olmasını diləyir, dəyərli oxucuların tənqid və tövsiyələrinin məalın təkmilləşməsinə töhfə verəcəyinə inanırıq.

Dr. Kövsər TAĞIYEV